Azərbaycan Respublikası
Xarici İşlər Nazirliyi

AZƏRBAYCANIN XARİCİ SİYASƏTİ

Sənədlər məcmuəsi

2010

II hissə

- 18110 -

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı
2013

Redaksiya kollegiyasının sədri:

Elmar Məmmədyarov - *Xarici işlər naziri*

Redaksiya kollegiyasının üzvləri:

Əzimov Araz - *Nazir müavini*
Hüseynov Nadir - *Nazir müavini*
Xələfov Xələf - *Nazir müavini*
Məmməd-Quliyev Mahmud - *Nazir müavini*
Paşayev Hafiz - *Nazir müavini*
Əliyev Famil - *Tarix-Arxiv idarəsinin rəisi*
Həsənov Ramin - *Beynəlxalq Hüquq və Müqavilələr idarəsinin rəis müavini*
Abutalıbov Vasif - *Tarix-Arxiv idarəsinin I katibi*
Əhmədov Ruslan - *Tarix-Arxiv idarəsinin II katibi*

Azərbaycanın xarici siyasəti: Sənədlər məcmuəsi. 2010. İkinci hissə.
Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi.
Bakı, "Cool Print" MMC, 2013-cü il. - 608 səh.

9 789952 455410

ISBN 978-9952-455-41-0

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi "Azərbaycanın xarici siyasəti" adlı sənədlər məcmuəsinin silsilə nəşrini davam edir. Məcmuənin növbəti buraxılışı 2010-cu ildə Azərbaycan diplomatiyası və xarici siyasətinin ən vacib sənədlərini əhatə edir.

Məcmuənin ikinci hissəsini "Azərbaycan Respublikasının qanunvericilik toplusu"nda, "Azərbaycan Respublikası Milli Məclisinin Məlumatı"nda, "Azərbaycan Respublikasının normativ aktlarının bülleteni"ndə və digər mənbələrdə nəşr edilmiş xarici siyasətə dair Azərbaycan Respublikasının normativ hüquqi aktları təşkil edir. Onların bir nəşrdə cəmləşdirilməsi Azərbaycanın bu dövrdəki xarici siyasətini daha dolğun göstərməyə imkan verir.

Məcmuənin ərsəyə gəlməsindəki köməkliyinə görə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin bütün kollektivinə minnətdarlığımızı bildiririk.

Bir sıra materiallar ilk dəfə olaraq təqdim edilir. Sənədlər xronoloji ardıcıllıqla nəşr edilmişdir.

Məcmuə beynəlxalq münasibətlər sahəsində praktiki və elmi işçilər, həmçinin diplomatiya, xarici siyasət və beynəlxalq hüquq tarixi ilə maraqlanan şəxslər üçün faydalı ola bilər.

© Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi

T.İ.Əliyevin Azərbaycan Respublikasının Fransa Respublikasında və Monako Knyazlığında fövqəladə və səlahiyyətli səfiri vəzifələrindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Tarik İsmayıl oğlu Əliyev Azərbaycan Respublikasının Fransa Respublikasında və Monako Knyazlığında fövqəladə və səlahiyyətli səfiri vəzifələrindən geri çağırılsın.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 yanvar 2010-cu il

№ 675

E.O.Əmirbəyovun Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasında, Lixtenşteyn Knyazlığında fövqəladə və səlahiyyətli səfiri və BMT-nin Cenevrə şəhərindəki bölməsində və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Elçin Oktyabr oğlu Əmirbəyov Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasında, Lixtenşteyn Knyazlığında fövqəladə və səlahiyyətli səfiri və BMT-nin Cenevrə şəhərindəki bölməsində və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılsın.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 yanvar 2010-cu il

№ 676

E.O.Əmirbəyovun Azərbaycan Respublikasının Fransa Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Elçin Oktyabr oğlu Əmirbəyov Azərbaycan Respublikasının Fransa Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 yanvar 2010-cu il

№ 677

M.N.Nəcəfbəyliyə fövqəladə və səlahiyyətli səfir diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.1-ci maddəsini rəhbər tutaraq qərara alıram:

Murad Nizami oğlu Nəcəfbəyliyə fövqəladə və səlahiyyətli səfir diplomatik rütbəsi verilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 yanvar 2010-cu il

№ 678

M.N.Nəcəfbəylinin Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Murad Nizami oğlu Nəcəfbəyli Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 yanvar 2010-cu il

№ 679

Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyasının Sankt-Peterburq Hökuməti arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyasının Sankt-Peterburq Hökuməti arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi aşağıdakı heyətdə təsdiq edilsin:[1]

Komissiyanın sədri

Yaqub Eyyubov - Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

Komissiyanın üzvləri:[1]

Natiq Əliyev - Azərbaycan Respublikasının sənaye və energetika naziri

Abbas Ələsgərov - Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri

Xələf Xələfov - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Musa Pənahov - Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini

Niyazi Səfərov - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini

Sevda Məmmədəliyeva - Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini

Qulu Novruzov - Azərbaycan Respublikası təhsil nazirinin müavini

Elsevər Ağayev - Azərbaycan Respublikası səhiyyə nazirinin müavini

İntiqam Babayev - Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini

Arif Həşimov - Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının birinci vitse-prezidenti

Kamal İsmayılzadə - Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının MDB ölkələri ilə iqtisadi əlaqələr şöbəsinin müdiri

Qüdsi Osmanov - Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində Azərbaycan Respublikasının Baş konsulu

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyasının Sankt-Peterburq Hökuməti arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi barədə Rusiya Federasiyası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 yanvar 2010-cu il

№ 684

SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] - 8 fevral 2012-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ("Azərbaycan" qəzeti, 14 fevral 2012-ci il, № 35) ilə 1-ci hissəsində **"Elmar Qasımov - Azərbaycan Respublikası təhsil nazirinin müavini"** sözləri **"Qulu Novruzov - Azərbaycan Respublikası təhsil nazirinin müavini"** sözləri ilə əvəz edilmişdir.

M.N.Əliyevin Azərbaycan Respublikasının İspaniya Krallığında, Andorra Knyazlığında fövqəladə və səlahiyyətli səfiri və Ümumdünya Turizm Təşkilatı yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Məmməd Novruz oğlu Əliyev Azərbaycan Respublikasının İspaniya Krallığında, Andorra Knyazlığında fövqəladə və səlahiyyətli səfiri və Ümumdünya Turizm Təşkilatı

yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılsın.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 yanvar 2010-cu il

№ 685

E.B.Hüseynovun Azərbaycan Respublikasının Türkmənistanda fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Elxan Bahadur oğlu Hüseynov Azərbaycan Respublikasının Türkmənistanda fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 yanvar 2010-cu il

№ 686

Azərbaycan Respublikasının İran İslam Respublikasında fövqəladə və səlahiyyətli səfiri C.Ə. Axundovun eyni zamanda Azərbaycan Respublikasının İqtisadi Əməkdaşlıq Təşkilatı yanında daimi nümayəndəsi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının İran İslam Respublikasında fövqəladə və səlahiyyətli səfiri Cavanşir Əşrəf oğlu Axundov eyni zamanda Azərbaycan Respublikasının İqtisadi Əməkdaşlıq Təşkilatı yanında daimi nümayəndəsi təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 yanvar 2010-cu il

№ 687

Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasında fövqəladə və səlahiyyətli səfiri M.N. Nəcəfbəylinin eyni zamanda Azərbaycan Respublikasının BMT-nin Cenevrə şəhərindəki bölməsində və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasında fövqəladə və səlahiyyətli səfiri Murad Nizami oğlu Nəcəfbəyli eyni zamanda Azərbaycan Respublikasının BMT-nin Cenevrə şəhərindəki bölməsində və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 yanvar 2010-cu il

№ 688

"Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında qadın, uşaq və ailə məsələləri sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında qadın, uşaq və ailə məsələləri sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Kamran qızı Hüseynovaya verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Kamran qızı Hüseynovaya verilməsi barədə Küveyt Dövləti Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 yanvar 2010-cu il

№ 691

R.E.Məmmədova birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.2-ci maddəsini rəhbər tutaraq qərara alıram:

Rəşad Eynəddin oğlu Məmmədova birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi diplomatik rütbəsi verilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 26 yanvar 2010-cu il

№ 700

R.E.Məmmədovun Qazaxıstan Respublikasının Aktau şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Rəşad Eynəddin oğlu Məmmədov Qazaxıstan Respublikasının Aktau şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 26 yanvar 2010-cu il

№ 701

"Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Yamaykanın Xarici İşlər və Xarici Ticarət Nazirliyi arasında məsləhətləşmələrə dair Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Yamaykanın Xarici İşlər və Xarici Ticarət Nazirliyi arasında məsləhətləşmələrə dair Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatı yanında Daimi nümayəndəsi Aqşin Şəfaət oğlu Mehdiyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatı yanında Daimi nümayəndəsi Aqşin Şəfaət oğlu Mehdiyevə verilməsi barədə Yamayka tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri 26 yanvar 2010-cu il

№ 702

Avropa Şurasının "İnsan alverinə qarşı fəaliyyət haqqında" Konvensiyasını Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Avropa Şurasının "İnsan alverinə qarşı fəaliyyət haqqında" Konvensiyasını Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Avropa Şurası yanında daimi nümayəndəsi Arif Zahid oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Konvensiyanı Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Avropa Şurası yanında daimi nümayəndəsi Arif Zahid oğlu Məmmədova verilməsi barədə Avropa Şurasına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 26 yanvar 2010-cu il

№ 707

"Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Belarus Respublikasının Dövlət Təhlükəsizlik Komitəsi arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında Saziş"ə dair 1, 2 və 3 nömrəli Protokolları imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Belarus Respublikasının Dövlət Təhlükəsizlik Komitəsi arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında Saziş"ə dair 1,2 və 3 nömrəli Protokolları imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri Eldar Əhməd oğlu Mahmudova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolları imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri Eldar Əhməd oğlu Mahmudova verilməsi barədə Belarus Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri 26 yanvar 2010-cu il

№ 708

2009-cu il dekabrın 3-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və İtaliya Respublikasının Xarici Məlumat və Təhlükəsizlik Agentliyi arasında əməkdaşlıq haqqında Saziş"in təsdiq edilmə-si barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2009-cu il dekabrın 3-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və İtaliya Respublikasının Xarici Məlumat və Təhlükəsizlik Agentliyi arasında əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə İtaliya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri 26 yanvar 2010-cu il

№ 709

"Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında vətəndaşların qarşılıqlı vizasız gediş-gəlişi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında vətəndaşların qarşılıqlı vizasız gediş-gəlişi haqqında" 2009-cu il oktyabrın 2-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 fevral 2010-cu il

№ 942-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında vətəndaşların qarşılıqlı vizasız gediş-gəlişi haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti,

iki dövlət və onların xalqları arasında dostluq münasibətlərinin inkişafına töhfə vermək, iqtisadi, ticarət, elmi-texniki, mədəni və digər əlaqələrin güclənməsi niyyətini rəhbər tutaraq,

Tərəflərin ərazisi ilə vətəndaşların qarşılıqlı gediş-gəlişi şərtlərinin maksimum sadələşdirilməsi məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bir Tərəfin dövlətinin vətəndaşları, daimi yaşayış yerlərindən asılı olmayaraq, digər Tərəfin dövlətinin ərazisinə vizasız qaydada bu Sazişin 1-ci və 2-ci əlavələrində sadalanan, onların şəxsiyyətini və vətəndaşlığını təsdiq edən sənədlər əsasında daxil olmaq, çıxmaq tranzitlə keçmək, hərəkət etmək və gəlmək hüququna malikdirlər.

Maddə 2

Bir Tərəfin dövlətinin vətəndaşları digər Tərəfin dövlətinin ərazisinə beynəlxalq əlaqələr üçün açıq olan, dövlət sərhədindəki keçid məntəqələri vasitəsilə daxil olur, çıxır və tranzitlə keçirlər.

Maddə 3

Bir Tərəfin dövlətinin vətəndaşları digər Tərəfin dövlətinin ərazisində olduqları zaman yerləşmə dövlətinin qanunvericiliyinə, o cümlədən əcnəbilərin qeydiyyat, gəlmə və hərəkətetmə qaydalarına riayət etməlidirlər.

Digər Tərəfin dövlətinin ərazisində bu Sazişin müddəalarını və ya qalma qaydalarını pozmuş bir Tərəfin dövlətinin vətəndaşları yerləşmə dövlətinin qanunvericiliyinə uy-

ğun olaraq məsuliyyət daşıyırlar.

Maddə 4

Tərəflərin hər biri digər Tərəfin dövlətinin vətəndaşına bu cür qərarın motivlərini izah etmədən daxilolma üçün icazə verməkdən imtina etmək və ya ərazisində qalma müddətini məhdudlaşdırmaq hüququna malikdir.

Maddə 5

Tərəflər bu Sazişin imzalanmasından sonra 13 günlük müddət ərzində Sazişin 1-ci və 2-ci əlavələrində sadalanan sənədlərin nümunələrini diplomatik kanallar vasitəsilə mübadilə edəcəklər.

Tərəflər 48 saat ərzində bir-birini bu Sazişin məqsədləri üçün istifadə olunan yeni sənədlər və ya sənədlərə dəyişikliklər barədə məlumatlandırırlar və həmin sənədlərin qüvvəyə minməsinə qədər 30 gün müddətində bir-birinə onların nümunələrini göndərirlər.

Maddə 6

Tərəflər, zəruri olduqda, bu Sazişin həyata keçirilməsi ilə bağlı məsələləri müzakirə etmək üçün məsləhətləşmələr keçirirlər.

Bu Sazişin müddəalarının icrası və ya tətbiqi ilə bağlı ortaya çıxan istənilən fikir ayrılıqları və mübahisəli məsələlər danışıqlar yolu ilə həll ediləcəkdir.

Maddə 7

Tərəflərin razılığı ilə bu Sazişə onun ayrılmaz tərkib hissəsi olan və bu Sazişin 10-cu maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən dəyişikliklər və əlavələr edilə bilər.

Maddə 8

Dövlətin milli təhlükəsizliyinə, ictimai qaydasına hədə, təbii fəlakətlərin, texnogen qəzaların və ya vətəndaşların sağlamlığına təhlükənin baş verməsi hallarında Tərəflərin bu Sazişin qüvvəsini müvəqqəti olaraq tamamilə və ya qismən dayandırmaq hüququ vardır.

Bu Sazişin qüvvəsinin dayandırılması, eləcə də onun qüvvəsinin bərpası haqqında qərar qəbul etmiş Tərəf belə qərarın qəbul edilməsindən sonra 72 saatdan gec olmayaraq bu barədə digər Tərəfə diplomatik kanallar vasitəsilə məlumat verir.

Maddə 9

Bu Saziş Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

Maddə 10

Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır və onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Tərəflərdən hər biri diplomatik kanallar vasitəsilə yazılı bildiriş təqdim etməklə bu Sa-

zişin qüvvəsinə xitam verə bilər. Bu halda Saziş belə bildirişin alındığı tarixdən 90 gün sonra qüvvədən düşmüş hesab edilir.

Bu Saziş Bakı şəhərində 2009-cu il 2 oktyabr tarixində, hər biri Azərbaycan, qazax və rus dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı yarandığı təqdirdə, Tərəflər rus dilindəki mətndən istifadə edəcəklər.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	QAZAXISTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*KANAT SAUDABAYEV*
Xarici işlər naziri	*Dövlət katibi, xarici işlər naziri*

Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında vətəndaşların qarşılıqlı vizasız gediş-gəlişi haqqında Sazişə ƏLAVƏ 1

Qazaxıstan Respublikasının ərazisinə girmə, çıxma, tranzitlə keçmə, qalma və hərəkətetmə üçün Azərbaycan Respublikası vətəndaşlarının sənədlərinin

SİYAHISI

1. Azərbaycan Respublikasının ümumvətəndaş pasportu.

2. Xidməti pasport.

3. Diplomatik pasport.

4. Dənizçi kitabçası (dənizçinin şəxsiyyətini təsdiq edən sənəd, gəminin şəxsi heyətinin siyahısı və ya ondan çıxarış olduqda).

5. Hava gəmisinin ekipaj üzvünün vəsiqəsi (uçuş tapşırığında müvafiq qeydlə).

6. Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsi (yalnız Azərbaycan Respublikasına qayıdış üçün).

Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında vətəndaşların qarşılıqlı vizasız gediş-gəlişi haqqında Sazişə ƏLAVƏ 2

Azərbaycan Respublikasının ərazisinə girmə, çıxma, tranzitlə keçmə, qalma və hərəkətetmə üçün Qazaxıstan Respublikası vətəndaşlarının sənədlərinin

SİYAHISI

1. Qazaxıstan Respublikası vətəndaşının pasportu.

2. Xidməti pasport.

3. Diplomatik pasport.

4. Dənizçi pasportu (dənizçinin şəxsiyyətini təsdiq edən sənəd, gəminin şəxsi heyətinin

siyahısı və ya ondan çıxarış olduqda).

5. Hava gəmisinin ekipaj üzvünün vəsiqəsi (uçuş tapşırığında müvafiq qeydlə).

6. Qazaxıstan Respublikasına qayıdış şəhadətnaməsi (yalnız Qazaxıstan Respublikasına qayıdış üçün).

"Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında" 2009-cu il oktyabrın 2-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 fevral 2010-cu il

№ 943-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti,

heyvanların infeksion xəstəliklərdən müvafiq və ekvivalent olaraq qorunması və onların yayılmasına nəzarəti təmin etmək məqsədilə baytarlıq sahəsində əməkdaşlığın qarşılıqlı genişləndirilməsi və dərinləşdirilməsi niyyətini ifadə edərək,

Tərəf dövlətlər arasında münasibətləri bundan sonra da inkişaf etdirmək istəyini rəhbər tutaraq,

heyvanların, heyvan mənşəli məhsulların və xammalın, heyvanların genetik materiallarının, baytarlıq preparatlarının, yemlərin və baytarlıq nəzarətinin obyektini təşkil edən digər əmtəələrin qarşılıqlı ticarətinin yaxşılaşdırılması məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər heyvanların, heyvan mənşəli məhsulların və xammalın, heyvanların genetik materiallarının, baytarlıq preparatlarının, yemlərin və baytarlıq nəzarətinin obyektini təşkil edən digər əmtəələrin Tərəf dövlətlərin ərazisindən ixracı, idxalı və tranziti zamanı öz dövlətlərinin ərazilərini heyvanların infeksion və parazitar xəstəliklərinin yoluxması və yayılmasından qorumaq məqsədilə əməkdaşlıq həyata keçirirlər.

Maddə 2

Tərəflərin bu Sazişin müddəalarının yerinə yetirilməsi üzrə səlahiyyətli orqanları aşağı-

dakılardır:

Azərbaycan tərəfindən - Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi;

Qazaxıstan tərəfindən - Qazaxıstan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi.

Tərəf dövlətlərin səlahiyyətli orqanlarının rəsmi adlarının və funksiyalarının dəyişdirilməsi zamanı Tərəflər bir-birlərini diplomatik kanallar vasitəsilə vaxtında məlumatlandırırlar.

Maddə 3

Tərəf dövlətlərin səlahiyyətli orqanları heyvanların, heyvan mənşəli məhsulların və xammalın, heyvanların genetik materiallarının, baytarlıq preparatlarının, yemlərin və baytarlıq nəzarətinin obyektini təşkil edən digər əmtəələrin idxalı, ixracı və tranziti üçün baytarlıq-sanitariya prosedurlarının həyata keçirilməsini asanlaşdırmaq məqsədilə qarşılıqlı fəaliyyət həyata keçirirlər.

Tərəflər baytarlıq sahəsində qarşılıqlı tədbirləri Tərəf dövlətlərin milli qanunvericiliyi əsasında həyata keçirirlər.

Maddə 4

1. Tərəf dövlətlərin səlahiyyətli orqanları öz dövlətlərinin ərazisində heyvanların əvvəllər qeydə alınmamış infeksion xəstəliklərinin aşkar olunması halları və ya son illər ərzində baş verməmiş digər epizootiyaların meydana çıxması barədə bir-birlərini təcili məlumatlandırırlar.

2. Tərəf dövlətlərin səlahiyyətli orqanları, zərurət olduqda, öz dövlətlərinin ərazisində qeydə alınan infeksion heyvan xəstəlikləri barədə bülletenləri mübadilə edirlər.

3. Bu maddənin 2-ci bəndində göstərilən bülletenlər xəstəliyin adını, xəstə heyvanların sayını, xəstəliyin aşkar olunma tarixini və yerini, xəstəliyin diaqnostika və nəzarət üsulunu özündə əks etdirməlidir. Dabaq xəstəliyi baş verdiyi hallarda virusun növü göstərilir.

4. Tərəf dövlətlərin səlahiyyətli orqanları heyvanların sağlamlığının qorunması məqsədilə infeksion, parazitar və digər xəstəliklərin qarşısının alınması üzrə müasir biliklərin praktik tətbiqinə dair informasiya mübadiləsini həyata keçirirlər.

Maddə 5

Tərəf dövlətlərin səlahiyyətli orqanları baytarlıq sahəsində əməkdaşlığın inkişaf etdirilməsi, elmi tədqiqatların səmərəliliyinin artırılması məqsədilə:

baytarlıq sahəsində təcrübə və informasiya mübadiləsi aparırlar;

elmi tədqiqat baytarlıq institutlarının əməkdaşlığını dəstəkləyirlər;

baytarlıq sahəsində texniki jurnal və digər nəşrlərin mübadiləsinə yardım edirlər;

texniki görüşlər və tədris proqramları barədə bir-birlərini məlumatlandırırlar;

baytarlıq-sanitariya norma və standartlarına dair informasiya mübadiləsi aparırlar.

Tərəf dövlətlərin səlahiyyətli orqanları Tərəf dövlətlərin heyvanların, heyvan mənşəli məhsulların və xammalın, heyvanların genetik materiallarının, baytarlıq preparatlarının, yemlərin və baytarlıq nəzarətinin obyektini təşkil edən digər əmtəələrin ixracı ilə məşğul olan müəssisələri barədə informasiya mübadiləsi aparırlar.

Maddə 6

Tərəflər bu Sazişin müddəalarının həyata keçirilməsi ilə bağlı xərcləri öz dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq öz üzərlərinə götürürlər.

Maddə 7

Bu Sazişə Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişin ayrılmaz hissəsi olan ayrıca protokollarla rəsmiləşdirilən dəyişikliklər və əlavələr edilə bilər.

Maddə 8

Bu Saziş Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

Maddə 9

Tərəf dövlətlərin səlahiyyətli orqanlarının nümayəndələri, zəruri olduqda, qarşılıqlı razılıq əsasında görüşürlər.

Bu Sazişin müddəalarının təfsiri və ya tətbiqi ilə bağlı mübahisələr və fikir ayrılıqları yarandığı təqdirdə, Tərəflər onları məsləhətləşmələr və danışıqlar yolu ilə həll edirlər.

Maddə 10

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş Tərəflərdən birinin digər Tərəfin onu ləğv etmək niyyəti barədə yazılı bildirişini diplomatik kanallar vasitəsilə almasından sonra altı aylıq müddət bitənə qədər də qüvvədədir.

Bakı şəhərində 2009-cu il 2 oktyabr tarixində, hər biri Azərbaycan, qazax və rus dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir.

Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı yarandığı təqdirdə, rus dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

İSMƏT ABASOV
Kənd təsərrüfatı naziri

QAZAXISTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

AKILBEK KURİŞBAYEV
Kənd təsərrüfatı naziri

"Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı arasında yardım xidmətlərinin göstərilməsinə dair Anlaşma Məktubu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı arasında yardım xidmətlərinin göstərilməsinə dair Anlaşma Məktubu"nu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Məktubunu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilməsi barədə Birləşmiş Millətlər Təşkilatına bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 8 fevral 2010-cu il

№ 716

Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında Əməkdaşlıq üçün Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2009-cu il fevralın 10-da Əl-Küveyt şəhərində imzalanmış və Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 14 aprel tarixli 232 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında Əməkdaşlıq üçün Birgə Komissiyanın yaradılması haqqında Saziş"in icrasını və ikitərəfli əlaqələrin genişləndirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında Əməkdaşlıq üçün Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi aşağıdakı heyətdə təsdiq edilsin:

Komissiyanın həmsədri

Elmar Məmmədyarov - Azərbaycan Respublikasının xarici işlər naziri

Komissiyanın üzvləri:[1]

Azər Bayramov	- Azərbaycan Respublikası maliyyə nazirinin müavini
Niyazi Səfərov	- Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini
Tofiq Rəfiyev	- Azərbaycan Respublikası müdafiə sənayesi nazirinin müavini
Natiq Abbasov	- Azərbaycan Respublikası sənaye və energetika nazirinin müavini
Musa Pənahov	- Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini

Ədalət Vəliyev	- Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini
Qulu Novruzov	- Azərbaycan Respublikası təhsil nazirinin müavini
Abbas Vəlibəyov	- Azərbaycan Respublikası səhiyyə nazirinin müavini
Elmir Vəlizadə	- Azərbaycan Respublikası rabitə və informasiya texnologiyaları nazirinin müavini
Səfər Mehdiyev	- Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini
Qüdrət Qurbanov	- Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının rəisi
Elşad Nəsirov	- Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti
Sabir İlyasov	- "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti
Avtandil Babayev	- Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini
Akif Əlizadə	- Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti
Tural Rzayev	- Azərbaycan Respublikasının Küveyt Dövlətindəki fövqəladə və səlahiyyətli səfiri

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında Əməkdaşlıq üçün Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi barədə Küveyt Dövləti tərəfinə müvafiq bildiriş göndərsin.

1849/10

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 8 fevral 2010-cu il

№ 718

SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] - 13 sentyabr 2010-cu il tarixli 325 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 09, maddə 773) ilə 1-ci bəndində **"Şahin Abdullayev"** sözləri **"Tural Rzayev"** sözləri ilə əvəz edilmişdir.

8 fevral 2012-ci il tarixli 2022 nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ("Azərbaycan" qəzeti, 12 fevral 2012-ci il, № 34) ilə **"Teymur Mehdiyev - Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini"** sözləri **"Ədalət Vəliyev - Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini"** sözləri ilə, **"Elmar Qasımov - Azərbaycan Respublikası təhsil nazirinin müavini"** sözləri **"Qulu Novruzov - Azərbaycan Respublikası təhsil nazirinin müavini"** sözləri ilə və **"Aftandil Babayev - Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti sədrinin müavini"** sözləri **"Avtandil Babayev - Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini"** sözləri ilə əvəz edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

A.V.Əfəndiyevin Azərbaycan Respublikasının İspaniya Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Altay Vasif oğlu Əfəndiyev Azərbaycan Respublikasının İspaniya Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 fevral 2010-cu il

№ 720

"Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 21 may tarixli 2830 nömrəli Sərəncamına əlavə edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 21 may tarixli 2830 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 5, maddə 419; 2009-cu il, № 1, maddə 17) 1-ci bəndində sonuna "Elxan Qəhrəmanov - Azərbaycan Respublikasının Birləşmiş Ərəb Əmirliklərində fövqəladə və səlahiyyətli səfiri" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən əlavə barədə Birləşmiş Ərəb Əmirlikləri tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 fevral 2010-cu il

№ 723

"Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (YUNİSEF) arasında "Uşaqların ailələrə verilməsi və alternativ qayğı ilə əhatə olunması mexanizminin yaradılması" layihəsinin həyata keçirilməsi üçün birgə əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (YUNİSEF) arasında "Uşaqların ailələrə verilməsi və alternativ qayğı ilə əhatə olunması mexanizminin yaradılması" layihəsinin həyata keçirilməsi üçün birgə əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının təhsil naziri Misir Cumayıl oğlu Mərdanova, Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Füzuli Həsən oğlu Ələkbərova və Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Kamran qızı Hüseynovaya verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının təhsil naziri Misir Cumayıl oğlu Mərdanova, Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Füzuli Həsən oğlu Ələkbərova və Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Kamran qızı Hüseynovaya verilməsi barədə Birləşmiş Millətlər Təşkilatının Uşaq Fonduna (YUNİSEF-ə) müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 fevral 2010-cu il

№ 724

2009-cu il mayın 22-də Astana şəhərində Müstəqil Dövlətlər Birliyinin Hökumət Başçıları Şurasının iclasında imzalanmış "1979-1989-cu illərdə Əfqanıstanda müharibə dövründə xəbərsiz itkin düşmüş hərbi qulluqçuların axtarışının, basdırılma yerlərinin axtarışının, eksqumasiyasının, qalıqlarının eyniləşdirilməsinin və onların Vətənlərində yenidən dəfn edilməsinin davam etdirilməsi haqqında Qərar"ın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2009-cu il mayın 22-də Astana şəhərində Müstəqil Dövlətlər Birliyinin Hökumət Başçıları Şurasının iclasında imzalanmış "1979-1989-cu illərdə Əfqanıstanda müharibə dövründə xəbərsiz itkin düşmüş hərbi qulluqçuların axtarışının, basdırılma yerlərinin axtarışının, eksqumasiyasının, qalıqlarının eyniləşdirilməsinin və onların Vətənlərində yenidən dəfn edilməsinin davam etdirilməsi haqqında Qərar" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Qərarın həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Qərarın qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 fevral 2010-cu il

№ 725

1979-1989-cu illərdə Əfqanıstanda müharibə dövründə xəbərsiz itkin düşmüş hərbi qulluqçuların axtarışının, basdırılma yerlərinin axtarışının, ekshumasiyasının, qalıqlarının eyniləşdirilməsinin və onların vətənlərində yenidən dəfn edilməsinin davam etdirilməsi haqqında Qərar

Müstəqil Dövlətlər Birliyinin Hökumət Başçıları Şurası qərara aldı:

1. 1979-1989-cu illərdə Əfqanıstanda müharibə zamanı MDB iştirakçısı olan dövlətlərdən çağırılmış, xəbərsiz itkin düşmüş hərbi qulluqçuların sayının 2008-ci il 1 iyul tarixinə 270 nəfər olması nəzərə alınsın (əlavə № 1).

2. Birliyin iştirakçısı olan dövlətlərin Hökumət Başçıları Şurasının yanındakı beynəlmiləlçi döyüşçülər üzrə Komitə 1979-1989-cu illərdə Əfqanıstanda müharibə dövründə xəbərsiz itkin düşmüş hərbi qulluqçuların axtarışını, basdırılma yerlərinin axtarışını, ekshumasiyasını, qalıqlarının eyniləşdirilməsini və onların vətənlərində yenidən dəfn edilməsini davam etdirsin və görülən işlər haqqında dövlətləri hər il məlumatlandırsın.

3. 1979-1989-cu illərdə Əfqanıstanda müharibə dövründə xəbərsiz itkin düşmüş hərbi qulluqçuların axtarışının, basdırılma yerlərinin axtarışının, ekshumasiyasının, qalıqlarının eyniləşdirilməsinin və onların vətənlərində yenidən dəfn etdirilməsinin davam etdirilməsinin maliyyələşdirilməsi üçün Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin 2009-2013-cü illər üzrə illik pay haqları təsdiq edilsin (əlavə № 2).

4. Bu Qərar imzalandığı tarixdən, onun qüvvəyə minməsi üçün qanunvericiliyində dövlətdaxili prosedurların yerinə yetirilməsi tələb olunan dövlətlər üçün isə depozitariyə müvafiq bildiriş təhvil verildiyi tarixdən qüvvəyə minir.

22 may 2009-cu ildə Astana şəhərində rus dilində bir əsl nüsxədə imzalanmışdır. Əsl nüsxə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsində saxlanılmaqla, onun təsdiq edilmiş surəti bu Qərarı imzalamış hər bir dövlətə göndəriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

YAQUB EYYUBOV
Baş nazirinin birinci müavini

MOLDOVA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ZİNAİDA QREÇANAYA
Baş nazir

ERMƏNİSTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

TİQRAN SARKİSYAN
Baş nazir

RUSİYA FEDERASİYASI HÖKUMƏTİ ADINDAN

VLADİMİR PUTİN
Baş nazir

BELARUS RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

SERGEY SİDORSKİ
Baş nazir

TACİKİSTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

AKİL AKILOV
Baş nazir

GÜRCÜSTAN HÖKUMƏTİ ADINDAN

imza yoxdur

TÜRKMƏNİSTAN HÖKUMƏTİ ADINDAN

imza yoxdur

QAZAXISTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

KARİM MASİMOV
Baş nazir

ÖZBƏKİSTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

RUSTAM KASIMOV
Baş nazirinin müavini

QIRĞIZ RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

İQOR ÇUDİNOV
Baş nazir

UKRAYNA HÖKUMƏTİ ADINDAN

YULİYA TİMOŞENKO
Baş nazir

Müstəqil Dövlətlər Birliyi Hökumət Başçıları Şurasının 1979-1989-cu illərdə Əfqanıstanda müharibə dövründə xəbərsiz itkin düşmüş hərbi qulluqçuların axtarışının, basdırılma yerlərinin axtarışının, ekshumasiyasının, qalıqlarının eyniləşdirilməsinin və onların vətənlərində yenidən dəfn edilməsinin davam etdirilməsi haqqında 22 may 2009-cu il tarixli Qərarına
ƏLAVƏ № 1

1979-1989-cu illərdə Əfqanıstanda müharibə zamanı MDB iştirakçısı olan dövlətlərdən çağırılmış, xəbərsiz itkin düşmüş hərbi qulluqçuların

SAYI

MDB iştirakçısı olan dövlətlər	2008-ci il 1 iyul tarixinə
Azərbaycan Respublikası	5
Ermənistan Respublikası	1
Belarus Respublikası	12
Gürcüstan	1
Qazaxıstan Respublikası	19

Qırğızıstan Respublikası	4
Moldova Respublikası	4
Rusiya Federasiyası	136
Tacikistan Respublikası	4
Özbəkistan Respublikası	29
Ukrayna	55
Cəmi	270

Müstəqil Dövlətlər Birliyi Hökumət Başçıları Şurasının 1979-1989-cu illərdə Əfqanıstanda müharibə dövründə xəbərsiz itkin düşmüş hərbi qulluqçuların axtarışının, basdırılma yerlərinin axtarışının, ekshumasiyasının, qalıqlarının eyniləşdirilməsinin və onların vətənlərində yenidən dəfn edilməsinin davam etdirilməsi haqqında 22 may 2009-cu il tarixli Qərarına
ƏLAVƏ № 2

1979-1989-cu illərdə Əfqanıstanda müharibə dövründə xəbərsiz itkin düşmüş hərbi qulluqçuların axtarışının, basdırılma yerlərinin axtarışının, ekshumasiyasının, qalıqlarının eyniləşdirilməsinin və onların vətənlərində yenidən dəfn edilməsinin davam etdirilməsinin maliyyələşdirilməsi üçün 2009-2013-cü illər üzrə MDB iştirakçısı olan dövlətlərin illik

PAY HAQLARI

MDB iştirakçısı olan dövlətlər	**İllik pay haqlarının məbləği (min rubl, Rusiya Federasiyası)**
Azərbaycan Respublikası	60,0
Ermənistan Respublikası	12,0
Belarus Respublikası	140,0
Gürcüstan	12,0
Qazaxıstan Respublikası	230,0
Qırğızıstan Respublikası	50,0
Moldova Respublikası	48,0
Rusiya Federasiyası	1532,0
Tacikistan Respublikası	48,0
Özbəkistan Respublikası	360,0
Ukrayna	512,0
Cəmi	3004,0

Qeydlər:

1. Pay haqları axtarışda olan hərbi qulluqçuların sayı nəzərə alınmaqla hesablanıb və MDB iştirakçısı olan dövlətlərin illik büdcələrinin formalaşdırılması zamanı dəqiqləşdirilə bilər.

2. Maliyyələşdirilmə dövlətlərin pay haqlarından başqa, veteran təşkilatları və xeyriyyə fondlarının büdcədənkənar vəsaiti hesabına da həyata keçirilir.

3. Pay haqları Birliyin iştirakçısı olan dövlətlərin Hökumət Başçıları Şurasının yanındakı beynəlmiləlçi döyüşçülər üzrə Komitənin Dövlətlərarası bankda hesabına Rusiya Federasiyası rublu ilə köçürülür. Moskva ş., Dövlətlərarası bankdakı hesab № 40703810000000000004, müxbir hesabı 30101810800000000362, BİK 044525362, İNN 7710039020.

2009-cu il iyunun 11-də Berlin şəhərində imzalanmış "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Almaniya Federativ Respublikasının Federal Ədliyyə Nazirliyi arasında hüquqi əməkdaşlığa dair Birgə Bəyanat"ın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2009-cu il iyunun 11-də Berlin şəhərində imzalanmış "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Almaniya Federativ Respublikasının Federal Ədliyyə Nazirliyi arasında hüquqi əməkdaşlığa dair Birgə Bəyanat" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Almaniya Federativ Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 fevral 2010-cu il

№ 726

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Almaniya Federativ Respublikasının Federal Ədliyyə Nazirliyi arasında hüquqi əməkdaşlığa dair Birgə Bəyanat

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Almaniya Federativ Respublikasının Federal Ədliyyə Nazirliyi

İki ölkə arasındakı mövcud hüquqi əməkdaşlığın əhəmiyyətini dərk edərək,

Hüquq sahəsində əlaqələrin inkişaf etdirilməsi və möhkəmləndirilməsində hər iki ölkənin maraqlarını nəzərə alaraq,

Aşağıdakıları bəyan edirlər:

1. Əməkdaşlığın formaları

Tərəflər qarşısına məqsəd qoyur ki, öz səlahiyyətləri çərçivəsində hüquq, xüsusilə qanunvericilik, ədliyyə sahəsində idarəetmə, eləcə də ədliyyə işçilərinin hazırlanması sahəsindəki əməkdaşlığa dəstək verəcəklər.

Bu məqsədlə Tərəflər onların səlahiyyət dairəsinə aid olan qanunvericilik aktlarının və başqa sənədlərin mübadiləsini dəstəkləyəcəklər. Onlar ikitərəfli təcrübə mübadiləsinə və tədrisin səviyyəsinin yüksəldilməsinə yönəlmiş tədbirlər də daxil olmaqla ekspertlər səviyyəsində müzakirələrin keçirilməsinə yardım edəcəklər.

Tərəflər ekspertlərin mübadiləsini həyata keçirəcək, eləcə də seminarlar, təlimlər təşkil edəcəklər.

2. Əməkdaşlığın əsas istiqamətləri

Tərəflər bu fikirdədir ki, əməkdaşlıq bundan sonra aşağıdakı sahələr üzrə aparılmalıdır:

(1) Səlahiyyətləri çərçivəsində İnsan hüquqları üzrə Avropa Konvensiyasının dövlət daxilində həyata keçirilməsinə dair təcrübə mübadiləsi;

(2) Avropa Birliyi hüququnun inkişafına dair məlumat mübadiləsi və dövlətdaxili hüququn Avropa hüququnun tələblərinə uyğunlaşdırılmasında məsləhətlərin verilməsi;

(3) Notariusların və məhkəmə icraçılarının hüquqi statusu və vəzifələri barədə informasiya mübadiləsi;

(4) Hər iki ölkənin ədliyyə sahəsinə aid təhsil və ixtisasartırma müəssisələri arasında əməkdaşlığın inkişaf etdirilməsi;

(5) Cəzanın icrasının təşkili də daxil olmaqla məhkəmə qərarlarının icrası barədə təcrübə mübadiləsinin dəstəklənməsi.

Tərəflər gələcəkdə zərurət yarandığı hallarda əməkdaşlığın əlavə istiqamətləri barədə razılığa gələ bilərlər.

3. Hüquqi yardım

Tərəflər ehtiyac yarandığı halda qarşılıqlı hüquqi yardım barədə müzakirələr aparacaqlar.

4. Əməkdaşlığın həyata keçirilməsi

Tərəflər bu niyyətdədir ki, bu Birgə Bəyanat çərçivəsində əməkdaşlığın həyata keçirilməsi üçün bir-biri ilə çoxillik proqramlar razılaşdırsın, eləcə də bunun üçün məsul şəxslər müəyyən etsin. Bu şəxslər xüsusi olaraq proqramları hazırlayacaq, qarşılıqlı olaraq nazirliklərlə, səfirliklərlə və tədris institutları ilə əlaqələr yaradacaqlar.

Almaniya Federativ Respublikasının Federal Ədliyyə Nazirliyi razılaşdırılmış tədbirlərin həyata keçirilməsində Beynəlxalq Hüquq Əməkdaşlığı üzrə Alman Fondunun və digər uyğun təşkilatların köməyindən də istifadə edə bilər.

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi öz imkanları daxilində bu təsisatların fəaliyyətini dəstəkləyəcəkdir.

Tədbirlərin həyata keçirilməsi kadr, təşkilatı və maliyyə imkanları çərçivəsində olmalıdır. Beynəlxalq ənənələrə uyğun olaraq bir qayda olaraq qarşılıqlı səfərlər zamanı beynəlxalq nəqliyyat xərcləri səfər edən tərəfin, ölkədə qalmaq və digər xidmət xərcləri isə qonaq qəbul edən tərəfin üzərinə düşür.

Bu Birgə Bəyanat Berlin şəhərində 11 iyun 2009-cu il tarixində iki əsl nüsxədə, alman və Azərbaycan dillərində imzalanmışdır. Mətnlər autentikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ ƏDLİYYƏ NAZİRLİYİ ADINDAN	ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL ƏDLİYYƏ NAZİRLİYİ ADINDAN
FİKRƏT MƏMMƏDOV	*BRİGİTTE TSÜPRİES*
Ədliyyə naziri	*Ədliyyə naziri*

2009-cu il noyabrın 27-də Havana şəhərində imzalanmış "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Kuba Respublikasının İdman, Fiziki Tərbiyə və İstirahət Milli İnstitutu (Təşkilatı) arasında bədən tərbiyəsi və idman sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2009-cu il noyabrın 27-də Havana şəhərində imzalanmış "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Kuba Respublikasının İdman, Fiziki Tərbiyə və İstirahət Milli İnstitutu (Təşkilatı) arasında bədən tərbiyəsi və idman sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Kuba Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 fevral 2010-cu il

№ 727

Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Kuba Respublikasının İdman, Fiziki Tərbiyə və İstirahət Milli İnstitutu (Təşkilatı) arasında bədən tərbiyəsi və idman sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlanan Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Kuba Respublikasının İdman, Fiziki Tərbiyə və İstirahət Milli İnstitutu,

Azərbaycan Respublikası və Kuba Respublikası xalqları arasında əlaqələrin möhkəmləndirilməsində və ənənəvi dostluq münasibətlərinin inkişaf etdirilməsində qarşılıqlı arzularını rəhbər tutaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər idman təşkilatları arasında əməkdaşlığa və onların hər iki ölkənin ərazisində keçirilən idman tədbirlərində iştirakına kömək edəcəklər.

Maddə 2

Tərəflər bədən tərbiyəsi və idman sahəsində əlaqələrin və əməkdaşlığın inkişafına, aşağıdakı vasitələrlə kömək göstərəcək və təşviq edəcəklər:

- bədən tərbiyəsi və idman sahəsində fəaliyyət göstərən idarələr və təşkilatlar, həmçinin fiziki şəxslər arasında birbaşa əməkdaşlığa, əlaqələrə və mübadilələrə əlverişli şərait yaradılması;

- Azərbaycan Respublikası və Kuba Respublikası ərazisində birgə idman tədbirləri keçirmək üçün kömək edilməsi.

Maddə 3

Tərəflər idman problemləri ilə məşğul olan tədqiqat müəssisələri və mərkəzləri arasında birgə maraq doğuran məsələlər üzrə qarşılıqlı mübadilələr də daxil olmaqla, birbaşa əlaqələrin inkişaf etdirilməsinə kömək edəcəklər.

Maddə 4

Tərəflər idman avadanlığı, ləvazimatı və geyimi istehsalı, idman qurğularının layihələşdirilməsi, tikintisi, yenidən qurulması və istismarı sahəsində əməkdaşlığa təşviq edəcək, yarışların və təlim məşq toplanışlarının keçirilməsinə, idmançı və məşqçi mübadilələrinə müvafiq şərait yaradacaqlar.

Maddə 5

Tərəflər digər Tərəfin dövlətinin ərazisində olan mütəşəkkil idmançı qruplarına, həmçinin rəsmi nümayəndələrə hərtərəfli yardım edəcəklər.

Maddə 6

Tərəflərin səlahiyyətli nümayəndələri Sazişin müddəalarının həyata keçirilməsinin təhlili və hər növbəti il üçün ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsinə dair tədbirlər planının hazırlanması məqsədi ilə növbə ilə Bakı və Havana şəhərlərində görüşlər təşkil edəcəklər.

Maddə 7

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə dəyişiklik və əlavələr edilə bilər. Belə dəyişiklik və əlavələr bu Sazişin tərkib hissəsi olan ayrıca Protokollar şəklində tərtib ediləcək və bu Sazişin 8-ci maddəsinin müddəalarına uyğun olaraq qüvvəyə minəcəkdir.

Maddə 8

Bu Saziş, Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirməsi barədə sonuncu yazılı bildirişin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş beş il müddətinə bağlanılır və Tərəflərdən biri bu müddətin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə digər Tərəfi yazılı şəkildə diplomatik kanallar vasitəsilə xəbərdar etmədiyi təqdirdə, Sazişin qüvvəsi avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılır.

Bu Saziş Havana şəhərində 27 noyabr 2009-cu il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, ispan və rus dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin müddəalarının təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə rus dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİ ADINDAN	KUBA RESPUBLİKASININ İDMAN, FİZİKİ TƏRBİYƏ VƏ İSTİRAHƏT MİLLİ İNSTİTUTU ADINDAN
AZAD RƏHİMOV	*HULİO KRİSTİAN HİMENES*
Gənclər və idman naziri	*MOLİNA İnstitutun prezidenti*

Azərbaycan Respublikası və Sloveniya Respublikası arasında 2009-cu il noyabrın 9-da Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və Sloveniya Respublikası arasında 2009-cu il noyabrın 9-da Bakı şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Sloveniya Respublikasının İqtisadiyyat Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum;

1.2. Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi və Sloveniya Respublikasının İqtisadiyyat Nazirliyi arasında sənaye və energetika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu;

1.3. Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik və Sloveniya Respublikasının Minatəmizləmə və Minadan Zərərçəkənlərə Yardım üzrə Beynəlxalq Etimad Fondu arasında əməkdaşlıq haqqında Memorandum.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.3-cü bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.3-cü bəndlərində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Sloveniya Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 fevral 2010-cu il

№ 728

Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Sloveniya Respublikasının İqtisadiyyat Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum

Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Sloveniya Respublikasının İqtisadiyyat Nazirliyi (bundan sonra "Tərəflər" adlandırılacaqdır),

Öz dövlətləri və xalqları arasında dostluq münasibətlərini təsdiqləyərək,

Bərabərlik, qarşılıqlı maraq və qarşılıqlılıq əsasında ümumi maraq doğuran sahələrdə iqtisadi əməkdaşlığın inkişafını təşviq etməyi arzu edərək;

Ticarətin artırılmasından yarana bilən qarşılıqlı faydanı və xüsusilə ikitərəfli ticarətin, iqtisadi əlaqələr və daha sıx əməkdaşlığın təşviq edilməsi yolu ilə gələcək əlaqələri gücləndirmək arzusunu nəzərə alaraq,

Öz dövlətlərinin beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərini nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər, öz qanunvericiliyi çərçivəsində və beynəlxalq öhdəliklərini və razılaşmalarını nəzərə alaraq, mümkün olan ən geniş əsaslarda və onlar üçün qarşılıqlı maraq doğura biləcək və fayda gətirəcək bütün sahələrdə iqtisadi əməkdaşlığı inkişaf etdirmək və gücləndirmək məqsədilə bütün səyləri həyata keçirəcəklər.

Maddə 2

1. Tərəflər xüsusilə aşağıdakı tədbirlərin həyata keçirilməsi yolu ilə iqtisadi əməkdaşlığı gücləndirmək üçün əlverişli şərait yaratmağa səy göstərəcəklər:

- öz iqtisadi operatorlarının mübadiləsi və onlar arasında əlaqələrin sadələşdirilməsi və dəstəklənməsi;

- investisiyalar üçün əlverişli mühitin yaradılması,

- biznes və iqtisadi məlumatın mübadiləsinin sadələşdirilməsi,

- yarmarkaların, sərgilərin və simpoziumların və s. təşkilində biri-birlərinə yardımın göstərilməsi,

- istehlakçıların müdafiəsinə dair qaydalar daxil olmaqla, daxili bazarın fəaliyyətinə dair məlumat mübadiləsinin sadələşdirilməsi;

- kiçik və orta sahibkarlıq sahəsində əməkdaşlıq və sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılması,

- turizm sahəsində əməkdaşlığın və fəaliyyətin genişləndirilməsi.

Maddə 3

Bu məqsədlə Tərəflər bu Memorandumda nəzərdə tutulmuş sahələrlə məşğul olacaq və aşağıdakıları yerinə yetirəcək Sloveniya-Azərbaycan Birgə İşçi Qrupu yaradırlar:

- tərəflər arasında əməkdaşlığın genişlənə biləcəyi sahələri müəyyənləşdirir, onların həyata keçirilməsi üçün görüləcək tədbirlər və tövsiyələri təklif edir;

- hər iki ölkənin iqtisadi operatorları arasında əməkdaşlıq imkanlarının artırılması üçün təkliflər hazırlayır;

- hər iki dövlətdə mövcud iqtisadi vəziyyət, qaydalar, iqtisadi proqramlar və qarşılıqlı maraq doğuran digər məlumatların mübadiləsini həyata keçirir;

- ikitərəfli ticarət və iqtisadi əməkdaşlığa manea törədən problemləri müəyyənləşdirir və onların həlli üçün tədbirlər təklif edir.

Maddə 4

Birgə İşçi Qrupu Tərəflərin nümayəndələrindən təşkil olunacaq və lazım olduğu təqdirdə, özəl və ya dövlət sektorunun digər qurumlarının nümayəndələri iştirak üçün dəvət oluna bilərlər.

Maddə 5

1. Birgə İşçi Qrupu Tərəflərdən hər hansı birinin müraciəti əsasında tələb olunduğu təqdirdə görüş keçirəcəkdir.

2. Birgə İşçi Qrupunun görüşünün tarixi və gündəliyi hər iki Tərəf arasında razılaşdırılacaqdır.

3. Qəbul edən Tərəf hər iki nümayəndə heyətinin rəhbəri tərəfindən imzalanacaq Birgə İşçi Qrupunun görüşünün gedişi və nəticələri barədə protokol tərtib edəcəkdir.

Maddə 6

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Memorandumа onun ayrılmaz hissəsi olan və Memorandumun 7-ci maddəsində müəyyən olunmuş qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavələr və dəyişikliklər edilə bilər.

Maddə 7

1. Bu Memorandum onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Azərbaycan tərəfinin yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən sonra otuzuncu gün qüvvəyə minir.

2. Bu Memorandum beş (5) il müddətində bağlanılır və avtomatik olaraq bir (1) il müddətinə yenilənə bilər. Tərəflərdən hər biri istənilən bir il müddətin başa çatmasına üç (3) ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə digər Tərəfə məlumat verərək bu Memorandumu ləğv edə bilər.

Bu Anlaşma Memorandumu Bakı şəhərində 9 noyabr 2009-cu il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, sloven və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Anlaşma Memorandumunun təfsirində fikir ayrılığı olduqda ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİ İNKİŞAF NAZİRLİYİ ADINDAN	SLOVENİYA RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ ADINDAN
ŞAHİN MUSTAFAYEV	*MİTYA QASPARİ*
İqtisadi inkişaf naziri	*İnkişaf və Avropa işləri üzrə naziri*

Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi və Sloveniya Respublikasının İqtisadiyyat Nazirliyi arasında sənaye və energetika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu

Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi və Sloveniya Respublikasının İqtisadiyyat Nazirliyi (bundan sonra "Tərəf" birlikdə isə "Tərəflər" adlandırılacaq)

7 noyabr 2006-cı il tarixində Brüssel şəhərində imzalanmış "Azərbaycan Respublikası və Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumu"nda müəyyən edilmiş əməkdaşlıq prinsiplərini nəzərə alaraq;

əməkdaşlıqda hər zaman beynəlxalq hüququn prinsiplərinə hörmətin rəhbər tutulduğunu vurğulayaraq;

hər iki dövlətin yanacaq-energetika potensiallarından səmərəli istifadə etmək və iki ölkə xalqlarının maddi rifahını yüksəltmək məqsədini təsdiqləyərək;

sənaye və yanacaq-energetika sahəsində fəaliyyət göstərən müəssisələr arasında birbaşa əlaqələrin qurulması və qeyd olunan sahələrin inkişafı üçün əlverişli şəraitin yaradılması üçün fəaliyyəti genişləndirərək;

alternativ və bərpa olunan enerji sahəsində əməkdaşlığın genişləndirilməsi məqsədi ilə;

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Məqsədlər

1.1. Tərəflər sənaye və yanacaq-energetika kompleksi (neft, qaz, kimya, maşınqayırma, metallurgiya, alternativ və bərpa olunan enerji), yüngül və digər sənaye sahələrində əməkdaşlığın inkişafı üçün əlverişli şərait yaradacaqlar.

1.2. Tərəflər öz səlahiyyətləri daxilində və ikitərəfli layihələr əsasında konfranslar, seminarlar və digər tədbirlərin təşkilini dəstəkləyəcəklər.

Maddə 2

Əməkdaşlıq sahələri

1. Tərəflər arasında sənaye və yanacaq-energetika sahəsində əməkdaşlıq aşağıdakı sahələri əhatə edəcək:

a) hər iki dövlətin sənaye və energetika sahəsinə investisiya qoyuluşunun dəstəklənməsi;

b) müvafiq qanunvericiliyə uyğun olaraq, sənaye və yanacaq-energetika sahəsində qarşılıqlı maraq doğuran strateji planlaşdırma və texnoloji elmi tədqiqat işləri də daxil olmaqla müvafiq tədbirlərin görülməsi;

c) Tərəflər arasında sənaye və yanacaq-energetika sahəsində birgə fəaliyyət sahələrinin yaradılması üzrə informasiya mübadiləsinin aparılması;

d) yuxarıda qeyd olunan sahələrdə təlim və inkişaf proqramlarını təmin etmək, bir-

gə seminarların, konfransların, dəyirmi masaların, forumların keçirilməsi;

e) yuxarıda qeyd olunan sahələr üzrə əməkdaşlığın inkişaf etdirilməsi və müştərək müəssisələrinin yaradılması;

f) alternativ və bərpa olunan enerji sahəsində layihələrdə, həmçinin elmi tədqiqat layihələrində qarşılıqlı əməkdaşlıq və məlumat mübadiləsi;

2. Hər iki Tərəfi üçün maraqlı olan biləcək sahədə əməkdaşlıq və bu əməkdaşlıqla əlaqədar olan fəaliyyət Tərəflərin qarşılıqlı razılığı ilə gələcəkdə müəyyən ediləcəkdir.

Maddə 3

Məxfi məlumatlar

Hər bir Tərəf adı çəkilən Memorandum çərçivəsində həyata keçirilən əməkdaşlıqdan irəli gələn məxfi məlumatı və ya informasiyanı aşkar etmək istədikdə digər Tərəfin razılığını əldə etməlidir.

Maddə 4

İcraedici orqanlar

Tərəflər yuxarıda göstərilən sahələrdə bu Memorandumun həyata keçirilməsinin əlaqələndirilməsi üçün müvafiq İcraedici orqanın təyin olunması barədə diplomatik kanallar vasitəsilə bir-birini məlumatlandıracaqlar.

Maddə 5

Birgə İşçi Qrup

Tərəflər bu Memorandumun həyata keçirilməsinin əlaqələndirilməsi məqsədilə müvafiq qurumların nümayəndələrindən ibarət Birgə İşçi Qrup yaradırlar.

Maddə 6

Mübahisələrin həlli

Bu Memorandumunun təfsiri və tətbiqindən irəli gələn mübahisələr Tərəflər arasında məsləhətləşmələr və danışıqlar yolu ilə həll ediləcəkdir.

Maddə 7

Düzəlişlər

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Memoranduma onun ayrılmaz hissəsi olan və Memorandumun 8-ci maddəsində müəyyən olunmuş qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavələr və dəyişikliklər edilə bilər.

Maddə 8

Qüvvəyə minmə və ləğv olunma

1. Bu Memorandum onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Azərbaycan tərəfinin yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən sonra otuzuncu gün qüvvəyə minir.

2. Bu Memorandum beş il müddətində bağlanılır və avtomatik olaraq növbəti bir il müd-

dətinə yenilənə bilər. Tərəflərdən hər biri istənilən bir il müddətin başa çatmasına üç ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə digər Tərəfə məlumat verərək bu Memorandumu ləğv edə bilər.

Bu Anlaşma Memorandumu Bakı şəhərində 9 noyabr 2009-cu il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, sloven və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Anlaşma Memorandumunun təfsirində fikir ayrılığı olduqda ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ SƏNAYE VƏ ENERGETİKA NAZİRLİYİ ADINDAN	SLOVENİYA RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ ADINDAN
NATİQ ƏLİYEV	*MİTYA QASPARİ*
Sənaye və Energetika naziri	*İnkişaf və Avropa işləri üzrə naziri*

Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik və Sloveniya Respublikasının Minatəmizləmə və Minadan Zərərçəkənlərə Yardım üzrə Beynəlxalq Etimad Fondu arasında əməkdaşlıq haqqında Memorandum

Preambula

Minatəmizləmə və Minadan Zərərçəkənlərə Yardım üzrə Beynəlxalq Etimad Fondu (bundan sonra "Fond" olaraq istinad ediləcək) və Azərbaycan Hökuməti tərəfindən ümumilikdə Azərbaycanda Mina Təhlükəsilə Mübarizə əməliyyatlarının idarə edilməsi, planlaşdırılması, əlaqələndirilməsi, resursların səfərbər edilməsi və keyfiyyətinə nəzarətin aparılması üçün səlahiyyətləndirilmiş Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik (bundan sonra "ANAMA" olaraq istinad ediləcək)

Azərbaycan xalqının sosial-iqtisadi inkişafına yardım etməsi üçün yerüstü minaların kütləvi istifadəsi nəticəsində meydana çıxmış müharibə fəsadlarının aradan qaldırılması məqsədilə;

Fondun qurulmasının məqsədinə riayət edərək;

Minatəmizləmə fəaliyyəti sahəsində əməkdaşlıq qurmaq arzusu ilə;

ANAMA-nın üzv olduğu Cənub-Şərqi Avropa Mina Aksiyaları Əlaqələndirmə Şurasının (SEEMACC) məqsədlərini yerinə yetirərək

Aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Terminlərin mənaları

Bu memorandumda istifadə olunan müəyyən terminlər aşağıdakı mənaları verir:

Minatəmizləmə - minaların və partlamamış hərbi sursatların aşkar olunması və məhv edilməsi ilə bağlı hər hansı bir fəaliyyət mənasını verəcəkdir.

Mina Təhlükəsilə Mübarizə - minaların və partlamamış hərbi sursatların sosial, iqtisadi və ətraf mühitə təsirinin azaldılması məqsədilə aparılan hər hansı bir fəaliyyət mənasını verəcəkdir. Mina Təhlükəsilə Mübarizə beş əlavə fəaliyyət qrupundan ibarətdir: mina təhlükəsinə dair maarifləndirmə, humanitar minatəmizləmə, zərərçəkənlərə yardım, anbar şəraitində saxlanılan sursatların məhv edilməsi, piyadalar əleyhinə minaların istifadəsinə qarşı hərəkat.

Regional əməkdaşlıq - beynəlxalq mina fəaliyyəti sahəsindəki əməkdaşlığın daxili və regionlararası səviyyədə minadan zərərçəkən digər dövlətlər, onların məsul orqanları və mina fəaliyyəti ilə məşğul olan təşkilatların arasındakı fəaliyyətlərdə təmsilçilik etmək. Regional əməkdaşlıq, təcrübənin, informasiyanın, müştərək təlimlərin mübadiləsi və əlaqələndirilməsi kimi sahələrdə fəaliyyətləri əhatə edəcək.

Maddə 2

Əməkdaşlıq

2.1 Fond, ANAMA-nın tələb etdiyi təqdirdə minatəmizləmə fəaliyyəti üzrə layihələrin yerinə yetirilməsində ANAMA-nı maliyyə və texniki dəstəklə təmin edəcəkdir.

2.2 Fond-la ANAMA arasında əməkdaşlığa həmçinin daxili və regionlararası humanitar və inkişafa yardım üzrə birgə layihələrin minadan zərərçəkən üçüncü ölkədə aparılması da daxildir. Bu məqsədlə ITF və ANAMA Azərbaycanda Regional Tədris Mərkəzinin açılması istiqamətində də əməkdaşlıq edəcək.

2.3 Fond tərəfindən dəstəklənən layihələr birbaşa və yaxud ən yaxşı iştirakçının Fond və ANAMA-nın qarşılıqlı razılığı ilə seçilməsi üçün tender elan edilməklə yerinə yetirilməlidir.

2.4 Regional əməkdaşlıq layihələri qarşılıqlı razılaşma, birgə maliyyələşdirmə və ya Fond və/və ya ANAMA tərəfindən birtərəfli maliyyələşdirmə yolu ilə dəstəklənəcəkdir.

Maddə 3

ANAMA-nın öhdəlikləri

3.1 ANAMA Fondun yardımı ilə yerinə yetirilən minatəmizləmə layihələri və mina təhlükəsilə mübarizə üzrə digər fəaliyyətin prioritet sahələrini təyin etməlidir.

3.2. ANAMA yeni təqvim ilində minatəmizləmə mövsümündən əvvəl müddətdə ANAMA-nın növbəti minatəmizləmə mövsümü üçün tələbatı barədə Fondu məlumatlandıracaqdır.

3.3. ANAMA regional əməkdaşlıq layihələrini dəstəkləmək üçün Azərbaycandakı Regional Təlim Mərkəzinin təlim potensialından və/və ya Bakıdakı Qərargahından istifadə edilməsini təmin edəcəkdir.

3.4 ANAMA layihələrə Fondla birgə maliyyə dəstəyinin verilməsi imkanlarını təmin edəcək ki, bunlar da Azərbaycana və müştərək regional təşəbbüslərə fayda gətirəcəkdir.

3.5 ANAMA həmçinin Fonda müvafiq inzibati dəstəyin də göstərilməsini təmin edəcəkdir.

Maddə 4

FOND-un öhdəlikləri

4.1. Fond ANAMA-nın və müştərək regional layihələrin tələblərinə əsasən mümkün olan maliyyəyardımlarını toplayacaqdır.

4.2. Fond Azərbaycan ərazisində mina təhlükəsilə mübarizə üzrə bütün fəaliyyəti üçün ANAMA-nın razılığını almalıdır.

4.3. Fond təmin olunmuş fondların şəffaflığını və istifadəsini təmin etməli, donorlara istənilən vaxt layihə ilə bağlı lazımi məlumatı verməyə qadir olmalıdır.

4.4. Fond Maddə 3.2-də qeyd olunanlara əsaslanaraq layihənin (lərin) dəstəklənməsi üçün həm ictimai, həm də özəl donorları cəlb etməlidir. Fond cəhdlərin üst-üstə düşməsinin qarşısını almaq üçün müraciət etməyi planlaşdırdığı donor barəsində ANAMA-ya məlumat verəcəkdir.

Maddə 5

Qüvvəyə minmə və vaxt məhdudiyyətləri

5.1 Bu Memorandum hər iki tərəfin imzaladığı gündən qüvvəyə minəcək və dörd (4) il müddətində qüvvədə qalacaqdır.

5.2 Bu memorandum ediləcək bütün dəyişikliklər hər iki tərəfin qəbul edəcəyi Əlavə ilə tənzimlənəcəkdir.

Maddə 6

Ləğv olunma

6.1 Bu Memorandum, tərəflərdən birinin hazırkı sənədin maddələrinə riayət etmədiyi və yaxud onları yerinə yetirmədiyi təqdirdə hər hansı bir tərəfdən müvafiq xəbərdarlıq etməklə ləğv oluna bilər.

Maddə 7

7.1. Bu Əməkdaşlıq haqqında Memorandum ingilis dilində iki nüsxədə imzalanır.

7.2. Əməkdaşlıq haqqında Memorandum imzalandığı andan qüvvəyə minir.

AZƏRBAYCAN RESPUBLİKASI ƏRAZİLƏRİNİN MİNALARDAN TƏMİZLƏNMƏSİ ÜZRƏ MİLLİ AGENTLİYİ ADINDAN	MİNATƏMİZLƏMƏ VƏ MİNADAN ZƏRƏRÇƏKƏNLƏRƏ YARDIM ÜZRƏ BEYNƏLXALQ ETİMAD FONDU ADINDAN
NAZİM İSMAYILOV	*QORAN QAÇNİK*
Agentliyin baş direktoru	*Fondun direktoru*

Azərbaycan Respublikası və Belarus Respublikası arasında 2009-cu il noyabrın 12-də Minsk şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və Belarus Respublikası arasında 2009-cu il noyabrın 12-də Minsk şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında gənclər siyasəti sahəsində əməkdaşlıq haqqında Saziş;

1.2. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Belarus Respublikasının Dövlət Təhlükəsizlik Komitəsi arasında məxfi informasiyanın mühafizəsinin təmin edilməsində qarşılıqlı əlaqəyə dair Saziş;

1.3. Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Belarus Respublikasının Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq üzrə Sazişin 2010-2011-ci illərdə həyata keçirilməsi barədə Protokol;

1.4. Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Belarus Respublikasının Dövlət Sərhəd Komitəsi arasında əməkdaşlığa dair Saziş;

1.5. Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi və Belarus Respublikasının Ədliyyə Nazirliyi arasında arxiv işi sahəsində əməkdaşlıq haqqında Saziş;

1.6. Azərbaycan Respublikasının Şəki rayonu və Belarus Respublikasının Minsk vilayətinin Slutsk rayonu arasında əməkdaşlıq haqqında Saziş.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.6-cı bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.6-cı bəndlərində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Belarus Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 fevral 2010-cu il

№ 729

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında

gənclər siyasəti sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti,

Azərbaycan Respublikası və Belarus Respublikası qanunvericiliyini rəhbər tutaraq,

dövlət gənclər siyasətinin həyata keçirilməsində Tərəflərin səylərinin inkişaf etdirilməsi və birləşdirilməsi niyyətlərini bildirərək,

beynəlxalq gənclər əməkdaşlığının inkişafında ümumi maraqlarını qeyd edərək,

dostluq əlaqələrinin qorunması və inkişaf etdirilməsi amili kimi gənclər əməkdaşlığının inkişaf etdirilməsi üçün əlverişli şəraitin yaradılmasına çalışdıqlarını ifadə edərək,

cəmiyyətin inkişafının müasir mərhələsində gənclərin artan rolunu nəzərə alaraq, hüquq bərabərliyi prinsipi əsasında beynəlxalq gənclər əməkdaşlığını genişləndirmək və təkmilləşdirmək, bu məqsədlərlə dövlət orqanları, ictimai gənclər birlikləri və dövlət gənclər siyasətinin həyata keçirilməsində iştirak edən digər təşkilatlar (birliklər) arasında geniş əlaqələrin qurulması arzularını təsdiq edərək,

gənclərlə iş sahəsində əməkdaşlığın xalqlar arasında qarşılıqlı anlaşma və dostluğun möhkəmlənməsinə, ümumbəşəri dəyərlərin bərqərar olmasına kömək etdiyini hesab edərək,

aşağıdakılar barədə Saziş bağladılar:

Maddə 1

1.1. Saziş gənclər siyasətinin formalaşmasına və həyata keçirilməsinə, şəxsiyyətin hərtərəfli və harmonik inkişafına və tərbiyə olunmasına, insan və vətəndaşın ehtiyaclarının təmin olunması üçün şəraitin yaradılmasına, sağlam həyat tərzinin təbliğ olunmasına və həmçinin öz fəaliyyətlərini həyata keçirərkən Tərəflərin qarşılıqlı maraqlar sahəsinə yönəlmiş birgə fəaliyyətin müəyyən olunması məqsədini daşıyır.

1.2. Saziş həmçinin Tərəflərin əsas münasibətlərinin, əməkdaşlıq formalarının, birgə proqramların həyata keçirilməsi üzrə fəaliyyətlərinin prioritet istiqamətlərinin müəyyən olunması məqsədini daşıyır.

Maddə 2

2.1. Tərəflər yaxın və uzunmüddətli perspektiv üçün birgə tədbirlər planlarının, birgə tədbirlərin maliyyə və təşkilati-metodik təminatında pay iştirakının razılaşdırılması yolu ilə əlaqələndirilmiş iş aparacaqlar.

2.2. Tərəflər bu Saziş çərçivəsində aşağıdakı əməkdaşlıq formalarından istifadə edəcəklər:

işçi qruplarının, təşkilat komitələrinin yaradılması və mütəxəssislərin mübadiləsi də daxil olmaqla, tədbirlərin keçirilməsi zamanı qarşılıqlı fəaliyyət;

gənc vətəndaşların tərbiyəsi və inkişafına, onların Azərbaycan Respublikasının və Belarus Respublikasının ictimai həyatına cəlb olunmasına yönəlmiş uzunmüddətli və qısamüddətli proqramların tərtib olunmasında və həyata keçirilməsində birgə iştirak;

gənclər ictimai birliklərinin Azərbaycan Respublikasında və Belarus Respublikasında Tərəflərin gənclər siyasətinin həyata keçirilməsinə istiqamətlənmiş tədbirlərində iştirak etməyə cəlb olunmaları və dəstəklənmələri;

kadrların hazırlanması sahəsində qarşılıqlı fəaliyyət;

beynəlxalq gənclər əməkdaşlığı məsələlərində qarşılıqlı fəaliyyət;

informasiya-metodik əməkdaşlıq.

2.3. Tərəflər aşağıdakıları fəaliyyətlərinin prioritet istiqamətləri hesab edirlər:

gənc vətəndaşların, gənclər ictimai birliklərinin ictimai əhəmiyyətli təşəbbüslərinin, ictimai faydalı fəaliyyətinin həyata keçirilməsi;

gənc vətəndaşların vətəndaş-vətənpərvərlik tərbiyəsi;

gənc vətəndaşların sağlam həyat tərzi sürməyə alışdırılması;

gənc vətəndaşların yaradıcılıq potensialının aşkara çıxarılması;

gənc vətəndaşların məşğulluğunun və istirahətinin təşkili;

beynəlxalq gənclər əməkdaşlığının inkişaf etdirilməsi.

2.4. Əməkdaşlığın bu Sazişdə sadalanan forma və növlərinin və eləcə də fəaliyyətlərin prioritet istiqamətlərinin siyahısı tam deyil və Tərəflərin əməkdaşlığının digər forma və istiqamətlərinin məhdudlaşdırılmasına əsas ola bilməz.

2.5. Bu Saziş çərçivəsində keçirilən tədbirlərin bütün maliyyə şərtləri Tərəflər arasında əvvəlcədən Tərəflərin qanunvericiliyinə müvafiq olaraq razılaşdırılacaqdır.

Maddə 3

3.1. Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında Tərəflərin diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

3.2. Bu Saziş qüvvəyə mindiyi tarixdən etibarən 5 il müddətində qüvvədə olacaqdır. Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılacaqdır.

3.3. Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və 3.1-ci bənddə nəzərdə tutulan qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

3.4. Sazişin müddəalarının təfsiri və ya tətbiqi zamanı ortaya çıxan mübahisələr Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll olunacaqdır.

Minsk şəhərində 12 noyabr 2009-cu il tarixində, hər biri Azərbaycan və rus dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır və bütün mətnlər eyni hüquqi qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	BELARUS RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
YAQUB EYYUBOV	*ALEKSANDR RADKOV*
Baş nazirinin birinci müavini	*Təhsil naziri*

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Belarus Respublikasının Dövlət Təhlükəsizlik Komitəsi arasında məxfi informasiyanın mühafizəsinin təmin edilməsində qarşılıqlı əlaqəyə dair Saziş

Bundan sonra "səlahiyyətli orqanlar" adlandırılacaq Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Belarus Respublikasının Dövlət Təhlükəsizlik Komitəsi,

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında məxfi informasiyanın qarşılıqlı mühafizəsi haqqında 2 may 2007-ci il tarixli Sazişə (bundan sonra - 2007-ci il tarixli Saziş) əsaslanaraq,

2007-ci il tarixli Saziş çərçivəsində ötürülən, qəbul olunan, eləcə də beynəlxalq əməkdaşlığın həyata keçirilməsi prosesində yaranmış məxfi informasiyanın mühafizəsinin təmin edilməsi məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Sazişin məqsədləri üçün 2007-ci il tarixli Sazişin 1-ci maddəsində nəzərdə tutulmuş terminlərdən istifadə olunur.

Maddə 2

Bu Sazişin predmetini ötürülən, alınan, eləcə də beynəlxalq əməkdaşlığın həyata keçirilməsi prosesində yaranmış məxfi informasiyanın mühafizəsinin təmin edilməsində səlahiyyətli orqanların qarşılıqlı əlaqə qaydasının müəyyən edilməsi təşkil edir.

Maddə 3

Müvəkkil edilmiş orqanların qarşılıqlı əlaqəsinin təşkil edilməsi məqsədilə, səlahiyyətli orqanlar öz dövlətlərində milli qanunvericiliyə uyğun məxfi informasiya ilə işləmək hüququ olan məxfi informasiyadan istifadə etməklə əməkdaşlığın həyata keçirilməsini planlaşdıran təşkilatların mövcudluğu barədə məlumat mübadiləsini həyata keçirirlər.

Azərbaycan Respublikasının və ya Belarus Respublikasının müvəkkil edilmiş orqanı məxfi informasiyanın Belarus Respublikasının və ya Azərbaycan Respublikasının təşkilatına ötürülməsindən əvvəl öz dövlətinin səlahiyyətli orqanına digər dövlətin təşkilatının məxfi informasiya ilə işləmək hüququnun olub-olmaması barədə yazılı sorğu göndərir.

Bir dövlətin səlahiyyətli orqanı digər dövlətin səlahiyyətli orqanına təşkilatın məxfi informasiya ilə işləmək hüququnun mövcudluğu barədə sorğu göndərir və alınmış məlumat əsasında məxfi işlərin yerinə yetirilməsinə və (və ya) məxfi informasiyanın ötürülməsinə dair sifarişin verilməsi mümkünlüyünü razılaşdırır.

Təşkilatın məxfi informasiya ilə işləmək hüququnun mövcudluğu barədə məlumat sorğu etmiş səlahiyyətli orqana sorğunun alındığı tarixdən sonra 30 gün ərzində göndərilir.

Səlahiyyətli orqanlar Azərbaycan Respublikasının və Belarus Respublikasının təşkilatları tərəfindən həyata keçirilən məxfi informasiyadan istifadə ilə bağlı mövcud beynəlxalq əməkdaşlıq barədə bir-birini məlumatlandırırlar.

Maddə 4

Səlahiyyətli orqanlar öz dövlətinin qanunvericiliyinə uyğun olaraq nəzarəti həyata keçirirlər:

müvəkkil edilmiş orqanlar tərəfindən bağlanılan məxfi informasiyadan istifadəni nəzərdə tutan müqavilələrə (kontraktlara) 2007-ci il tarixli Sazişin 8-ci maddəsində göstərilmiş məxfi informasiyanın mühafizəsi üzrə müddəaların daxil edilməsinə;

alınmış və ya əməkdaşlıq prosesində yaranmış məxfi informasiyaya, eyni məxfilik dərəcəli öz məxfi informasiyalarına tətbiq olunan mühafizə tədbirlərinin tətbiqinə, həmçinin 2007-ci il tarixli Sazişin 3-cü maddəsinə uyğun olaraq alınmış və ya yaranmış məxfi informasiya daşıyıcılarına məxfilik qrifinin qoyulmasına;

alınmış məxfi informasiyanın ötürülərkən nəzərdə tutulmuş məqsədlərə uyğun istifadəsinə;

bu Sazişin 3-cü maddəsinə uyğun olaraq, öz dövlətinin yalnız məxfi informasiya ilə işləmək hüququ təsdiq edilmiş müvəkkil orqanından alınmış məxfi informasiyadan istifadəsinə;

məxfi informasiyaya müvafiq buraxılışı olan və məxfi informasiya ötürülərkən nəzərdə tutulmuş məqsədlər üzrə xidməti vəzifələrini yerinə yetirmək üçün bu informasiya lazım olan şəxslərə alınmış məxfi informasiyaya buraxılışın verilməsinə;

2007-ci il tarixli Sazişlə nəzərdə tutulmuş qaydada alınmış və ya əməkdaşlıq prosesində yaranmış məxfi informasiyanın məxfilik dərəcəsinin dəyişdirilməsinə və ya məxfiliyin açılmasına.

Səlahiyyətli orqanlar məxfi informasiyanın mühafizəsinin təşkil və təmin edilməsi üzrə nəzarətin və həyata keçirilmiş tədbirlərin nəticələri haqqında bir-birini məlumatlandırırlar.

Maddə 5

Səlahiyyətli orqanlar, məxfi işlərin yerinə yetirilməsi üzrə müqaviləyə (kontrakta) məxfi informasiyanın mühafizəsi üçün əlavə tədbirlərin daxil edilməsi zərurəti yarandıqda məsləhətləşmələr keçirir və bu tədbirləri razılaşdırırlar.

Maddə 6

Məxfi informasiyanın iritutumlu daşıyıcılarının ötürülməsi zamanı səlahiyyətli orqanların qarşılıqlı əlaqəsi qaydası onlar tərəfindən razılaşma üzrə müəyyən edilir.

Maddə 7

Müvəkkil edilmiş orqanların nümayəndələrinin məxfi informasiyaya buraxılış nəzərdə tutan səfərlərinin təşkili zamanı, səlahiyyətli orqanlar fiziki şəxsin məxfi informasiya ilə tanış olması və işləməsi hüququnun təsdiqi məqsədilə lazımi məlumat mübadiləsini həyata keçirirlər.

Maddə 8

Alınmış və ya müvəkkil edilmiş orqanların əməkdaşlığı prosesində yaranmış məxfi informasiyanın sanksiyalaşdırılmamış yayılması faktı barədə ərazisində məxfi informasiyanın sanksiyalaşdırılmamış yayılması faktı baş vermiş dövlətin səlahiyyətli orqanı dərhal digər dövlətin səlahiyyətli orqanını məlumatlandırır.

Səlahiyyətli orqanlar məxfi informasiyanın sanksiyalaşdırılmamış yayılması faktı, vurulmuş ziyanın ölçülərinin müəyyən edilməsi və mənfi nəticələrin qarşısının alınması üçün tədbirlərin hazırlanması üzrə araşdırmanın həyata keçirilməsi zamanı qarşılıqlı əlaqədə fəaliyyət göstərirlər.

Araşdırmanın həyata keçirilməsi zamanı səlahiyyətli orqanlar qarşılıqlı razılıq əsasında bir-birlərinə öz nümayəndələrini göndərə bilərlər. Belə şəxslərin ezamiyyəti ilə bağlı bütün xərclərin ödənilməsi, digər hallara dair razılıq əldə edilməmişdirsə, göndərən səlahiyyətli orqan tərəfindən həyata keçirilir.

Məxfi informasiyanın sanksiyalaşdırılmamış yayılması faktı üzrə araşdırmaların nəticələri haqqında səlahiyyətli orqanlar bir-birini və zərurət olduqda, məxfi informasiyanın mühafizəsi üzrə tədbirlərin görülməsi məqsədilə öz dövlətlərinin Hökumətini məlumatlandırırlar.

Maddə 9

Səlahiyyətli orqanlar alınmış və ya əməkdaşlıq prosesində yaranmış məxfi informasiyaya üçüncü şəxs tərəfindən maraq göstərilməsi faktları barədə bir-birini dərhal məlumatlandırırlar.

Maddə 10

Səlahiyyətli orqanlar öz dövlətinin qanunvericiliyi və beynəlxalq müqavilələrlə nəzərdə tutulmuş qaydada məxfi informasiyanın sanksiyalaşdırılmamış yayılmasında təqsirli şəxslərin cinayət təqibində bir-birinə kömək göstərirlər.

Maddə 11

Səlahiyyətli orqanlar 2007-ci il tarixli Sazişin həyata keçirilməsi məqsədilə lazımi informasiyanı, məxfi informasiyanın mühafizəsinin təşkili və təmini üzrə iş təcrübəsini, məxfi informasiyanın mühafizəsi sahəsində öz dövlətlərinin qanunvericilik və digər normativ hüquqi aktlarını mübadilə edir, onlardan birinin xahişi ilə məsləhətləşmələr aparır, eləcə də başqa cür əməkdaşlıq edirlər.

Maddə 12

Bu Sazişin müddəalarının şərhi və tətbiqi ilə əlaqədar ortaya çıxan mübahisəli məsələlər və ya fikir ayrılıqları səlahiyyətli orqanlar arasında məsləhətləşmələr və danışıqlar yolu ilə həll ediləcəkdir.

Maddə 13

Səlahiyyətli orqanlar qarşılıqlı razılığa əsasən bu Sazişə, onun ayrılmaz hissəsi olan ayrıca protokollarla rəsmiləşdirilən və 14-cü maddəyə uyğun qüvvəyə minən əlavə və dəyişikliklər edə bilərlər.

Maddə 14

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan müvafiq dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə sonuncu yazılı bildirişin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir və məxfi informasiyanın 2007-ci il tarixli Sazişin 16-cı maddəsində nəzərdə tutulmuş mühafizə tədbirlərinin tətbiqinin başa çatması müddətinə qədər qüvvədə qalır.

Səlahiyyətli orqanlar diplomatik kanallar vasitəsilə yazılı bildiriş təqdim etməklə bu Sazişin qüvvəsinə xitam verə bilərlər. Saziş belə bildirişin alındığı tarixdən altı (6) ay sonra qüvvədən düşmüş hesab edilir.

Bu Saziş Minsk şəhərində 12 noyabr 2009-cu il tarixində, hər biri Azərbaycan və rus dillərində olmaqla, iki nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ TƏHLÜKƏSİZLİK NAZİRLİYİ ADINDAN	BELARUS RESPUBLİKASININ DÖVLƏT TƏHLÜKƏSİZLİK KOMİTƏSİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*VADİM ZAYTSEV*
Xarici işlər naziri	*Komitəsinin sədri*

Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Belarus Respublikasının Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq üzrə Sazişin 2010-2011-ci illərdə həyata keçirilməsi barədə Protokol

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Belarus Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Belarus Respublikasının Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında 17 oktyabr 2006-cı il tarixində Minsk şəhərində imzalanmış Sazişə əsasən, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Protokolun qüvvədə olma müddəti ərzində Tərəflər hər iki ölkənin peşə və orta ümumtəhsil sistemi ilə tanışlıq məqsədilə tərkibinə 3 nəfərədək mütəxəssisin daxil olduğu nümayəndə heyətinin beş gün müddətində səfər mübadiləsi imkanlarını nəzərdən keçirəcəklər.

Nümayəndə heyətinin qəbul edən dövlətə gediş və gəliş xərclərini, eləcə də yaşayış və tibbi sığorta ilə bağlı xərcləri göndərən Tərəf ödəyir.

Qəbul edən Tərəf səfər proqramının təşkili, o cümlədən proqramın yerinə yetirilməsi ilə əlaqədar ölkədaxili nəqliyyat xərclərini öz üzərinə götürür.

Maddə 2

Tərəflər texniki-peşə təhsili alınmasını təmin edən Belarus tədris müəssisələrində Azərbaycan vətəndaşları üçün texniki-peşə təhsili və tədrisinin təşkil edilməsi məsələləri ilə bağlı məsləhətləşmələr keçirəcəklər.

Maddə 3

Tərəflər öz ölkələrinin aparıcı ali məktəblərinə 2010-cu il ərzində tələbə, aspirant və stajçıların mübadiləsi də daxil olmaqla, birbaşa əməkdaşlığın qurulmasını təklif edəcəklər.

Maddə 4

Tərəflər 2010-2011-ci illər ərzində, staj müddəti 1 aydan az olmamaq şərtilə, ümumi müddəti 8 aya qədər olan müddətdə stajçıların qarşılıqlı mübadiləsini həyata keçirəcəklər.

Staja göndəriləcək namizədlərin seçimini göndərən Tərəf həyata keçirir. Göndərən Tə-

rəf stajın başlanması güman edilən müddətə 2 ay qalmış qəbul edən Tərəfə namizədlərin aşağıdakı sənədlərini təqdim edir:

1) namizədin pasportunun surəti;

2) akademik arayış əlavə olunmaqla təhsil haqqında sənədin notarial qaydada təsdiqlənmiş surəti;

3) sağlamlıq haqqında arayış;

4) 2 fotoşəkil.

Maddə 5

Qəbul edən Tərəf bu Protokolun 4-cü maddəsinə uyğun olaraq aşağıdakıları təmin edir:

1) təhsil haqqını ödəməkdən azadetmə;

2) tədris binalarından, laboratoriya və kitabxanadan pulsuz istifadə;

3) tələbə yataqxanalarında yaşama, həmçinin universitetin mədəni və idman obyektlərindən qəbul edən dövlətin vətəndaşları ilə eyni şərtlərlə istifadə etmək.

Maddə 6

Bu Protokol çərçivəsində mübadilədə iştirak edən şəxslərə, zərurət olduğu təqdirdə, pulsuz təcili tibbi yardım göstərilir.

Sonrakı müalicənin xərcləri, qəbul edən Tərəfin dövlətinin ərazisinə gələrkən olması məcburi qaydada tələb olunan tibbi sığortaya uyğun ödənilir.

Maddə 7

Bu Protokol imzalandığı gündən qüvvəyə minir və 2011-ci ilin sonunadək etibarlı olacaqdır.

2011-ci ilin sonunadək Tərəflər 2012-2013-cü illər üçün Protokol layihələrinin qarşılıqlı mübadiləsini həyata keçirəcəklər.

Bu Protokol Minsk şəhərində 12 noyabr 2009-cu il tarixində hər biri Azərbaycan və rus dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni hüquqi qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ ADINDAN	BELARUS RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*ALEKSANDR RADKOV*
Xarici işlər naziri	*Təhsil naziri*

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Belarus Respublikasının Dövlət Sərhəd Komitəsi arasında əməkdaşlığa dair Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Belarus Respublikasının Dövlət Sərhəd Komitəsi,

beynəlxalq hüququn ümumi tanınmış prinsiplərinə riayət edərək,

dostluq əlaqələrini inkişaf etdirmək, sərhəd mühafizəsi sahəsində Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Belarus Respublikasının Dövlət Sərhəd Komitəsi arasında bərabərhüquqlu əməkdaşlığı həyata keçirmək arzusunu ifadə edərək,

öz səlahiyyətləri çərçivəsində əməkdaşlıq prinsiplərinin müəyyən olunması məqsədilə qarşılıqlı əməkdaşlığın həyata keçirilməsi arzusunu təsdiq edərək,

transmilli mütəşəkkil cinayətkarlığın, o cümlədən beynəlxalq terrorçuluq, qaçaqmalçılıq, insan alveri, qeyri-leqal miqrasiya təhlükəsini və digər təhdidləri nəzərə alaraq, eləcə də bu təhdidlərin qarşısının alınmasında beynəlxalq əməkdaşlığın böyük rolunu qeyd edərək,

aşağıdakılar barədə razılığa gəlmişlər:

Maddə 1

Tərəflər, səlahiyyətləri çərçivəsində, dövlətlərinin tərəfdar çıxdığı beynəlxalq müqavilələrin, habelə milli qanunvericiliklərinin tələblərinə riayət edərək, aşağıdakı sahələr üzrə əməkdaşlıq edirlər:

1. qanunsuz miqrasiya, insan alveri və qaçaqmalçılıqla mübarizə;

2. beynəlxalq terrorçuluq, transmilli mütəşəkkil cinayətkarlığın təzahürləri, o cümlədən silah və sursatın, partlayıcı maddələrin, narkotik və psixotrop maddələrin, radioaktiv materialların, dövlət sərhədindən keçirilməsi qadağan olunmuş mal və əşyaların qaçaqmalçılığı, eləcə də dövlət sərhədlərində digər potensial təhdidlərə qarşı mübarizə;

3. beynəlxalq təşkilatlar və üçüncü ölkələrin sərhəd mühafizə xidmətləri ilə əməkdaşlıq çərçivəsində razılaşdırılmış tədbirlərin həyata keçirilməsi, ikitərəfli və çoxtərəfli səviyyədə əməkdaşlığın gücləndirilməsi;

4. Tərəflərin şəxsi heyətinin peşə hazırlığının artırılması, habelə təhsil müəssisələri arasında ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi;

5. aşağıdakı istiqamətlər üzrə təcrübə mübadiləsi və əməkdaşlığın inkişaf etdirilməsi:

sərhəd xidməti orqanlarının aviasiyası;

sərhəd nəzarəti məntəqələrində xidməti fəaliyyət;

saxta sənədlərin aşkarlanması;

kinologiya və xidməti itlərin hazırlığı;

əməliyyat-axtarış fəaliyyəti;

6. maddi-texniki təminat bazasının təkmilləşdirilməsi;

7. qarşılıqlı maraq doğuran digər məsələlər.

Maddə 2

Bu Sazişin həyata keçirilməsi məqsədilə Tərəflər:

1. qabaqcıl təcrübə və açıq məlumatın mübadiləsini həyata keçirirlər;

2. birgə məsləhətləşmələr aparırlar;

3. Tərəflərin dövlət sərhədlərinin təhlükəsizliyinin təmin edilməsi üzrə razılaşdırılmış tədbirlər görürlər;

4. rəsmi səfərlər və o cümlədən ekspert səfərlərini təşkil edirlər;

5. konfrans, seminar, peşə səviyyəsinin artırılması üzrə tədbirlər, habelə digər zəruri təlimlər təşkil edirlər;

6. Tərəflərin təşkil etdiyi təlimlərdə və birgə əməliyyatlarda iştirak edirlər;

7. birgə beynəlxalq layihələrdə iştirak edirlər;

8. Tərəflərin təhsil müəssisələri arasında təlim proqramlarının hazırlanması sahəsində təcrübə mübadiləsini həyata keçirirlər.

Maddə 3

Tərəflər arasında əməkdaşlıq aşağıda göstərilən qaydada təşkil olunur:

1. Ardıcıl olaraq ildə bir dəfə Tərəflərin rəhbərlərinin səfərlərinin təşkili.

2. Sərhəd qurumlarının rəhbərləri tərəfindən müəyyən olunmuş istiqamətlərə uyğun olaraq Tərəflərin aşağıda göstərilən səlahiyyətli bölmələri tərəfindən zəruri tədbirlərin təşkil edilməsi və həyata keçirilməsi:

Azərbaycan tərəfindən:

Dövlət Sərhəd Xidmətinin Beynəlxalq Əlaqələr Baş İdarəsi;

Belarus tərəfindən:

Dövlət Sərhəd Komitəsinin Beynəlxalq Əməkdaşlıq İdarəsi.

3. Tərəflərin struktur bölmələri öz səlahiyyətləri çərçivəsində cari məlumatı mübadilə etmək hüququna malikdirlər.

Maddə 4

Tərəflər arasında əvvəlcədən digər hal razılaşdırılmamışdırsa, səfərlərin təşkilinin maliyyələşdirilməsi ilə əlaqədar xərcləri qəbul edən Tərəf ödəyir, təşkil olunmuş görüşlərdə iştirakla əlaqədar xərcləri isə göndərən Tərəf üzərinə götürür.

Maddə 5

Tərəflər əməkdaşlıq müddətində əldə edilən məlumatın konfidensiallığının qorunmasını təmin edir, habelə həmin məlumatı təqdim edən Tərəfin maraqlarına qarşı istifadə olunmayacağı və Tərəflərin yazılı razılığı olmadan üçüncü tərəflərə verilməyəcəyi öhdəliyini öz üzərinə götürürlər.

Maddə 6

Bu Sazişin müddəaları Tərəflərin dövlətlərinin iştirakçısı olduğu beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərinə təsir etməyəcək və digər dövlətlərin mənafeyinə, təhlükəsizliyinə və ərazi bütövlüyünə qarşı istifadə edilməyəcəkdir.

Maddə 7

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə, onun ayrılmaz hissəsi olan və 8-ci maddədə müəyyən olunmuş qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavələr və dəyişikliklər edilə bilər.

Maddə 8

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

Tərəflərdən hər biri istənilən vaxt digər Tərəfə bu Sazişə xitam vermək niyyəti barədə yazılı bildiriş göndərə bilər. Bu Sazişə bu cür bildirişin alındığı tarixdən altı ay sonra xitam veriləcəkdir.

Minsk şəhərində 12 noyabr 2009-cu il tarixində, hər biri Azərbaycan və rus dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər autentikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT SƏRHƏD XİDMƏTİ ADINDAN	BELARUS RESPUBLİKASININ DÖVLƏT SƏRHƏD XİDMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV *Xarici işlər naziri*	*SERGEY MARTINOV* *Xarici işlər naziri*

Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi və Belarus Respublikasının Ədliyyə Nazirliyi arasında arxiv işi sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi və Belarus Respublikasının Ədliyyə Nazirliyi,

Azərbaycan Respublikasının və Belarus Respublikasının zəngin tarixi-mədəni irsə malik olduqlarını etiraf edərək,

Azərbaycan Respublikası və Belarus Respublikası arasında ənənəvi dostluq və qarşılıqlı faydalı əməkdaşlığın inkişafının onların özünəməxsusluğuna, tarixinə, mədəniyyətinə və nailiyyətlərinə hörmətə əsaslandığından və bunun da Tərəflərin dövlətlərinin arxiv materiallarının öyrənilməsi və istifadəsini ehtimal etdiyindən çıxış edərək,

Azərbaycan Respublikası və Belarus Respublikası arasında bağlanmış dostluq və əməkdaşlıq haqqında 2007-ci il 2 may tarixli Sazişə uyğun olaraq,

Azərbaycan Respublikası və Belarus Respublikası arxiv təşkilatları arasında əlaqələrin inkişafına səyləri rəhbər tutaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər beynəlxalq hüququn ümumtanınmış prinsip və normaları, Tərəflərin dövlətlərinin arxiv işi sahəsində milli qanunvericiliklərinə uyğun olaraq bərabərlik və qarşılıqlı əsasında əməkdaşlığı inkişaf etdirirlər.

Maddə 2

Tərəflər öz səlahiyyətləri çərçivəsində və dövlətlərinin milli qanunvericiliklərinə uyğun olaraq, arxiv işi sahəsində normativ və hüquqi aktların, məlumat və sənədlərin, arxivşünaslıq, arxeoqrafiya və sənədşünaslıq məsələlərinə aid ədəbiyyatın, habelə qarşılıqlı maraq doğuran arxiv sənədlərinin nəşrlərinin mübadiləsini həyata keçirirlər.

Maddə 3

Tərəflər arxiv işi və sənədşünaslıq sahəsində təcrübə mübadiləsini həyata keçirirlər.

Maddə 4

Tərəflər Azərbaycan Respublikasının və Belarus Respublikasının tədqiqatçılarına Tərəflərin dövlət arxivlərində saxlanan sənəd irsinin öyrənilməsi işində yardım edirlər. Tərəflərdən hər biri milli qanunvericiliklərinə müvafiq olaraq digər Tərəfin tədqiqatçılarının arxiv fondlarına, elmi-məlumat aparatına, nəşr olunmuş və olunmamış məlumat materiallarına buraxılmasını təmin edirlər.

Maddə 5

Tərəflər Azərbaycan Respublikası və Belarus Respublikası xalqlarının tarixi və mədəniyyəti barədə informasiyanı əks etdirən sənədlərlə milli arxiv fondlarını artırmaq məqsədilə, onların aşkar olunması və surətlərinin Tərəflərin dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq bir-birinə verilməsinə kömək edirlər.

Maddə 6

Tərəflər öz dövlətlərinin milli qanunvericiliyinə müvafiq olaraq, Tərəflərin dövlətlərinin vətəndaşlarının və təşkilatlarının sosial-hüquqi xarakterli sorğularının icrasında bir-birinə yardım etmələri üçün arxiv sənədlərindən istifadə edirlər.

Maddə 7

Bu Saziş əsasında alınmış informasiyadan onu verən Tərəfin yazılı razılığı olmadan, belə informasiyanın sorğu və ya təqdim edildiyi məqsədlərdən fərqli məqsədlər üçün istifadə edilə bilməz.

Bu Saziş əsasında Tərəflərdən biri digər Tərəfdən aldığı informasiyanı ona verən Tərəfin əvvəlcədən yazılı razılığı olmadan üçüncü tərəfə verə bilməz.

Maddə 8

Tərəflər bu Sazişin yerinə yetirilməsi zamanı meydana çıxan xərcləri, əgər hər bir konkret hal üçün digər qayda razılaşdırılmayacaqsa, Tərəflərin dövlətlərinin milli qanunvericiliyində nəzərdə tutulmuş vəsait çərçivəsində özləri ödəyirlər.

Maddə 9

Bu Saziş Tərəflərin iştirakçısı olduğu digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

Maddə 10

Bu Sazişə Tərəflərin qarşılıqlı razılığı əsasında, onun ayrılmaz hissəsi olan ayrıca protokolla rəsmiləşdirilən və 12-ci maddədə müəyyən edilmiş qaydada qüvvəyə minən dəyişikliklər və əlavələr edilə bilər.

Maddə 11

Bu Sazişin müddəalarının şərhi və tətbiqi zamanı meydana çıxan mübahisə və fikir ayrılıqları Tərəflər arasında məsləhətləşmələr və danışıqlar yolu ilə həll edilir.

Maddə 12

Bu Saziş imzalandığı gündən qüvvəyə minir.

Tərəflərdən hər biri istənilən vaxt digər Tərəfə bu Sazişə xitam vermək niyyəti barədə yazılı bildiriş göndərə bilər. Sazişə bu cür bildirişin alındığı tarixdən altı ay sonra xitam veriləcəkdir.

Bu Sazişin qüvvədən düşməsi Tərəflərin onun müddəaları əsasında razılaşdırılmış və qüvvədən düşmə anında icrası başa çatdırılmamış layihə və proqramları yerinə yetirməsinə təsir etməyəcəkdir.

Bu Saziş Minsk şəhərində 12 noyabr 2009-cu il tarixində, hər biri Azərbaycan, Belarus və rus dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır. Bütün mətnlər eyni hüquqi qüvvəyə malikdir. Sazişin müddəalarının təfsirində fikir ayrılığı yarandığı təqdirdə, Tərəflər rus dilində olan mətnə müraciət edəcəklər.

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ ARXİV İDARƏSİ ADINDAN	BELARUS RESPUBLİKASININ ƏDLİYYƏ NAZİRLİYİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*SERGEY MARTINOV*
Xarici işlər naziri	*Xarici işlər naziri*

Azərbaycan Respublikasının Şəki rayonu və Belarus Respublikasının Minsk vilayətinin Slutsk rayonu arasında əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Şəki rayonu və Belarus Respublikasının Minsk vilayətinin Slutsk rayonu,

Azərbaycan Respublikası və Belarus Respublikası arasında olan dostluq münasibətlərindən çıxış edərək,

qarşılıqlı hörmət, etimad və hüquq bərabərliyi prinsipləri əsasında qarşılıqlı və faydalı əməkdaşlığın canlandırılmasına və inkişaf etdirilməsinə çalışaraq,

qarşılıqlı münasibətlərin müxtəlif sahələrində dostluq əlaqələrinin saxlanılmasının vacibliyini etiraf edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər əməkdaşlığı Azərbaycan Respublikasının milli qanunvericiliyinə və Belarus Respublikasının milli qanunvericiliyinə uyğun olaraq həyata keçirirlər.

Maddə 2

2.1. Tərəflər öz fəaliyyətləri və sosial-iqtisadi inkişafın nəticələri barədə informasiya mübadiləsi aparırlar.

2.2. Regionlararası əlaqələrin yaradılması və inkişafı məqsədilə Tərəflər rəsmi nümayəndə heyətlərinin və təsərrüfat fəaliyyətinin müxtəlif sahələri üzrə mütəxəssislərin mübadiləsini həyata keçirəcək, yerli idarəetmə orqanlarının iş təcrübəsinin mübadiləsini aparacaqlar.

2.3. Tərəflər hesab edirlər ki, əməkdaşlığın həyata keçirilməsində mülkiyyət formasından və idarə tabeliyindən asılı olmayaraq müəssisə və təşkilatlar iştirak edə bilər.

2.4. Tərəflər ticarət və iqtisadi əməkdaşlığın səmərəliliyini artırmaq məqsədilə öz ərazilərində istehsal olunan ixracat mallarının və əsas xidmət növlərinin siyahılarının mübadiləsini həyata keçirirlər.

2.5. Tərəflər öz ərazilərində qeydiyyatda olan təsərrüfat subyektləri arasında ticarət və iqtisadi əlaqələrin qurulmasına, saxlanılmasına və genişlənməsinə yardım göstərmək, mühüm istehsalat və texniki təyinatlı məhsul növlərinin və istehlak mallarının qarşılıqlı tədarükünün həyata keçirilməsinə kömək etmək öhdəliyini öz üzərlərinə götürürlər.

2.6. İstehsalat kooperasiyasının inkişafı, əhalinin istehsalat və texniki təyinatlı məhsul növlərinə və istehlak mallarına tələbatının daha tam təminatı məqsədilə Tərəflər öz səlahiyyətləri çərçivəsində, iqtisadi maraqlarını nəzərə alaraq birgə investisiya fəaliyyətini dəstəkləyirlər.

2.7. Tərəflər sərgi və yarmarka fəaliyyətini əlaqələndirmək məqsədilə qabaqcadan regionlararası və beynəlxalq sərgi və yarmarkaların, həmçinin xarici iqtisadi və investisiya forumlarının, seminarların, konfransların və başqa tədbirlərin təşkili və keçirilməsi planlarını mübadilə edirlər.

2.8. Tərəflər mədəniyyət, səhiyyə, təhsil, idman və turizm, ictimai təşkilatlar arasında birbaşa əlaqələrin yaradılmasına yardım edirlər.

2.9. Tərəflər öz səlahiyyətləri çərçivəsində və öz milli qanunvericiliyinə uyğun olaraq bu Sazişdə göstərilməyən digər sahələrdə əməkdaşlıq etmək hüququna malikdirlər.

Maddə 3

Bu Sazişə Tərəflərin qarşılıqlı razılığı ilə Sazişin ayrılmaz hissəsi olan, ayrıca protokollarla rəsmiləşdirilən və Sazişin 3-cü maddəsi ilə müəyyən edilmiş qaydada qüvvəyə minən əlavələr və dəyişikliklər edilə bilər.

Maddə 4

3.1. Bu Saziş imzalandığı gündən qüvvəyə minir və 10 il müddətində qüvvədədir. Gələcəkdə Sazişin müddəti növbəti il üçün uzadıla bilər, bu şərtlə ki, Tərəflərdən heç biri Sazişin qüvvədə olma müddətinin bitməsinə ən azı 2 ay qalmış digər Tərəfə yazılı şəkildə həmin Sazişi ləğv etmək niyyətini bildirmiş olmasın.

3.2. Saziş qüvvədə olduğu müddətdə Tərəflərin yazılı şəkildə ifadə etdikləri qarşılıqlı razılaşma əsasında ləğv edilə bilər. Saziş Tərəflərdən birinin onu ləğv etmək niyyətini

yazılı şəkildə bildirdiyi andan başlayaraq 2 ay bitdikdən sonra ləğv edilmiş sayılır.

Minsk şəhərində 12 noyabr 2009-cu il tarixində hər biri Azərbaycan və rus dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır. Bütün mətnlər autentikdir.

AZƏRBAYCAN RESPUBLİKASI ŞƏKİ ŞƏHƏR İCRA HAKİMİYYƏTİ ADINDAN	BELARUS RESPUBLİKASI SLUTSK RAYON İCRAİYYƏ KOMİTƏSİ ADINDAN
(imza)	*(imza)*

2009-cu il dekabrın 9-da Paris şəhərində imzalanmış "Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Fransa Respublikasının Dövlət Büdcəsi, Mühasibatı, Qulluğu və İslahatı Nazirliyinin Dövlət Maliyyəsi Baş İdarəsi arasında texniki əməkdaşlıq Sazişi"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2009-cu il dekabrın 9-da Paris şəhərində imzalanmış "Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Fransa Respublikasının Dövlət Büdcəsi, Mühasibatı, Qulluğu və İslahatı Nazirliyinin Dövlət Maliyyəsi Baş İdarəsi arasında texniki əməkdaşlıq Sazişi" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Vergilər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Fransa Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 fevral 2010-cu il

№ 730

Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Fransa Respublikasının Dövlət Büdcəsi, Mühasibatı, Qulluğu və İslahatı Nazirliyinin Dövlət Maliyyəsi Baş İdarəsi arasında texniki əməkdaşlıq Sazişi

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Fransanın Dövlət Maliyyə Baş İdarəsi (bundan sonra DMBİ kimi göstəriləcəkdir),

Vergi sahəsində dəstəklənən əməkdaşlığın hər iki Tərəflərə səmərəli olacağını və ölkələr arasında münasibətləri möhkəmləndirəcəyini nəzərə alaraq,

Vergi idarəçiliyi sahəsində ikitərəfli əməkdaşlığın əhəmiyyətini dərk edərək,

aşağıdakılar barədə razılığa gəldilər :

Maddə 1

Tərəflər arasında təcrübə mübadilələri aşağıdakı sahələri əhatə edəcəkdir:

1. təşkilat modelləri;

2. idarəçiliyə nəzarət;

3. vergi idarəçiliyi;

4. informasiya texnologiyalarını istifadəsi;

5. treninqlər;

6. vergi ödəyicisinə göstərilən xidmət;

7. və iki vergi orqanı üçün maraq doğuracaq bütün digər sahələr.

Maddə 2

Sözü gedən əməkdaşlıq, tərəflərin müəyyən etdiyi nümayəndələrin qəbul edəcəyi qərarlara uyğun olaraq, aşağıdakı formada ola bilər (bundan sonra "tədbirlər" kimi göstəriləcəkdir):

a) Azərbaycan və ya Fransada təşkil ediləcək seminarlar, treninqlər, peşəkarlığın artırılması üzrə təlimlər, dəstək və ekspertiza tədbirləri.

b) İki ölkədən birinə texniki və məlumat mübadiləsi səfərləri.

Maddə 3

Hazırkı Sazişin çərçivəsində görülən tədbirlər aşağıdakı şəkildə maliyyələşdiriləcəkdir:

a) Fransalı mütəxəssislərin Azərbaycana gələcəyi təqdirdə, Fransa öz mütəxəssisləri üçün beynəlxalq nəqliyyat, qalma və qida xərclərini, Azərbaycan isə daxili nəqliyyat, yazılı və şifahi tərcümə xərclərini təmin edəcəkdir;

b) Azərbaycanlı mütəxəssislərin Fransaya gələcəyi təqdirdə, Azərbaycan öz mütəxəssisləri üçün beynəlxalq nəqliyyat, qalma və qida xərclərini, Fransa isə daxili nəqliyyat, yazılı və şifahi tərcümə xərclərini təmin edəcəkdir.

Maddə 4

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə yazılı dəyişikliklər edilə bilər. Dəyişikliklər Sazişin ayrılmaz hissəsi olacaq və onun 6-cı maddəsində göstərilən müddəalarına uyğun olaraq qüvvəyə minəcəkdir.

Maddə 5

Bu Sazişin şərh edilməsinə və həyata keçirilməsi zamanı yarana biləcək fikir ayrılığı Tərəflər arasında danışıqlar yolu ilə həll ediləcəkdir.

Maddə 6

Hazırkı Saziş Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan daxili prosedurların yerinə yetirilməsi barədə diplomatik kanallar vasitəsilə göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Bu saziş qeyri-müəyyən müddətə bağlanılır. Tərəflərdən hər biri digər Tərəfə yazılı bildiriş göndərməklə bu saziş hər zaman ləğv edilə bilər, Saziş belə bildirişin alındığı aydan sonrakı ayın ilk günündən etibarən qüvvədən düşür.

Hazırkı Saziş Paris şəhərində 9 dekabr 2009-cu il tarixində, iki əsl nüsxədə olmaqla Azərbaycan və Fransız dillərində imzalanmışdır, hər iki mətn eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ VERGİLƏR NAZİRLİYİ ADINDAN

ELMAR MƏMMƏDYAROV
Xarici işlər naziri

FRANSA RESPUBLİKASININ DÖVLƏT BÜDCƏSİ, MÜHASİBATI, QULLUĞU VƏ İSLAHATI NAZİRLİYİNİN DÖVLƏT MALİYYƏSİ BAŞ İDARƏSİ ADINDAN

FİLİP RAMBANE
İdarəsinin rəis müavini

2009-cu il dekabrın 29-da Tallin şəhərində imzalanmış "Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Estoniya Respublikasının Sərhəd Mühafizəsi İdarəsi arasında əməkdaşlığa dair Saziş"in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2009-cu il dekabrın 29-da Tallin şəhərində imzalanmış "Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Estoniya Respublikasının Sərhəd Mühafizəsi İdarəsi arasında əməkdaşlığa dair Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Estoniya Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 fevral 2010-cu il

№ 731

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Estoniya Respublikasının Sərhəd Mühafizə İdarəsi arasında əməkdaşlığa dair Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Estoniya Respublikasının Sərhəd Mühafizə İdarəsi,

- beynəlxalq hüququn norma və prinsiplərinə riayət etməklə, dostluq əlaqələrinin inkişaf etdirilməsi, Azərbaycan Respublikası və Estoniya Respublikasının bərabərhüquqlu və qarşılıqlı əməkdaşlığının həyata keçirilməsi məqsədilə;

- əməkdaşlıq prinsiplərinin müəyyən olunması və öz səlahiyyətləri çərçivəsində fəaliyyət göstərmək məqsədilə əməkdaşlığın inkişaf etdirilməsi arzusunu təsdiq edərək;

- transmilli cinayətlər, beynəlxalq terrorçuluq, mütəşəkkil cinayətkarlıq, o cümlədən qaçaqmalçılıq, insan alveri, habelə qanunsuz miqrasiya və digər təhdidləri, eləcə də bu təhdidlərin qarşısının alınmasında beynəlxalq əməkdaşlığın mühüm rolunu qeyd edərək;

aşağıdakılar barədə razılığa gəlmişlər:

MADDƏ 1

Tərəflər səlahiyyətləri çərçivəsində, dövlətlərinin tərəfdar çıxdığı beynəlxalq müqavilələrə və milli qanunvericiliyin tələblərinə müvafiq olaraq, aşağıda göstərilən istiqamətlərdə əməkdaşlığı inkişaf etdirəcəklər:

1. qanunsuz miqrasiya, insan alveri və qaçaqmalçılığı ilə mübarizə;

2. beynəlxalq terrorçuluq, mütəşəkkil və transsərhəd cinayətkarlığın təzahürləri, o cümlədən dövlət sərhədinin pozulması, silah və sursatın, partlayıcı maddələrin, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, radioaktiv materialların, qadağan olunmuş mal və əşyaların qaçaqmalçılığı, eləcə də dövlət sərhədlərində digər potensial təhdidlərə qarşı mübarizə;

3. Avropa İttifaqının qurumları, beynəlxalq təşkilatlar və üçüncü ölkələrin sərhəd mühafizə xidmətləri ilə razılaşdırılmış tədbirlərin həyata keçirilməsi, iki və çoxtərəfli səviyyədə əməkdaşlığın gücləndirilməsi;

4. Tərəflərin şəxsi heyətinin peşə hazırlığının artırılması, habelə təhsil müəssisələri arasında ikitərəfli əməkdaşlığın təkmilləşdirilməsi;

5. aşağıdakı sahələr üzrə təcrübə mübadiləsi və əməkdaşlığın aparılması:

sərhəd aviasiyası;

sahil mühafizəsi, dənizdə axtarış-xilasetmə tədbirləri;

sərhəd nəzarəti məntəqələrinin xidməti fəaliyyəti;

yaşıl sərhədlərin mühafizəsi;

cinayət istintaqı.

6. maddi-texniki təminatın yaxşılaşdırılması;

7. qarşılıqlı maraq doğuran digər məsələlər.

MADDƏ 2

Tərəflər bu Sazişin həyata keçirilməsi məqsədilə aşağıdakıları həyata keçirəcəklər:

1. təcrübə və məlumat mübadiləsi;

2. birgə məsləhətləşmələrin aparılması;

3. rəsmi və işgüzar səfərlərin təşkili;

4. konfrans, seminar, peşə səviyyəsinin artırılması və praktiki məşğələlər, habelə digər zəruri təlimlərin təşkili;

5. maddi-texniki təminat üzrə dəstək;

6. Tərəflərin təşkil etdiyi dəniz təlimləri və əməliyyatlarında iştirak;

7. birgə beynəlxalq layihələrdə iştirak;

8. Tərəflərin təhsil müəssisələri arasında təlim proqramlarının hazırlanması sahəsində təcrübə mübadiləsi.

MADDƏ 3

Tərəflər arasında əməkdaşlıq aşağıda göstərilən qaydada təşkil olunur.

1. Ardıcıl olaraq ildə bir dəfə Tərəflərin rəhbərlərinin səfərlərinin təşkili.

2. Sərhəd qurumlarının rəhbərləri tərəfindən müəyyən olunmuş istiqamətlərə uyğun olaraq Tərəflərin aşağıda göstərilən səlahiyyətli bölmələri tərəfindən zəruri tədbirlərin təşkil edilməsi və həyata keçirilməsi:

Azərbaycan tərəfindən:

Dövlət Sərhəd Xidmətinin Beynəlxalq Əlaqələr Baş İdarəsi.

Estoniya tərəfindən:

Sərhəd Mühafizə İdarəsinin Beynəlxalq Əməkdaşlıq Departamenti.

3. Tərəflərin struktur bölmələri öz səlahiyyətləri çərçivəsində cari məlumatı mübadilə etmək hüququna malikdirlər.

MADDƏ 4

Beynəlxalq nəqliyyat xərcləri istisna olmaqla, nümayəndə heyətlərinin qəbulu üzrə xərcləri qəbul edən Tərəf öz üzərinə götürür.

MADDƏ 5

Tərəflər əməkdaşlıq müddətində qarşılıqlı şəkildə əldə edilən məlumatların konfidensiallığının qorunmasını təmin edir, həmin məlumatı təqdim edən Tərəfin mənafeyinə zidd istifadə olunmayacağı və Tərəflərin yazılı razılığı olmadan üçüncü tərəflərə verilməyəcəyi barədə öhdəliyi öz üzərinə götürürlər.

MADDƏ 6

Bu Sazişin müddəaları Tərəflərin dövlətlərinin iştirakçı olduqları beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə təsir etməyəcək və digər dövlətlərin mənafeyinə, təhlükəsizliyinə və ərazi bütövlüyünə qarşı istifadə edilməyəcəkdir.

MADDƏ 7

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və 8-ci maddədə müəyyən olunmuş qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavələr və dəyişikliklər edilə bilər.

MADDƏ 8

Bu saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır.

Tərəflərdən hər biri istənilən vaxt digər Tərəfə bu Sazişə xitam vermək niyyəti barədə yazılı bildiriş göndərə bilər. Bu Saziş bu cür bildirişin alındığı tarixdən altı ay sonra xitam olunacaqdır.

Estoniya Respublikası Sərhəd Mühafizə İdarəsinin bu Sazişdə göstərilən öhdəlikləri, vəzifələri və hüquqları 01.01.2010-cu il tarixdən Estoniya Respublikasının Polis və Sərhəd Mühafizə İdarəsinə keçəcəkdir.

18 dekabr 2009-cu il tarixində Bakı şəhərində, 29 dekabr 2009-cu il tarixində Tallin şəhərində, Azərbaycan, eston və ingilis dillərində iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Sazişin təfsiri və tətbiqi zamanı fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT SƏRHƏD XİDMƏTİ ADINDAN	BELARUS RESPUBLİKASININ SƏRHƏD MÜHAFİZƏ İDARƏSİ ADINDAN
(imza)	*(imza)*

V.M.Sultanzadəyə fövqəladə və səlahiyyətli səfir diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.1-ci maddəsini rəhbər tutaraq qərara alıram:

Vəhdət Məmmədağa oğlu Sultanzadəyə fövqəladə və səlahiyyətli səfir diplomatik rütbəsi verilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 fevral 2010-cu il

№ 733

V.M.Sultanzadənin Azərbaycan Respublikasının Türkmənistanda fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Vəhdət Məmmədağa oğlu Sultanzadə Azərbaycan Respublikasının Türkmənistanda fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 fevral 2010-cu il

№ 734

"Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında təbii fəlakətlərin və texnogen qəzaların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında təbii fəlakətlərin və texnogen qəzaların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının fövqəladə hallar naziri Kəmaləddin Fəttah oğlu Heydərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının fövqəladə hallar naziri Kəmaləddin Fəttah oğlu Heydərova verilməsi barədə Yunanıstan Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 17 fevral 2010-cu il

№ 741

Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyevin və Belarus Respublikasının Prezidenti A.Q.Lukaşenkonun Birgə Bəyannaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyevin və Belarus Respublikasının Prezidenti A.Q.Lukaşenkonun 2009-cu il noyabrın 12-də Minsk şəhərində imzalanmış Birgə Bəyannaməsi təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 fevral 2010-cu il

№ 957-IIIQ

Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyevin və Belarus Respublikasının Prezidenti A.Q.Lukaşenkonun Birgə Bəyannaməsi

Azərbaycan Respublikasının Prezidenti və Belarus Respublikasının Prezidenti,

beynəlxalq münasibətlərin inkişafı kontekstində yüksək səviyyədə ikitərəfli siyasi dialoqun əhəmiyyətini qeyd edərək,

2 may 2007-ci ildə imzalanmış Azərbaycan Respublikası və Belarus Respublikası ara-

sında dostluq və əməkdaşlıq haqqında Müqavilənin iki ölkə arasında münasibətlərin genişləndirilməsində və dərinləşdirilməsindəki mühüm rolunu nəzərə alaraq,

Azərbaycan Respublikası və Belarus Respublikası arasında ənənəvi dostluq münasibətlərinin hərtərəfli əməkdaşlıq, etimad və qarşılıqlı hörmət əsasında dərinləşdirilməsi və möhkəmləndirilməsi üzrə hərtərəfli səyləri davam etdirərək,

beynəlxalq hüququn ümumtanınmış prinsiplərinə və normalarına, Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin məqsəd və prinsiplərinə, Helsinki Yekun Aktının müddəalarına və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının digər sənədlərinə bağlılıqlarını təsdiq edərək,

Azərbaycan Respublikasının və Belarus Respublikasının qarşılıqlı münasibətlərində dövlət suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərin toxunulmazlığına hörmət, daxili işlərə qarışmamaq, iqtisadi və digər vasitələr də daxil olmaqla, zor işlətməmək və ya zor işlətməklə hədələməmək, mübahisələrin sülh yolu ilə həlli, insan hüquqları və əsas azadlıqlarına ümumi hörmət, beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsiplərinin, habelə beynəlxalq hüququn digər ümumtanınmış prinsip və normalarının yerinə yetirilməsini təmin edəcəyini təsdiq edərək,

Azərbaycan Respublikasının və Belarus Respublikasının beynəlxalq gündəlikdəki bir sıra aktual məsələlər üzrə mövqelərinin üst-üstə düşdüyündən və ya oxşarlığından çıxış edərək və müxtəlif beynəlxalq və regional təşkilatlar çərçivəsində iki dövlət arasındakı əməkdaşlığın əhəmiyyətini qeyd edərək,

qarşılıqlı maraq doğuran siyasi, iqtisadi, humanitar, hərbi və hərbi-texniki sahələrdəki əməkdaşlığın nail olunmuş səviyyəsindən məmnunluqlarını ifadə edərək, bu əməkdaşlığın gələcəkdə möhkəmləndirilməsinin və inkişaf etdirilməsinin vacibliyini vurğulayaraq,

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belarus Respublikasına bu səfərinin iki dövlət arasında dostluq və əməkdaşlığın dərinləşdirilməsinə və daha çox genişləndirilməsinə yardım edəcəyinə əminliklərini ifadə edərək,

aşağıdakıları bəyan etdilər:

1. Tərəflər bütün səviyyələrdə ikitərəfli əlaqələrin dərinləşdirilməsinə, qarşılıqlı səfərlərin həyata keçirilməsinə, həmçinin iki dövlətin qanunvericilik və icra hakimiyyəti orqanları arasında ikitərəfli xarici siyasi və digər məsləhətləşmələr təcrübəsinin inkişafına xüsusi əhəmiyyət verirlər.

2. Tərəflər iqtisadiyyat, ticarət, kommunikasiya, turizm, səhiyyə, elm və texnologiya, təhsil, mədəniyyət, ekologiya sahələrində və digər sahələrdə əməkdaşlığın gələcəkdə genişləndirilməsi və təşviq etdirilməsi üçün müqavilə-hüquq bazasının təkmilləşdirilməsinin vacibliyini qeyd edirlər.

3. Tərəflər terrorçuluğa, separatizmə, ekstremizmə, transmilli cinayətkarlığa, narkotik vasitələrin, psixotropmaddələrin və onların prekursorlarının qeyri-qanuni dövriyyəsinə, insan alverinə, kütləvi qırğın silahlarının yayılmasına və çirkli pulların yuyulmasına qarşı fəaliyyət üzrə beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsinin vacibliyini qeyd edirlər.

4. Tərəflər münaqişələrin dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərinin toxunulmazlığına hörmət edilməsi və riayət olunması əsasında sülh yolu ilə həlli məqsədilə BMT-nin Nizamnaməsinə və ATƏT-in sənədlərinə uyğun olaraq fəaliyyətin həyata keçirilməsinin vacibliyini təsdiqləyirlər.

5. Tərəflər Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarına uyğun olaraq, ilk öncə dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərinin toxunulmazlığına riayət olunması və təmin edilməsi, habelə BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri və ATƏT-in qərarları əsasında tezliklə tənzimlənməsinin vacibliyini vurğulayırlar.

6. Tərəflər Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsinə yönəlmiş ATƏT çərçivəsində davam edən səylərə, həmçinin Minsk qrupunun fəaliyyətinə istinad edərək, bu istiqamətdə növbəti addımların fəallaşdırılmasının zəruriliyini vurğulayırlar.

7. Tərəflər BMT və onun ixtisaslaşmış təsisatları, habelə müxtəlif beynəlxalq və regional təşkilatlar çərçivəsində gələcəkdə də əməkdaşlıqlarını davam etdirəcəklərini təsdiq edir, beynəlxalq təhlükəsizliyin və davamlı inkişafın strateji məsələlərinin həll edilməsində, BMT Nizamnaməsində əks olunmuş məqsəd və prinsiplərə nail olunmasında və onların yerinə yetirilməsində Birləşmiş Millətlər Təşkilatının rolunun gücləndirilməsinin vacibliyini qeyd edirlər.

8. Tərəflər dövlətlərarası münasibətlərdə beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarına, həmçinin BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə, eləcə də digər beynəlxalq hüquqi sənədlərə zidd olan zor tətbiqetmənin və ya zorla hədələmənin, habelə suveren dövlətlərə iqtisadi və digər təzyiq vasitələrinin və tədbirlərinin yolverilməz olduğunu qeyd edirlər.

9. Tərəflər ticarət-iqtisadi və elmi-texniki əməkdaşlığın, həmçinin digər sahələrdə ikitərəfli qarşılıqlı fəaliyyətin səviyyəsinin onların dinamik inkişaf edən bazar iqtisadiyyatlarının potensialı və imkanlarına uyğunluğunun təmin edilməsi üçün əlavə tədbirlər görəcəklər.

10. Tərəflər sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün əlverişli iqtisadi, maliyyə və hüquqi şərait yaratmaqla Azərbaycan Respublikasının və Belarus Respublikasının təsərrüfat subyektləri arasında birbaşa əlaqələrin inkişafını təşviq edəcəklər.

11. Tərəflər qarşılıqlı sərmayələrin iqtisadi əməkdaşlığın əsas faktorlarından biri olduğunu qeyd edərək, energetika, ticarət, ağır sənaye, maşınqayırma, kənd təsərrüfatı, nəqliyyat və kommunikasiya sahələrində, habelə qarşılıqlı maraq doğuran digər sahələrdə sərmayəni və başqa əməkdaşlığı təşviq etmək niyyətlərini vurğulayırlar. Tərəflər müvafiq müqavilə-hüquq bazasının yaradılması üzrə işi fəallaşdırırlar.

12. Tərəflər tranzit və nəqliyyat-kommunikasiya sahəsində əməkdaşlığı inkişaf etdirməyə və dərinləşdirməyə, Azərbaycan Respublikasının və Belarus Respublikasının ərazilərində yerləşən hava, dəniz və çay limanları, dəmir və avtomobil yollan şəbəkəsi və boru kəmərləri vasitəsilə nəqliyyat əməliyyatlarının həyata keçirilməsi üçün əlverişli şərait yaradılmasına və təmin edilməsinə hazır olduqlarını ifadə edirlər.

13. Tərəflər ikitərəfli iqtisadi münasibətlərin inkişafının əlaqələndirici mexanizmi və imzalanmış sənədlərin həyata keçirilməsinin effektiv vasitəsi kimi ticarət-iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Belarus Hökumətlərarası Komissiyasının fəaliyyətini yüksək qiymətləndirirlər.

14. Tərəflər Avropa inteqrasiyası, Aİ ilə fərdi əməkdaşlıq planının yerinə yetirilməsi sahəsində təcrübə mübadiləsi edəcək və Aİ-nin "Şərq tərəfdaşlığı" təşəbbüsünün həyata keçirilməsi çərçivəsində mövqeləri əlaqələndirəcəklər.

15. Tərəflər ikitərəfli, regional və qlobal səviyyələrdə ətraf mühitin mühafizəsi sahəsində qarşılıqlı fəaliyyəti inkişaf etdirəcəklər.

16. Tərəflər gənclər və tələbə mübadiləsinin genişləndirilməsi, kütləvi informasiya vasitələri arasında əlaqələrin intensivləşdirilməsi yolu ilə humanitar münasibətlərin inkişafına yardım edəcəklər.

17. Tərəflər tələbələrin və təhsil alanların birgə tədris proqramlarının tərtib edilməsi, mütəxəssislərin hazırlanması və yenidən hazırlanması, tədris proqramlarının mübadiləsi vasitəsilə milli təhsil sistemləri sahəsində qarşılıqlı fəaliyyəti davam etdirəcəklər.

18. Tərəflər Azərbaycan və Belarus dillərinin öyrənilməsinə və ədəbiyyatlarının yayılmasına, həmçinin iki dövlətin mədəniyyət və elm xadimləri arasında əlaqələrin inkişafına yardım edəcəklər.

19. Tərəflər bu Birgə Bəyannamənin Azərbaycan Respublikası və Belarus Respublikası arasında ikitərəfli münasibətlərin hərtərəfli inkişafına və intensivləşdirilməsinə yeni təkan verəcəyinə əminliklərini ifadə edirlər.

Minsk şəhərində 2009-cu il 12 noyabr tarixində, hər biri Azərbaycan və rus dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ	BELARUS RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEV	*ALEKSANDR LUKAŞENKO*

Azərbaycan Respublikası Prezidentinin və Sloveniya Respublikası Prezidentinin Birgə Bəyanatının təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

Azərbaycan Respublikası Prezidentinin və Sloveniya Respublikası Prezidentinin 2009-cu il noyabrın 9-da Bakı şəhərində imzalanmış Birgə Bəyanatı təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 fevral 2010-cu il

№ 958-IIIQ

Azərbaycan Respublikası Prezidentinin və Sloveniya Respublikası Prezidentinin Birgə Bəyanatı

Azərbaycan Respublikasının Prezidenti Zati-Aliləri cənab İlham Əliyevin dəvəti ilə Sloveniya Respublikasının Prezidenti Zati-Aliləri cənab Danilo Türkün 2009-cu il 8-10 noyabr tarixində Azərbaycan Respublikasına rəsmi səfəri münasibətilə

Azərbaycan Respublikasının Prezidenti və Sloveniya Respublikasının Prezidenti ən yüksək siyasi səviyyədə dialoqun dərinləşdirilməsinin vacibliyini, qanunverici və icraedici orqanlar arasındakı əməkdaşlığın gücləndirilməsinin və iki ölkə arasındakı münasibətlərin daha yüksək səviyyəyə çatdırılması üçün hüquqi bazanın artırılmasının zəruriliyini etiraf edirlər.

Prezidentlər bundan sonra da münasibətlərin qanunun aliliyi, demokratiya, insan hüquqları və bazar iqtisadiyyatı əsasında hərtərəfli inkişaf etdirilməsini arzuladıqlarını ifadə edirlər.

Prezidentlər Azərbaycan Respublikası və Sloveniya Respublikası arasındakı münasibətlərin əməkdaşlığın bütün sahələrində gücləndirilə biləcəyi barədə razılığa gəldilər. Bununla əlaqədar olaraq, investisiya, iqtisadiyyat, enerji, ticarət, turizm, kommunikasiya, səhiyyə, elm, təhsil, mədəniyyət və ətraf mühitin mühafizəsində əməkdaşlığın inkişafına xüsusi diqqət yetiriləcəkdir. Azərbaycan və Sloveniya biznes əməkdaşlığı üçün şərtlərin stimullaşdırılmasını inkişaf etdirəcəklər.

Prezidentlər iş yerlərinin yaradılması və iqtisadi artımın təmin olunması, biznes mühitinin, mal və xidmətlərin bazara çıxışının inkişaf etdirilməsi məqsədilə iqtisadi əməkdaşlığın gücləndirilməsinin təşviqində qətiyyətlərini ifadə edirlər. Onlar hər iki ölkənin sahibkarları arasındakı əlaqələri gücləndirəcək biznes konfransının təşkilini alqışlayırlar.

Azərbaycan Respublikası və Sloveniya Respublikası Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və Cənub dəhlizi kimi layihələr vasitəsilə Xəzər hövzəsini Avropa ilə birləşdirən enerji tranziti dəhlizlərinin inkişaf etdirilməsi üçün əməkdaşlığın gücləndirilməsində qətiyyətlərini təsdiqləyirlər. Onlar enerji resurslarının və tranzit marşrutlarının diversifikasiyası, birgə enerji layihələrində iştirak və bərpa olunan enerji mənbələrinin inkişafı və onlardan istifadə də daxil olmaqla, enerji təhlükəsizliyi sahəsində ikitərəfli məsləhətləşmələri intensivləşdirmək barədə razılığa gəlirlər.

Prezidentlər təhsil, mədəniyyət, mədəni irs, biznes, elm və texnologiya sahələrində geniş əməkdaşlıq vasitəsilə xalqlararası əlaqələri, demokratiyanı və demokratik dəyərləri təşviq etmək və bu istiqamətdə qarşılıqlı anlaşmanı dərinləşdirmək barədə razılığa gəlirlər.

Prezidentlər Avropa Qonşuluq Siyasəti və Şərq Tərəfdaşlığında Azərbaycanın iştirakına Sloveniyanın dəstək verməsini qeyd edirlər. Onlar Azərbaycanın Avropa strukturlarına yaxınlaşmasında bu vasitələrin müsbət təsirini vurğulayırlar. Onlar Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinin və AQS Fəaliyyət Planının həyata keçirilməsinin vacibliyi barədə razılığa gəlir və Şərq Tərəfdaşlığına daxil olan ölkələr üçün əməkdaşlıq sazişləri bağlanmasını dəstəkləyirlər. Aİ-nin Cənubi Qafqaz ölkələri ilə əməkdaşlığının məqsədi regionda sülh və rifah üçün möhkəm və strateji tərəfdaşlığın yaradılması olmalıdır.

Azərbaycan Respublikası və Sloveniya Respublikası Azərbaycanın Avropa İttifaqı və NATO ilə münasibətlərinin genişləndirilməsinə aid bütün məsələlər üzrə gələcəkdə daha da təfsilatlı məsləhətləşmələr aparılması üçün imkanlar yaradılması məqsədi daşıyan dialoqun gücləndirilməsini davam etdirəcəklər.

Prezidentlər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq tanınmış sərhədlərinin toxunulmazlığı, beynəlxalq hüququn digər prinsipləri, habelə müvafiq BMT qətnamələri və ATƏT-in qərarları əsasında sülh yolu ilə və tezliklə həll olunmasına qəti dəstəklərini ifadə edirlər.

Azərbaycan Respublikasının Prezidenti və Sloveniya Respublikasının Prezidenti qlobal əhəmiyyətli cari məsələlər üzrə əməkdaşlıq etmək və beynəlxalq sülh və təhlükəsizliyin qorunmasına, ətraf mühitin mühafizəsinə, davamlı inkişafa, demokratiyaya, insan hüquqlarına hörmətə və qanunun aliliyinə töhfə vermək qətiyyətlərini təsdiqləyirlər. Azərbaycan Respublikası və Sloveniya Respublikası planetin davamlılığı üçün bu qlobal məsuliyyət payım öz üzərlərinə götürməyə hazırdırlar. Onlar Kopenhagendə keçiriləcək BMT-nin İqlim Dəyişikliyi Konfransında razılıq əldə olunması üçün razılaşdılar.

Prezidentlər hər iki ölkənin Azərbaycan Respublikası və Sloveniya Respublikası arasında tərəfdaşlığın inkişafına verdikləri əhəmiyyəti nəzərə alaraq, Azərbaycan Respublikası Hökumətinə və Sloveniya Respublikası Hökumətinə Azərbaycan Respublikasının və Sloveniya Respublikasının iki ölkə arasındakı münasibətlərin möhkəmləndirilməsi və onların bütün sahələrdə əməkdaşlıqlarının təşviq edilməsi üçün qətiyyətlərini əks etdirəcək hərtərəfli çərçivə sənədinin hazırlanması məqsədilə qarışıq komissiya yaradılmasını təklif edəcəklər.

Bakı şəhərində 2009-cu il 9 noyabr tarixində ingilis dilində iki əsl nüsxədə imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ	SLOVENİYA RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEV	*DANİLO TÜRK*

"Azərbaycan Respublikası Hökuməti və Sloveniya Respublikası Hökuməti arasında diplomatik pasportlara malik vətəndaşlara viza tələbinin ləğv olunması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Azərbaycan Respublikası Hökuməti və Sloveniya Respublikası Hökuməti arasında diplomatik pasportlara malik vətəndaşlara viza tələbinin ləğv olunması haqqında" 2009-cu il noyabrın 9-da Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 fevral 2010-cu il

№ 959-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Sloveniya Respublikası Hökuməti arasında diplomatik pasportlara malik vətəndaşlara viza tələbinin ləğv olunması haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Sloveniya Respublikası Hökuməti,

Azərbaycan Respublikası və Sloveniya Respublikası arasında dostluq münasibətlərinin möhkəmləndirilməsini və səyahətin asanlaşdırılmasını arzu edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Sazişin məqsədləri üçün:

"Diplomatik pasport" dedikdə Azərbaycan Respublikasının diplomatik pasportu və Sloveniya Respublikasının diplomatik pasportu başa düşülür.

Maddə 2

Etibarlı diplomatik pasportlara malik olan Azərbaycan Respublikası və Sloveniya Respublikası vətəndaşları, habelə adları onların pasportlarında qeyd olunan yetkinlik yaşına çatmamış şəxslər Razılığa gələn digər Tərəfin dövlətinin ərazisinə vizasız daxil ola və ilk daxil olduğu gündən altı (6) ay ərzində doxsan (90) gün müddətində orada qala bilərlər.

Maddə 3

Bu Sazişin 2-ci maddəsinin müddəalarından asılı olmayaraq, Razılığa gələn Tərəflərdən birinin ərazisindəki, Razılığa gələn digər Tərəfin diplomatik missiya və konsulluğunun heyətinə daxil olan Razılığa gələn Tərəflərin diplomatik pasporta malik vətəndaşları və onlarla birlikdə yaşayan, adları onların pasportlarında qeyd olunan yetkinlik yaşına çatmamış şəxslər və ya diplomatik pasporta malik ailə üzvləri Razılığa gələn müvafiq Tərəfin səlahiyyətli dövlət orqanlarında yerləşmə rəsmiləşdirilməsi başa çatanadək Razılığa gələn həmin Tərəfin dövlətinin ərazisində azad və viza tələb olunmadan qala bilərlər.

Maddə 4

Etibarlı diplomatik pasportlara malik olan Razılığa gələn Tərəflərin vətəndaşları Razılığa gələn digər Tərəfin dövlətinin ərazisinə Razılığa gələn həmin Tərəfin müvafiq səlahiyyətli orqanlarının tətbiq etdiyi qaydalara uyğun rəsmilik tələbləri gözlənilməklə beynəlxalq sərhədin daşınması üçün açıq olan bütün sərhəd-buraxılış məntəqələrindən daxil ola bilərlər.

Maddə 5

Bu Saziş Razılığa gələn Tərəfin vətəndaşlarını Razılığa gələn digər Tərəfin dövlətinin ərazisinə daxil olarkən və ya orada qalarkən onun qanunlarına və qaydalarına əməl etməkdən azad etmir.

Maddə 6

Razılığa gələn hər bir Tərəf Razılığa gələn digər Tərəfin diplomatik pasporta malik vətəndaşını "persona non qrata" hesab edərək, ona dövlət ərazisinə daxil olmağa icazə verməmək və ya burada qalma müddətinə xitam vermək hüququnu özündə saxlayır.

Maddə 7

1. Bu Saziş hər iki ölkənin daxili təhlükəsizlik, əcnəbilərin dövlət ərazisinə daxil olması, orada qalması və yerdəyişməsi ilə əlaqədar tətbiq olunan qanun və/və ya qaydalarına təsir etmir.

2. Razılığa gələn Tərəflər ictimai asayişin qorunması, milli təhlükəsizliyin təmin edilməsi və ya vətəndaşların sağlamlığına təhlükə yarandıqda, bu Sazişin tətbiqini müvəqqəti olaraq tam və ya qismən dayandıra bilərlər. Razılığa gələn hər bir Tərəf bu Sazişin tətbiqinin dayandırılması və onun yenidən qüvvəyə minməsi haqqında qərarı barədə dərhal, qırx səkkiz (48) saatdan gec olmayaraq, diplomatik kanallar vasitəsilə bir-birini məlumatlandırırlar. Bu tədbirlərin həyata keçirilməsinə dair qərar bu barədə bildiriş alındığı tarixdən qüvvəyə minəcək və ya dayandırılacaqdır.

Maddə 8

Razılığa gələn Tərəflər bu Sazişin qüvvəyə minməsindən sonra otuz (30) gün müddətində diplomatik kanallar vasitəsilə diplomatik pasportların nümunələrini mübadilə edəcəklər.

Razılığa gələn Tərəflər dövriyyəyə yeni diplomatik pasportlar buraxdıqları halda, onların qüvvəyə minməsindən ən azı otuz (30) gün əvvəl diplomatik kanallar vasitəsilə bu pasportların nümunələrini mübadilə edirlər.

Maddə 9

Razılığa gələn Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə əlavələr və dəyişikliklər edilə bilər. Belə əlavələr və dəyişikliklər bu Sazişin ayrılmaz hissəsi olaraq ayrı-ayrı protokollar formasında rəsmiləşdirilir və bu Sazişin 10-cu maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minir.

Maddə 10

Bu Saziş Razılığa gələn Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetirdikləri barədə bir-birlərinə diplomatik kanallar vasitəsilə göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdən sonrakı otuzuncu (30-cu) gün qüvvəyə minir.

Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır. Razılığa gələn Tərəflərdən biri bu Sazişin qüvvəsini ləğv etmək niyyətində olduqda, bu barədə digər Tərəfə diplomatik kanallarla, yazılı şəkildə bildiriş göndərir. Saziş belə bildirişin alındığı tarixdən otuz (30) gün sonra da qüvvədə olacaqdır.

Bu Saziş Bakı şəhərində 2009-cu il noyabrın 9-da, hər biri Azərbaycan, sloven və ingilis dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır və bütün mətnlər bərabər autentikdir. Bu Sazişin təfsiri zamanı fikir ayrılığı yarandıqda, ingilis dilindəki mətndən istifadə

ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	SLOVENİYA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*MİTYA QASPARİ*
Xarici işlər naziri	*İnkişaf və Avropa işləri üzrə naziri*

2008-ci il oktyabrın 10-da Bişkek şəhərində imzalanmış "1941-1945-ci illər Böyük Vətən Müharibəsində Qələbənin 65 illiyi" vahid yubiley medalı haqqında qərar"ın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2008-ci il oktyabrın 10-da Bişkek şəhərində imzalanmış "1941-1945-ci illər Böyük Vətən Müharibəsində Qələbənin 65 illiyi" vahid yubiley medalı haqqında Qərar" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Qərarın həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Qərarın qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 fevral 2010-cu il

№ 761

"1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 65 illiyi" vahid yubiley medalı haqqında Qərar

Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurası, Birliyin iştirakçısı olan dövlətlərin xalqlarının müştərək tarixində əlamət-dar yubiley olan 1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 65 illiyini layiqincə qeyd etmək səylərini rəhbər tutaraq, qərara aldı:

1. " 1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 65 illiyi" vahid yubiley medalı haqqında Əsasnamə və "1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 65 illiyi" vahid yubiley medalının Təsviri təsdiq edilsin (əlavə olunur).

2. Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin hökumətləri "1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 65 illiyi" vahid yubiley medalının və onun vəsiqəsinin, milli büdcələrində bu məqsədlər üçün nəzərdə tutulmuş maliyyə vəsaiti çərçivəsində hazırlanmasının 2009-cu ildə maliyyələşməsini təmin etsinlər.

3. Müstəqil Dövlətlər Birliyinin Hökumət Başçıların Şurasına tapşırılsın ki, "1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 65 illiyi" vahid yubiley

medalının hazırlanması qaydasını müəyyən etsin.

4. Bu Qərar onun imzalandığı tarixdən, qanunvericiliyi onun qüvvəyə minməsindən ötrü zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsini tələb edən dövlətlər üçün - depozitariyə müvafiq sənədlərin təqdim edilməsi tarixindən qüvvəyə minir.

Bişkek şəhərində 2008-ci il oktyabrın 10-da rus dilində bir əsl nüsxədə imzalanmışdır. Əsl nüsxə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsində saxlanılır; o həmin Qərarı imzalamış hər bir dövlətə Qərarın təsdiq edilmiş surətini göndərəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

ARTUR RASİZADƏ
Baş nazir

ERMƏNİSTAN RESPUBLİKASI ADINDAN

SERJ SARKİSYAN
Prezident

BELARUS RESPUBLİKASI ADINDAN

ALEKSANDR LUKAŞENKO
Prezident

GÜRCÜSTAN ADINDAN

imza yoxdur

QAZAXISTAN RESPUBLİKASI ADINDAN

NURSULTAN NAZARBAYEV
Prezident

QIRĞIZ RESPUBLİKASI ADINDAN

KURMANBEK BAKİYEV
Prezident

MOLDOVA RESPUBLİKASI ADINDAN

VLADİMİR VORONİN
Prezident

RUSİYA FEDERASİYASI ADINDAN

DMİTRİ MEDVEDEV
Prezident

TACİKİSTAN RESPUBLİKASI ADINDAN

EMOMALİ RAHMON
Prezident

TÜRKMƏNİSTAN ADINDAN

QURBANQULU BERDİMƏHƏMMƏDOV
Prezident

ÖZBƏKİSTAN RESPUBLİKASI ADINDAN

İSLAM KƏRİMOV
Prezident

UKRAYNA ADINDAN

RAİSA BOQATIRYOVA
Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi

"1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 65 illiyi" vahid yubiley medalı haqqında Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının 2008-ci il 10 oktyabr tarixli qərarı ilə TƏSDİQ EDİLMİŞDİR

"1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 65 illiyi" vahid yubiley medalı haqqında ƏSASNAMƏ

"1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 65 illiyi" vahid yubiley medalı ilə 1941-1945-ci illər Böyük Vətən müharibəsinin veteranları, onlara bərabər tutulan şəxslər, həmçinin Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin qərarı ilə digər şəxslər milli qanunvericiliyə uyğun olaraq təltif edilirlər.

"1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 65 illiyi" vahid yubiley medalı ilə Müstəqil Dövlətlər Birliyinə daxil olmayan dövlətlərin vətəndaşları təltif edilə bilərlər.

"1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 65 illiyi" vahid yubiley medalı ilə təltif edilmə qaydası Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlər tərəfindən müəyyən edilir.

"1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 65 illiyi" vahid yubiley medalı döşün sol tərəfinə, 1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 60 illiyi" yubiley medalından sonra taxılır.

"1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 65 illiyi" vahid yubiley medalı haqqında Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının 2008-ci il 10 oktyabr tarixli Qərarı ilə TƏSDİQ EDİLMİŞDİR

"1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 65 illiyi" vahid yubiley medalının TƏSVİRİ

"1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 65 illiyi" vahid yubiley medalı tompakdan hazırlanır və diametri 32 mm olan dairə formasındadır.

Medalın üz tərəfində yuxanda - I-ci dərəcəli "Slava" ordeninin təsviri, aşağıda - "1945-2010" rəqəmləri vardır.

Medalın arxa tərəfində mərkəzdə "65 let Pobedı v Velikoy Oteçestvennoy voyne 1941-1945 qq." sözləri yazılmışdır.

Medalın çevrəsi bortla haşiyələnmişdir. Medalın üzərindəki bütün təsvir, yazı və rəqəmlər qabarıqdır.

Medal halqa və ilgək vasitəsilə beşbucaqlı qəlibə birləşdirilir; qəlibə qırmızı rəngli ipək xara lentdən üz çəkilmişdir. Lentin eni 24 mm-dir. Lentin ortasında üçü qara və ikisi narıncı olmaqla beş zolaq vardır. Zolaqların eni 2 mm-dir. Kənardakı qara zolaqlar 1 mm enində olan narıncı zolaqlarla haşiyələnmişdir.

"1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 65 illiyi" vahid yubiley medalının şəkli Təsvirə əlavədə verilir.

"Azərbaycan Respublikası Hökuməti və Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi arasında təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi arasında təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Xələf Alı oğlu Xələfova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Xələf Alı oğlu Xələfova verilməsi barədə Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 mart 2010-cu il

№ 781

"Azərbaycan Respublikası Hökuməti və Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi arasında diplomatik, xidməti və xüsusi pasportlara malik şəxslərin viza tələbindən azad olunması haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi arasında diplomatik, xidməti və xüsusi pasportlara malik şəxslərin viza tələbindən azad olunması haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Xələf Alı oğlu Xələfova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Xələf Alı oğlu Xələfova verilməsi barədə Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 mart 2010-cu il

№ 782

"Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsinin Xarici Əlaqələr və Beynəlxalq Əməkdaşlıq məsələləri üzrə Ümumxalq Komitəsi arasında siyasi məsləhətləşmələr haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsinin Xarici Əlaqələr və Beynəlxalq Əməkdaşlıq məsələləri üzrə Ümumxalq Komitəsi arasında siyasi məsləhətləşmələr haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Xələf Alı oğlu Xələfova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Xələf Alı oğlu Xələfova verilməsi barədə Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 mart 2010-cu il

№ 783

"Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti arasında diplomatik pasportlara malik olan vətəndaşların qısa müddətli viza rejimindən qarşılıqlı azad olunması haqqında "Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti arasında diplomatik pasportlara malik olan vətəndaşların qısa müddətli viza rejimindən qarşılıqlı azad olunması haqqında" 2009-cu il dekabrın 9-da Paris şəhərində imzalanmış Saziş təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 mart 2010-cu il

№ 963-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti arasında diplomatik pasportlara malik olan vətəndaşların qısamüddətli viza rejimindən qarşılıqlı azad olunması haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti,

Tərəflər arasında ikitərəfli münasibətlərin inkişaf etdirilməsi istəyini rəhbər tutaraq və öz vətəndaşlarının bir-birinin ölkələrinə gediş-gəlişini asanlaşdırmağı arzu edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Azərbaycan Respublikasının etibarlı diplomatik pasportuna malik olan (ezamiyyət və ya şəxsi məqsədlə səfər edən) vətəndaşları Şengen zonasına, yaxud Fransa Respublikasının ərazisinin bu zonaya daxil olmayan hər hansı hissəsinə ilk daxil olma tarixindən etibarən 6 (altı) ay ərzində 90 (doxsan) gündən artıq olmayan müddətə, bir fasiləsiz və ya bir neçə səfər üçün, Fransanın ərazi-daxili departamentlərinə, eləcə də dənizaşırı departament və regionlarına (DROM), dənizaşırı ərazi birliklərinə (COM) və Yeni Kaledoniyaya vizasız giriş hüququna malik olacaqlar.

Maddə 2

Fransa Respublikasının etibarlı diplomatik pasportuna malik olan (ezamiyyət və ya şəxsi məqsədlə səfər edən) vətəndaşları Azərbaycan Respublikasının ərazisinə ilk daxil olma tarixindən etibarən 6 (altı) ay ərzində 90 (doxsan) gündən artıq olmayan müddətə, bir fasiləsiz və ya bir neçə səfər üçün Azərbaycan Respublikası ərazisinə vizasız giriş hüququna malik olacaqlar.

Maddə 3

Hər bir Tərəfin dövlətinin diplomatik pasporta malik olan vətəndaşları bu Sazişin 1-ci və 2-ci maddələrində göstərilən müddətdən daha uzun müddətli bir və ya bir neçə səfər üçün viza əldə etməyə məcburdurlar.

Maddə 4

Tərəflər istifadədə olan, yeni və ya dəyişdirilmiş diplomatik pasportlarının nümunələrinin diplomatik kanallar vasitəsilə qarşılıqlı mübadiləsini həyata keçirir və bu pasportların verilmə və istifadəsi şərtləri barədə bir-birlərinə qarşılıqlı olaraq məlumat verirlər. Tərəflərin hər biri diplomatik pasportların görünüşünə, verilmə və ya istifadə şərtlərinə hər hansı dəyişiklik edildiyi təqdirdə, həmin dəyişikliklərin həyata keçirilməsindən ən azı 60 (altmış) gün əvvəl digər Tərəfə məlumat verir və yeni pasportların nümunələrini təqdim edirlər. Hər hansı bir diplomatik pasportun itiriləcəyi, oğurlanacağı, yaxud ləğv ediləcəyi təqdirdə, digər Tərəfə belə bir halın baş verməsindən sonra 60 (altmış) gün ərzində məlumat verilir.

Maddə 5

1. Tərəflərdən hər biri müstəsna hallarda, milli təhlükəsizlik, ictimai qayda və sağlamlıq maraqları naminə bu Sazişin qüvvəsini müvəqqəti olaraq tam və ya qismən dayandıra bilər.

2. Bu maddənin 1-ci bəndində göstərilmiş tədbirləri həyata keçirən Tərəf diplomatik kanallar vasitəsilə 24 (iyirmi dörd) saatdan gec olmayaraq mümkün qədər qısa müddət ərzində bu tədbirlər barədə və müvafiq olaraq onların ləğvi barədə digər Tərəfə məlumat verməlidir.

Maddə 6

Bu Sazişin tətbiqi zamanı fikir ayrılığı yarandığı təqdirdə, Tərəflər onları diplomatik kanallarla aparılan danışıqlar və məsləhətləşmələr yolu ilə həll edəcəklər.

Maddə 7

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və 8-ci maddəsinə uyğun olaraq qüvvəyə minən və ayrıca protokollarla rəsmiləşdirilən dəyişiklik və əlavələr edilə bilər.

Maddə 8

Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır və Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə diplomatik kanallar vasitəsilə göndərdikləri sonuncu yazılı bildirişin alındığı gündən sonrakı ikinci ayın ilk günü qüvvəyə minir.

Tərəflərdən hər biri digər Tərəfə diplomatik kanallar vasitəsilə yazılı bildiriş göndərməklə bu Sazişi ləğv edə bilər. Saziş belə bildirişin alındığı tarixdən 90 (doxsan) gün sonra qüvvədən düşür.

Bu Saziş Paris şəhərində 2009-cu il dekabrın 9-da, iki əsl nüsxədə olmaqla, Azərbaycan və fransız dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	FRANSA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*BERNAR KUŞNER*
Xarici işlər naziri	*Xarici işlər naziri*

"Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti arasında mədəniyyət mərkəzlərinin təsisi və fəaliyyət şərtləri haqqında "Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti arasında mədəniyyət mərkəzlərinin təsisi və fəaliyyət şərtləri haqqında" 2009-cu il dekabrın 9-da Paris şəhərində imzalanmış Saziş təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 mart 2010-cu il

№ 964-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti arasında mədəniyyət mərkəzlərinin təsisi və fəaliyyət şərtləri haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti,

Azərbaycan və Fransa arasında olan dostluq və mədəniyyət əlaqələrini inkişaf etdirməyi, bir-birinin mədəni sərvətləri və onların bəşəri dəyərləri ilə tanış olmağı arzu edərək,

mədəniyyət, təhsil, elm və texnika sahəsində əməkdaşlığın gücləndirilməsinə əhəmiyyət verərək,

1993-cü ilin 20 dekabr tarixində imzalanmış "Azərbaycan Respublikası və Fransa Respublikası arasında dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında Müqavilə"yə əsasən ikitərəfli əlaqələrin genişləndirilməsinə səy göstərməyi arzu edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Fransa Respublikası Hökuməti Bakı şəhərində bir mədəniyyət mərkəzi yaradır. Azərbaycan Respublikası Hökuməti qarşılılıq prinsipinə uyğun olaraq Parisdə mədəniyyət mərkəzi açmaq hüququna malikdir.

Maddə 2

Fransa mədəniyyət mərkəzi Fransanın Bakıdakı Səfirliyinin tabeliyində olur. Azərbaycan mədəniyyət mərkəzi Azərbaycanın Fransadakı Səfirliyinin tabeliyində olur.

Fransa və Azərbaycan mədəniyyət mərkəzləri (bundan sonra "mərkəzlər") göndərən Dövlətin hüquqi qabiliyyətə malik şəxsidir. Qəbul edən Dövlətdə onlar öz fəaliyyətlərinə dair lazımi sənədləri qəbul edə bilərlər.

Maddə 3

Mərkəzlərin vəzifələri:

elmi-texniki, mədəniyyət və informasiya, humanitar elmlər sahəsində əməkdaşlıq proqramlarının həyata keçirilməsində iştirak etmək;

geniş ictimaiyyəti öz Dövlətlərinin tarixi, incəsənəti və mədəniyyəti, elmi, mədəni və iqtisadi potensialı ilə tanış etmək;

elmi, mədəni, maarifçi və incəsənət təşkilatları arasında əlaqələrin və əməkdaşlığın yaradılmasını və inkişaf etdirilməsini həvəsləndirmək;

Azərbaycanda fransız dilinin və Fransada Azərbaycan dilinin öyrənilməsinə əlverişli şərait yaratmaq;

iki Dövlət arasında mədəni, elmi və texniki əməkdaşlığı möhkəmləndirmək üçün əlverişli şərait yaratmaq məqsədilə yeni informasiya texnologiyalarından istifadə etməklə və beynəlxalq, milli, regional hökumət və qeyri-hökumət təşkilatları vasitəsilə, iki Dövlət arasında əlaqələrin inkişafını həvəsləndirmək;

hər iki ölkənin şəhər və regionları arasında insani, elmi və mədəni münasibətlərin yaradılmasını və inkişafını təmin etmək;

mədəniyyət, təhsil, elm və texnika sahəsində iki ölkə arasında informasiya və reklam mübadiləsinin aparılmasına müsbət şərait yaratmaq.

Maddə 4

1) Mədəniyyət mərkəzlərinin fəaliyyəti aşağıdakılardan ibarət ola bilər:

konfrans, kollokvium və digər görüşlərin, tamaşa, konsert və sərgilərin təşkili;

filmlərin və audiovizual sənədlərin təqdimatı və nümayişi;

informasiya proqramlarının və təqdimat formasından asılı olmayaraq mədəniyyət, didaktik, elmi sənədlərin nəşri və yayılması;

kitablar, qəzetlər, jurnallar, disklər və təqdimat formasından asılı olmayaraq mədəniyyət, didaktik, elmi və texniki sənədlərlə tanış olmağa və onların müvəqqəti götürülməsinə imkan verən mediateka-informasiya mərkəzinin idarə olunması;

tədqiqatçıların, mühazirəçilərin və incəsənət adamlarının dəvət olunması və qəbul edilməsi;

mədəniyyət, elmi, texniki, sosial-iqtisadi və siyasi məsələlər üzrə informasiya verilməsi;

dil dərsləri, ixtisasartırma üzrə məşğələlər və davamlı təlim proqramlarının təşkili;

Tərəflərin ölkələrindən birində təhsil almış tələbələrin klub və assosiasiyalarının yaradılması;

fransızlara Azərbaycanı, azərbaycanlılara Fransanı daha yaxından tanıdıran bütün tədbirlərin həyata keçirilməsi.

2) Mərkəzlər öz fəaliyyətlərini qəbul edən Dövlətin daxili hüquq sisteminə hörmət əsasında və bu Sazişin müddəalarına müvafiq olaraq qururlar.

Maddə 5

Mərkəzlər qəbul edən Dövlətin milli qanunvericiliyinə uyğun olaraq, öz binalarından kənarda və qəbul edən Dövlətin bütün ərazisində bu Sazişin 4-cü maddəsində göstərilən tədbirləri təşkil edə bilər.

Maddə 6

Tərəflər binanın daxilində və ya xaricində keçirilən Mərkəzin təşkil etdiyi tədbirlərə ictimaiyyətin sərbəst buraxılmasını təmin edirlər.

Tərəflər Mərkəzin binalarının, həmçinin onların keçirdiyi tədbirlərin təhlükəsizliyini təmin etmək üçün zəruri tədbirlərin görülməsini öhdələrinə götürürlər.

Maddə 7

Mərkəzlərin fəaliyyəti qeyri-kommersiya əsasında həyata keçirilir. Mərkəzlər fəaliyyət xərclərinin ödənilməsi üçün qəbul edən Dövlətin milli qanunvericiliyinə riayət etməklə:

təşkil etdiyi tədbirlərlə birbaşa əlaqəsi olan dövri nəşrlər, kataloqlar, afişalar, proqram-

lar sata bilərlər;

təşkil etdiyi tədbirlərə giriş haqqı, dil dərslərinə və digər tədbirlərə qeydiyyat ödənişi, informasiya xidməti və mediatekada olan sənədlərin müvəqqəti götürülməsi üçün ödəniş ala bilərlər.

Maddə 8

Tərəflər qüvvədə olan milli qanunvericiliyə uyğun olaraq qəbul edən Dövlətdə bu Sazişə riayət etməklə yaradılmış mərkəzlərin yerləşdirilməsini asanlaşdırmağa səy göstərirlər.

Maddə 9

Mərkəzlər və onların işçi heyəti üçün vergi rejimi 2001-ci il dekabr ayının 20-də Parisdə imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Fransa Respublikası Hökuməti arasında ikiqat vergitutmanın aradan qaldırılması, gəlir və kapitala görə vergiləri ödəməkdən yayınmanın qarşısının alınması haqqında Konvensiyanın müvafiq müddəalarını nəzərə alaraq, qəbul edən Dövlətin qanunvericiliyinə əsasən müəyyən edilir.

Maddə 10

Mərkəzlər qarşılıqlıq prinsipinə və qəbul edən Dövlətin milli qanunvericiliyinə riayət edərək, aşağıda adları çəkilən məhsulların idxalında gömrük rüsumlarından və digər rüsum və yığımlardan azad edilirlər:

1) daşınar əmlak, mərkəzlərin gündəlik inzibati fəaliyyəti üçün vacib olan avadanlıq və materiallar;

2) kataloqlar, afişalar, proqramlar, kitablar, disklər, təqdimat materialından asılı olmayaraq audiovizual və didaktik materiallar;

3) mərkəzlərin ərazilərində və ya kənar yerlərdə mərkəzlər tərəfindən təşkil edilmiş tədbirlər çərçivəsində baxılmaq və ya nümayiş etdirilmək üçün nəzərdə tutulmuş filmlər.

Yuxarıda adları göstərilən əşyalar, yalnız qəbul edən Dövlətin qüvvədə olan gömrük və vergi qaydalarına uyğun olaraq, bu Dövlətin müvafiq orqanları tərəfindən müəyyən olunmuş şərtlər əsasında borc verilə, kirayə verilə, girov qoyula və ya satıla bilər.

Maddə 11

Tərəflərdən hər biri Mərkəzinin heyətini təyin edir.

Bu heyət göndərən Dövlətin, qəbul edən Dövlətin və ya üçüncü Dövlətin vətəndaşlarından təşkil oluna bilər. Bu axırıncı halda (üçüncü dövlətin vətəndaşları təyin edildikdə) təyin edilmə qəbul edən Dövlətin hakimiyyət orqanları ilə razılaşdırılmalıdır.

Mərkəzlərin direktorları göndərən Dövlətin diplomatik nümayəndəliyinin diplomatik heyətinin üzvləri ola bilərlər.

Tərəflər mərkəzlərin heyətinin komplektləşdirilməsi, həmçinin əməkdaşların vəzifə fəaliyyətinə başlaması və ya onların işinin dayandırılması barədə qarşılıqlı şəkildə bir-birinə məlumat verəcəklər.

Maddə 12

Tərəflər nəzarət edirlər ki, mədəniyyət mərkəzlərinin, qəbul edən Dövlətdə müvəqqəti qalan, göndərən Dövlətin (və ya Fransa göndərən Dövlət olarsa, Avropa İqtisadi Məkanının üzvü olan digər Dövlətin) vətəndaşları olan həyətinin üzvləri göndərən Dövlətin iş şərtləri haqqında qanunvericiliyinə, həm-çinin də sosial təhlükəsizlik qanunvericiliyinə tabe olmağa davam etsinlər.

Maddə 13

Qəbul edən Dövlətdə mədəniyyət mərkəzləri tərəfindən işə qəbul edilən, bu Dövlətin vətəndaşı olan və ya orada həmişəlik və qanuni yaşayan yerli işçilər yerli hüquq sistemi ilə idarə olunurlar. Onlar qəbul edən Dövlətin sosial təhlükəsizlik qaydalarına tabedirlər.

Maddə 14

Tərəflərdən hər biri digər Tərəfin mədəniyyət Mərkəzinin heyətinin üzvlərinə və onlarla birlikdə yaşayan ailə üzvlərinə, onların daşınar əmlakının və şəxsi əmlakının, həmçinin istifadə müddətində avtomobilinin gömrük ödənişlərindən azad olunmaqla vəzifələrinin icrasına başladıqları bir il ərzində ölkəyə gətirməyə və Mərkəzdə səlahiyyətləri başa çatanda ölkədən aparmağa icazə verir. Bu azadolmalar yalnız onların Mərkəzdə işlədikləri vaxt ərzində qüvvədə olur.

Yuxarıda adı çəkilən əşyalar göndərən Dövlətin heyətinin üzvləri tərəfindən yalnız qəbul edən Dövlətin qüvvədə olan gömrük və vergi qaydalarına uyğun gələn şərtlər əsasında borc verilə, kirayə verilə, girov qoyula və satıla bilər.

Bu maddənin müddəaları mədəniyyət mərkəzlərinin qəbul edən Dövlətin vətəndaşları olan və ya qəbul edən Dövlətdə daimi yaşayan heyət üzvlərinə şamil edilmir.

Maddə 15

Hər bir Tərəf digər Tərəfin mədəniyyət mərkəzinin heyət üzvlərinə, həmçinin onlarla birlikdə yaşayan ailə üzvlərinə vizaların və yaşamaq üçün icazənin verilməsini asanlaşdıracağı barədə öhdəlik götürür.

Maddə 16

Hər bir Tərəf, ehtiyac olarsa, Mərkəzin göndərən Dövlətin vətəndaşı olan əməkdaşına və ya üçüncü dövlətin vətəndaşı olan əməkdaşına mənzil axtarmaqda yardım göstərəcəkdir.

Maddə 17

Tərəflərin qarşılıqlı razılığı əsasında hər zaman bu Sazişə onun ayrılmaz hissəsi olan və 19-cu maddəsinə uyğun olaraq qüvvəyə minən və ayrıca protokollarla rəsmiləşdirilən dəyişiklik və əlavələr edilə bilər.

Maddə 18

Bu Sazişin şərhi və tətbiqi ilə bağlı bütün fikir ayrılıqları Tərəflər arasında danışıqlar yolu ilə həll olunur.

Maddə 19

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş 5 (beş) il müddətinə bağlanır. Bu 5 (beş) illik dövrün qurtarmasına ən azı 6 (altı) ay qalan vaxtadək Tərəflərdən biri onun qüvvəsinin ləğv edilməsi niyyəti barədə digər Tərəfi yazılı şəkildə xəbərdar etməzsə, Saziş avtomatik olaraq növbəti 5 (beş) illik dövrlərə uzadılacaqdır.

Bu Saziş Paris şəhərində 2009-cu il dekabrın 9-da, iki əsl nüsxədə olmaqla, Azərbaycan və fransız dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	FRANSA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*BERNAR KUŞNER*
Xarici işlər naziri	*Xarici işlər naziri*

"2007-ci il yanvarın 1-də Avropa İttifaqına daxil olmuş Bolqarıstan Respublikasının və Rumıniyanın yeni statusu ilə bağlı "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında" Əsas Çoxtərəfli Sazişə dəyişikliklər və əlavələr edilməsi haqqında" Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"2007-ci il yanvarın 1-də Avropa İttifaqına daxil olmuş Bolqarıstan Respublikasının və Rumıniyanın yeni statusu ilə bağlı "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında" Əsas Çoxtərəfli Sazişə dəyişikliklər və əlavələr edilməsi haqqında" 2007-ci il dekabrın 13-də Astana şəhərində imzalanmış Protokol təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 mart 2010-cu il

№ 965-IIIQ

TRASEKA hökumətlərarası komissiyasının altıncı illik iclası Astana şəhəri/-Qazaxıstan Respublikası, 12-13 dekabr 2007-ci il 2007-ci il yanvarın 1-də Avropa İttifaqına daxil olmuş Bolqarıstan Respublikasının və Rumıniyanın yeni statusu ilə bağlı "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında" Əsas Çoxtərəfli Sazişə dəyişikliklər və əlavələr edilməsi haqqında Protokol

"Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Sazişin" (Əsas Saziş) 11-ci maddəsinə ("Dəyişikliklər və əlavələr edilməsi") müvafiq olaraq,

iki Tərəfin - 2007-ci il yanvarın 1-də Avropa İttifaqına (Aİ) daxil olmuş Bolqarıstan Respublikasının və Rumıniyanın yeni statusunu nəzərə alaraq,

Tərəflər Əsas Sazişə və Texniki Əlavələrə aşağıdakı dəyişikliklər və əlavələr edilməsi haqqında qərar qəbul etdilər:

I. Bu Protokolun qüvvəyə mindiyi gündən etibarən Bolqarıstan Respublikası və Rumıniya aşağıdakı müddəaları tətbiq etməyəcəklər:

2003-cü il oktyabrın 9-da Ermənistan Respublikasının Yerevan şəhərində imzalanmış Əsas Sazişə dəyişikliklər edilməsi haqqında Protokolun 2-ci və 3-cü bəndləri;

Əsas Sazişə əlavələr edilməsi haqqında Protokolun 4-cü bəndi "(Beynəlxalq yük haqqında məlumatlara dair Sazişin qaiməsini tətbiq etməklə dəmir yolu nəqliyyatı vasitəsilə yüklərin daşınması zamanı Avropa-Qafqaz-Asiya (TRASEKA) nəqliyyat dəhlizi üzrə beynəlxalq gömrük tranzitinin həyata keçirilməsi zamanı prosedurlar haqqında Texniki Əlavə");

Əsas Sazişə Beynəlxalq avtomobil nəqliyyatı üzrə Texniki Əlavənin 8-ci maddəsi;

gömrük prosedurları və sənədlərin işlənməsi üzrə Texniki Əlavə.

II. Bu Protokolun qüvvəyə mindiyi gündən etibarən Bolqarıstan Respublikası Əsas Sazişə beynəlxalq dəmir yolu nəqliyyatı üzrə Texniki Əlavəyə dair 2-ci Qeydin müddəalarını tətbiq etməyəcəkdir.

III. Tərəflər aşağıdakı dəyişikliklər etmək üçün razılığa gəldilər:

1) Əsas Sazişin 6-cı maddəsinin 2-ci bəndinə yeni cümlə əlavə edilsin və aşağıdakı redaksiyada qəbul edilsin:

"Bu müddəalar Bolqarıstan Respublikası və Rumıniya tərəfindən, onların Avropa İttifaqına üzvlüyü səbəbindən, bu İttifaqın üzvü olan dövlətlərə və ya istənilən üçüncü dövlətə irəli sürülən imtiyazlara münasibətdə tətbiq edilməyəcəkdir."

2) Əsas Sazişə Beynəlxalq ticarət gəmiçiliyi üzrə Texniki Əlavənin 9-cu maddəsinə yeni 4-cü bənd əlavə edilsin və aşağıdakı redaksiyada qəbul edilsin:

"Bu müddəalar Bolqarıstan Respublikası və Rumıniya tərəfindən, onların Avropa İttifaqına üzvlüyü səbəbindən, bu İttifaqın üzvü olan dövlətlərə və ya istənilən üçüncü dövlətə irəli sürülən imtiyazlara münasibətdə tətbiq edilməyəcəkdir."

3) Beynəlxalq dəmir yolu nəqliyyatı üzrə Əsas Sazişə Texniki Əlavənin 1-ci Qeydinin 3-cü bəndində "Bolqarıstan Dövlət Dəmir Yolları" Milli Şirkəti ifadəsi aşağıdakı redaksiya ilə əvəz edilsin: "Bolqarıstan Respublikasının Nəqliyyat Nazirliyi".

IV. Tərəflər razılığa gəldilər ki, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişafında Avropa İttifaqının üzvü olan Əsas Saziş Tərəflərinin iştirakı Avropa İttifaqının qanunvericiliyi ilə məhdudlaşdırılır.

Əsas Sazişin və onun Texniki Əlavələrinin müddəaları Avropa İttifaqının üzvü olan Əsas Saziş Tərəfləri arasında tətbiq edilməyəcəkdir.

Əsas Sazişə və/və ya onun Texniki Əlavələrinə dəyişikliklər və əlavələr edildiyi təqdir-

də, bu ölkələr hər bir konkret halda iştirak etməmək barədə mövqelərini ifadə etmək hüququnu özlərində saxlayırlar. Bu hallarda həmin ölkələrin qərarları Əsas Sazişin 8-ci maddəsinin 2-ci bəndi ilə nəzərdə tutulan konsensus normasına təsir etməyəcəkdir.

Bu Protokol Əsas Sazişin 11-ci ("Dəyişikliklər və əlavələr edilməsi") və 13-cü ("Qüvvəyəminmə") maddələrində müəyyən edilmiş qaydada qüvvəyə minir.

Bu Protokol imzalanması üçün 2007-ci il dekabrın 13-də Astana şəhərində, bu tarixdən sonra isə - TRASEKA Hökumətlərarası Komissiyasının Daimi Katibliyində açıqdır.

Astana şəhərində 2007-ci il dekabrın 13-də ingilis və rus dillərində bir əsl nüsxədə imzalanmışdır. Hər iki mətn bərabər autentikdir.

Bunun təsdiqi olaraq, aşağıda imza edən nümayəndə heyətlərinin rəhbərləri və ya onların səlahiyyətli nümayəndələri bu Protokolu imzalayırlar.

AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN	MOLDOVA RESPUBLİKASI ADINDAN
(imza)	*(imza)*
ERMƏNİSTAN RESPUBLİKASI ADINDAN	RUMİNİYA ADINDAN
(imza)	*(imza)*
BOLQARISTAN RESPUBLİKASI ADINDAN	TACİKİSTAN RESPUBLİKASI ADINDAN
(imza)	*(imza)*
GÜRCÜSTAN ADINDAN	TÜRKİYƏ RESPUBLİKASI ADINDAN
(imza)	*(imza)*
QAZAXISTAN RESPUBLİKASI ADINDAN	ÖZBƏKİSTAN RESPUBLİKASI ADINDAN
(imza)	*(imza yoxdur)*
QIRĞIZ RESPUBLİKASI ADINDAN	UKRAYNA ADINDAN
(imza)	*(imza)*

"Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında" Əsas Çoxtərəfli Sazişə dair gömrük prosedurları və sənədlərin işlənməsi üzrə Texniki Əlavəyə əlavələr edilməsi haqqında" Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında" Əsas

Çoxtərəfli Sazişə dair gömrük prosedurları və sənədlərin işlənməsi üzrə Texniki Əlavəyə əlavələr edilməsi haqqında" 2007-ci il dekabrın 13-də Astana şəhərində imzalanmış Protokol təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 mart 2010-cu il

№ 966-IIIQ

TRASEKA hökumətlərarası komissiyasının altıncı illik iclası Astana şəhəri Qazaxıstan Respublikası, 12-13 dekabr 2007-ci il "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında" Əsas Çoxtərəfli Sazişə dair gömrük prosedurları və sənədlərin işlənməsi üzrə Texniki Əlavəyə əlavələr edilməsi haqqında Protokol

Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Sazişin 11-ci maddəsinə ("Dəyişikliklər və əlavələr edilməsi") və Sofiya şəhərində Hökumətlərarası Komissiyanın iclasında təsdiq edilmiş 2015-ci ilədək olan müddətdə "Avropa-Qafqaz-Asiya" beynəlxalq nəqliyyat dəhlizinin inkişafı üzrə TRASEKA hökumətlərarası komissiyasının Strategiyasının 5.2, 5.3, 5.5,7.1 və 7.3-cü fəsillərinə müvafiq olaraq, Əsas Sazişə dair gömrük prosedurları və sənədlərin işlənməsi üzrə Texniki Əlavəyə aşağıdakı əlavələrin edilməsi barədə qərar qəbul edilmişdir:

1. "Beynəlxalq Konvensiyalar" adlı 2-ci maddənin 1-ci bəndinə yeni yarımbəndlər əlavə edilsin:

"ç. Kioto Konvensiyası (Gömrük prosedurlarının sadələşdirilməsi və uzlaşdırılması haqqında 1973-cü il tarixli Beynəlxalq Konvensiya, 1993-cü il tarixli dəyişikliklər və əlavələrlə);

d. Pula verilmiş konteynerlərin gömrük emalı haqqında 1994-cü il tarixli Konvensiya;

e. Təkərli nəqliyyat vasitələri üçün vahid texniki qaydaların tətbiq edilməsi haqqında 1998-ci il tarixli Saziş (AETR);

ə. Beynəlxalq ticarətdə nəqliyyat terminallarının operatorlarının məsuliyyəti haqqında BMT-nin Avropa İqtisadi Komissiyasının 1991-ci il tarixli Konvensiyası;

f. Təhlükəli yüklərin beynəlxalq daşınmaları haqqında Konvensiya;

g. Tez xarab olan qida məhsullarının beynəlxalq daşınmaları və bu daşınmalar üçün nəzərdə tutulmuş xüsusi nəqliyyat vasitələri haqqında 1970-ci il tarixli Saziş;

ğ. Beynəlxalq dəniz gəmiçiliyinin asanlaşdırılması haqqında 1965-ci il tarixli Konvensiya (FAL Konvensiyası);

h. Təhlükəsiz konteynerlər üzrə 1972-ci il tarixli Beynəlxalq Konvensiya (CSC Konvensiyası);

x. Dənizdə axtarış və xilasetmə haqqında 1979-cu il tarixli Beynəlxalq Konvensiya (SAR Konvensiyası);

i. Beynəlxalq dəniz peyk rabitəsi təşkilatı haqqında 1976-cı il tarixli Konvensiya (İNMARCAT Konvensiyası);

j. Neftlə çirklənməyə gətirib çıxaran qəzalar zamanı açıq dənizdə müdaxilə haqqında 1969-cu il tarixli Beynəlxalq Konvensiya (Müdaxilə haqqında Konvensiya);

k. Təhlükəli yüklərin dəmir yolu ilə beynəlxalq daşınması Qaydaları, 1966-cı il (RİD Konvensiyası);

q. Beynəlxalq avtomobil nəqliyyatı ilə səmişin və baqaj daşınması haqqında 1973-cü il tarixli Konvensiya və Konvensiyaya dair 1978-ci il tarixli Protokol".

2. "Gömrük nəzarəti" adlı 3-cü maddəyə yeni bənd əlavə edilsin:

"3. Tranzit daşımaları ilə bağlı tətbiq edilən prosedurlar müvafiq dövlətin gömrük qanunvericiliyinin tələblərinə müvafiq olaraq həyata keçirildiyi halda, beynəlxalq, o cümlədən tranzit daşımaları zamanı yüklər:

- yerinə yetirilməsinə görə gömrük xidmətinin məsuliyyət daşıdığı qayda və təlimatlara riayət olunmasının təmin edilməsi üçün zəruri hesab edilə bilən dərəcədə *daşınma zamanı baxışın keçirilməsi istisna olmaqla, bir qayda olaraq, yolda gömrük* baxışından keçmir. Bunu nəzərə alaraq, gömrük orqanlarının fəaliyyəti, adətən, gömrük plomblarının nəzarəti və idxal və ixrac məntəqələrində gömrük təminatının digər tədbirləri ilə məhdudlaşır;

- hər hansı gömrük rəsmiləşdirilməsinə və ya hazırkı tranzit əməliyyatında istifadə edilən tranzit gömrük rejimində tətbiq edilən tələblərdən əlavə digər tələblərə məruz qalmayacaqdır".

3. "Sənədlərin işlənməsi" adlı 4-cü maddənin 2-ci bəndinə aşağıdakı abzas əlavə edilsin:

"Gömrük prosedurlarının sadələşdirilməsi, yük və Əsas Çoxtərəfli Saziş çərçivəsində yüklərin daşınmasını həyata keçirən nəqliyyat şirkətləri (yerüstü, dəmir yolu, dəniz) üçün tranzit müddətinin azaldılması məqsədilə yük gömrük bəyannaməsində "TRASEKA" (Transport Corridor Europe-Caucasus-Asia) işarəsi (loqotip) göstəriləcək. Tərəflər bu cür yük gömrük bəyannaməsi ilə rəsmiləşdirilmiş yüklərin asan buraxılmasının tətbiqi üçün qayda işləyib hazırlayırlar".

4. Texniki Əlavəyə aşağıdakı yeni maddə əlavə edilsin:

"Maddə 5

Tranzitə yardım

Beynəlxalq ticarətə və yüklərin tranzitinə yardım etmək məqsədilə:

a. göndərən Tərəf, mümkün olduğu təqdirdə, tranzit əməliyyatları üçün tələb edilən məlumatın tamlığını və dəqiqliyini təmin etmək üçün lazımi tədbirlər görür;

b. qəbul edən Tərəf isə:

- gömrük tranziti zamanı, bir qayda olaraq, yükün təyinat yerlərində yüklərin təmizlənməsini təmin etmək üçün lazımi tədbirlər görür;

- yükün son təyinat yerlərinə mümkün qədər yaxın yerləşən məkanda yüklərin təmizlənməsini təmin etmək üçün lazımi səylər göstərir.".

Bu Protokol "Avropa-Qafqaz-Asiya" dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Sazişin 11-ci ("Dəyişikliklər və əlavələr edilməsi") və 13-cü ("Qüvvəyəminmə") maddələrində müəyyən edilmiş qaydada qüvvəyə minir.

Astana şəhərində 2007-ci il dekabrın 13-də ingilis və rus dillərində bir əsl nüsxədə imzalanmışdır. *Hər iki mətn bərabər autentikdir.*

Bunun təsdiqi olaraq, aşağıda imza edən nümayəndə heyətlərinin rəhbərləri və ya onların səlahiyyətli nümayəndələri bu Protokolu imzalayırlar.

AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN	MOLDOVA RESPUBLİKASI ADINDAN
(imza)	*(imza)*
ERMƏNİSTAN RESPUBLİKASI ADINDAN	RUMİNİYA ADINDAN
(imza yoxdur)	*(imza yoxdur)*
BOLQARISTAN RESPUBLİKASI ADINDAN	TACİKİSTAN RESPUBLİKASI ADINDAN
(imza yoxdur)	*(imza)*
GÜRCÜSTAN ADINDAN	TÜRKİYƏ RESPUBLİKASI ADINDAN
(imza yoxdur)	*(imza)*
QAZAXISTAN RESPUBLİKASI ADINDAN	ÖZBƏKİSTAN RESPUBLİKASI ADINDAN
(imza)	*(imza yoxdur)*
QIRĞIZ RESPUBLİKASI ADINDAN	UKRAYNA ADINDAN
(imza)	*(imza)*

"Beynəlxalq Dəniz Təşkilatı haqqında" Konvensiyaya əlavə və dəyişikliklərin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Beynəlxalq Dəniz Təşkilatı haqqında" Konvensiyaya 1991-ci il noyabrın 7-də Beynəlxalq Dəniz Təşkilatı tərəfindən qəbul edilmiş əlavə və dəyişikliklər təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 mart 2010-cu il

№ 967-IIIQ

"Bunker yanacağı ilə çirklənmə nəticəsində vurulan zərərə görə mülki məsuliyyət haqqında" Beynəlxalq Konvensiyaya qoşulmaq barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

Azərbaycan Respublikası "Bunker yanacağı ilə çirklənmə nəticəsində vurulan zərərə görə mülki məsuliyyət haqqında" 2001-ci il martın 23-də London şəhərində imzalanmış Beynəlxalq Konvensiyaya qoşulsun.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 mart 2010-cu il

№ 968-IIIQ

Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyasının aşağıdakı yeni tərkibi təsdiq edilsin:

Komissiyanın sədri

Əli Həsənov - Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri

Komissiyanın üzvləri:

Fatma Abdullazadə - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının humanitar siyasət məsələləri şöbəsinin müdiri

Mahmud Məmməd-Quliyev - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Əsgər Ələkbərov - Azərbaycan Respublikası daxili işlər nazirinin müavini

Orucəli Hacıyev - Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini

Vilayət Zahirov - Azərbaycan Respublikası ədliyyə nazirinin müavini

Sahir Məmmədxanov - Azərbaycan Respublikası vergilər nazirinin müavini

Sevinc Həsənova - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini

İlqar Rəhimov - Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini

Elmar Qasımov - Azərbaycan Respublikası təhsil nazirinin müavini

Elsevər Ağayev - Azərbaycan Respublikası səhiyyə nazirinin müavini

Səfər Mehdiyev - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini

Zakir Babayev - Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondu sədrinin müavini

Fərdil Məmmədov - "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin vitse-prezidenti

Pərviz Musayev - Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti rəisinin müavini

İlyas Əliyev - Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası sədrinin birinci müavini

Novruzəli Aslanov - Azərbaycan Qızıl Aypara Cəmiyyətinin sədri

Qurban Sadıqov - Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının qaçqınların, məcburi köçkünlərin problemləri, miqrasiya və beynəlxalq təşkilatlarla iş şöbəsinin müdiri

2. "Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyasının bəzi məsələləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 1 fevral tarixli 62 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 2, maddə 97; 2007-ci il, № 9, maddə 871; 2008-ci il, № 9, maddə 797) 1-ci bəndi qüvvədən düşmüş hesab edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 mart 2010-cu il.

№ 785

"Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında" Konvensiyanı Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında" Konvensiyanı Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Avropa Şurası yanında daimi nümayəndəsi Arif Zahid oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Konvensiyanı Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Avropa Şurası yanında daimi nümayəndəsi Arif Zahid oğlu Məmmədova verilməsi barədə Avropa Şurasına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 mart 2010-cu il

№ 796

2009-cu il oktyabrın 30-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Çexiya Respublikası Hökuməti arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2009-cu il oktyabrın 30-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Çexiya Respublikası Hökuməti arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Çexiya Respublikası Hökumətini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 mart 2010-cu il

№ 797

Azərbaycan Respublikası Hökuməti və Çexiya Respublikası Hökuməti arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Çexiya Respublikası Hökuməti,

uzunmüddətli ənənəvi iqtisadi əlaqələri nəzərə alaraq,

bərabərlik, qarşılıqlı fayda və beynəlxalq hüququn digər prinsiplərini rəhbər tutaraq,

iqtisadi, elmi-texniki və mədəni sahədə əməkdaşlığı möhkəmləndirmək və dəstəkləmək arzusunda olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Razılığa gələn Tərəflər öz dövlətlərində qüvvədə olan qanunvericiliyə uyğun olaraq, uzunmüddətli əsasda aşağıdakı sahələr üzrə iqtisadi, elmi-texniki və mədəni əməkdaşlığı möhkəmləndirməyə və inkişaf etdirməyə çalışacaqlar:

a) iqtisadi və elmi-texniki əməkdaşlıq

maşınqayırma;

nəqliyyat, o cümlədən nəqliyyat vasitələri; energetika;

neft-qaz və kimya sənayesi;

kommunal təsərrüfat;

elektron və elektrotexnika sənayesi;

qara və əlvan metallurgiya;

dağ-mədən sənayesi;

elektrikötürücü şəbəkə də daxil olmaqla, elektrik stansiyalarının müasirləşdirilməsi və yenidən qurulması;

qaz və neft kəmərlərinin müasirləşdirilməsi və yenidən qurulması;

tikinti sənayesi;

kənd təsərrüfatı;

standartlaşdırma, metrologiya və uyğunluğun qiymətləndirilməsi;

qarşılıqlı maraq doğuran digər sahələr;

b) mədəni əməkdaşlıq

mədəniyyət və incəsənət (teatr, musiqi, ədəbiyyat, təsviri incəsənət, rəqs, kinematoqrafiya, abidələrin qorunması, ənənəvi milli mədəniyyət, kitabxanalar, muzeylər, qalereyalar);

rəssam və mütəxəssislərin beynəlxalq festivallarda, yarışlarda, sərgilərdə, konfranslarda iştirakı və mədəni xarakterli görüşlər;

hər iki ölkənin mədəniyyət siyasəti sahəsində təcrübə və məlumat mübadiləsi;

qarşılıqlı olaraq sərgilərin keçirilməsi.

Maddə 2

1. Razılığa gələn Tərəflər bu Sazişin 1-ci maddəsində göstərilən əməkdaşlıq istiqamətlərinin həyata keçirilməsi məqsədilə iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Qarışıq Komissiya yaradırlar (bundan sonra - Komissiya).

2. Qarışıq Komissiya işçi qrupları yaratmaq hüququna malikdir.

3. Qarışıq Komissiyanın iş qaydası Qarışıq Komissiyanın Əsasnaməsi ilə müəyyən ediləcəkdir.

4. Qarışıq Komissiyanın Əsasnaməsi onun birinci iclasında Qarışıq Komissiyanın həmsədrləri tərəfindən təsdiq edilir.

Maddə 3

Qarışıq Komissiyanın iclasları zəruri hallarda, bir qayda olaraq, ildə bir dəfə növbə ilə Azərbaycan Respublikasında və Çexiya Respublikasında keçiriləcəkdir.

Maddə 4

1. Qarışıq Komissiyanın əsas vəzifələri aşağıdakılardır:

a) qarşılıqlı maraq doğuran sahələrdə iqtisadi və elmi-texniki əməkdaşlıq üzrə proqramların müzakirəsi və təsdiq olunması;

b) sahibkarlıq fəaliyyəti subyektlərinə ixrac kreditlərinin verilməsi və onların iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq sahələrində maliyyələşdirilməsi üçün əlverişli şəraitin yaradılmasına yardım edilməsi;

c) kiçik və orta sahibkarlığın dəstəklənməsi üzrə proqramların hazırlanması və həyata keçirilməsində iştirak;

ç) Razılığa gələn Tərəflərin dövlətlərinin ərazisində keçirilən beynəlxalq sərgi və yarmarkalarda hər iki ölkənin sahibkarlıq fəaliyyəti subyektlərinin iştirakı, həmçinin Razılığa gələn Tərəflərin ölkələrinin ticarət-sənaye palatalarının əməkdaşlığı üçün şəraitin yaradılması;

d) mədəni əməkdaşlıq proqramlarının müzakirəsi;

e) beynəlxalq festival, yarış, sərgi və kitab yarmarkalarında hər iki ölkənin iştirakı üçün əlverişli şəraitin yaradılması.

2. Qarışıq Komissiya qarşılıqlı kooperasiya əlaqələrinin və əməkdaşlığın digər formalarının inkişafına yardım edəcəkdir.

Maddə 5

1. Razılığa gələn Tərəflər arasında əməkdaşlıq Razılığa gələn Tərəflərin ölkələrinin beynəlxalq öhdəliklərinə, o cümlədən bir tərəfdən Avropa Birliyi və ya Avropa Birliyi ilə Avropa İttifaqına üzv olan ölkələr, digər tərəfdən Azərbaycan Respublikası arasında bağlanmış müqavilələrdən irəli gələn beynəlxalq öhdəliklərə uyğun olaraq həyata keçiriləcəkdir.

2. Bu Saziş çərçivəsində Razılığa gələn Tərəflərin əməkdaşlığı Razılığa gələn Tərəflərin ölkələrinin qoşulduğu digər beynəlxalq müqavilələrdən, həmçinin Çexiya Respublikasının Avropa İttifaqına və Azərbaycan Respublikasının beynəlxalq inteqrasiya birliklərinə üzvlüyündən irəli gələn öhdəliklərinə toxunmur.

Maddə 6

Razılığa gələn Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və Sazişin 8-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən dəyişikliklər və əlavələr edilə bilər.

Maddə 7

Razılığa gələn Tərəflər bu Sazişin təfsiri və tətbiqi zamanı yaranan mübahisə və fikir ayrılıqlarını qarşılıqlı məsləhətləşmələr və danışıqlar yolu ilə həll edəcəklər.

Maddə 8

1. Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Razılığa gələn Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

2. Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır və Razılığa gələn bir Tərəfin Razılığa gələn digər Tərəfə ona xitam vermək niyyəti barədə diplomatik kanallar vasitəsilə yazılı şəkildə bildiriş göndərdiyi tarixdən sonrakı 6 ay müddətində də qüvvədə qalacaqdır.

Bu Saziş Bakı şəhərində 2009-cu il 30 oktyabr tarixində, hər biri Azərbaycan, çex və rus dillərində iki əsl nüsxədə olmaqla imzalanmışdır, bütün mətnlər autentikdir.

Bu Sazişin təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə, rus dilində olan mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	ÇEXİYA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ŞAHİN MUSTAFAYEV	*RADEK MATULA*
İqtisadi inkişaf naziri	*Çexiyanın Azərbaycandakı səfiri*

2009-cu il noyabrın 11-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Ümumdünya Gömrük Təşkilatı (ÜGT) arasında Azərbaycan Respublikasının Bakı şəhərində Potensialın Gücləndirilməsi üzrə Ümumdünya Gömrük Təşkilatının Regional Ofisinin yaradılması ilə əlaqədar Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2009-cu il noyabrın 11-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Ümumdünya Gömrük Təşkilatı (ÜGT) arasında Azərbaycan Respublikasının Bakı şəhərində Potensialın Gücləndirilməsi üzrə Ümumdünya Gömrük Təşkilatının Regional Ofisinin Yaradılması ilə əlaqədar Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Ümumdünya Gömrük Təşkilatını xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 mart 2010-cu il

№ 798

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Ümumdünya Gömrük Təşkilatı (ÜGT) arasında Azərbaycan Respublikasının Bakı şəhərində Potensialın Gücləndirilməsi üzrə Ümumdünya Gömrük Təşkilatının Regional Ofisinin yaradılması ilə əlaqədar Anlaşma Memorandumu

Birlikdə "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi (bundan sonra - Gömrük Xidməti) və Ümumdünya Gömrük Təşkilatı (bundan sonra - ÜGT):

ticarət həcminin artması, ticarətin qloballaşması və regional inteqrasiya səbəbindən gömrük xidmətlərinin üzləşdikləri böyük çətinlikləri qəbul edərək,

ticarətin formalarının dəyişməsinin, ticarətin daha da asanlaşdırılmasına ehtiyacın və məhdud resurslarla istehsalın daha da genişləndirilməsi zərurətinin gömrük xidmətləri arasında, həmçinin ÜGT ilə geniş əməkdaşlıq tələb etdiyini qəbul edərək,

gömrük işi ilə əlaqədar əsas beynəlxalq konvensiyaların, tövsiyələrin və digər normaların vahid tərzdə icrası üçün məlumatların yayımı və potensialın gücləndirilməsi məsələsinin əhəmiyyətini dərk edərək,

ÜGT-nin potensialın gücləndirilməsi sahəsində üzv dövlətlərlə effektiv və səmərəli fəaliyyətin həyata keçirilməsi məqsədilə Potensialın Gücləndirilməsi Strategiyasını hazırladığını və bu sahədə regional yanaşma prinsipini tətbiq etdiyini nəzərə alaraq,

Avropa Regionu Baş direktorlarının 18-19 may 2009-cu il tarixində Norveçin Bergen şəhərində keçirilən Gömrük Xidmətləri Rəhbərlərinin iclasında Potensialın Gücləndirilməsi üzrə Regional Strategiyanın tərkib hissəsi olaraq ÜGT-nin Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisinin (bundan sonra - "PGRO") Azərbaycan Respublikasının Bakı şəhərində yaradılması barədə qərar verdiklərini və Şuranın ÜGT-nin bu qərarını 2009-cu ilin iyun ayında Belçikanın Brüssel şəhərində keçirilən 113/114-cü sessiyalarında təsdiq etdiyini nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

PGRO-nun rolu və vəzifələri

1. PGRO Potensialın Gücləndirilməsi Strategiyasının regional səviyyədə icrası istiqamətində ÜGT səylərinə uyğun olaraq irəli sürülmüş regional təşəbbüsdür. PGRO potensialın gücləndirilməsi sahəsində ÜGT-nin Potensialın Gücləndirilməsi Strategiyasının icrası məqsədilə ÜGT Katibliyi, Gömrük Xidməti və Avropa Regionunun Baş direktorları ilə sıx əməkdaşlıq şəraitində fəaliyyət göstərəcəkdir.

2. PGRO ÜGT-nin Avropa Regionunda potensialın gücləndirilməsi mərkəzi olacaq və koordinasiya və tədbirlərin həyata keçirilməsi, qəbul edən gömrük xidmətlərinə yardım göstərilməsi və donor təşkilatlarla qarşılıqlı əlaqələrin yaradılması məsələlərinə cavabdeh olacaqdır. PGRO öz vəzifələrini 18-19 may 2009-cu il tarixində Norveçin Bergen şəhərində keçirilmiş ÜGT-nin Gömrük Xidməti Rəhbərlərinin Regional Konfransında təsdiq edilmiş ÜGT-nin Potensialın Gücləndirilməsi üzrə Regional Fəaliyyət Strategiyasına əlavə edilmiş texniki şərtlərə uyğun olaraq həyata keçirəcəkdir.

Maddə 2

Təşkilat və kadrlar

1. Gömrük Xidməti PGRO-nu Azərbaycan Respublikasının Bakı şəhərində zəruri ofis avadanlıqları ilə təmin edəcəkdir.

2. PGRO-ya Avropa regionunun üzvləri tərəfindən təqdim olunan əməkdaşlar, eləcə də PGRO rəhbəri işə qəbul ediləcəkdir. PGRO əməkdaşları təmsil etdikləri gömrük təşkilatı və ev sahibi olan gömrük xidmətinə münasibətdə müstəqil olacaqlar.

Maddə 3

Xərclər

1. Əməkdaşlarını PGRO-ya təqdim edən üzv idarələr əməkhaqqı, gündəlik xərclər, yaşayış xərcləri, daşınma və yerləşmə məsrəfləri kimi xərcləri və ya əmək haqlarının təyinatı ilə bağlı hər hansı digər xərcləri öz üzərinə götürəcəklər.

2. Əməkdaşlarını PGRO-ya təqdim edən üzv idarələr öz əməkdaşlarının fəaliyyəti çərçivəsində daxili və xarici səfərləri ilə bağlı xərcləri də öz üzərinə götürəcəklər.

3. Gömrük Xidməti PGRO-nu mebel, telefon və faks, surətçıxarma maşını kimi zəruri ofis avadanlıqları ilə təmin edəcək və elektrik enerjisi, istilik, su və gündəlik fəaliyyətlə bağlı digər xərcləri ödəyəcəkdir.

Maddə 4

PGRO-nun və onun əməkdaşlarının statusu

Azərbaycan Respublikasının Hökuməti PGRO-ya və onun işçi heyətinə zəruri hesab edilən istənilən imtiyaz və immuniteti verə bilər.

Maddə 5

Koordinasiya

ÜGT və Gömrük Xidməti bu Anlaşma Memorandumu imzalandığı tarixdən etibarən bir ay müddətində onun icrası ilə bağlı məsələlərin koordinasiyası üçün əlaqələndirici şəxslər təyin edəcəklər.

Maddə 6

Qüvvəyəminmə və müddət

1. Bu Anlaşma Memorandumu imzalandığı tarixdən qüvvəyə minəcəkdir.

2. Hər bir Tərəf bu Anlaşma Memorandumunu istənilən an yazılı bildiriş göndərilməsi şərtilə ləğv edə bilər. Bu Anlaşma Memorandumu digər Tərəfin belə bildirişi almasından dərhal sonra qüvvədən düşmüş hesab olunacaqdır.

3. Bu Anlaşma Memorandumu Tərəflərin qarşılıqlı razılığı əsasında yazılı formada dəyişdirilə bilər.

Azərbaycan Respublikasının Bakı şəhərində 2009-cu il 11 noyabr tarixində, Azərbaycan və ingilis dillərində, iki əsl nüsxədə imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT GÖMRÜK KOMİTƏSİ ADINDAN	ÜMUMDÜNYA GÖRÜK TƏŞKİLATI ADINDAN
AYDIN ƏLİYEV	*VİTALİ MİKELADZE*
Komitəsinin sədri	*Avropa ölkələri üzrə regional meneceri*

2009-cu il dekabrın 29-da Pekin şəhərində imzalanmış "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Çin Xalq Respublikası Müdafiə Nazirliyi arasında Çin tərəfindən Azərbaycana təmənnasız hərbi yardım göstərilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2009-cu il dekabrın 29-da Pekin şəhərində imzalanmış "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Çin Xalq Respublikası Müdafiə Nazirliyi arasında Çin tərəfindən Azərbaycana təmənnasız hərbi yardım göstərilməsi haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci

bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Çin Xalq Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 mart 2010-cu il

№ 799

Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Çin Xalq Respublikası Müdafiə Nazirliyi arasında Çin tərəfindən Azərbaycana təmənnasız hərbi yardım göstərilməsi haqqında Saziş

Azərbaycan Respublikası Müdafiə Nazirliyi (bundan sonra "Azərbaycan Tərəfi" adlandırılacaq) və Çin Xalq Respublikası Müdafiə Nazirliyi (bundan sonra "Çin Tərəfi" adlandırılacaq) iki ölkənin xalqları və silahlı qüvvələri arasında dostluq və əməkdaşlıq əlaqələrinin gələcək inkişafı məqsədilə Çin Tərəfindən Azərbaycan Tərəfinə təmənnasız hərbi yardım göstərilməsinə dair məsləhətləşmələr apardıqdan sonra aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Çin Tərəfindən Azərbaycan Tərəfinə 3.000.000 (üç milyon) Çin yuanı məbləğində təmənnasız hərbi əmlak yardımı göstərilir. Əmlakın konkret növləri və miqdarı Tərəflər arasında əlavə olaraq bağlanılan protokolda təsdiq olunacaqdır. Həmin protokol bu Sazişin ayrılmaz hissəsidir.

Maddə 2

Çin Tərəfi bu Sazişin 1-ci maddəsində təsdiq olunmuş hərbi əmlakın Azərbaycan Tərəfindən təyin edilmiş sərhəd məntəqəsinə çatdırılmasına cavabdehdir. Tərəflərin təyin etdiyi nümayəndələr bu sərhəd məntəqəsində əmlakın təhvil-təslimini rəsmiləşdirirlər. Çin Tərəfi əmlakın təyin olunmuş sərhəd məntəqəsinə Çindən nəql edilməsinə görə məsrəfləri öz üzərinə götürür, sonrakı məsrəflər isə Azərbaycan Tərəfinin hesabınadır.

Maddə 3

Bu Saziş imzalandığı gündən qüvvəyə minir və Tərəflərin bu Sazişlə nəzərdə tutulan öhdəliklərinin yerinə yetirilməsinə qədər qüvvədə qalır.

Pekin şəhərində 2009-cu il 29 dekabr tarixində, hər biri Azərbaycan, Çin və rus dillərində olmaqla, iki nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ MÜDAFİƏ NAZİRLİYİ ADINDAN	ÇİN XALQ RESPUBLİKASININ MÜDAFİƏ NAZİRLİYİ ADINDAN
YAŞAR AYDƏMİROV	*Çİ QUOVEY*
Azərbaycanın ÇXR-dəki hərbi attaşesi	*Xarici İşlər Dəftərxanası rəisinin müavini*

2010-cu il yanvarın 26-da Əl-Küveyt şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında qadın, uşaq və ailə məsələləri sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2010-cu il yanvarın 26-da Əl-Küveyt şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında qadın, uşaq və ailə məsələləri sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Küveyt Dövləti Hökumətini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 mart 2010-cu il

№ 800

Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında qadın, uşaq və ailə məsələləri sahəsində əməkdaşlıq haqqında Saziş

Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövlətinin Hökuməti (bundan sonra "Tərəflər" adlandırılacaq),

iki ölkə arasında dostluq və əməkdaşlıq münasibətlərini möhkəmləndirməyi və inkişaf etdirməyi arzu edərək,

qadın, uşaq və ailə məsələlərinin vacibliyini vurğulayaraq,

insan hüquqları prinsiplərinin möhkəmləndirilməsinə ehtiyac olduğunu, onların beynəlxalq hüququn prinsip və normalarında, habelə hər iki ölkənin qanunvericiliyində xüsusi olaraq qeyd edilməsini vurğulayaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər öz dövlətlərinin qanunvericiliyinə uyğun olaraq, səlahiyyətləri çərçivəsində, qadın, uşaq və ailə məsələləri sahəsində əməkdaşlıq edəcəklər.

Maddə 2

Bu Sazişin müddəalarının həyata keçirilməsi aşağıdakı səlahiyyətli orqanlara həvalə ediləcəkdir:

Azərbaycan Respublikasının Hökuməti tərəfindən: Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi;

Küveyt Dövləti Hökuməti tərəfindən: Nazirlər Kabineti yanında Qadın Məsələləri Komitəsi.

Maddə 3

Tərəflər milli qanunvericiliklərinə uyğun olaraq aşağıdakı sahələrdə əməkdaşlıq etməyə razılıqlarını ifadə edirlər:

1) hər iki ölkədə qadınların rifahının yaxşılaşdırılmasının təşviqi;

2) Tərəflərin təmsil etdikləri ölkələrdə mövcud hüquqi, iqtisadi və sosial müdafiə mexanizmlərinin inkişaf etdirilməsi və münasibətlərin möhkəmləndirilməsi məqsədilə aidiyyəti qurumları cəlb etməklə birgə araşdırmaların aparılması;

3) qadın problemləri sahəsində dövri informasiya mübadiləsinin aparılması, müvafiq sahələrdə görülən işlər və tətbiq edilən yeniliklər, mövcud olan çətinliklər və inkişaf perspektivləri barədə bir-birinin məlumatlandırılması;

4) qadın, uşaq və ailə problemlərinin öyrənilməsində birgə fəaliyyətin təşkili;

5) beynəlxalq təşkilatları, öz ölkələrinin dövlət orqanlarını, elm xadimlərini, mütəxəssisləri, qeyri-hökumət təşkilatlarını cəlb etməklə birgə beynəlxalq tədbirlərin və müzakirələrin təşkil edilməsi, qarşılıqlı maraq kəsb edən beynəlxalq tədbirlər barədə, habelə beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi üzrə məlumat mübadiləsinin aparılması;

6) Sazişin əhatə etdiyi sahələr üzrə qarşı Tərəfə digər dövlət orqanları ilə əməkdaşlıqda yardım göstərilməsi;

7) qadın problemləri sahəsində birgə nəşrlərin buraxılması;

8) müvafiq institutların inkişaf etdirilməsi, peşəkar kadrların hazırlanmasında bir-birinə kömək göstərilməsi, təcrübə mübadiləsinin aparılması, aidiyyəti sahələr üzrə Tərəflərin mütəxəssisləri üçün birgə təlim kurslarının təşkil edilməsi;

9) qadın, uşaq və ailə problemləri sahəsində milli, regional və beynəlxalq səviyyələrdə mexanizmlərin təkmilləşdirilməsi məqsədilə birgə praktiki və tədqiqat işlərinin aparılması, müvafiq beynəlxalq müqavilələrin tətbiqi və təkmilləşdirilməsi üzrə elmi-praktik konfransların, seminarların və dəyirmi masaların təşkil edilməsi;

10) milli qanunvericiliyin təkmilləşdirilməsi, beynəlxalq standartların və qabaqcıl təcrübənin tətbiqi ilə bağlı birgə fəaliyyətin həyata keçirilməsi.

Maddə 4

Aşağıdakı tapşırıqların yerinə yetirilməsi üçün hər iki səlahiyyətli orqanın iştirakı ilə birgə işçi qrupu yaradılacaqdır:

1) iki ölkə arasında Sazişin icrasının əlaqələndirilməsi;

2) işçi qrupu hər il və ya zəruri olduqda, növbə ilə hər iki ölkədə görüşür.

Maddə 5

Tərəflərin diplomatik kanallar vasitəsilə qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və 6-cı maddədə müəyyən olunmuş qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavələr və dəyişikliklər edilə bilər.

Maddə 6

Bu Saziş onun həyata keçirilməsi üçün zəruri olan milli hüquqi prosedurların yerinə yetirilməsi barədə Tərəflərdən birinin digər Tərəfi diplomatik kanallarla məlumatlandırdığı sonuncu yazılı bildirişin tarixindən qüvvəyə minir.

Saziş 4 (dörd) il müddətində qüvvədə olacaqdır. Tərəflərdən biri bu Sazişin qüvvədə olma müddətinin başa çatmasına ən azı 6 (altı) ay qalmış digər Tərəfə onu ləğv etmək niyyəti barədə yazılı bildiriş təqdim etməzsə, Saziş avtomatik olaraq eyni müddətə uzadılacaqdır.

Bu Saziş Əl-Küveyt şəhərində 2010-cu il 26 yanvar tarixində hər biri eyni qüvvəyə malik olmaqla, Azərbaycan, ərəb və ingilis dillərində, iki əsl nüsxədə imzalanmışdır, Sazişin təfsiri ilə əlaqədar onlar arasında fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	KÜVEYT DÖVLƏTİ HÖKUMƏTİ ADINDAN
HİCRAN HÜSEYNOVA	*LƏTİFƏ FAHED ƏL SƏLİM ƏL SABAH*
Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri	*Qadın Məsələləri Komitəsinin sədri*

"Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının 2005-ci il 24 iyun tarixli 945-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi Qaydaları"na dəyişikliklər və əlavə edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının 2005-ci il 24 iyun tarixli, 945-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi Qaydaları"na dəyişikliklər və əlavə edilməsi barədə" Azərbaycan Respublikasının 2010-cu il 1 fevral tarixli, 945-IIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının 2005-ci il 24 iyun tarixli, 945-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi Qaydaları"na dəyişikliklər və əlavə edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. öz səlahiyyətləri daxilində "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının 2005-ci il 24 iyun tarixli, 945-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi Qaydaları"na dəyişikliklər və əlavə edilməsi barədə" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 mart 2010-cu il

№ 801

"Azərbaycan Respublikası Hökuməti ilə Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqı arasında Asiya, Avropa və əsas dünya bazarları arasında avtomobil daşımalarının Azərbaycan Respublikası ərazisindən keçməklə inkişafı barədə Anlaşma Memorandumu"nu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti ilə Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqı arasında Asiya, Avropa və əsas dünya bazarları arasında avtomobil daşımalarının Azərbaycan Respublikası ərazisindən keçməklə inkişafı barədə Anlaşma Memorandumu"nu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilməsi barədə Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 mart 2010-cu il

№ 817

H.Ə.Həsənovun Azərbaycan Respublikasının Macarıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Həsən Əziz oğlu Həsənov Azərbaycan Respublikasının Macarıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 mart 2010-cu il

№ 822

V.M.Quliyevin Azərbaycan Respublikasının Polşa Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Vilayət Muxtar oğlu Quliyev Azərbaycan Respublikasının Polşa Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri 30 mart 2010-cu il

№ 823

H.Ə.Həsənovun Azərbaycan Respublikasının Polşa Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Həsən Əziz oğlu Həsənov Azərbaycan Respublikasının Polşa Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri 30 mart 2010-cu il

№ 824

V.M.Quliyevin Azərbaycan Respublikasının Macarıstan Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Vilayət Muxtar oğlu Quliyev Azərbaycan Respublikasının Macarıstan Respublikasında

fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri 30 mart 2010-cu il

№ 825

Azərbaycan Respublikasının Fransa Respublikasında Fövqəladə və Səlahiyyəti Səfiri E.O.Əmirbəyovun iqamətgahı Paris şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Monako Knyazlığında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının Fransa Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri Elçin Oktyabr oğlu Əmirbəyov iqamətgahı Paris şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Monako Knyazlığında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri 30 mart 2010-cu il

№ 826

Azərbaycan Respublikasının İspaniya Krallığında Fövqəladə və Səlahiyyəti Səfiri A.V.Əfəndiyevin iqamətgahı Madrid şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Andorra Knyazlığında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının İspaniya Krallığında Fövqəladə və Səlahiyyətli Səfiri Altay Vasif oğlu Əfəndiyev iqamətgahı Madrid şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Andorra Knyazlığında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri 30 mart 2010-cu il

№ 827

O.Hauserin Almaniya Federativ Respublikasının Baden-Vürttemberq federal torpağını əhatə etməklə Ştutqart şəhərində Azərbaycan Respublikasının Fəxri konsulu təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Otto Hauser Almaniya Federativ Respublikasının Baden-Vürttemberq federal torpağını əhatə etməklə Ştutqart şəhərində Azərbaycan Respublikasının Fəxri konsulu təyin edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri 30 mart 2010-cu il

№ 828

"Azərbaycan Respublikası və Səudiyyə İnkişaf Fondu arasında Bakı ərazisi üzrə su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması və genişləndirilməsi layihəsi üzrə" Kredit Sazişinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının *Milli Məclisi* qərara alır:

"Azərbaycan Respublikası və Səudiyyə İnkişaf Fondu arasında Bakı ərazisi üzrə su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması və genişləndirilməsi layihəsi üzrə" 2009-cu il noyabrın 20-də Bakı şəhərində imzalanmış Kredit Sazişi təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 aprel 2010-cu il

№ 981-IIIQ

Azərbaycan Respublikası və Səudiyyə İnkişaf Fondu arasında Bakı ərazisi üzrə su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması və genişləndirilməsi layihəsi üzrə Kredit Sazişi

2009-cu il noyabrın 20-də (1430-cu hicri ili Zülhiccəayının 3-də) aşağıdakı Tərəflər arasında Kredit Sazişi imzalanmışdır:

1. Mərkəzi Səudiyyə Ərəbistanı Krallığının Ər-Riyad şəhərində yerləşən Səudiyyə İnkişaf Fondu (bundan sonra "Fond" adlandırılacaq), rəis müavini, icraçı direktor, mühəndis cənab Yusuf bin İbrahim əl-Bəssamın şəxsində - bir tərəfdən;

2. Azərbaycan Respublikası (bundan sonra "Borcalan" adlandırılacaq), "Azərsu" ASC-nin prezidenti cənab Nizaməddin Rzayevin şəxsində - digər tərəfdən.

PREAMBULA

a) Borcalan bu Sazişin 2 №-li cədvəlində təsvir edilmiş Bakı ərazisi üzrə Su Təchizatı və Kanalizasiya Sisteminin Yenidən Qurulması və Genişləndirilməsi Layihəsinin (bundan sonra "Layihə" adlandırılacaq) maliyyələşdirilməsinə yardım etmək üçün kredit ayrılması xahişi ilə Fonda müraciət etmişdir.

b) Fondun məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi inkişafını yüksəltmək üçün yardım göstərmək və onların inkişaf layihələri və proqramlarının həyata keçirilməsi üçün lazım olan kreditləri ayırmaqdır.

c) Fond həmin Layihənin dost Azərbaycan xalqının iqtisadi inkişafına fayda gətirəcəyinə və əhəmiyyətli olacağına əmindir.

d) Fondun Direktorlar Şurası bütün bunları nəzərdən keçirərək, 8/95/1117 saylı qərarı ilə Saziş üzrə şərtlərə və qaydalara müvafiq olaraq, Borcalana kredit ayrılması haqqında razılığa gəlmişdir.

Bunlarla əlaqədar Tərəflər aşağıdakı şəkildə razılığa gəlirlər:

Maddə 1

Ümumi şərtlər. İzahlar

1.1. Sazişin Tərəfləri Fondun Direktorlar Şurasının 26 iyul 1976-cı il (29 Rəcəb 1396-cı hicri ili) 11/14 saylı qərarı ilə dərc edilmiş Fondun Kredit Sazişlərinin Ümumi Şərtlərinin bütün müddəalarını bu Sazişdə göstərilmiş kimi anlayaraq onu qəbul edirlər (bundan sonra Fondun Kredit Sazişlərinin Ümumi Şərtləri "Ümumi Şərtlər" adlandırılacaq).

1.2. Bu Sazişdə istifadə edilən terminlər, mətndə başqa məna nəzərdə tutulmayıbsa, Ümumi Şərtlərdə və əvvəldə göstərilmiş Preambulada istifadə edilən terminlərin açıqlanan mənalarına müvafiq məna kəsb edəcək; "Cəmiyyət" dedikdə Borcalan

Maddə 2

Kredit

2.1. Fond Kredit Sazişinin şərtlərinə və müddəalarına müvafiq olaraq, Borcalana doxsan üç milyon yeddi yüz əlli min (93,750,000) Səudiyyə rialı məbləğində kredit ayırmağa razılaşır.

2.2. Bu Sazişin 1 №-li cədvəlinə müvafiq olaraq, eləcə də Fondla Borcalan arasında razılaşmaya uyğun olaraq vaxtaşırı dəyişdirilən cədvələ əsasən, həmçinin Fondun Layihə üçün tələb olunan mallar və xidmətlər üzrə çəkilən və kredit vəsaitlərindən maliyyələşdirilən məqsədli xərclərin ödənilməsi üçün sərf edilmiş, yaxud (Fond razı olarsa) sərf ediləcək məbləğin qarşılığının ödənilməsi üçün Fondun kreditləri üzrə çıxarmaların edilməsi prosedurlarına müvafiq olaraq Borcalanın kredit məbləğini kredit hesabından çıxarmaq hüququ vardır.

2.3. Borcalan Kredit vəsaitindən yalnız Layihənin icrası üçün zəruri olan mallara və xidmətlərə sərf olunan xərclərin maliyyələşdirilməsi məqsədilə istifadə edə bilər. Belə malların və xidmətlərin əldə edilməsi İnkişaf İnstitutu - Koordinasiya Qrupunun üzvləri tərəfindən verilmiş və Məsləhətçilərin istifadəsinə, tapşırıqların icra edilməsi üzrə müqavilə, eləcə də malların əldə edilməsi qaydalarına müvafiq olaraq həyata keçirilməlidir. Borcalan Kredit vəsaitlərindən maliyyələşdiriləcək işlər üçün hər hansı müqaviləni imzalamamışdan, yaxud gələcəkdə ona hər hansı ciddi dəyişikliklər etməmişdən əvvəl Fondun razılığını almağı öhdəsinə götürür.

2.4. Kredit vəsaitlərindən istifadənin son müddəti 31.12.2012-ci il tarixi, yaxud Fondun müəyyən etdiyi daha sonrakı tarix hesab oluna bilər. Fond təyin etdiyi yeni tarix barədə Borcalana dərhal məlumat verməlidir.

2.5. Borcalan götürülmüş kreditin ödənilməmiş hissəsinin 2 (iki) faizini illik kredit faizi olaraq ödəməlidir.

2.6. Kredit faizi və digər xərclər hər altı aydan bir, yəni ilin, müvafiq olaraq, 15 iyun və 15 dekabrında ödənilməlidir.

2.7. Kreditin müddəti, 5 (beş) il güzəşt müddəti də daxil olmaqla, 20 (iyirmi) ildir. Borcalan həmin Sazişə əlavə edilmiş 3 №-li cədvəldə göstərilən Amortizasiya Cədvəlinə uyğun olaraq Kreditin əsas məbləğini geri ödəməlidir.

Maddə 3

Layihənin icrası

3.1. (a) Borcalan "Cəmiyyət" vasitəsilə bütün səy və bacarıqlarından istifadə etməklə, eləcə də müvafiq mühəndis texnologiyası, sağlam maliyyə və idarəçilik prinsipləri əsasında Layihəni icra etməli və bu məqsəd üçün tələb olunan maddi ehtiyatlan, imkanları, xidmət və digər vəsaitləri səfərbər etməlidir.

(b) Borcalan Layihənin həyata keçirilməsi üçün Cəmiyyəti Kredit vəsaitinə əlavə olaraq tələb olunan digər maliyyə ehtiyatlan ilə vaxtında təmin etməyi öhdəsinə götürür (o cümlədən Sazişin imzalandığı vaxt Layihənin smeta dəyərindən artıq olan qiymətdə yaranacaq hər hansı bir artımın ödənilməsi üçün tələb olunan maliyyə resursları da daxil olmaqla). Bütün bu məbləğlər Fondun məqbul hesab etdiyi şərtlər və qaydalar əsasında təmin edilməlidir.

3.2. Borcalan Layihəyə dair planlan, xüsusiyyətləri, hesabatlan, Layihə ilə bağlı müqavilələri, onun icrası üzrə vaxt cədvəllərini, lazımi malları və servis xidmətlərini, gələcəkdə onlara edilmiş dəyişiklik və əlavələri Fond tərəfindən tələb edilən təfsilatla Fonda təqdim etməlidir.

3.3. Borcalan Layihənin icrasına nəzarət etmək məqsədilə ixtisasları, təcrübələri, iş şərtləri Fond tərəfindən qəbul olunan peşəkar məsləhətçi-mühəndislər təyin etməlidir.

Borcalan Layihənin icrasını həyata keçirmək üçün Fondun məqbul hesab etdiyi şərtlər və qaydalar daxilində podratçıları işə cəlb etməlidir.

3.4. Borcalan Layihə üzrə onun payına düşən xərcləri ödəmək üçün müvafiq şəkildə illik büdcə ayrılmalarını öz üzərinə götürür. Borcalan Layihə üzrə yerli xərcləri ödəməyi öz öhdəsinə götürür.

3.5. Borcalan Kredit vəsaiti hesabına idxal olunan malların alınması, daşınması, eləcə də onların istismar və quraşdırma sahəsinə təchizatı ilə əlaqədar yaranmış təhlükə hallarının vurduğu ziyanı sığorta etməli və onların dəyişdirilməsi, yaxud təmiri üçün sər-

bəst istifadə oluna bilən valyuta ilə ödəməlidir.

3.6. Borcalan Kredit vəsaiti hesabına maliyyələşdirilən avadanlıqları və servis xidmətlərini yalnız Layihənin həyata keçirilməsi məqsədləri üçün sərf etməlidir.

3.8. Borcalan aşağıdakıları öz üzərinə götürür:

a) Layihə üzrə işlərin gedişatının (xərclər də daxil olmaqla) qeydə alınması, Kredit vəsaiti hesabına maliyyələşdirilən avadanlıq və xidmətlərin müəyyən olunması və onların istifadəsi üzrə məlumatların göstərilməsi, Layihədə nəzərdə tutulan bütün əməliyyatların, resursların və xərclərin əks olunması üçün müvafiq hesabatın aparılması;

b) Kreditə dair məqsədlərlə əlaqədar Fondun akkreditə edilmiş nümayəndələrinin səfər etməsi, Layihənin təyinatının öyrənilməsi, Kredit vəsaiti hesabına maliyyələşdirilən avadanlığın və servis xidmətlərinin, eləcə də hər hansı aidiyyəti protokol və sənədlərin yoxlanılması üçün bütün zəruri imkanların yaradılması;

c) Kredit vəsaitlərinin xərclənməsi və bu vəsait hesabına maliyyələşdirilən avadanlıq və servis xidmətləri ilə əlaqədar bütün zəruri məlumatların Fonda təqdim olunması.

3.9. Borcalan Layihənin icrası üçün lazım olan torpağın alınması və ona xas olan hüquqların əldə olunması istiqamətində müvafiq tədbirlər görməyi öhdəsinə götürür.

Maddə 4

Xüsusi öhdəliklər

4.1. (a) Borcalanla Fond arasındakı razılığa əsasən, dövlət əmlakının girov saxlanılması yolu ilə hər hansı bir xarici borc Fondun Krediti üzərində heç bir üstünlüyə malik deyildir. Bununla da, Borcalan öhdəsinə götürür ki, Fond digər şəkildə razılaşdırmayana qədər, hər hansı bir xarici borcun təminatı üçün Borcalanın əmlakı girov saxlanılarsa, bu zaman saxlanılma, fakta istinad olunaraq, qüvvəsində qalır və Fonda heç bir maddi ziyan vurmamaqla, Kreditin əsas məbləğinin bərabər və mütənasib qaydada ödənilməsinə təminat vermək üçün Kredit, Kredit faizi və Kredit üzrə digər xərclər bu şərtlərə əsasən uzlaşdırılmalıdır. Bu baxımdan Borcalan əmlakın girov qoyulması zamanı həmin mənanın tətbiqini həyata keçirməlidir.

(b) Bu bəndin (a) paraqrafının müddəaları aşağıdakı hallara tətbiq edilmir:

i) mülkiyyətin satın alınması zamanı onun alıcılıq qiymətinin ödənilməsinə zəmanət vermək üçün əmlakın girov saxlanılması;

ii) satışından əldə olunan vəsaitlə geri ödənilmə müddəti bir ildən çox olmayan borcun ödənilməsini təmin edən ticarət mallarının girov saxlanılması;

iii) bank əməliyyatları zamanı geri ödənilmə müddəti bir ildən çox olmayan borcun ödənilməsinə zəmanət vermək üçün əmlakın girov saxlanılması.

4.2. Borcalan Layihənin müvafiq texniki standartlara uyğun olaraq həyata keçirilməsi və bu məqsədlə lazım olan vəsaitin ayrılması üçün müvafiq tədbirlər görməlidir.

4.3. Fondun Layihənin maliyyələşdirilməsi üçün etdiyi yardımı göstərmək məqsədilə Borcalan Layihədə nəzərdə tutulan obyektlərin birinin üzərində gözəçarpan yerdə münasib ölçüdə beton və ya metaldan hazırlanmış Xatirə Lövhəsinin asılmasını öz öhdəsinə götürür.

4.4. Borcalan özü, yaxud digərinin vasitəsilə Layihənin həyata keçirilməsi üçün cavabdeh cəmiyyət, departament və idarələrin, yaxud hər hansı digər tərəfin mühasibatlıq təcrübəsini, əməliyyatlarını, resurslarını və xərclərini əks etdirməklə uçot-sənədləşmə işlərini müvafiq şəkildə aparmalıdır.

4.5. Layihə başa çatdıqdan sonra, Son Müddət Tarixindən etibarən on iki ay ərzində, yaxud Fondun bu məqsədlə təyin etdiyi sonrakı digər vaxtda Borcalan Layihənin işinin yekunlaşması ilə bağlı hesabat hazırlamalı və Fonda təqdim etməlidir. Hesabat Fondun istədiyi formada olmalı və Layihənin icrası, ilkin əməliyyatlar, çəkilən xərclər və bundan əldə olunan səmərələr, Kredit Sazişi daxilində Borcalan tərəfindən öhdəliklərin icrası və Kredit hesabına qarşıya qoyulan məqsədlərə nail olunması məsələləri həmin hesabatda müfəssəl şəkildə öz əksini tapmalıdır.

Maddə 5

Fond tərəfindən görülən tədbirlər

5.1. Ümumi Şərtlərin 6.02-ci bəndində göstərilmiş məqsədlər üzrə aşağıdakı əlavə hallar müəyyənləşdirilir:

a) Bu bəndin (b) yarımparaqrafının şərtləri nəzərə alınmaqla:

1. Sazişin şərtlərinə əsasən, Borcalanın Layihənin maliyyələşdirilməsi üçün ona ayrılmış hər hansı bir kredit məbləğindən vəsait çıxarması hüququ tam, yaxud qismən dayandırıldıqda və ya ləğv edildikdə;

2. həmin Kredit əvvəlcədən əldə edilmiş razılığa əsasən geri ödənilməli olduqda.

b) Borcalanın Fondun qəbul etdiyi aşağıdakı hallarla bağlı dəlili olduqda (a) yarımparaqrafının şərtləri tətbiq olunmur:

1. Saziş əsasında bu cür dayandırılma, yaxud ləğv edilmə hallarının Borcalanın öz öhdəliklərini yerinəyetirməməsi üzündən yaranmadığı təqdirdə;

2. bu Saziş daxilində, Borcalanın üzərinə düşən öhdəliklərə uyğun olan şərtlərə və qaydalara əsasən, Layihənin həyata keçirilməsi üçün ona digər mənbələrdən vəsait ayrıldığı təqdirdə.

5.2. Ümumi Şərtlərin 7.1-ci bəndində göstərilən məqsəd üzrə (d) paraqrafına uyğun olaraq aşağıda göstərilmiş hallar, yəni bu Sazişin 5.1-ci bəndinin (a-2) yarımbəndində göstərilmiş hallar yarana bilər.

Maddə 6

Sazişin qüvvəyə minməsi və başa çatması

6.1. Sazişin imzalandığı tarixdən 6 aylıq müddət Ümumi Şərtlərin 12.04-cü bəndində nəzərdə tutulmuş məqsədlər üçün müəyyənləşdirilir.

Maddə 7

Borcalanın nümayəndəsi. Ünvanlar

7.1. Ümumi Şərtlərin 11.03-cü bəndində nəzərdə tutulan məqsədlər üzrə Borcalanın maliyyə naziri onun nümayəndəsi hesab edilir.

7.2. Ümumi Şərtlərin 11.01-ci bəndində nəzərdə tutulan məqsədlərə müvafiq olaraq aşağıdakı ünvanlar müəyyənləşdirilir:

Fond üçün:
Səudiyyə İnkişaf Fondu
Poçt indeksi: 50483
Ər-Riyad 11523
Səudiyyə Ərəbistanı Krallığı
Faks: +966-1-464-7450
Elektron poçt: info@sfd.gov.sa

Borcalan üçün:
Maliyyə Nazirliyi
Səməd Vurğun, 83
Bakı, 1022
Azərbaycan Respublikası
Faks: +994 12 4044720
+994 12 4044721
Elektron poçt: office@maliyye.gov.az

Cəmiyyət üçün:
"Azərsu" ASC
Azərbaycan Respublikası
Faks: +994 12 4315151
Elektron poçt: office@azersu.az

Bu Sazişin Tərəflərinin səlahiyyətli nümayəndələri vasitəsilə Azərbaycan Respublikasının Bakı şəhərində Sazişin əvvəlində göstərilmiş tarixdə, ərəb dilində iki (2) orijinal nüsxədə imzalandığı təsdiq olunur.

AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN	SƏUDİYYƏ İNKİŞAF FONDU ADINDAN
NİZAMƏDDİN RZAYEV	*YUSUF BİN İBRAHİM ƏL-BƏSSAM*
"Azərsu" ASC-nin prezidenti	*Fondun rəis müavini, icraçı direktor*

Cədvəl № 1

Kredit vəsaitlərinin çıxarılması

a) Aşağıda göstərilən cədvəl Kredit vəsaiti hesabına maliyyələşdirilən əşyaların kateqoriyalarını, hər kateqoriya üzrə Kreditin məbləğini və hər bir kateqoriyada nəzərdə tutulan xərclərin faizini göstərir:

	Kateqoriya	Ayrılan kreditin məbləği (Səudiyyə rialı ilə)	Maliyyələşdirilən xərclərin faizi
1.	İnşaat işləri və avadanlığın yerləşdirilməsi (Layihənin A hissəsinin 5, 6, 9-cu bölmələri)	80,000,000	Ümumi xərclərin 50%-i
2.	Məsləhət xidmətləri	6,000,000	Ümumi xərclərin 100%-i
3.	Ehtiyat	7,750,000	
	Cəmi	93,750,000	

b) (a) paraqrafı üzrə verilmiş şərtlərə baxmayaraq, aşağıdakı hallarda Kredit vəsaitlərinin çıxarılmasına yol verilmir:

1. Bu Sazişin imzalanma tarixindən əvvəl edilən xərclər üzrə;

2. Borcalanın ərazisində mallar və ya xidmətlər, yaxud idxal, istehsal, satınalma və təchizat üçün vergi rüsumları alındıqda, yaxud öhdəsində olan vergi rüsumları üzrə.

c) Kreditin ayrılmasına və ya (a) paraqrafı üzrə cədvəldə verilmiş ödəniş faizlərinə baxmayaraq, Fond dəqiq hesablamalardan sonra müəyyən kateqoriya üçün ayrılmış vəsaitin bu kateqoriyada ümumi xərclərin razılaşdırılmış faizini ödəməyə kifayət etməyəcəyini müəyyən etsə, Fond Borcalana bildirməklə:

1. ehtiyat kateqoriyası üzrə saxlanılmış Kredit vəsaitlərindən, yaxud digər bir kateqoriya üçün nəzərdə tutulmuş və ya ayrılmış Kredit vəsaitinin digər xərcləri ödəməyə ehtiyacı qalmadığı şəraitdə həmin Kateqoriya üzrə yaranan çatışmazlıqların aradan qaldırılması üçün tələb olunan məbləğ əsasında əlavə vəsait ayıra bilər;

2. əgər yenidən ayrılan vəsait hesab edilən çatışmazlığı tam ödəmirsə, həmin kateqoriya üzrə bütün xərclər ödənilənə qədər, həmin kateqoriya üzrə sonrakı vəsait çıxarılmasını davam etdirmək məqsədilə bu kimi xərclər üzrə ayırmaları azaldacaq.

Cədvəl № 2

Layihənin təsviri

Layihənin məqsədi paytaxt Bakının ətraf əraziləri üzrə Bakı şəhərində 20-ci Sahə ərazisinin və onun ətrafındakı Bibiheybət, Badamdar və Bayıl qəsəbələrinin infrastrukturu, şəhər və ətraf mühit xidmətlərinin təkmilləşdirilməsi, birbaşa paytaxt Bakının ətraf əraziləri üzrə su təchizatı və kanalizasiya şəbəkəsi sistemlərinin yenidən qurulması və genişləndirilməsindən ibarətdir.

Layihə 2 hissədən ibarətdir:

a) İnşaat işləri və avadanlıq

Su təchizatı sistemi

1. Ümumi uzunluğu 22 km və diametri 500 mm olan magistral boru xətti;

2. məhsuldarlığı 1400 m3/saat olan mərkəzi nasos stansiyası;

3. hər birinin həcmi 2,000 m3 olan 4 su anbarı;

4. hər birinin məhsuldarlığı 400 m3/saat olan 4 nasos stansiyası;

5. ümumi uzunluğu 80 km və diametri 50-300 mm olan su təchizatı şəbəkəsi;

6. su sayğacları.

Kanalizasiya sistemi

7. Ümumi uzunluğu 72 km və diametri 200-600 mm olan kanalizasiya şəbəkəsi;

8. hər birinin məhsuldarlığı 400 m3/saat olan 2 nasos stansiyası;

9. məhsuldarlığı 50,000 m3/gün olan çirkab su təmizləyici qurğu;

10. ümumi uzunluğu 16 km və diametri 300-400 mm olan 2 təzyiqli boru;

11. çirkab suların bir hissəsinin çirkab su təmizləyici qurğuya axıdılması üçün uzunluğu 4 km və diametri 1,000 mm olan kollektor.

b) Məsləhət xidmətləri: İşçi layihələrin, tender sənədlərinin hazırlanması, Layihənin ikinci hissəsinin həyata keçirilməsi və nəzarət.

Layihənin ümumi məbləği 63 milyon ABŞ dolları təşkil edir ki, bu da təqribən 236,25 milyon Səudiyyə rialına bərabərdir. Layihənin 31 dekabr 2011-ci ilədək başa çatdırılacağı gözlənilir.

Cədvəl № 3

Amortizasiya cədvəli

Ödəniş №	Ödəniş tarixi	Ödəniş məbləği (Səudiyyə rialı ilə)
1	15 dekabr 2014-cü il	3,125,000
2	15 iyun 2015-ci il	3,125,000
3	15 dekabr 2015-ci il	3,125,000
4	15 iyun 2016-cı il	3,125,000
5	15 dekabr 2016-cı il	3,125,000
6	15 iyun 2017-ci il	3,125,000
7	15 dekabr 2017-ci il	3,125,000
8	15 iyun 2018-ci il	3,125,000
9	15 dekabr 2018-ci il	3,125,000
10	15 iyun 2019-cu il	3,125,000
11	15 dekabr 2019-cu il	3,125,000
12	15 iyun 2020-ci il	3,125,000
13	15 dekabr 2020-ci il	3,125,000
14	15 iyun 2021-ci il	3,125,000
17	15 dekabr 2022-ci il	3,125,000

18	15 iyun 2023-cü il	3,125,000
19	15 dekabr 2023-cü il	3,125,000
20	15 iyun 2024-cü il	3,125,000
21	15 dekabr 2024-cü il	3,125,000
22	15 iyun 2025-ci il	3,125,000
23	15 dekabr 2025-ci il	3,125,000
24	15 iyun 2026-cı il	3,125,000
25	15 dekabr 2026-cı il	3,125,000
26	15 iyun 2027-ci il	3,125,000
27	15 dekabr 2027-ci il	3,125,000
28	15 iyun 2028-ci il	3,125,000
29	15 dekabr 2028-ci il	3,125,000
30	15 iyun 2029-cu il	3,125,000
	Yekun:	93,750,000

Kredit müqavilələrinə tətbiq edilən
ÜMUMİ ŞƏRTLƏR

Fondun Direktorlar Şurasının 11/14 №-li qərarı ilə qəbul edilmişdir.
Hicri tarixi ilə 29 Rəcəb 1396-cı il Miladi tarixi ilə 26 iyul 1976-cı il

Maddə I

Ümumi şərtlərin Kredit müqavilələrinə tətbiqi

Bənd 1.01. Ümumi Şərtlərin tətbiq olunması. Müəyyən qayda və şərtlərdən ibarət olan Ümumi Şərtlər ümumi olaraq Səudiyyə İnkişaf Fondu tərəfindən verilən kreditlərə tətbiq edilir. Bu Şərtlər bu cür kredit ayrılmasını nəzərdə tutan hər hansı bir kredit müqaviləsinə tətbiq edilir.

Bənd 1.02. Kredit müqavilələri ilə uyğunsuzluq. Əgər bu Kredit Müqaviləsinin hər hansı şərti Ümumi Şərtlərlə uyğunsuzluq təşkil edirsə, Kredit Müqaviləsinin şərti əsas götürülür.

Maddə II

İzahlar, başlıqlar

Bənd 2.01. İzahlar. Ümumi Şərtlərdə istifadə edilən aşağıdakı terminlərin mənası belədir:

1. "Fond" dedikdə Səudiyyə İnkişaf Fondu başa düşülür.

2. "Kredit Müqaviləsi" termini bu Ümumi Şərtlərin tətbiq ediləcəyi hansısa bir müəy-

yən kredit müqaviləsi deməkdir, bu şərtlər həmçinin Kredit Müqaviləsinə olan əlavələrə və cədvəllərə də tətbiq edilir.

3. "Kredit" termini Kredit Müqaviləsində nəzərdə tutulan krediti bildirir.

4. "Borcalan" termini Kredit Müqaviləsinə tərəfdar olan ölkənin təmsil olunduğu Hökuməti bildirir.

5. "Səudiyyə rialı" və ya "rial" dedikdə Səudiyyə Ərəbistanı Krallığının pul vahidi başa düşülür.

6. "Kredit məbləği" termini krediti alan tərəfin - Borcalanın adına Fondun sənədləri üzrə açılan kredit hesabını nəzərdə tutur.

7. "Layihə" termini Kredit Müqaviləsində göstərildiyi kimi icrası üçün kredit ayrılan layihə və ya proqramı nəzərdə tutur, Fond və Borcalan arasındakı müqaviləyə əsasən, onun məzmununa vaxtaşırı düzəlişlər edilə bilər.

8. "Mallar" termini layihə üçün lazım olan avadanlığı, ləvazimatı, işləri və digər xidmətləri nəzərdə tutur; malların dəyəri isə onların Borcalanın ölkəsinə idxal edilməsi üçün sərf olunan xərcləri ifadə edir.

9. "Qüvvəyəminmə tarixi" Kredit Müqaviləsinin 12.03-cü bənddə verildiyi kimi qüvvəyə minmə və qüvvədə olma tarixini bildirir.

10. "Vergilər" termini Kredit Müqaviləsinin qüvvədə olma tarixi müddətində hər hansı yığım, rüsum və vergiləri nəzərdə tutur.

11. "Son tarix" Kredit Müqaviləsində göstərilən tarixdir, Fond Borcalana bildirməklə Borcalanın Kredit hesabında qalan məbləği çıxarmaq hüququnu dayandıra bilər.

Bənd 2.02. İstinadlar. Ümumi şərtlərdə istinad edilən maddələr və bəndlər bu Ümumi Şərtlərin maddələri və bəndləridir.

Bənd 2.03. Başlıqlar. Maddələrin və bəndlərin başlıqları və məzmun yalnız istinad olunması üçün daxil edilib və bu Ümumi Şərtlərin tərkib hissəsi deyil.

Maddə III

Kredit hesabı:

Kredit faizi və digər xərclər; geri ödəmə; ödəmə yeri

Bənd 3.01. Kredit hesabı. Kreditin məbləği Kredit hesabına köçürülür və bu hesabdan Kredit Müqaviləsinə, bu Ümumi Şərtlərə və Fondun müəyyənləşdirdiyi əməliyyat prosedurlarına uyğun olaraq Borcalan tərəfindən çıxarılır.

Bənd 3.02. Kredit faizi və digər xərclər.

a) Borcalan ödənilmiş və yerdə qalan vəsaitin əsas məbləği daxilində vaxtaşırı Kredit Müqaviləsində nəzərdə tutulan dərəcədə kredit faizi ödəyəcək. Kredit faizi məbləğlərin çıxarıldığı tarixdən üst-üstə yığılır.

b) Borcalan hər il 5.02-ci bəndə uyğun olaraq Fondun tətbiq etdiyi hər hansı xüsusi öhdəlik üzrə əsas məbləğin bir faizinin 0,5-i qədərində əlavə faiz ödəməlidir (1%-in 1/2).

Bənd 3.03. Kredit faizi və digər xərclərin hesablanması. Kredit faizi və digər xərclər 30 gündən ibarət 12 ay olmaqla, yəni 360 gün əsasında bir ildən az müddətə hesablanmalıdır.

Bənd 3.04. Geri ödəmə. Borcalan Kredit Müqaviləsinin geri ödəmə cədvəlinə uyğun olaraq Kredit Hesabından çıxarılan əsas məbləği geri ödəməlidir.

Borcalanın bütün kredit faizlərinin və digər xərclərin ödənilməsindən sonra və 45 gündən az olmayaraq Fonda bildiriş göndərməklə, geri ödəmə vaxtından əvvəl olaraq qabaqcadan I) yerdə qalan kreditin əsas məbləğinin hamısını və ya II) hər hansı müəyyən məbləğin hamısını geri ödəmək hüququ var, belə olan halda əvvəlcədən ödəniş tarixinə qədər, Kreditin ödənilməli olan qalıq hissələri qalmamalıdır.

Bənd 3.05. Ödəniş yeri. Əsas məbləğ, kredit faizi və digər xərclər Fondun müəyyənləşdirdiyi yerlərdə ödənilməlidir.

Maddə IV

Valyuta şərtləri

Bənd 4.01. Vəsait çıxarmalarının həyata keçiriləcəyi valyuta.

Kredit üzrə ödəmələr Səudiyyə rialı ilə aparılacaq.

Fond onun təmsil olunduğu nümayəndəsi kimi, Borcalanın xahişi ilə Kredit hesabından çıxarılan və Kredit məbləği ilə ödənişləri aparmaq üçün belə valyutaları ala bilər, bunlar Səudiyyə Ərəbistanı Valyuta Agentliyinin əməliyyatlarında istifadə edilən valyutalar olmalıdır.

Bənd 4.02. Əsas məbləğ, krədit faizi və digər xərclərin ödəniləcəyi valyuta.

Kreditin əsas məbləği, krədit faizi və digər xərclər Səudiyyə rialı ilə ödənilməlidir.

Fond onun təmsil olunduğu nümayəndəsi kimi, Borcalanın xahişi ilə əsas kreditin, kredit faizinin və digər xərclərin Kredit müqaviləsi əsasında geri ödənilməsi üçün Fondun qəbul etdiyi valyuta və ya valyutalarla Borcalana kifayət qədər rial verə bilər. Fond ödənişi rialla qəbul etdiyi halda, Borcalanın Kredit Müqaviləsi əsasında tələb olunan ödənişi yerinə yetirməsi məqbul hesab edilir.

Bənd 4.03. Valyutaların dəyərləndirilməsi. Kredit Müqaviləsinin məqsədi üçün müvafiq valyutanın digər valyutaya nisbətən məzənnəsini müəyyənləşdirmək lazım gəldikdə, bu, Səudiyyə Ərəbistanı Valyuta Agentliyinin müəyyənləşdirdiyi dəyər əsasında qiymətləndirilməlidir.

Maddə V

Kredit hesabından vəsait çıxarılması

Bənd 5.01. Kredit hesabından vəsait çıxarılması. Kredit Müqaviləsinə və bu Ümumi Şərtlərə uyğun olaraq, Borcalana Kredit hesabından Fond qaydaları və prosedurları əsasında məbləğ çıxarmaq səlahiyyəti verilir.

Bənd 5.02. Fondun üzərinə götürdüyü xüsusi öhdəlik. VI maddəyə uyğun olaraq, Borcalan və ya Fond tərəfindən olan hər hansı bir dayandırma və ya ləğvetmə hallarına bax-

mayaraq, tərəflər arasında razılaşdırılmış şərtlər daxilində və Borcalanın xahişinə əsasən, Fond Borcalana Kredit Müqaviləsi əsasında maliyyələşdirilən xərclərin ödənilməsi üçün məbləğ ayrılması barədə yazılı surətdə öz üzərinə xüsusi öhdəlik götürə bilər.

Bənd 5.03. Kreditdən vəsait çıxarma və ya xüsusi öhdəlik üçün müraciət. 5.02-ci bəndə əsasən, Borcalan Kredit hesabından hər hansı məbləği çıxarmaq istədikdə və ya Fonddan üzərinə hər hansı bir xüsusi öhdəlik götürməyi xahiş etdikdə, Borcalan Fondun tərtib etdiyi bəndlər və razılaşmalardan ibarət ərizə formasını doldurub Fonda təqdim edir. Layihə xərclərinə aid məbləğ çıxarmaq üçün xahişlər bu bənddə verilmiş müvafiq sənədlərlə birgə təqdim edilməlidir.

Bənd 5.04. Vəsaitin çıxarılması üçün müraciət etmək səlahiyyətini təsdiq edən sənədlər. Borcalan bu cür formada vəsaitin çıxarılması üçün müraciət ərizəsini imzalayacaq şəxs və ya şəxslərin səlahiyyətini təsdiq edən dəlilləri və həmin şəxsin imza nümunəsini Fonda təqdim etməlidir.

Bənd 5.05. Əsaslandırıcı dəlillər. Fondun xahiş edəcəyi təqdirdə Borcalan qeyd olunan sənədləri və əsaslandırıcı dəlillər təqdim etməlidir. Ərizə ilə xahiş edilən vəsaitin çıxarılmasına razılıq verməmişdən əvvəl və hətta ondan sonra Fondun bu cür sənəd və dəlilləri tələb etmək hüququ var.

Bənd 5.06. Müraciət ərizələrinin və sənədlərin əsaslandırılması. Fondu qane etmək üçün hər bir müraciət ərizəsi, müvafiq sənədlər və digər dəlillər forma və məzmunca əsaslandırılmalıdır ki, Borcalana Kredit hesabından məbləğ çıxarmaq və ondan Kredit Müqaviləsinin məqsədləri üçün istifadə etmək səlahiyyəti verilsin.

Bənd 5.07. Ayrılan məbləğin Fond tərəfindən ödənişi. Fond Kredit hesabından Borcalana ayrılan məbləği yalnız Borcalana və onun xahişinə əsasən ödəməlidir.

Maddə VI

Ləğvetmə və dayandırılma

Bənd 6.01. Borcalan tərəfindən ləğvetmə. Borcalan Fonda bildirməklə Kreditin qalan məbləğini ləğv edə bilər, yalnız bu hal 5.02-ci bənddə göstərilmiş xüsusi öhdəlik əsasında alınmış kreditə şamil olunmur.

Bənd 6.02. Fond tərəfindən dayandırılma. Əgər aşağıda göstərilmiş hallardan hər hansı biri yaranıbsa və artıq mövcud olaraq davam edirsə, Fond Borcalana bildirməklə onun Kredit hesabından vəsait çıxarma hüququnu tam və ya qismən dayandıra bilər:

a) Fond və Borcalan arasında imzalanmış Kredit Müqaviləsi və ya digər kredit razılaşması daxilində Borcalan əsas məbləği, kredit faizini və ya digər ödənişləri yerinə yetirə bilmədikdə;

b) Borcalan Kredit Müqaviləsi daxilində hər hansı bir öhdəliyi yerinə yetirə bilmədikdə;

c) Borcalan bu Müqavilə çərçivəsində öz öhdəliklərini icra edə bilmədiyi təqdirdə. Fond hər hansı müqavilə daxilində Borcalanın vəsait çıxarma hüquqlarını tam və ya qismən dayandırdıqda;

d) Kredit Müqaviləsinin başlandığı tarixdən, Layihənin icrasına və Borcalanın üzərinə düşən öhdəliklərin yerinə yetirilməsinə mane törədən fövqəladə hallar yarandıqda;

e) Kredit Müqaviləsi imzalandığı tarixdən sonra və qüvvəyə minmə tarixindən əvvəl, hətta Kredit Müqaviləsi qüvvəyə mindiyi tarixdə, Fonda Borcalanın Kredit hesabından vəsait çıxarmaq hüququnu dayandırmağa imkan verən hallar yarandıqda;

f) Kredit Müqaviləsində müəyyən edilən hər hansı bir digər hal özünü büruzə verdikdə.

Belə halların mövcud olduğu ərəfədə və Borcalanın öz hüquqlarını bərpa etməsi barədə Fonda bildiriş təqdim olunmayana qədər, Borcalanın Kredit hesabından vəsait çıxarmasının tam və ya qismən şəkildə dayandırılması davam etdirilir; lakin bildiriş təqdim olunan zaman çıxarışlar etmək hüququnun bərpa olunması üçün müvafiq şərtlər yazıda göstərilməlidir, əks təqdirdə heç bir bildiriş bu bənddə verilən müvafiq hal ilə əlaqədar Fondun hər hansı hüququna, səlahiyyətinə təsir edə və ya onları zəiflədə bilməz.

Bənd 6.03. Fond tərəfindən ləğvetmə.

a) əgər Borcalanın Kredit hesabından vəsait çıxarmaq hüququ davamlı olaraq 60 gün ərzində dayandırılıbsa və ya

b) Borcalanla məsləhətləşəndən sonra Fond ayrılmış Kredit məbləğinin Layihə xərclərinə sərf edilməsinə ehtiyac olmadığını müəyyənləşdirərsə və yaxud

son tarixdən sonra Kredit hesabından çıxarılmamış vəsait qalarsa, Fond Borcalana bildirməklə onun bu hesabdan vəsait çıxarmaq hüquqlarını dayandıra bilər. Bu bildirişin verilməsindən sonra Kredit məbləği ləğv edilir.

Bənd 6.04. Fond tərəfindən ləğvetmə və ya dayandırılmanın təsir etmədiyi xüsusi öhdəlik əsasında ödənilən məbləğlər. 5.02-ci bəndə uyğun olaraq Fond tərəfindən ləğvetmə və ya dayandırılma hallan Fondun tətbiq etdiyi xüsusi öhdəlik əsasında ödənilən məbləğə şamil olunmur.

Bənd 6.05. Ləğvetmə işinin Kreditin geri ödənilməsinə tətbiq olunması. Tərəflər arasında başqa cür razılaşdırılmayıbsa, hər hansı bir ləğvetmə proseduru proporsional olaraq, əsas Kredit vəsaiti üzrə müxtəlif geri ödəmə məbləğlərinə tətbiq edilməli və ləğvetmədən sonra yerinə yetirilməli olan ödəmələrə şamil edilməlidir.

Bənd 6.06. Dayandırılma və ləğvetmədən sonra müqavilə şərtlərinin qüvvədə olması. Hər hansı bir ləğvetmə və ya dayandırılmaya baxmayaraq, Kredit Müqaviləsində nəzərdə tutulan bütün şərtlərin etibarlılığı və effektivliyi dəyişməz qalır.

Maddə VII

Geri ödəmə müddətinin sürətləndirilməsi

Bənd 7.01. Sürətləndirmə halları. Aşağıda verilən hallardan hər hansı biri qarşıya çıxdıqda və aşağıda verilən müddətdə davam etdikdə, Fond öz növbəsində Borcalana bildirməklə kredit faizi və digər xərclərlə birgə ödənilməli olan məbləği elan etməlidir və bu cür bildirişə əsasən, əsas məbləğ, kredit faizi və digər xərclər dərhal ödənilməlidir:

a) mövcud Kredit Müqaviləsi əsasında əsas məbləğin, kredit faizinin və digər xərclərin ödənilməsində defolt (borcları ödəmədən imtina) yaranarsa və bu, 60 gün müddətində davam edərsə,

b) Fond və Borcalan arasında bağlanan hər hansı bir Kredit Müqaviləsi əsasında əsas məbləğin, kredit faizinin və digər xərclərin ödənilməsində defolt yaranarsa və bu, 60 gün müddətində davam edərsə, Kredit Müqaviləsi əsasında Borcalan tərəfindən öhdəliklərin hər hansı birinin yerinə yetirilməsində defolt yaranarsa və bu, Fond tərəfindən Borcalana bildiriş göndərəndən sonra 90 gün ərzində davam edərsə,

bu bənddə göstərilən məqsədlərə əməl etmək üçün Kredit Müqaviləsi əsasında digər hallar yaranarsa və müəyyən müddətdə davam edərsə.

Maddə VIII

Vergi və məhdudiyyətlər, Fondun toxunulmazlığı və imtiyazları

Bənd 8.01. Vergilər

a) Kreditin əsas məbləği, kredit faizi və digər xərclər Borcalanın ərazisində hər cür vergi və rüsumlardan azad olmalıdır. Belə vergilər olsa belə, onlar Borcalan tərəfindən ödənilməlidir.

b) Kredit Müqaviləsi Borcalanın ərazisində rəsmiləşdirmə, icra və qeydiyyatla əlaqədar bütün vergi və rüsumlardan azad edilməlidir.

Bənd 8.02. Məhdudiyyətlər. Kreditin əsas məbləği, kredit faizi və digər xərclər Borcalanın ərazisində mövcud tətbiq olunan qanunların yarada biləcəyi məhdudiyyətlərdən azad olmalıdır.

Bənd 8.03. Sənədləşdirmə və rabitə imtiyazları. Fondun bütün sənədləri, qeydlər və yazışmalar və buna oxşar materiallar Borcalan tərəfindən məxfi sayılmalıdır. Borcalan Fondu bütün sənəd nəşrlərinin yoxlanılması və senzura üçün lazım olan tam azadlıqla təmin etməlidir.

Bənd 8.04. Mülkiyyət toxunulmazlığı. Fondun Borcalanın ərazisində bütün mülkiyyəti, aktivləri və gəlirləri müsadirə və bir sıra bu kimi vasitələrdən azad olaraq toxunulmazdır.

Maddə IX

Əməkdaşlıq və məlumat mübadiləsi

Bənd 9.01. Əməkdaşlıq və məlumat mübadiləsi

a) Fond və Borcalan kreditin məqsədlərinin tam şəkildə həyata keçirilməsinə təminat vermək üçün əməkdaşlıq etməlidirlər. Ona görə də: I) Fond və Borcalan vaxtaşırı onların hər hansı birinin xahişi ilə və nümayəndələri vasitəsilə Layihənin mövcud inkişaf vəziyyəti, əldə edilən mənfəətlər və Kredit Müqaviləsində nəzərdə tutulan öhdəliklərin icrası və kreditə aid digər məsələlərlə bağlı məlumat mübadiləsi apara bilərlər; II) Fond və Borcalan vaxtaşırı olaraq, hər hansı bir Tərəfin xahişinə əsasən, digər Tərəfi Layihənin hazırkı iş vəziyyəti, əldə olunan mənfəətlərə və kreditin ümumi statusuna dair məlumatla təmin etməlidir.

b) Layihənin inkişafına və kreditin məqsədlərinin reallaşdırılmasına (Layihə xərclərində əhəmiyyətli artım da daxil olmaqla) dair məsələlərdə Fond və Borcalan, yəni Tərəflərdən hər hansı biri Kredit Müqaviləsi daxilində üzərinə düşən öhdəliklərin icra edil-

məsinə çətinlik törədən hər hansı bir təhlükə və mancə barədə qarşı Tərəfi dərhal xəbərdar etməlidir.

c) Kreditə aid məsələlərlə bağlı Fondun akkreditə edilmiş nümayəndələrinin Borcalanın ölkəsinin hər hansı bir bölgəsinə səfəri üçün şərait yaradılmalıdır.

d) Borcalan Fondun akkreditə edilmiş nümayəndələrinin kredit məsələsi ilə əlaqədar Borcalanın ölkəsinə səfər etməsi üçün yaradılmış lazımi şəraiti artırmalı və bu nümayəndələr üçün diplomatik missiya nümayəndələri üçün nəzərdə tutulan toxunulmazlıq verilməlidir.

Maddə X

Kredit Müqaviləsinin hüquqi gücə malik olması:

hüquqların həyata keçirilməməsi (onlardan istifadə olunmaması), Arbitrasiya

Bənd 10.01. Kredit Müqaviləsinin hüquqi gücə malik olması. Borcalanın mövcud qanunlarına və ya onun hər hansı inzibati ərazi vahidlərinə baxmayaraq, Kredit Müqaviləsi əsasında Fondun və Borcalanın hüquq və öhdəlikləri etibarlı sayılır və hüquqi gücə malikdir. Nə Bank, nə də Borcalan heç bir şəraitdə hər hansı bir səbəb üzündən Kredit Müqaviləsinin və ya onun Ümumi Şərtlərinin etibarsızlığı barədə tələb irəli sürə bilər.

Bənd 10.02. Hüquqların həyata keçirilməməsi(onlardan istifadə olunmaması). Hər hansı bir Tərəf Kredit Müqaviləsi daxilində öhdəlikləri yerinə yetirmədikdə (pul ödənişlərindən boyunqaçırma), qarşı Tərəf malik olduğu hüquq və səlahiyyətləri, eləcə də müvafiq tədbir görmə vasitələrini reallaşdırmaq üçün yubanma və etinasızlığa yol verərsə, bu onun malik olduğu hüquq və səlahiyyətlərə mənfi təsir etmir və ya onları zəiflətmir və yaxud bu həmin Tərəfin öz hüquq və səlahiyyətlərini həyata keçirmək, müvafiq tədbirlər görmək işindən imtina etməsi hesab olunmur və yaxud hər hansı bir ödəmədən boyunqaçırma halına qarşı susması razılıq əlaməti sayılmır. Eləcə də qarşı tərəf hər hansı boyunqaçırma halına qarşı iddia irəli sürməzsə, ona xas olan hüquq və səlahiyyətlər öz gücünü saxlayır.

Bənd 10.03. Arbitrasiya. Kredit Müqaviləsi Tərəfləri arasındakı hər hansı ziddiyyət və ya Kredit Müqaviləsinin bir tərəfinin digər Tərəf üzərində hər hansı tələbi Tərəflərin razılığı ilə həll olunur və bu razılıq əldə edilmədikdə ziddiyyət və ya tələb aşağıda göstərilən Arbitraj Məhkəməsinə təqdim edilir:

a) Arbitraj Məhkəməsi aşağıdakı kimi təyin olunan 3 arbitrdən ibarət olmalıdır. Birinci arbitr - Bank tərəfindən, ikinci arbitr - Borcalan tərəfindən və üçüncü arbitr (burada Superarbitr adlandırılacaq) Tərəflərin razılığı ilə və ya onlar razılığa gələ bilmədikdə, İslam Konfransı Təşkilatının Prezidenti tərəfindən təyin edilməlidir. Əgər Tərəflərdən hər hansı biri arbitr təyin edə bilmirsə, digər Tərəfin xahişi ilə bu arbitr İslam Konfransı Təşkilatının Prezidenti tərəfindən təyin edilə bilər. Əgər bu bəndə əsasən təyin edilmiş arbitr istefa versə, vəfat etsə və ya fəaliyyət göstərə bilməsə, onu əvəz edəcək arbitr eyni qayda ilə təyin edilməli və əvvəlki arbitrin vəzifə və səlahiyyətlərini daşımalıdır.

b) Bu bəndə əsasən arbitrasiya qaydaları iddiası olan Tərəfin digər Tərəfə bildiriş göndərməsilə tətbiq edilə bilər. Bu bildirişdə yaranan ziddiyyətin mahiyyəti və ya arbitrasiyaya təqdim ediləcək tələbi, lazım olan köməyi və bu prosedurları irəli sürən Tərəfin tə-

yin etdiyi arbitrin adı əks etdirilməlidir. Belə bildirişdən sonra 30 gün ərzində digər Tərəf bu prosedurları irəli sürən Tərəfə öz arbitrinin adını bildirməlidir.

c) Əgər arbitrasiya prosedurlarının tətbiqi ilə əlaqədar bildirişdən sonrakı 60 gün ərzində arbitrlər razılığa gələ bilmirlərsə, hər hansı tərəf bu bəndin a) hissəsində göstərilən qaydada Superarbitrin təyin olunmasını xahiş edə bilər.

d) Arbitraj Məhkəməsi Superarbitrin təyin etdiyi vaxtda və yerdə çağırılmalıdır. Bundan sonra Arbitraj Məhkəməsi çağırışın nə vaxt və harada keçiriləcəyini müəyyən etməlidir.

e) Arbitraj Məhkəməsi öz səlahiyyəti dairəsində bütün məsələləri həll etməli və bu bəndin şərtlərinə və Tərəflərin qərarına əsasən proseduru müəyyənləşdirməlidir. Arbitraj Məhkəməsinin bürün qərarları səs çoxluğu ilə qəbul edilməlidir.

f) Arbitraj Məhkəməsi hər iki Tərəfə açıq dinləmə imkanı yaratmalı və qərarları yazılı surətdə verməlidir. Boyunqaçırma halları zamanı belə qərar çıxarıla bilər. Arbitraj Məhkəməsinin əksəriyyəti tərəfindən imzalanan qərar Məhkəmənin qərarı sayılmalıdır. Qərarın imzalanmış surəti hər bir Tərəfə verilməlidir. Bu bəndin şərtlərinə uyğun verilən hər hansı bir qərar Kredit Müqaviləsinin Tərəfləri üçün son vacib qərar hesab edilir. Hər bir Tərəf bu qərara tabe olmalı və ona riayət etməlidir.

g) Tərəflər arbitrlərin və arbitrasiya prosedurlarının aparılması üçün tələb edilən şəxslərin ödəniş məbləğini müəyyən etməlidirlər. Əgər Arbitraj Məhkəməsinə qədər Tərəflər məbləğ barədə qərara gələ bilməsələr, Arbitraj Məhkəməsi vəziyyətə uyğun müvafiq məbləğ təyin edə bilər. Hər bir Tərəf arbitrasiya prosedurları üçün öz xərclərini ödəməlidir. Arbitraj Məhkəməsinin xərcləri Tərəflər arasında bərabər bölünməlidir. Arbitraj Məhkəməsi üçün xərclərin bölünməsi və ödənilməsinə dair məsələlər Arbitraj Məhkəməsi tərəfindən müəyyənləşdirilir.

h) Arbitraj Məhkəməsi Səudiyyə Ərəbistanı Krallığında tətbiq edilən qaydaları və qanunları və bərabərlik prinsiplərini tətbiq etməlidir.

i) Bu bənddə verilən arbitrasiya qaydaları Kredit Müqaviləsinin Tərəfləri arasında olan ziddiyyətləri və bir Tərəfin qarşı Tərəfə olan hər hansı tələbi ilə bağlı məsələlərin digər yolla həlli proscdurlarını əvəz edə bilər.

j) Bu bəndə əsasən hər hansı prosedurla bağlı bildiriş və ya iş prosesi ilə əlaqədar göstərilən xidmətlər 11.01-ci bənddə göstərildiyi qaydada aparılmalıdır. Kredit Müqaviləsində təmsil olunan Tərəflər bu cür bildiriş və ya iş prosesi ilə bağlı göstərilən xidmətin hər hansı birindən və ya hamısından imtina edə bilərlər.

Maddə XI

Müxtəlif şərtlər

Bənd 11.01. Bildirişlər və xahişlər. Kredit Müqaviləsi çərçivəsində tələb edilən və ya icazə verilən hər hansı bir bildiriş və ya xahiş yazılı surətdə olmalıdır. 12.03-cü bənddə nəzərdə tutulduğu kimi heç bir istisna halı olmadıqda, belə bildiriş və ya xahiş şəxsən və ya qeydiyyata salınmış poçtla, teleqramla, teleks və ya radioqramla tələb edilən və yaxud icazə verilən digər Tərəfə çatdırılmalıdır ki, bu da öz növbəsində həmin Tərəfin

Kredit Müqaviləsində göstərilən ünvanına və ya bildirişdə göstərdiyi ünvana göndərilmiş hesab edilir.

Bənd 11.02. Borcalanın adından müstəqil qərar vermək üçün əsaslandırıcı dəlil. Kredit Müqaviləsinə əsasən, müstəqil qərar vermək və sənədləri rəsmiləşdirmək üçün ondan tələb edilməklə və yaxud icazə verilməklə, Borcalan öz adından sənədlərin rəsmiləşdirilməsini həyata keçirəcək şəxs və ya şəxslərə verilən səlahiyyət barədə Fonda kifayət qədər dəlil və həmin şəxsin imzasını təqdim etməlidir.

Bənd 11.03. Borcalan tərəfindən görülən tədbirlər.

a) Bu bənddə göstərilən məqsədlər üzrə Kredit Müqaviləsinə uyğun olaraq, müstəqil qərar vermək və sənədlərin rəsmiləşdirilməsi üçün Borcalandan tələb edilməklə və yaxud icazə verilməklə, bu iş Borcalanın Kredit Müqaviləsində göstərilən nümayəndəsi və ya onun tərəfindən yazılı surətdə səlahiyyət verilən digər şəxs tərəfindən aparıla bilər.

b) Kredit Müqaviləsi şərtlərinə edilən hər hansı bir dəyişiklik və ya əlavə Borcalanın adından onun yazılı səlahiyyəti ilə bu yarımbəndin a) hissəsində göstərilən hər hansı səlahiyyətli nümayəndəsi tərəfindən razılaşdırıla bilər; bu nümayəndənin fikrincə, edilən düzəliş və ya əlavələr şərtlərə uyğundur və Kredit Müqaviləsi çərçivəsində Borcalanın öhdəliklərini bir o qədər də artırmır. Yekun nəticə etibarilə, Fond bu nümayəndənin və ya digər səlahiyyətli şəxsin icrasını məqbul hesab edir; çünki bu nümayəndənin rəyinə görə, Kredit Müqaviləsi şərtlərinə edilən hər hansı dəyişiklik və ya əlavə mövcud vəziyyətə uyğundur və Borcalanın öhdəliklərini əhəmiyyətli dərəcədə artırmır.

Bənd 11.04. Kredit Müqaviləsinin nüsxələri. Kredit Müqaviləsi bir neçə nüsxədə rəsmiləşdirilə bilər ki, onların da hər biri orijinal sayılır.

Maddə XII

Qüvvəyəminmə tarixi; Kredit Müqaviləsinin dayandırılması

Bənd 12.01. Kredit Müqaviləsinin qüvvəyəminməsi üçün şərtlər. Fondu qane edəcək dəlil təqdim edilməyənə qədər Kredit Müqaviləsi qüvvəyə minmir;

a) Kredit Müqaviləsinin Borcalanın adından rəsmiləşdirilməsinə və onun təminatına lazımi hökumət orqanları və digər orqanlar tərəfindən icazə verilmiş və təsdiq edilmişdir.

b) Qüvvəyəminmə şərtləri kimi, Kredit Müqaviləsində müəyyənləşdirilən digər bütün hallar meydana gəlib.

Bənd 12.02. Hüquqi rəylər və sertifikatlar. 12.01-ci bəndə uyğun olaraq, əgər Fond xahiş edirsə, Fondun məqbul hesab etdiyi dövlət hüquq rəsmisinin rəyi və rəy təqdim edilməli olan dəlillərin bir hissəsi kimi, Fondu qane edirsə, Borcalan adından səlahiyyətli hüquq rəsmisinin sertifikatı Fonda təqdim edilməlidir.

Bu sertifikatda:

a) Kredit Müqaviləsinə icazə verildiyi və ya təsdiq edildiyi, rəsmiləşdirildiyi və Borcalanın adından göndərildiyi və eləcə də Borcalanın onun şərtlərinə hüquqi əməl edəcəyi haqda; və

b) Kredit Müqaviləsində müəyyənləşdirilən və ya Fond tərəfindən xahiş edilən digər məsələlər göstərilməlidir.

Bənd 12.03. Qüvvəyəminmə tarixi.

a) Fond və ya Borcalan tərəfindən digər şərt irəli sürülmürsə, 12.01-ci bəndə uyğun olaraq, Kredit Müqaviləsi Fondun Borcalana dəlillərin qəbul edilməsi ilə bağlı göndərdiyi bildirişdə qeyd olunan tarixdə qüvvəyə minir.

b) Qüvvəyəminmə tarixindən əvvəl, hətta Kredit Müqaviləsi imzalandıqda belə, Fonda Borcalanın Kredit hesabından vəsait çıxarma hüququnu dayandırmağa əsas verən hər hansı bir hal yarandıqda və bu hal aradan qaldırılana qədər, Fond razılıq əlaməti olaraq, bu bəndin a) paraqrafında qeyd edildiyi kimi, öz tərəfindən bildiriş göndərilməsini təxirə sala bilər.

Bənd 12.04. Qüvvəyə minmədikdə Kredit Müqaviləsinin dayandırılması. Əgər Kredit Müqaviləsi bu Müqavilədə göstərilən vaxta qədər qüvvəyə minmirsə, Kredit Müqaviləsini Fond həmin tarixdən sonra istədiyi vaxt Borcalana bildirməklə dayandıra bilər. Belə bildiriş göndəriləndən sonra Kredit Müqaviləsi və Tərəflərin öhdəlikləri avtomatik surətdə dayandırılır.

Bənd 12.05. Tam ödəmə əsasında Kredit Müqaviləsinin dayandırılması. Kredit hesabından çıxarılan kreditin bütöv əsas məbləği, bütün kredit faizləri və digər xərclər ödəniləndən sonra Kredit Müqaviləsi və Tərəflərin digər öhdəlikləri qüvvədən düşmüş hesab olunur.

"Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Şahin Abdulla oğlu Mustafayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Şahin Abdulla oğlu Mustafayevə verilməsi barədə Estoniya Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 aprel 2010-cu il

№ 832

"Azərbaycan Respublikası Hökuməti və Finlandiya Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Finlandiya Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin sədri Aydın Əli oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin sədri Aydın Əli oğlu Əliyevə verilməsi barədə Finlandiya Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 aprel 2010-cu il

№ 833

Azərbaycan Respublikasının 2004-cü il 18 iyun tarixli, 690-IIQ nömrəli qanunu ilə Azərbaycan Respublikasının qoşulduğu "Neftlə çirkləndirmə hallarına hazırlığın təmin edilməsi, bunlara qarşı mübarizə və əməkdaşlıq haqqında" 1990-cı il tarixli Beynəlxalq Konvensiyanın icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 dekabr tarixli, 1205 nömrəli sərəncamında dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının 2004-cü il 18 iyun tarixli, 690-IIQ nömrəli Qanunu ilə Azərbaycan Respublikasının qoşulduğu "Neftlə çirkləndirmə hallarına hazırlığın təmin edilməsi, bunlara qarşı mübarizə və əməkdaşlıq haqqında" 1990-cı il tarixli Beynəlxalq Konvensiyanın icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 dekabr tarixli, 1205 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 12, maddə 1195) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci bənddə "orqanlar qismində öz səlahiyyətləri çərçivəsində Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi" sözləri "orqan qismində Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi" sözləri ilə əvəz edilsin;

1.2. 2-ci bənddə "orqanlar qismində öz səlahiyyətləri çərçivəsində Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyinin" sözləri "orqan qismində Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, "Neftlə çirkləndirmə hallarına hazırlığın təmin edilməsi, bunlara qarşı mübarizə və əməkdaşlıq haqqında" 1990-cı il tarixli Beynəlxalq Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinin (a) (i) yarımbəndində nəzərdə tutulmuş səlahiyyətli milli orqan qismində Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin təyin edilməsi barədə Beynəlxalq Dəniz Təşkilatının Baş Katibinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 aprel 2010-cu il

№ 834

"Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Almaniya Federativ Respublikasının Federal Statistika İdarəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Birgə Niyyət Bəyannaməsi"ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Almaniya Federativ Respublikasının Federal Statistika İdarəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Birgə Niyyət Bəyannaməsi"ni imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Arif Mikayıl oğlu Vəliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Birgə Niyyət Bəyannaməsini imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin sədri Arif Mikayıl oğlu Vəliyevə verilməsi barədə Almaniya Federativ Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 aprel 2010-cu il

№ 835

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Tacikistan Respublikası Müdafiə Nazirliyi arasında Tacikistan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının Azərbaycan Respublikası Müdafiə Nazirliyinin ali hərbi təhsil müəssisələrində təhsil alması haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Tacikistan Respublikası Müdafiə Nazirliyi arasında Tacikistan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının Azərbaycan Respublikası Müdafiə Nazirliyinin ali hərbi təhsil müəssisələrində təhsil alması haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının müdafiə naziri Səfər Axundbala oğlu Əbiyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının müdafiə naziri Səfər Axundbala oğlu Əbiyevə verilməsi barədə Tacikistan Respublikası

tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 aprel 2010-cu il

№ 840

2010-cu il martın 1-də Ramşteyn şəhərində imzalanmış "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Amerika Birləşmiş Ştatlarının Avropa Komandanlığı arasında hərbi əməkdaşlıq üzrə İş Planı"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2010-cu il martın 1-də Ramşteyn şəhərində imzalanmış "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Amerika Birləşmiş Ştatlarının Avropa Komandanlığı arasında hərbi əməkdaşlıq üzrə İş Planı" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Amerika Birləşmiş Ştatları tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 aprel 2010-cu il

№ 841

"Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında idman və gənclər sahələrində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında idman və gənclər sahələrində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Arif oğlu Rəhimova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Arif oğlu Rəhimova verilməsi barədə Küveyt Dövləti Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 aprel 2010-cu il

№ 842

"Mayeləşdirilmiş təbii qaz və onun nəqli sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Mayeləşdirilmiş təbii qaz və onun nəqli sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının sənaye və energetika naziri Natiq Ağaəmi oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının sənaye və energetika naziri Natiq Ağaəmi oğlu Əliyevə verilməsi barədə Gürcüstan və Rumıniya tərəflərinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 aprel 2010-cu il

№ 846

2010-cu il martın 4-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Əfqanıstan Türk Tapşırıq Qüvvələrinin Türk Birliyi tərkibində Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri çərçivəsində fəaliyyət göstərəcək Azərbaycan bölüyünə dair" Protokola 2 nömrəli Dəyişikliyin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2010-cu il martın 4-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Əfqanıstan Türk Tapşırıq Qüvvələrinin Türk Birliyi tərkibində Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri çərçivəsində fəaliyyət göstərəcək Azərbaycan bölüyünə dair" Protokola 2 nömrəli Dəyişiklik təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Türkiyə Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 aprel 2010-cu il

№ 848

2010-cu il fevralın 8-də Minsk şəhərində imzalanmış "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Belarus Respublikasının Dövlət Təhlükəsizlik Komitəsi arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında Saziş"ə dair 1, 2 və 3 nömrəli Protokollar"ın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2010-cu il fevralın 8-də Minsk şəhərində imzalanmış "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Belarus Respublikasının Dövlət Təhlükəsizlik Komitəsi arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında Saziş"ə dair 1, 2 və 3 nömrəli Protokollar" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolların həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolların qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Belarus Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 aprel 2010-cu il

№ 856

"Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Vyetnam Sosialist Respublikası Xarici İşlər Nazirliyi arasında Əməkdaşlıq Protokolu"nu imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Vyetnam Sosialist Respublikası Xarici İşlər Nazirliyi arasında Əməkdaşlıq Protokolu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Xələf Alı oğlu Xələfova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Xələf Alı oğlu Xələfova verilməsi barədə Vyetnam Sosialist Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 aprel 2010-cu il

№ 857

"Azərbaycan Respublikası Hökuməti və Vyetnam Sosialist Respublikası Hökuməti arasında diplomatik, xidməti və ya rəsmi pasportlara malik vətəndaşların vizasız gediş-gəlişi haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Vyetnam Sosialist Respublikası arasında diplomatik, xidməti və ya rəsmi pasportlara malik vətəndaşların vizasız gediş-gəlişi haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Xələf Alı oğlu Xələfova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Xələf Alı oğlu Xələfova verilməsi barədə Vyetnam Sosialist Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 aprel 2010-cu il

№ 858

"Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Hökuməti arasında onların diplomatik və xüsusi pasportlara malik müvafiq vətəndaşları üçün viza tələbinin ləğv edilməsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Hökuməti arasında onların diplomatik və xüsusi pasportlara malik müvafiq vətəndaşları üçün viza tələbinin ləğv edilməsi haqqında" 2010-cu il yanvarın 12-də Doha şəhərində imzalanmış Saziş təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 aprel 2010-cu il

№ 988-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Hökuməti arasında onların diplomatik və xüsusi pasportlara malik müvafiq vətəndaşları üçün viza tələbinin ləğv edilməsi haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Hökuməti,

iki ölkə arasında dostluq münasibətlərinin və əməkdaşlığın daha da inkişaf etdirilməsini təşviq etmək niyyətində olaraq və

etibarlı diplomatik və xüsusi pasportlara malik vətəndaşlarının iki ölkə arasında hərəkətini, ölkəyə daxil olma və ölkədən getməsini asanlaşdırmağı arzu edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Aşağıdakı pasportlar bu Sazişin əhatə dairəsinə daxildir:

Azərbaycan Respublikasında: diplomatik pasportlar, Qətər Dövlətində: diplomatik və xüsusi pasportlar.

Maddə 2

Hər iki dövlətin 1-ci maddədə istinad edildiyi diplomatik və xüsusi pasportlara malik vətəndaşları, habelə adları onların pasportlarında qeyd olunmuş azyaşlı ailə üzvləri digər Tərəfin dövlət ərazisinə giriş vizası olmadan daxil ola, onu tərk edə, oradan keçib gedə və orada otuz (30) gün qala bilərlər. Qalma müddəti, onun bitməsindən əvvəl Tərəfin müvafiq orqanlarına uzadılma barədə müraciət edilməklə müəyyən olunmuş eyni müddətə uzadıla bilər.

Maddə 3

Tərəflərin dövlətlərinin 1-ci maddədə istinad edilən etibarlı pasportlara malik olan və digər Tərəfin dövlət ərazisindəki diplomatik missiyalara və konsulluqlara təyin olunan vətəndaşları, habelə onların eyni pasportlara malik ailə üzvləri əvvəlcədən viza almadan həmin Tərəfin dövlət ərazisinə daxil ola və orada otuz (30) gün müddətində qala bilərlər. Bu müddət ərzində onlar qəbul edən Tərəfin səlahiyyətli orqanlarından tələb olunan sənədləri və icazəni əldə etməlidirlər. Tərəflər yuxarıda qeyd olunan vətəndaşlarının daxil olması barədə bir-birini diplomatik kanallarla məlumatlandıracaqlar.

Maddə 4

Tərəflərin dövlətlərinin vətəndaşları digər Tərəfin dövlət ərazisinə beynəlxalq daşıma üçün təyin edilmiş sərhəd-keçid məntəqələrindən daxil ola bilərlər.

Maddə 5

Tərəflər bu Sazişdə qeyd olunan pasportların nümunələrini (formalarını) (bu Sazişin qüvvəyə minməsindən sonra otuz (30) gün ərzində diplomatik kanallar vasitəsilə mübadilə edəcəklər.

Tərəflər, yeni diplomatik və ya xüsusi pasportlar buraxıldıqda, onların hüquqi qüvvəyə malik olması tarixindən ən azı otuz (30) gün əvvəl həmin pasportların nümunələrini (formalarını) mübadilə edəcəklər.

Maddə 6

Bu Sazişin müddəaları onun 2-ci maddəsində qeyd olunan şəxsləri digər Tərəfin dövlət ərazisində qüvvədə olan qanun və qaydalarına riayət etmək öhdəliyindən azad etmir.

Maddə 7

Bu Saziş, Tərəflərin öz dövlətlərinin ərazisində olmasını arzuedilməz hesab etdiyi şəxslərin onların dövlətlərinin ərazisinə daxil olmasından, orada qalmasından və ya tranzit keçməsindən imtina etmək hüququna təsir etmir.

Maddə 8

Tərəflərdən hər biri ictimai təhlükəsizlik, ictimai qayda və sağlamlıq maraqları naminə bu Sazişin qüvvəsini müvəqqəti olaraq, tam və ya qismən dayandıra bilər. Digər Tərəfə bu Sazişin qüvvəsinin müvəqqəti olaraq dayandırılması və müvafiq olaraq onun yenidən qüvvəyə minməsi barədə diplomatik kanallar vasitəsilə üç gündən gec olmayaraq məlumat verilməlidir.

Maddə 9

Bu Sazişə hər hansı əlavə və dəyişiklik Tərəflərin qarşılıqlı razılığı əsasında edilə bilər. Bu Sazişin ayrılmaz hissəsi olan əlavə və dəyişikliklər Sazişin 11-ci maddəsinə uyğun olaraq qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdiriləcəkdir.

Maddə 10

Bu Sazişin tətbiqi və ya təfsiri zamanı hər hansı fikir ayrılığı yarandığı təqdirdə, Tərəflər onları, istisna olaraq, danışıqlar və məsləhətləşmələr yolu ilə həll edəcəklər.

Maddə 11

Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır və Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirməsi barədə diplomatik kanallar vasitəsilə göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdən 30 (otuz) gün sonra qüvvəyə minir.

Tərəflərdən hər biri digər Tərəfə diplomatik kanallar vasitəsilə yazılı bildiriş göndərməklə bu Sazişi ləğv edə bilər. Saziş belə bildirişin alındığı tarixdən 6 (altı) ay sonra qüvvədən düşür.

Doha şəhərində 12 yanvar 2010-cu il tarixində Azərbaycan, ərəb və ingilis dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Sazişin təfsiri zamanı fikir aynlığı yarandıqda, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	QƏTƏR DÖVLƏTİ HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*MƏHƏMMƏD BİN XALİD AL-TANI*
Xarici işlər naziri	*Dövlət naziri*

İslam Konfransı Təşkilatının Nizamnaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

İslam Konfransı Təşkilatının 2008-ci il martın 14-də Dakar şəhərində imzalanmış Nizamnaməsi təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 aprel 2010-cu il

№ 989-IIIQ

İslam Konfransı Təşkilatının Nizamnaməsi

Rəhmli və mərhəmətli Allahın adı ilə

Biz, İslam Konfransı Təşkilatının üzvü olan Dövlətlər aşağıdakıları qərara alaraq:

22-25 sentyabr 1969-cu il tarixində Rabat şəhərində keçirilmiş Üzv Dövlətlərin Kralларının, Dövlət və Hökumət başçılarının Konfransını, eləcə də 29 fevral - 4 mart 1972-ci il tarixində Ciddə şəhərində keçirilmiş Xarici İşlər Nazirlərinin Konfransını nəzərə almaq;

birlik və qardaşlıq kimi ali İslam dəyərlərini rəhbər tutmaq və Üzv Dövlətlərin beynəlxalq arenada ümumi maraqlarını qorumaq üçün onların arasındakı birliyin və həmrəyliyin inkişaf etdirilməsinin və möhkəmləndirilməsinin əhəmiyyətini təsdiq etmək;

Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin, bu Nizamnamənin və beynəlxalq hüququn prinsiplərindən irəli gələn öhdəliklərimizə sadiq qalmaq;

sülh, mərhəmət, dözümlülük, bərabərlik, ədalət və insan ləyaqəti kimi yüksək İslam dəyərlərini qorumaq və təşviq etmək;

Üzv Dövlətlərin əhalisinin sabit inkişafını, tərəqqisini və çiçəklənməsini təmin etməklə dünyada İslamın aparıcı rolunun bərpası istiqamətində fəaliyyət göstərməyə çalışmaq;

müsəlmanlar və Üzv Dövlətlər arasında birlik və həmrəyliyi genişləndirmək və möhkəmləndirmək;

bütün Üzv Dövlətlərin milli suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünə hörmət etmək, qorumaq və müdafiə etmək;

beynəlxalq sülhə və təhlükəsizliyə, sivilizasiyalar, mədəniyyətlər və dinlər arasında anlaşma və dialoqa töhfə vermək, dostluq əlaqələri, mehriban qonşuluq, qarşılıqlı hörmət və əməkdaşlığı inkişaf və təşviq etdirmək;

konstitusiya quruluşuna və hüquq sistemlərinə müvafiq olaraq Üzv Dövlətlərdə insan hüquqları və əsas azadlıqları, səmərəli idarəçiliyi, qanunun aliliyini, demokratiya və məsuliyyəti təşviq etmək;

Üzv Dövlətlər və digər dövlətlər arasında etimadı artırmaq və dostluq əlaqələri, qarşılıqlı hörmət və əməkdaşlığı təşviq etmək;

mötədillik, dözümlülük, müxtəlifliyə hörmət kimi İslam dəyərlərini, İslam rəmzlərinin və ümumi irsin qorunmasını tərbiyə etmək və İslam dininin ümumbəşəri mahiyyətini qoruyub saxlamaq;

əqli kamilliyə çatmaq üçün yüksək İslam ideallarına uyğun biliyin əldə edilməsi və yayılmasını inkişaf etdirmək;

tərəfdaşlıq və bərabərlik prinsiplərinə müvafiq olaraq qlobal iqtisadiyyata səmərəli şəkildə inteqrasiya etmək məqsədilə sabit sosial-iqtisadi inkişafa nail olmaq üçün Üzv Dövlətlər arasında əməkdaşlığı genişləndirmək;

ətraf mühitin bütün aspektlərini hazırkı və gələcək nəsillər üçün qoruyub saxlamaq və inkişaf etdirmək;

öz müqəddəratını təyinetmə və daxili işlərə qarışmama hüququna, hər bir Üzv Dövlətin suverenliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə hörmət etmək;

hazırda xarici işğal altında olan Fələstin xalqının mübarizəsinə dəstək göstərmək, öz müqəddəratını təyinetmə hüququ daxil olmaqla onlara ayrılmaz hüquqlarını əldə etmək və tarixi, İslam simasını və müqəddəs yerləri qorumaqla paytaxtı Qüds şəhəri olan suveren dövlət qurmaq imkanı yaratmaq;

Üzv Dövlətlərin qanunlarına və qanunvericiliklərinə müvafiq olaraq, qadınların hüquqlarını və onların həyatın bütün sahələrində iştirak etmək hüququnu qorumaq və təşviq etmək;

müsəlman uşaqlarının və gənclərinin düzgün tərbiyəsi üçün əlverişli şərait yaratmaq və mədəni, sosial, mənəvi və əxlaqi idealları möhkəmləndirmək üçün onlara təhsil vasitəsilə İslam dəyərlərini təlqin etmək;

Üzv Dövlətlərdən kənardakı müsəlman azlıqları və icmalarının ləyaqətini, mədəni və dini mənsubiyyətlərini qorumaqda onlara kömək etmək;

hər hansı dövlətin daxili yurisdiksiyasında olan məsələlərə qarışmama prinsipinə tərəfdar olaraq bu Nizamnamənin, BMT Nizamnaməsinin və beynəlxalq hüququn, o cümlədən beynəlxalq humanitar hüququn məqsəd və prinsiplərini təsdiq etmək;

beynəlxalq səviyyədə səmərəli idarəçilik və dövlətlər arasında bərabərlik, qarşılıqlı hörmət və daxili yurisdiksiyada olan məsələlərə qarışmama prinsipləri əsasında beynəlxalq münasibətlərin demokratikləşdirilməsinə çalışmaq;

bu məqsədlərə nail olmaq üçün əməkdaşlıq etməyi qərara alır və düzəlişlər edilmiş bu Nizamnamə barədə razılığa gəlirik.

I fəsil

MƏQSƏD VƏ PRİNSİPLƏR

Maddə 1

İslam Konfransı Təşkilatının məqsədləri aşağıdakılardır:

1. Üzv Dövlətlər arasında qardaşlıq və həmrəyliyi genişləndirmək və möhkəmləndirmək;

2. Ümumi maraqları qorumaq, Üzv Dövlətlərin haqq işlərini dəstəkləmək və xüsusilə İslam dünyasının və ümumiyyətlə dünya birliyinin qarşılaşdığı problemləri nəzərə alaraq, Üzv Dövlətlərin səylərini əlaqələndirmək və birləşdirmək;

3. Öz müqəddəratını təyinetmə, daxili işlərə qarışmama hüquqlarına və hər bir Üzv Dövlətin suverenliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə hörmət etmək;

4. Təcavüz nəticəsində işğal altında olan istənilən Üzv Dövlətin suverenlik və ərazi bütövlüyünün beynəlxalq hüquq və müvafiq beynəlxalq və regional təşkilatlarla əməkdaşlıq əsasında bərpa edilməsini dəstəkləmək;

5. Üzv Dövlətlərin ümumi maraqlarını təmin etmək üçün onların qlobal səviyyədə siyasi, iqtisadi və sosial qərar qəbulu prosesində fəal iştirakını təmin etmək;

6. Qlobal sülh və təhlükəsizliyi təmin etmək üçün ədalət, qarşılıqlı hörmət və mehriban qonşuluğa əsaslanan dövlətlərarası əlaqələri inkişaf etdirmək;

7. Xalqların BMT Nizamnaməsində və beynəlxalq hüquqda təsbit edilmiş hüquqlarına dəstəyi bir daha təsdiq etmək;

8. Fələstin xalqının öz müqəddəratını təyin etmək və tarixi, İslam simasını və müqəddəs yerləri qorunmaqla paytaxtı Qüds şəhəri olan suveren dövlət qurmaq hüququnu dəstəkləmək və ona bu sahədə imkan yaratmaq;

9. Ümumi İslam Bazarı yaratmaq məqsədilə iqtisadi inteqrasiyaya nail olmaq üçün islamdaxili iqtisadi və ticari əməkdaşlığı gücləndirmək;

10. Üzv Dövlətlərdə sabit və hərtərəfli sosial inkişaf və iqtisadi rifaha nail olmaq üçün səy göstərmək;

11. Mötədilliyə və dözümlülüyə əsaslanan İslam təlimi və dəyərlərini yaymaq, təşviq etmək və qorumaq, İslam mədəniyyətini yaymaq və İslam irsini qorumaq;

12. İslamın həqiqi simasını qoruyub saxlamaq, İslamın nüfuzuna xələl gətirən böhtanlara qarşı mübarizə aparmaq, sivilizasiyalar və dinlərarası dialoqu təşviq etmək;

13. Elm və texnikanı genişləndirmək və inkişaf etdirmək, bu sahələrdə Üzv Dövlətlər arasında tədqiqat və əməkdaşlığı təşviq etmək;

14. Qadınların, uşaqların, gənclərin, yaşlıların və xüsusi ehtiyaclan olan şəxslərin hüquqları da daxil olmaqla, insan hüquqlarını və əsas azadlıqları qorumaq, o cümlədən İslam ailə dəyərlərini mühafizə etmək;

15. Cəmiyyətin təbii və əsas vahidi kimi ailənin rolunu vurğulamaq, qorumaq və artırmaq;

16. Qeyri-üzv dövlətlərdəki müsəlman icmalarının və azlıqlarının hüquqlarını, ləyaqətini, dini və mədəni mənsubiyyətini qorumaq;

17. Beynəlxalq forumlarda ümumi maraq kəsb edən məsələlərdə birgə mövqe formalaşdırmaq və bu mövqeni müdafiə etmək;

18. Terrorçuluğun bütün forma və təzahürlərinə, mütəşəkkil cinayətkarlığa, narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinə, korrupsiyaya, çirkli pulların yuyulmasına və insan alverinə qarşı mübarizədə əməkdaşlıq etmək;

19. Təbii fəlakət kimi humanitar xarakterli fövqəladə vəziyyətlərdə əməkdaşlıq etmək və fəaliyyəti əlaqələndirmək;

20. Üzv Dövlətlər arasında sosial, mədəni və informasiya sahələrində əməkdaşlığı inkişaf etdirmək.

Maddə 2

1-ci maddədə qeyd edilən məqsədləri həyata keçirmək üçün Üzv Dövlətlər İslam təlimi və dəyərlərini rəhbər tutmaq və aşağıdakı prinsiplərə müvafiq olaraq hərəkət etmək öhdəliyi götürürlər:

1. Bütün Üzv Dövlətlər BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə sadiq qalacaqlarına dair öhdəlik götürürlər;

2. Üzv Dövlətlər suveren, müstəqildirlər, hüquq və öhdəlik cəhətdən bərabərdirlər;

3. bütün Üzv Dövlətlər mübahisələrini dinc yolla həll edir və münasibətlərində güc tətbiq etməkdən və ya güc tətbiq etməklə hədələməkdən çəkinirlər;

4. bütün Üzv Dövlətlər digər Üzv Dövlətlərin milli suverenliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə hörmət etməyi öhdəsinə götürür və digərlərinin daxili işlərinə qarışmaqdan çəkinirlər;

5. bütün Üzv Dövlətlər beynəlxalq sülh və sabitliyin qorunub saxlanmasına yardım etmək və bu Nizamnamədə, BMT-nin Nizamnaməsində, beynəlxalq hüquq və beynəlxalq humanitar hüquqda təsbit edildiyi kimi, bir-birinin daxili işlərinə qarışmaqdan çəkinmək öhdəliyi götürürlər;

6. BMT Nizamnaməsində qeyd edildiyi kimi, bu Nizamnamədə heç nə Təşkilata və ya onun orqanlarına istənilən Dövlətin daxili yurisdiksiyasına aid olan və ya onunla bağlı olan məsələlərə qarışmaq səlahiyyəti vermir.

7. Üzv Dövlətlər milli və beynəlxalq səviyyədə səmərəli idarəçiliyi, demokratiyanı, insan hüquqlarını, əsas azadlıqları və qanunun aliliyini müdafiə və təşviq edirlər.

8. Üzv Dövlətlər ətraf mühiti qoruyub saxlamağa səy göstərirlər.

II fəsil

ÜZVLÜK

Maddə 3

1. Təşkilat İslam Konfransı Təşkilatının üzvü olan 57 Dövlətdən və 3-cü maddənin 2-ci bəndinə müvafiq olaraq Nizamnaməyə qoşula bilən digər Dövlətlərdən ibarətdir.

2. BMT-nin üzvü olan, müsəlman əhalisi çoxluq təşkil edən, Nizamnaməyə riayət edən və üzvlük üçün ərizə verən istənilən Dövlət Xarici İşlər Nazirləri Şurasının qəbul etdiyi razılaşdırılmış meyarlar əsasında Xarici İşlər Nazirləri Şurası tərəfindən konsensusla təsdiq edildiyi halda Təşkilata qoşula bilər.

3. Bu Nizamnamədə heç nə hazırkı Üzv Dövlətlərin üzvlük və ya digər məsələlərlə bağlı hüquq və imtiyazlarına xələl gətirmir.

Maddə 4

1. BMT-nin üzvü olan Dövlətə müşahidəçi statusu vermək barədə qərar Xarici İşlər Na-

zirləri Şurası tərəfindən yalnız konsensusla və Xarici İşlər Nazirləri Şurası tərəfindən razılaşdırılmış meyarlar əsasında qəbul edilir.

2. Beynəlxalq təşkilata müşahidəçi statusu vermək barədə qərar Xarici İşlər Nazirləri Şurası tərəfindən yalnız konsensusla və Xarici İşlər Nazirləri Şurası tərəfindən razılaşdırılmış meyarlar əsasında qəbul edilir.

III fəsil

ORQANLAR

Maddə 5

İslam Konfransı Təşkilatının Orqanları aşağıdakılardan ibarətdir:

1. İslam Sammiti

2. Xarici İşlər Nazirləri Şurası

3. Daimi komitələr

4. İcraiyyə Komitəsi

5. Beynəlxalq İslam Ədalət Məhkəməsi

6. İnsan Hüquqları üzrə Müstəqil Daimi Komissiya

7. Daimi Nümayəndələr Komitəsi

8. Baş Katiblik

9. Köməkçi orqanlar

10. İxtisaslaşmış qurumlar

11. Filiallar.

IV fəsil

İSLAM SAMMİTİ

Maddə 6

İslam Sammiti Üzv Dövlətlərin Krallarından, Dövlət və Hökumət başçılarından ibarətdir və Təşkilatın ali orqanıdır.

Maddə 7

İslam Sammiti Nizamnamədə nəzərdə tutulan məqsədlərin həyata keçirilməsi ilə bağlı bütün məsələləri birgə nəzərdən keçirir, onlar barədə qərarlar qəbul edir, bu məqsədlərin həyata keçirilməsi ilə əlaqədar məsələlərə rəhbərlik edir, Üzv Dövlətlər və İslam Dünyası üçün narahatlıq doğuran digər məsələləri müzakirə edir.

Maddə 8

1. İslam Sammiti hər üç ildən bir Üzv Dövlətlərdən birində keçirilir.

2. Gündəliyin hazırlanması və Sammitin keçirilməsi üçün bütün zəruri tədbirlər Baş Katibliyin yardımı ilə Xarici İşlər Nazirləri Şurası tərəfindən görüləcək.

Maddə 9

Növbədənkənar iclaslar, İslam dünyasının maraqları buna zərurət yaratdığı halda, İslam dünyası üçün mühüm əhəmiyyət kəsb edən məsələləri müzakirə etmək və Təşkilatın siyasətini müvafiq şəkildə əlaqələndirmək məqsədilə keçiriləcək. Növbədənkənar iclas istənilən Üzv Dövlətin və ya Baş katibin təşəbbüsü ilə və bu təşəbbüs Üzv Dövlətlərin adi səs çoxluğu ilə qəbul edildiyi halda keçirilir.

V fəsil

XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASI

Maddə 10

1. Xarici İşlər Nazirləri Şurası ildə bir dəfə Üzv Dövlətlərdən birinin ərazisində toplanır.

2. Xarici İşlər Nazirləri Şurasının növbədənkənar iclası istənilən Üzv Dövlətin və ya Baş katibin təşəbbüsü ilə və bu təşəbbüs Üzv Dövlətlərin adi səs çoxluğu ilə qəbul edildiyi halda keçirilir.

3. Xarici İşlər Nazirləri Şurası İslam Dünyası üçün narahatlıq doğuran xüsusi məsələlərlə məşğul olmaq üçün ayrı-ayrı sahələr üzrə nazirlərin iclaslarının keçirilməsini tövsiyə edə bilər. Belə iclasların hesabatları İslam Sammitinə və Xarici İşlər Nazirləri Şurasına təqdim edilir.

4. Xarici İşlər Nazirləri Şurası aşağıdakılar vasitəsilə Təşkilatın ümumi siyasətinin həyata keçirilmə üsullarını nəzərdən keçirir:

a. Təşkilatın məqsədlərinin və ümumi siyasətinin həyata keçirilməsi üçün ümumi maraq doğuran məsələlərlə bağlı qərar və qətnamələrin qəbul edilməsi;

b. əvvəlki Sammit və Xarici İşlər Nazirləri Şurası tərəfindən qəbul edilmiş qərar və qətnamələrin icrası prosesinin nəzərdən keçirilməsi;

c. Baş Katibliyin və Köməkçi orqanların proqram, büdcə və digər maliyyə-inzibati hesabatlarının nəzərdən keçirilməsi və təsdiq edilməsi;

d. bir və ya daha artıq Üzv Dövlətə aidiyyəti olan məsələ ilə bağlı müvafiq tədbirlər görülməsi üçün əlaqədar Dövlətlər tərəfindən müraciət olan halda həmin məsələnin nəzərdən keçirilməsi;

e. istənilən yeni orqan və ya komitənin yaradılmasının tövsiyə edilməsi;

f. Nizamnamənin 16 və 18-ci maddələrinə müvafiq olaraq Baş katibin seçilməsi və Baş katibin köməkçilərinin təyin edilməsi;

g. müvafiq hesab etdiyi istənilən digər məsələnin nəzərdən keçirilməsi.

VI fəsil

DAİMİ KOMİTƏLƏR

Maddə 11

1. Mühüm əhəmiyyətli məsələləri Təşkilat və onun Üzv Dövlətlərinə çatdırmaq üçün Təşkilat aşağıdakı daimi komitələri yaratmışdır:

i. Qüds Komitəsi

ii. Məlumat və Mədəniyyət Məsələləri üzrə Daimi Komitə (COMİAC)

iii. İqtisadiyyat və Ticarət sahəsində Əməkdaşlıq üzrə Daimi Komitə (COMCEC);

iv. Elm və Texnika sahəsində Əməkdaşlıq üzrə Daimi Komitə (COMS-TECH).

2. Daimi komitələrə Krallar, Dövlət və Hökumət Başçıları sədrlik edir və bu komitələr Sammitin qərarlarına müvafiq olaraq və ya Xarici İşlər Nazirləri Şurasının tövsiyəsi və belə Komitələrin üzvlüyü əsasında təsis edilir.

VII fəsil

İCRAİYYƏ KOMİTƏSİ

Maddə 12

İcraiyyə Komitəsi İslam Sammitinin və Xarici İşlər Nazirləri Şurasının hazırkı, əvvəlki və gələcək Sədrlərindən, Baş Katibliyin Qərargahına ev sahibliyi edən ölkədən, o cümlədən ex-officio Üzv kimi Baş katibdən ibarətdir. İcraiyyə Komitəsinin iclasları öz Prosedur Qaydalarına uyğun olaraq keçirilir.

VIII fəsil

DAİMİ NÜMAYƏNDƏLƏR KOMİTƏSİ

Maddə 13

Daimi Nümayəndələr Komitəsinin müstəsna hüquqları və iş metodu Xarici İşlər Nazirləri Şurası tərəfindən müəyyən edilir.

IX fəsil

BEYNƏLXALQ İSLAM ƏDALƏT MƏHKƏMƏSİ

Maddə 14

1987-ci ildə Küveytdə təsis edilmiş Beynəlxalq İslam Ədalət Məhkəməsi onun Əsasnaməsinin qüvvəyə minməsindən sonra Təşkilatın əsas məhkəmə orqanı olacaqdır.

X fəsil

İNSAN HÜQUQLARI ÜZRƏ MÜSTƏQİL DAİMİ KOMİTƏ

Maddə 15

İnsan Hüquqları üzrə Müstəqil Daimi Komitə Təşkilatın paktlarında, bəyannamələrində və insan hüquqları sahəsində universal səviyyədə razılaşdırılmış sənədlərdə təsbit edilmiş mülki, siyasi, sosial və iqtisadi hüquqları İslam dəyərlərinə uyğun şəkildə təşviq edir.

XI fəsil

BAŞ KATİBLİK

Maddə 16

Baş Katiblik Təşkilatın əsas inzibati vəzifəli şəxsi olan Baş katibdən və Təşkilatın tələb

etdiyi heyətdən ibarət olacaqdır. Baş katib Xarici İşlər Nazirləri Şurası tərəfindən beş il müddətinə seçilir; onun bu vəzifəyə yalnız bir dəfə təkrar seçilmək hüququ vardır. Baş katib ədalətli coğrafi bölgü, rotasiya və bütün Üzv Dövlətlər üçün bərabər imkanların yaradılması prinsiplərinə müvafiq olaraq Üzv Dövlətlərin vətəndaşları arasından səriştəsi, vicdanlılığı və təcrübəsi nəzərə alınmaqla seçilir.

Maddə 17

Baş katibin vəzifələri aşağıdakılardır:

a. onun fikrincə Təşkilatın məqsədlərinə xidmət edən və ya onlara ziyan verə bilən məsələləri Təşkilatın səlahiyyətli orqanlarının diqqətinə çatdırmaq;

b. İslam Sammitinin, Xarici İşlər Nazirləri Şurası və digər nazirlər iclaslarının qərar, qətnamə və tövsiyələrinin icrasına nəzarət etmək;

c. İslam Sammiti və Xarici İşlər Nazirləri Şurasının qərar, qətnamə və tövsiyələrini yerinə yetirmək üçün Üzv Dövlətləri zəruri sənədlər və xidməti məlumatlarla təmin etmək;

d. Təşkilatın müvafiq orqanlarının işini əlaqələndirmək və razılaşdırmaq;

e. Baş Katibliyin proqram və büdcəsini hazırlamaq;

f. Üzv Dövlətlər arasında kommunikasiyanı təşviq etmək və məsləhətləşmələrə, fikir mübadiləsinə, o cümlədən Üzv Dövlətlər üçün əhəmiyyət kəsb edən məlumatın yayılmasına yardım etmək;

g. İslam Sammiti və Xarici İşlər Nazirləri Şurası tərəfindən ona həvalə olunmuş digər vəzifələri yerinə yetirmək;

h. Xarici İşlər Nazirləri Şurasına Təşkilatın işi barədə illik hesabat təqdim etmək.

Maddə 18

1. Baş katib ədalətli coğrafi bölgü prinsipinə əsaslanaraq və səriştə, vicdanlılıq və Nizamnamənin məqsədlərinə sadiqlik amillərini nəzərə almaqla, 5 il müddətinə təyin edilmək üçün Xarici İşlər Nazirləri Şurasına öz köməkçilərinin namizədliyini irəli sürür. Baş katibin köməkçisi vəzifələrindən biri Qüds və Fələstin məsələsinə həsr edilir. Bu vəzifəyə namizədi Fələstin Hökuməti irəli sürür.

2. Baş katib İslam Sammitinin və Xarici İşlər Nazirləri Şurasının qətnamələrinin və qərarlarının icrası üçün Xüsusi Nümayəndələr təyin edə bilər. Belə təyinatlar, eləcə də xüsusi nümayəndələrin mandatları Xarici İşlər Nazirləri Şurasının razılığı ilə təsdiqlənir.

3. Baş katib ədalətli coğrafi bölgü prinsipinə müvafiq olaraq, səriştə, bu vəzifəni tutmaq üçün müvafiq keyfiyyətlər, vicdanlılıq və gender amilini nəzərə almaqla Üzv Dövlətlərin vətəndaşları arasından Baş Katibliyin işçilərini təyin edir. Baş Katib müvəqqəti ekspert və məsləhətçilər təyin edə bilər.

Maddə 19

Baş katib, Baş katibin köməkçiləri və Baş Katibliyin işçiləri öz vəzifələrini icra edərkən, istənilən hökumət və ya digər təşkilata təlimat almaq üçün müraciət edə və ya onlardan hər hansı belə təlimatı qəbul edə bilməz. Onlar yalnız Təşkilat qarşısında məsuliyyət daşıyan beynəlxalq rəsmilər olaraq öz vəzifələrinə zidd olan hərəkətlər etməkdən çəkinməlidirlər. Üzv Dövlətlər vəzifənin beynəlxalq xarakterinə hörmət etməli və vəzifələrinin icrası zamanı onlara təsir etməyə çalışmamalıdırlar.

Maddə 20

Baş Katiblik inzibati və təşkilati məsələlərlə bağlı ev sahibliyi edən ölkə ilə sıx əməkdaşlıq etməklə İslam Sammitinin və Xarici İşlər Nazirləri Şurasının iclasları üçün hazırlıq görür.

Maddə 21

Baş Katibliyin qərargahı, Qüds şəhəri azad edilənədək Ciddə şəhərində yerləşəcəkdir. Bundan sonra Qüds şəhəri Təşkilatın daimi qərargahı olacaqdır.

XII fəsil

Maddə 22

Təşkilat Nizamnaməyə uyğun olaraq Xarici İşlər Nazirləri Şurasının təsdiqindən sonra köməkçi orqanlar, ixtisaslaşmış qurumlar yarada və filial statusu verə bilər.

KÖMƏKÇİ ORQANLAR

Maddə 23

Köməkçi orqanlar İslam Sammiti və Xarici İşlər Nazirləri Şurasının qərarlarına uyğun olaraq Təşkilat çərçivəsində yaradılır və onların büdcəsi Xarici İşlər Nazirləri Şurası tərəfindən təsdiq edilir.

XIII fəsil

İXTİSASLAŞMIŞ QURUMLAR

Maddə 24

Təşkilatın ixtisaslaşmış qurumları İslam Sammitinin və ya Xarici İşlər Nazirləri Şurasının qərarlarına müvafiq olaraq Təşkilat çərçivəsində yaradılır. İxtisaslaşmış qurumlara üzvlük könüllüdür və Təşkilatın üzvləri üçün açıqdır. Onların büdcələri müstəqildir və Nizamnamələrində göstərilən müvafiq qanunverici orqan tərəfindən təsdiq edilir.

FİLİALLAR

Maddə 25

Filiallar, məqsədləri bu Nizamnaməyə uyğun olan və Xarici İşlər Nazirləri Şurası tərəfindən filial kimi tanınan müəssisə və orqanlardır. Filiallara üzvlük könüllüdür və Üzv Dövlətlərin orqan və təsisatları üçün açıqdır. Onların büdcəsi Baş Katibliyin, Köməkçi orqanların və ixtisaslaşmış qurumların büdcəsindən asılı deyil. Xarici İşlər Nazirləri Şurasının qətnaməsi vasitəsilə bu filiallara müşahidəçi statusu verilə bilər. Onlar köməkçi orqanlardan və ya ixtisaslaşmış qurumlardan, eləcə də Üzv Dövlətlərdən yardım ala bilərlər.

XIV fəsil

İSLAM TƏŞKİLATLARI VƏ DİGƏR TƏŞKİLATLARLA ƏMƏKDAŞLIQ

Maddə 26

Təşkilat bu Nizamnamədə göstərilən məqsədlərin yerinə yetirilməsi üçün İslam təşkilatlan və digər təşkilatlarla əməkdaşlığı genişləndirir.

XV fəsil

MÜBAHİSƏLƏRİN DİNC YOLLA HƏLLİ

Maddə 27

İslam dünyasının maraqlarına xələl gətirən və beynəlxalq təhlükəsizliyi, sülhü təhdid edən mübahisənin tərəfləri olan Üzv Dövlətlər öz seçimləri əsasında xeyirxah xidmət, danışıqlar, araşdırma, vasitəçilik, barışıq, arbitraj, məhkəmə qaydasında tənzimləmə və ya digər dinc vasitələrlə bu mübahisənin həllinə çalışırlar. Bu kontekstdə xeyirxah xidmətlərə İcraiyyə Komitəsi və Baş katiblə məsləhətləşmələr aid ola bilər.

Maddə 28

Təşkilat beynəlxalq sülh və təhlükəsizliyi qoruyub saxlamaq və mübahisələri dinc yolla həll etmək üçün digər beynəlxalq və regional təşkilatlarla əməkdaşlıq edə bilər.

XVI fəsil

BÜDCƏ VƏ MALİYYƏ

Maddə 29

1. Baş Katibliyin və Köməkçi orqanların büdcəsi Üzv Dövlətlər tərəfindən, onların milli gəlirlərinə müvafiq olaraq formalaşdırılır.

2. Təşkilat İslam Sammiti və Xarici İşlər Nazirləri Şurasının razılığı ilə Üzv Dövlətlərin, ayrı-ayrı şəxslərin və təşkilatların könüllü surətdə verdiyi ianə hesabına xüsusi fond və vəqflər yarada bilər. Bu fond və vəqflər Təşkilatın maliyyə sisteminə aiddir və ildə bir dəfə Maliyyə Nəzarəti Orqanı tərəfindən təftiş edilir.

Maddə 30

Baş Katiblik və Köməkçi orqanlar öz maliyyə işlərini Xarici İşlər Nazirləri Şurası tərəfindən təsdiq edilmiş Maliyyə Prosedur Qaydalarına müvafiq olaraq idarə edir.

Maddə 31

1. Daimi Maliyyə Komitəsi Xarici İşlər Nazirləri Şurası tərəfindən, iştirak edən Üzv Dövlətlərin akkreditə olunmuş nümayəndələrindən yaradılır və Komitə Baş Katibliyin və onun Köməkçi orqanlarının proqram və büdcəsini Xarici İşlər Nazirləri Şurası tərəfindən təsdiq edilmiş qaydalara müvafiq olaraq tərtib etmək üçün Təşkilatın Qərargahında toplanır.

2. Daimi Maliyyə Komitəsi Xarici İşlər Nazirləri Şurasına illik hesabat təqdim edir və sonuncu proqramı, büdcəni müzakirə və təsdiq edir.

3. Üzv Dövlətlərin maliyyə/audit ekspertlərindən ibarət Maliyyə Nəzarəti Orqanı Baş

Katibliyin və onun Köməkçi orqanlarının daxili qaydalarına və əsasnamələrinə uyğun olaraq onları təftiş edir.

XVII fəsil

PROSEDUR QAYDALARI VƏ SƏSVERMƏ

Maddə 32

1. Xarici İşlər Nazirləri Şurası öz prosedur qaydalarını qəbul edir.

2. Xarici İşlər Nazirləri Şurası İslam Sammitinin prosedur qaydalarını təklif edir.

3. Daimi Komitələr öz prosedur qaydalarını müəyyən edirlər.

Maddə 33

1. İslam Konfransı Təşkilatının iclasları üçün Üzv Dövlətlərin üçdə ikisi yetərsay təşkil edir.

2. Qərarlar konsensus əsasında qəbul edilir. Konsensus olmazsa və Nizamnamədə başqa cür müəyyən edilməyibsə, qərar iştirak edən və səs verən üzvlərin üçdə iki səs çoxluğu ilə qəbul edilir.

XVIII fəsil

YEKUN MÜDDƏALAR

İmtiyaz və immunitetlər

Maddə 34

1. Təşkilat vəzifələrini yerinə yetirmək və məqsədlərini həyata keçirmək üçün Üzv Dövlətlərdə zəruri imtiyaz və immunitetlərə malikdir.

2. Üzv Dövlətlərin nümayəndələri və Təşkilatın rəsmiləri İmtiyaz və immunitetlər haqqında 1976-cı il tarixli Sazişdə müəyyənləşdirilmiş imtiyaz və immunitetlərə malikdirlər.

3. Baş Katibliyin, Köməkçi orqanların və ixtisaslaşmış qurumların heyəti öz vəzifələrini yerinə yetirmək üçün Təşkilatla ev sahibliyi edən ölkələr arasında razılaşdırılan imtiyaz və immunitetlərə malikdirlər.

4. Təşkilata üzvlük haqqını vaxtında ödəyə bilməyən Üzv Dövlətin borcunun məbləği əvvəlki iki ilin üzvlük haqqına bərabər olarsa və ya bu məbləği aşarsa, Üzv Dövlət Xarici İşlər Nazirləri Şurasında səs vermək hüququnu itirir. Bununla belə, Şura Üzv Dövlətin üzvlük haqqını ondan asılı olmayan səbəblərə görə ödəyə bilmədiyinə əmin olarsa, Üzv Dövlətə səs vermək üçün icazə verilir.

TƏŞKİLATDAN ÇIXMA

Maddə 35

1. İstənilən Üzv Dövlət Baş katibə bir il əvvəl bildiriş göndərməklə Təşkilatdan çıxa bilər. Belə bildiriş barədə bütün Üzv Dövlətlərə məlumat verilir.

2. üçün müraciət edən Dövlət çıxma haqqında müraciətin təqdim edildiyi maliyyə ilinin

sonunadək öz öhdəliklərinə bağlı olur. O, həmçinin Təşkilata borclu olduğu digər haqları ödəyir.

DÜZƏLİŞLƏR

Maddə 36

a) Bu Nizamnaməyə düzəlişlər aşağıdakı prosedura uyğun olaraq edilir:

istənilən Üzv Dövlət bu Nizamnaməyə düzəliş edilməsi ilə bağlı Xarici İşlər Nazirləri Şurasına təklif verə bilər;

b) düzəliş Xarici İşlər Nazirləri Şurasının üçdə iki hissəsi tərəfindən təsdiq edildikdə və Üzv Dövlətlərin üçdə ikisi tərəfindən ratifikasiya edildiyi təqdirdə qüvvəyə minir.

TƏFSİR

Maddə 37

1. Bu Nizamnamənin istənilən maddəsinin təfsiri, tətbiqi və ya icrası ilə bağlı yaranan istənilən mübahisə dostcasına və bütün hallarda məsləhətləşmələr, danışıqlar, barışıq və ya arbitraj yolu ilə həll edilir.

2. Bu Nizamnamənin müddəaları Üzv Dövlətlərin konstitusiyalarının tələblərinə uyğun yerinə yetirilir.

Maddə 38

Təşkilatın dilləri ərəb, fransız və ingilis dilləridir.

KEÇİD MÜDDƏALARI

Ratifikasiya və qüvvəyəminmə

Maddə 39

1. Bu Nizamnamə Xarici İşlər Nazirləri Şurası tərəfindən üçdə iki səs çoxluğu ilə qəbul edilir və hər bir Üzv Dövlətin konstitusiya prosedurlarına müvafiq olaraq Üzv Dövlətlər tərəfindən imzalanmaq və ratifikasiya edilmək üçün açıqdır.

2. Təsdiqnamələr saxlanılmaq üçün Təşkilatın Baş katibinə verilir.

3. Bu Nizamnamə Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin 102-ci maddəsinə müvafiq olaraq 1 fevral 1974-cü il tarixində qeydiyyatdan keçirilmiş İslam Konfransı Təşkilatı Nizamnaməsini əvəz edir.

2008-ci il martın 14-də Dakar şəhərində (Seneqal Respublikası) imzalanmışdır.

"Azərbaycan Respublikası Hökuməti və Türkdilli Ölkələrin Parlament Assambleyasının Katibliyi (TürkPA Katibliyi) arasında yerləşmə haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Azərbaycan Respublikası Hökuməti və Türkdilli Ölkələrin Parlament Assambleyasının Katibliyi (TürkPA Katibliyi) arasında yerləşmə haqqında" 2010-cu il martın 30-da

Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 aprel 2010-cu il

№ 990-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Türkdilli Ölkələrin Parlament Assambleyasının Katibliyi (TürkPA Katibliyi) arasında yerləşmə haqqında Saziş

Preambula

Azərbaycan Respublikası Hökuməti və Türkdilli Ölkələrin Parlament Assambleyasının Katibliyi,

21 noyabr 2008-ci il tarixində İstanbul şəhərində imzalanmış Türkdilli Ölkələrin Parlament Assambleyası (TürkPA) haqqında Sazişi və 29 sentyabr 2009-cu il tarixində Bakı şəhərində Türkdilli Ölkələrin Parlament Assambleyasının Plenar iclasında qəbul edilmiş Türkdilli Ölkələrin Parlament Assambleyasının Reqlamentini nəzərə alaraq, 29 sentyabr 2009-cu il tarixində Bakı şəhərində keçirilmiş Türkdilli Ölkələrin Parlament Assambleyasının Plenar iclasında qəbul edilmiş Türkdilli Ölkələrin Parlament Assambleyasının Katibliyi haqqında Əsasnamənin 7-ci maddəsində qeyd olunduğu kimi, Katibliyin daimi əsasda Azərbaycan Respublikasında, Bakı şəhərində yerləşməsini nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Anlayışlar

1.1. Bu Sazişin məqsədləri üçün:

"Hökumət" - Azərbaycan Respublikasının Hökuməti;

"Katiblik" - Türkdilli Ölkələrin Parlament Assambleyasının Katibliyi;

"TürkPA" - 21 noyabr 2008-ci il tarixində İstanbul şəhərində imzalanmış Türkdilli Ölkələrin Parlament Assambleyası (TürkPA) haqqında Sazişə əsasən təsis edilmiş Türkdilli Ölkələrin Parlament Assambleyası;

"Saziş" - Hökumət və Katiblik arasındakı bu Saziş;

"Tərəflər" - bu Sazişin tərəfləri olan Hökumət və Katiblik;

"Baş katib" - Katibliyin Baş katibi;

"Katibliyin heyət üzvlərinin ailə üzvləri" - Katibliyin heyət üzvünün onunla birgə yaşayan həyat yoldaşı və yetkinlik yaşına çatmamış uşaqlar;

"Müvafiq icra hakimiyyəti orqanları" - Azərbaycan Respublikasının səlahiyyətli dövlət qurumları;

"Katibliyin binası" - Azərbaycan Respublikasında Katibliyin sərəncamında olan və ya Katiblik tərəfindən icarəyə götürülən, saxlanılan və ya istifadə edilən və Hökumətə bu barədə məlumat verilən yerləşmə yeri, o cümlədən bina mənasını ifadə edir.

Maddə 2

Sazişin məqsədləri

2.1. Bu Sazişin məqsədi Türkdilli Ölkələrin Parlament Assambleyasının Katibliyi haqqında Əsasnaməyə uyğun olaraq TürkPA Katibliyinin funksiya və vəzifələrini səmərəli şəkildə həyata keçirməsi üçün imkanlar yaradılmasından ibarətdir.

Maddə 3

Katibliyin statusu və hüquqları

3.1. Katiblik Azərbaycan Respublikasında, Bakı şəhərində yerləşir və hüquqi şəxs statusuna malikdir. Katiblik Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq müqavilə bağlamaq, daşınar və daşınmaz əmlak icarəyə götürmək, əldə etmək, ondan istifadə etmək, onun barəsində sərəncam vermək və Azərbaycan Respublikası məhkəmələrinə müraciət etmək hüququna malikdir.

3.2. Katiblik məqsədlərini həyata keçirmək məqsədilə istənilən növ valyuta sahibi ola bilər və istənilən valyuta ilə bank hesabları aça bilər.

Maddə 4

Katibliyin heyəti, immunitet və imtiyazlar

4.1. Katiblik, eləcə də Katibliyin heyət üzvləri və onların ailə üzvləri (Azərbaycan Respublikası vətəndaşları və ya Azərbaycan Respublikasında daimi yaşayan şəxslər istisna olmaqla) 1961-ci il tarixli Diplomatik əlaqələr haqqında Vyana Konvensiyasına uyğun olaraq, Azərbaycan Respublikası ərazisində yerləşən diplomatik nümayəndəliklərə və diplomatik nümayəndəliklərin heyət üzvlərinə, eləcə də onların ailə üzvlərinə verilən eyni hüquqlara və statusa, immunitet və imtiyazlara malikdirlər.

4.2. Baş katib və onun müavinləri Azərbaycan Respublikasının vətəndaşı və ya Azərbaycan Respublikasında daimi yaşayan şəxs olduğu təqdirdə, yalnız xidməti funksiyalarını icra edərkən həyata keçirdiyi rəsmi fəaliyyətə münasibətdə yurisdiksiyadan immunitetə və toxunulmazlığa malikdir.

4.3. Katibliyin heyət üzvləri və onların ailə üzvləri (katibliyin heyət üzvlərinin Azərbaycan Respublikası vətəndaşı olan ailə üzvləri istisna olmaqla) Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində akkreditə olunurlar. Katibliyin heyət üzvlərinin sayı yerləşmə dövləti ilə razılaşdırılmaqla məntiqi və normal hədlərdə müəyyənləşdirilir.

4.4. Katibliyin rəsmi istifadəsi üçün idxal və ya ixrac olunan mallar müvəqqəti idxal (ixrac) gömrük rejiminə uyğun olaraq gömrük vergi və rüsumlarından azad olunur.

4.5. Müvafiq hakimiyyət orqanları öz vəzifə səlahiyyətlərini yerinə yetirmək üçün Katibliyin binasına yalnız Baş katibin və ya onu əvəz edən şəxsin icazəsi əsasında daxil ola bilərlər.

4.6. Bu Sazişlə verilən imtiyaz və immunitetlər əlaqədar şəxslərin şəxsi mənfəəti üçün

deyil, Katiblik tərəfindən həvalə olunan funksiya və vəzifələrini maneəsiz həyata keçirmələri üçün verilir.

4.7. Katibliyin heyət üzvləri və onlarla birgə yaşayan ailə üzvləri Azərbaycan Respublikasının ərazisində olduqları müddət ərzində Azərbaycan Respublikasının qanunvericiliyinə hörmət və riayət edirlər.

4.8. Saziş əsasında Katibliyin heyət üzvlərinə verilmiş immunitet ədalət mühakiməsinə mane olarsa və ya ondan Katibliyin maraqlarına xələl gətirmədən imtina edilə bilərsə, Baş katib Katibliyin heyətinin istənilən üzvünün immunitetini ləğv etmək hüququna malikdir.

4.9. Saziş əsasında verilən imtiyaz və immunitetlərdən istifadə ilə bağlı fikir ayrılıqları yarandıqda, Tərəflər arasında məsləhətləşmələr keçirilir.

Maddə 5

Əmək fəaliyyəti ilə məşğulolma

5.1. Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə əsasən, Azərbaycan Respublikası ərazisində yaşayan TürkPA Katibliyinin Azərbaycan Respublikası vətəndaşı olmayan heyət üzvlərinin həyat yoldaşları və uşaqları əmək fəaliyyəti ilə məşğul ola bilərlər. Sazişin 4-cü maddəsində qeyd olunan immunitet və imtiyazlar TürkPA katibliyinin Azərbaycan Respublikası vətəndaşı olmayan heyət üzvlərinin həyat yoldaşlarının və uşaqlarının əmək fəaliyyəti ilə bağlı tətbiq edilmir.

Maddə 6

Kommunikasiya

6.1. Katiblik poçt, teleqram, habelə teleqraf aparatı, faksimil, elektron məktub, telefon və digər rabitə vasitələrinin quraşdırılması və istifadəsi, onlarla bağlı tariflər, ödənişlər, o cümlədən mətbuat və radioda xəbərlərin yayılmasına görə ödənişlərlə əlaqədar olaraq Hökumətin Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq digər beynəlxalq təşkilatlara rəsmi rabitə vasitələri ilə bağlı verdiyi imtiyazlara malikdir.

6.2. Katiblik mübadilə etdiyi konfidensial məlumatın Azərbaycan Respublikası qanunvericiliyinə uyğun surətdə qorunması üçün zəruri tədbirlər görmək və bu informasiyanı yaymamaq öhdəliyini daşıyır. Bu müddəa Saziş qüvvədən düşdükdən sonra da tətbiq edilir.

Maddə 7

Katibliyin bayrağı, gerbi və nişanı

7.1. Tərəflər başqa cür razılığa gəlməmişlərsə, Katiblik bayrağını və/və ya gerbini Katibliyin binasında, Baş katibə və ya onu əvəz edən şəxsə məxsus rəsmi nəqliyyat vasitəsində nümayiş etdirə bilər.

Maddə 8

Şəxsiyyətin müəyyən edilməsi

8.1. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Katibliyin heyət üzvlərinə və onların ailə üzvlərinə (Katibliyin heyət üzvlərinin Azərbaycan Respublikası vətəndaşı

olan ailə üzvləri istisna olmaqla) Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müvafiq vəsiqə verir.

8.2. Hökumətin səlahiyyətli vəzifəli şəxslərinin tələbi ilə bu maddənin 1-ci bəndində qeyd edilən şəxslər vəsiqələrini təqdim etməlidirlər.

8.3. Baş katib Katibliyin heyətində hər hansı dəyişiklik barədə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə məlumat verir və heyətin hər hansı üzvünün xidmətinin bitməsi zamanı onun vəsiqəsinin Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə dərhal müvafiq qaydada qaytarılmasını təmin edir.

Maddə 9

Əlavə və dəyişikliklər

9.1. Tərəflərin qarşılıqlı razılığı əsasında Sazişə onun ayrılmaz hissəsi olan və Sazişin 11-ci maddəsi ilə nəzərdə tutulan prosedura uyğun olaraq qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavələr və dəyişikliklər edilə bilər.

Maddə 10

Mübahisələrin həlli

10.1. Sazişin təfsiri və ya tətbiqi ilə əlaqədar istənilən fikir ayrılıqları tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

10.2. Baş katib bu Sazişin səmərəli şəkildə həyata keçirilməsini təmin etmək üçün Hökumətlə sıx əməkdaşlıq edəcəkdir.

Maddə 11

Qüvvəyəminmə və ləğvetmə

11.1. Bu Saziş, onun qüvvəyə minməsi üçün Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan müvafiq zəruri prosedurların yerinə yetirildiyi barədə yazılı bildirişin Katiblik tərəfindən alındığı tarixdən qüvvəyə minir.

11.2. İstənilən Tərəf digər Tərəfə Sazişi ləğv etmək niyyəti barədə müvafiq yazılı bildiriş göndərməklə Sazişi ləğv edə bilər. Saziş müvafiq yazılı bildirişin alınmasından bir il sonra qüvvədən düşəcəkdir.

Bu Saziş 30 mart 2010-cu il tarixində Bakı şəhərində, Azərbaycan və ingilis dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır. Bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	TÜRKDİLLİ ÖLKƏLƏRİN PARLAMENT ASSAMBLEYASININ KATİBLİYİ ADINDAN
(imza)	*(imza)*

Moskva və Bütün Rusiyanın Patriarxı Kirillin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dostluq əlaqələrinin inkişafındakı xidmətlərinə görə Moskva və Bütün Rusiyanın Patriarxı Kirill "Şərəf" ordeni

ilə təltif edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 aprel 2010-cu il

№ 870

Adil Abdulla Əl-Fəlahin "Dostluq" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası ilə Küveyt Dövləti arasında dostluq əlaqələrinin möhkəmləndirilməsində xidmətlərinə görə Adil Abdulla əl-Fəlah "Dostluq" ordeni ilə təltif edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 aprel 2010-cu il

№ 871

"Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyasının Stavropol diyarı Hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyasının Stavropol diyarı Hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Şamil oğlu Həsənova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Şamil oğlu Həsənova verilməsi barədə Rusiya Federasiyası tərəfinə müvafiq bildiriş göndərsin.

3. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyasının Stavropol diyarı Hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə" 2006-cı il 20 fevral tarixli 1324 nömrəli Sərəncamı qüvvədən düşmüş hesab edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 aprel 2010-cu il

№ 878

S.A. Salahlının Türkiyə Respublikasının İstanbul şəhərində Azərbaycan Respublikasının Baş konsulu və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Səyyad Adil oğlu Salahlı Türkiyə Respublikasının İstanbul şəhərində Azərbaycan Respublikasının Baş konsulu və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılsın.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 may 2010-cu il

№ 881

H.S. Zeynalovun Türkiyə Respublikasının Qars şəhərində Azərbaycan Respublikasının Baş konsulu vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Həsən Sultan oğlu Zeynalov Türkiyə Respublikasının Qars şəhərində Azərbaycan Respublikasının Baş konsulu vəzifəsindən geri çağırılsın.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 may 2010-cu il

№ 882

H.S. Zeynalovun Türkiyə Respublikasının İstanbul şəhərində Azərbaycan Respublikasının Baş konsulu təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Həsən Sultan oğlu Zeynalov Türkiyə Respublikasının İstanbul şəhərində Azərbaycan Respublikasının Baş konsulu təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 may 2010-cu il

№ 883

A.F. Süleymanovun İran İslam Respublikasının Təbriz şəhərində Azərbaycan Respublikasının Baş konsulu vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Ayxan Firudin oğlu Süleymanov İran İslam Respublikasının Təbriz şəhərində Azərbaycan Respublikasının Baş konsulu vəzifəsindən geri çağırılsın.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 may 2010-cu il

№ 886

A.F. Süleymanovun Türkiyə Respublikasının Qars şəhərində Azərbaycan Respublikasının Baş konsulu təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Ayxan Firudin oğlu Süleymanov Türkiyə Respublikasının Qars şəhərində Azərbaycan Respublikasının Baş konsulu təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 may 2010-cu il

№ 887

A.S. Şükürova Fövqəladə və Səlahiyyətli Səfir diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.1-ci maddəsini rəhbər tutaraq qərara alıram:

Ağasəlim Səmədağa oğlu Şükürova Fövqəladə və Səlahiyyətli Səfir diplomatik rütbəsi verilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 may 2010-cu il

№ 889

A.S. Şükürovun Azərbaycan Respublikasının Böyük Liviya Ərəb Sosialist Xalq Cəmahiriyyəsində Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Ağasəlim Səmədağa oğlu Şükürov Azərbaycan Respublikasının Böyük Liviya Ərəb Sosialist Xalq Cəmahiriyyəsində Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 may 2010-cu il

№ 890

Avropa Şurasının "İnsan alverinə qarşı mübarizə haqqında" Konvensiyasının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

Avropa Şurasının "İnsan alverinə qarşı mübarizə haqqında" 2005-ci il mayın 16-da Varşava şəhərində imzalanmış Konvensiyası Azərbaycan Respublikasının ona dair bəyanatları ilə təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 may 2010-cu il

№ 1002-IIIQ

AVROPA ŞURASI
Avropa Şurasının Müqavilələr Seriyası - №197

Avropa Şurasının İnsan alverinə qarşı mübarizə haqqında Konvensiyası

Varşava, *16.V.2005*

Avropa Şurasının üzvü olan dövlətlər və bu sənədi imzalayan digər dövlətlər,

Avropa Şurasının məqsədinin üzv dövlətlər arasında daha möhkəm birliyin əldə edilməsindən ibarət olduğunu nəzərə alaraq,

insan alverinin insan hüquqlarını, insanların ləyaqətini və toxunulmazlığını pozduğunu nəzərə alaraq,

insan alverinin qurbanların köləyə çevrilməsi ilə nəticələnə biləcəyini nəzərə alaraq,

insan alveri qurbanlarının hüquqlarına hörmətlə yanaşmanın, onların müdafiəsinin və insan alverinə qarşı mübarizə üzrə tədbirlərin başlıca vəzifələr olduğunu nəzərə alaraq,

insan alverinə qarşı bütün mübarizə tədbirlərinin və təşəbbüslərin həyata keçirilməsi zamanı heç bir ayrı-seçkiliyə yol verilməməsinin, gender bərabərliyi və uşaq hüquqlarının müdafiəsinin vacibliyini nəzərə alaraq,

Nazirlər Komitəsinin 112-ci (14-15 may 2003-cü il) və 114-cü (12-13 may 2004-cü il) sessiyalarında üzv dövlətlərin xarici işlər nazirləri tərəfindən qəbul olunan və Avropa Şurasını insan alverinə qarşı mübarizə tədbirlərini gücləndirməyə çağıran bəyanatların müddəalarını xatırladaraq,

İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsinə dair Konvensiyanı (1950) və onun protokollarını rəhbər tutaraq,

Nazirlər Komitəsinin Avropa Şurasının üzvü olan dövlətlərə ünvanladığı aşağıdakı tövsiyələri nəzərə alaraq:

Uşaqların və gənc yeniyetmələrin cinsi istismarına, pornoqrafiyasına, fahişəliyinə və onların alverinə dair R (91) 11 saylı Tövsiyə; Şahidlərə qarşı hədə-qorxu halları və müdafiə hüququna dair R (97) 13 saylı Tövsiyə; Cinsi istismar məqsədilə edilən insan alverinə qarşı mübarizə üzrə tədbirlərə dair R (2000) 11 saylı Tövsiyə; Uşaqların cinsi istismar hallarından müdafiə edilməsinə dair Rec (2001) 16 saylı Tövsiyə; Qadınların zorakılıqdan müdafiə edilməsinə dair Rec (2002) 5 saylı Tövsiyə;

Avropa Şurası Parlament Assambleyasının aşağıdakı tövsiyələrini nəzərə alaraq:

Avropa Şurasının üzvü olan dövlətlərdə qadın alveri və məcburi fahişəlik hallarına dair 1325 (1997) saylı Tövsiyə; Avropada qadınlara qarşı zorakılıq hallarına dair 1450 (2000) saylı Tövsiyə; Qadın alverinə qarşı kampaniyaya dair 1545 (2002) saylı Tövsiyə; Qadın alveri və fahişəliklə bağlı miqrasiyaya dair 1610 (2003) saylı Tövsiyə; Avropada insan orqanlarının alveri hallarına dair 1611 (2003) saylı Tövsiyə; Məişət köləliyi: köləlik, ev qulluqçuları və əcnəbi ilə miqrasiya məqsədilə nikah bağlamış qadınlarla bağlı 1663 (2004) saylı Tövsiyə,

Avropa İttifaqı Şurasının insan alverinə qarşı mübarizəyə dair 19 iyul 2002-ci il tarixli Çərçivə Qərarını, Avropa İttifaqı Şurasının qurbanlarının cinayət mühakiməsində iştirakına dair 15 mart 2001-ci il tarixli Çərçivə Qərarını və Avropa İttifaqı Şurasının insan alveri qurbanları olan və ya qanunsuz immiqrasiya fəaliyyətinin təsirinə məruz qalmış və səlahiyyətli, orqanlarla əməkdaşlıq edən üçüncü ölkə vətəndaşlarına yaşayış icazəsinin verilməsinə dair 29 aprel 2004-cü il tarixli Təlimatı rəhbər tutaraq,

Birləşmiş Millətlər Təşkilatının Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyasını və həmin Konvensiyaya aid İnsan alverinin və xüsusilə qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılmasına dair Protokolunu - bu sənədlərin təmin etdiyi müdafiə tədbirlərinin və müəyyən etdiyi standartların təkmilləşdirilməsi baxımından nəzərə alaraq,

insan alverinə qarşı mübarizə sahəsi ilə bağlı digər beynəlxalq hüquqi sənədlərin müddəalarını nəzərə alaraq,

insan alveri qurbanlarının hüquqlarının müdafiəsinə yönəlmiş hərtərəfli beynəlxalq hüquqi sənədin hazırlanmasına və xüsusi nəzarət mexanizminin yaradılmasına olan ehtiyacı nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Fəsil I

MƏQSƏDLƏR, ƏHATƏ DAİRƏSİ, QEYRİ-AYRI-SEÇKİLİK PRİNSİPİ VƏ ANLAYIŞLAR

Maddə 1. Konvensiyanın məqsədləri

1) Bu Konvensiyanın məqsədləri aşağıdakılardır:

a) gender bərabərliyini təmin etməklə insan alverinə qarşı mübarizə aparılması və onun qarşısının alınması;

b) insan alveri qurbanlarının hüquqlarının qorunması, qurbanların və şahidlərin müdafiə edilməsi üzrə hərtərəfli çərçivənin işlənib hazırlanması, gender bərabərliyini təmin etməklə qurbanlara və şahidlərə kömək göstərilməsi, habelə səmərəli istintaqın və mühakimənin təmin edilməsi;

c) insan alverinə qarşı mübarizəyə dair beynəlxalq əməkdaşlığın təşviq edilməsi.

2)Bu Konvensiyanın müddəalarının səmərəli şəkildə həyata keçirilməsini təmin etmək məqsədilə bu Konvensiya ilə xüsusi nəzarət mexanizmi təsis olunur.

Maddə 2. Əhatə dairəsi

Bu Konvensiya milli və ya transmilli səviyyədə olmasından, eləcə də mütəşəkkil cinayətkarlıqla əlaqəli olub-olmamasından asılı olmayaraq, insan alverinin bütün formalarına şamil edilir.

Maddə 3. Qeyri-ayrı-seçkilik prinsipi

Tərəflər bu Konvensiyanın müddəalarını, xüsusilə insan alveri qurbanlarının hüquqlarının qorunmasını və təşviq edilməsini, cins, irq, dərinin rəngi, dil, din, siyasi və ya digər düşüncə, milli və ya sosial mənşə, milli azlıqlarla bağlılıq, mülkiyyət, mənşə və digər əlamətlərə görə heç bir ayrı-seçkiliyə yol vermədən təmin edirlər.

Maddə 4. Anlayışlar

Bu Konvensiyanın məqsədləri üçün:

a) "İnsan alveri" dedikdə, hədə-qorxu və ya zor tətbiq etməklə, yaxud başqa cür məcbur etməklə, qaçırma, dələduzluq və ya aldatma yolu ilə, vəzifədən və ya şəxsin köməksiz vəziyyətindən sui-istifadə etməklə və yaxud pul və ya digər maddi vəsaitlər vermək və ya almaqla hər hansı bir şəxsdən onun himayəsində olan şəxs barəsində razılıq almaqla, şəxslərin istismar məqsədləri üçün cəlb edilməsi, daşınması, ötürülməsi, gizlədilməsi və ya qəbul edilməsi başa düşülür. İstismar dedikdə, ən azı, başqalarını məcburi fahişəliyə cəlbetmə və digər cinsi istismar formaları, məcburi əmək və ya xidmətlər, kölelik, daxili orqanların çıxarılması və buna bənzər əməllər nəzərdə tutulur;

b) "insan alveri" qurbanının bu maddənin (a) bəndində nəzərdə tutulan istismar üçün öz razılığının olması (a) bəndində göstərilən üsullardan hər hansı birinin tətbiq olunduğu təqdirdə nəzərə alınmır;

c) istismar məqsədilə uşaqların cəlb olunması, daşınması, ötürülməsi, gizlədilməsi və ya qəbul edilməsi, hətta bu maddənin (a) bəndində qeyd olunan üsullardan heç biri tətbiq olunmadığı təqdirdə belə "insan alveri" hesab olunur;

d) "uşaq" dedikdə on səkkiz yaşına çatmamış istənilən şəxs başa düşülür;

e) "qurban" dedikdə bu maddədə anlayışı verilmiş insan alverinə məruz qalan istənilən fiziki şəxs başa düşülür.

Fəsil II

CİNAYƏTİN QARŞISININ ALINMASI, ƏMƏKDAŞLIQ VƏ DİGƏR TƏDBİRLƏR

Maddə 5. İnsan alverinin qarşısının alınması

1. Hər bir Tərəf insan alverinin qarşısının alınmasına və ona qarşı mübarizəyə məsul olan aidiyyəti dövlət orqanları arasında milli səviyyədə əlaqələndirmənin yaradılması və ya gücləndirilməsi üçün tədbirlər görməlidir.

2. Hər bir Tərəf insan alverinin qarşısının alınması məqsədilə tədqiqat, informasiya, xüsusilə insan alverinə məruz qala biləcək şəxslər və insan alveri problemləri ilə məşğul olan mütəxəssislər üçün nəzərdə tutulmuş tədris və maarifləndirmə tədbirləri, sosial və iqtisadi təşəbbüslər və tədris proqramları vasitəsilə səmərəli siyasəti və proqramları hazırlamalı və/və ya gücləndirməlidir.

3. Hər bir Tərəf 2-ci bənddə göstərilən bütün fəaliyyət tədbirlərinin və proqramların təkmilləşdirilməsi, icrası və qiymətləndirilməsi zamanı insan hüquqlarına əsaslanan, gender tendensiyasını əsas götürən və uşaqların maraqlarını nəzərə alan yanaşma tərzinin nümayiş etdirilməsini təşviq etməlidir.

4. Hər bir Tərəf miqrasiyanın qanunauyğun şəkildə həyata keçirilməsi üçün zəruri ola biləcək tədbirləri, xüsusilə də qanuni şəkildə ölkəyə daxil olmağa və burada qalmağa imkan verən şərtlər barədə məlumatların aidiyyəti orqanlar tərəfindən yayılması istiqamətində tədbirlər görməlidir.

5. Hər bir Tərəf uşaqlar üçün təhlükəsiz mühit yaratmaqla, onların insan alveri qurbanına çevrilmək ehtimalının azaldılması üçün xüsusi tədbirlər görməlidir.

6. Bu maddənin müddəalarına uyğun olaraq təşkil olunmuş tədbirlərə, lazım gəldikdə, qeyri-hökumət təşkilatları, digər əlaqədar təşkilatlar və insan alverinin qarşısının alınması, qurbanların müdafiəsi və onlara yardım işlərində iştirak edən vətəndaş cəmiyyətinin digər elementləri də cəlb olunmalıdır.

Maddə 6. Tələbatı aradan qaldırmaq üçün görülən tədbirlər

İnsan alverinə səbəb olan bütün istismar növlərinə və xüsusilə də qadın və uşaqların istismarına şərait yaradan tələbatı aradan qaldırmaq üçün hər bir Tərəf hüquqi, inzibati, maarifləndirmə, sosial, mədəni və aşağıda göstərilənlər də daxil olmaqla digər tədbirləri həyata keçirməli və gücləndirməlidir:

a) qabaqcıl təcrübələr, metodlar və strategiyalar üzrə tədqiqatların aparılması;

b) insan alverinin köklü səbəblərindən biri kimi tələbatın müəyyənləşdirilməsi prosesində kütləvi informasiya vasitələrinin və vətəndaş cəmiyyətinin mühüm rolu və məsuliyyəti barədə məlumatlılığın artırılması;

c) lazım gəldikdə, dövlət orqanlarını və həmçinin yüksək səviyyəli şəxsləri də əhatə edən məqsədyönlü informasiya kampaniyası;

d) oğlanlar və qızlar üçün məktəblərdə cinsi ayrı-seçkiliyin yolverilməzliyini, belə ayrı-seçkiliyin qorxulu nəticələrini, gender bərabərliyinin, eləcə də hər bir insanın şərəf və ləyaqətinin toxunulmazlığının vacibliyini xüsusilə vurğulayan tədris proqramları da daxil olmaqla, qabaqlayıcı tədbirlərin həyata keçirilməsi.

Maddə 7. Sərhəd nəzarəti tədbirləri

1. Şəxslərin sərbəst şəkildə hərəkətinə dair beynəlxalq öhdəlikləri pozmadan, Tərəflər insan alveri hallarının aşkarlanması və qarşısının alınması üçün gərəkli ola biləcək sərhəd nəzarəti tədbirlərini mümkün qədər gücləndirməlidirlər.

2. Hər bir Tərəf kommersiya daşıyıcıları tərəfindən idarə olunan nəqliyyat vasitələrinin bu Konvensiya ilə müəyyən olunmuş cinayət məqsədləri üçün istifadə edilməsinin qarşısının alınması məqsədilə qanunvericiliyi qəbul etməli və digər müvafiq tədbirləri həyata keçirməlidir.

3. Müvafiq hallarda və tətbiq olunan beynəlxalq konvensiyaların müddəalarını məhdudlaşdırmadan, bu növ tədbirlər sırasına kommersiya daşıyıcıları, o cümlədən istənilən nəqliyyat şirkəti və yaxud hər hansı nəqliyyat vasitəsinin sahibi və ya operatoru üçün bütün sərnişinlərin qəbul edən ölkəyə daxil olmaları üçün tələb olunan yol sənədlərinə malik olmalarına əmin olmaq öhdəliyinin müəyyən edilməsi də daxil edilir.

4. Hər bir Tərəf öz daxili qanunvericiliyinə uyğun olaraq, bu maddənin 3-cü bəndində göstərilən öhdəliklərin pozulmasına görə sanksiyaların müəyyən edilməsi üçün lazımi tədbirlər görməlidir.

5. Hər bir Tərəf öz daxili qanunvericiliyinə uyğun olaraq, bu Konvensiyanın müddəaları ilə müəyyən edilmiş cinayətlərin törədilməsinə cəlb edilmiş şəxslərin vizalarının ləğv edilməsinə və ya onların ölkəyə buraxılmasından imtina edilməsinə icazə verilməsi üçün zəruri olan qanunvericiliyi qəbul etməli və digər müvafiq tədbirləri həyata keçirməlidir.

6. Tərəflər birbaşa əlaqə kanalları yaratmaqla və saxlamaqla sərhəd nəzarəti orqanları arasındakı əməkdaşlığı gücləndirməlidirlər.

Maddə 8. Sənədlərin təhlükəsizliyi və onlara nəzarət

Hər bir Tərəf:

a) verdiyi yol və şəxsiyyəti təsdiq edən sənədlərin sui-istifadə, saxtalaşdırılma və yaxud qeyri-qanuni olaraq əvəzlənmə, dublikatlaşdırılma və nəşr edilməni maksimum çətinləşdirəcək keyfiyyətə malik olmasını təmin etməli; və

b) Tərəfin verdiyi və ya onun adından verilən yol və şəxsiyyəti təsdiq edən sənədlərin etibarlılığının və təhlükəsizliyinin təmin edilməsi və onların qeyri-qanuni hazırlanmasının və nəşrinin qarşısının alınması üçün vacib olan tədbirləri həyata keçirməlidir.

Maddə 9. Sənədlərin qanuniliyi və etibarlılığı

Hər bir Tərəf digər Tərəfin müraciətinə əsasən, öz daxili qanunvericiliyinə müvafiq olaraq, onun adından verilmiş və ya verildiyi güman edilən və insan alverində istifadə

edildiyi ehtimal olunan yol və şəxsiyyəti təsdiq edən sənədlərin qanuniliyini və etibarlılığını ağlabatan müddət ərzində yoxlamalıdır.

Fəsil III

GENDER BƏRABƏRLİYİ TƏMİN OLUNMAQLA İNSAN ALVERİ QURBANLARININ HÜQUQLARININ MÜDAFİƏSİ VƏ TƏŞVİQ EDİLMƏSİ ÜZRƏ TƏDBİRLƏR

Maddə 10. İnsan alveri qurbanlarının müəyyən edilməsi

1. Hər bir Tərəf insan alverinin qarşısının alınması və onunla mübarizə, uşaqlar da daxil olmaqla insan alveri qurbanlarının müəyyən edilməsi və onlara yardım göstərilməsi sahəsində müvafiq təlim keçmiş və ixtisaslaşmış şəxslərin öz səlahiyyətli orqanlarına təyin edilməsini təmin etməli və qadın və uşaq alveri qurbanlarının onların xüsusi vəziyyətini nəzərə alan prosedurla müəyyən edilməsi və lazım gəldikdə, onlara bu Konvensiyanın 14-cü maddəsinin müddəalarına əsasən ölkə ərazisində yaşayış icazəsi verilməsi üçün aidiyyəti orqanların bir-biri ilə və həmçinin əlaqədar yardımçı təşkilatlarla əməkdaşlıq etməsini təmin etməlidir.

2. Hər bir Tərəf, lazım gəldikdə, digər Tərəflər və əlaqədar yardımçı təşkilatlarla birgə əməkdaşlıq etməklə insan alveri qurbanlarının müəyyən olunması üçün vacib olan qanunvericilik və digər növ tədbirləri görməlidir. Əgər aidiyyəti səlahiyyətli orqanlarda hər hansı bir şəxsin insan alveri qurbanı olmasına əmin olmaq üçün əsaslar olarsa, o zaman hər bir Tərəf həmin şəxsin, bu Konvensiyanın 18-ci maddəsinə müvafiq olaraq həyata keçirilən insan alveri qurbanının müəyyənləşdirilməsi prosesi aidiyyəti orqanlar tərəfindən başa çatdırılmayana qədər öz ərazisindən çıxarılmamasını, habelə həmin şəxsə 12-ci maddənin 1-ci və 2-ci bəndlərində göstərilən qaydada yardım göstərilməsini təmin etməlidir.

3. İnsan alveri qurbanının yaşı məlum olmadıqda və onun uşaq ola biləcəyi ilə əlaqədar müəyyən əsaslar olduqda, onun uşaq olması ehtimal olunmalı və onun yaşı müəyyən olunanadək ona münasibətdə xüsusi mühafizə tədbirləri görülməlidir.

4. Müşayiət edilməyən hər hansı uşağın insan alveri qurbanı olması müəyyən edildiyi andan hər bir Tərəf aşağıdakı tədbirləri həyata keçirir:

a) uşağın, onun mənafeyinə uyğun şəkildə çıxış edəcək qəyyum, təşkilat və ya səlahiyyətli orqan tərəfindən təmsil olunmasını təmin etmək;

b) onun şəxsiyyətini və milli mənsubiyyətini müəyyənləşdirmək üçün zəruri addımlar atmaq;

c) uşağın mənafeyinə uyğun olduğu təqdirdə, onun ailəsinin olduğu yeri müəyyənləşdirmək üçün bütün lazımi tədbirləri görmək.

Maddə 11. Şəxsi həyatın mühafizəsi

1. Hər bir Tərəf insan alveri qurbanının şəxsiyyətini və şəxsi həyatını mühafizə etməlidir. Onlar barəsində olan şəxsi məlumatlar Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında Konvensiyanın (AMS № 108) şərtlərinə uyğun qaydada saxlanılmalı və istifadə edilməlidir.

2. Hər bir Tərəf, ailə üzvlərinin axtarılması və ya uşağın rifahının və təhlükəsizliyinin təmin olunması üçün lazım olan hallar istisna olmaqla, uşaq alverinin qurbanının şəxsiyyətinin və ya onun şəxsiyyətini müəyyənləşdirməyə imkan verən məlumatların kütləvi informasiya və digər vasitələrlə aşkarlanmasına və yayılmasına yol verilməməsini təmin etmək üçün tədbirlər görməlidir.

3. Hər bir Tərəf insan hüquqlarının və əsas azadlıqların müdafiəsinə dair Konvensiyanın 10-cu maddəsinə Avropa İnsan Hüquqları Məhkəməsi tərəfindən verilmiş şərhə uyğun olaraq, insan alveri qurbanlarının şəxsi həyatlarının və şəxsiyyətinin kütləvi informasiya vasitələri tərəfindən özünütənzimləmə, yaxud tənzimləmə və ya birgə tənzimləmə tədbirləri vasitəsilə müdafiə edilməsini həvəsləndirmək istiqamətində tədbirlərin görülməsi imkanlarını nəzərdən keçirməlidir.

Maddə 12. İnsan alveri qurbanlarına yardım

1. Hər bir Tərəf insan alveri qurbanlarının fiziki, psixoloji və sosial vəziyyətinin bərpasına yardım etmək üçün zəruri olan qanunvericilik və digər tədbirləri həyata keçirməlidir. Bu yardım ən azı aşağıdakıları ehtiva etməlidir:

a) müvafiq və təhlükəsiz mənzil təminatı, psixoloji və maddi dəstək və s. tədbirlər vasitəsilə onların mövcudluğunu təmin edə biləcək yaşayış şəraiti;

b) təcili tibbi müayinə imkanları;

c) tərcümə xidmətləri (lazım olan hallarda);

d) onların başa düşdükləri dildə, xüsusilə onların qanuni hüquqlarına və yararlana biləcəkləri xidmətlərə dair məsləhətlərin və məlumatların verilməsi;

e) onların hüquqlarının və mənafelərinin cinayətkarların mühakiməsi prosesinin müvafiq mərhələlərində təmsil olunmasına və nəzərə alınmasına yardım;

f) uşaqlar üçün təhsil imkanları.

2. Hər bir Tərəf insan alveri qurbanının təhlükəsizlik və mühafizə ehtiyaclarını nəzərə almalıdır.

3. Əlavə olaraq, hər bir Tərəf onun ərazisində qanuni şəkildə məskunlaşmış, müvafiq resursları olmayan və bu cür yardıma ehtiyacı olan insan alveri qurbanlarına lazımi tibbi və digər yardımlar göstərməlidir.

4. Hər bir Tərəf onun ərazisində qanuni şəkildə məskunlaşmış insan alveri qurbanlarına peşə təlimi, təhsil və əmək bazarına çıxış imkanı verəcək qaydalar qəbul etməlidir.

5. Hər bir Tərəf tələb olunan hallarda və öz daxili qanunvericiliyinə əsasən, insan alveri qurbanlarına yardım məsələləri ilə məşğul olan qeyri-hökumət təşkilatları, digər aidiyyəti təşkilatlarla və vətəndaş cəmiyyətinin digər elementləri ilə əməkdaşlıq etmək üçün tədbirlər görməlidir.

6. Hər bir Tərəf insan alveri qurbanlarına yardımların onların şahid qismində iştirak etmələri şərtilə göstərilməməsini təmin etmək üçün vacib olan qanunvericilik və digər tədbirləri görməlidir.

7. Bu maddədə qeyd olunan müddəaların yerinə yetirilməsi üçün, hər bir Tərəf xüsusilə

həssas vəziyyətdə olan şəxslərin və uşaqların mənzil, təhsil və müvafiq səhiyyə xidmətləri baxımından ehtiyaclarını və hüquqlarını nəzərə almaqla, xidmətlərin ümumi razılıq və məlumatlandırma əsasında göstərilməsini təmin etməlidir.

Maddə 13. Bərpa və fikirləşmə müddəti

1. Hər bir Tərəf öz daxili qanunvericiliyində, şəxsin insan alveri qurbanı olduğuna əmin olmaq üçün əsaslı səbəblər olduğu təqdirdə ona ən azı 30 günlük bərpa və fikirləşmə müddəti təmin etməlidir. Bu müddət həmin şəxsin öz vəziyyətini bərpa etməsi, cinayətkarların təsirindən yayınması və/və ya aidiyyəti dövlət qurumları ilə əməkdaşlıq etmək barədə düşünülmüş qərar qəbul etməsi üçün yetərli olmalıdır. Bu müddət ərzində həmin şəxsin ölkədən çıxarılmasına dair heç bir qərar qəbul edilə bilməz. Bu müddəa səlahiyyətli orqanlar tərəfindən müvafiq milli icraatın bütün mərhələlərində və xüsusilə məlum cinayət işlərinin istintaqı və araşdırılması zamanı tədbirlərin həyata keçirilməsini məhdudlaşdırmır. Həmin müddət ərzində Tərəflər müvafiq şəxslərin öz ərazilərində qalmalarına icazə verməlidirlər.

2. Bu müddət ərzində, bu maddənin 1-ci bəndində göstərilmiş şəxslərə 12-ci maddənin 1-ci və 2-ci bəndlərində nəzərdə tutulmuş bütün tədbirlər şamil edilməlidir.

3. İctimai təhlükəsizlik buna imkan vermədikdə və ya qurban statusuna əsassız olaraq iddia edildiyi aşkar olunduqda, Tərəflər bu müddətə riayət etmək öhdəliyi daşımırlar.

Maddə 14. Yaşayış üçün icazə

1. Hər bir Tərəf aşağıdakı hallardan biri və yaxud hər ikisi mövcud olduğu təqdirdə, insan alveri qurbanlarına yaşayış üçün təzələnən icazə verməlidir:

a) müvafiq səlahiyyətli orqan insan alveri qurbanlarının vəziyyətini nəzərə alaraq onların ölkə ərazisində qalmalarını zəruri hesab etdikdə;

b) müvafiq səlahiyyətli orqan cinayətin istintaqı və mühakiməsi ilə bağlı aidiyyəti orqanlarla əməkdaşlıq etmələri baxımından onların ölkə ərazisində qalmalarını vacib hesab etdikdə.

2. Hüquqi baxımdan zəruri olduğu təqdirdə, uşaq alveri qurbanlarına yaşayış icazəsi onların mənafeyinə uyğun olaraq verilir və lazım olduğu təqdirdə eyni şərtlərlə yenilənir.

3. Yaşayış icazəsinin yenilənməməsi və ya geri alınması Tərəfin daxili qanunvericiliyində nəzərdə tutulan şərtlər əsasında həyata keçirilir.

4. İnsan alveri qurbanı digər növ yaşayış icazəsi almaq üçün ərizə ilə müraciət etdikdə, müvafiq Tərəf həmin şəxsin həmin vaxt, yaxud əvvəllər 1-ci bəndin müddəalarına uyğun olan yaşayış icazəsinə malik olduğunu nəzərə almalıdır.

5. Bu Konvensiyanın 40-cı maddəsinin şamil edildiyi Tərəflərin öhdəliklərini nəzərə alaraq, hər bir Tərəf bu müddəaya uyğun olaraq yaşayış icazəsinin verilməsinin sığınacaq almaq və axtarmaq hüququnu məhdudlaşdırmamasını təmin etməlidir.

Maddə 15. Kompensasiya və məhkəmə təzminatı

1. Hər bir Tərəf, insan alveri qurbanlarının müvafiq səlahiyyətli orqanlarla əlaqədə olduqları ilk andan etibarən aidiyyəti məhkəmə və inzibati icraat məsələlərinə dair məlu-

matı anladıqları dildə ala bilmələrini təmin etməlidir.

2. Hər bir Tərəf öz daxili qanunvericiliyində insan alveri qurbanının hüquqi yardım və pulsuz hüquqi yardım almaq hüququnu təmin etməlidir.

3. Hər bir Tərəf öz daxili qanunvericiliyində insan alveri qurbanlarının cinayəti törətmiş şəxslərdən kompensasiya almaq hüququnu təmin etməlidir.

4. Hər bir Tərəf öz daxili qanunvericiliyinə uyğun olaraq insan alveri qurbanlarına 23-cü maddədə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsindən əldə olunmuş vəsaitlər hesabına maliyyələşdirilə bilən, insan alveri qurbanlarına kompensasiya ödənilməsi üçün fondların və ya onların sosial müdafiəsinə və sosial inteqrasiyasına yönəldilmiş proqram və tədbirlərin təşkil olunması vasitəsilə kompensasiya ödənilməsini təmin etmək üçün vacib olan qanunvericilik və digər tədbirləri həyata keçirməlidir.

Maddə 16. İnsan alveri qurbanlarının repatriasiyası və qaytarılması

1. İnsan alveri qurbanlarının mənsub olduğu və ya qəbul edən ölkə ərazisinə daxil olarkən ərazisində daimi yaşayış icazəsinə malik olduğu Tərəf həmin insan alveri qurbanının hüquqlarını, təhlükəsizliyini və ləyaqətini lazımi qaydada nəzərə almaqla, onun qayıtmasını əsassız və səbəbsiz ləngiməyə yol vermədən asanlaşdırmalı və qəbul etməlidir.

2. Hər hansı bir Tərəf insan alveri qurbanını digər Tərəfə qaytararkən, bu, həmin şəxsin hüquqları, təhlükəsizliyi, ləyaqəti və şəxsin insan alveri qurbanı olması faktı ilə bağlı istənilən hüquqi icraatın xarakteri lazımi qaydada nəzərə alınmaqla, əsasən könüllü surətdə həyat keçirilməlidir.

3. Qəbul edən Tərəfin müraciətinə əsasən, müraciət olunan Tərəf şəxsin onun vətəndaşı olub-olmadığını və ya qəbul edən Tərəfin ərazisinə daxil olan zaman onun ərazisində daimi yaşayış hüququna malik olub-olmadığını yoxlamalıdır.

4. Müvafiq sənədləri olmayan insan alveri qurbanının geri qaytarılmasını asanlaşdırmaq üçün həmin şəxsin vətəndaşı olduğu və ya qəbul edən Tərəfin ərazisinə daxil olarkən daimi yaşayış icazəsinə malik olduğu Tərəf, qəbul edən Tərəfin müraciətinə əsasən, həmin şəxsin onun ərazisinə səfər etməsinə və yenidən daxil olmasına şəraitin yaradılması üçün vacib olan yol sənədlərinin və digər rəsmi icazələrin verilməsinə razılıq verməlidir.

5. Hər bir Tərəf aidiyyəti milli və beynəlxalq institutlar və qeyri-hökumət təşkilatları ilə birgə repatriasiya proqramlarının təşkil olunması üçün vacib qanunvericilik və digər tədbirləri həyata keçirməlidir. Bu proqramların məqsədi insan alveri qurbanlarının yenidən cinayətin qurbanına çevrilməsinin qarşısını almaqdır. Hər bir Tərəf insan alveri qurbanlarının, xüsusilə onların peşə qabiliyyətinə yiyələnməsi və peşə qabiliyyətlərinin təkmilləşdirilməsi yolu ilə, qaytarıldıqları dövlətin cəmiyyətinə, həmçinin təhsil sisteminə və əmək bazarına yenidən inteqrasiya olunmaları üçün əlindən gələni əsirgəməməlidir. Uşaqlarla bağlı olaraq bu proqramlara təhsil hüququndan faydalanma imkanları, adekvat qayğının təmin olunması, ailələr və yaxud müvafiq qayğı göstərən strukturlar tərəfindən onların qəbul olunması tədbirləri daxil edilməlidir.

6. Hər bir Tərəf, lazım olan hallarda digər əlaqədar Tərəflə birgə insan alveri qurbanla-

rının qaytarıldıqları və ya repatriasiya edildikləri ölkədə onlara yardım edə biləcək hüquq mühafizə orqanları, qeyri-hökumət təşkilatları, müvafiq məsləhətləri verə biləcək hüquq müdafiəçiləri və sosial təminat agentlikləri kimi bir sıra strukturların əlaqə məlumatlarını əldə edə bilmələrini təmin etmək üçün müvafiq qanunvericilik və digər tədbirləri həyata keçirməlidir.

7. Riskin və təhlükəsizlik dərəcəsinin qiymətləndirilməsi nəticəsində uşaq alveri qurbanlarının geri qaytarılmasının onların mənafeyi baxımından məqsədəuyğun olmadığı müəyyən edildiyi təqdirdə, uşaq alveri qurbanları həmin dövlətə geri qaytarılmamalıdır.

Maddə 17. Gender bərabərliyi

Hər bir Tərəf bu fəsildə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi, təkmilləşdirilməsi və qiymətləndirilməsi zamanı gender bərabərliyini təşviq etməlidir.

Fəsil IV

MADDİ CİNAYƏT HÜQUQU

Maddə 18. İnsan alverinin cinayət hesab edilməsi

Hər bir Tərəf bu Konvensiyanın 4-cü maddəsində göstərilən hərəkətlər qəsdən törədildiyi təqdirdə, onların cinayət əməli kimi qəbul olunması üçün lazımi qanunvericilik və digər tədbirləri həyata keçirməlidir.

Maddə 19.

İnsan alveri qurbanlarının xidmətlərindən istifadə etmənin cinayət əməli hesab olunması

Hər bir Tərəf şəxsin insan alveri qurbanı olduğunu bilə-bilə onun, bu Konvensiyanın 4-cü maddəsinə uyğun olaraq istismar obyekti "hesab olunan xidmətlərindən istifadə etməyin öz daxili qanunvericiliyinə əsasən cinayət əməli kimi qiymətləndirilməsi üçün zəruri olan qanunvericilik və digər tədbirlərin həyata keçirilməsini nəzərdən keçirməlidir.

Maddə 20.

Yol və şəxsiyyəti təsdiq edən sənədlərlə bağlı qanunsuz hərəkətlərin cinayət əməli hesab olunması

Hər bir Tərəf qəsdən və insan alveri məqsədilə törədildikdə aşağıdakı əməllərin cinayət əməli hesab olunması üçün zəruri olan qanunvericilik və digər tədbirləri həyata keçirməlidir:

a) yol və şəxsiyyəti təsdiq edən sənədlərin saxtalaşdırılması;

b) bu növ sənədlərlə təmin və təchiz etmə;

c) hər hansı bir digər şəxsin yol və ya şəxsiyyətini təsdiq edən sənədlərini qanunsuz olaraq götürmək, saxlamaq, gizlətmək, zədələmək və ya məhv etmək.

Maddə 21. Cəhd, kömək və təhrik

1. Hər bir Tərəf bu Konvensiyanın 18-ci və 20-ci maddələrində təsbit olunmuş hər bir cinayətin törədilməsi məqsədilə qəsdən edilən köməyi və təhriki cinayət əməli kimi

təsbit etmək üçün bütün zəruri qanunvericilik və digər tədbirləri həyata keçirməlidir.

2. Hər bir Tərəf bu Konvensiyanın 18-ci maddəsinə və 20-ci maddənin "a" yarımbəndində təsbit olunmuş cinayətin törədilməsinə qəsdən edilən cəhdi cinayət əməli kimi təsbit etmək üçün bütün zəruri qanunvericilik və digər tədbirləri həyata keçirməlidir.

Maddə 22. Hüquqi şəxslərin məsuliyyəti

1. Hər bir Tərəf, hər hansı bir hüquqi şəxsin, onun maraqları naminə, tək başına və ya hüquqi şəxsin orqanı tərkibində fəaliyyət göstərərək və aşağıda göstərilən səlahiyyətlərə malik olan rəhbər vəzifəni həyata keçirən fiziki şəxs tərəfindən bu Konvensiyada göstərilmiş cinayətlərin törədilməsinə görə məsuliyyət daşımasının təmin edilməsi üçün vacib olan qanunvericilik və digər tədbirləri həyata keçirməlidir:

a) hüquqi şəxsi təmsil etmək səlahiyyətinə;

b) hüquqi şəxsin adından qərar qəbul etmək səlahiyyətinə;

c) hüquqi şəxsə nəzarəti həyata keçirmək səlahiyyətinə.

2. 1-ci bənddə nəzərdə tutulmuş hallarla yanaşı, hər bir Tərəf 1-ci bənddə göstərilən fiziki şəxs tərəfindən nəzarətin olmaması səbəbindən onun tabeliyi altında fəaliyyət göstərən hər hansı bir fiziki şəxsin, hüquqi şəxsin maraqları naminə, bu Konvensiyaya əsasən cinayət kimi qiymətləndirilən əməli törətdiyi təqdirdə hüquqi şəxsin cinayət məsuliyyətinə cəlb edilməsinin təmin olunması üçün vacib olan tədbirləri həyata keçirməlidir.

3. Tərəfin hüquq prinsiplərindən asılı olaraq, hüquqi şəxsin məsuliyyəti cinayət, mülki hüquqi və ya inzibati ola bilər.

4. Bu cür məsuliyyət cinayəti törətmiş olan fiziki şəxsin məsuliyyətini məhdudlaşdırmamalıdır.

Maddə 23. Sanksiyalar və tədbirlər

1. Hər bir Tərəf 18-21-ci maddələrə müvafiq olaraq cinayət kimi qəbul olunmuş əməllərin səmərəli, mütənasib və islahedici sanksiyalarla cəzalandırılması üçün zəruri olan qanunvericilik və digər tədbirləri həyata keçirməlidir. 18-ci maddəyə müvafiq olaraq cinayət kimi qəbul olunmuş və fiziki şəxs tərəfindən törədilmiş əməllərə görə tətbiq olunan bu cür sanksiyalara azadlıqdan məhrumetmə cəzası da daxil edilir və ekstradisiya ilə nəticələnə bilər.

2. Hər bir Tərəf 22-ci maddənin müddəalarına müvafiq olaraq məsuliyyətə cəlb olunmuş hüquqi şəxslər barəsində səmərəli, mütənasib və islahedici cinayət və ya qeyri-cinayət sanksiyaları, o cümlədən maliyyə xarakterli sanksiyalar və ya tədbirlər tətbiq etməlidir.

3. Hər bir Tərəf bu Konvensiyanın 18-ci maddəsinə və 20-ci maddənin "a" yarımbəndinə müvafiq olaraq cinayət kimi qəbul olunmuş əməllərin vasitə və vəsaitlərinin və ya dəyəri bu cür vəsaitə ekvivalent olan əmlakın müsadirə edilməsinə və ya digər yolla alınmasına imkan verən lazımi qanunvericilik və digər tədbirləri həyata keçirməlidir.

4. Hər bir Tərəf üçüncü tərəflərin hüquqlarını məhdudlaşdırmadan insan alverinin hə-

yata keçirilməsində istifadə olunan qurumların müvəqqəti və ya daimi olaraq bağlanılması və yaxud fəaliyyəti zamanı cinayət əməli törətmiş şəxsin bu fəaliyyətinin daimi və ya müvəqqəti olaraq qadağan olunması üçün lazımi qanunvericilik və digər tədbirləri həyata keçirməlidir.

Maddə 24. Ağırlaşdırıcı hallar

Hər bir Tərəf bu Konvensiyanın 18-ci maddəsinə müvafiq olaraq cinayət kimi qəbul edilmiş əməllərin törədilməsinə görə cəza tədbirlərinin müəyyən edilməsi zamanı aşağıdakı halların ağırlaşdırıcı hal kimi nəzərə alınmasını təmin etməlidir:

a) cinayət əməli qəsdən və ya ehtiyatsızlıq səbəbindən qurbanın həyatını təhlükə altında qoyduqda;

b) cinayət əməli uşağa qarşı törədildikdə;

c) cinayət əməli dövlət məmuru tərəfindən vəzifə səlahiyyətlərinin icrası zamanı törədildikdə;

d) cinayət əməli cinayətkar qrup çərçivəsində həyata keçirildikdə.

Maddə 25. Əvvəlki məhkumluq

Hər bir Tərəf cəza tədbirinin müəyyən edilməsi zamanı bu Konvensiyaya müvafiq olaraq cinayət kimi qəbul edilmiş əməllərilə əlaqədar digər bir Tərəfin çıxardığı yekun məhkəmə qərarlarının nəzərə alınmasına imkan verən qanunvericilik və digər tədbirlər həyata keçirməlidir.

Maddə 26. Cəzadan azad edilmə haqqında qeyd-şərt

Hər bir Tərəf öz hüquq sisteminin əsas prinsiplərinə uyğun olaraq, insan alveri qurbanlarının qanunsuz fəaliyyətlərə məcburən cəlb olunduqlarına görə cəzalandırılmamasının mümkünlüyünü təmin etməlidir.

Fəsil V

İSTİNTAQ, MÜHAKİMƏ VƏ PROSESSUAL HÜQUQ

Maddə 27. Qurbanların adından verilən və tutulan vəzifəyə görə verilən şikayətlər

1. Hər bir Tərəf, cinayətin qismən və ya bütünlüklə onun ərazisində törədildiyi təqdirdə, bu Konvensiyada təsbit olunan cinayət əməllərinin istintaqının və ya məhkəmə təqibinin insan alveri qurbanının verdiyi məlumatlar və ya irəli sürdüyü ittihamlar əsasında aparılmamasını təmin etməlidir.

2. Hər bir Tərəf insan alveri qurbanlarının rezidenti olduqları Tərəfdən başqa digər Tərəfin ərazisində olduqları halda rezidenti olduqları dövlətin səlahiyyətli orqanlarına şikayət ünvanlaya bilmələrini təmin etməlidir. Şikayətin ünvanlandığı səlahiyyətli orqan, özünün bu işlərə səlahiyyəti çatmadığı təqdirdə, həmin şikayət ərizəsini ləngimədən cinayət törədilən Tərəfin ölkəsindəki müvafiq səlahiyyətli orqana ötürməlidir. Bu cür şikayətə ərazisində cinayətin törədildiyi Tərəfin daxili qanunvericiliyinə müvafiq qaydada baxılmalıdır.

3. Hər bir Tərəf öz daxili qanunvericiliyinə müvafiq olaraq qanunvericilik və digər təd-

birlər vasitəsilə, bu Konvensiyanın 18-ci maddəsində göstərilən cinayət əməllərinin cinayət təqibi zamanı insan alverinə qarşı mübarizəni və ya insan hüquqlarının müdafiəsini öz qarşısına məqsəd qoymuş istənilən qrup, fond, assosiasiya və ya qeyri-hökumət təşkilatları tərəfindən insan alveri qurbanlarına, onların öz razılıqları əsasında yardım və/və ya dəstək göstərilməsinin mümkünlüyünü təmin etməlidir.

Maddə 28.

İnsan alveri qurbanlarının, şahidlərin və ədalət mühakiməsi orqanları ilə əməkdaşlıq edən şəxslərin müdafiəsi

1. Hər bir Tərəf cinayətkarların istintaqı və mühakimə olunması zamanı, eləcə də ondan sonra aşağıda göstərilənlərin qisas və ya hədə-qorxu hallarından səmərəli və lazımi müdafiəsinin təmin olunması üçün vacib olan qanunvericilik və digər tədbirləri həyata keçirməlidir:

a) insan alveri qurbanlarının;

b) müvafiq hallarda, bu Konvensiyanın 18-ci maddəsində göstərilən cinayət əməlləri barədə istintaq və məhkəmə orqanlarına məlumat verən və ya bu orqanlarla digər şəkildə əməkdaşlıq edən şəxslərin;

c) bu Konvensiyanın 18-ci maddəsində göstərilən cinayətlərlə əlaqədar ifadə verən şahidlərin;

d) zəruri hallarda, "a" və "c" yarımbəndlərində göstərilən şəxslərin ailə üzvlərinin.

2. Hər bir Tərəf müxtəlif növ mühafizə tədbirlərinin təklif edilməsi və təmin olunması üçün zəruri olan qanunvericilik və digər tədbirləri həyata keçirməlidir. Buraya fiziki müdafiə, yeni yaşayış yerinin təklif olunması, kimliyin dəyişdirilməsi və işlə təmin olunmaq üçün kömək aid ola bilər.

3. Uşaq alveri qurbanı xüsusi mühafizə tədbirləri ilə onun mənafeyi nəzərə alınmaqla təmin olunmalıdır.

4. Hər bir Tərəf cinayətkarların istintaqı və mühakiməsi zamanı və ondan sonra 27-ci maddənin 3-cü bəndində göstərilən fəaliyyətləri icra edən qrupların, fondların, şirkətlərin, yaxud qeyri-hökumət təşkilatlarının üzvlərini zərurət yarandığı təqdirdə, mümkün qisas və hədə-qorxu hallarından lazımi müdafiə ilə təmin etmək üçün vacib olan qanunvericilik və digər tədbirləri həyata keçirməlidir.

5. Hər bir Tərəf bu maddənin tətbiq olunması məqsədilə digər dövlətlərlə sazişlərin bağlanılmasının və razılıqların əldə olunmasının nəzərdən keçirməlidir.

Maddə 29. İxtisaslaşdırılmış orqanlar və əlaqələndirici strukturlar

1. Hər bir Tərəf şəxslərin və ya təşkilatların insan alverinə qarşı mübarizə və qurbanların müdafiəsi sahəsində ixtisaslaşdırılması üçün zəruri olan tədbirləri həyata keçirməlidir. Bu şəxslər və ya təşkilatlar öz vəzifələrini səmərəli şəkildə və heç bir əsassız təzyiqə məruz qalmadan icra edə bilmək üçün, Tərəfin hüquq sisteminin əsas prinsiplərinə uyğun şəkildə zəruri sərbəstliyə malik olmalıdırlar. Bu şəxslər və yaxud bu növ təşkilatların işçiləri öz vəzifələrini icra edə bilmək üçün adekvat təlimlər keçməli və adekvat

maliyyə resurslarına malik olmalıdırlar.

2. Hər bir Tərəf, zərurət yarandıqda, əlaqələndirici orqanların təsis edilməsi yolu ilə insan alverinə qarşı mübarizəni həyata keçirən hökumət və dövlət strukturlarının siyasətinin və fəaliyyətlərinin əlaqələndirilməsinin təmin olunması üçün zəruri olan tədbirləri həyata keçirməlidir.

3. Hər bir Tərəf insan alverinə qarşı mübarizə və onun qarşısının alınması üzrə əlaqədar vəzifəli şəxslər üçün müvafiq təlimlərin, o cümlədən insan hüquqları üzrə təlimlərin təmin edilməsini və ya gücləndirilməsini təşkil etməlidir. Bu təlimlər konkret strukturların spesifik xüsusiyyətini nəzərə ala bilər. Müvafiq hallarda belə təlimlərdə əsas diqqət insan alverinin qarşısının alınmasında istifadə olunan üsullara yiyələnmə, təqsirli şəxslərin mühakiməsi və insan alveri qurbanlarının hüquqlarının müdafiəsi, o cümlədən zərərçəkmişlərin insan alveri ilə məşğul olanlardan müdafiəsi məsələlərinə yönəlməlidir.

4. Hər bir Tərəf dövlət institutlarının insan alverinə qarşı mübarizə fəaliyyətlərinə və milli qanunvericiliyin tələblərinin yerinə yetirilməsinə nəzarət etmək üçün milli məruzəçilərin təyin olunmasını və yaxud digər mexanizmlərin işlənilib hazırlanmasını nəzərdən keçirməlidir.

Maddə 30. Məhkəmə prosesi

İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyaya və xüsusilə onun 6-cı maddəsinə müvafiq olaraq, hər bir Tərəf öz daxili qanunvericiliyinin müddəalarına uyğun olaraq məhkəmə prosesi zamanı:

a) zərərçəkmişlərin şəxsi həyatlarının və lazım gəldikdə, şəxsiyyətlərinin qorunmasının;

b) zərərçəkmişlərin təhlükəsizliyinin və onların hədə-qorxudan müdafiəsinin təmin olunması üçün (azyaşlı zərərçəkmişlərlə bağlı olan hallarda isə onların qayğısına qalmaq və xüsusi mühafizə hüquqlarını təmin etmək şərtilə) vacib olan qanunvericilik və digər tədbirləri həyata keçirməlidir.

Maddə 31. Yurisdiksiya

1. Hər bir Tərəf bu Konvensiyada göstərilən cinayət əməllərindən hər hansı biri:

a) onun ərazisində; və yaxud

b) həmin Tərəfin bayrağı altında üzən gəminin göyərtəsində; və yaxud

c) həmin Tərəfin qanunlarına müvafiq olaraq qeydiyyatdan keçirilmiş hava gemisinin göyərtəsində; və yaxud

d) onun vətəndaşı olan və ya onun ərazisində daimi yaşayan vətəndaşlığı olmayan şəxs tərəfindən (əgər əməl, törədildiyi yerin mövcud cinayət qanunvericiliyinə müvafiq olaraq cəzalandırılan əməldirsə və yaxud belə əməl hər hansı bir dövlətin ərazi yurisdiksiyası xaricində törədilmişdirsə); və yaxud

e) onun vətəndaşından birinə qarşı törədildikdə həmin cinayət üzrə yurisdiksiyanın təmin olunması üçün vacib olan qanunvericilik və digər tədbirləri həyata keçirməlidir.

2. Hər bir Tərəf imzalama zamanı və ya ratifikasiya, qəbul, təsdiq və qoşulma barəsində sənədini saxlanılmağa verərkən Avropa Şurasının Baş katibinə bəyanat ünvanlayaraq, bu maddənin 1-ci bəndinin (d) və (e) bəndlərində və digər bəndlərdə qeyd olunmuş yurisdiksiya qaydalarını tətbiq etməmək və yaxud yalnız xüsusi hallarda və ya xüsusi şərtlərlə tətbiq etmək hüququnu özündə saxladığını bəyan edə bilər.

3. Hər bir Tərəf ehtimal olunan cinayətkarın öz ərazisində olduğu zaman və yalnız onun vətəndaşlığı ilə əlaqədar digər Tərəfə ekstradisiya etmədiyi təqdirdə, ekstradisiya barədə müraciətdən sonra, bu Konvensiyada qeyd edilmiş cinayətlərlə əlaqədar öz yurisdiksiyasının təmin olunması üçün vacib olan tədbirləri həyata keçirməlidir.

4. Bu Konvensiyada göstərilən cinayətlərdən hər hansı birinin törədilməsi ilə bağlı iki və daha artıq Tərəf yurisdiksiya iddiası ilə çıxış edərsə, o zaman aidiyyəti Tərəflər mühakimə üçün ən uyğun yurisdiksiyanın müəyyən edilməsi üçün müzakirələr aparmalıdır.

5. Bu Konvensiya beynəlxalq hüququn əsas normalarına xələl gətirmədən hər hansı bir Tərəfin öz daxili qanunvericiliyinə müvafiq olaraq cinayət yurisdiksiyası həyata keçirməsini istisna etmir.

Fəsil VI

BEYNƏLXALQ ƏMƏKDAŞLIQ VƏ VƏTƏNDAŞ CƏMİYYƏTİ İLƏ ƏMƏKDAŞLIQ

Maddə 32. Beynəlxalq əməkdaşlığın başlıca meyarları və prinsipləri

Tərəflər bu Konvensiyanın müddəalarına uyğun olaraq və müvafiq beynəlxalq və regional sənədlər, daxili qanunvericilik və həmçinin ümumi və qarşılıqlı faydalı qanunvericilik aktları vasitəsilə əldə olunmuş razılaşmalar əsasında mümkün qədər geniş şəkildə, aşağıdakı məsələlərin həyata keçirilməsi məqsədilə əməkdaşlıq edəcəklər:

- insan alverinə qarşı mübarizə və onun qarşısının alınması;

- qurbanların müdafiəsi və onlara yardım;

- bu Konvensiyada nəzərdə tutulmuş cinayət əməllərinin istintaqı və ya mühakiməsi.

Maddə 33. Təhlükə qarşısında olan və itkin düşmüş şəxslərlə bağlı tədbirlər

1. Əgər hər hansı bir Tərəf özündə olan məlumatlara əsasən 28-ci maddənin 1-ci bəndində istinad olunan hər hansı bir şəxsin həyatının, azadlığının və ya fiziki toxunulmazlığının digər bir Tərəfin ərazisində birbaşa təhlükə altında olduğunu ehtimal etmək üçün əsaslı səbəblərə malik olarsa, o halda həmin məlumata malik olan Tərəf müvafiq müdafiə tədbirlərinin görülməsi üçün həmin məlumatı dərhal digər Tərəfə ötürməlidir.

2. Bu Konvensiyanın iştirakçısı olan Tərəflər itkin düşmüş şəxslərin və xüsusilə də uşaqların (əgər əldə olunan məlumatlar həmin şəxslərin insan alveri qurbanı olmalarını ehtimal etməyə əsas verirsə) axtarışı istiqamətində öz əməkdaşlıqlarını gücləndirməyi nəzərdən keçirə bilərlər. Bununla əlaqədar Tərəflər öz aralarında ikitərəfli və ya çoxtərəfli sazişlər imzalaya bilərlər.

Maddə 34. İnformasiya

1. Sorğu edilən Tərəf sorğu edən Tərəfi bu fəslin müddəalarına uyğun olaraq həyata keçirilmiş fəaliyyətlərin yekun nəticələri barədə dərhal məlumatlandırmalıdır. Sorğu edilən Tərəf, eyni zamanda, sorğu edən Tərəfi tələb olunan fəaliyyətlərin icrasını mümkünsüz edən və ya onun icrasını ləngidən hallar barədə də dərhal məlumatlandırmalıdır.

2. Hər bir Tərəf öz araşdırmaları nəticəsində əldə etdiyi məlumatları, əgər o, bu məlumatların aşkar olunmasının qəbul edən Tərəfin bu Konvensiyada göstərilən cinayət əməlləri ilə əlaqədar istintaq və ya məhkəmə icraatı başlatmasına və ya aparmasına kömək edə biləcəyini və ya həmin Tərəfin bu fəsil üzrə əməkdaşlıq etmək barədə müraciət etməsinə səbəb olacağını düşünürsə, öz daxili qanunvericiliyi çərçivəsində, əvvəlcədən heç bir sorğu gözləmədən, digər Tərəfə ötürə bilər.

3. Bu növ məlumat ötürülməzdən öncə, məlumatı ötürən Tərəf bu məlumatların məxfi saxlanılması və ya müəyyən şərtlərə uyğun olaraq istifadə olunmasını xahiş edə bilər. Əgər qəbul edən Tərəf bu xahişi yerinə yetirə bilməzsə, o, bu barədə məlumat ötürən Tərəfi məlumatlandırmalıdır. Həmin Tərəf də öz növbəsində bundan sonra məlumatı verib-verməyəcəyini müəyyən etməlidir. Əgər qəbul edən Tərəf məlumatları müəyyən şərtlər altında qəbul edərsə, o zaman o, bu şərtlər üzrə öhdəlik daşıyacaqdır.

4. 13-cü, 14-cü və 16-cı maddələrə dair müraciət olunan bütün məlumatlar, bu maddələrdə nəzərdə tutulan hüquqların təmin olunması şərtilə, müvafiq Tərəfin müraciəti əsasında bu Konvensiyanın 11-ci maddəsinə uyğun olaraq təxirə salınmadan həmin Tərəfə ötürülməlidir.

Maddə 35. Vətəndaş cəmiyyəti ilə əməkdaşlıq

Hər bir Tərəf bu Konvensiyanın məqsədlərinə nail olmaq üçün dövlət orqanlarını və dövlət rəsmilərini qeyri-hökumət təşkilatları, digər əlaqədar təşkilatlar və vətəndaş cəmiyyəti üzvləri ilə strateji tərəfdaşlığın yaradılması istiqamətində əməkdaşlıq etməyə həvəsləndirməlidir.

Fəsil VII

NƏZARƏT MEXANİZMİ

Maddə 36. İnsan alverinə qarşı fəaliyyət məsələləri üzrə ekspertlər qrupu

1. Bu Konvensiyanın yerinə yetirilməsinə nəzarəti İnsan alverinə qarşı fəaliyyət üzrə ekspertlər qrupu (bundan sonra "GRETA" adlandırılacaq) həyata keçirəcəkdir.

2. GRETA gender və coğrafi balans və həmçinin çoxsahəli peşə təcrübəsi nəzərə alınmaqla, minimum 10 və maksimum 15 nəfərdən ibarət olacaqdır. Onları Tərəflərin Komitəsi bu Konvensiyanın iştirakçısı olan dövlətlərin vətəndaşları arasından 4 il müddətinə seçəcəkdir. GRETA üzvlərinin bir dəfə təkrar seçilmək hüququ vardır.

3. GRETA üzvlərinin seçimi aşağıdakı prinsiplər əsasında həyata keçiriləcəkdir:

a) onlar yüksək əxlaqi keyfiyyətlərə malik olan, insan hüquqları, qurbanların müdafiəsi və onlara yardım və insan alverinə qarşı fəaliyyət sahəsindəki böyük səriştəsi ilə tanınan və ya bu Konvensiyanın əhatə etdiyi sahələr üzrə peşəkar təcrübəyə malik olan şəxslər arasından seçilirlər;

b) onlar vətəndaşı olduqları dövlətlərin adından yox, öz adlarından çıxış etməli, öz funksiyalarını yerinə yetirərkən müstəqil və bitərəf olmalı və öz vəzifələrini səmərəli şəkildə icra edə bilməlidirlər;

c) GRETA-nın hər hansı iki üzvü eyni bir ölkənin vətəndaşı ola bilməz;

d) onlar əsas hüquqi sistemləri təmsil etməlidirlər.

3. GRETA üzvlərinin seçki proseduru Nazirlər Komitəsi tərəfindən, bu Konvensiya qüvvəyə mindikdən sonra bir il müddətində, Tərəflərlə müzakirə olunduqdan və onların yekdil razılığı əldə olunduqdan sonra müəyyən ediləcəkdir. GRETA özünün prosedur qaydalarını özü qəbul edəcəkdir.

Maddə 37. Tərəflər Komitəsi

1. Tərəflər Komitəsi Avropa Şurasının üzvü olan Konvensiya Tərəflərinin Nazirlər Komitəsindəki nümayəndələrindən və Avropa Şurasının üzvü olmayan Konvensiya Tərəflərinin nümayəndələrindən ibarət olacaqdır.

2. Tərəflər Komitəsinin iclasları Avropa Şurasının Baş katibi tərəfindən çağırılacaqdır. Komitənin ilk iclası GRETA üzvlərinin seçilməsi məqsədilə bu Konvensiya qüvvəyə mindikdən sonra bir il müddətində keçirilməlidir. Bundan sonra Tərəflər Komitəsinin iclasları Tərəflərin üçdə birinin, GRETA-nın Prezidentinin və ya Baş katibin xahişi əsasında istənilən vaxt keçirilə bilər.

3. Tərəflər Komitəsi öz prosedur qaydalarını özü qəbul edəcəkdir.

Maddə 38. Prosedur

1. Qiymətləndirmə proseduru Konvensiyanın Tərəflərinə şamil edilir və davamiyyət müddəti GRETA tərəfindən müəyyən edilən dövrlərə bölünür. Hər bir dövrün başlanğıcında GRETA qiymətləndirmə prosedurunun əsaslandığı spesifik müddəaları müəyyən edəcəkdir.

2. GRETA bu qiymətləndirməni həyata keçirmək üçün ən uyğun vasitələri müəyyən etməlidir. Misal üçün, GRETA hər bir qiymətləndirmə dövrü üçün Tərəflərin bu Konvensiyanı yerinə yetirmələrini qiymətləndirmək üçün əsas ola biləcək sorğu vərəqəsi tərtib edə bilər. Bu sorğu vərəqəsi bütün Tərəflərə ünvanlanmalıdır. Tərəflər bu sorğu vərəqəsini, eləcə də GRETA tərəfindən ünvanlanmış digər informasiya sorğularını cavablandırmalıdır.

3. GRETA informasiya almaq üçün vətəndaş cəmiyyətinə də müraciət edə bilər.

4. GRETA, əlavə olaraq, milli səlahiyyətli orqanlar və sonuncu tərəfindən təyin olunmuş "əlaqələndirici şəxs"lərlə əməkdaşlıq çərçivəsində və lazım olan hallarda, müstəqil milli ekspertlərin köməyi ilə ölkələrə səfərlər təşkil edə bilər. Bu səfərlər ərzində GRETA spesifik sahələr üzrə mütəxəssislərin köməyindən istifadə edə bilər.

5. GRETA qiymətləndirmənin əsaslandığı müddəaların icrasına dair apardığı təhlillər əsasında məruzə layihəsini və həmçinin müvafiq Tərəfin aşkar edilmiş problemlərinin həlli yollarına dair öz təkliflərini və tövsiyələrini hazırlamalıdır. İlkin məruzə rəy bildirilməsi üçün qiymətləndirilən Tərəfə göndərilməlidir. Tərəfin rəyi məruzə hazırlanarkən GRETA tərəfindən nəzərə alınmalıdır.

6. Bunun əsasında, GRETA müvafiq Tərəfin bu Konvensiyanın yerinə yetirilməsi istiqamətində gördüyü tədbirlərə dair öz məruzəsini və yekun nəticələrini hazırlamalıdır. Bu məruzə və nəticələr müvafiq Tərəfə və Tərəflər Komitəsinə göndərilir. GRETA-nın məruzəsi və yekun nəticələri müvafiq Tərəfin rəyi ilə birlikdə qəbul olunduğu tarixdən etibarən nəşr edilir.

7. Bu maddənin 1-6-cı bəndlərindəki prosedurların icrasını məhdudlaşdırmadan, Tərəflə" Komitəsi GRETA-nın məruzəsi və yekun nəticələri əsasında həmin Tərəfə ünvanlanmış (a) GRETA-nın müəyyən etdiyi nöqsanları aradan qaldırmaq üçün görüləsi tədbirlərə dair (lazım olan təqdirdə, bu nöqsanların aradan qaldırılması barədə məlumatın təqdim olunması üçün vaxt təyin edərək) və (b) bu Konvensiyanın lazımi qaydada icra olunması üçün həmin Tərəflə əməkdaşlığın artırılmasına dair tövsiyələr qəbul edə bilər.

Fəsil VIII

DİGƏR BEYNƏLXALQ SƏNƏDLƏRLƏ ƏLAQƏ

Maddə 39.

Birləşmiş Millətlər Təşkilatının Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyasına əlavə edilmiş İnsan, xüsusilə də qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılmasına dair Protokol ilə əlaqə

Bu Konvensiya Birləşmiş Millətlər Təşkilatının Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyasına əlavə edilmiş İnsan, xüsusilə də qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılmasına dair Protokolun müddəalarından irəli gələn hüquq və öhdəliklərə təsir etmir və onun əsasında həyata keçirilən müdafiə tədbirlərini genişləndirmək və orada qeyd olunan standartları təkmilləşdirmək məqsədi daşıyır.

Maddə 40. Digər beynəlxalq sənədlərlə əlaqə

1. Bu Konvensiya onun Tərəflərinin iştirakçısı olduğu və ya olacağı və həmçinin bu Konvensiyada nəzərdə tutulmuş məsələlərə dair müddəalardan ibarət olan, insan alveri qurbanları üçün daha mükəmməl yardım və müdafiə imkanları nəzərdə tutan digər beynəlxalq sənədlərin müddəalarından irəli gələn hüquq və öhdəliklərinə təsir etməyəcəkdir.

2. Tərəflər bu Konvensiyada nəzərdə tutulmuş məsələlərə dair, həmçinin burada qeyd olunmuş müddəaların yerinə yetirilməsi və təkmilləşdirilməsi, yaxud burada nəzərdə tutulmuş prinsiplərin tətbiq olunmasının asanlaşdırılması məqsədilə bir-birilə ikitərəfli və çoxtərəfli sazişlər bağlaya bilərlər. Avropa İttifaqının üzvü olan Tərəflər bu Konvensiyanın məqsəd və vəzifələrinə, həmçinin digər Tərəflərlə münasibətlərində bu Konvensiyanın tam şəkildə tətbiqinə xələl gətirmədən, öz qarşılıqlı münasibətlərində Avropa İqtisadi Birliyinin və Avropa İttifaqının aidiyyəti məsələlərini tənzimləyən və spesifik hallara tətbiq olunan qaydalarını tətbiq edə bilərlər.

3. Bu Konvensiyanın heç bir müddəası dövlətlərin və fərdlərin beynəlxalq hüquq, o cümlədən beynəlxalq humanitar hüquq və beynəlxalq insan hüquqları, xüsusilə də tətbiq oluna biləcəyi hallarda Qaçqınların statusu haqqında 1951-ci il tarixli Konvensiya,

həmin Konvensiyanın 1967-ci il tarixli Protokolu və orada təsbit olunmuş qaçqınların zorla qaytarılmaması prinsipindən irəli gələn hüquq, vəzifə və öhdəliklərinə təsir göstərmir.

Fəsil IX

KONVENSİYAYA DÜZƏLİŞLƏR

Maddə 41. Düzəlişlər

1. Bu Konvensiyaya düzəliş edilməsi barədə hər hansı bir Tərəfin irəli sürdüyü təklif Avropa Şurasının Baş katibinə təqdim olunur. Baş katib öz növbəsində həmin təklifi Avropa Şurasının üzvü olan dövlətlərə, bu Konvensiyanı imzalamış dövlətlərə, onun iştirakçısı olan Tərəflərə, Avropa İqtisadi Birliyinə, 42-ci maddənin müddəalarına uyğun olaraq bu Konvensiyanı imzalamağa və 43-cü maddənin müddəalarına uyğun olaraq bu Konvensiyaya qoşulmağa dəvət olunmuş hər bir dövlətə göndərir.

2. Tərəfin irəli sürdüyü hər hansı düzəliş GRETA-ya təqdim olunur və o da öz növbəsində təklif olunan həmin düzəliş barədə öz rəyini Nazirlər Komitəsinə təqdim edir.

3. Nazirlər Komitəsi düzəliş barədə təklifi və GRETA-nın bu təklif barədə rəyini nəzərdən keçirir və Konvensiyanın iştirakçısı olan Tərəflərin müzakirəsindən və onların yekdil razılığının əldə olunmasından sonra düzəlişi qəbul edə bilər.

4. Nazirlər Komitəsi tərəfindən bu maddənin 3-cü bəndinə uyğun olaraq qəbul edilmiş hər hansı düzəlişin mətni qəbul edilmək üçün Tərəflərə göndərilir.

5. Bu maddənin 3-cü bəndinə uyğun olaraq qəbul edilmiş hər hansı düzəliş bütün Tərəflərin dəyişikliyi qəbul etdikləri barədə Baş katibi məlumatlandırdıqları tarixdən sonrakı bir aylıq müddətin bitməsindən sonra növbəti ayın ilk günündə qüvvəyə minir.

Fəsil X

YEKUN MÜDDƏALAR

Maddə 42. İmzalanma və qüvvəyə minmə

1. Bu Konvensiya Avropa Şurasının üzvü olan, bu Təşkilatın üzvü olmayan, lakin Konvensiyanın hazırlanmasında iştirak etmiş və həmçinin Avropa İqtisadi Birliyinin üzvü olan dövlətlər tərəfindən imzalanmaq üçün, açıqdır.

2. Bu Konvensiya ratifikasiya, qəbul və ya təsdiq edilməlidir. Ratifikasiya, qəbul və ya təsdiq barədə sənədlər saxlanmaq üçün Avropa Şurasının Baş katibinə təqdim olunur.

3. Bu Konvensiya onu imzalamış 10 Tərəfin, o cümlədən Avropa Şurasının üzvü olan ən azı 8 dövlətin öncəki bəndin müddəalarına uyğun olaraq Konvensiyaya dair öhdəlikləri götürdükləri barədə razılıqlarını ifadə etdikləri tarixdən sonrakı üç aylıq müddət bitdikdən sonra növbəti ayın ilk günündə qüvvəyə minir.

4. Bu Konvensiya üzrə öhdəlikləri götürməsinə dair razılığını Avropa İqtisadi Birliyinə və ya 1-ci bənddə qeyd olunan dövlətlərdən hər hansı birinə münasibətdə bu Konvensiya onun ratifikasiya, qəbul və ya təsdiq sənədini saxlanılmaq üçün təqdim olunduğu tarixdən sonrakı üç aylıq müddət bitdikdən sonra növbəti ayın ilk günündə qüvvəyə minir.

Maddə 43. Konvensiyaya qoşulma

1. Konvensiya qüvvəyə mindikdən sonra Avropa Şurasının Nazirlər Komitəsi bu Konvensiyanın iştirakçısı olan Tərəflərlə müzakirə apardıqdan və onların yekdil razılığını aldıqdan sonra Konvensiyanın qəbul olunmasında iştirak etməmiş və Avropa Şurasının üzvü olmayan hər hansı bir dövləti Avropa Şurasının Nizamnaməsinin 20-ci maddəsinin "d" bəndində göstərilən səs çoxluğu ilə qəbul edilmiş qərarı və Nazirlər Komitəsində təmsil olunmaq hüququna malik olan razılığa gələn dövlətlərin nümayəndələrinin yekdil rəyi ilə bu Konvensiyaya qoşulmağa dəvət edə bilər.

2. Konvensiyaya qoşulan hər hansı bir dövlətə münasibətdə bu Konvensiya qoşulma barədə sənədin saxlanmaq üçün Avropa Şurası Baş katibinə təqdim olunduğu tarixdən sonrakı üç aylıq müddətin başa çatmasından sonra növbəti ayın ilk günündə qüvvəyə minir.

Maddə 44. Ərazi üzrə tətbiq

1. Avropa İqtisadi Birliyi və ya hər hansı dövlət bu Konvensiyanı imzalayarkən və yaxud ratifikasiya, qəbul, təsdiq və ya qoşulma barədə sənədini saxlanılmağa təqdim edərkən bu Konvensiyanın şamil ediləcəyi ərazi və ya əraziləri müəyyənləşdirməlidir.

2. Hər bir Tərəf bundan sonra istənilən zaman Avropa Şurasının Baş Katibinə bəyanat göndərməklə bu Konvensiyanın bəyanatda göstərilən, həmçinin beynəlxalq münasibətlərinə görə məsuliyyət daşıdığı və adından qərarlar qəbul etmək səlahiyyətinə malik olduğu digər ərazilərə də tətbiq edilməsini həyata keçirə bilər. Bu ərazilər üçün Konvensiya bəyanatın Baş katib tərəfindən qəbul edildiyi tarixdən sonrakı üç aylıq müddət bitdikdən sonra növbəti ayın ilk günündə qüvvəyə minir.

3. Bu növ bəyanatlarda göstərilən ərazilərlə bağlı əvvəlki iki bəndin müddəalarına uyğun olaraq təqdim olunmuş istənilən bəyanat Avropa Şurasının Baş katibinə ünvanlanmış bildiriş əsasında ləğv oluna bilər. Bu cür ləğv olunma belə bildirişin Baş katib tərəfindən alındığı tarixdən sonrakı üç aylıq müddət bitdikdən sonra növbəti ayın ilk günündə qüvvəyə minir.

31-ci maddənin 2-ci bəndində göstərilən hal istisna olmaqla, bu Konvensiyanın müddəalarına heç bir qeyd-şərt edilə bilməz.

Maddə 46. Denonsasiya

1. Hər bir Tərəf Avropa Şurasının Baş katibinə bildiriş göndərməklə bu Konvensiyanı istənilən zaman denonsasiya edə bilər.

2. Belə denonsasiya bildirişin Baş katib tərəfindən alındığı tarixdən sonrakı üç aylıq müddət bitdikdən sonra növbəti ayın ilk günündə qüvvəyə minir.

Maddə 47. Bildiriş

Avropa Şurasının Baş katibi Avropa Şurasının üzvü olan dövlətləri, bu Konvensiyanın iştirakçısı olan istənilən dövləti, onu imzalamış istənilən dövləti, Avropa İqtisadi Birliyini, həmçinin 42-ci maddənin müddəalarına müvafiq olaraq bu Konvensiyanı imzalamağa və 43-cü maddənin müddəalarına müvafiq olaraq bu Konvensiyaya qoşulmağa dəvət olunmuş dövlətləri aşağıdakılar barədə məlumatlandırmalıdır:

a) hər hansı imzalanma barədə;

b) hər hansı ratifikasiya, qəbul, təsdiq və ya qoşulma haqqında sənədin saxlanılmağa verildiyi barədə;

c) 42-ci və 43-cü maddələrin müddəalarına uyğun olaraq bu Konvensiyanın qüvvəyə minmə tarixi barədə;

d) 41-ci maddənin müddəalarına uyğun olaraq qəbul edilmiş hər hansı düzəliş və bu düzəlişin qüvvəyə minmə tarixi barədə;

e) 46-cı maddənin müddəalarına müvafiq olaraq edilmiş hər hansı denonsasiya barədə;

f) bu Konvensiya ilə əlaqədar hər hansı digər akt, bildiriş və ya məlumatlar barədə;

g) 45-ci maddənin müddəalarına uyğun olaraq edilmiş hər hansı qeyd-şərt barədə.

Bunun təsdiqi olaraq, lazımi qaydada səlahiyyət verilmiş aşağıda imza edənlər bu Konvensiyanı imzaladılar.

2005-ci il mayın 16-da Varşava şəhərində, hər ikisi eyni qüvvəyə malik olmaqla, ingilis və fransız dillərində, bir əsl nüsxədə imzalanmışdır. Əsl nüsxə Avropa Şurasının arxivində saxlanılacaqdır. Avropa Şurasının Baş katibi bu Konvensiyanın təsdiqlənmiş nüsxələrini Avropa Şurasının üzvü olan dövlətlərə, üzv olmayan, lakin bu Konvensiyanın qəbul olunmasında iştirak etmiş dövlətlərə, Avropa İqtisadi Birliyinə və bu Konvensiyaya qoşulmağa dəvət olunmuş dövlətlərə göndərəcəkdir.

Avropa Şurasının İnsan alverinə qarşı mübarizə haqqında Konvensiyası üzrə Azərbaycan Respublikasının Bəyanatı

Azərbaycan Respublikası bəyan edir ki, Azərbaycan Respublikası tərəfindən bu Konvensiyanın müddəalarından irəli gələn hüquq və öhdəliklər Ermənistan Respublikasına münasibətdə tətbiq edilməyəcəkdir.

Avropa Şurasının İnsan alverinə qarşı mübarizə haqqında Konvensiyası üzrə Azərbaycan Respublikasının Bəyanatı

Azərbaycan Respublikası bəyan edir ki, o, Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərində (Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu və ona bitişik yeddi rayonu) Konvensiyanın müddəalarının həyata keçirilməsinə həmin ərazilər işğaldan azad olunanadək və işğalın nəticələri tam aradan qaldırılanadək təminat vermək iqtidarında deyildir (Azərbaycan Respublikasının işğal olunmuş ərazilərinin sxematik xəritəsi əlavə olunur).

Beynəlxalq Əmək Təşkilatının "Kişi və qadın işçilər - ailə vəzifələri olan işçilər üçün bərabər imkanlar və bərabər rəftar haqqında" 156 nömrəli Konvensiyasına qoşulmaq barəsində Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

Azərbaycan Respublikası Beynəlxalq Əmək Təşkilatının "Kişi və qadın işçilər - ailə

vəzifələri olan işçilər üçün bərabər imkanlar və bərabər rəftar haqqında" 1981-ci il iyunun 23-də Cenevrə şəhərində qəbul edilmiş 156 nömrəli Konvensiyasına qoşulsun.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 may 2010-cu il

№ 1003-IIIQ

156 nömrəli Konvensiya

Kişi və qadın işçilər - ailə vəzifələri olan işçilər üçün bərabər imkanlar və bərabər rəftar haqqında Konvensiya

Beynəlxalq Əmək Bürosunun İnzibati Şurası tərəfindən Cenevrədə çağırılmış və 3 iyun 1981-ci il tarixində özünün 67-ci sessiyasına toplanmış Beynəlxalq Əmək Təşkilatının Baş Konfransı,

Beynəlxalq Əmək Təşkilatının məqsəd və vəzifələri haqqında Filadelfiya bəyannaməsini nəzərə alaraq, hansı ki, orada bəyan olunur ki, "İrqindən, dinindən və ya cinsindən asılı olmayaraq bütün insanlar öz maddi rifah və mənəvi inkişaflarını azadlıq və ləyaqət, iqtisadi sabitlik və bərabər imkanlar şəraitində həyata keçirmək hüququna malikdirlər",

Beynəlxalq Əmək Konfransı tərəfindən 1975-ci ildə qəbul edilmiş Qadın işçilər üçün imkanların və rəftarın bərabərliyi haqqında Bəyannamənin müddəalarını və Qadın işçilər üçün bərabər rəftar və bərabər imkanların təşviq edilməsinə yönəldilmiş fəaliyyət planı haqqında Qətnaməni nəzərə alaraq,

kişi və qadın işçilər üçün bərabər rəftar və bərabər imkanların təmin edilməsinə yönəldilmiş əmək üzrə beynəlxalq konvensiyaların və tövsiyələrin müddəalarını, xüsusilə Bərabər haqq verilməsi haqqında 1951-ci il tarixli Konvensiyanın və Tövsiyənin, Əmək və məşğulluq sahəsində ayrı-seçkilik haqqında 1958-ci il tarixli Konvensiyanın və Tövsiyənin və İnsan ehtiyatlarının inkişafı haqqında 1975-ci il tarixli Tövsiyənin VIII bölməsinin müddəalarını nəzərə alaraq,

Əmək və məşğulluq sahəsində ayrı-seçkilik haqqında 1958-ci il tarixli Konvensiyada ailə vəzifələri əsasında fərqləndirmə aparılmasının bilavasitə nəzərdə tutulmadığını xatırladaraq və bu sahədə yeni normaların qəbul edilməsini vacib hesab edərək,

Ailə vəzifələri olan qadınların əməyi haqqında 1965-ci il tarixli Tövsiyənin müddəalarını və onun qəbul edildiyi vaxtdan baş verən dəyişiklikləri nəzərə alaraq,

kişi və qadın işçilər üçün bərabər rəftar və bərabər imkanlar haqqında aktların Birləşmiş Millətlər Təşkilatı və digər ixtisaslaşmış qurumlar tərəfindən də qəbul edildiyini qeyd edərək və xüsusilə Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Birləşmiş Millətlər Təşkilatının 1979-cu il tarixli Konvensiyasının preambulasının on dördüncü bəndini xatırladaraq, hansı ki, orada qeyd olunur ki, Konvensiyanın iştirakçısı olan dövlətlər "dərk edirlər ki, kişi və qadınların tam bərabərliyinə nail olmaq üçün həm kişilərin, həm də qadınların cəmiyyətdə və ailədə ənənəvi rolunu dəyişməklazımdır",

ailə vəzifələri olan işçilərin problemlərinin, milli siyasətin həyata keçirilməsində nəzərə alınması vacib olan, ailə və cəmiyyətlə bağlı daha geniş məsələlərin aspektləri olduğunu qəbul edərək,

ailə vəzifələri olan kişi və qadın işçilər üçün, eləcə də onlarla digər işçilər arasında rəftar və imkanların əsl bərabərliyinin bərqərar edilməsinin zəruri olduğunu qəbul edərək,

bütün işçilər qarşısında duran problemlərin çoxunun ailə vəzifələri olan işçilər üçün ağırlaşdığını hesab edərək və sonuncu qeyd olunanların həm xüsusi tələblərinə cavab verən, həm də ümumiyyətlə işçilərin vəziyyətinin yaxşı-aşdırılmasına yönəldilən tədbirləri qəbul etməklə onların vəziyyətinin yaxşılaşdırılmasının vacibliyini etiraf edərək,

sessiyanın gündəliyinin beşinci bəndi olan, ailə vəzifələri olan işçilər: kişi və qadın işçilər üçün bərabər rəftar və bərabər imkanlar haqqında bir sıra təkliflərin qəbul edilməsinə qərar verərək, bu təkliflərə beynəlxalq konvensiya forması verilməsini qət edərək,

min doqquz yüz səksən birinci il iyun ayının iyirmi üçüncü günündə "Kişi və qadın işçilər - ailə vəzifələri olan işçilər üçün bərabər imkanlar və bərabər rəftar haqqında 1981-ci il tarixli Konvensiya" adlandırılacaq aşağıdakı Konvensiyam qəbul edir:

Maddə 1

1. Bu Konvensiya himayəsində olan uşaqlara münasibətdə ailə vəzifələri olan kişi və qadın işçilərə, bu vəzifələr iqtisadi fəaliyyətdə onların hazırlaşmaq, daxil olmaq, iştirak etmək və ya irəli çəkilmək imkanlarını məhdudlaşdırdığı halda şamil olunur.

2. Bu Konvensiyanın müddəaları, eləcə də qulluğu və ya köməyə həqiqətən ehtiyacı olan digər yaxın ailə üzvlərinə münasibətdə ailə vəzifələri olan kişi və qadın işçilərə, bu vəzifələr iqtisadi fəaliyyətdə onların hazırlaşmaq, daxil olmaq, iştirak etmək və ya irəli çəkilmək imkanlarını məhdudlaşdırdığı halda şamil olunur.

3. Bu Konvensiyanın məqsədləri üçün istifadə olunan "himayədə olan uşaq" və "qulluğa və ya köməyə həqiqətən ehtiyacı olan digər yaxın ailə üzvü" terminləri bu Konvensiyanın 9-cu maddəsində göstərilən üsullardan biri ilə hər bir ölkədə müəyyən edilən şəxsləri bildirir.

4. Bu maddənin 1-ci və 2-ci bəndlərinin müddəaları şamil olunan işçilər bundan sonra "ailə vəzifələri olan işçilər" adlandırılacaq.

Maddə 2

Bu Konvensiya iqtisadi fəaliyyət sahələrinin bütün növlərinə və bütün işçi kateqoriyalarına şamil olunur.

Maddə 3

1. Kişi və qadın işçilər üçün əsl bərabər rəftar və imkanların təmin edilməsi üçün hər bir üzv-dövlətin milli siyasətinin məqsədlərindən biri də ondan ibarət olmalıdır ki, haqqı ödənilən iş yerinə yetirən və ya yerinə yetirmək istəyən, ailə vəzifələri olan şəxslər bu hüququ ayrı-seçkiliyə məruz qalmadan və mümkün olan qədər peşə və ailə vəzifələrini uzlaşdıraraq həyata keçirə bilsinlər.

2. Bu maddənin 1-ci bəndinin məqsədləri üçün istifadə olunan "ayrı-seçkilik" termini

Əmək və məşğulluq sahəsində ayrı-seçkilik haqqında 1958-ci il tarixli Konvensiyanın 1-ci və 5-ci maddələrində müəyyən olunmuş əmək və məşğulluq sahəsində ayrı-seçkiliyi bildirir.

Maddə 4

Kişi və qadın işçilər üçün əsl bərabər rəftar və imkanların təmin edilməsi üçün milli şəraitə və imkanlara uyğun olaraq bütün tədbirlər ona görə görülür ki:

a) ailə vəzifələri olan işçilər sərbəst iş seçmək hüquqlarını həyata keçirə bilsinlər;

b) onların məşğulluq şəraiti və sosial təminat sahəsində tələbatları nəzərə alınsın.

Maddə 5

Milli şəraitə və imkanlara uyğun olaraq bütün tədbirlər, eləcə də ona görə görülür ki:

a) yerli səviyyədə tədbirlərin planlaşdırılmasında ailə vəzifələri olan işçilərin tələbatları nəzərə alınsın;

b) uşağa qulluq və ailəyə kömək göstərilməsi üzrə müəssisə və xidmətlər kimi dövlət və özəl məişət xidmətləri inkişaf etsin və ya onların inkişafına kömək göstərilsin.

Maddə 6

Hər bir ölkənin səlahiyyətli hakimiyyətləri və orqanları kişi və qadın işçilər üçün bərabər rəftar və bərabər imkanlar prinsipinin və ailə vəzifələri olan işçilərin problemlərinin cəmiyyət tərəfindən daha geniş başa düşülməsinə kömək edən məlumatlandırmanın və maarifçiliyin inkişafının, eləcə də bu problemlərin həllinə imkan yaradan ictimai fikrin təşviqi üzrə müvafiq tədbirlər görürlər.

Maddə 7

Milli şəraitə və imkanlara uyğun olan bütün tədbirlər, o cümlədən ailə vəzifələri olan işçilərə əmək fəaliyyətinə başlamaq və ya onu davam etdirmək, eləcə də bu vəzifələrlə əlaqədar işdən ayrıldıqdan sonra əmək fəaliyyətini bərpa etmək imkanı verən peşə yönümü və peşə hazırlığı sahəsində tədbirlər görülür.

Maddə 8

Ailə vəzifələri öz-özlüyündə əmək münasibətlərinə xitam verilməsi üçün əsas ola bilməz.

Maddə 9

Bu Konvensiya qanunvericilik və ya qaydalar, kollektiv müqavilələr, müəssisənin daxili əmək intizamı qaydaları, arbitraj qərarları, məhkəmənin qərarları və ya bu metodların kombinasiyası vasitəsilə və ya milli şərait nəzərə alınmaqla, milli təcrübəyə uyğun istənilən başqa üsulla həyata keçirilə bilər.

Maddə 10

1. Milli şərait nəzərə alınmaqla, ehtiyac olduqda bu Konvensiyanın müddəaları mərhələlərlə tətbiq edilə bilər, lakin onların həyata keçirilməsi üzrə tədbirlər istənilən halda 1-ci maddənin 1-ci bəndi şamil olunan bütün işçilərə tətbiq edilir.

2. Bu Konvensiyanı ratifikasiya etmiş hər bir üzv-dövlət Beynəlxalq Əmək Təşkilatının Nizamnaməsinin 22-ci maddəsinə uyğun olaraq onun tətbiqi barədə təqdim etdiyi birinci məruzəsində, Konvensiyanın hansı müddəalarına münasibətdə bu maddənin 1-ci bəndində nəzərdə tutulan imkandan istifadə etmək niyyəti barədə məlumat verir və sonrakı məruzələrində bu müddəaları hansı dərəcədə yerinə yetirilməsini və ya yerinə yetirmək niyyətini qeyd edir.

Maddə 11

Bu Konvensiyanın müddəalarının həyata keçirilməsinə istiqamətlənmiş tədbirlərin işlənib hazırlanmasında və tətbiqində işəgötürənlərin və işçilərin təşkilatlarının milli şəraitə və təcrübəyə uyğun üsulla iştirak etmək hüququ vardır.

Maddə 12

Bu Konvensiyanın ratifikasiyası haqqında rəsmi sənədlər qeydiyyat üçün Beynəlxalq Əmək Bürosunun Baş direktoruna göndərilir.

Maddə 13

1. Bu Konvensiya ancaq ratifikasiya haqqında sənədləri Baş direktor tərəfindən qeydiyyata alınmış Beynəlxalq Əmək Təşkilatının üzv-dövlətlərinə münasibətdə məcburi hüquqi qüvvəyə malikdir.

2. O, Təşkilatın üzvü olan iki dövlətin ratifikasiya haqqında sənədlərinin Baş direktor tərəfindən qeydiyyata alındığı tarixdən 12 ay sonra qüvvəyə minir.

3. Bundan sonra isə bu Konvensiya Təşkilatın üzvü olan hər bir dövlət üçün onun ratifikasiya haqqında sənədinin qeydiyyata alındığı tarixdən 12 ay sonra qüvvəyə minəcəkdir.

Maddə 14

1. Bu Konvensiyanı ratifikasiya etmiş hər bir üzv-dövlət onun ilk dəfə qüvvəyə mindiyi gündən on il keçdikdən sonra Beynəlxalq Əmək Bürosunun Baş direktoruna denonsasiya haqqında bildiriş göndərməklə onu denonsasiya edə bilər. Denonsasiya bu barədə bildirişin qeydiyyata alındığı tarixdən bir il sonra qüvvəyə minir.

2. Bu Konvensiyanı ratifikasiya etmiş hər bir üzv-dövlət əvvəlki bənddə göstərilən on illik müddət keçdikdən sonra bir il ərzində bu maddədə göstərilən denonsasiya hüququndan istifadə etmədikdə, onun üçün Konvensiya sonrakı on il müddətində qüvvədə qalacaq və sonralar o, hər sonrakı on il keçdikdən sonra bu maddədə nəzərdə tutulan qaydada onu denonsasiya edə bilər.

Maddə 15

1. Beynəlxalq Əmək Bürosunun Baş direktoru Beynəlxalq Əmək Təşkilatının üzvü olan bütün dövlətləri Təşkilatın üzvü olan dövlətlər tərəfindən ona göndərilmiş ratifikasiya haqqında sənədlərin və denonsasiya haqqında bildirişlərin qeydiyyata alınması barədə xəbərdar edir.

2. Baş direktor ratifikasiya haqqında aldığı ikinci sənədin qeydiyyatı barədə üzv-dövlətləri xəbərdar etməklə, bu Konvensiyanın qüvvəyəminmə tarixini onların diqqətinə çatdırır.

Maddə 16

Beynəlxalq Əmək Bürosunun Baş direktoru əvvəlki maddələrin müddəalarına uyğun olaraq qeydiyyata aldığı ratifikasiya haqqında sənədlər və denonsasiya haqqında bildirişlər barədə tam məlumatı, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 102-ci maddəsinə uyğun olaraq, qeydiyyat üçün Birləşmiş Millətlər Təşkilatının Baş Katibinə göndərir.

Maddə 17

Beynəlxalq Əmək Bürosunun İnzibati Şurası zəruri hesab etdiyi hallarda Baş Konfransa bu Konvensiyanın tətbiqi haqqında məruzə təqdim edir və ona tam və ya qismən yenidən baxılması haqqında məsələnin Konfransın gündəliyinə daxil edilməsinin məqsədəmüvafiqliyinə baxır.

Maddə 18

1. Əgər Konfrans bu Konvensiyaya tam və ya qismən yenidən baxılmasını nəzərdə tutan yeni konvensiya qəbul edərsə və yeni konvensiyada digər şərt nəzərdə tutulmazsa, onda:

a) hər hansı üzv-dövlət tərəfindən yenidən baxılmış konvensiyanın ratifikasiyası, 14-cü maddənin müddəalarından asılı olmayaraq, avtomatik olaraq, ona münasibətdə bu Konvensiyanın dərhal denonsasiyasına səbəb olacaqdır, bu şərtlə ki, yenidən baxılmış konvensiya qüvvəyə minmiş olsun;

b) yenidən baxılmış konvensiyanın qüvvəyə mindiyi gündən, bu Konvensiya üzv-dövlətlər tərəfindən ratifikasiya üçün bağlıdır.

2. Bu Konvensiya onu ratifikasiya etmiş, lakin yenidən baxılmış konvensiyanı ratifikasiya etməmiş üzv-dövlətlər üçün istənilən halda forma və məzmunca qüvvədə qalır.

Maddə 19

Bu Konvensiyanın ingilis və fransız mətnləri eyni qüvvəyə malikdir.

Beynəlxalq Əmək Təşkilatının "Analığın mühafizəsi haqqında" 1952-ci il Konvensiyasına (yenidən baxılmış) yenidən baxılması haqqında" 183 nömrəli Konvensiyasına qoşulmaq barəsində Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

Azərbaycan Respublikası Beynəlxalq Əmək Təşkilatının "Analığın mühafizəsi haqqında" 1952-ci il Konvensiyasına (yenidən baxılmış) yenidən baxılması haqqında" 2000-ci il iyunun 15-də Cenevrə şəhərində qəbul edilmiş 183 nömrəli Konvensiyasına qoşulsun.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 may 2010-cu il

№ 1004-IIIQ

183 nömrəli Konvensiya

"Analığın mühafizəsi haqqında" 1952-ci il Konvensiyasına (yenidən baxılmış) yenidən baxılması haqqında Konvensiya

Beynəlxalq Əmək Bürosunun İnzibati Şurası tərəfindən Cenevrədə çağırılmış və 30 may 2000-ci il tarixində özünün 88-ci sessiyasına toplanmış Beynəlxalq Əmək Təşkilatının Baş Konfransı,

əmək sahəsində bütün qadınların bərabərliyinə, eləcə də ananın və uşağın sağlamlığına və təhlükəsizliyinə bundan sonra da kömək etmək üçün Analığın mühafizəsi haqqında 1952-ci il Konvensiyasına (yenidən baxılmış) və Tövsiyəsinə yenidən baxılması zərurətini qeyd edərək və bununla da üzv-dövlətlərin iqtisadi və sosial inkişaf səviyyələrindəki fərqi, eləcə də müəssisələrin müxtəlif xarakterli olduğunu və milli qanunvericilikdə və təcrübədə nəzərdə tutulan analığın mühafizəsi səviyyəsi arasındakı fərqi etiraf edərək,

İnsan hüquqlarının Ümumi Bəyannaməsinin (1948-ci il), BMT-nin Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyasının (1979-cu il), BMT-nin Uşaq hüquqları haqqında Konvensiyasının (1989-cu il), Pekin Bəyannaməsinin və Fəaliyyət Platformasının (1995-ci il), Beynəlxalq Əmək Təşkilatının Qadın işçilər üçün imkanların və rəftarın bərabərliyi haqqında Bəyannaməsinin (1975-ci il), Beynəlxalq Əmək Təşkilatının Əmək sahəsində təməl prinsip və hüquqlar haqqında Bəyannaməsinin və onun həyata keçirilməsi mexanizminin (1998-ci il), eləcə də kişi və qadın işçilər üçün imkanların və rəftarın bərabərliyinin təmin edilməsinə yönəldilmiş beynəlxalq əmək konvensiyalarının və tövsiyələrinin, xüsusilə 1981-ci ilin Ailə vəzifələri olan işçilər haqqında Konvensiyanın müddəalarını qeyd edərək,

qadın işçilərin vəziyyətini və dövlətin və cəmiyyətin ümumi vəzifəsi olan hamiləliyin qorunmasının təmin edilməsinin zəruriliyini nəzərə alaraq,

sessiyanın gündəliyinin dördüncü bəndi olan, Analığın mühafizəsi haqqında 1952-ci il Konvensiyasına (yenidən baxılmış) və Tövsiyəsinə yenidən baxılması üzrə bir sıra təkliflərin qəbul edilməsini qərara alaraq,

bu təkliflərə beynəlxalq konvensiya forması verilməsini qət edərək,

iki mininci il iyun ayının on beşinci günündə Analığın mühafizəsi haqqında 2000-ci il Konvensiyası adlandırılacaq aşağıdakı Konvensiyanı qəbul edir:

FƏALİYYƏT SAHƏSİ

Maddə 1

Bu Konvensiyanın məqsədləri üçün "qadın" termini heç bir ayrı-seçkiliyə yol verilmədən qadın cinsindən olan istənilən şəxsi, "uşaq" termini isə heç bir ayrı-seçkiliyə yol verilmədən istənilən uşağı ifadə edir.

Maddə 2

1. Bu Konvensiya muzdla işləyən bütün qadınlara, həmçinin tipik olmayan asılı əmək formaları ilə məşğul olan qadınlara tətbiq edilir.

2. Əgər Konvensiyanın bəzi əməkçilərə tətbiqi mahiyyətcə xüsusi problemlərin yaranmasına gətirib çıxarırsa, marağı olan işəgötürənlərin və işçilərin nümayəndəli təşkilatları ilə məsləhətləşmələrdən sonra, bu Konvensiyanı ratifikasiya edən hər bir üzv-dövlət bu Konvensiyanın təsir dairəsindən əməkçilərin məhdud kateqoriyalarını tam və ya qismən çıxara bilər.

3. Əvvəlki bənddə nəzərdə tutulan imkandan istifadə edən hər bir üzv-dövlət Beynəlxalq Əmək Təşkilatının Nizamnaməsinin 22-ci maddəsinə uyğun olaraq bu Konvensiyanın tətbiq edilməsi barədə təqdim etdiyi birinci məruzəsində bu yolla çıxarılmış əməkçilərin kateqoriyalarını sadalayır və onların çıxarılması səbəblərini göstərir. Üzv-dövlət özünün sonrakı məruzələrində bu Konvensiyanın müddəalarının təsir dairəsinin tədricən bu kateqoriyalara genişləndirilməsi məqsədilə gördüyü tədbirlər barədə məlumat verir.

SAĞLAMLIĞIN MÜHAFİZƏSİ

Maddə 3

Hər bir üzv-dövlət işəgötürənlərin və işçilərin nümayəndəli təşkilatları ilə məsləhətləşmələr apardıqdan sonra, səlahiyyətli hakimiyyət orqanları tərəfindən ananın və ya uşağın sağlamlığı üçün zərərli hesab edilən və yaxud mövcud qiymətləndirmə üzrə ananın və ya onun uşağının sağlamlığını böyük risk altında qoyan işlərin hamilə qadınlar və ya süd əmizdirən analar tərəfindən yerinə yetirilməməsinin təmin edilməsi üçün lazımi tədbirlər görür.

HAMİLƏLİYƏ VƏ DOĞUŞA GÖRƏ MƏZUNİYYƏT

Maddə 4

1. Tibbi şəhadətnamə təqdim edildikdə və ya milli qanunvericilik və təcrübə ilə nəzərdə tutulmuş qaydada, gözlənilən doğuş vaxtını təsdiq edən digər əsaslı müayinə keçirildikdən sonra, bu Konvensiyanın tətbiq edildiyi qadının 14 həftədən az olmayaraq hamiləliyə və doğuşa görə məzuniyyətə çıxmaq hüququ vardır.

2. Yuxarıda qeyd olunan məzuniyyətin müddəti hər bir üzv-dövlət tərəfindən bu Konvensiyanın ratifikasiyası ilə müşayiət olunan bəyannamədə göstərilir.

3. Hər bir üzv-dövlət sonradan Beynəlxalq Əmək Bürosunun Baş direktoruna hamiləliyə və doğuşa görə məzuniyyətin müddətinin artırılması haqqında yeni bəyannamə göndərə bilər.

4. Əgər milli səviyyədə hökumətlə işəgötürənlərin və işçilərin nümayəndəli təşkilatları arasında digər müddətlər razılaşdırılmamışdırsa, ananın və uşağın sağlamlığının qorunması zərurəti nəzərə alınaraq, hamiləliyə və doğuşa görə məzuniyyətə uşaq doğulduqdan sonrakı 6 həftəlik mütləq dövr daxil edilir.

5. Hamiləliyə və doğuşa görə məzuniyyətin doğuşaqədərki hissəsi doğuş gözlənilən vaxtdan uşağın faktiki doğulduğu tarixədək ötən günlər qədər uzadılır və bu halda doğuşdan sonrakı mütləq məzuniyyətin heç bir hissəsi azaldılmır.

XƏSTƏLİK VƏ YA AĞIRLAŞMA HALINDA MƏZUNİYYƏT

Maddə 5

Hamiləlik və ya doğuş səbəbindən xəstəlik, ağırlaşma və ya ağırlaşma təhlükəsi olduğu hallarda, tibbi şəhadətnamə təqdim edilməklə hamiləliyə və doğuşa görə məzuniyyət müddətindən əvvəl və ya sonra əlavə məzuniyyət verilir. Bu məzuniyyətin forması və maksimum müddəti milli qanunvericilik və təcrübəyə uyğun müəyyən edilə bilər.

MÜAVİNƏTLƏR

Maddə 6

1. 4-cü və ya 5-ci maddələrdə nəzərdə tutulan məzuniyyətlə əlaqədar iş yerində olmayan qadınlara milli qanunvericiliyə və ya milli təcrübədə müəyyən edilmiş hər hansı başqa qaydaya uyğun olaraq pul müavinətləri verilir.

2. Pul müavinətləri qadının özünün və uşağının sanitar-gigiyenik nöqteyi nəzərdən layiqli şəraitdə saxlanılmasına imkan verən və münasib həyat səviyyəsini təmin edən səviyyədə təyin olunur.

3. Milli qanunvericilik və ya təcrübəyə uyğun olaraq 4-cü maddədə qeyd olunan məzuniyyətlə əlaqədar ödənilən pul müavinətləri əvvəlki qazanc əsasında hesablandıqda, bu müavinətlərin məbləği qadının əvvəlki qazanclarının və ya müavinətlərin hesablanması məqsədilə nəzərə alınan qazanclarının üçdə iki hissəsindən az olmamalıdır.

4. Milli qanunvericilik və ya təcrübəyə uyğun olaraq 4-cü maddədə qeyd olunan məzuniyyətlə əlaqədar ödənilən pul müavinətlərinin hesablanmasında başqa üsuldan istifadə edildikdə, bu müavinətlərin məbləği orta hesabla əvvəlki bəndin müddəalarının tətbiqi ilə hesablanmış məbləğ səviyyəsində təyin edilir.

5. Hər bir üzv-dövlət pul müavinətlərini almaq hüququ verən şərtlərdən bu Konvensiyanın şamil olunduğu qadınların xeyli hissəsinin istifadə etməsini təmin edir.

6. Əgər qadın milli qanunvericiliyə və ya milli təcrübədə müəyyən edilmiş hər hansı başqa qaydaya uyğun olaraq təyin olunan pul müavinətlərini almaq hüququ verən şərtlərə cavab vermirsə, o, yardımın təyin edilməsi üçün gəlirlərinin lazımi yoxlanışı şərtilə sosial yardım fondlarından adekvat müavinətlər almaq hüququna malikdir.

7. Milli qanunvericiliyə və ya milli təcrübədə müəyyən edilmiş hər hansı başqa qaydaya uyğun olaraq, qadına və onun uşağına tibbi yardım göstərilir. Tibbi yardım doğuşaqədərki, doğuş zamanı və doğuşdan sonrakı tibbi yardımı, eləcə də lazım olduqda xəstəxanaya yerləşdirmə zamanı göstərilən tibbi yardımı əhatə edir.

8. Qadınların əmək bazarında vəziyyətinin müdafiəsini təmin etmək məqsədilə, 4-cü və 5-ci maddələrdə göstərilən məzuniyyətlə əlaqədar müavinətlər məcburi sosial sığorta fondlarından və ya ictimai fondlardan, yaxud milli qanunvericilik və təcrübə ilə müəyyən edilmiş qaydada ödənilir. Aşağıdakı hallar istisna olmaqla, əgər işəgötürənin dəqiq ifadə edilmiş razılığı yoxdursa, onun yanında muzdla işləyən qadına hər hansı belə pul müavinətlərinin ödənişi ilə əlaqədar birbaşa xərclərə görə işəgötürən fərdi məsuliyyət daşımır:

a) bu, Beynəlxalq Əmək Konfransı tərəfindən bu Konvensiyanın qəbul edildiyi tarixədək qüvvədə olmuş üzv-dövlətin milli qanunvericiliyində və ya təcrübəsində nəzərdə tutulsun;

və ya

b) bu, milli səviyyədə hökumət ilə işəgötürənlərin və işçilərin nümayəndəli təşkilatları arasında əldə olunmuş razılığın predmeti olsun.

Maddə 7

1. İqtisadiyyatı və sosial təminat sistemi kifayət qədər inkişaf etməmiş üzv-dövlət yuxanda göstərilən 6-cı maddənin 3-cü və 4-cü bəndlərinin müddəalarına o halda riayət etmiş hesab edilir ki, ödənilən pul müavinətlərinin məbləği milli qanunvericiliyə uyğun olaraq müəyyən edilmiş, xəstəlik və ya əmək qabiliyyətinin müvəqqəti itirilməsi haqqında ödənilən müavinətlərin məbləğindən az olmasın.

2. Əvvəlki bənddə göstərilən imkandan istifadə edən üzv-dövlət Beynəlxalq Əmək Təşkilatının Nizamnaməsinin 22-ci maddəsinə uyğun olaraq bu Konvensiyanın tətbiqi haqqında göndərdiyi birinci məruzəsində bunun səbəblərini izah edir və verilən pul müavinətlərinin məbləğlərini göstərir. Sonrakı məruzələrində üzv-dövlət müavinətlərin məbləğinin tədricən artırılması məqsədilə gördüyü tədbirlər barədə məlumat verir.

İŞ YERİNİN SAXLANILMASI VƏ AYRI-SEÇKİLİYƏ YOL VERİLMƏMƏSİ

Maddə 8

1. Hamiləlik və ya uşağın doğuşu və onun nəticələri, yaxud südəmər uşağın yedizdirilməsi ilə əlaqədar olmayan səbəblərlə işdən azad edilmə halları istisna olmaqla, hamiləlik dövründə, yaxud 4-cü və ya 5-ci maddələrdə göstərilən məzuniyyətlərlə əlaqədar işdə olmadığı dövrdə və ya milli qanunvericiliklə müəyyən edilən işə qayıtdıqdan sonrakı dövrdə qadının işəgötürən tərəfindən işdən azad edilməsi halları qeyri-qanuni hesab edilir. İşdən azad edilmənin səbəbinin hamiləlik və ya doğuş və onun nəticələri, yaxud südəmər uşağın yedizdirilməsi ilə əlaqədar olmadığını sübuta yetirmək vəzifəsi işəgötürənin üzərinə düşür.

2. Hamiləliyə və doğuşa görə məzuniyyət qurtardıqdan sonra qadına əvvəlki tarif dərəcələri üzrə əməkhaqqı ödənilməklə əvvəlki işinə və ya ona ekvivalent olan iş yerinə qayıtmaq zəmanəti verilir.

Maddə 9

1. Hər bir üzv-dövlət hamiləliyin və doğuşun məşğulluq sahəsində, o cümlədən 2-ci maddənin 1-ci bəndinin müddəalarına baxmayaraq iş tapmaq sahəsində ayrı-seçkiliyə səbəb olmaması üçün zəruri tədbirləri görür.

2. Aşağıdakı işlər ilə bağlı milli qanunvericiliyin tələb etdiyi hallar istisna olmaqla, əvvəlki bənddə göstərilən tədbirlərə qadın işə düzələn anda hamiləliyinin yoxlanılması üçün analizin götürülməsinin və ya belə analizin götürülməsi barədə arayışın təqdim olunmasının tələb edilməsinə qadağa qoyulması da aiddir:

a) hamilə və ya süd əmizdirən analar tərəfindən yerinə yetirilməsi milli qanunvericiliklə qadağan edilən və ya məhdudlaşdırılan işlər;

və ya

b) qadının və uşağın sağlamlığı üçün böyük risk daşıyan işlər.

SÜD ƏMİZDİRƏN ANALAR

Maddə 10

1. Hər gün uşağı döş ilə əmizdirmək üçün qadının hər gün işdən bir və ya bir neçə fasilə götürmək və ya iş vaxtının gündəlik qısadılması ilə işləmək hüququ vardır.

2. Südəmər uşağı əmizdirmək üçün fasilələrin götürülməsinə və ya iş vaxtının gündəlik qısadılmasına icazə verilən dövr, onların sayı və müddəti, habelə iş vaxtının gündəlik qısadılmasının proseduru milli qanunvericiliyə və təcrübəyə uyğun olaraq müəyyən edilir. Bu fasilələr və ya iş vaxtının gündəlik qısadılması müddəti iş vaxtı kimi hesaba alınır və müvafiq qaydada haqqı ödənilir.

DÖVRİ OLARAQ YENİDƏN BAXILMA

Maddə 11

Hər bir üzv-dövlət işəgötürənlərin və əməkçilərin yüksək nümayəndəli təşkilatları ilə məsləhətləşmələr apararaq, 4-cü maddədə göstərilən məzuniyyətin müddətinin artırılmasının və 6-cı maddədə göstərilən pul müavinətlərinin məbləğinin və ya tarif dərəcəsinin yüksəldilməsinin məqsədəmüvafiqliyini dövrü olaraq öyrənir.

TƏTBİQ

Maddə 12

Bu Konvensiya kollektiv müqavilələr, arbitraj qərarları, məhkəmə qərarları və ya milli təcrübəyə uyğun olan hər hansı başqa üsulla tətbiq olunduğu hallar istisna olmaqla, qanunvericilik vasitəsilə tətbiq edilir.

YEKUN MÜDDƏALAR

Maddə 13

Bu Konvensiya ilə Analığın mühafizəsi haqqında 1952-ci il Konvensiyasına (yenidən baxılmış) yenidən baxılır.

Maddə 14

Bu Konvensiyanın ratifikasiyası haqqında rəsmi sənədlər qeydiyyat üçün Beynəlxalq Əmək Bürosunun Baş direktoruna göndərilir.

Maddə 15

1. Bu Konvensiya ancaq ratifikasiya haqqında sənədləri Beynəlxalq Əmək Bürosunun Baş direktoru tərəfindən qeydiyyata alınmış Beynəlxalq Əmək Təşkilatının üzv-dövlətlərinə münasibətdə məcburi hüquqi qüvvəyə malikdir.

2. O, Təşkilatın üzvü olan iki dövlətin ratifikasiya haqqında sənədlərinin Baş direktor tərəfindən qeydiyyata alındığı tarixdən 12 ay sonra qüvvəyə minir.

3. Bundan sonra isə bu Konvensiya Təşkilatın üzvü olan hər bir dövlət üçün onun ratifikasiya haqqında sənədinin qeydiyyata alındığı tarixdən 12 ay sonra qüvvəyə minəcəkdir.

Maddə 16

1. Bu Konvensiyanı ratifikasiya etmiş hər bir üzv-dövlət onun ilk dəfə qüvvəyə mindiyi gündən on il keçdikdən sonra Beynəlxalq Əmək Bürosunun Baş direktoruna denonsasiya haqqında bildiriş göndərməklə onu denonsasiya edə bilər. Denonsasiya bu barədə bildirişin qeydiyyata alındığı tarixdən bir il sonra qüvvəyə minir.

2. Bu Konvensiyanı ratifikasiya etmiş hər bir üzv-dövlət əvvəlki bənddə göstərilən on illik müddət keçdikdən sonra bir il ərzində bu maddədə göstərilən denonsasiya hüququndan istifadə etmədikdə, onun üçün Konvensiya sonrakı on il müddətində qüvvədə qalacaq və sonralar o, hər sonrakı on il keçdikdən sonra bu maddədə nəzərdə tutulan qaydada onu denonsasiya edə bilər.

Maddə 17

1. Beynəlxalq Əmək Bürosunun Baş direktoru Beynəlxalq Əmək Təşkilatının üzvü olan bütün dövlətləri Təşkilatın üzvü olan dövlətlər tərəfindən ona göndərilmiş ratifikasiya haqqında sənədlərin və denonsasiya haqqında bildirişlərin qeydiyyata alınması barədə xəbərdar edir.

2. Baş direktor Təşkilatın üzvü olan dövlətləri aldığı ikinci ratifikasiya sənədinin qeydiyyatı barədə xəbərdar etməklə, bu Konvensiyanın qüvvəyəminmə tarixini onların diqqətinə çatdırır.

Maddə 18

Beynəlxalq Əmək Bürosunun Baş direktoru əvvəlki maddələrin müddəalarına uyğun olaraq qeydiyyata aldığı ratifikasiya haqqında sənədlər və denonsasiya haqqında bildirişlər barədə məlumatı Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 102-ci maddəsinə uyğun olaraq, qeydiyyat üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə göndərir.

Maddə 19

Beynəlxalq Əmək Bürosunun İnzibati Şurası zəruri hesab etdiyi hallarda Baş Konfransa bu Konvensiyanın tətbiqi haqqında məruzə təqdim edir və ona tam və ya qismən yenidən baxılması haqqında məsələnin Konfransın gündəliyinə daxil edilməsinin məqsədəmüvafiqliyinə baxır.

Maddə 20

1. Əgər Konfrans bu Konvensiyaya tam və ya qismən yenidən baxılmasını nəzərdə tutan yeni konvensiya qəbul edərsə və yeni konvensiyada digər şərt nəzərdə tutulmazsa, onda:

a) hər hansı üzv-dövlət tərəfindən yenidən baxılmış konvensiyanın ratifikasiyası, 16-cı maddənin müddəalarından asılı olmayaraq, avtomatik olaraq, ona münasibətdə bu Konvensiyanın dərhal denonsasiyasına səbəb olacaqdır, bu şərtlə ki, yenidən baxılmış konvensiya qüvvəyə minmiş olsun;

b) yenidən baxılmış konvensiyanın qüvvəyə mindiyi gündən bu Konvensiya üzv-dövlətlər tərəfindən ratifikasiya üçün bağlıdır.

2. Bu Konvensiya onu ratifikasiya etmiş, lakin yenidən baxılmış konvensiyanı ratifikasiya etməmiş üzv-dövlətlər üçün istənilən halda forma və məzmunca qüvvədə qalır.

Maddə 21

Bu Konvensiyanın ingilis və fransız mətnləri eyni qüvvəyə malikdir.

"Azərbaycan Respublikası Hökuməti və Serbiya Respublikası Hökuməti arasında cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Serbiya Respublikası Hökuməti arasında cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının daxili işlər naziri Ramil İdris oğlu Usubova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının daxili işlər naziri Ramil İdris oğlu Usubova verilməsi barədə Serbiya Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 may 2010-cu il

№ 896

Azərbaycan Respublikası Hökuməti və Serbiya Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında Konvensiya"nı Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Serbiya Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında Konvensiya"nı Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının vergilər naziri Fazil Əsəd oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının vergilər naziri Fazil Əsəd oğlu Məmmədova verilməsi barədə Serbiya Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 may 2010-cu il

№ 897

"Azərbaycan Respublikası Hökuməti və Serbiya Respublikası Hökuməti arasında ticarət və iqtisadi əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Serbiya Respublikası Hökuməti arasında ticarət və iqtisadi əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Şahin Abdulla oğlu Mustafayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici işlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Şahin Abdulla oğlu Mustafayevə verilməsi barədə Serbiya Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 may 2010-cu il

№ 898

"Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində çalışan işçilərin aylıq əməkhaqlarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 1 fevral tarixli, 1923 nömrəli Sərəncamına əlavələr və dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində çalışan işçilərin aylıq əməkhaqlarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 1 fevral tarixli, 1923 nömrəli Sərəncamına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 2, maddə 104) Əlavə - "Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlardakı diplomatik nümayəndəliklərinin rəhbərlərinin aylıq əməkhaqları"na aşağıdakı əlavələr və dəyişikliklər edilsin:

1. "C" qrupunda "Argentina Respublikası," sözlərindən sonra "Böyük Liviya Ərəb Sosialist Xalq Cəmahiriyyəsi," sözləri, "Qazaxıstan," sözündən sonra "Livan Respublikası," sözləri, "Misir Ərəb Respublikası," sözlərindən sonra "Oman Sultanlığı," sözləri, "Ə" qrupunda "İspaniya Krallığı," sözlərindən əvvəl "Estoniya Respublikası," sözləri, "F" qrupunda "Rumıniya," sözündən sonra "Serbiya Respublikası," sözləri əlavə edilsin;

2. "C" qrupunda "İran İslam Respublikası," və "Mərakeş Krallığı," sözləri çıxarılsın və əlavəyə "F" qrupundan sonra aşağıdakı məzmunda "G" qrupu əlavə edilsin:

G	İran İslam Respublikası, Mərakeş Krallığı	2800 Avro

3. "G" və "Ğ" qrupları müvafiq olaraq "Ğ" və "H" qrupları hesab edilsin;

4. "D" qrupunda "2800 ABŞ dolları" sözləri "3000 ABŞ dolları" sözləri ilə əvəz edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 may 2010-cu il

№ 900

"Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və İordaniya Haşimilər Krallığının Ali Gənclər Şurası arasında gənclərlə iş sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və İordaniya Haşimilər Krallığının Ali Gənclər Şurası arasında gənclərlə iş sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Arif oğlu Rəhimova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Arif oğlu Rəhimova verilməsi barədə İordaniya Haşimilər Krallığı tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 may 2010-cu il

№ 901

"Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi və Ukraynanın Dövlət Arxivlər Komitəsi arasında əməkdaşlıq haqqında Memorandum"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi və Ukraynanın Dövlət Arxivlər Komitəsi arasında əməkdaşlıq haqqında Memorandum"u imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin rəisi Ataxan Əvəz oğlu Paşayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin rəisi Ataxan Əvəz oğlu Paşayevə verilməsi barədə Ukrayna tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 may 2010-cu il

№ 909

"Azərbaycan Respublikası Dövlət Mülki Aviasiya Administrasiyası ilə Özbəkistan Respublikası Uçuşların Təhlükəsizliyinə Nəzarət üzrə Dövlət Müfəttişliyi (Dövlətavianəzarət) arasında aviasiya personalı şəhadətnamələrinin qarşılıqlı tanınması haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Dövlət Mülki Aviasiya Administrasiyası ilə Özbəkistan Respublikası Uçuşların Təhlükəsizliyinə Nəzarət üzrə Dövlət Müfəttişliyi (Dövlətavianəzarət) arasında aviasiya personalı şəhadətnamələrinin qarşılıqlı tanınması haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Özbəkistan Respublikasında fövqəladə və səlahiyyətli səfiri Namiq Rəşid oğlu Abbasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Özbəkistan Respublikasında fövqəladə və səlahiyyətli səfiri Namiq Rəşid oğlu Abbasova verilməsi barədə Özbəkistan Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 may 2010-cu il

№ 921

"Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında mülki müdafiə, fövqəladə halların qarşısının alınması və aradan qaldırılması sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında mülki müdafiə, fövqəladə halların qarşısının alınması və aradan qaldırılması sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının fövqəladə hallar naziri Kəmaləddin Fəttah oğlu Heydərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının fövqəladə hallar naziri Kəmaləddin Fəttah oğlu Heydərova verilməsi barədə Qazaxıstan Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 may 2010-cu il

№ 922

"Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyası və Misir Ərəb Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Tədqiqatlar İnstitutu arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyası və Misir Ərəb Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Tədqiqatlar İnstitutu arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Hafiz Mir Cəlal oğlu Paşayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Hafiz Mir Cəlal oğlu Paşayevə verilməsi barədə Misir Ərəb Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 may 2010-cu il

№ 923

2008-ci il iyunun 19-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2008-ci il iyunun 19-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Təhsil Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Amerika Birləşmiş Ştatları Hökumətini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 may 2010-cu il

№ 924

Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti (Azərbaycan) və Amerika Birləşmiş Ştatları Hökuməti (Birləşmiş Ştatlar) hər iki xalq arasında qarşılıqlı anlaşma və hörməti qiymətləndirərək və mövcud dostluq əlaqələrini davam

etdirmək və möhkəmləndirmək, qarşılıqlı maraq əsasında təhsil sahəsində əlaqələri inkişaf etdirmək arzusunda olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər Azərbaycan və Birləşmiş Ştatlar vətəndaşları, həmçinin hər iki ölkənin dövlət və özəl təhsil, tədris və tədqiqat müəssisələri arasında yaxın əlaqələr yaratmaqla, tədris, təhsil və tədqiqat sahələrində əlaqə və mübadilələri həvəsləndirəcəklər.

Maddə 2

Tərəflər Azərbaycan Respublikasının və Birləşmiş Ştatların müvafiq təhsil sisteminə və müvafiq qanun, qayda və prosedurlarına uyğun olaraq, hər iki ölkənin tələbələri, müəllimləri, alimləri, tədqiqatçıları, ekspertləri və təhsil müəssisələri arasında birbaşa əməkdaşlıq və mübadiləni təşviq edəcəklər.

Maddə 3

Tərəflər iki ölkə arasındakı yaxşı münasibətlərin möhkəmləndirilməsinə xidmət edən təhsil tədbirlərini, tələbə və alim mübadilə proqramlarını təşviq etmək məqsədi daşıyan akademik təqaüd və qrantlara dəstək verilməsi yolu ilə, həvəsləndirəcək və yardım edəcəklər.

Maddə 4

Tərəflər təbiət elmləri, mühəndislik, informasiya texnologiyaları, sosial, humanitar elmlər, incəsənət, kommunikasiya, biznesin idarə edilməsi, kənd təsərrüfatı və səhiyyə, Azərbaycan və ingilis dilləri və digər sahələr də daxil olmaqla, mühüm sahələr üzrə tələbə, alim və tədqiqatçıların daha geniş mübadiləsini təşviq etmək və birgə maliyyələşdirmək yolu ilə Fulbrayt proqramını genişləndirəcəklər. Azərbaycan Fulbrayt proqramını Azərbaycan tələbələrinin Xaricdə Təhsili üzrə Dövlət Proqramı vasitəsilə azərbaycanlı tələbələrin Amerika universitetlərində təhsil almasını dəstəkləyəcəkdir. Birləşmiş Ştatlar Fulbrayt proqramını həm Azərbaycan, həm də ABŞ tələbələrinin mübadiləsi yolu ilə dəstəkləyəcəkdir.

Maddə 5

Tərəflər, məşğuliyyətin yüksək səviyyədə inkişafı üçün texniki peşə təhsilinin iqtisadi tərəqqidə oynadığı mühüm rolu nəzərə alaraq, cəmiyyətin beynəlxalq mübadilələrdə iştirak etməyən hissəsini də bu işə cəlb etmək məqsədilə tələbələr, müəllimlər və inzibatçılar arasında mübadilənin və texniki peşə təhsili müəssisələri və kolleclər arasında əməkdaşlığı genişləndirməyin yollarını axtaracaqlar.

Maddə 6

Tərəflər qarşılıqlı razılaşmaya əsaslanaraq, digər dövlətdə maraq doğura bilən ali təhsil sistemi və təcrübələr, xidmət sahələri, təlim kursları, mübadilə və təhsil imkanları barədə məlumatların əldə edilməsinə kömək göstərəcəklər.

Maddə 7

Tərəflər bir-birinə müvafiq nazirliklər, katibliklər və digər dövlət orqanları, yerli haki-

miyyət orqanları, qeyri-hökumət təşkilatları, həmkarlar ittifaqları və özəl şirkətlər, şəxslər və qruplarla birbaşa əlaqələr yaratmağa və genişləndirməyə yardım edəcəklər.

Maddə 8

Tərəflərin hər biri öz ölkələrinin müvafiq qanun, qayda və prosedurlarına əsaslanaraq, digər ölkədən olan mübadilə iştirakçılarının səyahət, ölkəyə giriş, yaşayış və çıxış üçün müraciətlərinə baxacaqlar.

Maddə 9

Bu Saziş Tərəflərin qanun və qaydalarına uyğun olaraq tənzimlənir. Bu Saziş çərçivəsində əməkdaşlıq, fəaliyyət və mübadilə məsələləri Tərəflərin hər birinin müvafiq maliyyə imkanlarına uyğun olmalıdır.

Maddə 10

Bu Saziş Tərəflərin qarşılıqlı razılığı əsasında dəyişdirilə bilər. Belə dəyişikliklər Sazişin ayrılmaz hissəsi olan və 12-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdiriləcəkdir.

Maddə 11

Bu Saziş 5 (beş) il müddətinə bağlanılır və növbəti 5 (beş) illik müddətlərə uzadılacaqdır. Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beş il müddətinə uzadılacaqdır.

Maddə 12

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Bunun sübutu olaraq, Sazişi imzalayan şəxslər öz hökumətləri tərəfindən lazımi səlahiyyət alaraq bu Sazişi imzaladılar.

Bu Saziş Bakı şəhərində, 19 iyun 2008-ci il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*

2010-cu il martın 8-də Tripoli şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Böyük Liviya Ərəb Xalq Sosialist CəmahiriyyəsininXarici Əlaqələr və Beynəlxalq Əməkdaşlıq məsələləri üzrə Ümumxalq Komitəsi arasında siyasi məsləhətləşmələr haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2010-cu il martın 8-də Tripoli şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsinin Xarici

Əlaqələr və Beynəlxalq Əməkdaşlıq məsələləri üzrə Ümumxalq Komitəsi arasında siyasi məsləhətləşmələr haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 may 2010-cu il

№ 925

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsinin Xarici Əlaqələr və Beynəlxalq Əməkdaşlıq Məsələləri üzrə Ümumxalq Komitəsi arasında siyasi məsləhətləşmələr haqqında Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsinin Xarici Əlaqələr və Beynəlxalq Əməkdaşlıq Məsələləri üzrə Ümumxalq Komitəsi,

BMT-nin Nizamnaməsinə uyğun olaraq bərabərlik, suverenlik və dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərinə sadiqliklərini bildirərək,

qarşılıqlı maraq doğuran məsələlərə dair mövqelərin uyğunlaşdırılmasının və fikir mübadiləsinin aparılmasının əhəmiyyətini nəzərə alaraq,

ölkələr arasında ikitərəfli və beynəlxalq məsələlərə dair müxtəlif səviyyələrdə müntəzəm məsləhətləşmələr keçirmək arzusunda olmalarını ifadə edərək,

davamlı əməkdaşlığın və siyasi dialoqun xarici siyasətlərində əsas yer tutan və beynəlxalq əlaqələrdə əməkdaşlığın, sülhün və inamın gücləndirilmə-sində mühüm rol oynayan əsas faktorlardan olduğunu anlayaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər qarşılıqlı maraq doğuran məsələlərə dair müntəzəm siyasi məsləhətləşmələr təşkil edəcək, beynəlxalq və regional məsələlərə dair fikir mübadiləsi aparacaq və əməkdaşlıq edəcəklər.

Maddə 2

Məsləhətləşmələr növbə ilə Azərbaycan Respublikasında və Böyük Cəmahiriyyədə keçiriləcəkdir. Nümayəndə heyətinin səviyyəsi, məsləhətləşmələrin keçirilmə tarixi və gündəliyi haqqında əvvəlcədən diplomatik kanallarla razılıq əldə ediləcəkdir. Məs-

ləhətləşmələr bütün sahələri, xüsusilə də siyasi, iqtisadi, ticarət və mədəniyyət sahələrini əhatə edəcəkdir.

Maddə 3

Tərəflər qarşılıqlı maraq doğuran spesifik məsələləri müzakirə etmək məqsədilə ekspertlərdən ibarət işçi qrupları yarada bilərlər. Zərurət yarandıqda, həmin işçi qruplarında iştirak etmək məqsədilə hər iki ölkədəki digər rəsmi təşkilatlardan nümayəndələr dəvət oluna bilərlər.

Maddə 4

Tərəflər qarşılıqlı maraq doğuran məsələlərə dair fikir mübadiləsinin aparılması və mövqelərinin uyğunlaşdırılması məqsədilə xarici dövlətlərdəki diplomatik nümayəndəlikləri və beynəlxalq təşkilatlar yanındakı daimi nümayəndəlikləri arasında əməkdaşlığın və məsləhətləşmələrin təşkilini dəstəkləyəcəklər.

Maddə 5

Tərəflər tədqiqat və inkişaf, xüsusilə diplomatların hazırlanması, dil hazırlığı və təcrübə mübadiləsi sahələrində əməkdaşlığın möhkəmləndirilməsinə çalışacaqlar.

Maddə 6

Bu Anlaşma Memorandumunda əks olunmuş müddəalar Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrə toxunmur.

Maddə 7

Bu Anlaşma Memorandumunun tətbiqi ilə bağlı meydana çıxa biləcək hər hansı fikir ayrılıqları ikitərəfli danışıqlar vasitəsilə həll ediləcəkdir.

Maddə 8

Bu Anlaşma Memorandumu imzalandığı gündən qüvvəyə minir, 4 il müddətinə bağlanılır və Tərəflərdən biri onun müddətinin bitməsinə üç ay qalmış onu ləğv etmək barədə istəyini digər Tərəfə diplomatik kanallarla yazılı şəkildə bildirməzsə, onun qüvvəsi avtomatik olaraq yenidən eyni müddətlərə uzadılacaqdır.

Bu Anlaşma Memorandumu Tripoli şəhərində 8 mart 2010-cu il tarixində, hər biri Azərbaycan və ərəb dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ ADINDAN	BÖYÜK LİVİYA ƏRƏB XALQ SOSİALİST CƏMAHİRİYYƏSİNİN XARİCİ ƏLAQƏLƏR VƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ ÜZRƏ ÜMUMXALQ KOMİTƏSİ ADINDAN
(imza)	*(imza)*

2010-cu il martın 9-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (UNICEF) arasında "Uşaqların ailələrə verilməsi və alternativ qayğı ilə əhatə olunması mexanizminin yaradılması" layihəsinin həyata keçirilməsi üçün birgə əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2010-cu il martın 9-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (UNICEF) arasında "Uşaqların ailələrə verilməsi və alternativ qayğı ilə əhatə olunması mexanizminin yaradılması" layihəsinin həyata keçirilməsi üçün birgə əməkdaşlıq haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Təhsil Nazirliyinə, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə və Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun həyata keçirilməsini təmin etsinlər.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondunu (UNICEF-i) xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 may 2010-cu il

№ 926

Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (UNİCEF) arasında "Uşaqların ailələrə verilməsi və alternativ qayğı ilə əhatə olunması mexanizminin yaradılması" layihəsinin həyata keçirilməsi üçün birgə əməkdaşlıq haqqında Anlaşma Memorandumu

Azərbaycan Respublikası Hökumətinin 1992-ci ildən qoşulduğu Uşaq Hüquqları Konvensiyasına, BMT-nin Uşaq Hüquqları Komitəsinin Azərbaycana dair 2006-cı il 17 mart tarixli Yekun Tövsiyələrinə, Minilliyin Bəyannaməsinə (MB) və Minilliyin İnkişaf Məqsədlərinə (MİM), habelə BMT Baş Məclisinin 2002-ci ildə qəbul etdiyi "Uşaqlar üçün yararlı dünya" Bəyannaməsinə və Fəaliyyət Planına, Azərbaycan Respublikasının Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondunun (bundan sonra - UNİ-

CEF) arasında 2002-ci ildə imzalanmış əməkdaşlığa dair Əsas Sazişə əsaslanaraq, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və UNİCEF "Uşaqların ailələrə verilməsi və alternativ qayğı ilə əhatə olunması mexanizminin yaradılması" layihəsinin həyata keçirilməsində birgə əməkdaşlıq haqqında aşağıdakılar barədə razılığa gəldilər.

I. Anlaşmanın prinsipləri və mahiyyəti

Anlaşma Memorandumunun əsas prinsipi uşaqların ailələrə verilməsi və alternativ qayğı ilə əhatə olunması mexanizminin yaradılması istiqamətində üzərinə götürdükləri öhdəliklər əsasında Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və UNİCEF arasında əməkdaşlığın qurulmasıdır.

Memorandumun əsas mahiyyəti aidiyyəti qurumlar üzrə layihənin planlaşdırılması, maliyyə dəstəyi və texniki dəstək göstərərək, onun icra olunması istiqamətində müvafiq vəzifələrin həyata keçirilməsindən ibarətdir.

II. Azərbaycan Respublikası Təhsil Nazirliyinin öhdəlikləri

Azərbaycan Respublikasının Təhsil Nazirliyi Dövlət Proqramının həyata keçirilməsində əsas icraçı təşkilat olaraq layihənin planlaşdırılması, ona şərait yaradılması və həyata keçirilməsinə maliyyə dəstəyi və texniki dəstək göstərərək, aşağıdakı vəzifələri həyata keçirəcəkdir:

pilot layihənin əlaqələndirilməsi;

uşaqların müəssisəyə düşməsinin qarşısının alınması;

seçilmiş pilot rayonlarda Dövlət Uşaq Müəssisələrinin Transformasiyası üzrə Baş Plana uyğun olaraq ailələrə dəstək xidmətlərinin təşkili və yaradılması;

təhsildən kənarda qalan və sağlamlıq imkanları məhdud olan uşaqların təhsilə cəlb edilməsi;

müəssisələrdə yaşayan uşaqların fərdi qayğı planının işlənib hazırlanması və alternativ qayğıya cəlb edilməsi;

uşaqların sosial yönümlü xidmətlərə yönəldilməsi üçün mexanizmin yaradılması;

ailələrə verilmiş uşaqların vəziyyətinə dair dövri monitorinq mexanizminin yaradılması;

pilot layihə üzrə hesabatların hazırlanması.

III. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin öhdəlikləri

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi layihənin həyata keçirilməsinə maliyyə dəstəyi və texniki dəstək göstərərək, aşağıdakı vəzifələri həyata keçirəcəkdir:

Sosial yönümlü icma əsaslı xidmətlər üzrə nümunəvi əsasnamənin hazırlanması;

Sosial yönümlü icma əsaslı xidmətlərin yaradılması;

uşaqlarla işləyəcək sosial işçilərin statusunun müəyyənləşdirilməsi və onların hazırlanması;

aztəminatlı ailələr üçün sosial reabilitasiya proqramının həyata keçirilməsi;

alternativ ailələr üçün sosial müavinətlərin və maddi yardımın məbləği barədə təkliflərin hazırlanması.

IV. Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin öhdəlikləri

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin layihənin həyata keçirilməsinə maliyyə dəstəyi və texniki dəstək göstərərək, aşağıdakı vəzifələri həyata keçirəcəkdir:

rayonlar səviyyəsində təbliğat və maarifləndirmə işinin aparılması;

uşaq hüquqları konvensiyası barədə əhalinin məlumatlandırılması (müşavirələr, plakatlar, bukletlər);

pilot seçilmiş rayonlarda uşaqların hüquqlarının qorunmasının təmin edilməsi məqsədilə əlaqədar qurumların nümayəndələri ilə dəyirmi masaların keçirilməsi;

rayonlar səviyyəsində uşaqların müəssisələrə düşməsinin qarşısının alınması məqsədilə risk qrupuna daxil olan uşaqların valideynlərinin maarifləndirilməsi;

kütləvi informasiya vasitələrinin nümayəndələri üçün alternativ qayğı və uşaq müdafiə sistemi barədə treninqlərin keçirilməsi.

V. UNİCEF-in öhdəlikləri

UNİCEF, dövlət Proqramının icrasına dəstəyin tərkib hissəsi olaraq, Anlaşma Memorandumunda qeyd olunan pilot layihənin həyata keçirilməsinə öz siyasi, sərəncamında olan maliyyə dəstəyi və texniki dəstək göstərərək, aşağıdakı tədbirləri həyata keçirəcəkdir:

ölkədə uşaqların müdafiəsi sisteminin yaradılmasının vacibliyi barədə səlahiyyətli dövlət qurumları ilə təbliğat və müzakirələrin aparılmasına dəstək;

pilot layihənin icrasına cəlb olunmuş dövlət və qeyri-dövlət qurumlarının nümayəndələrinin bilik və bacarıqlarının artırılmasına dəstək;

pilot layihənin beynəlxalq ekspert tərəfindən qiymətləndirilməsi, əsas nəticələrdən və tövsiyələrdən ibarət hesabatın hazırlanması; pilot layihədən əldə olunan təcrübəyə əsasən və "Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı"nın icrasının səmərəliliyini artırmaq məqsədilə qanunvericiliyin təkmilləşdirilməsi, uşaqların müdafiəsi və uşaqlar üçün sosial xidmətlər üzrə standartlar, qaydalar da daxil olmaqla, hüquqi" sənədlərin hazırlanmasına texniki dəstəyin göstərilməsi;

uşaqların ailə mühitində böyüməsi hüququnun təmin edilməsində əsas amil hesab edi-

lən uşaqların müdafiəsi islahatlarının məqsəd və vəzifələri haqqında ictimaiyyətin məlumatlandırılmasında iştirak;

alternativ ailələr üçün müvafiq təlimlərin keçirilməsi üçün yardım göstərilməsi, o cümlədən təlimləri keçirənlər üçün treninqlərin təşkil edilməsi.

VI. İdarəçilik mexanizmi

Layihənin həyata keçirilməsində digər tərəfdaşların fəaliyyətlərinin əlaqələndirilməsi üçün Azərbaycan Respublikasının Təhsil Nazirliyi məsuliyyət daşıyır. Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan, Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və UNİCEF, hər tərəfdən bir nəfər olmaqla, layihənin idarə edilməsi üçün səlahiyyətli nümayəndələr ayırır. Həmin nümayəndələr rübdə bir dəfə olmaqla, görüş keçirir və hər görüşdən sonra rəhbərliklərinə yazılı hesabat təqdim edirlər.

VII. Mübahisələrin həlli mexanizmi

Tərəflər arasında yaranan mübahisəli məsələlər danışıqlar, məsləhətləşmələr əsasında Azərbaycan Respublikasının milli qanunvericiliyinə uyğun olaraq həll edilir.

VIII. Anlaşma Memorandumuna dəyişikliklər edilməsi

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Anlaşma Memorandumuna dəyişikliklər edilə bilər və bu dəyişikliklər Memorandumun IX bəndində göstərilən qaydada qüvvəyə minir.

IX. Qüvvəyəminmə

Bu Anlaşma Memorandumu imzalandığı gündən qüvvəyə minir və iki il müddətinə bağlanır.

Bu Anlaşma Memorandumu Azərbaycan və ingilis dillərində imzalanır və hər iki sənəd eyni hüquqi qüvvəyə malikdir.

Bu Anlaşma Memorandumu 2010-cu il 9 mart tarixində Bakı şəhərində imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ ADINDAN

MİSİR MƏRDANOV
Təhsil naziri

AZƏRBAYCAN RESPUBLİKASININ ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİ ADINDAN

FİZULİ ƏLƏKBƏROV
Əmək və əhalinin sosial müdafiəsi naziri

AZƏRBAYCAN RESPUBLİKASININ AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ ADINDAN

HİCRAN HÜSEYNOVA
Komitənin sədri

BMT-NİN UŞAQ FONDU (UNİCEF) ADINDAN

MARK HEREVARD
UNİCEF-in Azərbaycandakı nümayəndəsi

2010-cu il martın 16-da Nyu-York şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Yamaykanın Xarici İşlər və Xarici Ticarət Nazirliyi arasında məsləhətləşmələrə dair Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2010-cu il martın 16-da Nyu-York şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Yamaykanın Xarici İşlər və Xarici Ticarət Nazirliyi arasında məsləhətləşmələrə dair Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Yamayka tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 may 2010-cu il

№ 927

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Yamaykanın Xarici İşlər və Xarici Ticarət Nazirliyi arasında məsləhətləşmələrə dair Anlaşma Memorandumu

Bundan sonra "İştirakçılar" adlandırılacaq Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Yamaykanın Xarici İşlər və Xarici Ticarət Nazirliyi,

iki ölkə arasında mövcud dostluq münasibətlərinin və əməkdaşlığın inkişafını və dərinləşməsini arzu edərək,

1961-ci il Diplomatik əlaqələr haqqında Vyana Konvensiyasını rəhbər tutaraq,

ikitərəfli münasibətlərə, habelə qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq məsələlərə dair konstruktiv və sabit dialoqun daha yaxşı qarşılıqlı anlaşmaya və daha sıx əlaqələrin təşviq edilməsinə töhfə verəcəyinə əmin olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

1. İştirakçılar iki ölkə arasında əməkdaşlığın genişləndirilməsi və dərinləşdirilməsi imkanlarını müzakirə etmək məqsədilə dövri görüşlərin keçirilməsi üçün səy göstərəcəklər.

2. İştirakçılar tərəfindən aparılan məsləhətləşmələr aşağıdakı sahələri əhatə edəcəkdir:

a) siyasi, hüquqi, iqtisadi, elmi, texniki, təhsil və mədəniyyət məsələləri üzrə ikitərəfli münasibətlərin inkişaf etdirilməsi;

b) hər iki ölkənin üzvü olan beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı maraq kəsb edən məsələlər barədə iki ölkə arasında, mümkün olan hallarda, mövqelərinin əlaqələndirilməsi və fikir mübadiləsi aparılması;

c) İştirakçılar tərəfindən müəyyən edilmiş digər məsələlər.

3.1. Məşvərətçi görüşləri növbə ilə Bakıda və ya Kinqstonda; yaxud da müvafiq olaraq, İştirakçıların BMT yanında Daimi Nümayəndəlikləri və onun ixtisaslaşdırılmış təsisatların, digər beynəlxalq təşkilatlar və beynəlxalq konfranslar çərçivəsində İştirakçılar tərəfindən zəruri hesab edildiyi hallarda dövri keçirilə bilər.

3.2. Hər bir görüşün və ya məsləhətləşmələrin iştirak səviyyəsi, keçirilmə tarixi və gündəliyi barədə İştirakçılar tərəfindən əvvəlcədən diplomatik kanallarla qərar qəbul ediləcəkdir.

4. İştirakçılar zəruri hesab etdikləri halda, birgə maraq kəsb edən xüsusi sahələr üzrə müzakirə aparmaq və bu Anlaşma Memorandumunda müəyyən olunmuş əməkdaşlıq üzrə fəaliyyəti qiymətləndirmək və həyata keçirmək məqsədilə İşçi Qrupu yarada bilərlər.

5. İştirakçıların qarşılıqlı yazılı razılığı ilə məsləhətləşmələrin nəticəsi ictimaiyyətə açıqlana bilər.

6. İştirakçıların qarşılıqlı yazılı razılığı ilə bu Anlaşma Memorandumuna istənilən zaman düzəliş edilə bilər.

7. Bu Anlaşma Memorandumunun təfsiri və yaxud tətbiqi zamanı yaranan hər bir mübahisə İştirakçılar tərəfindən diplomatik kanallarla həll ediləcəkdir.

8. İştirakçılardan hər biri 3 (üç) ay əvvəlcədən yazılı bildiriş göndərməklə bu Anlaşma Memorandumunu ləğv edə bilər. İştirakçılar yerinə yetirilməmiş məsələlərin necə həll ediləcəyini müəyyən etmək üçün məsləhətləşəcəklər.

9.1. Bu Anlaşma Memorandumu imzalandığı gündən hər iki İştirakçı tərəfindən tətbiq ediləcəkdir.

9.2. İştirakçılardan biri bu Anlaşma Memorandumunu ləğv edənə qədər hər iki İştirakçı onun tətbiq edilməsini davam etdirəcəkdir.

Bu Anlaşma Memorandumu Nyu-York şəhərində 16 mart 2010-cu il tarixində, hər biri Azərbaycan və ingilis dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, hər iki mətn eyni qüvvəyə malikdir. Bu Anlaşma Memorandumunun təfsirində fikir ayrılığı olduqda, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ ADINDAN	YAMAYKANIN XARİCİ İŞLƏR VƏ XARİCİ TİCARƏT NAZİRLİYİ ADINDAN
(imza)	*(imza)*

2010-cu il martın 18-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqı arasında Asiya, Avropa və əsas dünya bazarları arasında avtomobil daşımalarının Azərbaycan Respublikası ərazisindən keçməklə inkişafı barədə Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2010-cu il martın 18-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqı arasında Asiya, Avropa və əsas dünya

bazarları arasında avtomobil daşımalarının Azərbaycan Respublikası ərazisindən keçməklə inkişafı barədə Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqını xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 may 2010-cu il

№ 928

Azərbaycan Respublikası Hökuməti ilə Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqı arasında Asiya, Avropa və əsas dünya bazarları arasında avtomobil daşımalarının Azərbaycan Respublikası ərazisindən keçməklə inkişafı barədə Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqı (İRU),

avtomobil nəqliyyatı və beynəlxalq avtomobil daşımaları sahəsində qarşılıqlı fəaliyyəti və əməkdaşlığı inkişaf etdirməyə səy göstərərək,

Azərbaycan Respublikası ərazisindən keçməklə, Asiya, Avropa və əsas dünya bazarları arasında ticarət və turizmin təmin edilməsi üçün avtomobil nəqliyyatının geniş imkanlarını nəzərə alaraq,

Avrasiya marşrutlarında beynəlxalq avtonəqliyyatın və intrastruktur və logistikanın müvafiq sistemlərinin səmərəliliyinin yüksəldilməsinin zəruriliyini təsdiq edərək,

Avropa, Asiya və əsas dünya bazarları arasında beynəlxalq avtonəqliyyat əlaqələrinin inkişafında və möhkəmləndirilməsində Azərbaycan Respublikasının başlıca rolunu və yüksək imkanlarını təsdiq edərək,

Avrasiya marşrutlarında infrastrukturun, logistikanın və beynəlxalq avtonəqliyyatın sərhədlərdən keçmə prosedurlarının beynəlxalq səviyyədə razılaşdırılmış inkişafının vacibliyini təsdiq edərək,

dənizə çıxışı olmayan, inkişaf etməkdə olan ölkələrin, həmçinin inkişaf etməkdə olan tranzit ölkələrin nazirlərinin və tranzit daşımalar sahəsində əməkdaşlıq barədə məsələ üzrə donor cəmiyyəti nümayəndələrinin Beynəlxalq Konfransı tərəfindən 2003-cü il avqustun 29-da qəbul edilmiş Almatı Fəaliyyət Proqramında,

Avropa və Asiya Ölkələri nazirlərinin müşavirəsində (19 fevral 2008-ci il, Cenevrə, İsveçrə) qəbul edilmiş Avrasiya nəqliyyat əlaqələrinin gələcək inkişafı barədə birgə bəyanatda,

avtomobil nəqliyyatı üzrə İRU Beşinci Avrasiya Konfransının Bəyannaməsində və nazirlərin müvafiq Bəyannaməsində (11-12 iyun 2009-cu il, Almatı ş., Qazaxıstan Respublikası),

GUAM dövlət başçılarının 2008-ci il iyulun 1-də Batumidə qəbul edilmiş birgə bəyanatında,

"GUAM-Tranzit" Beynəlxalq Konfransının Bəyannaməsində (29-30 aprel 2008-ci il, Bakı ş., Azərbaycan Respublikası),

Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Sazişdə (8 sentyabr 1998-ci il, Bakı ş., Azərbaycan Respublikası) qeyd olunmuş məqsədləri rəhbər tutaraq,

Birləşmiş Millətlər Təşkilatının konvensiya və sazişlərinin qəbul olunmasının və səmərəli icra olunmasının bütün işgüzar fəaliyyət mərkəzləri arasında avtomobil yük daşımalarının səmərəli inkişafının zəruri şərti olduğunu qeyd edərək,

Azərbaycan Respublikası Hökumətinin avtomobil nəqliyyatının işinin və nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi üzrə aktiv fəaliyyətini qeyd edərək,

İRU-nun və 74 ölkədən onun tərkibinə daxil olan 180 milli assosiasiyanın, tranzit daşımalar da daxil olmaqla, milli və beynəlxalq avtomobil nəqliyyatının inkişafının təmin edilməsi və dəstəklənməsi üzrə hökumətlərlə əməkdaşlıq əsasında həyata keçirilən aktiv və genişmiqyaslı fəaliyyətini qeyd edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər Azərbaycan Respublikası ərazisindən keçməklə, Asiya, Avropa və əsas dünya bazarları arasında beynəlxalq avtomobil daşımaları sahəsində mükəmməl əməkdaşlığın dəstəklənməsi, genişləndirilməsi və inkişaf etdirilməsi, beynəlxalq avtonəqliyyat əlaqələrinin və tranzit daşımalarının hüquqi bazasının daha da təkmilləşdirilməsi, yol infrastrukturu və beynəlxalq logistika mərkəzlərinin xidmətlərinin yaxşılaşdırılması, həmçinin beynəlxalq yollarda təhlükəsizlik səviyyəsinin yüksəldilməsi üzrə tədbirlərin prioritet əhəmiyyətini təsdiq edirlər.

Maddə 2

Tərəflər aşağıdakı üstün istiqamətlər üzrə əməkdaşlığı və qarşılıqlı fəaliyyəti inkişaf etdirəcəklər:

a) BMT-nin dünya ticarət və avtonəqliyyat əlaqələrinin inkişafına yönəlmiş, qlobal səviyyədə qüvvədə olan müxtəlif konvensiyalarının və sazişlərinin Azərbaycan Respublikasında səmərəli yerinə yetirilməsinə şərait yaradan tədbirlərin dəstəklənməsi;

b) Azərbaycan Respublikası ərazisindən keçməklə, Asiya, Avropa və əsas dünya bazarları arasında ticarət əlaqələrinin inkişafına şərait yaratmalı olan, mövcud beynəlxalq nəqliyyat marşrutlarının inkişafına və yenilərinin yaradılmasına yönəlmiş İRU NELTİ layihəsinin həyata keçirilməsi;

c) Xəzər dənizində bərə xətlərindən istifadə etməklə və Cənubi Qafqaz və Mərkəzi

Asiyadan keçməklə Avropadan Əfqanıstana avtomobil yükdaşımalarının inkişafı;

d) beynəlxalq avtonəqliyyat daşımalarının şərtlərinin yaxşılaşdırılması və yüngülləşdirilməsi, həmçinin nəqliyyat axınlarının idarə edilməsi və onların tənzimlənməsində innovasiya texnologiyalarının tətbiq olunması sahələrində informasiya mübadiləsi;

e) beynəlxalq avtonəqliyyat daşımaları xətlərində sərhədləri keçmə prosedurlarını əhəmiyyətli dərəcədə təkmilləşdirmək, həmçinin avtomobil nəqliyyatının etibarlılığını və yol təhlükəsizliyini yüksəltmək iqtidarında olan uzun müddətli tədbirlərin işlənib hazırlanması;

f) Bakı şəhərində yeni tikilən beynəlxalq dəniz ticarət limanı sahəsində logistika mərkəzinin, həmçinin mühüm beynəlxalq avtonəqliyyat marşrutları boyunca yardımçı infrastrukturun yaradılması və inkişafı;

g) Azərbaycan Respublikasının beynəlxalq avtonəqliyyat daşımaları iştirakçılarının peşəkarlıq səviyyəsinin artırılması üzrə, həmçinin digər sahələrdə layihələrin həyata keçirilməsi.

Maddə 3

Tərəflər Böyük İpək Yolu üzrə Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq marşrutların köməyilə Qərbi Avropada, Cənub-Şərqi Asiyada və ABŞ-da yerləşən əsas dünya bazarları arasında işgüzar əlaqələri təmin etmək məqsədilə beynəlxalq avtonəqliyyat daşımalarının inkişaf etdirmək və təkmilləşdirmək zərurətini təsdiq edirlər.

Tərəflər Avropa - Cənubi Qafqaz - Asiya istiqamətində müntəzəm hərəkətə başlamaq və əsas dünya bazarlarına çıxışı təmin etmək məqsədilə beynəlxalq avtomobil daşımaları üçün daha əlverişli şəraitin yaradılması üzrə konkret tədbirlər siyahısı işləyib hazırlayacaqlar.

Maddə 4

NELTİ-nin Mərkəzi marşrutu ilə yüklərin daşınmasının təmin edilməsi üçün, həmçinin Əfqanıstana tranzit daşımaların inkişafı üçün Xəzər dənizindəki bərə keçidlərinin böyük əhəmiyyətini nəzərə almaqla, Tərəflər bu daşımaların planlaşdırılması və təşkilinin bütün aspektləri üzrə əməkdaşlıq həyata keçirəcək, habelə aşağıdakı addımları atacaqlar:

a) Xəzər dənizində sabit və müntəzəm avtomobil-dəniz bərə əlaqələrinin təmin edilməsi;

b) Avropa - Asiya istiqamətində beynəlxalq avtomobil yük daşımalarının həcminin əhəmiyyətli dərəcədə artması halında, Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi tərəfindən əlavə Bakı - Aktau və/və ya Bakı - Türkmənbaşı avtomobil-dəniz bərə xətlərinin açılması imkanlarının müəyyən edilməsi.

Tərəflər Azərbaycan Respublikasının Beynəlxalq Avtomobil Daşıyıcıları (ABADA) ilə Dövlət Gömrük Komitəsi və digər rəsmi orqanların arasında dövlət-özəl tərəfdaşlığın uğurlu nümunəsi olan BYD sisteminin fəaliyyəti sayəsində Azərbaycan Respublikasında beynəlxalq avtomobil daşımaları sahəsində əldə olunmuş əhəmiyyətli tərəqqini qeyd edirlər.

Bunu nəzərə alaraq, Tərəflər BYD proseduru üzrə daşıma sistemlərinin inkişafının dəstəklənməsi, Azərbaycan Respublikasının nəqliyyat operatorları və səlahiyyətli orqanları arasında əməkdaşlığın dərinləşdirilməsi, avtonəqliyyat sektorunun inkişafının aktual məsələləri üzrə müntəzəm məsləhətlərin keçirilməsi BYD sistemi çərçivəsində elektron bəyannamə sistemi (TİR-EPD) ilə birlikdə müasir informasiya texnologiyalarının tətbiq edilməsi də daxil olmaqla nəqliyyat-gömrük sahəsində əməkdaşlığın gələcəkdə artırılması niyyətlərini təsdiq edirlər.

Maddə 6

Bu Memorandumu həyata keçirmək məqsədilə Azərbaycan Respublikasının Hökuməti və İRU müvafiq olaraq Nəqliyyat Nazirliyinə və İRU-nun üzvü ABADA-ya bir tərəfdən və İRU-nun MDB regionunda daimi nümayəndəliyinə - digər tərəfdən, Tərəflərə təqdim etmək üçün müvafiq tövsiyələri birgə işləməyə səlahiyyət verəcəklər.

Maddə 7

Bu Memorandumda müəyyən olunmuş vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi üçün Tərəflər beynəlxalq avtomobil daşımaları sahəsində əməkdaşlığın lazımi inkişafının təmin edilməsi və İRU-nun Yeni Avrasiya Avtonəqliyyat Təşəbbüsünün (NELTİ) reallaşdırılması məqsədilə müvafiq görüş, müşavirə və digər tədbirlər təşkil edəcəklər.

Maddə 8

Azərbaycan Respublikasının Hökuməti Azərbaycan Respublikası ərazisindən/ərazisinə daşımaların onun dövlət maraqları və təhlükəsizlik məsələləri ilə bağlı mənafeyinə toxunduğu təqdirdə, məhdudlaşdırılması istiqamətində müvafiq tədbirlərin görülməsi hüququnu özündə saxlayır.

Maddə 9

Bu Memorandum diplomatik kanallar vasitəsilə onun qüvvəyə minməsi üçün müvafiq dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Azərbaycan tərəfinin yazılı bildirişinin alındığı gündən qüvvəyə minir.

Bu Memorandum 5 il müddətində qüvvədə olacaq və Tərəflərdən hər hansı biri müvafiq dövrün başa çatmasına ən azı 6 ay qalanadək yazılı xəbərdarlıq yolu ilə onun fəaliyyətini dayandırmaq barədə öz niyyətini bildirməzsə, sonrakı hər 5 il üçün avtomatik olaraq uzadılacaqdır.

Bu Memorandumda bütün dəyişikliklər yalnız Tərəflərin qarşılıqlı yazılı razılığı əsasında edilə bilər.

18 mart 2010-cu ildə Bakı şəhərində, Azərbaycan Respublikasında, Azərbaycan, ingilis və rus dillərində 2 autentik nüsxədə hazırlanmışdır. Bütün mətnlər eyni hüquqi qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	BEYNƏLXALQ AVTOMOBİL NƏQLİYYATI İTTİFAQI ADINDAN
ZİYA MƏMMƏDOV	*MARTİN MARMİ*
Nəqliyyat naziri	*İttifaqının baş katibi*

2010-cu il aprelin 7-də Tallin şəhərində imzalanmış "Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Estoniya Respublikasının Təhsil və Tədqiqat Nazirliyi arasında təhsil və tədqiqat sahələrində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2010-cu il aprelin 7-də Tallin şəhərində imzalanmış "Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Estoniya Respublikasının Təhsil və Tədqiqat Nazirliyi arasında təhsil və tədqiqat sahələrində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Təhsil Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Estoniya Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 may 2010-cu il

№ 929

Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Estoniya Respublikasının Təhsil və Tədqiqat Nazirliyi arasında təhsil və tədqiqat sahələrində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Estoniya Respublikasının Təhsil və Tədqiqat Nazirliyi,

qarşılıqlı prinsipi əsasında hər iki Tərəf üçün faydalı münasibətləri möhkəmləndirmək və inkişaf etdirmək niyyəti ilə,

təhsilə, həmçinin hər iki ölkənin vətəndaşlarının təhsil və mədəni ehtiyaclarının ödənilməsinə xüsusi əhəmiyyət verərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər hər iki dövlətin təhsil və tədqiqat müəssisələri arasında birbaşa əlaqələrin inkişaf etdirilməsini təşviq edəcəklər.

Maddə 2

Tərəflər qarşılıqlı razılaşdırılmış sahələrdə tədqiqat əməkdaşlığının inkişaf etdirilməsini dəstəkləyəcək, tərəfdaş ölkədə keçirilən beynəlxalq konfranslarda və simpoziumlarda alimlərin iştirakına kömək göstərəcək, tədqiqat və elm sahələrində təcrübə mübadiləsi məqsədilə mütəxəssisləri dəvət edəcəklər.

Maddə 3

Hər bir Tərəf digər Tərəfin müraciəti əsasında təhsilin bütün forma və dərəcələri barədə arzu edilən istənilən məlumatı mübadilə edəcəklər. Tərəflər təhsil və tədqiqat sis-

temlərində yeniliklərlə və islahatlarla tanışlıq üçün təhsil və tədqiqat siyasəti üzrə mütəxəssislərin mübadiləsinə kömək göstərəcəklər.

Maddə 4

Tərəflər təhsil təsnifatlarının qarşılıqlı tanınmasının vacibliyini vurğulayaraq, bu sahədə məlumat və sənəd mübadiləsi aparacaq, Avropada Diplomların Tanınması üzrə Milli Agentliyin şəbəkəsi çərçivəsində əməkdaşlığı möhkəmləndirəcəklər.

Maddə 5

Tərəflər özlərinin müvafiq təhsil müəssisələrində digər ölkənin dilinin, ədəbiyyatının, tarixinin və mədəniyyətinin öyrənilməsini təşviq edəcəklər.

Maddə 6

Tərəflər humanitar sahədə əməkdaşlığa xüsusi diqqət yetirəcək, şagird və tələbələrin müsabiqələrdə və digər beynəlxalq proqram və layihələrdə iştirakına kömək göstərəcək, incəsənət, dizayn və əl işlərini tədris edən müvafiq ali təhsil müəssisələri arasında akademik təhsil mübadiləsini təşviq edəcəklər.

Maddə 7

Tərəflər təhsildə İKT-nin tətbiqinin mühüm əməkdaşlıq sahəsi olduğu barədə razılığa gələrək, gələcəkdə əməkdaşlıq üçün təhsildə İKT-nin tətbiqi üzrə infrastrukturun inkişafı, müəllimlər üçün təlim və tədris materiallarının təşkili, təhsil siyasətinin həyata keçirilməsində və idarə olunmasında İKT-nin tətbiqi mövzularını nəzərdən keçirəcəklər.

Maddə 8

Tərəflər tərəfdaş ölkənin tələbə və aspirantlarının dövlət ali təhsil müəssisələrində təhsil alması üçün qarşılıqlı olaraq illik təqaüdlər ayıracaqlar.

Müraciətlə bağlı məlumatlar diplomatik kanallar vasitəsilə çatdırılacaqdır. Təqaüdlər Tərəflərin büdcəsinə uyğun olaraq ayrılacaqdır.

Tərəflər ikitərəfli akademik mobilliyin təşviq edilməsi məqsədilə müvafiq inzibati agentliklər arasında milli mobillik plan və proqramları üzrə əməkdaşlığa kömək göstərəcəklər.

Maddə 9

Tərəflərin qarşılıqlı razılığı əsasında, bu Sazişə onun ayrılmaz hissəsi olan, ayrıca protokollarla rəsmiləşdirilən və Sazişin 11-ci maddəsinin müddəalarına uyğun olaraq qüvvəyə minəcək dəyişikliklər edilə bilər.

Maddə 10

Bu Sazişin həyata keçirilməsi və təfsiri zamanı yarana biləcək mübahisələr Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll olunacaqdır.

Maddə 11

Bu Saziş, onun qüvvəyə minməsi üçün tələb olunan müvafiq dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasi-

təsilə alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş 5 (beş) il müddətinə bağlanılır və Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə ən azı 6 (altı) ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə əvvəlcədən digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti 5 (beş) illik müddətə uzadılacaqdır.

Bu Saziş Tallin şəhərində 7 aprel 2010-cu il tarixində, Azərbaycan, eston və ingilis dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Sazişin təfsirində fikir ayrılığı yarandıqda, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ ADINDAN

ELMAR MƏMMƏDYAROV
Xarici işlər naziri

ESTONİYA RESPUBLİKASININ TƏHSİL VƏ TƏDQİQAT NAZİRLİYİ ADINDAN

TONİS LUKAS
Təhsil və tədqiqat naziri

2010-cu il aprelin 9-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Vyetnam Sosialist Respublikası Xarici İşlər Nazirliyi arasında Əməkdaşlıq Protokolu"nun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2010-cu il aprelin 9-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Vyetnam Sosialist Respublikası Xarici İşlər Nazirliyi arasında Əməkdaşlıq Protokolu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Vyetnam Sosialist Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 may 2010-cu il

№ 930

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Vyetnam Sosialist Respublikası Xarici İşlər Nazirliyi arasında Əməkdaşlıq Protokolu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Vyetnam Sosialist Respublikası Xarici İşlər Nazirliyi,

BMT Nizamnaməsinə uyğun olaraq, suverenliyə hörmət, bərabərlik, daxili işlərə qarışmamaq prinsiplərini rəhbər tutaraq,

iki ölkə arasında mövcud dostluq və əməkdaşlığın genişləndirilməsi niyyətində olaraq,

qarşılıqlı maraq kəsb edən regional və beynəlxalq məsələlər üzrə ikitərəfli əlaqələr barədə müxtəlif səviyyələrdə məsləhətləşmələr və fikir mübadiləsi aparılmasının hər iki Tərəf üçün faydalı olduğunu nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəlirlər:

Maddə 1

Tərəflər xarici işlər nazirləri səviyyəsində və beynəlxalq, regional və ikitərəfli məsələlər üzrə qarşılıqlı maraq kəsb edən müxtəlif səviyyələrdə məsləhətləşmələr keçirəcəklər.

Xüsusi məsələlərin həlli üçün qarşılıqlı razılıq əsasında işçi qrupları yaradıla bilər.

Məsləhətləşmələr alternativ olaraq Bakıda və Hanoyda keçiriləcəkdir. Məsləhətləşmələrin vaxtı, yeri, gündəliyi və səviyyəsi diplomatik kanallar vasitəsilə müzakirə ediləcəkdir.

Maddə 2

Tərəflər aşağıdakı məsələlər üzrə məsləhətləşmələr aparacaqlar:

a) siyasət, iqtisadiyyat, ticarət, sərmayə, sosial-mədəni, təhsil və təlim, elm və texnologiya və ətraf mühit sahələrində ikitərəfli əlaqələrdə inkişaf;

b) qarşılıqlı narahatlıq doğuran regional və beynəlxalq məsələlər;

c) ikitərəfli sazişlərin həyata keçirilməsi.

Maddə 3

Tərəflər bir-biri ilə və/və ya üçüncü ölkələrdə diplomatik və konsulluq missiyaları vasitəsilə beynəlxalq təşkilatlar və forumlar çərçivəsində fikir mübadiləsi aparmaq üçün əməkdaşlıq edəcəklər.

Maddə 4

Tərəflər heyət və təcrübə mübadiləsi üçün əlverişli şərait yaradacaq, seminar və birgə tədqiqatlar təşkil edəcəklər.

Maddə 5

Tərəflərin qarşılıqlı razılığı ilə bu Protokola əlavələr və düzəlişlər edilə bilər. Belə əlavələr və düzəlişlər bu Protokolun ayrılmaz hissəsi olan ayrıca protokollar formasında rəsmiləşdiriləcək və bu Protokolun 6-cı maddəsinin müddəalarına uyğun olaraq qüvvəyə minəcəkdir.

Maddə 6

Bu Protokol imzalandığı gündən qüvvəyə minir. Protokol beş il müddətinə qüvvədə olacaq və bu müddətin bitməsindən ən azı altı ay əvvəl bir Tərəf digərini yazılı bildiriş vasitəsilə onu ləğv etmək qərarı barədə məlumatlandırmadıqda, avtomatik olaraq növbəti beşillik müddətlərə yenilənəcəkdir.

Bu Protokol Bakı şəhərində 9 aprel 2010-cu il tarixində Azərbaycan, Vyetnam və ingilis dillərində iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Müxtəlif

şərhlər olduqda, ingilis dilindəki mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ ADINDAN	VYETNAM SOSİALİST RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ ADINDAN
XƏLƏF XƏLƏFOV	*NQUEN KUOK KIONQ*
Xarici işlər nazirinin müavini	*Xarici işlər nazirinin müavini*

Azərbaycan Respublikası və Mavritaniya İslam Respublikası arasında 2010-cu il aprelin 9-da Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və Mavritaniya İslam Respublikası arasında 2010-cu il aprelin 9-da Bakı şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikası Hökuməti və Mavritaniya İslam Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq üzrə Anlaşma Memorandumu;

1.2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Mavritaniya İslam Respublikasının Xarici İşlər və Əməkdaşlıq Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.2-ci bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.2-ci bəndlərində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Mavritaniya İslam Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 may 2010-cu il

№ 931

Azərbaycan Respublikası Hökuməti və Mavritaniya İslam Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq üzrə Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Mavritaniya İslam Respublikası Hökuməti,

iki ölkə arasında mövcud dostluq əlaqələrinin sonrakı inkişafını və möhkəmləndirilməsini arzu edərək,

ikitərəfli əlaqələrdə mədəniyyətlərarası dialoqun vacib rolunu nəzərə alaraq və mədəniyyət sahəsində əməkdaşlığın inkişaf etdirilməsini arzulayaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər hər iki ölkədə keçirilən festivallarda folklor qruplarının səfərlərinin mübadiləsini həyata keçirəcəklər.

Maddə 2

Tərəflər hər iki ölkədə musiqi fəaliyyətinin aspektlərini öyrənmək məqsədilə mütəxəssislərin səfərlərini təşviq edəcəklər.

Maddə 3

Tərəflər iki ölkə arasında kitabların birgə nəşri və təbliği, hər iki ölkədə təşkil olunan kitab yarmarkalarında və sərgilərində, folklor və foto sərgilərində iştirak üçün plan hazırlayacaqlar.

Maddə 4

Tərəflər forum və seminarlarda iştirak edəcək, nəşr və tədqiqat jurnallarını mübadilə edəcək və hər iki ölkənin Yazıçılar Birliyi arasında əlaqələri möhkəmləndirəcəklər.

Maddə 5

Tərəflər əntiq əşya və tarixi abidələr, muzeylər sahəsində nəşr və təcrübə mübadiləsini və hər iki ölkənin sivilizasiya və mədəniyyətinin öyrənilməsi üçün konfrans və seminarlarda qarşılıqlı iştirakı həyata keçirəcəklər.

Maddə 6

Tərəflər abidə və məkanların mühafizəsi, bərpası və qorunub saxlanması sahəsində təcrübə mübadiləsini həyata keçirəcəklər.

Maddə 7

Tərəflər hər iki ölkədə incəsənət sahəsində əldə edilmiş nailiyyətlərin araşdırılması məqsədilə heykəltəraşlıq və tanınmış incəsənət işlərinin sərgilərini və rəssamların qarşılıqlı səfərlərini təşkil edəcəklər.

Maddə 8

Tərəflər hər iki ölkənin mədəniyyət sahəsində təcrübəsini müəyyənləşdirmək məqsədilə ekspert və mütəxəssislərin qarşılıqlı səfərlərini təşkil edəcək və mühazirə, seminar və mədəni tədbirlərdə iştirakı dəstəkləyəcəklər.

Maddə 9

Tərəflər ölkələrində bir-birilərinin mədəniyyət günlərinin təşkili imkanlarını araşdıracaqlar.

Maddə 10

Tərəflər birgə film istehsalı və hər iki ölkədə kino həftələrinin təşkil edilməsi işini dəstəkləyəcəklər.

Maddə 11

Tərəflər bu Anlaşma Memorandumunun şərhi və tətbiqi ilə bağlı yarana biləcək istənilən mübahisəni dinc yolla həll edəcəklər.

Maddə 12

Bu Anlaşma Memorandumuna Tərəflərin qarşılıqlı razılığı əsasında istənilən əlavə və dəyişikliklər edilə bilər. Belə əlavə və dəyişikliklər bu Anlaşma Memorandumunun ayrılmaz hissəsi olan ayrı-ayrı protokollar formasında rəsmiləşdiriləcək və bu Anlaşma Memorandumunun 13-cü maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minəcəkdir.

Maddə 13

Bu Anlaşma Memorandumu Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurlarını yerinə yetirdikləri barədə sonuncu yazılı bildirişlərinin alındığı tarixdən qüvvəyə minir.

Bu Anlaşma Memorandumu beş il müddətinə bağlanılır və Tərəflərdən biri bu Anlaşma Memorandumunun müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə digər Tərəfə diplomatik kanallar vasitəsilə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beş il müddətinə uzadılacaqdır.

Bu Anlaşma Memorandumu Bakı şəhərində 9 aprel 2010-cu il tarixində, hər biri Azərbaycan, ərəb və ingilis dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsirində fikir ayrılığı olduqda, ingilis dilindəki mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	MAVRİTANİYA İSLAM RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*NAHA MİNT HAMDİ ULD MUKNASS*
Xarici işlər naziri	*Xarici işlər və əməkdaşlıq naziri*

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Mavritaniya İslam Respublikasının Xarici İşlər və Əməkdaşlıq Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Mavritaniya İslam Respublikasının Xarici İşlər və Əməkdaşlıq Nazirliyi,

BMT Nizamnaməsinə uyğun olaraq suverenliyə hörmət, bərabərlik, ərazi bütövlüyü, daxili işlərə qarışmama prinsiplərini rəhbər tutaraq,

iki ölkə arasında mövcud olan dostluq və əməkdaşlıq əlaqələrini daha da möhkəmləndirməyi arzulayaraq,

ikitərəfli münasibətlər, həmçinin qarşılıqlı maraq kəsb edən regional və beynəlxalq məsələlərə dair müxtəlif səviyyələrdə məsləhətləşmələr keçirilməsinin və fikir mübadiləsinin hər iki Tərəf üçün faydalı olduğunu nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər qarşılıqlı maraq kəsb edən beynəlxalq, regional və ikitərəfli məsələlər üzrə xarici işlər nazirləri səviyyəsində və digər səviyyələrdə müntəzəm danışıqlar və məsləhətləşmələr keçirəcəklər.

Tərəflərin qarşılıqlı razılığı əsasında xüsusi məsələlərlə bağlı ekspertlərin işçi ad hoc qrupu yaradıla bilər.

Maddə 2

Tərəflər aşağıdakı məsələlər üzrə məsləhətləşmələr keçirəcəklər:

a) iki ölkə arasında siyasi münasibətlərin inkişafı;

b) qarşılıqlı maraq kəsb edən regional və beynəlxalq məsələlər;

c) ikitərəfli sazişlərin bağlanması və icrası.

Maddə 3

Tərəflərin xarici işlər nazirləri və ya onların nümayəndələri və ekspertlər ikitərəfli münasibətlər, həmçinin qarşılıqlı maraq kəsb edən regional və beynəlxalq məsələlər barəsində məsləhətləşmələr keçirilməsi üçün ildə bir dəfə və zəruri olduqda görüşəcəklər. Məsləhətləşmələr növbə ilə Bakı və Nuvakşot şəhərlərində keçiriləcəkdir.

Maddə 4

Tərəflər beynəlxalq təşkilatlar və forumlar çərçivəsində mövqeləri barədə bir-biri ilə, həmçinin üçüncü ölkələrdə yerləşən diplomatik və konsulluq missiyaları vasitəsilə əməkdaşlıq edəcəklər.

Maddə 5

Tərəflər əməkdaşlar və təcrübə mübadiləsi, seminar və birgə tədqiqatların təşkili üçün əlverişli şərait yaradacaqlar.

Maddə 6

Tərəflərin qarşılıqlı razılığı ilə bu Protokola əlavələr və dəyişikliklər edilə bilər. Belə əlavələr və dəyişikliklər bu Protokolun ayrılmaz hissəsi olan ayrı-ayrı protokollar şəklində ediləcək və bu Protokolun 7-ci maddəsinin müddəalarına uyğun olaraq qüvvəyə minəcəkdir.

Bu Protokol imzalandığı tarixdən qüvvəyə minəcəkdir. Protokol beş il müddətinə qüvvədədir və əgər bu müddətin başa çatmasına ən azı altı ay qalmış Tərəflərdən biri digərinə onun qüvvəsini ləğv etmək qərarı barədə yazılı bildiriş göndərməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılır.

Bakı şəhərində, 9 aprel 2010-cu il tarixində, hər biri Azərbaycan, ərəb və ingilis dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Sazişin təfsiri zamanı fikir ayrılığı olduğu təqdirdə, ingilis dilindəki mətn üstünlük təşkil edəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ ADINDAN

ELMAR MƏMMƏDYAROV
Xarici işlər naziri

MAVRİTANİYA İSLAM RESPUBLİKASININ XARİCİ İŞLƏR VƏ ƏMƏKDAŞLIQ NAZİRLİYİ ADINDAN

NAHA MİNT HAMDİ ULD MUKNASS
Xarici işlər və əməkdaşlıq naziri

2010-cu il aprelin 12-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Qambiya Respublikasının Xarici İşlər, Beynəlxalq Əməkdaşlıq və Xaricdəki Qambiyalılarla iş üzrə Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2010-cu il aprelin 12-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Qambiya Respublikasının Xarici İşlər, Beynəlxalq Əməkdaşlıq və Xaricdəki Qambiyalılarla iş üzrə Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol"təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Qambiya Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 may 2010-cu il

№ 932

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Qambiya Respublikasının Xarici İşlər, Beynəlxalq Əməkdaşlıq və Xaricdəki Qambiyalılarla İş üzrə Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Qambiya Respublikasının Xarici İşlər, Beynəlxalq Əməkdaşlıq və Xaricdəki Qambiyalılarla İş üzrə Nazirliyi,

BMT Nizamnaməsinə uyğun olaraq, suverenliyə hörmət, bərabərlik, ərazi bütövlüyü, daxili işlərə qarışmama prinsiplərini rəhbər tutaraq,

qarşılıqlı maraq kəsb edən ikitərəfli münasibətlər, regional və beynəlxalq məsələlərə dair məsləhətləşmələr keçirilməsinin və fikir mübadiləsinin hər iki Tərəf üçün faydalı olduğuna inanaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər qarşılıqlı maraq kəsb edən ikitərəfli, regional və beynəlxalq məsələlər üzrə xarici işlər nazirləri səviyyəsində və ya bundan aşağı səviyyələrdə müntəzəm məsləhətləşmələr aparacaqlar.

Xüsusi məsələlərlə bağlı qarşılıqlı razılıq əsasında ad hoc işçi qrupları yaradıla bilər.

Maddə 2

Tərəflər aşağıdakı məsələlərə əhəmiyyət verərək məsləhətləşmələr aparacaqlar:

a) ikitərəfli siyasi münasibətlərin inkişafı;

b) qarşılıqlı maraq kəsb edən regional və qlobal məsələlər;

c) ikitərəfli sazişlərin həyata keçirilməsi üzrə məlumat mübadiləsi.

Maddə 3

Tərəflər hər il və ya zəruri olduqda növbə ilə Bakı və Banjul şəhərlərində görüşəcəklər.

Maddə 4

Tərəflər beynəlxalq təşkilatlar və forumlar çərçivəsində öz mövqelərini əlaqələndirmək məqsədilə əməkdaşlıq edəcəklər.

Tərəflər üçüncü ölkələrdə yerləşən öz diplomatik və konsulluq missiyaları vasitəsilə əməkdaşlıq edəcəklər.

Maddə 5

Tərəflər diplomatik xidmət sahəsində qarşılıqlı əlaqələr, birbaşa əlaqələr, əməkdaşların mübadiləsi vasitəsilə təcrübə mübadiləsi, birgə tədqiqat layihələri, həmçinin birbaşa ikitərəfli əlaqələr üçün əlverişli şərait yaradacaqlar.

Maddə 6

Qarşılıqlı razılıq əsasında bu Protokola onun ayrılmaz hissəsi olan və bu Protokolun 7-ci maddəsinin müddəalarına uyğun olaraq qüvvəyə minən ayrıca protokollar formasında rəsmiləşdirilən hər hansı dəyişikliklər edilə bilər.

Maddə 7

Bu Protokol imzalandığı gündən qüvvəyə minəcəkdir və 5 (beş) il müddətinə qüvvədə olacaqdır.

Bu Protokol, əgər 5 (beş) illik müddətin başa çatmasına 6 (altı) ay qalmış Tərəflərdən biri digərinə yazılı bildiriş göndərməzsə, avtomatik olaraq əlavə 5 (beş) illik müddətlərə uzadılacaqdır.

Bakı şəhərində 12 aprel 2010-cu il tarixində, hər biri Azərbaycan və ingilis dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ ADINDAN

ELMAR MƏMMƏDYAROV
Xarici işlər naziri

QAMBİYA RESPUBLİKASININ XARİCİ İŞLƏR, BEYNƏLXALQ ƏMƏKDAŞLIQ VƏ XARİCDƏKİ QAMBİYALILARLA İŞ ÜZRƏ NAZİRLİYİ ADINDAN

USMAN CAMMEH
Xarici işlər, beynəlxalq əməkdaşlıq və xaricdəki qambiyalılarla iş üzrə naziri

2010-cu il aprelin 13-də Buxarest şəhərində imzalanmış "Mayeləşdirilmiş təbii qaz (LNG) və onun nəqli sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2010-cu il aprelin 13-də Buxarest şəhərində imzalanmış "Mayeləşdirilmiş təbii qaz (LNG) və onun nəqli sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Rumıniya və Gürcüstan tərəflərini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 may 2010-cu il

№ 933

Mayeləşdirilmiş təbii qaz (LNG) və onun nəqli sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu

Rumıniyanın İqtisadiyyat, Ticarət və Biznes Mühiti Nazirliyi, Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi və Gürcüstanın Energetika Nazirliyi,

bundan sonra onlardan hər biri ayrılıqda "Tərəf", birlikdə isə "Tərəflər" adlandırılacaqdır,

Azərbaycanın Xəzər regionunda karbohidrogenlərin əsas istehsalçısı kimi mühüm rolunu, Gürcüstanın enerji tranziti ölkəsi kimi əhəmiyyətini və Azərbaycanın təbii qazının Avropaya birbaşa çıxışının təmin edilməsində Rumıniyanın potensialını dərk edərək,

Tərəflər arasında hərtərəfli əməkdaşlığa, inama və onların maraqlarına qarşılıqlı hörmətə əsaslanan, öz ölkələrinin faydası üçün qurulmuş çox yaxşı münasibətlər olduğunu qəbul edərək,

onların enerji sahəsində üst-üstə düşən maraqları barədə xəbərdar olaraq və bu üçtərəfli əməkdaşlıq çərçivəsinin Tərəflərə gətirə biləcəyi qarşılıqlı faydanı qabaqcadan dərk edərək,

Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi və Rumıniyanın İqtisadiyyat və Maliyyə Nazirliyi arasında 2008-ci il martın 12-də Buxarest şəhərində imzalanmış Əməkdaşlıq haqqında Saziş, Azərbaycan Respublikası və Rumıniya arasında strateji tərəfdaşlığın yaradılması razılaşması haqqında 2009-cu il sentyabrın 28-də Buxarest şəhərində imzalanmış Birgə Bəyannamə, Rumıniyanın İqtisadiyyat Nazirliyi və Gürcüstanın Energetika Nazirliyi arasında neft, qaz və enerji nəqli yolları sahəsində əməkdaşlıq haqqında 2009-cu il oktyabrın 7-də Tbilisi şəhərində imzalanmış Protokol və Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi və Rumıniyanın İqtisadiyyat, Ticarət və Biznes Mühiti Nazirliyi arasında energetika sahəsində əməkdaşlıq haqqında 2010-cu il fevralın 2-də Bakı şəhərində imzalanmış Anlaşma Memorandumu ilə müəyyən olunmuş mövcud əməkdaşlıq çərçivəsini nəzərdən keçirərək,

Cənub Dəhlizi Sammitinin 8 may 2009-cu il tarixli Praqa Bəyannaməsini nəzərə alaraq,

Cənub Dəhlizi konsepsiyası çərçivəsində Xəzər regionu ilə Avropanı birləşdirən enerji tranziti dəhlizini inkişaf etdirmək məqsədilə Tərəflər arasında əməkdaşlığı gücləndirmək barədə qərarlarını ifadə edərək,

aşağıdakı məqsədlərə nail olmaq üçün gələcəkdə də əməkdaşlıq etmək barədə razılığa gəldilər:

- maye qaz və onun nəqli sahəsində layihələrin inkişaf etdirilməsi;

- Tərəflərin enerji sektorunda fəaliyyət göstərən müvafiq iqtisadi təşkilatların arasında əməkdaşlığın dəstəklənməsi;

- bazar prinsiplərinə əsaslanan qarşılıqlı faydalı əməkdaşlığın qurulması.

Rumıniyanın İqtisadiyyat, Ticarət və Biznes Mühiti Nazirliyi və Gürcüstanın Energetika Nazirliyi Gürcüstanda qazın maye halına salınması qurğularının və Rumıniyada mayenin yenidən qaz halına salınması qurğularının mümkün inkişafını müəyyən etdiklərini və digər potensial yollar və bazarlarla yanaşı, Azərbaycandan qaz təchizatı imkanlarını nəzərə alaraq, Tərəflər bundan sonra Azərbaycan - Gürcüstan - Rumıniya Əlaqələndiricisi (AGRİ) adlandırılacaq enerji əməkdaşlığı layihəsinin perspektivlərinin təhlil edilməsi və bu layihənin həyata keçirilməsi imkanlarının birgə müzakirə edilməsi barədə razılığa gəldilər.

Bu kontekstdə,

1. Rumıniyanın İqtisadiyyat, Ticarət və Biznes Mühiti Nazirliyi və Gürcüstanın Energetika Nazirliyi, layihələrin həyata keçirilməsinin mümkünlüyü üzrə hal-hazırda davam edən tədqiqatların yekunlarına əsaslanaraq, Gürcüstanda və Rumıniyada LNG terminallarının tikintisi, maliyyələşdirilməsi və idarə edilməsi üçün mövcud imkanların və şərtlərin təhlil edilməsində aidiyyəti şirkətlərinə dəstək verəcəkləri barədə razılığa gəldilər.

2. Tərəflər xoş mərama və bazar prinsiplərinə əsaslanaraq, həmçinin müvafiq tədqiqatların nəticəsindən asılı olaraq, özlərinin müvafiq şirkətlərini Layihə ilə bağlı sazişlər, o cümlədən, lakin bununla məhdudlaşmayan, təbii qazın Gürcüstan ərazisindən Gürcüstanın Qara Dəniz sahilində planlaşdırılmış qazın maye halına salınma terminalına tranziti və Qara Dənizi keçməklə Gürcüstandan Rumıniyaya və sonradan Rumıniyanın nəqliyyat şəbəkəsi vasitəsilə Avropa İttifaqının qaz bazarlarına nəqli haqqında sazişlər üzrə

danışıqlar aparmağa və onları bağlamağa təşviq etməyə səy göstərəcəklər.

3. Tərəflər AGRİ layihəsini Avropa İttifaqının enerji təhlükəsizliyinə töhfə olaraq və Praqa Bəyannaməsi ilə müəyyən edilmiş Cənub Dəhlizi Konsepsiyasına uyğun şəkildə inkişaf etdirəcəklər.

4. Bu kontekstdə, energetika sahəsində üçtərəfli əməkdaşlığın genişləndirilməsi imkanlarının birgə müzakirə edilməsi üçün onlar aşağıdakılar üzrə imkanları öyrənmək və həlləri inkişaf etdirmək məqsədilə müvafiq şirkətlərini (SOCAR, GOGC, ROMGAZ, TRABSGAZ) dəstəkləyəcəklər:

- qazın nəqli;

- Rumıniyada qaz ticarəti və yeraltı anbarların istifadəsi imkanları;

- AGRİ layihəsi çərçivəsində Avropaya LNG tədarükü.

5. Tərəflər layihənin inkişafı və həyata keçirilməsi məqsədilə, o cümlədən texniki, texnoloji, ticari, iqtisadi, maliyyə və hüquqi aspektləri nəzərə almaqla, onun həyata keçirilməsi mümkünlüyünü öyrənmək üçün Buxarestdə layihə inkişafı şirkətinin yaradılmasını dəstəkləyirlər.

Anlaşma Memorandumu onun qüvvəyə minməsi üçün müvafiq dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında Tərəflərin üçüncü bildirişinin alınmasından sonrakı ayın ilk günü qüvvəyə minir.

Anlaşma Memorandumu 2010-cu il aprelin 13-də Buxarest şəhərində, ingilis dilində olan üç əsl nüsxədə imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ SƏNAYE VƏ ENERGETİKA NAZİRLİYİ ADINDAN

NATİQ ƏLİYEV
Sənaye və energetika naziri

RUMİNİYANIN İQTİSADİYYAT, TİCARƏT VƏ BİZNES MÜHİTİ NAZİRLİYİ ADINDAN

ADRİAN VİDEANU
İqtisadiyyat, ticarət və biznes mühiti naziri

GÜRCÜSTANIN ENERGETİKA NAZİRLİYİ ADINDAN

ALEKSANDR XETAQURİ
Energetika naziri

2010-cu il aprelin 14-də Moskva şəhərində imzalanmış "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Tacikistan Respublikası Müdafiə Nazirliyi arasında Tacikistan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının Azərbaycan Respublikası Müdafiə Nazirliyinin ali hərbi təhsil müəssisələrində təhsil alması haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2010-cu il aprelin 14-də Moskva şəhərində imzalanmış "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Tacikistan Respublikası Müdafiə Nazirliyi arasında Tacikistan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının Azərbaycan Respublikası Mü-

dafiə Nazirliyinin ali hərbi təhsil müəssisələrində təhsil alması haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tacikistan Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 may 2010-cu il

№ 934

Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Tacikistan Respublikası Müdafiə Nazirliyi arasında Tacikistan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının Azərbaycan Respublikası Müdafiə Nazirliyinin ali hərbi təhsil müəssisələrində təhsil alması haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Tacikistan Respublikası Müdafiə Nazirliyi,

1 iyun 2006-cı il tarixində Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş"in müddəalarını nəzərə alaraq,

Azərbaycan Respublikası və Tacikistan Respublikası Silahlı Qüvvələri arasında hərbi təhsil sahəsində əməkdaşlığın inkişaf etdirilməsini arzulayaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Anlayışlar

Bu Sazişin məqsədləri üçün aşağıdakı anlayışlardan istifadə edilmişdir:

Göndərən Tərəf - kursant və dinləyicilərini hərbi təhsil almaq üçün göndərən Tərəf.

Qəbul edən Tərəf - Göndərən Tərəfin kursant və dinləyicilərini bu Sazişin şərtlərinə əsasən hərbi təhsil almaq üçün Qəbul edən Tərəf.

Kursantlar - Qəbul edən Tərəfin dəvəti əsasında Azərbaycan Respublikası Müdafiə Nazirliyinin ali hərbi təhsil müəssisələrində hərbi təhsil almaq üçün gələn Göndərən Tərəfin hərbi qulluqçuları.

Dinləyicilər - zabit ixtisası kurslarında təhsilini davam etdirən hərbi təhsil müəssisələrinin məzunları və Qəbul edən Tərəfin dəvəti əsasında Azərbaycan Respublikası Silahlı

Qüvvələrinin Hərbi Akademiyasında təhsil almaq üçün gələn Göndərən Tərəfin hərbi qulluqçuları.

Maddə 2

Ümumi müddəalar

1. Bu Sazişin məqsədi Göndərən Tərəfin Azərbaycan Respublikası Müdafiə Nazirliyinin ali hərbi təhsil müəssisələrində hərbi təhsil almaq üçün gələn kursant və dinləyicilərinin hərbi təhsilinin şərtlərini və statusunu müəyyən etməkdir.

2. Göndərən Tərəfin hərbi təhsil almaq üçün Qəbul edən Tərəfin dövlətinə gələn hərbi qulluqçuların təhsil zamanı Qəbul edən Tərəfin hərbi qulluqçuları ilə eyni statusa malikdirlər.

3. Təhsil ödənişsiz və ödənişli əsaslarda həyata keçirilə bilər:

ödənişsiz əsaslarda Göndərən Tərəfin hərbi qulluqçularının təhsili və təminatı Qəbul edən Tərəfin dəvətilə və onun hesabına həyata keçirilir;

ödənişli əsaslarda - Göndərən Tərəfin hərbi qulluqçularının təhsili və təminatı Göndərən Tərəfin hesabına, kontrakta müvafiq olaraq həyata keçirilir.

4. Təhsilin formaları (ödənişsiz və ödənişli əsaslarda) təhsil üçün dəvətlərdə qeyd olunacaqdır.

Maddə 3

Kursantlara və dinləyicilərə dair tələblər

Təhsil almaq üçün seçilən namizədlər Göndərən Tərəfin dövlətinin vətəndaşlığına malik olmalı və Qəbul edən Tərəfin dəvətnaməsində göstərilən tələblərə uyğun olmalıdırlar.

Maddə 4

Hərbi təhsilin təşkili

1. Təhsil dili - Azərbaycan dilidir. Zərurət olduqda, Qəbul edən Tərəf ilkin dil kursları keçirir.

2. Hərbi təhsilin müddəti Azərbaycan Respublikası Müdafiə Nazirliyinin ali hərbi təhsil müəssisələrinin illik fəaliyyət planlarında müəyyən edilir.

3. Kursant və dinləyicilərin praktiki məşğələləri hərbi hazırlıq məşğələləri proqramına uyğun aparılır. Kursant və dinləyicilər praktiki məşğələlərdə Qəbul edən Tərəfin hərbi qulluqçuları ilə birlikdə iştirak edirlər.

4. Hərbi hazırlıq məşğələləri proqramının hər bölümünün sonunda kursantlar və dinləyicilər Qəbul edən Tərəfin təsdiq etdiyi qiymətləndirmə prosedurlarına müvafiq olaraq qiymətləndirilən testdən keçməlidirlər.

5. Hərbi təhsili bitirən kursant və dinləyicilərə Qəbul edən Tərəfin müəyyənləşdirdiyi prosedura müvafiq olaraq hər iki Tərəfdən tanınacaq diplomlar, sertifikatlar və fərqlənmə nişanları verilir.

6. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin ali hərbi təhsil müəssisələrindən məzun olan Tacikistan Respublikası Müdafiə Nazirliyinin kursantları Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müvafiq təlim mərkəzlərində təşkil olunan 1 (bir) illik zabit ixtisas kurslarında təhsillərini davam etdirə bilərlər.

7. Tacikistan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçuları Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasında 2 (iki) il müddətinə dinləyicilər qismində təhsil ala bilərlər.

Maddə 5

Tərəflərin hüquq və vəzifələri

Qəbul edən Tərəf:

1) Təhsilin başlanmasına ən azı 6 ay qalmış Göndərən Tərəfə ayrılmış yerlərin miqdarı və namizədlərə dair tələblər barədə məlumat verir;

2) Göndərən Tərəfin kursant və dinləyicilərini hərbi təhsil almaq üçün dəvətnamədə qeyd olunmuş sayda qəbul edir;

3) hərbi təhsil proqramına uyğun hərbi təhsili təşkil edir və həyata keçirir;

4) ilkin dil kurslarının keçirilməsini təşkil edir;

5) kursant və dinləyicilərin yerləşdirilməsini, qidalanmasını təmin edir;

6) kursantları, dinləyiciləri tədris vəsaitləri və ədəbiyyatla təmin edir;

7) Göndərən Tərəfin kursantları, zabit ixtisas kurslarının dinləyicilərini nəzəri və praktiki məşğələlər zamanı müvafiq geyim forması ilə təmin edir;

8) kursant və dinləyiciləri zəruri təcili tibbi yardımla təmin edir;

9) ödənişsiz əsaslarda təhsil alan kursantları və zabit ixtisas kurslarının dinləyicilərini Azərbaycan Respublikası Müdafiə Nazirliyinin ali hərbi təhsil müəssisələrinin kursantları üçün müəyyənləşdirilmiş miqdarda aylıq təqaüdlə təmin edir;

10) hərbi təhsilin sonunda Göndərən Tərəfi hər bir kursant və dinləyicinin əldə etdiyi nəticələr barədə məlumatlandırır;

11) kursant/dinləyici Qəbul edən Tərəfin dövlətinin ərazisində vəfat etdiyi halda ölümün səbəbinə dair bütün məlumatı Göndərən Tərəfə təqdim edir;

12) kursant və dinləyicilərin xaric olunmaları barədə xaricolunmanın səbəbi və Tacikistan Respublikasına göndərilmə tarixi qeyd edilməklə Göndərən Tərəfi məlumatlandırır;

13) kursant və dinləyicilər Qəbul edən Tərəfin tələb etdiyi sənədlərə (tibbi sığorta, həyat sığortası və s.) malik olmadıqda və ya təhsil üçün dəvətnamədə göstərilən tələblərə cavab vermədikdə, onları qəbul etməkdən imtina etmək hüququna malikdir.

Göndərən Tərəf:

1) Qəbul edən Tərəfin dəvətnaməsində göstərilən tələblərə və miqdara uyğun namizədlərin seçilməsini həyata keçirir;

2) hərbi təhsil almaq üçün gedən kursant və dinləyiciləri həqiqi tibbi sığorta və həyat sı-

ğortası ilə təmin edir, eləcə də bunlarla bağlı xərcləri ödəyir;

3) hərbi təhsilin başlanmasına ən azı bir ay qalmış kursant və dinləyicilərin siyahısını və Qəbul edən Tərəfin tələb etdiyi digər sənədlərin surətlərini Qəbul edən Tərəfə təqdim edir;

4) Qəbul edən Tərəfin dövlətinin ərazisində Göndərən Tərəfin hər hansı bir kursantı/dinləyicisi vəfat etdikdə, cəsədin öz dövlətinin ərazisinə qaytarılması üçün tədbirlər görür.

Maddə 6

Maliyyə məsələləri

1. Ödənişsiz əsaslarda təhsil zamanı Qəbul edən Tərəf Göndərən Tərəfin kursant və dinləyicilərinin aşağıdakılarla təmin edilməsi üzrə xərcləri ödəyir:

müəllim heyəti, tədris vəsaitləri, tədris-sinif ləvazimatı, laboratoriya avadanlığı, silahlar, texnika, sursat və praktiki təlimin digər texniki vasitələri, eləcə də tədris planları və proqramlarına müvafiq olaraq tədris prosesi üçün zəruri olan sərf materialları və digər avadanlıqlar;

yemək, yaşayış yeri və nəzəri və praktiki məşğələlər zamanı müvafiq geyim forması ilə;

kitabxanalar, idman zalları və tədris prosesi üçün zəruri olan digər otaqlarla;

tədris məqsədləri üçün nəqliyyatla;

aylıq təqaüdlə;

tibbi xidmətlə.

2. Ödənişli əsaslarda təhsil zamanı Qəbul edən Tərəf bu maddənin 1-ci bəndində göstərilən xərcləri ödəyir, Göndərən Tərəf kontraktda müəyyənləşdirilən qaydada həmin xərcləri sonradan geri ödəyir.

3. Ödənişsiz və ödənişli əsaslarda təhsil zamanı, eləcə də bu Sazişin 7-ci maddəsinin 1-ci və 2-ci bəndlərində nəzərdə tutulan hallarda Göndərən Tərəf kursant və dinləyicilərin Tacikistan Respublikasından təhsil yerinə və geriyə nəqliyyat xərclərini ödəyir.

Maddə 7

Yurisdiksiya və zərərin ödənilməsi

1. Bu Sazişin 4-cü maddəsinin 4-cü bəndində nəzərdə tutulan testin nəticələri və kursantın/dinləyicinin müvəffəqiyyəti mənfi qiymətləndirilərsə və/və ya kursantın/dinləyicinin davranışı və ya digər hərəkətləri ali hərbi təhsil müəssisələrinin prosedur qaydalarının tələblərinə uyğun gəlməzsə və hərbi intizamı pozarsa, yaxud da kursant/dinləyici xəstəliyə görə hərbi təhsilini davam etdirə bilməzsə, Qəbul edən Tərəf ali hərbi təhsil müəssisələrinin rəislərinin bildirişinə əsasən kursantı/dinləyicini təhsil müəssisəsindən xaric edəcək və kursantı/dinləyicini Göndərən Tərəfin dövlətinə göndərəcəkdir.

2. Əgər kursant/dinləyici, Qəbul edən Tərəfin dövlətinin normativ hüquqi aktlarını pozarsa və beləliklə, onun həmin dövlətdə qalması arzuolunmaz olarsa, Qəbul edən Tərəf

həmin kursantı/dinləyicini ali hərbi təhsil müəssisəsindən təhsil bitməmiş xaric edərək Göndərən Tərəfin dövlətinə göndərir.

3. Tərəflər yurisdiksiya və əmlaka vurulan zərərin ödənilməsi məsələlərində aşağıdakı prinsipləri rəhbər tuturlar:

1) Göndərən Tərəfin dövlətinin hərbi qulluqçusu Qəbul edən Tərəfin dövlətinin ərazisində olduğu müddətdə mülki, cinayət, inzibati hüquq pozuntuları törətdikdə, o, Qəbul edən Tərəfin dövlətinin milli qanunvericiliyinə müvafiq olaraq məsuliyyət daşıyır;

2) Göndərən Tərəfin təhsil alan hərbi qulluqçusunun günahı üzündən Qəbul edən Tərəfin əmlakına zərər dəydikdə və ya o itirildikdə, Göndərən Tərəf Tərəflərin səlahiyyətli nümayəndələrinin tərtib etdiyi və imzaladığı aktlara əsasən bu əmlakın bərpası üçün zəruri olan məbləğin əvəzini ödəyir.

Maddə 8

Əlavələr və dəyişikliklər

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə onun ayrılmaz hissələri olan və bu Sazişin 10-cu maddəsində müəyyən olunmuş qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavələr və dəyişikliklər edilə bilər.

Maddə 9

Ziddiyyətlər

Bu Sazişin yerinə yetirilməsi zamanı yarana biləcək ziddiyyətlər Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

Maddə 10

Yekun müddəalar

Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır və onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Azərbaycan tərəfinin yazılı bildirişinin Tacikistan tərəfindən diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş Tərəflərdən birinin digər Tərəfin bu Sazişə xitam vermək niyyəti barədə diplomatik kanallar vasitəsilə yazılı bildirişini aldığı tarixdən altı ay sonra qüvvədən düşür.

Moskva şəhərində 14 aprel 2010-cu il tarixində, hər biri Azərbaycan, tacik və rus dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin müddəalarının təfsiri zamanı ziddiyyətlər yarandığı təqdirdə, Tərəflər rus dilində olan mətnə müraciət edəcəklər.

AZƏRBAYCAN RESPUBLİKASININ MÜDAFİƏ NAZİRLİYİ ADINDAN	TACİKİSTAN RESPUBLİKASININ MÜDAFİƏ NAZİRLİYİ ADINDAN
SƏFƏR ƏBİYEV	*ŞERALİ XAYRULLOYEV*
Müdafiə naziri	*Müdafiə naziri*

M.B.Əhmədzadəyə Fövqəladə və Səlahiyyətli Səfir diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.1-ci maddəsini rəhbər tutaraq qərara alıram:

Məmməd Bahəddin oğlu Əhmədzadəyə Fövqəladə və Səlahiyyətli Səfir diplomatik rütbəsi verilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 may 2010-cu il

№ 936

M.B. Əhmədzadənin Azərbaycan Respublikasının Argentina Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Məmməd Bahəddin oğlu Əhmədzadə Azərbaycan Respublikasının Argentina Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 may 2010-cu il

№ 937

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Şahin Abdulla oğlu Mustafayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Şahin Abdulla oğlu Mustafayevə verilməsi barədə Belarus Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 iyun 2010-cu il

№ 944

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında informatizasiya və informasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında informatizasiya və informasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri Əli Məmməd oğlu Abbasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri Əli Məmməd oğlu Abbasova verilməsi barədə Belarus Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 iyun 2010-cu il

№ 945

"Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Belarus Respublikası Təbii Sərvətlər və Ətraf Mühitin Mühafizəsi Nazirliyi arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair Saziş"i imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Belarus Respublikası Təbii Sərvətlər və Ətraf Mühitin Mühafizəsi Nazirliyi arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilməsi barədə Belarus Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 iyun 2010-cu il

№ 946

"Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Belarus Respublikasının Milli Statistika Komitəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Belarus Respublikasının Milli Statistika Komitəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Arif Mikayıl oğlu Vəliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Arif Mikayıl oğlu Vəliyevə verilməsi barədə Belarus Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 iyun 2010-cu il

№ 947

"Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Belarus Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi arasında qarşılıqlı əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Belarus Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi arasında qarşılıqlı əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Kamran qızı Hüseynovaya verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Kamran qızı Hüseynovaya verilməsi barədə Belarus Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 iyun 2010-cu il

№ 948

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında elm və texnologiyalar sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında

elm və texnologiyalar sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərim oğlu Kərimova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərim oğlu Kərimova verilməsi barədə Belarus Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 iyun 2010-cu il

№ 949

"Azərbaycan Respublikası Hökuməti və Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi arasında diplomatik, xidməti və xüsusi pasportlara malik şəxslərin viza tələbindən azad olunması haqqında" Anlaşma Memorandumunun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Azərbaycan Respublikası Hökuməti və Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi arasında diplomatik, xidməti və xüsusi pasportlara malik şəxslərin viza tələbindən azad olunması haqqında" 2010-cu il martın 8-də Tripoli şəhərində imzalanmış Anlaşma Memorandumu təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 8 iyun 2010-cu il

№ 1020-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi arasında diplomatik, xidməti və xüsusi pasportlara malik şəxslərin viza tələbindən azad olunması haqqında Anlaşma Memorandumu

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi,

iki dövlət arasında dostluq münasibətlərinin inkişaf etdirilməsini dəstəkləməyi və iki dövlət arasında diplomatik, xidməti və xüsusi pasportlara malik vətəndaşların ölkəyə daxil olmasını, oranı tərk etməsini və orada hərəkətini asanlaşdırmağı arzu edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Memorandumda istifadə olunan terminlər aşağıdakı mənaya malikdir:

"Diplomatik pasportlar": Azərbaycan Respublikasının diplomatik pasportları və Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsinin diplomatik pasportları;

"Xidməti pasportlar": Azərbaycan Respublikasının xidməti pasportları;

"Xüsusi pasportlar": Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsinin xüsusi pasportları.

Maddə 2

1. Razılığa gələn Tərəflərdən birinin dövlətinin etibarlı diplomatik, xidməti və xüsusi pasportlara malik vətəndaşları, habelə onlarla birlikdə yaşayan ailə üzvləri Razılığa gələn digər Tərəfin dövlətinin ərazisinə vizasız daxil ola, orada 90 (doxsan) günədək qala bilər, oranı tərk edə və oradan tranzit keçə bilərlər.

2. Razılığa gələn Tərəflərin dövlətlərinin vətəndaşlarının qalma müddəti onların rəsmi müraciəti əsasında Razılığa gələn Tərəfin milli qanunvericiliyinə uyğun olaraq müvafiq səlahiyyətli orqanının icazəsi ilə artırıla bilər.

Maddə 3

Razılığa gələn Tərəflərin dövlətlərinin etibarlı diplomatik, xidməti və xüsusi pasportlara malik olan vətəndaşları Razılığa gələn digər Tərəfin dövlətinin ərazisinə istənilən beynəlxalq sərhəd-buraxılış məntəqəsindən daxil ola və oranı tərk edə bilərlər.

Maddə 4

1. Razılığa gələn Tərəfin dövlətinin diplomatik, xidməti və xüsusi pasportlara malik olan vətəndaşları Razılığa gələn digər Tərəfin dövlətinin ərazisində olarkən onun qüvvədə olan qanun və qaydalarına əməl edəcəkdir.

2. Razılığa gələn hər bir Tərəf Razılığa gələn digər Tərəfin diplomatik, xidməti və xüsusi pasportlara malik vətəndaşını "persona non qrata" hesab edərək, ona dövlət ərazisinə daxil olmağa icazə verməmək və ya burada qalma müddətinə xitam vermək hüququnu özündə saxlayır.

Maddə 5

Razılığa gələn Tərəflər milli təhlükəsizlik, ictimai asayiş və ya əhalinin sağlamlığı səbəblərindən bu Memorandumun həyata keçirilməsini tamamilə və ya qismən müvəqqəti olaraq dayandırmaq hüququnu özündə saxlayır. Razılığa gələn Tərəflər bu Memorandumun həyata keçirilməsinin dayandırılması və yenidən tətbiqi barədə 48 saatdan gec olmayaraq dərhal bir-birini diplomatik kanallar vasitəsilə məlumatlandıracaqlar.

Maddə 6

1. Bu Memorandumun məqsədləri üçün, Razılığa gələn Tərəflərin xarici işlər nazirlikləri bu Memorandumun qüvvəyə minməsindən ən azı 30 (otuz) gün əvvəl diplomatik, xidməti və xüsusi pasportların nümunələrini diplomatik kanallar vasitəsilə mübadilə edəcəklər.

2. Razılığa gələn Tərəflər yeni diplomatik, xidməti və xüsusi pasportlar çap etdikdə, Razılığa gələn Tərəflərin xarici işlər nazirlikləri bu Memorandumun qüvvəyə minməsindən ən azı 30 (otuz) gün əvvəl yeni diplomatik, xidməti və ya xüsusi pasportların nümunələrini diplomatik kanallar vasitəsilə mübadilə edəcəklər.

Maddə 7

Bu Memorandumun həyata keçirilməsi və tətbiqi zamanı yaranan istənilən fikir ayrılıqları və mübahisələr Razılığa gələn Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

Maddə 8

Razılığa gələn Tərəflərin qarşılıqlı razılığı ilə bu Memoranduma əlavələr və dəyişikliklər edilə bilər. Belə əlavələr və dəyişikliklər bu Memorandumun ayrılmaz hissəsi olaraq ayrı-ayrı protokollar formasında rəsmiləşdirilir və bu Memorandumun 9-cu maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minir.

Maddə 9

1. Bu Memorandum qeyri-müəyyən müddətə bağlanılır və Razılığa gələn Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurlan yerinə yetirdikləri barədə bir-birilərinə diplomatik kanallar vasitəsilə göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdən sonrakı otuzuncu (30-cu) gün qüvvəyə minəcəkdir.

2. Razılığa gələn Tərəflərdən biri bu Memorandumun qüvvəsini ləğv etmək niyyətində olduqda, bu barədə digər Tərəfə diplomatik kanallarla, yazılı şəkildə bildirir. Memorandum belə bildirişin alındığı tarixdən sonra otuz (30) gün müddətində qüvvədə olacaqdır.

Bu Memorandum Tripoli şəhərində 2010-cu il 8 mart tarixində, hər biri Azərbaycan, ərəb və ingilis dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Memorandumun təfsiri və tətbiqi zamanı fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilində olan mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	BÖYÜK LİVİYA ƏRƏB XALQ SOSİALİST CƏMAHİRİYYƏSİ HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*

"Asiyada Qarşılıqlı Əlaqəyə və Etimadyaratma Tədbirlərinə dair Konfransın Katibliyinin Nizamnaməsində dəyişiklik edilməsi haqqında" Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Asiyada Qarşılıqlı Əlaqəyə və Etimadyaratma Tədbirlərinə dair Konfransın Katibliyinin Nizamnaməsində dəyişiklik edilməsi haqqında" 2008-ci il avqustun 25-də Almatı şəhərində imzalanmış Protokol təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 8 iyun 2010-cu il

№ 1021-IIIQ

AQƏETK Xarici İşlər Nazirləri tərəfindən qəbul edilmişdir və imzalanmaq üçün açıqdır

Asiyada Qarşılıqlı Əlaqəyə və Etimadyaratma Tədbirlərinə dair Konfransın Katibliyinin Nizamnaməsində dəyişiklik edilməsi haqqında Protokol

Bundan sonra "Nizamnamə" adlandırılacaq Asiyada Qarşılıqlı Əlaqəyə və Etimadyaratma Tədbirlərinə dair Konfransın (AQƏETK) Katibliyinin Nizamnaməsini imzalayan AQƏETK-nın üzvü olan dövlətlər,

Katibliyin yerləşdiyi ölkənin - Qazaxıstan Respublikasının paytaxtının Almatıdan Astanaya köçürülməsi nəticəsində diplomatik nümayəndəliklərin və beynəlxalq təşkilatların və forumların ofislərinin əksəriyyətinin Almatıdan Astanaya köçürüldüyünü və ya köçürülmə prosesində olduğunu nəzərə alaraq,

Katiblik üçün daha yaxşı şəraitin təmin edilməsi məqsədilə maddi-texniki təminat məsələlərinin Katibliyin yerləşdiyi yerin müəyyən mərhələdə Almatıdan Astanaya köçürülməsini zəruri edə bilməsi faktını dərk edərək,

Nizamnamənin 6-cı maddəsinin 5-ci bəndinin müddəalarına müvafiq olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

1. Nizamnamənin 1-ci maddəsinin 2-ci bəndi aşağıdakı redaksiyada verilsin: "Katiblik bundan sonra "Ev Sahibi olan Ölkə" adlandırılacaq Qazaxıstan Respublikasının Almatı və ya Astana şəhərində yerləşəcəkdir.

2. Bu Protokol Nizamnamənin 6-cı maddəsinin 1-ci bəndinə uyğun olaraq qüvvəyə minəcəkdir.

3. Bu Protokolun depozitarisi Qazaxıstan Respublikasının Xarici İşlər Nazirliyidir.

4. Depozitari bu Protokolun qüvvəyə minmə tarixi barədə üzv olan bütün dövlətləri xəbərdar edəcəkdir.

2008-ci il avqustun 25-də Almatı şəhərində ingilis dilində bir əsl nüsxədə imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN	MONQOLUSTAN ADINDAN
(imza)	*(imza)*
ƏFQANISTAN İSLAM RESPUBLİKASI ADINDAN	PAKİSTAN İSLAM RESPUBLİKASI ADINDAN
(imza)	*(imza)*

ÇİN XALQ RESPUBLİKASI ADINDAN

(imza)

HİNDİSTAN RESPUBLİKASI ADINDAN

(imza)

İRAN İSLAM RESPUBLİKASI ADINDAN

(imza)

İSRAİL DÖVLƏTİ ADINDAN

(imza)

QAZAXISTAN RESPUBLİKASI ADINDAN

(imza)

KOREYA RESPUBLİKASI ADINDAN

(imza)

FƏLƏSTİN DÖVLƏTİ ADINDAN

(imza)

RUSİYA FEDERASİYASI ADINDAN

(imza)

TACİKİSTAN RESPUBLİKASI ADINDAN

(imza)

TAİLAND KRALLIĞI ADINDAN

(imza)

TÜRKİYƏ RESPUBLİKASI ADINDAN

(imza)

Azərbaycan Respublikası Prezidentinin və Estoniya Respublikası Prezidentinin Birgə Bəyannaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

Azərbaycan Respublikası Prezidentinin və Estoniya Respublikası Prezidentinin 2010-cu il aprelin 7-də Tallin şəhərində imzalanmış Birgə Bəyannaməsi təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 8 iyun 2010-cu il

№ 1022-IIIQ

Azərbaycan Respublikası Prezidentinin və Estoniya Respublikası Prezidentinin Birgə Bəyannaməsi

Azərbaycan Respublikasının Prezidenti və Estoniya Respublikasının Prezidenti (bundan sonra "Tərəflər" adlandırılacaq),

ikitərəfli dialoqu müntəzəm olaraq davam etdirmək, həmçinin bütün səviyyələrdə ikitərəfli məsləhətləşmələri daha da genişləndirmək qətiyyətlərini bir daha təsdiq edərək,

Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin məqsəd və prinsiplərinə, beynəlxalq hü-

ququn prinsip və normalarına sadiqliklərini təsdiq edərək,

bir-birilərinin suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü dəstəklədiklərini bir daha vurğulayaraq,

beynəlxalq sülh və təhlükəsizliyin qorunmasında, insan hüquqlarına və əsas azadlıqlara hörmət edilməsində, iqtisadi və sosial inkişafın təşviq olunmasında BMT, ATƏT və AŞ-nın əhəmiyyətini vurğulayaraq,

sülh və sabitliyə yönələn terrorizm, kibertəhlükəsizlikvə digər assimmetrik risklər kimi təhdidlərə səmərəli şəkildə cavab vermək üçün müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın əhəmiyyətini təsdiq edərək,

2009-cu il 13 yanvar tarixində Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Prezidentinin və Estoniya Respublikası Prezidentinin Birgə Bəyannaməsi"ndə əks olunmuş müddəaların vacibliyini vurğulayaraq,

aşağıdakıları bəyan edirlər:

Tərəflər beynəlxalq və regional məsələlərin idarə olunmasında daha uyğun siyasi gündəliyə töhfə vermək məqsədilə müntəzəm yüksəksəviyyəli ikitərəfli mübadilələrdən istifadə etmək barədə razılığa gəldilər.

Hər iki Tərəf beynəlxalq qurumlarda regional və qlobal təhdid və çağırışlara yönələn hərtərəfli qətnamələrin hazırlanması və təşviqində əməkdaşlıq etmək və məsləhətləşmək barədə razılığa gəlirlər.

Tərəflər, parlamentlərarası əlaqələri ikitərəfli əməkdaşlığın vacib və tərkib hissəsi kimi qiymətləndirərək, hər iki dövlətin parlamentləri arasında, o cümlədən Avropa Şurası Parlament Assambleyası çərçivəsində əməkdaşlığın fəallaşdırılmasının, parlament üzvlərinin qarşılıqlı səfərlərinin mütəmadi olaraq həyata keçirilməsinin əhəmiyyətini vurğulayırlar.

Tərəflər, xüsusilə Aİ və ATƏT-in region dövlətləri arasında gərginliyin azaldılmasına və etimadın artırılmasına və Aİ üçün yüksək geostrateji əhəmiyyətə malik olan bu regiona mənfi təsir göstərən bütün həlli yubanmış münaqişələrin sülh yolu ilə həllinin təşviqinə yönəlmiş region üzrə təşəbbüslərin əhəmiyyətini vurğulayırlar.

Tərəflər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn ümumtanınmış prinsipləri və normaları, xüsusilə BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə və ATƏT-in Lissabon Sammitinin üç prinsipinə, uyğun olaraq suverenlik, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipləri əsasında tezliklə həll olunmasının vacibliyini vurğulayırlar.

Tərəflər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi istiqamətində ATƏT çərçivəsində davam edən səylərə, həmçinin Minsk Qrupunun fəaliyyətinə istinad edərək, bu istiqamətdə daha təsirli və qətiyyətli addımlar atılmasının vacibliyini vurğulayırlar.

Tərəflər xarici siyasət məqsədlərini nəzərə alaraq, NATO ilə bağlı məsələlərdə dialoqu və əməkdaşlığı genişləndirmək arzularını vurğulayırlar.

Tərəflər qanunun aliliyi, demokratiya, insan hüquqları və yaxşı idarəçiliyin möhkəm-

ləndirilməsi sahəsində ikitərəfli və çoxtərəfli əməkdaşlığı inkişaf etdirəcəklər.

Tərəflər iqtisadi artımın təmin olunmasını, biznes mühitinin, mal və xidmətlərin bazara çıxışının inkişaf etdirilməsini təşviq etmək qətiyyətlərini ifadə edir, həmçinin hər iki ölkənin sahibkarları arasındakı əlaqələri gücləndirəcək biznes forumlarının təşkilini dəstəkləyirlər.

Tərəflər ikitərəfli investisiyaların və kommersiya əlaqələrinin dəstəklənməsi, qorunması və inkişaf etdirilməsi, həmçinin maliyyə və bank sektorunda əməkdaşlıq etmək barədə razılığa gəlirlər.

Hər iki Tərəf internetin yayımlanma səviyyəsinin artırılması da daxil olmaqla informasiya texnologiyaları və kommunikasiya, kiçik və orta müəssisələr, mülki mühəndislik və tikinti sahələrində ikitərəfli münasibətlərdə və üçüncü ölkələrin bazarlarında əməkdaşlığın dərinləşdirilməsinin əhəmiyyətini vurğulayırlar.

Tərəflər turizm təşəbbüslərinin və mübadilələrinin təşviqinə yönəlmiş layihələri stimullaşdırmaq məqsədilə əməkdaşlığı genişləndirmək barədə razılığa gəlirlər.

Tərəflər Xəzər regionunun enerji ehtiyatlarının beynəlxalq enerji təhlükəsizliyinin təmin edilməsində artan rolunu qeyd edirlər və bu ehtiyatların dünya bazarına çatdırılması yollarının diversifikasiyasının və müvafiq layihələrin həyata keçirilməsinin əhəmiyyətini vurğulayırlar.

Tərəflər Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində xüsusi əhəmiyyətə malik Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum kimi layihələr vasitəsilə Xəzər regionunu Avropa ilə birləşdirən enerji tranziti dəhlizlərinin inkişaf etdirilməsi üçün əməkdaşlığın gücləndirilməsində qətiyyətlərini təsdiqləyirlər.

Tərəflər, iqtisadi və ticarət münasibətlərinin inkişafına töhfə verə biləcək Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi də daxil olmaqla Şərq-Qərb dəhlizinin inkişaf etdirilməsinə yönəlmiş birgə səyləri dəstəkləyirlər.

Estoniya Azərbaycan Respublikasının ÜTT-yə üzv olmaq niyyətini dəstəkləyir və bununla əlaqədar texniki yardım göstərməyi davam etdirəcəkdir.

Tərəflər qlobal əhəmiyyətli cari məsələlər üzrə əməkdaşlıq etmək və beynəlxalq sülh və təhlükəsizliyin qorunmasına, ətraf mühitin mühafizəsinə, davamlı inkişafa, demokratiyaya, insan hüquqlarına hörmətə və qanunun aliliyinə töhfə vermək qətiyyətlərini təsdiqləyirlər.

Tərəflər qarşılıqlı maraq doğuran məsələləri nəzərdən keçirmək, həmçinin beynəlxalq və regional təhlükəsizlik məsələləri barədə fikir mübadiləsi aparmaq məqsədilə təhlükəsizlik siyasətinə dair müntəzəm məsləhətləşmələr keçirmək niyyətlərini ifadə edirlər.

Hər iki Tərəf terrorizmin bütün forma və təzahürlərinin, həmçinin kütləvi qırğın silahlarının yayılması və onların çatdırılma vasitələri kimi qlobal təhlükələrin pisləşməsində qətiyyətlərini bir daha təsdiq edir, həmçinin iki-tərəfli səviyyədə və beynəlxalq çərçivədə bütün milli, regional və qlobal hədələrə qarşı mübarizədə əməkdaşlığın möhkəmləndirilməsində böyük maraqlarının olduğunu ifadə edirlər.

Tərəflər Avropa Qonşuluq Siyasətinin, xüsusilə Şərq Tərəfdaşlığının Cənubi Qafqazda

sabitlik və təhlükəsizliyin təşviq edilməsində müsbət rolunu məmnuniyyətlə qeyd edirlər.

Tərəflərin hər biri, eyni zamanda Azərbaycan Respublikasının Avropa inteqrasiyasına töhfə verən dialoqu, xüsusilə də AQS-nın həyata keçirilməsi, onun mexanizmləri və Şərq Tərəfdaşlığına dair fikir mübadiləsi vasitəsilə intensivləşdirəcəkdir. Azərbaycan Respublikasının Avropa İttifaqına yaxınlaşma prosesini sürətləndirdiyi üçün Avropa Qonşuluq Siyasətinin artıq mövcud olan əməkdaşlıq vasitələrdən tam istifadə olunması dəstəklənir. Aİ ilə Assosiasiya Sazişinə doğru irəliləmək bu baxımdan xüsusi önəm daşıyır.

Hər iki Tərəf, NATO və Aİ tərəfindən aparılan əməliyyatlarda iştirak da daxil olmaqla, beynəlxalq sülh və təhlükəsizliyin qorunmasına töhfə verməyi davam etdirmək, həmçinin BMT-nin sülhməramlı əməliyyatlarında iştirak etmək arzularını ifadə edirlər.

Tərəflər iqlim dəyişikliyinin səbəb olduğu təhlükələrlə bağlı narahatlığını ifadə edir və müvafiq beynəlxalq sənədləri imzalayan Tərəflər kimi, iqlim dəyişikliyinin mənfi təsirlərinin qarşısının alınması və onlarla mübarizədə beynəlxalq birliyin səylərinə qoşulmaq qətiyyətlərini yenidən təsdiq edirlər.

Tərəflər, dövlətlərarası münasibətlərin möhkəmləndirilməsində humanitar sahədə əməkdaşlığın əhəmiyyətini qeyd edir, mədəniyyət, elm, təhsil, informasiya vasitələri və digər istiqamətlərdə əməkdaşlığın hərtərəfli inkişafı üçün əlavə tədbirlər görülməsinin mühümlüyünü vurğulayırlar.

Tərəflər öz müvafiq qurumları arasında tələbə və müəllimlərin mübadiləsi proqramları sahəsində birgə layihələr həyata keçirilməsini dəstəkləyəcəklər.

Tallin şəhərində 2010-cu il 7 aprel tarixində, Azərbaycan, eston və ingilis dillərində, iki əsl nüsxədə imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ	ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEV	*TOOMAS HENDRİK İLVES*

"Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında diplomatik pasporta malik şəxslər üçün viza tələbinin ləğv edilməsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında diplomatik pasporta malik şəxslər üçün viza tələbinin ləğv edilməsi haqqında" 2010-cu il aprelin 7-də Tallin şəhərində imzalanmış Saziş təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 8 iyun 2010-cu il

№ 1023-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında diplomatik pasporta malik şəxslər üçün viza tələbinin ləğv edilməsi haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti,

iki dövlət arasında dostluq münasibətlərinin möhkəmləndirilməsinə və qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsinə gələcəkdə də töhfə verməyi arzu edərək,

diplomatik pasportlara malik şəxslərinin Azərbaycan Respublikasına və Estoniya Respublikasına gediş-gəlişini asanlaşdırmaq niyyəti ilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

1. Etibarlı diplomatik pasportlara malik Azərbaycan Respublikası vətəndaşları Estoniya Respublikasının ərazisinə vizasız daxil ola, oranı tərk edə, oradan tranzit keçə və daxil olduqları gündən etibarən altı ay ərzində doxsan günədək orada qala bilərlər.

2. Etibarlı diplomatik pasportlara malik Estoniya Respublikası vətəndaşları Azərbaycan Respublikasının ərazisinə vizasız daxil ola, oranı tərk edə, oradan tranzit keçə və daxil olduqları gündən etibarən altı ay ərzində doxsan günədək orada qala bilərlər.

Maddə 2

Bu Sazişdə müəyyən olunmuş viza tələbinin ləğv edilməsi 1-ci maddədə göstərilən belə pasportlara malik şəxsləri müvafiq Tərəflərin dövlətlərinin ərazilərinə daxilolma, orada qalma və oranı tərketmə ilə əlaqədar qüvvədə olan qanun və qaydalara riayət etməkdən azad etmir.

Maddə 3

Bu Saziş hər bir Tərəfin səlahiyyətli orqanının, arzuolunmaz hesab edilən şəxslərin Tərəflərin dövlətlərinin ərazilərinə daxil olmasına və orada qalmasına etiraz etmək hüququna toxunmur.

Maddə 4

1. Tərəflər milli təhlükəsizlik məqsədləri, ictimai asayiş və ya əhalinin Sağlamlığının qorunması üçün bu Sazişin tətbiqini tamamilə və ya qismən dayandıra bilərlər.

2. Belə tədbirlərin həyata keçirilməsi və ləğv edilməsi barədə qərar diplomatik kanallar vasitəsilə digər Tərəfə dərhal bildirilməlidir. Həmin qərar bildiriş alındıqdan iki gün sonra qüvvəyə minəcəkdir.

Maddə 5

1. Tərəflər bu Sazişin qüvvəyə minməsindən ən azı otuz gün əvvəl bu Sazişdə qeyd olunan pasportların nümunələrini diplomatik kanallar vasitəsilə mübadilə edəcəklər.

2. Tərəflərdən hər hansı biri yeni pasport çap etdikdə və ya artıq mübadilə edilmiş pasportlara düzəliş etdikdə, yeni pasportların və ya düzəlişlərin qüvvəyə minməsindən ən

azı otuz gün əvvəl həmin yeni sənədin nümunəsi əlavə edilərək, bu düzəlişlər barədə diplomatik kanallar vasitəsilə məlumat verilməlidir.

Maddə 6

1. Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır. Tərəflər bu Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili hüquqi prosedurların yerinə yetirilməsi barədə bir-birlərinə yazılı şəkildə bildiriş göndərirlər. Bu Saziş sonuncu bildirişin alındığı tarixdən sonrakı otuzuncu gün qüvvəyə minəcəkdir.

2. Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə yazılı şəkildə dəyişikliklər edilə bilər. Belə dəyişikliklər bu Sazişin ayrılmaz hissəsi olaraq, ayrı-ayrı protokollar formasında rəsmiləşdiriləcək və Sazişin qüvvəyəminmə qaydasına uyğun olaraq qüvvəyə minəcəkdir.

3. Tərəflərdən hər hansı biri diplomatik kanallarla əvvəlcədən bildiriş göndərməklə bu Sazişi ləğv edə bilər. Saziş belə bildirişin alındığı tarixindən sonra doxsan gün qüvvədə olacaqdır.

Tallin şəhərində 2010-cu il 7 aprel tarixində, hər biri Azərbaycan, eston və ingilis dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Sazişin təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilində olan mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	ESTONİYA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*URMAS PAET*
Xarici işlər naziri	*Xarici işlər naziri*

"Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında" 2010-cu il aprelin 7-də Tallin şəhərində imzalanmış Saziş təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 8 iyun 2010-cu il

№ 1024-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti,

Razılığa gələn hər iki Tərəfin qarşılıqlı faydası üçün iqtisadi əməkdaşlığın gücləndirilməsi və Razılığa gələn bir Tərəfin sərmayəçilərinin Razılığa gələn digər Tərəfin ərazisindəki sərmayələri üçün ədalətli və qərəzsiz şəraiti saxlamaq (müəyyən etmək) niyyətində olaraq,

bu Saziş əsasında Razılığa gələn bir Tərəfin sərmayələrinin Razılığa gələn digər Tərəfin ərazisində qorunmasının və beynəlxalq sərmayə yatırımlarının təşviqinin işgüzar təşəbbüslərin yaranmasına təkanı verəcəyini qəbul edərək,

bu məqsədlərə nail olmaq üçün insanların sağlamlığı, təhlükəsizlik və ətraf mühitin mühafizəsinə, o cümlədən davamlı inkişafın təşviqinə uyğun surətdə fəaliyyət göstərmək niyyətində olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Anlayışlar

Bu Sazişin məqsədi üçün:

1. "Sərmayəçi" termini. Razılığa gələn digər Tərəfin dövlət ərazisində bu dövlətin qanunvericiliyinə uyğun olaraq sərmayə qoyan:

a. Razılığa gələn Tərəfin qanunvericiliyinə uyğun olaraq onun vətəndaşı olan istənilən fiziki şəxs; və ya

b. Razılığa gələn Tərəfin qanunvericiliyinə müvafiq olaraq qeydiyyatdan keçmiş və Razılığa gələn həmin Tərəfin ərazisində yerləşən və idarəolunan şirkət və ya digər hüquqi şəxs deməkdir.

Beynəlxalq hüququn müvafiq normalarına əsasən, Sərmayəçi sərmayəni Qəbul edən Razılığa gələn Tərəfin vətəndaşlığına malik ola bilməz.

2. "Sərmayə" termini Razılığa gələn bir Tərəfin sərmayəçisinin Razılığa gələn digər Tərəfin tam və ya müstəsna şəkildə dövlətinin ərazisində Razılığa gələn sonuncu Tərəfin qanunvericiliyinə müvafiq olaraq birbaşa təsis və ya əldə etdiyi, xüsusilə aşağıdakılar daxil olmaqla, aktivlərin hər növü deməkdir:

a. daşınar və daşınmaz əmlak və ya ipotekalar, girovlar, lizinqlər, uzufrukt və oxşar hüquqlar;

b. şirkət və ya paylar, səhmlər və ya şirkətdə iştirakın istənilən digər forması, şirkətdə istiqraz və digər formada borc marağı;

c. pul, pul tələbi və ya kontrakt əsasında maliyyə dəyərinə malik olan fəaliyyət üzrə tələblər;

d. patentlər, müəllif hüquqları, texniki proseslər, ticarət nişanları, sənaye modelləri, firma adları, "nou-hau" və "qudvil" kimi əqli mülkiyyət hüquqları;

e. təbii ehtiyatların kəşfiyyatı, işlənməsi, çıxarılması və ya istismarı üzrə konsessiyalar da daxil olmaqla, qanun, inzibati akt və ya kontrakt əsasında səlahiyyətli hakimiyyət orqanı tərəfindən verilən konsessiyalar.

Aktivlərdə sərmayə və ya yenidən sərmayə formasında edilən hər hansı bir dəyişiklik onun sərmayə kimi xarakterinə təsir etmir və Sərmayəni Qəbul edən Razılığa gələn Tərəfin qanunvericiliyinə uyğun olaraq həyata keçiriləcəkdir.

3. "Gəlir" termini sərmayələrdən əldə edilən məbləğlər və xüsusilə mənfəət, dividendlər, faizlər, qonorarlar, kapital artımı və ya sərmayələrə aid istənilən ödəmələr deməkdir.

Gəlirlərə münasibətdə ilkin sərmayələrə aid olan rejim tətbiq ediləcəkdir.

4. "Ərazi" termini:

a. Azərbaycan Respublikasına münasibətdə - Xəzər dənizinin müvafiq sektoru da daxil olmaqla, üzərində Azərbaycan Respublikasının öz milli qanunvericiliyinə və beynəlxalq hüquqa uyğun olaraq suveren hüquqlarını və ya yurisdiksiyasını həyata keçirdiyi Azərbaycan Respublikasının ərazisi;

b. Estoniya Respublikasına münasibətdə - Estoniya Respublikasının daxili suları və ərazi suları, həmçinin dənizin dibi və yerin təki də daxil olmaqla ərazi sularının xarici sərhədinə bitişik su sahəsi daxil olmaqla, Estoniya Respublikasının beynəlxalq hüquqa uyğun olaraq suveren hüquqlarını və yurisdiksiyasını həyata keçirdiyi Estoniya Respublikasının ərazisi.

Maddə 2

Sərmayələrin təşviqi və qorunması

1. Razılığa gələn hər bir Tərəf öz dövlətinin ərazisində Razılığa gələn digər Tərəfin sərmayəçilərinin sərmayələrini təşviq edəcək və onlar üçün əlverişli şərait yaradacaqdır və öz qanunvericiliyinə uyğun olaraq bu cür sərmayələri qəbul edəcəkdir.

2. Razılığa gələn bir Tərəfin sərmayəçilərinin Razılığa gələn digər Tərəfin ərazisindəki sərmayələrinə beynəlxalq hüququn tələblərindən az olmayaraq, onların tam müdafiəsini və təhlükəsizliyini təmin edəcəkdir.

3. Qəbul edən Razılığa gələn Tərəf potensial sərmayəçi barədə onun korporativ idarəetmə tarixçəsi və sərmayəçi kimi mövcud təcrübəsi haqqında informasiya əldə etmək hüququ vardır. Qəbul edən Razılığa gələn Tərəf bu barədə məxfi biznes məlumatını açıqlamayacaqdır. Qəbul edən Razılığa gələn Tərəf əldə edilən məlumatı məxfi biznes məlumatının qorunması və digər daxili qanunvericiliyin tələblərinin gözlənilməsişərtilə sərmayənin yatırılacağı məkanda açıqlaya bilər.

4. Razılığa gələn hər bir Tərəf imkan daxilində, öz ərazisində, Razılığa gələn digər Tərəfin sərmayəçilərinin sərmayələrinə təsir edə biləcək qanunların, qərarların, prosedurların, inzibati qaydaların və məhkəmə qərarlarının, habelə beynəlxalq müqavilələrin onların qüvvəyə minməsindən sonra dərhal nəşr edilməsini və ya digər yolla ictimaiyyətə çatdırılmasını təmin edəcəkdir.

Maddə 3

Sərmayələrə münasibətdə rejim

1. Razılığa gələn bir Tərəfin sərmayəçilərinin Razılığa gələn digər Tərəfin ərazisindəki sərmayələrinə və ya onlarla bağlı gəlirlərə münasibətdə, Qəbul edən Razılığa gələn Tə-

rəfin öz sərmayəçilərinin və ya hər hansı üçüncü dövlətin sərmayəçilərinin qoyduğu sərmayələrə və gəlirlərə münasibətdə tətbiq etdiyi rejimdən (sərmayəçi üçün hansı daha əlverişlidirsə) az əlverişli olmayan rejim tətbiq ediləcəkdir.

2. Razılığa gələn hər bir Tərəf öz dövlətinin ərazisində Razılığa gələn digər Tərəfin sərmayəçilərinin sərmayələrinin idarə edilməsinə, saxlanmasına, istifadəsinə, onlardan faydalanmağa, onların əldə edilməsinə və ya satışına münasibətdə, Qəbul edən Razılığa gələn Tərəfin öz sərmayəçilərinin və ya hər hansı üçüncü dövlətin sərmayəçilərinin qoyduğu sərmayələrə və gəlirlərə münasibətdə tətbiq etdiyi rejimdən (sərmayəçi üçün hansı daha əlverişlidirsə) az əlverişli olmayan rejim tətbiq edəcəkdir və səbəbsiz, əsassız və ya ayrı-seçkilik yolu ilə qarışmayacaqdır.

3. Razılığa gələn Tərəflərdən heç biri Razılığa gələn digər Tərəfin sərmayəçilərinin sərmayələrinə münasibətdə materialların, istehsal vasitələrinin alınması, əməliyyatlar, daşınma, məhsulların marketinqi ilə əlaqədar olaraq məcburi tədbirlər və ya əsassız ayrı-seçkilik yaradan digər oxşar qaydalar tətbiq etməyəcəkdir.

4. Razılığa gələn hər bir Tərəf, öz qanunvericiliyi çərçivəsində, rəhbər işçilərin, menecerlərin, mütəxəssislərin və texniki heyətin işə qəbul edilməsi ilə bağlı icazələr daxil olmaqla onun ərazisində sərmayələrlə əlaqədar zəruri icazələrin alınması üçün ediləcək müraciətlərə vicdanla baxacaqdır.

Maddə 4

İstisnalar

Bu Sazişin müddəaları Razılığa gələn bir Tərəfin aşağıda qeyd edilənlər əsasında hər hansı rejim, imtiyaz və ya güzəştin Razılığa gələn digər Tərəfin sərmayəçilərinə şamil etmək öhdəliyində olması kimi şərh edilməyəcəkdir:

a. Razılığa gələn Tərəflərdən birinin üzv olduğu və ya üzv ola biləcəyi hər hansı mövcud və ya gələcəkdə yaradılacaq sərbəst ticarət zonası, gömrük ittifaqı, ümumi bazar və ya regional əmək bazarı sazişi,

b. vergitutmaya aid olan hər hansı beynəlxalq müqavilə və ya razılaşma,

c. Razılığa gələn Tərəflərdən birinin üzv olduğu və ya üzv ola biləcəyi, sərmayələrə aid hər hansı çoxtərəfli konvensiya və ya müqavilə.

Maddə 5

Ekspropriasiya

1. Razılığa gələn bir Tərəfin sərmayəçilərinin Razılığa gələn digər Tərəfin ərazisində sərmayələri, ictimai mənafenin tələb etdiyi, ayrı-seçkiliyə yol vermədən, qanun tələblərinə müvafiq olaraq və dərhal, adekvat və effektiv kompensasiyanın ödənilməsi halları istisna olmaqla, ekspropriasiyaya, milliləşdirməyə və ya birbaşa və ya dolayısı ekspropriasiyaya və ya milliləşdirməyə (bundan sonra "ekspropriasiya" adlanır) bərabər nəticə verən hər hansı digər tədbirlərə məruz qalmayacaqlar.

2. Bu cür kompensasiya, ekspropriasiyanın həyata keçirildiyi və ya ictimaiyyətə məlum olduğundan, hansı daha tez baş verərsə, bilavasitə əvvəlki vaxtda ekspropriasiya edilmiş sərmayənin ədalətli bazar dəyərinə bərabər olacaqdır.

3. Bu cür ədalətli bazar dəyəri sərbəst dönərli valyutada, köçürmə günü bu valyutaya tətbiq edilən bazar mübadilə məzənnəsinə əsaslanaraq ifadə ediləcəkdir. Kompensasiya həmçinin, ödəniş vaxtından real ödəniş vaxtına qədər kommersiya dərəcəsi üzrə faizi də əhatə edəcəkdir.

4. Sərmayələri ekspropriasiya edilmiş sərmayəçi onun işinə və bu maddədə ifadə olunmuş prinsiplərə müvafiq qaydada onun sərmayələrinin qiymətləndirilməsinə Qəbul edən Razılığa gələn Tərəfin məhkəməyə ya digər səlahiyyətli orqanı tərəfindən təxirə salınmadan yenidən baxılması hüququna malik olacaqdır.

Maddə 6

Zərərə görə kompensasiya

1. Razılığa gələn bir Tərəfin sərmayəçilərinin Razılığa gələn digər Tərəfin ərazisindəki sərmayələri baş verən müharibə və ya digər silahlı münaqişə, milli fövqəladə vəziyyət, üsyan, qiyam və ya təbii fəlakət nəticəsində ziyan çəkirsə, Razılığa gələn sonuncu Tərəf onlara münasibətdə restitusiya, əvəzin ödənilməsi, kompensasiya və ya hər hansı başqa ödənişlərlə bağlı rejim tətbiq edəcəkdir və bu, Razılığa gələn sonuncu Tərəfin öz sərmayəçilərinə və ya hər hansı üçüncü dövlətin sərmayəçilərinə münasibətdə tətbiq etdiyi rejimdən (sərmayəçi üçün hansı daha əlverişlidirsə) az əlverişli olmayacaqdır. Həmin ödəmələr sərbəst dönərli valyutada və təxirə salınmadan köçürülməlidir.

2. Bu maddənin 1-ci bəndi nəzərə alınmaqla, Razılığa gələn bir Tərəfin sərmayəçisinə münasibətdə, o bu bənddə göstərilən hər hansı bir vəziyyətdə, Razılığa gələn digər Tərəfin ərazisində aşağıdakılar nəticəsində ziyan çəkirsə:

a. sonuncunun silahlı qüvvələri və ya hakimiyyət orqanları tərəfindən onun sərmayəsinin tam və ya bir hissəsinin müsadirəsi və ya

b. sonuncunun silahlı qüvvələri və ya hakimiyyət orqanları tərəfindən onun sərmayəsinin tam və ya bir hissəsinin, vəziyyətin zəruriliyi tələb etmədən məhv edilməsi,

Razılığa gələn sonuncu Tərəf adekvat kompensasiya və ya əvəzolunma həyata keçirəcəkdir.

Maddə 7

Sərbəst köçürmə

1. Öz qanunvericiliyinə uyğun olaraq Razılığa gələn hər bir Tərəf Razılığa gələn digər Tərəfin sərmayəçilərinin fiskal öhdəlikləri yerinə yetirməsindən sonra üçün sərmayə ilə bağlı ödəmələrin öz ərazisinə və ərazisindən sərbəst köçürülməsini vicdanla təmin edəcəkdir. Belə ödəmələrə xüsusi halda, lakin bununla məhdudlaşmayaraq:

a. sərmayənin saxlanılması, inkişaf etdirilməsi və ya artırılması üçün əsas və əlavə məbləğlər;

b. gəlirlər;

c. sərmayənin tam və ya qismən satışından və ya özgəninkiləşdirilməsindən əldə edilən vəsaitlər;

d. royaltilər və lisenziya haqları və ya digər oxşar xərclərin ödənilməsi kimi sərmayə qoyuluşu ilə bağlı fəaliyyətdən yaranan xərclərin ödənilməsi üçün tələb olunan məbləğlər;

e. bu Sazişin 5-ci və 6-cı maddələrinə uyğun olaraq ödənilməli olan kompensasiya;

f. idarəetmə xərcləri;

g. mübahisənin tənzimlənməsindən irəli gələn ödəmələr;

h. borc sazişləri daxil olmaqla, kontraktlarla bağlı ödəmələr;

i. sərmayə ilə bağlı işləyən xaricdən cəlb olunmuş kadrların xalis gəlirləri və digər mükafatlar daxildir.

2. Bu maddənin 1-ci bəndində göstərilən köçürmələr heç bir məhdudiyyət və ya gecikdirmə olmadan sərbəst dönərli valyutada və köçürmə günü üstünlük təşkil edən bazar məzənnəsi ilə həyata keçiriləcəkdir. Əgər bazar məzənnəsi mövcud deyilsə, tətbiq edilən mübadilə məzənnəsi kimi valyutaların "SDR"-ə çevrilməsi üzrə ən son mübadilə məzənnəsindən istifadə ediləcəkdir.

3. Bu maddənin 1-ci və 2-ci bəndlərinə baxmayaraq, Razılığa gələn Tərəf sərmayəçinin Qəbul edən Razılığa gələn Tərəfin:

a. vergi və rüsumların ödənilməsi;

b. müflisləşmə və iflas işi və ya kreditorların hüquqlarının müdafiəsi;

c. cinayət və ya digər hüquq pozuntuları;

qanunvericiliyə, məhkəmə və tribunal qərarlarına müvafiq olduğunu müəyyən etmək üçün qərəzsiz, ayrı-seçkiliksiz və vicdanlı tədbirlərin həyata keçirilməsi vasitəsilə köçürməni yubada və ya qarşısını ala bilər.

4. Bu Sazişin müddəaları Razılığa gələn Tərəfin iqtisadi və maliyyə ittifaqlarının üzvü olmasından irəli gələn öhdəliklərinin könüllü olaraq yerinə yetirilməsinə mane olacaq şəkildə şərh edilməyəcəkdir.

Maddə 8

Subroqasiya

Razılığa gələn bir Tərəf və ya onun təyin etdiyi agentlik (bundan sonra - "zamin") Razılığa gələn digər Tərəfin ərazisində sərmayənin qeyri-kommersiya risklərinə görə verilən zəmanət və ya sığorta müqaviləsi əsasında ödəniş həyata keçirərsə, Qəbul edən Razılığa gələn Tərəf bu sərmayə ilə bağlı bütün hüquqların və tələblərin zaminə verilməsini və zaminin bu cür hüquqları və tələbləri ilkin sərmayəçi qədər həyata keçirmək hüququna malik olduğunu tanıyacaqdır.

Maddə 9

Məsləhətləşmələr

Razılığa gələn Tərəflər, onlardan hər hansı birinin müraciəti əsasında, bu Sazişin yerinə yetirilməsi və ya tətbiq edilməsi ilə bağlı hər hansı bir məsələnin nəzərdən keçirilməsi və ya bu Sazişdən irəli gələ biləcək hər hansı digər məsələnin öyrənilməsi üçün təxirəsalınmaz məsləhətləşmələr keçirməyə razılaşırlar. Belə məsləhətləşmələr Razılığa gələn Tərəflər arasında diplomatik kanallar vasitəsilə razılaşdırılmış yerdə və vaxtda Razılığa gələn Tərəflərin səlahiyyətli orqanları arasında həyata keçiriləcəkdir.

Maddə 10

Sərmayəçi və Qəbul edən Razılığa gələn Tərəf arasında mübahisələr

1. Razılığa gələn Tərəfin sərmayəçisi və Razılığa gələn digər Tərəf arasında, Razılığa gələn sonuncu Tərəfin ərazisindəki sərmayəyə münasibətdə bu Sazişin bir və ya bir neçə müddəasının pozulduğunun iddia edildiyi halla bağlı hər hansı mübahisə, imkan daxilində, dostcasına tənzimlənəcəkdir. Sərmayəçinin bu maddəyə müvafiq olaraq mübahisə ilə bağlı məhkəməyə müraciət etməsindən əvvəl Tərəflər dostcasına danışıqlar aparmalıdırlar. Mübahisə edən Tərəflər arasında digər razılaşmanın olmadığı təqdirdə, danışıqların aparılacağı yer mübahisənin iştirakçısı olan Razılığa gələn Tərəfin paytaxtı olacaqdır. Mübahisənin iştirakçısı olan Razılığa gələn Tərəfin danışıqlarda iştirak etməkdən imtina etməsi səbəbindən sərmayəçinin aşağıdakı, 2-ci bənddə göstərilən mübahisənin həlli proseduruna müraciət etməsi hüququnun qarşısı alına bilməz.

2. Əgər yuxarıda 1-ci bənddə göstərilən mübahisə dostcasına tənzimlənməyə dair müraciətin tarixindən altı ay müddətində dostcasına tənzimlənə bilmirsə, sözügedən sərmayəçi mübahisəni beynəlxalq arbitraja verə bilər. Tərəflər arasında mübahisənin həlli üçün üstünlük təşkil edəcək başqa bir mexanizm razılaşdırılmadığı təqdirdə, sərmayəçi mübahisəni aşağıdakılardan birinə vermək seçiminə malikdir:

a. dövlətinin ərazisində sərmayə qoyulmuş Razılığa gələn Tərəfin səlahiyyətli məhkəməsinə;

b. 1965-ci il 18 mart tarixində Vaşinqtonda imzalanma üçün açıq elan edilmiş Dövlətlər və digər dövlətlərin vətəndaşları arasında sərmayə mübahisələrinin həlli üzrə Konvensiyaya uyğun olaraq təsis edilmiş Sərmayə Mübahisələrinin Həlli üzrə Beynəlxalq Mərkəzə (bundan sonra "Mərkəz" adlandırılır);

c. bu bəndin "b" altbəndində göstərilən Konvensiyanı Razılığa gələn Tərəflərdən biri imzaladığı təqdirdə Mərkəzin Əlavə Qurumuna;

d. əgər mübahisə tərəfləri arasında digər razılaşma yoxdursa, Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Ticarət Hüququ üzrə Komissiyanın ("UNCİTRAL") Arbitraj Qaydalarına müvafiq olaraq təsis ediləcək arbitraj məhkəməsinə.

3. Əgər sərmayəçi iddia ilə bu maddənin 2 (a) bəndində göstərilən Razılığa gələn Tərəfin səlahiyyətli məhkəməsinə və ya 2(b)-2(d) bəndlərində qeyd edilən beynəlxalq arbitraj məhkəmələrindən birinə müraciət edərsə, bu, sərmayəçinin müraciət edə biləcəyi son instansiyadır.

4. Mübahisə tərəfi olan Razılığa gələn Tərəflərdən heç biri arbitraj prosedurunun və ya arbitraj məhkəməsi qərarının yerinə yetirilməsinin hər hansı bir mərhələsində, mübahisədə qarşı tərəf olan sərmayəçinin sığorta əsasında onun itkilərini tam və ya qismən ödəyən kompensasiyanı aldığını nəzərə alaraq etirazla çıxış edə bilməz.

5. Mübahisə bu Sazişin şərtlərinin tətbiqini nəzərdə tutan, mübahisə tərəfi olan Razılığa gələn Tərəfin qanunvericiliyinə və beynəlxalq ümumi hüququn prinsiplərinə uyğun

olaraq həll olunacaqdır.

6. Bu qərar mübahisə tərəfləri üçün son və məcburi olacaq və Sərmayəni Qəbul edən Razılığa gələn Tərəfin qanunvericiliyinə uyğun olaraq həyata keçiriləcəkdir.

Maddə 11

Razılığa gələn Tərəflər arasında mübahisələr

1. Bu Sazişin təfsiri və tətbiqi ilə bağlı Razılığa gələn Tərəflər arasında mübahisələr mümkün qədər tez, danışıqlar yolu ilə həll ediləcəkdir.

2. Əgər mübahisə Razılığa gələn hər hansı bir Tərəfin belə danışıqların aparılması haqqında müraciət etdiyi tarixdən etibarən altı ay ərzində bu yolla həll edilə bilməzsə, o, Razılığa gələn hər hansı bir Tərəfin müraciəti əsasında, bu maddəyə əsasən yaradılacaq arbitraj məhkəməsinə veriləcəkdir (bundan sonra - Arbitraj Məhkəməsi).

3. Belə Arbitraj Məhkəməsi hər bir fərdi iş üçün aşağıdakı qaydada təsis olunacaqdır. Arbitraj haqqında müraciət alındığı tarixdən etibarən iki ay ərzində Razılığa gələn hər bir Tərəf Məhkəmənin bir üzvünü təyin edəcəkdir. Sonra bu iki üzv Razılığa gələn hər iki Tərəfin razılığı əsasında, Məhkəmənin sədri kimi təyin olunacaq üçüncü dövlətin vətəndaşını seçəcəkdir. Sədr digər iki üzvün təyin olunduğu vaxtdan sonra dörd ay ərzində təyin olunacaqdır.

4. Əgər bu maddənin 3-cü bəndində göstərilən müddətlər ərzində zəruri təyinatlar həyata keçirilməzsə, digər razılaşmanın olmadığı təqdirdə, Razılığa gələn Tərəflərdən hər hansı biri Beynəlxalq Məhkəmənin Sədrini hər hansı zəruri təyinatların həyata keçirilməsi üçün dəvət edə bilər. Əgər Sədr Razılığa gələn Tərəflərdən hər hansı birinin vətəndaşıdırsa və ya hər hansı səbəbdən göstərilən funksiyanı yerinə yetirə bilmirsə, Razılığa gələn Tərəflərdən heç birinin vətəndaşı olmayan və bu funksiyanı yerinə yetirə biləcək, Beynəlxalq Məhkəmənin rütbəcə sonra gələn üzvü zəruri təyinatların həyata keçirilməsi üçün dəvət ediləcəkdir.

5. Arbitraj Məhkəməsi öz prosedur qaydalarını müəyyən edəcəkdir.

Arbitraj Məhkəməsi öz qərarını bu Saziş əsasında və Razılığa gələn Tərəflər arasında tətbiqə yararlı beynəlxalq hüquq normalarına uyğun qəbul edəcəkdir.

Arbitraj Məhkəməsi öz qərarını səs çoxluğu ilə qəbul edəcəkdir. Məhkəmənin qərarları Razılığa gələn hər iki Tərəf üçün son və məcburi olacaqdır.

Razılığa gələn hər bir Tərəf özünün təyin etdiyi üzvün və özünün məhkəmə prosesində təmsil edilməsi xərclərini ödəyəcəkdir. Razılığa gələn hər iki Tərəf Sədrin xərcini, həmçinin digər ümumi xərclərin ödənilməsini bərabər hissədə öz üzərinə götürəcəkdir.

Maddə 12

Digər qaydaların tətbiqi

Əgər bu Sazişə əlavə olaraq, Razılığa gələn hər hansı Tərəfin qanunvericiliyinin müddəaları və ya Razılığa gələn Tərəflər arasında beynəlxalq hüquq əsasında mövcud olan və ya gələcəkdə qəbul ediləcək öhdəliklər Razılığa gələn digər Tərəfin sərmayəçilərinin qoyduğu sərmayələr üçün bu Sazişlə təmin edilən rejimdən daha əlverişli rejimin

tətbiqi haqqında ümumi və ya xüsusi qayda müəyyən edərsə, həmin müddəalar, onların sərmayəçi üçün daha əlverişli olduğu dərəcədə, bu Sazişə nisbətən üstünlük təşkil edəcəkdir.

Maddə 13

Sazişin tətbiqi

Bu Sazişin müddəaları Razılığa gələn Tərəflərdən hər hansı birinin sərmayəçiləri tərəfindən Razılığa gələn digər Tərəfin ərazisində gələcəkdə qoyulacaq sərmayələrə və bu Sazişin qüvvəyə minməsi tarixində Razılığa gələn Tərəflərin mövcud olan sərmayələrinə tətbiq olunacaqdır. Lakin bu Sazişin müddəaları onun qüvvəyə minməsindən əvvəl baş vermiş hallardan irəli gələn mübahisələrə və ya onun qüvvəyə minməsindən əvvəl həll olunmuş mübahisələrə tətbiq olunmayacaqdır.

Maddə 14

Dəyişikliklər

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və Sazişin 15-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən dəyişikliklər edilə bilər.

Maddə 15

Qüvvəyəminmə, qüvvədəqalma və xitam

1. Bu Saziş Razılığa gələn Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili hüquqi tələbləri yerinə yetirdikləri barədə diplomatik kanallar vasitəsilə bir-birlərinə göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdən sonra otuzuncu gündə qüvvəyə minəcəkdir.

2. Bu Saziş beş il müddətində qüvvədə qalacaq və Razılığa gələn bir Tərəf Razılığa gələn digər Tərəfə ona xitam vermək niyyəti barədə bir il əvvəl yazılı şəkildə bildiriş göndərməyənə qədər növbəti on il müddətinə uzadılacaqdır.

3. Bu Sazişə xitam verilməsi tarixindən əvvəl qoyulmuş sərmayələrə münasibətdə onun 1-14-cü maddələrinin şərtləri bu Sazişə xitam verilməsi barədə bildirişin verilmə tarixindən növbəti on il müddətində qüvvədə qalacaqdır.

Bunun təsdiqi olaraq, bunun üçün müvafiq qaydada səlahiyyətləndirilmiş, aşağıda imza edən təmsilçilər bu Sazişi imzaladılar.

Bu Saziş Tallin şəhərində 2010-cu il 7 aprel tarixində, hər biri Azərbaycan, eston və ingilis dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Sazişin təfsiri və tətbiqi zamanı fikir ayrılığı yarandıqda, ingilis dilində olan mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	ESTONİYA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ŞAHİN MUSTAFAYEV	*URMAS PAET*
İqtisadi inkişaf naziri	*Xarici işlər naziri*

"Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında təbii fəlakətlərin və texnogen qəzaların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında təbii fəlakətlərin və texnogen qəzaların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında" 2010-cu il fevralın 23-də Afina şəhərində imzalanmış Saziş təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 8 iyun 2010-cu il

№ 1025-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında təbii fəlakətlərin və texnogen qəzaların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti,

iki ölkə arasında ənənəvi dostluq əlaqələrinin dərinləşdirilməsini arzulayaraq,

fövqəladə halların idarə olunması sahəsində əməkdaşlığın hər iki Dövlətin təhlükəsizliyinə və rifahına yardım edəcəyini dərk edərək,

hər iki ölkə üçün fövqəladə hallara səbəb ola biləcək riskləri dərk edərək,

fövqəladə halların qarşısının alınması və idarə olunması sahəsində elmi və texniki məlumat mübadiləsinə olan qarşılıqlı marağı nəzərə alaraq,

təbii fəlakətlərin qarşısının alınması və onların nəticələrinin aradan qaldırılması, habelə onlardan mühafizə sahəsində müvafiq strategiya tələb edən hər iki ölkənin ekoloji sisteminin qorunmasının vacibliyini dərk edərək,

ölkənin hüdudlarından kənarda baş verən təbii fəlakətlərin və texnogen qəzaların qarşısının alınmasında və nəticələrinin aradan qaldırılmasında birgə fəaliyyətə ehtiyac olduğuna əmin olaraq,

Razılığa gələn Tərəflərdən birinin öz imkanları və vasitələri hesabına öhdəsindən gələ bilməsi mümkün olmayan və bu baxımdan fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması üçün birgə fəaliyyəti zəruri edən, ehtimal oluna bilən fəlakətlərin baş verməsinin mümkünlüyünü dərk edərək,

fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində BMT və digər beynəlxalq təşkilatların rolunu nəzərə alaraq, bu beynəlxalq təşkilatlar

çərçivəsində imzalanmış beynəlxalq sazişlərə uyğun olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər

Bu Sazişin məqsədləri üçün terminlər aşağıdakı mənaları kəsb edir:

"Sorğu Göndərən Razılığa gələn Tərəf" - Razılığa gələn digər Tərəfdən yardımın təmin olunması üçün heyət, ləvazimat göndərilməsi və humanitar yardım göstərilməsi barədə müraciət edən Razılığa gələn Tərəfdir.

"Sorğu Alan Razılığa gələn Tərəf" - Sorğu Göndərən Razılığa gələn Tərəfin sorğusuna cavab verən Razılığa gələn Tərəfdir.

"Yardımın təmin edilməsi" - təbii və texnogen xarakterli fövqəladə halların nəticələrinin aradan qaldırılması üçün xilasediciləri, tələb olunan ekspertləri göndərməklə və ya xidmət təmin etmək, həmçinin materiallar və avadanlıqla təchiz etməklə Sorğu Alan Razılığa gələn Tərəfin Sorğu Göndərən Razılığa gələn Tərəfə göstərdiyi yardımdır.

"Səlahiyyətli qurum" - yardımın göstərilməsi ilə bağlı sorğunun yoxlanılması və bunun əsasında qərar verilməsi üçün Razılığa gələn hər bir Tərəfin təyin etdiyi orqandır. Bu Sazişin həyata keçirilməsindən irəli gələn fəaliyyətin əlaqələndirilməsi də həmin orqana həvalə ediləcəkdir.

"Yardım dəstəsi" - kifayət qədər iş təcrübəsinə və tələb edilən bütün vasitələri olan və yardımın təmin edilməsi üçün Sorğu Alan Razılığa gələn Tərəfin seçdiyi ekspertlər və ya ekspert qruplarından, o cümlədən mülki müdafiə və digər təşkilatların üzvlərindən ibarətdir.

"Fövqəladə hal" - həyat və ya ictimai sağlamlıq, mülkiyyət və ya ətraf mühit üçün nəzərə çarpacaq dərəcədə təhlükə yaradan və ya zərər yetirən, müəyyən sahədə və ya obyektdə baş verən təbii və ya texnogen fəaliyyətin səbəb olduğu vəziyyətdir.

"Fövqəladə halların qarşısının alınması" - fövqəladə halların başvermə riskinin aradan qaldırılması üçün əvvəlcədən görülmüş tədbirlər toplusudur.

"Fövqəladə ərazi" - fövqəladə hal baş verən ərazidir.

"Fövqəladə yardım" - fövqəladə hallar zamanı insanların xilas edilməsi, əhalinin sağlamlığının qorunması, ekoloji, mədəni və maddi itkilərin, həmçinin bunların nəticəsində meydana çıxan nəticələrin aradan qaldırılması üçün həyata keçirilən kompleks tədbirlərdir.

"Avadanlıq" - yardımın təmin olunması üçün tələb olunan texniki vasitələr və nəqliyyat vasitələri, xilasetmə avadanlığı, həmçinin yardımın təmin olunmasında *iştirak edən* insanlar üçün ilkin zəruri əşyalardır.

"Humanitar təchizat" - fövqəladə halların nəticələrinin aradan qaldırılması üçün ehtiyac duyulan və zərərçəkmiş əhaliyə təmənnasız paylanılmaq üçün nəzərdə tutulmuş maddi vəsaitlərdir.

"Tranzit ölkə" - 3-cü ölkəyə yardımın təmin olunması üçün dövlətinin ərazisi vasitəsilə yardım dəstəsinin keçdiyi və ya humanitar avadanlığın nəql edildiyi Razılığa gələn Tərəflərdən birinin Dövlətidir.

Maddə 2

Səlahiyyətli orqanlar

1) Razılığa gələn Tərəflər aşağıdakı səlahiyyətli orqanları təyin edirlər:

Azərbaycan Respublikası adından: Fövqəladə Hallar Nazirliyi,

Yunanıstan Respublikası adından: Vətəndaşların Müdafiəsi Nazirliyi, Mülki Müdafiə üzrə Baş Katiblik.

2) Razılığa gələn Tərəflərin səlahiyyətli orqanları Saziş qüvvəyə mindikdən sonra 30 gündən gec olmayaraq əlaqələndirici şəxslər kimi təyin edilməli olan orqanlar və ya şəxslər barədə lazımi məlumatı bir-birinə bildirirlər.

3) Bu Sazişin həyata keçirilməsi məqsədilə, səlahiyyətli orqanlar bir-biri ilə birbaşa əlaqə saxlayırlar. Bu məqsədlə onlar əlaqə saxlamaq üçün lazım olan dəqiq məlumatı, xüsusilə ünvanlarını bir-birinə bildirirlər.

4) Razılığa gələn Tərəflər səlahiyyətli orqanların və əlaqə qurumlarının fəaliyyətinin düzgün aparılmasına nəzarət edirlər.

Səlahiyyətli orqan və ya əlaqəli qurumun dəyişdirilməsi zərurəti yarandıqda 30 gün ərzində Razılığa gələn Tərəf Razılığa gələn qarşı Tərəfi yazılı şəkildə məlumatlandırır.

Maddə 3

Əməkdaşlıq formaları

1) Bu Sazişin mahiyyəti çərçivəsində əməkdaşlıq aşağıdakıları əhatə edəcəkdir:

fövqəladə halların xəbərdar edilməsi, qarşısının alınması və qiymətləndirilməsi, monitorinq sisteminin təşkili və fəaliyyət göstərməsi, habelə fövqəladə halların nəticələrinin aradan qaldırılması;

fövqəladə halların başvermə səbəbləri və şəraitlərinin öyrənilməsi və onların nəticələrinin qiymətləndirilməsi;

təbii fəlakətlər və texnogen qəzalar nəticəsində baş vermiş çirklənmənin əhaliyə və ətraf mühitə qarşı risklərinin qiymətləndirilməsi;

texniki avadanlığın və digər vasitələrin təmin edilməsində qarşılıqlı yardım, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması məqsədilə birgə planlaşdırma və fəaliyyət, o cümlədən birgə təlimlərin təşkili;

əhalinin fövqəladə hallara hazırlığı üçün, xilasetmə prosedurları da daxil olmaqla, təlimlərin təşkil olunması;

əməkdaşlıq çərçivəsində elmi təşkilatlarla birgə konfransların, təcrübə mübadiləsinin, xüsusi seminarların təşkil olunması və elmi layihələrin aparılması;

informasiya, video və foto materialların, texnologiyaların, fəaliyyətlə bağlı təlimatların

və digər nəşrlərin mübadiləsi;

birgə nəşrlərin və hesabatların hazırlanması;

Razılığa gələn digər Tərəfin təhsil müəssisələrində ekspertlərin təlimi, təlimatçıların, müəllimlərin, alimlərin və ekspertlərin qarşılıqlı mübadiləsi;

Razılığa gələn Tərəflərin səlahiyyətli orqanları üçün konfransların təşkili.

2) Razılığa gələn Tərəflər 1-ci bəndin əməkdaşlıq formaları ilə, xüsusilə birgə təlimlər ilə bağlı bu Sazişin müddəalarının hər birini hər bir hal üçün ayrıca həyata keçirirlər.

Maddə 4

Beynəlxalq və milli təşkilatlarla əməkdaşlıq

Razılığa gələn Tərəflər bütün mümkün vasitələrlə fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində fəaliyyət göstərən bütün beynəlxalq və milli təşkilatlar, institutlar, fiziki və hüquqi şəxslərlə əməkdaşlığı təklif edə və inkişaf etdirə bilərlər.

Maddə 5

Birgə Komissiya

Birgə Komissiya hər tərəfdən eyni sayda üzvlər olmaqla, bu Sazişin həyata keçirilməsi üçün yaradılır. Birgə Komissiya öz prosedur qaydalarını özü qəbul edəcək və ən azı ildə bir dəfə toplanacaqdır. Birgə Komissiya bu Saziş çərçivəsində Razılığa gələn Tərəflərin əməkdaşlığını və qarşılıqlı fəaliyyətini əlaqələndirəcək və onun həyata keçirilməsinə nəzarət edəcəkdir.

Maddə 6

Nümayəndə heyətlərinin qəbulunun şərtləri

Digər şəkildə razılaşdırılmadığı halda, Razılığa gələn Tərəflərin rəsmi şəxslərinin, və digər nümayəndə heyəti üzvlərinin öz ərazisindəki yerli nəqliyyat xərcləri də daxil olmaqla, bütün yerləşmə xərclərini Sorğu Göndərən Razılığa gələn Tərəf ödəyir. Sorğu Göndərən Razılığa gələn Tərəfin dövlətinin ərazisinə və geriyə səyahət xərclərini isə Sorğu Alan Razılığa gələn Tərəf ödəyir.

Maddə 7

Yardım üçün müraciət və informasiya mübadiləsi

1) Razılığa gələn Tərəflərin səlahiyyətli orqanları fövqəladə hallar zamanı yardım üçün müraciət ünvanlamaq hüququna malikdirlər.

2) Yardım Sorğu Göndərən Razılığa gələn Tərəfin təqdim etdiyi fövqəladə halın yeri, vaxtı, xarakteri, miqyası və parametləri, görülməli olan tədbirlər, həmçinin tələb olunan yardımın növü və prioritetliyi qeyd olunan müraciət əsasında göstərilir.

3) Sorğu Alan Razılığa gələn Tərəfin səlahiyyətli orqanı yardım göstərilməsi barədə mümkün olduğu qədər tez qərar verməli və Sorğu Göndərən Razılığa gələn Tərəfi yardımın mümkünlüyü, şərtləri və miqyası haqqında təcili olaraq məlumatlandırmalıdır.

Maddə 8

Yardım göstərilməsinin metodları, əlaqələndirilməsi və idarə olunması

1) Yardım dəstəsinin və humanitar maddi vəsaitlərin göndərilməsi və ya zəruri bilik və ya məlumatın ötürülməsi vasitəsilə yardım təmin oluna bilər.

2) Sorğu Göndərən Razılığa gələn Tərəfin dövlətinin ərazisində fövqəladə yardım fəaliyyətləri, fövqəladə halların nəticələrinin aradan qaldırılması və zərər çəkmiş əhaliyə yardımın göstərilməsi sözügedən Razılığa gələn Tərəflərin milli qanunvericiliyinə uyğun şəkildə səlahiyyətli qurumlar və şəxslər tərəfindən təmin edilir və əlaqələndirilir.

3) Sorğu Alan Razılığa gələn Tərəfin yardım dəstəsinə təlimatlar yalnız həmin dəstənin rəhbəri tərəfindən verilir.

4) Sorğu Göndərən Razılığa gələn Tərəfin səlahiyyətli orqanı yardım dəstəsinin rəhbərlərini fövqəladə hal baş verdiyi yer və hadisənin gedişatı barədə məlumatlandırır. Bununla əməkdaşlıq proseduru müəyyən edilir və ehtiyac yaranarsa, yardım dəstəsi tərcüməçi və digər zəruri vasitə və avadanlıqla təmin olunur.

5) Sorğu Göndərən Razılığa gələn Tərəf Sorğu Alan Razılığa gələn Tərəfin yardım dəstəsinin təhlükəsizliyini təmin etməli, təcili olaraq təmənnasız ilkin tibbi yardım təşkil etməli, onları qida, yer və ehtiyac duyulan ilkin zəruri maddi vəsaitlərlə təmin etməlidir. Yardım dəstəsinin öz maddi təchizatı onlara 72 saat ərzində kifayət etməlidir.

6) Sorğu Göndərən Razılığa gələn Tərəf humanitar təchizatın düzgün qəbuluna və zərərçəkmiş şəxslərə təmənnasız çatdırılmasına nəzarət edir.

Maddə 9

Yardım dəstəsinin sərhəddi keçmə prosedurları və onların Sorğu Göndərən Razılığa gələn Tərəfin dövlət ərazisində qalma statusu

1) Yardım dəstələrinin üzvləri Sorğu Göndərən Razılığa gələn Tərəfin dövlət sərhədini beynəlxalq gediş-gəliş üçün açıq olan sərhəd yoxlanış məntəqələrindən Şenqen Aktı və ya milli qanunvericiliklərinə uyğun olaraq müvafiq viza alınması üzrə sadələşdirilmiş prosedur tətbiq olunmuş etibarlı pasportlardan istifadə etməklə keçirlər.

2) Yardım dəstəsinin rəhbərində dəstənin üzvlərinin adları qeyd olunan Sorğu Alan Razılığa gələn Tərəfin səlahiyyətli orqanı tərəfindən verilmiş yazılı icazə olmalıdır. Həmin yazılı icazənin nümunəsi bu Sazişə Əlavədə qeyd olunmuşdur.

3) Sorğu Göndərən Razılığa gələn Tərəfin dövlətinin ərazisində qaldıqları müddət ərzində yardım dəstələrinin üzvləri Razılığa gələn həmin Tərəfin dövlətinin milli qanunvericiliyinə riayət etməlidirlər.

4) Yardım dəstələrinin üzvləri Sorğu Göndərən Razılığa gələn Tərəfin dövlətinin ərazisində öz uniformalarını geyinmək hüququna malikdirlər. Sorğu Göndərən Razılığa gələn Tərəf Razılığa gələn digər Tərəfin yardım dəstəsinin nəqliyyat vasitələrinin üzərində xüsusi fərqləndirmə nişanının istifadəsinə hər hansı məhdudiyyət qoymur.

5) Razılığa gələn Tərəflər Razılığa gələn Tərəfin birinin tranzit ölkə olması halında 1-4-cü bəndin müddəalarını tətbiq edəcəklər. Səlahiyyətli orqanlar Razılığa gələn digər

Tərəfin səlahiyyətli orqanlarını, tranzitə ehtiyac olması barədə məlumatlandıracaq, habelə ehtiyac olduğu təqdirdə, yardım dəstələrinin keçməsi üçün rəsmi müşayiət təmin edərək tranzitin prosedur və metoduna dair razılığa gələcəklər.

Maddə 10

Avadanlıq və humanitar təchizatın dövlət sərhədi vasitəsilə gətirilməsi, Aparılması və dövriyyəsi

1) Razılığa gələn Tərəflər dövlət sərhədindən keçərkən avadanlıq və humanitar təchizatın daşınmasını aşağıdakı qaydada təmin edirlər:

a) Sərhədi keçən zaman yardım dəstəsinin rəhbəri Sorğu Göndərən Razılığa gələn Tərəfin gömrük orqanlarına yardım dəstəsi üçün lazım olan şəxsi əşyaların siyahısını və humanitar təchizat kimi aparılan əşyaların ayrıca siyahısını təqdim edir. Siyahılar yazılı icazənin ayrılmaz hissəsi olmalıdır. Onların nümunəsi Əlavədə qeyd olunmuşdur.

b) Əgər humanitar təchizatın içində dərman preparatları, o cümlədən narkotik və psixotrop maddələr varsa, bunlar barədə ayrıca ətraflı siyahı hazırlanır. Bu siyahı BMT-nin Narkotiklərə Nəzarət üzrə Beynəlxalq Komitəsi tərəfindən tanınan (BMT NNBK) dövlət qurumuna göndərilməlidir. Razılığa gələn Tərəflərin səlahiyyətli orqanları Dünya Səhiyyə Təşkilatının tövsiyələrinə uyğun olaraq hərəkət edir və BMT NNBK-nıbu barədə məlumatlandırır.

2) Yardım göstərilməsi üçün yardım dəstələri yalnız avadanlıq və humanitar maddi vəsaitlər, o cümlədən nəqliyyat vasitələri idxal və ya ixrac edə bilərlər.

Dövlət sərhədləri vasitəsilə keçirilən avadanlığa və humanitar maddi vəsaitlərə ticarət dövriyyəsi üçün müəyyən edilmiş qadağalar və məhdudiyyətlər şamil olunmur. Yalnız istifadə müddəti bitməmiş məhsulların humanitar təchizat kimi istifadəsi mümkündür.

4) Humanitar maddi vəsaitlər və avadanlıq təyinatı üzrə istifadə ediləcəyinə dair şəhadətnamələr olmaq şərti ilə malların idxalı və ixracı üçün müəyyən edilmiş gömrük, vergi və digər maliyyə ödənişlərindən azad edilir.

5) Razılığa gələn Tərəflər yardım dəstəsinin nəqliyyat vasitələrindən və humanitar yardımı daşıyan digər nəqliyyat vasitələrindən beynəlxalq yol daşımaları icazəsi tələb etmirlər. Bu nəqliyyat vasitələri digər hallarda nəqliyyat vasitələrinə aid olan bütün rüsumlardan azad edilir.

6) İstifadə olunmayan və ya artıq yararsız hala düşən humanitar maddi vəsaitlər və avadanlıq 30 gündən gec olmayaraq Sorğu Alan Razılığa gələn Tərəfin dövlətinin ərazisinə geri qaytarılır.

7) Ləvazimatın bir hissəsinin humanitar yardım kimi sorğu Göndərən Razılığa gələn Tərəfin ərazisində qaldığı təqdirdə, geri qaytarılmayan əşyaların sayı, növü və saxlanma yeri haqqında müvafiq məlumat mümkün qədər tez bir zamanda Sorğu Göndərən Razılığa gələn Tərəfin gömrük orqanlarına təqdim edilir. Sorğu Göndərən Razılığa gələn Tərəfin səlahiyyətli orqanları müvafiq qaydada bu barədə məlumatlandırılır. Sorğu Göndərən Razılığa gələn Tərəfin şərtləri yuxarıda qeyd olunmuş prosedura uyğun olaraq onun ərazisində qalmış ləvazimat hissələrinə də tətbiq edilir.

8) Yardım göstərilməsi üçün Sorğu Göndərən Razılığa gələn Tərəfin dövlətinin ərazisinə dərman preparatları gətirildikdə aşağıdakı qaydalar tətbiq edilir:

a) 3-cü və 6-cı bəndlərin müddəaları tərkibində narkotik və psixotrop maddələrin olduğu dərman preparatlarına tətbiq edilir.

b) Bu cür məhsullar yalnız təcili tibbi yardım üçün lazımi miqdarda gətirilir və Sorğu Alan Razılığa gələn Tərəfin dövlət səhiyyə orqanlarının müvafiq qaydalarına uyğun olaraq ixtisaslaşmış tibbi heyət tərəfindən istifadə edilir.

c) Tərkibində narkotik və psixotrop maddələr olan istifadə edilmiş dərman preparatları haqqında onların istifadəsini təsdiqləyən sənəd yardım dəstəsinin həkimi tərəfindən imzalanmış və Sorğu Göndərən Razılığa gələn Tərəfin səlahiyyətli qurumunun nümayəndəsi tərəfindən təsdiqlənmiş şəkildə Sorğu Göndərən Razılığa gələn Tərəfin gömrük orqanlarına verilir.

d) Razılığa gələn Tərəflər narkotik və psixotrop maddələr haqqında üzv olduqları beynəlxalq konvensiyalar çərçivəsində sözügedən preparatların ölkəyə girişi və çıxışını idxal və ya ixrac kimi hesab etməməlidirlər.

9) Yardım göstərilməsi məqsədilə zəruri istehsal işlərində istifadə üçün partlayıcı maddələr istisna olmaqla, silahların, hərbi materialların və partlayıcıların Sorğu Göndərən Razılığa gələn Tərəfin dövlətinin ərazisinə gətirilməsi qadağan edilir.

10) Səlahiyyətli orqanlar 3-cü və 7-ci bəndlərdə qeyd olunan ləvazimatın və materialların Sorğu Göndərən Razılığa gələn Tərəfin milli qanunvericiliyinə uyğun olaraq istifadəsinə və saxlanmasına nəzarət etməlidir.

11) 1-9-cu bəndlərin müddəaları həmçinin tranzitdə karqolara da tətbiq ediləcəkdir.

12) Sorğu Göndərən Razılığa gələn Tərəf kimyəvi və radioaktiv maddələrdən təmizləmə və avadanlığın dezinfeksiyası və dezaktivizasiyası üçün xidmətlər təşkil edir. Bu mümkün olmadıqda, adıçəkilən avadanlıq Sorğu Göndərən Razılığa gələn Tərəfin dövlətinin ərazisində qalır.

Maddə 11

Hava gəmisindən istifadə

1) 8-ci maddənin 1-ci və 2-ci bəndlərinə uyğun olaraq yardımın təmin olunması məqsədilə Razılığa gələn Tərəflər 9-cu və 10-cu maddələrin müvafiq müddəalarında qeyd olunan sadələşdirilmiş sərhəd keçid prosedurlarından və gömrük rəsmiləşdirilməsindən istifadə etməklə Razılığa gələn digər Tərəfin hava gəmisinə öz ərazilərindən istifadə etməyə və tranzit keçidə, o cümlədən havaya qalxmalarına və yerə enmələrinə icazə verə bilərlər.

2) Yardım göstərilməsi üçün nəzərdə tutulan hava gəmisinin uçuş planı (yükün təsviri də daxil olmaqla) bu Sazişə uyğun olaraq, Razılığa gələn Tərəflərin Aeronaviqasiya İnformasiya Toplusunda (AİT) nəşr edilmiş texniki qaydalarına və qanunlarına uyğun olaraq səlahiyyətli quruma təqdim edilir.

3) Digər şəkildə razılaşdırılmadığı halda, uçuşlar Razılığa gələn Tərəflərin AİT-nə uyğun olaraq həyata keçirilir.

Maddə 12

Yardımla bağlı xərclər

1) Razılığa gələn Tərəflər digər şəkildə razılaşdırmadığı halda, bu Sazişin müddəalarına uyğun olaraq yardım təmənnasız təmin ediləcəkdir.

2) Sorğu Alan Razılığa gələn Tərəf uçuş, enmə, hava limanında dayanma, qalxma və radionaviqasiya xidmətləri ilə bağlı xərclərdən azad edilir.

3) Yardım göstərilməsi ilə əlaqədar olaraq hava gəmilərindən istifadə olunduqda, yanacaq xərcləri və hava gəmilərinə texniki xidmət ilə bağlı hər hansı məsələni Tərəflərin səlahiyyətli qurumları hər bir hal üçün ayrıca yoxlayacaqlar.

Maddə 13

Ziyanın ödənilməsi

1) Razılığa gələn Tərəflər qarşılıqlı olaraq, bu Sazişin müddəalarına uyğun şəkildə vəzifə səlahiyyətlərini yerinə yetirən yardım dəstəsinin üzvlərinin fəaliyyəti zamanı dəymiş maddi ziyanı, o cümlədən ətraf mühitə dəymiş zərərin əvəzinin ödənilməsini tələb etməkdən imtina etməlidirlər. Tərəflər həmçinin, yardım dəstəsinin üzvlərinin sözügedən fəaliyyəti yerinə yetirməsi zamanı və ya həmin fəaliyyət səbəbindən üzvlərin sağlamlığına ziyan dəyməsi və ya ölümü ilə nəticələnən hallar baş verdikdə hər hansı kompensasiya ödəməkdən imtina edirlər.

2) Bu Sazişə uyğun olaraq öz fəaliyyətini yerinə yetirən zaman Sorğu Alan Razılığa gələn Tərəfin yardım dəstəsinin üzvü Sorğu Göndərən Razılığa gələn Tərəfin ərazisində üçüncü şəxsə maddi ziyan vurarsa, buna görə Sorğu Göndərən Razılığa gələn Tərəf özünün yardım dəstəsinin səbəb olduğu hallardakı kimi milli qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyır.

3) Yardım dəstəsinin bilərəkdən və kobud səhvi nəticəsində meydana gəlmiş ziyana 1-ci və 2-ci bəndlərin müddəaları aid edilmir.

4) Kompensasiya öhdəlikləri Yardım dəstəsinin Sorğu Göndərən Razılığa gələn Tərəfin dövlətinin ərazisinə girməsi anından həmin ərazini tərk etməsi anına qədər səbəb olduğu ziyanlara tətbiq edilir.

5) Səlahiyyətli qurumlar kompensasiya tələblərinin razılaşdırılması üçün yaxından əməkdaşlıq edirlər. Bu məqsədlə onlar ziyana səbəb olmuş şərait haqqında istənilən mövcud məlumatı qarşılıqlı olaraq mübadilə edirlər.

6) Razılığa gələn Tərəflərdən birinin tranzit ölkə olması haqqında bu Maddənin müddəaları müvafiq qaydada tətbiq ediləcəkdir.

Maddə 14

Tranzit keçid

Tranzit və tranzit rəsmiləşdirmələri tranzit barədə sorğunu qəbul etmiş Razılığa gələn Tərəfin Səlahiyyətli Orqanından tranzit keçidi haqqında yazılı təsdiqin qəbulundan sonra tətbiq edilir.

Maddə 15

Məlumatın istifadə edilməsi

Bu Sazişə əsaslanan fəaliyyət barədə toplanmış məlumat, bu məlumatı təqdim edən Razılığa gələn Tərəfin əvvəlcədən yazılı razılığı olmadan üçüncü tərəfə ötürülə bilməz və bu məsələ Razılığa gələn Tərəflərin milli qanunvericiliyinə uyğun olaraq həll edilir. Bu cür məlumat Razılığa gələn Tərəflərin səlahiyyətli orqanlarının yazılı icazəsi olmadan çap edilə bilməz.

Maddə 16

Mübahisələrin həlli

Bu Sazişin şərhi və ya həyata keçirilməsindən irəli gələn bütün mübahisələr Razılığa gələn Tərəflərin səlahiyyətli orqanları arasında danışıqlar yolu ilə həll edilir.

Maddə 17

Yekun müddəalar

1) Bu Saziş Razılığa gələn Tərəflərin müvafiq dövlətdaxili prosedurların tamamlanması haqqında bir-birinə göndərdiyi sonuncu bildirişin diplomatik kanallar vasitəsilə alınması tarixindən etibarən qüvvəyə minir;

2) Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır. Razılığa gələn Tərəflərdən hər hansı biri diplomatik kanallar vasitəsilə bu Sazişə xitam verə bilər. Bu Saziş Razılığa gələn Tərəflərdən hər hansı birinin Sazişə xitam vermək barədə bildirişinin alındığı tarixdən 6 (altı) ay sonra öz qüvvəsini itirir.

3) Razılığa gələn Tərəflər digər şəkildə razılaşdırmadığı halda, bu Sazişə xitam verilməsi Sazişin qüvvədə olduğu müddətdə meydana çıxan öhdəliklərin yerinə yetirilməsinə təsir göstərmir.

Bu Saziş Afina şəhərində 2010-cu il 23 fevral tarixində, hər biri Azərbaycan, yunan və ingilis dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Sazişin təfsiri ilə bağlı hər hansı fikir ayrılığı yarandığı təqdirdə ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	YUNANISTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
KƏMALƏDDİN HEYDƏROV	*MİCHALİS CHRYSOHOİDİS*
Fövqəladə hallar naziri	*Vətəndaşların mühafizəsi naziri*

"Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı arasında yardım xidmətlərinin göstərilməsinə dair" Anlaşma Məktubunun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı arasında yardım xidmətlərinin göstərilməsinə dair" 2010-cu il fevralın 15-də Bakı

şəhərində imzalanmış Anlaşma Məktubu təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 8 iyun 2010-cu il

№ 1026-IIIQ

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Sloveniya Respublikası Müdafiə Nazirliyi arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Sloveniya Respublikası Müdafiə Nazirliyi arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının müdafiə naziri Səfər Axundbala oğlu Əbiyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının müdafiə naziri Səfər Axundbala oğlu Əbiyevə verilməsi barədə Sloveniya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 iyun 2010-cu il

№ 954

"Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Mərakeş Krallığının Sosial İnkişaf, Ailə və Həmrəylik Nazirliyi arasında ailə, qadınların inkişafı və uşaqların müdafiəsi sahələrində əməkdaşlıq haqqında Memorandum"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Mərakeş Krallığının Sosial İnkişaf, Ailə və Həmrəylik Nazirliyi arasında ailə, qadınların inkişafı və uşaqların müdafiəsi sahələrində əməkdaşlıq haqqında Memorandum"u imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Kamran qızı Hüseynovaya verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Kamran qızı Hüseynovaya verilməsi barədə Mərakeş Krallığı tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 iyun 2010-cu il

№ 955

"Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında diplomatik pasportlara malik olan şəxslərin giriş vizasından azad edilməsi haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında diplomatik pasportlara malik olan şəxslərin giriş vizasından azad edilməsi haqqında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Xələf Alı oğlu Xələfova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Xələf Alı oğlu Xələfova verilməsi barədə Birləşmiş Ərəb Əmirlikləri Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 iyun 2010-cu il

№ 956

2010-cu il aprelin 16-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında idman və gənclər sahələrində əmək-daşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2010-cu il aprelin 16-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında idman və gənclər sahələrində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Küveyt Dövləti Hökumətini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 iyun 2010-cu il

№ 957

Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında idman və gənclər sahələrində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti,

hər iki Hökumət arasında dostluq və əməkdaşlıq əlaqələrinin gücləndirilməsinə səy göstərərək,

idman və gənclər sahələrində iki qardaş Dövlətin öz aralarındakı səmimi münasibətləri və əməkdaşlığı inkişaf etdirmək, iki Dövlətin xalqları arasında dostluq əlaqələrini gücləndirmək üçün çalışdıqlarını nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər, bu Sazişdə göstərilən şəkildə, öz Dövlətlərinin müvafiq qanun və qaydalarına uyğun olaraq, idman və gənclər fəaliyyətinə xidmət edən qarşılıqlı maraq əsasında əməkdaşlığın inkişafına kömək edəcəklər.

Maddə 2

Tərəflər, gənclər və idman sahələrində aşağıda göstərilən istiqamətlərdə fəaliyyət göstərməklə, əməkdaşlığın inkişaf etdirilməsinə çalışacaqlar:

1. İdman sahəsində bir-birinin təcrübəsini öyrənmək və bu təcrübədən faydalanmaq.

2. İclas və toplanışlar zamanı qarşılıqlı olaraq mövqeləri və nəzər nöqtələrini razılaşdırmaq və mübadilə etmək.

3. İdman fəaliyyətinə və idman mütəxəssislərinin təlimi üzrə xüsusiləş-dirilmiş mərkəzlərə aid məlumatın və sənədlərin mübadiləsi.

4. İdman təşkilatlarına və strukturlarına aid dövrü mətbuat, digər çap məhsulları və kitabların mübadiləsi.

5. İdmanda dəyişiklik və yeniliklər haqqında Tərəfləri tanış etmək məqsədilə idman mətbuatı (görüntü və səs) sahəsində əməkdaşlıq etmək.

6. İdman qurğularının inşasına investisiya qoyuluşu və qurğuların istismarı sahəsində nou-hau mübadiləsi.

7. Müvafiq cəmiyyətlərin koordinasiyası ilə müxtəlif idman növləri üzrə idmançı qrupları və komandalarının yarış və oyunlarda İştirak etmək məqsədilə mübadiləsi.

8. Tərəflər hər iki ölkədə tətbiq olunan məcəllə, qayda və təlimat toplularının mübadiləsini həyata keçirəcəklər.

9. Hər iki Dövlətin ərazisində təşkil olunan konfrans və seminarlarda, hakimlik, məşq və idarəçilik sahələri üzrə xüsusi kurslarda hər iki Dövlətin nümayəndələrinin iştirakı.

10. İdman təbabəti, oyun travmaları, xüsusi travmalar və bunların müasir metodlarla müalicəsi sahəsində təcrübə mübadiləsi.

Maddə 3

Tərəflər gənclər sahəsində aşağıda göstərilən istiqamətlərdə fəaliyyət göstərməklə, əməkdaşlığın inkişaf etdirilməsinə çalışacaqlar:

1. Gənclər sahəsində hər iki Tərəfin əldə etdiyi təcrübəni öyrənmək və ondan yararlanmaq.

2. Gənclər tədbirləri və gənc liderlərin hazırlığı üzrə xüsusiləşdirilmiş mərkəzlərə dair informasiya, sənəd və filmlərin mübadiləsi.

3. Gənclərin fəaliyyətini və bu fəaliyyətin tərəqqi və inkişafda oynadığı mühüm rolu işıqlandırmaq üçün gənclər mətbuatını fəallaşdırmağa dair aydın yanaşmanı tərtib etmək məqsədilə müvafiq dövlət orqanları arasında əməkdaşlıq.

4. Hər iki Dövlətdə keçirilən gənclər şənliklərində, seminarlarda və gənclərin beynəlxalq və yerli məsələlərinə dair konfranslarda iştirak etmək üçün nümayəndə heyətlərinin mübadiləsi.

5. Dostluq və qardaşlıq mühiti yaratmaq və iki qardaş Dövlətin mədəniyyətini öyrənmək məqsədilə gənclər qruplarının səfərlərinin mübadiləsini həyata keçirmək.

Maddə 4

Bu Sazişin müddəalarının həyata keçirmək məqsədilə Tərəflər tədbirlər planı tərtib edəcəklər.

Maddə 5

Bu Sazişin nəticəsi olaraq hər iki Dövlətin rəsmilərindən ibarət işçi qrupu formalaşdırılacaqdır. Bu Sazişin müddəalarının yerinə yetirilməsi və onun ardıcıl olaraq həyata keçirilməsini təmin etmək məqsədilə təkliflərin və həll yollarının irəli sürülməsi üçün fəaliyyət proqramlarının tərtib olunması məqsədilə lazım olduğu təqdirdə işçi qrupu toplanacaqdır. Fəaliyyət proqramları standart rəsmi protokollar vasitəsilə razılaşdırılacaqdır.

Maddə 6

Tərəflər arasında idman və gənclər nümayəndə heyətlərinin mübadiləsi aşağıda göstərilən maliyyə şərtlərinə müvafiq həyata keçiriləcəkdir:

1. Səfər edən Tərəf yol xərclərini, qəbul edən Tərəf isə qalmaq, yemək, daxili nəqliyyat, zəruri hallarda tibbi və viza xərclərini öz üzərinə götürür.

2. Bu Əməkdaşlıq Sazişi iki ölkə arasında idman və gənclər sahələrində əməkdaşlıq üçün ümumi çərçivə təşkil edəcək və eyni zamanda bu Sazişin imzalanması hər hansı maliyyə öhdəliyinə səbəb olmayacaqdır.

3. Bu Sazişlə nəzərdə tutulan bütün fəaliyyət hər iki ölkənin mövcud qanunvericiliyinə uyğun aparılacaqdır.

Maddə 7

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan ayrıca protokollarla rəsmiləşdirilən və Sazişin 8-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə

minən dəyişikliklər və əlavələr edilə bilər.

Maddə 8

Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında Tərəflərin diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişi aldığı tarixdən qüvvəyə minəcəkdir.

Bu Saziş üç il müddəti üçün etibarlı olacaq və həmin müddətin başa çatmasına ən azı altı ay qalmış Tərəflərdən biri Sazişin qüvvəsini ləğv etmək niyyətini diplomatik kanallar vasitəsilə yazılı olaraq digər Tərəfə bildirməzsə, növbəti müvafiq üç illik müddətlərə avtomatik olaraq uzadılacaqdır.

Bunun təsdiqi olaraq, müvafiq qaydada səlahiyyət verilmiş Tərəflər Bakı şəhərində 16 aprel 2010-cu il tarixində bu Sazişi imzaladılar.

Bu Əməkdaşlıq Sazişi eyni hüquqi qüvvəyə malik iki əsl nüsxədə, hər biri Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır. Eyni zamanda, ziddiyyət olduğu təqdirdə, ingilis dilindəki mətndən istifadə olunacaqdır.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	KÜVEYT DÖVLƏTİ HÖKUMƏTİ ADINDAN
AZAD RƏHİMOV	*FEYSƏL MUSAİD ƏL-CƏZZAF*
Gənclər və idman naziri	*Gənclər və İdman Məsələləri üzrə Dövlət Komitəsinin sədri*

"Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995-ci il, № 22, maddə 349) aşağıdakı dəyişikliklər edilsin:

1. 2-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikasının xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla beynəlxalq müqavilələri Azərbaycan Respublikası adından (dövlətlərarası müqavilələr) və Azərbaycan Respublikasının hökuməti adından (hökumətlərarası müqavilələr) bağlanır.".

2. 3-cü maddədə "qəbul edilməsi," sözləri, 13-cü maddənin adında "və ya qəbul" sözləri və 25-ci maddənin birinci hissəsində", qəbul edilmiş" sözləri çıxarılsın.

3. 4-cü, 9-cu və 21-ci maddələr çıxarılsın.

4. 5-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Beynəlxalq danışıqların aparılması və Azərbaycan Respublikasının beynəlxalq

müqavilələrinin bağlanması haqqında qərarları müvafiq icra hakimiyyəti orqanı qəbul edir.".

5. 6-cı maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Müvafiq icra hakimiyyəti orqanı beynəlxalq danışıqlar aparmaq və Azərbaycan Respublikasının beynəlxalq müqavilələrini imzalamaq səlahiyyətini müvafiq icra hakimiyyəti orqanlarının rəhbərlərinə verə bilər. Səlahiyyət verildikdə danışıqların predmeti və həyata keçirilməli olan hərəkətlər göstərilir.".

6. 7-ci maddə üzrə:

6.1. birinci hissədə "Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının bütün beynəlxalq müqavilələri barəsində, Azərbaycan Respublikasının Baş naziri və Azərbaycan Respublikasının xarici işlər naziri isə bu Qanunun 8-ci maddəsinin ikinci hissəsində" sözləri "Müvafiq icra hakimiyyəti orqanı Azərbaycan Respublikasının bütün beynəlxalq müqavilələri barəsində, müvafiq icra hakimiyyəti orqanlarının rəhbərləri isə bu Qanunun 8-ci maddəsində" sözləri ilə əvəz edilsin;

6.2. ikinci hissə çıxarılsın və üçüncü hissə ikinci hissə hesab edilsin.

7. 8-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Dövlətlərarası və Azərbaycan Respublikasının qanunlarından fərqli qaydalar nəzərdə tutan hökumətlərarası müqavilələri Azərbaycan Respublikasının Milli Məclisi təsdiq (ratifikasiya) edir.".

8. 10-cu maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Müvafiq icra hakimiyyəti orqanı tərəfindən ratifikasiya üçün Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilən beynəlxalq müqavilələrə Milli Məclisin müvafiq komitələrində qabaqcadan baxılaraq rəy verilir.".

9. 11-ci maddə üzrə:

9.1. adında "qərarların" sözü "qanunların" sözü ilə əvəz edilsin;

9.2. birinci hissədə "Azərbaycan Respublikasının Ali Soveti Azərbaycan Respublikasının Prezidenti" sözləri "Azərbaycan Respublikasının Milli Məclisi müvafiq icra hakimiyyəti orqanı" sözləri ilə, "qərar" sözü isə "qanun" sözü ilə əvəz edilsin;

9.3. üçüncü hissə aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin ratifikasiyası haqqında Azərbaycan Respublikasının qanunu əsasında müvafiq icra hakimiyyəti orqanı ratifikasiya sənədini (təsdiqnaməni) imzalayır.".

10. 12-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 12. Təsdiqnamələrin mübadiləsi və onların saxlanmağa verilməsi

Müvafiq icra hakimiyyəti orqanı və ya həmin orqanın tapşırığı ilə Azərbaycan Respublikasının müvafiq dövlətdəki diplomatik nümayəndəliyi və ya beynəlxalq

konfransda, beynəlxalq təşkilatda və ya onun orqanlarının birindəki nümayəndəliyi təsdiqnamələri mübadilə edir və onları saxlanmaq üçün depozitariyə verir.".

11. 13-cü maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Ratifikasiyası tələb olunmayan Azərbaycan Respublikasının beynəlxalq müqavilələrini müvafiq icra hakimiyyəti orqanı təsdiq edir.".

12. 14-cü maddə üzrə:

12.1. 1-ci bənddə "Ali Soveti" sözləri "Milli Məclisi" sözləri ilə əvəz edilsin;

12.2. 2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2) ratifikasiyası tələb olunmayan müqavilələr barəsində - müvafiq icra hakimiyyəti orqanı.";

12.3. 3-cü bənd çıxarılsın.

13. 16-cı maddədə "Azərbaycan Respublikasının Prezidenti" sözləri "Müvafiq icra hakimiyyəti orqanı" sözləri ilə əvəz edilsin.

14. 17-ci maddə üzrə:

14.1. birinci hissədə "Azərbaycan Respublikasının Nazirlər Kabineti, nazirlikləri, dövlət komitələri, idarələri və başqa dövlət orqanları" sözləri "Müvafiq icra hakimiyyəti orqanları" sözləri ilə əvəz edilsin;

14.2. ikinci hissədə "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi" sözləri "Müvafiq icra hakimiyyəti orqanı" sözləri ilə, "Azərbaycan Respublikası Prezidentinə" sözləri isə "müvafiq icra hakimiyyəti orqanına" sözləri ilə əvəz edilsin.

15. 18-ci maddədə, 26-cı maddənin ikinci hissəsində "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi" sözləri "müvafiq icra hakimiyyəti orqanı" sözləri ilə, 26-cı maddənin birinci hissəsində isə "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyində" sözləri "müvafiq icra hakimiyyəti orqanında" sözləri ilə əvəz edilsin.

16. 19-cu maddə üzrə:

16.1. birinci hissədə "Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və başqa nazirlikləri, dövlət komitələri və idarələri Xarici İşlər Nazirliyi ilə birlikdə və ya onunla razılaşdırmaqla Azərbaycan Respublikasının Prezidentinə" sözləri "müvafiq icra hakimiyyəti orqanları müvafiq icra hakimiyyəti orqanına" sözləri ilə əvəz edilsin;

16.2. ikinci hissədə "21" rəqəmi "22" rəqəmi ilə əvəz edilsin.

17. 20-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin yerinə yetirilməsi məqsədi ilə Azərbaycan Respublikasının normativ hüquqi aktlarının qəbul edilməsi lazım gəldikdə, müvafiq icra hakimiyyəti orqanları qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq aktın qəbul edilməsi haqqında təkliflər verirlər.".

18. 22-ci maddə üzrə:

18.1. adında "Ali Soveti" sözləri "Milli Məclisi" sözləri ilə əvəz edilsin;

18.2. mətni aşağıdakı redaksiyada verilsin:

"Ratifikasiya edilmiş Azərbaycan Respublikasının beynəlxalq müqavilələrini müvafiq icra hakimiyyəti orqanının təklifinə əsasən Azərbaycan Respublikasının Milli Məclisi ləğv edir.".

19. 23-cü maddədə "Ali Sovetinin müvafiq daimi komissiyaları" sözləri "Milli Məclisinin müvafiq komitələri" sözləri ilə əvəz edilsin.

20. 24-cü maddə üzrə:

20.1. adında "Azərbaycan Respublikasının Prezidenti" sözləri "müvafiq icra hakimiyyəti orqanı" sözləri ilə əvəz edilsin;

20.2. mətni aşağıdakı redaksiyada verilsin:

"Ratifikasiyası tələb olunmayan Azərbaycan Respublikasının beynəlxalq müqavilələrini müvafiq icra hakimiyyəti orqanı ləğv edir.".

21. 25-ci maddədə "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin təqdimatı ilə "Azərbaycan Respublikası Ali Sovetinin Məlumatlarında" sözləri "Azərbaycan Respublikasının Qanunvericilik Toplusu"nda" sözləri ilə əvəz edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 iyun 2010-cu il

№ 1032-IIIQD

"Azərbaycan Respublikası Hökuməti və Vyetnam Sosialist Respublikası Hökuməti arasında diplomatik, xidməti və ya rəsmi pasportlara malik vətəndaşların vizasız gediş-gəlişi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Azərbaycan Respublikası Hökuməti və Vyetnam Sosialist Respublikası Hökuməti arasında diplomatik, xidməti və ya rəsmi pasportlara malik vətəndaşların vizasız gediş-gəlişi haqqında" 2010-cu il aprelin 9-da Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 iyun 2010-cu il

№ 1048-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Vyetnam Sosialist Respublikası Hökuməti arasında diplomatik, xidməti və ya rəsmi pasportlara malik vətəndaşların vizasız gediş-gəlişi haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Vyetnam Sosialist Respublikası Hökuməti,

iki dövlət arasında dostluq münasibətlərini daha da inkişaf etdirmək,

etibarlı diplomatik, xidməti və ya rəsmi pasportlara malik olan vətəndaşlarının iki dövlət arasında gediş-gəlişinin və yerdəyişməsinin asanlaşdırılması arzusunda olaraq,

aşağıdakılar barəsində razılığa gəldilər:

Maddə 1

Bu Sazişdə istifadə olunan terminlər aşağıdakı mənaya malikdir:

"Diplomatik pasportlar": Azərbaycan Respublikasının diplomatik pasportları və Vyetnam Sosialist Respublikasının diplomatik pasportları;

"Xidməti pasportlar": Azərbaycan Respublikasının xidməti pasportları; "Rəsmi pasportlar": Vyetnam Sosialist Respublikasının rəsmi pasportları.

Maddə 2

1. Etibarlı diplomatik, xidməti və ya rəsmi pasportlara malik olan Azərbaycan Respublikası və Vyetnam Sosialist Respublikası vətəndaşları, habelə adları onların pasportlarında qeyd olunan yetkinlik yaşına çatmamış şəxslər Razılığa gələn digər Tərəfin dövlətinin ərazisinə 1 (bir) ay ərzində vizasız daxil ola, orada qala, oradan gedə və tranzit qaydada həmin ərazidən keçə bilərlər.

2. Razılığa gələn Tərəflərin dövlətlərinin vətəndaşlarının qalma müddətinin uzadılması, Razılığa gələn Tərəfin səlahiyyətli orqanlarının icazəsindən asılı olaraq, həmin vətəndaşların rəsmi müraciəti əsasında həyata keçirilir.

Maddə 3

Müvafiq diplomatik missiyada, konsulluq müəssisəsində və ya beynəlxalq təşkilat yanında akkreditə edilmiş daimi missiyada öz vəzifələrini yerinə yetirmək üçün Razılığa gələn Tərəfin dövlətinin ərazisinə daxil olan və etibarlı diplomatik, xidməti və ya rəsmi pasportlara malik olan Razılığa gələn digər Tərəfin dövlətinin vətəndaşları, habelə onlarla yaşayan ailə üzvləri, qəbul edən ölkənin Xarici İşlər Nazirliyində akkreditə edilir.

Maddə 4

Etibarlı diplomatik, xidməti və ya rəsmi pasportlara malik olan Razılığa gələn bir Tərəfin dövlətinin vətəndaşları Razılığa gələn digər Tərəfin dövlətinin ərazisinə istənilən beynəlxalq sərhəd-buraxılış məntəqələrindən daxil ola və ya oradan gedə bilərlər. Razılığa gələn bir Tərəfin dövlətinin vətəndaşına məxsus diplomatik, xidməti və ya rəsmi pasport Razılığa gələn digər Tərəfin dövlətinin ərazisində itirildikdə və ya korlandıqda, pasport sahibi bu barədə Razılığa gələn digər Tərəfin aidiyyəti səlahiyyətli orqanlarını məlumatlandırmalıdır.

İtirilmiş və ya korlanmış diplomatik, xidməti və ya rəsmi pasport əvəzinə pasport sahibinin vətəndaşlığı mənsub olan dövlətin diplomatik nümayəndəliyi və ya konsulluq müəssisəsi tərəfindən həmin şəxsə yeni keçid sənədi verilir. Keçid sənədi əsasında çıxışa, qəbul edən dövlətin aidiyyəti səlahiyyətli orqanlarının müvafiq icazəsindən sonra yol verilir.

Maddə 5

1. Razılığa gələn bir Tərəfin dövlətinin vətəndaşına məxsus diplomatik, xidməti və ya rəsmi pasport Razılığa gələn digər Tərəfin dövlətinin ərazisində itirildikdə və ya korlandıqda, pasport sahibi bu barədə Razılığa gələn digər Tərəfin aidiyyəti səlahiyyətli orqanlarını məlumatlandırmalıdır.

2. İtirilmiş və ya korlanmış diplomatik, xidməti və ya rəsmi pasport əvəzinə pasport sahibinin vətəndaşlığı mənsub olan dövlətin diplomatik nümayəndəliyi və ya konsulluq müəssisəsi tərəfindən həmin şəxsə yeni keçid sənədi verilir. Keçid sənədi əsasında çıxışa, qəbul edən dövlətin aidiyyəti səlahiyyətli orqanlarının müvafiq icazəsindən sonra yol verilir.

Maddə 6

Etibarlı diplomatik, xidməti və ya rəsmi pasportlara malik olan Razılığa gələn bir Tərəfin dövlətinin vətəndaşları Razılığa gələn digər Tərəfin dövlətinin ərazisində qüvvədə olan qanunlara, qaydalara və normativ aktlara əməl etməlidirlər.

Maddə 7

Razılığa gələn Tərəflər milli təhlükəsizliyin təmin edilməsi, ictimai asayişin qorunması üçün və ya vətəndaşların sağlamlığına təhlükə olduqda bu Sazişin tətbiqini müvəqqəti olaraq tamamilə və ya qismən dayandırmaq hüququnu özündə saxlayırlar. Razılığa gələn Tərəflər bu Sazişin tətbiqinin dayandırılması və onun yenidən qüvvəyə minməsi haqqında qərarı barədə dərhal, 48 saatdan gec olmayaraq, diplomatik kanallar vasitəsilə bir-birini məlumatlandırırlar.

Maddə 8

Razılığa gələn hər bir Tərəf Razılığa gələn digər Tərəfin "persona non qrata" və ya arzu olunmaz sayılan şəxslərinə öz dövlətinin ərazisinə daxil olmasına icazə verməkdən imtina etmək və ya həmin şəxslərin burada qalmaq müddətini dayandırmaq hüququnu özündə saxlayır.

Maddə 9

1. Razılığa gələn Tərəflərin xarici işlər nazirlikləri bu Sazişin qüvvəyə minməsi tarixindən sonra 30 gün müddətində diplomatik kanallar vasitəsilə Sazişin şamil edildiyi pasportların nümunələrini mübadilə edirlər.

2. Razılığa gələn Tərəflər dövriyyəyə yeni diplomatik və ya xidməti pasportlar buraxdıqları halda, onların qüvvəyə minməsi tarixindən ən azı 30 gün əvvəl diplomatik kanallar vasitəsilə bu pasportların nümunələrini mübadilə edirlər.

Maddə 10

Bu Sazişin müddəalarının yerinə yetirilməsi və tətbiq edilməsində yarana bilən hər hansı anlaşılmazlıq və mübahisə Razılığa gələn Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

Maddə 11

Razılığa gələn Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə əlavələr və dəyişikliklər edilə bilər. Belə əlavələr və dəyişikliklər bu Sazişin ayrılmaz hissəsi olaraq ayrı-ayrı protokollar formasında rəsmiləşdirilir və bu Sazişin 12-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minir.

Maddə 12

Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır və Razılığa gələn Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetirdikləri barədə bir-birilərinə diplomatik kanallar vasitəsilə göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdən 30 gün sonra qüvvəyə minir.

Razılığa gələn Tərəflərdən biri bu Sazişin qüvvəsini ləğv etmək niyyətində olduqda, bu barədə digər Tərəfə diplomatik kanallarla, yazılı şəkildə bildirir. Saziş belə bildirişin alındığı tarixdən 30 (otuz) gün sonra qüvvədən düşür.

Bu Saziş Bakı şəhərində 2010-cu il aprelin 9-da iki əsl nüsxədə, Azərbaycan, Vyetnam və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Sazişin təfsiri və tətbiqi zamanı fikir ayrılığı yarandıqda, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	VYETNAM SOSİALİST RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
XƏLƏF XƏLƏFOV	*NQUEN KUOK KIONQ*
Xarici işlər nazirinin müavini	*Xarici işlər nazirinin müavini*

"Azərbaycan Respublikası hökuməti və İslam Konfransı Təşkilatına bağlı beynəlxalq qurum - Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumu (DƏİKGF) arasında DƏİKGF-nin Avrasiya üzrə Regional Mərkəzinin Bakı şəhərində yerləşməsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Azərbaycan Respublikası Hökuməti və İslam Konfransı Təşkilatına bağlı beynəlxalq qurum - Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumu (DƏİKGF) arasında DƏİKGF-in Avrasiya üzrə Regional Mərkəzinin Bakı şəhərində yerləşməsi haqqında" 2010-cu il mayın 18-də Düşənbə şəhərində imzalanmış Saziş təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 iyun 2010-cu il

№ 1049-IIIQ

Azərbaycan Respublikası Hökuməti və İslam Konfransı Təşkilatına bağlı beynəlxalq qurum - Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumu (DƏİKGF) arasında DƏİKGF-in Avrasiya üzrə Regional Mərkəzinin Bakı şəhərində yerləşməsi haqqında Saziş

Preambula

Azərbaycan Respublikası Hökuməti və Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumu,

İslam Konfransı Təşkilatının (İKT) xarici işlər nazirlərinin 28-30 iyun 2005-ci il tarixində Yəmənin Sana şəhərində keçirilmiş 32-ci iclasında qəbul edilmiş qətnamə əsasında DƏİKGF-in İKT-yə bağlı beynəlxalq qurum statusuna malik olduğunu nəzərə alaraq,

DƏİKGF-in İdarə Heyətinin DƏİKGF-in Avrasiya üzrə Regional Mərkəzini təsis etmək barədə qərara gəldiyini nəzərə alaraq,

DƏİKGF-in regionda mühüm funksiyalar yerinə yetirməsini və İKT-yə üzv olan dövlətlərin gəncləri və onların dünyadakı həmkarları arasında dostluq əlaqələrini, habelə İKT-nin müvafiq qətnamələrində təsbit edildiyi kimi sivilizasiyalar və mədəniyyətlər arasında sülh, dialoq, qarşılıqlı anlaşma və dözümlülüyün təşviqini təmin etmək üçün Azərbaycan Respublikası Hökumətinin Bakı şəhərində DƏİKGF-in Avrasiya üzrə Regional Mərkəzinə ev sahibliyi etmək niyyətini nəzərə alaraq,

dostcasına əməkdaşlıq etmək niyyəti ilə aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Anlayışlar

1.1. Bu Sazişin məqsədləri üçün:

"Hökumət" Azərbaycan Respublikasının Hökumətini bildirir;

"Forum" Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunu - İKT-yə bağlı beynəlxalq qurumu bildirir;

"Mərkəz" Forumun İdarə Heyətinin Forumun Avrasiya üzrə Regional Mərkəzini təsis etmək barədə qərarına uyğun olaraq qərargahı Bakı şəhərində yerləşən, Forumun qərarlarına və təlimatlarına müvafiq olaraq onun fəaliyyətlərini həyata keçirən Forumun Avrasiya üzrə Regional Mərkəzini bildirir;

"Saziş" Hökumət və Forum arasındakı bu Sazişi bildirir;

"Tərəflər" bu Sazişin tərəfi olan Hökuməti və Forumu bildirir;

"Baş katib" Forumun Baş katibini bildirir;

"Mərkəzin başçısı" Mərkəzin fəaliyyətinə rəhbərlik edən şəxsi bildirir;

"Müvafiq icra hakimiyyəti orqanları" Azərbaycan Respublikasının səlahiyyətli dövlət qurumlarını bildirir;

"Mərkəzin binası" Azərbaycan Respublikasında Mərkəzin sərəncamında olan və ya Mərkəz tərəfindən icarə edilən, saxlanılan və ya istifadə edilən və Hökumətə bu barədə məlumat verilən yerləşmə yerini, o cümlədən binanı bildirir.

Maddə 2

Fəaliyyət və tətbiq sahəsi

2.1. Forum:

Forumun və İKT-nin müvafiq qətnamə, qərar, qayda, norma və siyasətinə, eləcə də bu Sazişə müvafiq olaraq Mərkəzin Azərbaycan Respublikasında fəaliyyət göstərməsini təmin edəcək;

Zəruri olduqda, layihələr və fəaliyyətlərlə əlaqədar olaraq Hökumətlə əlavə Sazişlər bağlayacaq.

Maddə 3

Mərkəzin statusu və hüquqları

3.1. Mərkəz hüquqi şəxs statusuna malikdir. Onun qərargahı Azərbaycan Respublikasında, Bakı şəhərində yerləşəcək. Mərkəz Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq müqavilə bağlamaq, daşınar və daşınmaz əmlak əldə etmək, ondan istifadə etmək və onun barəsində sərəncam vermək, Azərbaycan Respublikası məhkəmələrinə müraciət etmək hüququna malikdir.

Maddə 4

İmmunitet və imtiyazlar

4.1. Mərkəz, eləcə də Mərkəzin heyət üzvləri və onların ailə üzvləri (Azərbaycan Respublikası vətəndaşları və ya Azərbaycan Respublikasında daimi yaşayan şəxslər istisna olmaqla) 1961-ci il tarixli Diplomatik əlaqələr haqqında Vyana Konvensiyasına uyğun olaraq Azərbaycan Respublikası ərazisində akkreditə olunan diplomatik nümayəndəliklərə və diplomatik nümayəndəliklərin heyət üzvlərinə, eləcə də onların ailə üzvlərinə verilən eyni hüquqlara və statusa, immunitet və imtiyazlara malikdir.

4.2. Mərkəzin heyət üzvləri və onların ailə üzvləri (Mərkəzin heyət üzvlərinin Azərbaycan Respublikası vətəndaşı olan ailə üzvləri istisna olmaqla) Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində akkreditə olunurlar. Mərkəzin heyət üzvlərinin sayı yerləşmə dövləti ilə razılaşdırılmaqla məntiqi və normal hədlərdə müəyyənləşdirilir.

4.3. Müvafiq hakimiyyət orqanları öz vəzifə səlahiyyətlərini yerinə yetirmək üçün Mərkəzin binasına yalnız Mərkəzin başçısının və ya onu əvəz edən şəxsin icazəsi əsasında daxil ola bilərlər.

4.4. Bu Sazişlə verilən imtiyaz və immunitetlər əlaqədar şəxslərin şəxsi mənfəəti üçün deyil, Forum tərəfindən həvalə olunan funksiyalarını maneəsiz həyata keçirmələri üçün verilir.

4.5. Mərkəzin heyət üzvləri və onlarla birgə yaşayan ailə üzvləri Azərbaycan Respublikasının ərazisində olduqları müddət ərzində Azərbaycan Respublikasının qanunvericiliyinə hörmət və riayət edirlər.

4.6. Saziş əsasında Mərkəzin heyət üzvlərinə verilmiş immunitet ədalət mühakiməsinə mane olarsa və ya onlardan Forumun maraqlarına xələl yetirmədən imtina edilə bilərsə, Baş katib Mərkəzin heyətinin istənilən üzvünün immunitetini ləğv etmək hüququna malikdir.

4.7. Saziş əsasında verilən imtiyaz və immunitetlərdən istifadə ilə bağlı fikir ayrılıqları yarandıqda, Tərəflər arasında məsləhətləşmələr keçirilir.

Maddə 5

Kommunikasiya

5.1. Mərkəz poçt, teleqram, habelə teleqraf aparatı, faksmil, elektron məktub, telefon və digər rabitə vasitələrinin quraşdırılması və istifadəsi, onlarla bağlı tariflər, ödənişlər, o cümlədən mətbuat və radioda xəbərlərin yayılmasına görə ödənişlərlə əlaqədar olaraq Hökumətin Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq digər beynəlxalq təşkilatlara rəsmi rabitə vasitələri ilə bağlı verdiyi imtiyazlara malikdir.

5.2. Mərkəz mübadilə etdiyi konfidensial informasiyanın Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq qorunması üçün zəruri tədbirlər görmək və bu informasiyanı yaymamaq öhdəliyini daşıyır. Bu müddəa Saziş qüvvədən düşdükdən sonra da tətbiq edilir.

Maddə 6

Hökumətin yardımı

6.1. Qarşılıqlı şəkildə razılaşdırıldığı kimi və mümkün dərəcədə Hökumət Mərkəzi müvafiq ofis binası ilə təmin edəcəkdir.

6.2. Hökumət Mərkəzin heyət üzvlərinin münasib yaşayış yerləri ilə təmin edilməsində Foruma məsləhət xarakterli kömək edir.

6.3. Mərkəzin hər il 1 iyul tarixinədək etdiyi rəsmi müraciəti əsasında Hökumət növbəti ilin dövlət büdcəsində Mərkəzin nəzərdə tutulan illik büdcəsinin yarısı miqdarında, lakin 1,000,000.0 (bir milyon) manatdan çox olmamaq şərtilə ianənin verilməsini nəzərdə tutur.

Hökumət Mərkəzin müraciəti əsasında dövlət büdcəsində nəzərdə tutulmuş ianəni hər il mart ayından gec olmayaraq Mərkəzin bank hesabına köçürür. Bu müraciətə DƏİKGF-in İdarə Heyəti tərəfindən təsdiq edilmiş Mərkəzin illik büdcəsinin xərclər smetasının surəti əlavə edilir.

Maddə 7

Forumun bayrağı və gerbi

7.1. Tərəflər başqa cür razılığa gəlməmişlərsə, Mərkəz Forumun bayrağını və/və ya gerbini Mərkəzin binasında, Mərkəzin başçısına və ya onu əvəz edən şəxsə məxsus rəsmi nəqliyyat vasitəsində nümayiş etdirə bilər.

Maddə 8

Şəxsiyyətin müəyyən edilməsi

8.1. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Mərkəzin heyət üzvlərinə və onların ailə üzvlərinə (Mərkəzin heyət üzvlərinin Azərbaycan Respublikası vətəndaşı olan ailə üzvləri istisna olmaqla) Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müvafiq vəsiqə verir.

8.2. Hökumətin səlahiyyətli vəzifəli şəxslərinin tələbi ilə bu maddənin 1-ci bəndində qeyd edilən şəxslər vəsiqələrini təqdim etməlidirlər.

8.3. Mərkəzin başçısı Mərkəzin heyətində hər hansı dəyişiklik barədə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə məlumat verir və heyətin hər hansı üzvünün xidmətinin bitməsi zamanı onun vəsiqəsinin Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə dərhal müvafiq qaydada qaytarılmasını təmin edir.

Maddə 9

Əlavə və dəyişikliklər

9.1. Tərəflərin qarşılıqlı razılığı əsasında Sazişə onun ayrılmaz hissəsi olan və Sazişin 11-ci maddəsi ilə nəzərdə tutulan prosedura uyğun olaraq qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavələr və dəyişikliklər edilə bilər.

Maddə 10

Mübahisələrin həlli

10.1. Sazişin təfsiri və ya tətbiqi ilə əlaqədar istənilən fikir ayrılıqları Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

10.1. Mərkəzin başçısı bu Sazişin səmərəli şəkildə həyata keçirilməsini təmin etmək üçün Hökumətlə sıx əməkdaşlıq edəcəkdir.

Maddə 11

Qüvvəyəminmə və ləğvetmə

11.1. Bu Saziş onun qüvvəyə minməsi üçün Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan müvafiq dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə yazılı bildirişin Baş katib tərəfindən alındığı tarixdən qüvvəyə minir.

11.2. İstənilən Tərəf digər Tərəfə Sazişi ləğv etmək niyyəti barədə müvafiq yazılı bildiriş göndərməklə Sazişi ləğv edə bilər. Saziş müvafiq yazılı bildirişin alınmasından bir il sonra qüvvədən düşəcəkdir.

Bu Saziş 2010-cu il 18 may tarixində Düşənbə şəhərində, hər biri Azərbaycan və ingilis dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır. Bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	DİALOQ VƏ ƏMƏKDAŞLIQ UĞRUNDA İSLAM KONFRANSI GƏNCLƏR FORUMU ADINDAN
ELMAR MƏMMƏDYAROV	*ELŞAD İSGƏNDƏROV*
Xarici işlər naziri	*Baş katib*

"Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin terrorçuluqla mübarizədə əməkdaşlığı haqqında" Müqavilənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin terrorçuluqla mübarizədə əməkdaşlığı haqqında" 1999-cu il iyunun 4-də Minsk şəhərində imzalanmış Müqavilə Azərbaycan Respublikasının ona dair xüsusi rəyi ilə (xüsusi rəyin mətni əlavə olunur) təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 iyun 2010-cu il

№ 1050-IIIQ

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin terrorçuluqla mübarizədə əməkdaşlığı haqqında Müqavilə

Bundan sonra "Tərəflər" adlandırılacaq bu Müqavilənin iştirakçısı olan dövlətlər hökumətləri qismində,

terror aktlarının daşıdığı təhlükəni dərk edərək,

Birləşmiş Millətlər Təşkilatı, Müstəqil Dövlətlər Birliyi çərçivəsində qəbul olunmuş sənədləri, eləcə də terrorçuluğun müxtəlif təzahürləri ilə mübarizəyə dair beynəlxalq xarakterli digər sənədləri nəzərə alaraq,

bir-birinə mümkün qədər daha geniş yardım göstərmək və bu sahədə əməkdaşlığın səmərəliliyini artırmaq arzusunda olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Müqavilənin məqsədləri üçün onda istifadə olunan terminlər aşağıdakıları ifadə edir:

"terrorçuluq" - ictimai təhlükəsizliyin pozulması, hakimiyyət orqanları tərəfindən qərarlar qəbul edilməsinə təsir göstərilməsi, əhalinin qorxudulması məqsədilə törədilmiş və aşağıdakı formalarda təzahür edən hüquqazidd, cinayət məsuliyyətinə səbəb olan əməl:

fiziki və hüquqi şəxslərə qarşı zorakılıq və ya onu tətbiq etmək hədəsi;

insan tələfatına təhlükə yaradan əmlakın və digər maddi obyektlərin məhv edilməsi (korlanması) və ya məhv etmək (korlamaq) hədəsi;

əhəmiyyətli əmlak ziyanının vurulması və ya digər ictimai təhlükəli nəticələrin baş verməsi;

dövlət və ya ictimai xadimin həyatına, onun dövlət və ya digər siyasi fəaliyyətinə

son qoymaq, yaxud belə fəaliyyətinə görə qisas almaq məqsədilə qəsd edilməsi;

xarici dövlətin nümayəndəsinə və ya beynəlxalq müdafiədən istifadə edən beynəlxalq təşkilatın əməkdaşına, habelə beynəlxalq müdafiədən istifadə edən şəxslərin xidməti sahələrinə, yaxud nəqliyyat vasitələrinə basqın edilməsi;

Tərəflərin milli qanunvericiliklərinə, eləcə də terrorçuluqla mübarizəyə yönəlmiş digər ümumtanınmış beynəlxalq hüquqi aktlara müvafiq olaraq terror aktları anlayışı altına düşən digər əməllər;

"texnoloji terrorçuluq" - nüvə, radioloji, kimyəvi və ya bakterioloji (bioloji) silahın və ya onun komponentlərinin, patogen mikroorqanizmlərin və insanların sağlamlığı üçün zərərli olan digər maddələrin istifadə edilməsi və ya istifadə etmək hədəsi, o cümlədən nüvə, kimyəvi və ya digər yüksək texnoloji və ekoloji təhlükəli obyektlərin, şəhərlərin və digər yaşayış məntəqələrinin həyat təminatı sistemlərinin zəbt edilməsi, sıradan çıxarılması və dağıdılması, bu hərəkətlər ictimai təhlükəsizliyin pozulması, əhalinin qorxudulması, hakimiyyət orqanların tərəfindən qərarların qəbul edilməsinə təsir göstərilməsi məqsədilə siyasi, tamah və istənilən digər məqsədlərə çatmaq üçün törədildikdə, habelə yuxarıda sadalanmış cinayətlərdən birinin həmin məqsədlərlə törədilməsinə cəhd edilməsi, rəhbərliyin həyata keçirilməsi, maliyyələşdirmə və ya belə cinayət törədən və ya törətməyə cəhd edən şəxsin təhrikçisi, əlbiri və ya köməkçisi qismində iştirak edilməsi;

"yüksək texnoloji və ekoloji təhlükəli obyektlər" - sıradan çıxarılması insan tələfatına, əhalinin sağlamlığına zərər vurulmasına, ətraf mühitin çirklənməsinə və ya konkret regionda, yaxud ümumilikdə konkret dövlətdə vəziyyətin qeyri-sabitliyinə gətirib çıxara bilən müəssisələr, tikililər, qurğular və digər obyektlər,

"xüsusi antiterror birləşmələri" - milli qanunvericiliyə müvafiq olaraq terror aktları ilə mübarizə üçün Tərəflərin yaratdığı mütəxəssis qrupları;

"xüsusi vasitələr və təminat materialları" - silah və döyüş sursatı, xüsusi vasitə və avadanlıq da daxil olmaqla materiallar, texniki və nəqliyyat vasitələri.

Maddə 2

Tərəflər bu Müqaviləyə, milli qanunvericiliyə və beynəlxalq öhdəliklərinə müvafiq olaraq terror aktlarının qabaqlanması, aşkarlanması, qarşısının alınması və araşdırılmasına dair məsələlərdə əməkdaşlıq edəcəklər.

Maddə 3

1. Hər bir Tərəf bu Müqaviləni imzalayarkən və ya onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetirərkən bu Müqavilənin müddəalarının yerinə yetirilməsinə görə məsul olan səlahiyyətli orqanları haqqında məlumatı bildirəcəkdir.

Tərəflər öz səlahiyyətli orqanlarına dair bütün dəyişikliklər haqqında depozitariyə dərhal məlumat verəcəklər.

2. Bu Müqavilənin müddəalarını yerinə yetirərkən Tərəflərin səlahiyyətli orqanları öz aralarında əlaqələri bilavasitə qurarlar.

Maddə 4

Terror aktları ilə mübarizədə, o cümlədən onları törətmiş şəxslərin verilməsi məsələlərində əməkdaşlığı həyata keçirərkən Tərəflər müvafiq əməlləri yalnız cinayət əməlləri kimi hesab edirlər.

Terror aktında ittiham edilən şəxsin vətəndaşlığı aktın törədildiyi ana uyğun müəyyən edilir.

Maddə 5

1. Tərəflərin səlahiyyətli orqanları bu Müqaviləyə, digər beynəlxalq müqavilələrə və milli qanunvericiliyə müvafiq olaraq aşağıdakı vasitələrlə əməkdaşlığı həyata keçirir və bir-birlərinə kömək göstərirlər:

a) məlumat mübadiləsi;

b) əməliyyat-axtarış tədbirlərinin keçirilməsi haqqında sorğuların yerinə yetirilməsi;

c) terror aktlarının qabaqlanması, aşkarlanması, qarşısının alınması və ya araşdırılması üzrə razılaşdırılmış tədbirlərin işlənib hazırlanması və qəbul edilməsi, bu tədbirlər haqqında qarşılıqlı məlumatlandırma;

ç) digər Tərəfin ərazisində terror aktının törədilməsinə öz ərazisində hazırlığın qarşısının alınması və aradan qaldırılması üçün tədbirlərin görülməsi;

d) yüksək texnoloji və ekoloji təhlükəli obyektlərin fiziki müdafiə sisteminin vəziyyətinin qiymətləndirilməsində, bu sistemin təkmilləşdirilməsi üçün tədbirlərin işlənib hazırlanmasında və reallaşdırılmasında kömək göstərilməsi;

e) normativ hüquqi aktların və onların tətbiqi təcrübəsi haqqında materialların mübadiləsi;

ə) maraqlı Tərəflər arasında razılaşma əsasında terror aktlarının qarşısının alınması və onların nəticələri ilə mübarizədə praktiki yardımın göstərilməsi üçün xüsusi antiterror birləşmələrinin göndərilməsi;

f) təcrübələrin, seminarların, məsləhətləşmələrin və elmi-praktik konfransların keçirilməsi də daxil olmaqla, terror aktlarının qabaqlanması və onlarla mübarizədə təcrübə mübadiləsi;

g) əməkdaşların hazırlanması və ixtisaslarının artırılması;

ğ) yüksək texnoloji və ekoloji təhlükəli obyektlərin fiziki müdafiə sistemlərinin və vasitələrinin işlənib hazırlanması üzrə elmi-tədqiqat və təcrübi-konstruktor işlərinin Tərəflərin razılığına əsasən birgə maliyyələşdirilməsi və keçirilməsi;

h) antiterror fəaliyyətinin təmin edilməsi məqsədilə razılaşma əsasında xüsusi vasitələrin, texnika və avadanlıqların tədarük olunması.

2. Cinayət törətmiş şəxslərin verilməsi, cinayət işləri üzrə hüquqi yardımın göstərilməsi və cinayət təqibinin başlanılması haqqında sorğuların göndərilməsi və icra edilməsi qaydası maraqlı Tərəflərin iştirakçısı olduqları beynəlxalq müqavilələrlə müəyyən edilir.

Maddə 6

Tərəflər, qarşılıqlı məsləhətləşmələr yolu ilə, terror aktlarının qabaqlanması və onlarla mübarizə məsələlərinin normativ hüquqi tənzimlənilməsində razılaşdırılmış yanaşmalara nail olmaq üçün tövsiyələr işləyib hazırlayırlar.

Maddə 7

1. Bu Müqavilə çərçivəsində əməkdaşlıq maraqlı Tərəfin yardım göstərilməsi haqqında sorğuları əsasında və ya belə bir yardımın digər Tərəf üçün maraq kəsb etdiyini güman edən Tərəfin təşəbbüsü ilə həyata keçirilir.

2. Yardım göstərilməsi haqqında sorğu yazılı formada göndərilir. Təxirəsalınmaz hallarda sorğular şifahi formada verilə bilər, lakin onlar 72 saatdan gec olmamaq şərtilə yazılı surətdə, o cümlədən mətnin texniki ötürülmə vasitələrindən istifadə olunmaqla təsdiq edilməlidir.

Sorğunun həqiqiliyi və ya məzmunu şübhə doğurduqda əlavə təsdiq sorğu edilə bilər.

Sorğuda aşağıdakılar əks olunmalıdır:

a) yardımı sorğu edən səlahiyyətli orqanın və sorğu edilən orqanın adı; işin mahiyyətinin təsviri; sorğunun məqsədi və əsaslandırılması; sorğu edilən yardımın məzmununun təsviri;

b) sorğunun lazımi qaydada yerinə yetirilməsi üçün faydalı ola bilən istənilən digər məlumat.

3. Yardımın göstərilməsi haqqında yazılı formada göndərilmiş və ya təsdiq olunmuş sorğu, sorğu edən səlahiyyətli orqanın rəhbəri və ya onun müavini tərəfindən imzalanır və sorğu edən orqanın gerbli möhürü ilə təsdiq olunur.

Maddə 8

1. Sorğu edilən Tərəf sorğunun tez və mümkün qədər tam icra olunması üçün bütün zəruri tədbirləri görür.

Sorğu edən Tərəf sorğunun icrasına mane olan və ya onun icrasını əhəmiyyətli dərəcədə ləngidən hallar haqqında dərhal məlumatlandırılır.

2. Sorğunun icrası sorğu edilən orqanın səlahiyyətinə aid olmadıqda o, sorğunu onun icra edilməsində səlahiyyətli olan öz dövlətinin orqanına ötürür və sorğu edən səlahiyyətli orqanı bu barədə dərhal məlumatlandırır.

3. Sorğu edilən Tərəf onun fikrincə sorğunun lazımi qaydada icra edilməsi üçün zəruri olan əlavə məlumatları tələb etməkdə haqlıdır.

4. Sorğu icra olunarkən sorğu edilən Tərəfin qanunvericiliyi tətbiq olunur, lakin əgər sorğunun icrası sorğu edilən Tərəfin qanunvericilik prinsipləri və ya beynəlxalq öhdəlikləri ilə ziddiyyət təşkil etməzsə, sorğu edən Tərəfin xahişi üzrə onun qanunvericiliyi tətbiq oluna bilər.

5. Sorğu edilən Tərəf sorğunun dərhal icra olunmasının onun ərazisində həyata keçirilən cinayət təqibinə və ya digər icraata mane ola biləcəyini güman etdikdə o, sorğunun

icrasını təxirə sala və ya onun icrasını sorğu edən Tərəflə məsləhətləşmə apardıqdan sonra zəruri kimi müəyyən edilmiş şərtlərə riayət olunması ilə əlaqələndirə bilər. Sorğu edən Tərəf yardımın təklif olunmuş şərtlərlə göstərilməsinə razılıq verdikdə, o, həmin şərtlərə riayət etməlidir.

6. Sorğu edilən Tərəf sorğu edən Tərəfin xahişi ilə sorğunun daxil olması faktı, onun məzmunu və onu müşayiət edən sənədlər, eləcə də yardımın göstərilməsi faktının konfidensiallığının təmin olunması üçün zəruri tədbirlər görür.

Konfidensiallıq saxlanılmaqla sorğunun icrası mümkün olmadıqda, sorğu edilən Tərəf sorğu edən Tərəfi bu barədə məlumatlandırır, həmin Tərəf isə sorğunun bu şərtlərlə icra olunub-olunmaması haqqında qərar qəbul edir.

7. Sorğu edilən Tərəf mümkün qədər qısa müddətdə sorğunun icrasının nəticələri haqqında digər Tərəfi məlumatlandırır.

Maddə 9

1. Sorğu edilən Tərəf sorğunun icrasının onun suverenliyinə, təhlükəsizliyinə, ictimai asayişinə və ya onun digər əhəmiyyətli maraqlarına xələl gətirdiyini, yaxud onun qanunvericiliyinə və beynəlxalq öhdəliklərinə zidd olduğunu güman etdikdə, bu Müqavilə çərçivəsində yardım göstərilməsindən tam və ya qismən imtina edilir.

2. Barəsində sorğu göndərilən əməl sorğu edilən Tərəfin qanununa görə cinayət əməli hesab edilmədikdə, yardımın göstərilməsindən imtina edilə bilər.

3. Sorğu edən Tərəf sorğunun icrasından tam və ya qismən imtina edilməsi barədə bu maddənin 1-ci bəndində sadalanan səbəblər göstərilməklə yazılı şəkildə məlumatlandırılır.

Maddə 10

1. Bir Tərəfdən alınmış məlumat və sənədlər qapalı xarakter daşıdıqda və ya onları ötürən Tərəf yayılmasını arzuolunmaz hesab etdikdə, digər Tərəf həmin məlumat və sənədlərin konfidensiallığını təmin edir. Belə məlumat və sənədlərin qapalılıq dərəcəsini göndərən Tərəf müəyyən edir.

2. Bu Müqavilə əsasında alınmış sorğunun icrasının nəticələri onları təqdim etmiş Tərəfin razılığı olmadan sorğu edildiyi və təqdim olunduğu məqsədlərdən başqa, digər məqsədlərlə istifadə oluna bilməz.

3. Bu Müqavilə əsasında bir Tərəfin aldığı məlumatların üçüncü tərəfə ötürülməsi üçün həmin məlumatları təqdim etmiş Tərəfin qabaqcadan razılığı tələb olunur.

Maddə 11

Tərəflərin səlahiyyətli orqanları qarşılıqlı maraq kəsb edən, o cümlədən aşağıdakı məsələlər haqqında məlumatı mübadilə edirlər:

a) terror təhlükəsi, hazırlanan və törədilən terror aktları barədə və ayrı-ayrı şəxslərin, şəxslər qruplarının və ya təşkilatların terror aktı törətməkdə aşkar olunmuş niyyətləri haqqında öz dövlətləri ərazisində yayılan məlumatları əks etdirən materiallar;

b) Tərəflərin dövlətlərinin rəhbərlərinə, beynəlxalq müdafiə altında olan şəxslərə, diplomatik nümayəndəliklərin, konsulluq müəssisələrinin və beynəlxalq təşkilatların əməkdaşlarına, dövlət səfərlərinin, beynəlxalq və milli, siyasi, idman və digər tədbir iştirakçılarına qarşı hazırlanılan terror aktları;

c) nüvə materiallarının, kimyəvi, bakterioloji (bioloji) silahların və ya onların komponentlərinin, yüksək zəhərləyici kimyəvi maddələrin, patogen mikroorqanizmlərin qanunsuz dövriyyəsi faktları;

ç) onların dövlətlərinin təhlükəsizliyinə təhlükə yaradan terror təşkilatları, qrupları və ayrıca şəxslər, terrorçu təşkilatlar, qruplar və ayrı-ayrı şəxslər arasında əlaqələrin qurulması;

d) terror fəaliyyəti metodlarından istifadə edən qeyri-qanuni silahlı birləşmələr, onların strukturu, üzvləri, məqsəd və vəzifələri;

e) terror fəaliyyətinin aşkar olunmuş metod, üsul və vasitələri;

ə) Tərəflərin imkanları daxilində bir-birinə təqdim edə biləcəyi təminat və təchizat vasitələri;

f) bu Müqavilənin predmeti ilə bağlı olan məsələlərin qanunverici və digər normativ tənzimlənməsi təcrübəsi;

g) maliyyələşdirmənin və dövlətlərin ərazilərinə silah və terror aktlarının digər törədilmə vasitələrinin qanunsuz gətirilməsində aşkar edilmiş və ehtimal olunan kanallar;

ğ) Tərəflərin suverenliyinin və ərazi bütövlüyünün pozulmasına yönəlmiş terror qəsdləri;

Tərəflər üçün maraq kəsb edən digər məsələlər.

Maddə 12

1. Tərəflər digər Tərəflərin sorğusu və ya razılığı ilə bu Müqaviləyə müvafiq olaraq metodiki, məsləhət və ya praktiki yardımın göstərilməsi məqsədilə xüsusi antiterror birləşmələri də daxil olmaqla öz səlahiyyətli orqanlarının nümayəndələrini göndərə bilərlər.

Bu zaman qəbul edən Tərəf onun dövlət sərhədinin keçilmə yeri, vaxtı, qaydası və qarşıya qoyulmuş vəzifələrin xarakteri barədə yazılı formada digər Tərəfi məlumatlandırır, həmin vəzifələrin səmərəli şəkildə həll olunması, o cümlədən insanların, xüsusi vasitələrin və təminat materiallarının maneəsiz daşınması da daxil olmaqla, həmçinin pulsuz yerləşdirmə, qidalanma və qəbul edən Tərəfin nəqliyyat infrastrukturundan istifadə üçün kömək göstərir və zəruri şərait yaradır.

Xüsusi antiterror birləşməsinin və ya həmin birləşmənin ayrı-ayrı üzvlərinin qəbul edən Tərəfin ərazisində istənilən yerdəyişməsi yalnız həmin Tərəfin səlahiyyətli orqanının rəhbərinin xüsusi icazəsi ilə və nəzarəti altında mümkündür.

2. Yardımın göstərilməsi üçün hava, avtomobil, dəmir yolu, çay və dəniz nəqliyyatından istifadə qaydası qəbul edən Tərəfin maraqlı nazirlik və idarələri ilə razılaşdırmaqla Tərəflərin səlahiyyətli orqanları tərəfindən müəyyən edilir.

Maddə 13

1. Yardım göstərilməsinin səmərəliliyi və operativliyi məqsədilə Tərəflər xüsusi antiterror birləşmələri tərəfindən dövlət sərhədinin keçilməsi zamanı milli qanunvericiliklə müəyyən edilmiş rəsmiyyətlərin tezləşdirilmiş surətdə yerinə yetirilməsini təmin edəcəklər.

2. Xüsusi antiterror birləşməsinin rəhbəri dövlət sərhədindən buraxılış məntəqəsində, qəbul edən Tərəfin ərazisinə gəliş məqsədləri göstərilməklə göndərən Tərəfin səlahiyyətli orqanları tərəfindən təsdiq olunmuş qrupun adlar siyahısını, xüsusi vasitələri və təminat materiallarının siyahısını, birləşmənin üzvləri isə milli pasportlarını və terrorçuluqla mübarizə üzrə səlahiyyətli orqanlara mənsubiyyətlərini təsdiq edən sənədləri təqdim edirlər.

3. Xüsusi vasitələr və təminat materialları gömrük yığımlarından və ödəmələrindən azad edilir və yardımın göstərilməsi üzrə əməliyyat zamanı istifadə olunmalı, yaxud əməliyyat sona çatdıqdan sonra qəbul edən Tərəfin ərazisindən çıxarılmalıdır.

Xüsusi hallar ucbatından xüsusi vasitələrin və təminat materiallarının ərazidən çıxarılması mümkün olmadıqda, göndərən Tərəfin səlahiyyətli orqanları onları qəbul edən Tərəfin səlahiyyətli orqanlarına verirlər.

Maddə 14

Bu Müqavilə çərçivəsində xüsusi tədbirlərin keçirilməsi qaydası haqqında qərar, digər Tərəfin antiterror birləşməsinin rəhbərinin rəyi nəzərə alınmaqla, qəbul edən Tərəfin səlahiyyətli orqanları tərəfindən qəbul olunur. Bu rəy nəzərə alınmadığı təqdirdə, rəhbər xüsusi tədbirin keçirilməsində iştirakdan imtina etmək hüququna malikdir.

Maddə 15

1. Qəbul edən Tərəf yardım göstərən Tərəfə qarşı hər hansı bir iddiadan, o cümlədən ölüm, bədən xəsarəti və ya onun ərazisində yerləşən fiziki şəxslərin həyatına, sağlamlığına və əmlakına, eləcə də hüquqi şəxslərə və qəbul edən Tərəfin özünə vurulan istənilən ziyanın ödənilməsinə dair iddiadan, belə bir ziyan bu Müqavilənin həyata keçirilməsi ilə bağlı vəzifələrin yerinə yetirilməsi zamanı vurulmuşdursa, imtina edir.

2. Göndərən Tərəfin xüsusi antiterror birləşməsinin iştirakçısı qəbul edən Tərəfin ərazisində bu Müqavilənin həyata keçirilməsi ilə bağlı vəzifələrin yerinə yetirilməsi zamanı hər hansı bir şəxsə və ya təşkilata ziyan vurduqda, analoji hallarda qəbul edən Tərəfin antiterror birləşməsinin iştirakçıları tərəfindən ziyanın vurulduğu hala tətbiq oluna biləcək milli qanunvericilik müddəalarına əsasən bu ziyanı qəbul edən Tərəf ödəyəcəkdir.

3. Gətirilən xüsusi vasitələrin və təminat materiallarının itkisi, tam və ya qismən məhv olması ilə bağlı xərclər də daxil olmaqla, göndərən Tərəfin çəkdiyi xərclərin ödənilməsi qaydası maraqlı Tərəflər arasındakı razılaşmaya əsasən müəyyən edilir.

4. Tərəflərdən biri xüsusi antiterror birləşməsinin hərəkətləri nəticəsində vurulmuş ziyanı əməliyyat məqsədlərinə uyğun hesab etmədikdə, yaranmış fikir ayrılıqları maraqlı Tərəflər arasında ikitərəfli əsasda həll olunur.

Maddə 16

Bu Müqavilənin yerinə yetirilməsi məqsədilə Tərəflərin səlahiyyətli orqanları, zərurət olduqda, məsləhətləşmələr və işçi görüşləri keçirə bilərlər.

Maddə 17

Tərəflər qarşılıqlı razılıq və ayrıca razılaşmalar əsasında xüsusi antiterror birləşmələrinin birgə təlimlərini keçirə və qarşılıqlı əsasda öz milli antiterror bölmələrində digər Tərəfin nümayəndələrinin təcrübə keçmələrini təşkil edə bilərlər.

Maddə 18

1. Bu Müqavilə çərçivəsində Tərəflərin səlahiyyətli orqanları tərəfindən alınmış materiallar, xüsusi vasitələr, texnika və avadanlıq yalnız belə materialları, xüsusi vasitələri, texnikanı və avadanlığı təqdim etmiş səlahiyyətli orqanın razılığı və şərtləri əsasında üçüncü tərəfə verilə bilər.

2. Xüsusi antiterror birləşmələrinin əməliyyat-axtarış tədbirlərinin üsulları, bu Müqavilə çərçivəsində yardımın göstərilməsi üçün istifadə olunan xüsusi qüvvə və vasitələrin, təminat materiallarının xarakteristikaları haqqında məlumatların yayılmasına yol verilmir.

Maddə 19

Zəruri hallarda, maraqlı Tərəflər bu Müqavilə çərçivəsində kömək göstərilməsinin maliyyə, təşkilati-texniki və digər şərtlərini öz aralarında razılaşdıracaqlar.

Maddə 20

1. Bu Müqavilə Tərəflərin bu Müqavilənin predmeti olan məsələlərə dair ikitərəfli beynəlxalq müqavilələr bağlamaq hüququnu məhdudlaşdırmır və Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq sazişlərdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

2. Tərəflərin səlahiyyətli orqanları öz aralarında bu Müqavilənin icrasını daha ətraflı nizamlayan sazişlər bağlaya bilərlər.

Maddə 21

Bu Müqavilənin təfsiri və ya tətbiqi zamanı yaranan mübahisəli məsələlər Tərəflər arasında məsləhətləşmələr və danışıqlar yolu ilə həll olunur.

Maddə 22

Bu Müqavilə imzalandığı gündən etibarən qüvvəyə minir. Onun qüvvəyə minməsi üçün qanunvericiliyində dövlətdaxili prosedurların yerinə yetirilməsi tələb olunan Tərəflər üçün isə depozitariyə müvafiq bildirişin verildiyi gündən qüvvədədir. Tərəflər bu Müqavilənin imzalandığı andan etibarən üç ay ərzində belə prosedurların yerinə yetirilməsi zərurəti haqqında depozitariyə məlumat verirlər.

Maddə 23

Bu Müqavilə qüvvəyə mindiyi andan etibarən beş il müddətində etibarlıdır və Tərəflər digər qayda qəbul etmədikdə, onun qüvvədə olma müddəti avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılır.

Hər bir Tərəf çıxması haqqında depozitariyə ən azı altı ay əvvəl yazılı bildiriş göndərməklə və bu Müqavilənin qüvvədə olduğu müddət ərzində yaranan maliyyə və digər öhdəlikləri nizamlamaqla bu Müqavilədən çıxa bilər.

Bu zaman bu Müqavilənin 18-ci maddəsinin müddəaları Müqavilədən çıxmış Tərəf üçün hələ 10 il müddətində, 10-cu maddəsinin müddəaları isə müddətsiz olaraq tətbiq olunmaqda davam edir.

Maddə 24

Bu Müqavilə qüvvəyə mindikdən sonra Tərəflərin razılığı ilə digər dövlətlər, eləcə də Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olmayan dövlətlər də qoşulma haqqında sənədləri depozitariyə təqdim etməklə ona qoşula bilərlər. Dövlətlərin Müqaviləyə qoşulması belə bir qoşulmaya dair Tərəflərin razılığı haqqında son bildirişin depozitari tərəfindən alınmasından 30 gün sonra qüvvəyə minmiş hesab olunur.

Maddə 25

Depozitari bu Müqaviləyə qoşulma və ya onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi, Müqavilənin qüvvəyəminmə tarixi, eləcə də digər bildiriş və sənədlərin alınması haqqında Tərəfləri dərhal məlumatlandıracaqdır.

Minsk şəhərində 1999-cu il iyunun 4-də rus dilində bir əsl nüsxədə imzalanmışdır. Əsl nüsxə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsində saxlanılmaqla, onun təsdiq edilmiş surəti bu Müqaviləni imzalamış hər bir dövlətə göndəriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ABBAS ABBASOV
Baş nazirinin birinci müavini

MOLDOVA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

İON STURZA
Baş nazir

ERMƏNİSTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ARMEN DARBİNYAN
Baş nazir

RUSİYA FEDERASİYASI HÖKUMƏTİ ADINDAN

SERGEY STEPAŞİN
Baş nazir

BELARUS RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

imza yoxdur

TACİKİSTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

YAXYO ƏZİMOV
Baş nazir

GÜRCÜSTAN HÖKUMƏTİ ADINDAN

VAJA LORDKİPANİDZE
Dövlət naziri

TÜRKMƏNİSTAN HÖKUMƏTİ ADINDAN

imza yoxdur

QAZAXISTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

NURLAN BALQİMBAYEV
Baş nazir

ÖZBƏKİSTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

imza yoxdur

QIRĞIZ RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

BORİS SİLAYEV
Baş nazirinin birinci müavini

UKRAYNA HÖKUMƏTİ ADINDAN

imza yoxdur

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin terrorçuluqla mübarizədə əməkdaşlığı haqqında Müqaviləyə dair Azərbaycan Respublikasının xüsusi rəyi

Xüsusi antiterror birləşmələri və bölmələrinin yaradılmasını nəzərdə tutan 12, 13, 14, 15 və 17-ci maddələr, eləcə də 5-ci maddənin "ə" bəndi istisna olunmaqla.

Azərbaycan Respublikası Baş nazirinin birinci müavini A. ABBASOV
04.06.1999

"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Makedoniya Respublikası Gömrük İdarəsi arasında kadrların peşəkarlığının artırılması və təkmilləşdirilməsi sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Makedoniya Respublikası Gömrük İdarəsi arasında kadrların peşəkarlığının artırılması və təkmilləşdirilməsi sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Aydın Əli oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Aydın Əli oğlu Əliyevə verilməsi barədə Makedoniya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 iyun 2010-cu il

№ 971

F.N.Bağırovun Azərbaycan Respublikasının Misir Ərəb Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri və Ərəb Dövlətləri Liqası yanında daimi müşahidəçisi vəzifələrindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Faiq Nüsrət oğlu Bağırov Azərbaycan Respublikasının Misir Ərəb Respublikasında fövqəladə və səlahiyyətli səfiri və Ərəb Dövlətləri Liqası yanında daimi müşahidəçisi vəzifələrindən geri çağırılsın.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 iyun 2010-cu il

№ 977

Z.A.Həşimovun Azərbaycan Respublikasının Türkiyə Respublikasında və Makedoniya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri vəzifələrindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Zakir Arif oğlu Həşimov Azərbaycan Respublikasının Türkiyə Respublikasında və Makedoniya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri vəzifələrindən geri çağırılsın.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 iyun 2010-cu il

№ 978

F.N.Bağırovun Azərbaycan Respublikasının Türkiyə Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Faiq Nüsrət oğlu Bağırov Azərbaycan Respublikasının Türkiyə Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 iyun 2010-cu il

№ 979

L.S.Qəndilovun Azərbaycan Respublikasının Qazaxıstan Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Lətif Seyfəddin oğlu Qəndilov Azərbaycan Respublikasının Qazaxıstan Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən geri çağırılsın.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 iyun 2010-cu il

№ 980

Z.A.Həşimovun Azərbaycan Respublikasının Qazaxıstan Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Zakir Arif oğlu Həşimov Azərbaycan Respublikasının Qazaxıstan Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 iyun 2010-cu il

№ 981

Ş.Ş.Abdullayevin Azərbaycan Respublikasının Küveyt Dövlətində Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Şahin Şakir oğlu Abdullayev Azərbaycan Respublikasının Küveyt Dövlətində Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən geri çağırılsın.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 iyun 2010-cu il

№ 982

Ş.Ş.Abdullayevin Azərbaycan Respublikasının Misir Ərəb Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Şahin Şakir oğlu Abdullayev Azərbaycan Respublikasının Misir Ərəb Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 iyun 2010-cu il

№ 983

T.A.Rzayevə Fövqəladə və Səlahiyyətli Səfir diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.1-ci maddəsini rəhbər tutaraq qərara alıram:

Tural Anar oğlu Rzayevə Fövqəladə və Səlahiyyətli Səfir diplomatik rütbəsi verilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 iyun 2010-cu il

№ 984

T.A.Rzayevin Azərbaycan Respublikasının Küveyt Dövlətində Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Tural Anar oğlu Rzayev Azərbaycan Respublikasının Küveyt Dövlətində Fövqəladə və Səlahiyyətli səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 iyun 2010-cu il

№ 985

Türkiyə Respublikasının İstanbul şəhərində Azərbaycan Respublikasının Baş konsulu H.S.Zeynalovun eyni zamanda Azərbaycan Respublikasının Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı yanında Daimi nümayəndəsi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Türkiyə Respublikasının İstanbul şəhərində Azərbaycan Respublikasının Baş konsulu Həsən Sultan oğlu Zeynalov eyni zamanda Azərbaycan Respublikasının Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı yanında Daimi nümayəndəsi təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 iyul 2010-cu il

№ 990

Azərbaycan Respublikasının Meksika Birləşmiş Ştatlarında Fövqəladə və Səlahiyyətli Səfiri İ.Y.Muxtarovun iqamətgahı Mexiko şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Kosta Rika Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının Meksika Birləşmiş Ştatlarında Fövqəladə və Səlahiyyətli Səfiri İlqar Yusif oğlu Muxtarov iqamətgahı Mexiko şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Kosta Rika Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 iyul 2010-cu il

№ 991

Azərbaycan Respublikasının İndoneziya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri İ.Ə.Hacıyevin eyni zamanda Azərbaycan Respublikasının Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyası (ASEAN) yanında Daimi nümayəndəsi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının İndoneziya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri İbrahim Əsəd oğlu Hacıyev eyni zamanda Azərbaycan Respublikasının Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyası (ASEAN) yanında Daimi nümayəndəsi təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 iyul 2010-cu il

№ 992

Ə.F.Əlizadəyə birinci dərəcəli Fövqəladə və Səlahiyyətli Elçi diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.2-ci maddəsini rəhbər tutaraq qərara alıram:

Əli Fikrət oğlu Əlizadəyə birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi diplomatik rütbəsi verilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 iyul 2010-cu il

№ 1000

Ə.F.Əlizadənin İran İslam Respublikasının Təbriz şəhərində Azərbaycan Respublikasının Baş konsulu təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Əli Fikrət oğlu Əlizadə İran İslam Respublikasının Təbriz şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 iyul 2010-cu il

№ 1001

"Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi və Türkiyə Respublikasının Kapital Bazarı Şurası arasında əməkdaşlıq və informasiya mübadiləsi haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi və Türkiyə Respublikasının Kapital Bazan Şurası arasında əməkdaşlıq və informasiya mübadiləsi haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədri Rüfət Cəbrayıl oğlu Aslanlıya verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədri Rüfət Cəbrayıl oğlu Aslanlıya verilməsi barədə Türkiyə Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 iyul 2010-cu il

№ 1003

K. Krayevskinin "Dostluq" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında əməkdaşlıq və qarşılıqlı əlaqələrin möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə Kşiştof Krayevski "Dostluq" ordeni ilə təltif edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 8 iyul 2010-cu il

№ 1004

"Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2010-cu il 18 iyun tarixli 1032-IIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, üç ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının "Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2010-cu il 18 iyun tarixli 1032-IIIQD nömrəli Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması və ya ləğv edilməsi haqqında təkliflərin mərkəzi icra hakimiyyəti orqanları və dövlətə məxsus müəssisələr tərəfindən verilməsi qaydalarının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.4. öz səlahiyyətləri daxilində "Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2010-cu il 18 iyun tarixli 1032-IIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. "Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı maddəsində, 7-ci maddəsinin birinci hissəsində, 10-cu maddəsində, 11-ci maddəsinin birinci və üçüncü hissələrində, 14-cü maddəsinin 2-ci bəndində, 16-cı maddəsində, 17-ci maddəsinin ikinci hissəsində (ikinci halda), 19-cu maddəsinin birinci hissəsində, 22-ci maddəsində, 24-cü maddəsinin adında və mətnində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Qanunun 5-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini texniki yardım və qrant alınmasına, həmçinin dövlət zəmanəti ilə alınan kreditlərə dair sazişlərə münasibətdə Azərbaycan Respublikasının Nazirlər Kabineti, digər hallarda Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.3. həmin Qanunun 13-cü maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının qanunları və ya Azərbaycan Respublikası Prezidentinin fərmanları ilə müəyyən edilmiş qaydalardan fərqli qaydalar nəzərdə tutmayan texniki yardım və qrant alınmasına, həmçinin dövlət zəmanəti ilə alınan kreditlərə dair sazişlərə münasibətdə Azərbaycan Respublikasının Nazirlər Kabineti, digər hallarda Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.4. həmin Qanunun 6-cı maddəsində, 17-ci maddəsinin birinci hissəsində, 19-cu maddəsinin birinci hissəsində və 20-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti və mərkəzi icra hakimiyyəti orqanları həyata keçirirlər;

2.5. həmin Qanunun 7-ci maddəsinin birinci hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həyata keçirirlər;

2.6. həmin Qanunun 12-ci maddəsində, 17-ci maddəsinin ikinci hissəsində (birinci halda), 18-ci maddəsində, 26-cı maddəsinin birinci və ikinci hissələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həyata keçirir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 iyul 2010-cu il

№ 295

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin strukturunun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Mərkəzi icra hakimiyyəti orqanlarının Nümunəvi Strukturu"nun təsdiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarına və "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin strukturunun və işçilərinin say həddinin təsdiq edilməsi haqqında" 2007-ci il 14 may tarixli 2163 nömrəli sərəncamına əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 11 noyabr tarixli 14 nömrəli fərmanının icrasını təmin etmək məqsədilə qərara alıram:

1. "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin strukturu" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

2.1. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin strukturuna daxil olmayan

tabeliyindəki qurumların siyahısını təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 iyul 2010-cu il

№ 1014

Azərbaycan Respublikası Prezidentinin
2010-cu il 14 iyul tarixli, 1014 nömrəli
Sərəncamı ilə
TƏSDİQ EDİLMİŞDİR

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Strukturu

1. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin aparatı (idarələr və şöbələr).

2. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsi.

3. Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları.

2009-cu il oktyabrın 12-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasında biznesin idarə olunması sahəsində kadrların ixtisasının artırılması üzrə Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi ilə Almaniya Federativ Respublikasının Federal İqtisadiyyat və Texnologiyalar Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2009-cu il oktyabrın 12-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasında biznesin idarə olunması sahəsində kadrların ixtisasının artırılması üzrə Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi ilə Almaniya Federativ Respublikasının Federal İqtisadiyyat və Texnologiyalar Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Almaniya Federativ Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 iyul 2010-cu il

№ 1016

Azərbaycan Respublikasında biznesin idarə olunması sahəsində kadrların ixtisasının artırılması üzrə Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi ilə Almaniya Federativ Respublikasının Federal İqtisadiyyat və Texnologiyalar Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu

Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Almaniya Federativ Respublikasının Federal İqtisadiyyat və Texnologiyalar Nazirliyi (bundan sonra - Tərəflər) "Azərbaycan Respublikasında biznesin idarə olunması sahəsində fəaliyyət göstərən kadrların ixtisasının artırılması üzrə ikitərəfli proqram"ın reallaşdırılması yolu ilə qarşılıqlı əməkdaşlığın dəstəklənməsi niyyətində olduqlarını birgə bəyan edirlər. Tərəflər bu fikirdədirlər ki, biznesin idarə olunması sahəsində müasir metodlara yiyələnmiş yüksək ixtisaslı kadrlar özəl sektorun inkişafına və sosial rifahın yüksəlməsinə əhəmiyyətli töhfə verə bilərlər və bu baxımdan, özəl sektor üçün idarəetmə kadrlarının ixtisasının artırılması ölkənin sosial-iqtisadi inkişafında mühüm istiqamətlərdən biridir.

Tərəflər aşağıdakılar barədə razılığa gəlirlər:

Maddə 1. Tərəflər Azərbaycan Respublikasında biznesin idarə olunması sahəsində idarəetmə kadrlarının ixtisasının artırılması üzrə ikitərəfli proqramı icra edirlər.

Maddə 2. Biznesin idarə olunması sahəsində idarəetmə kadrlarının ixtisasının artırılması proqramı üzrə Almaniya-Azərbaycan əməkdaşlığının 2012-ci ilin sonuna kimi davam etdirilməsi nəzərdə tutulur.

Maddə 3. Tərəflər adından proqramın əlaqələndirilməsi tapşırılır:

- Almaniya Federal İqtisadiyyat və Texnologiyalar Nazirliyi tərəfindən: Almaniya Beynəlxalq İxtisasartırma və İnkişaf Agentliyinə;

- Azərbaycan Respublikasının İqtisad İnkişaf Nazirliyi tərəfindən: Azərbaycan Respublikası İqtisad İnkişafı Nazirliyinin Bakı Biznes Tədris Mərkəzinə.

Maddə 4. Azərbaycan Respublikası tərəfindən proqramın əlaqələndiricisi öz funksiyaları çərçivəsində proqramın Almaniya tərəfinin töhfəsi olaraq həyata keçiriləcək tədbirlərində iştirak üçün zəruri peşəkarlığa və xarici dil qabiliyyətinə malik olan lazımi sayda namizədlərin seçilməsinə hazır olduğunu bildirir. Bununla da uyğun gələn namizədlərin və ölkənin bütün regionları üzrə özəl sektor nümayəndələrinin proqramda iştirak etməsi təmin olunur.

Maddə 5. Almaniya Federativ Respublikasının Federal İqtisadiyyat və Texnologiyalar Nazirliyi öz imkanları daxilində proqramın maliyyələşdirilməsini dəstəkləməyə hazır olduğunu təsdiqləyir. Almaniya tərəfinin töhfəsi olaraq, proqram əlaqələndiricilərinin seçdikləri menecerlər üçün Almaniya Federativ Respublikasında ixtisaslaşdırılmış məşğələlərlə və praktiki treninqlərlə müşayiət olunan müxtəlif məzmunlu təcrübələr keçmək məqsədilə müəssisələrə məqsədyönlü səfərlərin təşkil olunması, həmçinin proqram üzrə müvafiq tədbirlərin keçirilməsi nəzərdə tutulur.

Maddə 6. Ayrı-ayrı tədbirlərin məzmunu və davamlılığı proqram iştirakçılarının peşəkarlıq və xarici dil bilmə səviyyəsindən, həmçinin Almaniya Federativ Respublikasının Federal İqtisadiyyat və Texnologiyalar Nazirliyinin maliyyə imkanlarından asılıdır. Almaniyada kurs keçəcək kadrların sayı Almaniya Federativ Respublikasının dövlət büdcəsinin vəsaiti hesabına hər il Almaniya tərəfindən bu istiqamətdə ayrılacaq maliyyə vəsaitinin həcmindən asılı olacaqdır.

Maddə 7. Azərbaycan tərəfindən proqramın həyata keçirilməsinə töhfə olaraq, seçilmiş kadrların Almaniyaya təşkil olunacaq səfərindən əvvəl onlar üçün hazırlıq kurslarının keçirilməsi, həmçinin iştirakçıların beynəlxalq nəqliyyat xərclərinin ödənilməsi həyata keçirilir.

Maddə 8. Proqramın Almaniya Federativ Respublikası ərazisində həyata keçirilməsi ilə əlaqədar proqram iştirakçılarına təqaüdlərin verilməsi, onların həyatlarının sığorta edilməsi və keçiriləcək kurs müddətində mənzillə təminatı da daxil olmaqla müvafiq xərclərin ödənilməsini Almaniya tərəfi öz üzərinə götürəcəyini təsdiq edir.

Maddə 9. Proqramın reallaşmasının nəticələrinin qiymətləndirilməsi məqsədilə tərəflərarası işçi qrup yaradılır və lazım gəldikdə, biznesin idarə olunması sahəsində kadrların ixtisaslarının artırılması üzrə səmərəliliyin və uzunmüddətli faydalılığın təmin edilməsi üzrə təkliflər işləyib hazırlanır.

Maddə 10. Memorandum onun qüvvəyə minməsi üçün zəruri olan bütün dövlətdaxili prosedurların Azərbaycan tərəfindən yerinə yetirildikdən və bu barədə Azərbaycan Hökuməti tərəfindən Almaniya tərəfinə Azərbaycanın Almaniyadakı səfirliyi vasitəsi ilə yazılı bildiriş təqdim edildikdən sonra qüvvəyə minir.

Memorandum Bakı şəhərində 12 oktyabr 2009-cu il tarixində, hər biri Azərbaycan, alman və ingilis dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Memorandum müddəalarının təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİ İNKİŞAF NAZİRLİYİ ADINDAN	ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL İQTİSADİYYAT VƏ TEXNOLOGİYALAR NAZİRLİYİ ADINDAN
NİYAZİ SƏFƏROV	*ANDRES OBERŞTELLER*
İqtisadi inkişaf nazirinin müavini	*Avropa daxili bazarı, Lissabon strategiyası, Avropa Parlamenti, Avropa İttifaqı və digər Avropa ölkələri ilə əlaqə departamentinin direktoru*

2009-cu il noyabrın 13-də Sofiya şəhərində imzalanmış "Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyi və Bolqarıstan Respublikası İqtisadiyyat, Energetika və Turizm Nazirliyi arasında energetika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2009-cu il noyabrın 13-də Sofiya şəhərində imzalanmış "Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyi və Bolqarıstan Respublikası İqtisadiyyat, Energetika və Turizm Nazirliyi arasında energetika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memo-

randumu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Bolqarıstan Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 iyul 2010-cu il

№ 1017

Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyi və Bolqarıstan Respublikası İqtisadiyyat, Energetika və Turizm Nazirliyi arasında energetika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyi və Bolqarıstan Respublikası İqtisadiyyat, Energetika və Turizm Nazirliyi,

ənənəvi dostluq münasibətlərinin inkişaf etdirilməsi niyyətini rəhbər tutaraq,

Avropa İttifaqı ilə Azərbaycan arasında genişlənən enerji əməkdaşlığı kontekstində hər iki ölkənin əlverişli coğrafi mövqedə yerləşdiyini nəzərə alaraq,

hökumət, dövlət və parlament səviyyəsində hər iki ölkənin nümayəndə heyətlərinin səfərləri zamanı əldə olunmuş razılaşmaları nəzərə alaraq,

hər iki nazirliyin, həmçinin hər iki ölkənin digər qurumlarının nümayəndələrinin iştirakı ilə ekspertlər səviyyəsində birgə İşçi qrupunun yaradılması faktını nəzərə alaraq və 4 iyun 2008-ci ildə Bakı şəhərində hər iki nazirliyin nümayəndə heyətlərinin görüşündə imzalanmış Protokolda əldə edilən razılaşmaları nəzərə alaraq,

qarşılıqlı fayda əsasında energetika və enerji ehtiyatları sahəsində əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini və faydasını qeyd edərək,

energetika və enerji ehtiyatları sahəsində ümumi siyasətin qəbul edilməsi məqsədilə, bütün səviyyələrdə ikitərəfli inkişafın zəruriliyini nəzərə alaraq,

enerji ehtiyatlarının, xüsusilə təbii qazın Avropa bazarlarına tədarükü mənbələrinin və marşrutlarının diversifikasiyası vasitəsilə Bolqarıstana, Aİ və Cənub-Şərqi Avropa ölkələrinə tədarükünün təhlükəsizliyinin artırılması məqsədilə,

Tərəflərin qarşılıqlı iqtisadi maraqlarını təmin etmək məqsədilə, Tərəflərin mövcud qanunvericiliyinə uyğun olaraq, Enerji Xartiyası Sazişində müəyyən edilmiş prinsipləri nəzərə alaraq,

Bolqarıstana və qaz istehlakçısı olan Avropa İttifaqı və Cənub-Şərqi Avropa ölkələrinə

qazın təhlükəsiz tədarükünün təmin olunmasında Azərbaycanın mühüm rol oynadığını qeyd edərək,

Bolqarıstan Respublikasının coğrafi mövqeyini və Cənub-Şərqi Avropanın enerji və qaz mərkəzi və xüsusilə də Azərbaycandan və Xəzər regionunun digər ölkələrindən təbii qazın Avropa ölkələrinin bazarlarına tədarükü üçün onun potensial dəhliz rolunu nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər milli strategiyalarına uyğun olaraq, yanacaq-energetika sahəsində (neft, təbii qaz, elektrik və istilik enerjisi, alternativ və bərpa olunan enerji və enerji effektivliyi) əməkdaşlığın inkişafına, infrastruktur layihələrində, enerji resurslarının enerji nəqletmə sistemləri vasitəsilə Bolqarıstana və digər Avropa ölkələrinin ərazisinə tədarükündə, həmçinin digər qarşılıqlı maraq doğuran məsələlərdə iştirakına yardım edəcəklər.

Tərəflər, öz regionlarında enerji sektorunun və infrastruktur layihələrinin inkişaf etdirilməsi üçün energetika sahəsində informasiya mübadiləsi aparacaqlar və energetika, eləcə də onunla əlaqəli məsələlər sahəsində əməkdaşlığın inkişafının təşviq etdirilməsi məqsədilə, enerji strukturlarının və şirkətlərinin fəaliyyətini və səylərini dəstəkləyəcəklər.

Maddə 2

1. Qaz sahəsində Tərəflər arasında əməkdaşlıq aşağıdakıları əhatə edəcəkdir:

1.1. Təbii qazın Azərbaycan Respublikasından Bolqarıstan Respublikasına razılaşdırılmış həcmdə, müddətdə və qrafikdə tədarükünün həyata keçirilməsi üzrə müvafiq sazişlərin hazırlanması və imzalanması məqsədilə, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti "ARDNŞ" və "Bulqarqaz" EAD şirkəti arasında danışıqların təşkil edilməsinin dəstəklənməsi.

1.2. Bolqarıstan Respublikasına, aşağıdakılar daxil olmaqla, lakin məhdudlaşdırılmadan, tədarükün həyata keçirilməsi variantları və imkanlarına baxılması:

tədarüklərin kommersiya məqsədəuyğunluğunu təmin edən, tranzit üzrə müvafiq razılaşmaların əldə edilməsi şərtilə mövcud Bakı-Tbilisi-Ərzurum (Türkiyə) Cənubi Qafqaz qaz kəməri vasitəsilə tədarükü;

dəniz nəqliyyatı vasitəsilə sıxılmış qazın (CNG) Gürcüstan sahillərindən Qara dəniz vasitəsilə tədarükü;

birləşdirici qaz kəmərlərinin tikintisi üzrə müvafiq regional layihələr (İTGİ, Yunanıstan-Bolqarıstan, Nabukko və s.) daxil olmaqla "Cənub dəhlizi" layihəsi üzrə Türkiyə ərazisindən Bolqarıstan Respublikasına təbii qazın tədarükü.

1.3. Tərəflər 1.2-ci bənddə göstərilən, Azərbaycanın təbii qazının Bolqarıstan Respublikasına və Cənub-Şərqi Avropa ölkələrinə tədarükü variantlarının texniki-iqtisadi əsaslandırılmasının hazırlanması məqsədilə ARDNŞ, "Bulqarqaz" EAD və "Bulqartransqaz" arasında İşçi qrupunun yaradılması barədə razılığa gəl-

dilər və hüquqi şəxsin qeydiyyatı məsələsini nəzərdən keçirəcəklər.

1.4. Azərbaycan Respublikasının və Bolqarıstan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq, qazın və neftin kəşfiyyatı, tədqiqi və çıxarılmasında fəaliyyətin həyata keçirilməsi və infrastruktur layihələrinin yerinə yetirilməsində Tərəflərin müəssisələrinə (şirkətlərinə) yardım göstərilməsi.

2. Tərəflərin energetikanın digər sahələrində əməkdaşlığı aşağıdakıları əhatə edəcəkdir:

2.1. sənaye və yanacaq-energetika sektorlarında investisiyaların stimullaşdırılmasının təşviq edilməsi;

2.2. qeyd olunan sahələrdə birgə fəaliyyət dairələrinin tənzimlənməsi məsələləri üzrə informasiya mübadiləsinin aparılması;

2.3. qeyd olunan sahələrdə təlim və inkişaf proqramlarının təmin edilməsi üçün birgə seminarların, konfransların, dəyirmi masaların, forumların keçirilməsi;

2.4. qeyd olunan sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi və müştərək müəssisələrin yaradılması.

Maddə 3

Tərəflər əməkdaşlığın xüsusiyyətindən asılı olaraq, bu Anlaşma Memorandumunun həyata keçirilməsi üzrə fəaliyyətin əlaqələndirilməsi üçün məsul şəxsin təyinatı barədə diplomatik kanallar vasitəsilə bir-birini məlumatlandıracaqlar.

Maddə 4

Bu Anlaşma Memorandumunun şərhi və yerinə yetirilməsi ilə əlaqədar meydana çıxan istənilən mübahisələr Tərəflər arasında məsləhətləşmələr və danışıqlar yolu ilə həll ediləcəkdir.

Maddə 5

Tərəflərin qarşılıqlı razılığı əsasında, bu Anlaşma Memorandumuna ayrıca müvafiq protokollarla rəsmiləşdirilən, bu Memorandumun ayrılmaz tərkib hissəsi olan, 6-cı maddənin müddəalarına uyğun olaraq, əlavə və dəyişikliklər edilə bilər.

Maddə 6

Bu Anlaşma Memorandumu, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Bu Anlaşma Memorandumu üç il müddətinə bağlanılır və Tərəflərdən biri bu Anlaşma Memorandumunun müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq hər dəfə iki il müddətinə uzadılacaqdır.

Bu Anlaşma Memorandumu Sofiya şəhərində 13 noyabr 2009-cu il tarixində, hər biri Azərbaycan, bolqar və rus dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni hüquqi qüvvəyə malikdir. Bu Anlaşma Memorandumunun müddəalarının

təfsirində fikir ayrılığı olduqda, rus dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ SƏNAYE VƏ ENERGETİKA NAZİRLİYİ ADINDAN	BOLQARISTAN RESPUBLİKASININ İQTİSADİYYAT, ENERGETİKA VƏ TURİZM NAZİRLİYİ ADINDAN
NATİQ ƏLİYEV	*TRAYÇO TRAYKOV*
İqtisadi inkişaf nazirinin müavini	*İqtisadiyyat, enerji və turizm naziri*

1999-cu il noyabrın 22-də Lüksemburq şəhərində imzalanmış "Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi ilə Avropa Birliyi Statistika Bürosu arasında xarici ticarət üzrə statistika məlumatlarının mübadiləsinə dair Saziş"in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 1999-cu il noyabrın 22-də Lüksemburq şəhərində imzalanmış "Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi ilə Avropa Birliyi Statistika Bürosu arasında xarici ticarət üzrə statistika məlumatlarının mübadiləsinə dair Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Avropa Birliyini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 iyul 2010-cu il

№ 1018

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi ilə Avropa Birliyi Statistika Bürosu arasında xarici ticarət üzrə statistika məlumatlarının mübadiləsinə dair Saziş

Bir tərəfdən - bundan sonra "Dövlətstatkom" adlandırılacaq Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi və ikinci tərəfdən - bundan sonra "Avrostat" adlandıralacaq Avropa Birliyi Statistika Bürosu,

1999-cu il iyul ayının 1-dən qüvvəyə minmiş Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında Tərəfdaşlıq və əməkdaşlıq haqqında Sazişi (TƏS), xüsusilə Sazişin statistika sahəsində əməkdaşlığa dair 68-ci maddəsini qəbul edərək,

TƏS kontekstində statistika üzrə Tərəflər arasında əməkdaşlığı, Azərbaycanda iqtisadi islahatlar prosesinə yardım və nəzarət edəcək, həmçinin fərdi sahibkarlığın inkişafına kömək göstərəcək düzgün statistik informasiya ilə vaxtında təmin edilməni, statistik informasiya və məlumatların proqram-texnoloji müqayisəliliyini təmin edəcək statistika sisteminin səmərəli inkişafını nəzərdə tutaraq,

istər beynəlxalq, istərsə də Birliyin metod, standart və təsnifatlarının harmonikləşdirilməsinin, xüsusilə məlumat bazasının yaradılması yolu ilə statistik informasiya mübadiləsinin təşkilinə olan tələbatın vacibliyini nəzərə alaraq aşağıdakılar üzrə razılığa gəlinmişdir:

Maddə 1: Əhatə

Tərəflər bu Sazişin müddəalarına uyğun olaraq xarici ticarət statistikası üzrə məlumatların mübadiləsi sahəsində əməkdaşlıq edirlər.

Maddə 2: Məqsədlər

Bu Sazişin statistika məlumatlarının mübadiləsi üzrə məqsədi aşağıdakıları əhatə edir:

- TƏS-in yerinə yetirilməsi üçün statistik informasiya ilə təmin edilməsi şəraitinin yaradılmasında Dövlətstatkoma lazımi informasiya yardımının göstərilməsi,

- Azərbaycan Respublikası ilə Avropa Birliyi arasında iqtisadi münasibətlərin formalaşmasına, nəzarət edilməsinə və qiymətləndirilməsinə dair informasiya ilə Avropa institutlarının və Avropa İttifaqının üzvü olan dövlətlərin təmin edilməsi və Avropa İttifaqı çərçivəsində ictimaiyyətə, işgüzar və digər iqtisadi-sosial dairələrə təqdim ediləcək Azərbaycana dair statistik göstəricilərin hazırlanması.

Maddə 3: Statistika məlumatları

Bu Sazişlə əhatə olunmuş statistika məlumatları bu Sazişin ayrılmaz hissəsi olan 1-ci Əlavədə göstərilmiş formatda xarici ticarət üzrə ətraflı məlumatlardan ibarətdir.

Maddə 4: Resurslar

Bu Sazişin yerinə yetirilməsi üçün lazım olan maliyyə vəsaitləri TACIS proqramı çərçivəsində Dövlətstatkom ilə Avrostat arasında yaradılmış Birgə Statistik Əməkdaşlıq Proqramından götürüləcəkdir.

Maddə 5: Prosedurlar

Dövlətstatkom və Avrostat xarici ticarət üzrə 1-ci Əlavədə göstərilmiş məlumatların siyahısına uyğun olaraq pulsuz məlumat və nəşrlər mübadiləsi edəcəklər.

Məlumat mübadiləsi kompyuterlərin köməyi ilə rüblük əsasda həyata keçiriləcəkdir.

Ölkələr arasında məlumat mübadiləsindən, əsasən, onların daxili məqsədləri üçün istifadə ediləcəkdir. Qeyd olunan məlumatların gələcəkdə nəşrlərdə istifadə edilməsi hər iki Tərəfin razılığı ilə və nəşrin mətnində müvafiq istinadlar əsasında edilir.

Maddə 6: Qərarların qəbul edilməsi

Tərəflər arasında əməli iş əlaqələri hər iki Tərəfin təyin etdiyi işçi heyəti tərəfindən tənzimlənir. Bu Sazişin yerinə yetirilməsi və ona nəzarət üzrə qərar hər iki Tərəfin təyin etdiyi üzvlər tərəfindən həyata keçirilir. Bu Sazişin yerinə yetirilməsi ilə əlaqədar hər bir istənilən fikir ayrılığı hər iki Tərəf arasında məsləhətləşmələr yolu ilə tənzimlənir. Lazım gələrsə, qərara Dövlət Statistika Komitəsinin sədri və Avrostatın Baş direktoru səviyyəsində baxıla bilər.

Maddə 7: Nəzərdən keçirmə

Bu Sazişdə dəyişikliklər və əlavələr bu Sazişin ayrılmaz hissəsi olacaq ayrıca Protokol vasitəsilə Tərəflərin qarşılıqlı razılığı əsasında edilə bilər.

Maddə 8: Qüvvəyəminmə

Bu Saziş onun qüvvəyə minməsi üçün lazımi məcburi prosedurları hər iki Tərəfin yerinə yetirməsini bildirən qarşılıqlı xəbərdarlıq edildiyi gün qüvvəyə minir.

Maddə 9: Müddət

Bu Sazişin fəaliyyət müddəti 5 ildir və Əgər Tərəflər bu müddətin bitməsinə ən azı 6 ay qalmış Sazişin pozulması niyyətlərini yazılı surətdə bir-birinə bildirməzlərsə, onun müddəti 5 il də uzadılır.

1999-cu il noyabrın 22-də, iki nüsxə Azərbaycan dilində və iki nüsxə ingilis dilində olmaqla, Lüksemburqda imzalanmışdır, mətnlərin hər ikisi eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ ADINDAN	AVROPA STATİSTİKA BÜROSUNUN ADINDAN
ARİF VƏLİYEV	*YVES FRANCHET*
Komitəsinin sədri	*Direktor*

ƏLAVƏ 1

Xarici ticarət üzrə məlumatların təqdim edilməsi üçün istifadə edilən qaydalar aşağıdakından ibarətdir. Məlumatlar adətən maqnit lentlər və ya İnternet vasitəsilə göndərilir. Fayl format məhdudlaşmışdır və ASSII-də işlənir. Bu informasiyadan başqa, bizi (məlumatların daha yaxşı şərh edilməsi üçün) istifadə edilən metodologiya, məxfilik metodları və istifadəetmə qaydaları haqqında informasiya ilə də təmin etmək lazımdır.

Hər bir yazı aşağıdakı rekvizitlərə malikdir:

Məruzəçinin kodu	**Həmişə İSO kodu**
Axın	I idxal üçün, E ixrac üçün, R reixrac üçün
İl	Məsələn, 1996
Müddət	01 (yanvardan) - 12-dək (dekabr) aylar üçün 31 (I rüb) - 34-dək (IV rüb) rüblər üçün
Mənşə ölkə	Bu xanadan idxal və reixrac üçün istifadə edilir və istehsal edən (mənşə) ölkəni göstərir. Mənşə ölkə İSO kodundan istifadə edilməklə kodlaşdırılmalıdır. Əgər başqa kodlaşdırmadan istifadə edilirsə, Sizin kodlaşdırma ilə olan fərqləri göstərən fayl ilə bizi təmin etməyi xahiş edirik (Bax, aşağıdakı misal 1 və 2).

Əmtəə kodu	Milli məhsulların kodu Əmtəələrin Harmonikləşdirilmiş Təsvirindən və Kodlaşdırma (HS) sistemindən götürülmüşdür. Ölkələrin çoxu HS-in genişləndirilmiş forması olan Kombinə edilmiş Nomenklatur (CN) kodlaşdırılmasından istifadə edirlər.
Dəyər	Ticarətin ABŞ dolları və ya avro ilə dəyəri (qoşulan məktubda seçimi göstərməyiniz xahiş olunur).
Birinci miqdar ikinci miqdar	bu iki xanadan idxal, ixrac və ya reixrac edilmiş malların miqdarının göstərilməsi üçün istifadə edilir; adətən bir miqdardan istifadə edilir, lakin bəzi ölkələrdə onlar ikidir. Bu, beynəlxalq tövsiyənin olmasına baxmayaraq, həmişə dövlətin qərarıdır (Bax, aşağıdakı misal).
Birinci miqdarın vahidi	Bu xanada birinci miqdarın ölçüldüyü vahid göstərilir. Burada İSO (KGM, LTR və s.) kodlarından istifadə edilmək arzu olunardı. Əgər milli kodlaşdırmadan istifadə edilmişsə, öz izahatınızın göndərilməsi xahiş olunur (Bax, misal 3).
İkinci miqdar	Əgər bu xana mövcuddursa, burada idxal, ixrac və ya reixrac edilmiş malların ikinci miqdar vahidləri ilə ölçülmüş miqdarı göstərilir, adətən bir miqdardan istifadə edilir, lakin bəzi hallarda onlar iki ola bilər. Bu, beynəlxalq tövsiyənin olmasına baxmayaraq, həmişə dövlətin öz təşəbbüsüdür (Bax, aşağıdakı misal 3).
İkinci miqdarın vahidi	Əgər ikinci miqdar varsa, bu xanalarda ikinci miqdarın ölçüldüyü vahid göstərilir. Burada İSO (KGM, LTR) kodlarından istifadə edilməsi arzu olunardı. Əgər milli kodlaşdırmadan istifadə edilmişsə, öz izahatınızın göndərilməsi xahiş olunur (Bax, aşağıdakı misal).

Misal 1

Axın=E (ixrac)
Mənşə ölkə=FI
Təyinat ölkəsi
Almaniyada Finlandiya mənşəli malların reixracını göstərir

Misal 2

Axın=E (ixrac)
Mənşə ölkə (boş xana mənşə ölkənin sizin ölkəniz olduğunu göstərir)
Təyinat ölkəsi=DE
Sizin ölkənizdən Almaniyaya malların normal ixracını göstərir

Misal 3. Miqdar haqqında

Avropa Birliyi daxilində ticarət
kartof üçün yalnız birinci miqdar kq-dan istifadə edilir.
diri heyvanlar üçün birinci miqdar vahidi kimi kq və ikinci miqdar vahidi kimi ədəd qəbul edilir.

şərab və digər alkoqollu içkilər üçün: birinci miqdar vahidi kimi kq və ikinci miqdar vahidi kimi litr qəbul edilir. Lakin tünd alkoqollu içkilər üçün ikinci miqdar vahidi xalis alkoqolun litri (100%) qəbul edilir.
Təyinat ölkəsi=DE

2010-cu il fevralın 2-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyi və Rumıniya İqtisadiyyat, Ticarət və Biznes Mühiti Nazirliyi arasında energetika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2010-cu il fevralın 2-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyi və Rumıniya İqtisadiyyat, Ticarət və Biznes Mühiti Nazirliyi arasında energetika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Memorandumun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Memorandumun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Rumıniya tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 iyul 2010-cu il

№ 1019

Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyi və Rumıniya İqtisadiyyat, Ticarət və Biznes Mühiti Nazirliyi arasında energetika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu

Preambula

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyi və Rumıniya İqtisadiyyat, Ticarət və Biznes Mühiti Nazirliyi,

ölkələrinin faydası naminə onlar arasında hərtərəfli əməkdaşlıq, inam və

onların maraqlarına qarşılıqlı hörmətə əsaslanan dostluq və əməkdaşlıq münasibətlərini nəzərə alaraq,

Tərəflərin energetika sahəsində ikitərəfli dialoqu gücləndirmək niyyətini vurğulayaraq,

Azərbaycan Respublikasının Xəzər regionunda başlıca karbohidrogen təchizatçısı kimi əsas rolunu və Rumıniyanın Avropaya birbaşa keçidin təmin edilməsi potensialını xüsusi qeyd edərək,

enerji sahəsində üst-üstə düşən maraqlarını və ikitərəfli əməkdaşlıq çərçivəsinin onlara gətirəcəyi qarşılıqlı faydaları dərk edərək,

2008-ci il martın 12-də Buxarest şəhərində imzalanmış "Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyi və Rumıniya İqtisadiyyat və Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş" və 2009-cu il sentyabrın 28-də Buxarest şəhərində imzalanmış "Azərbaycan Respublikası və Rumıniya arasında Strateji Tərəfdaşlığın Yaradılması Razılaşması haqqında Birgə Bəyannamə" ilə müəyyən olunmuş mövcud əməkdaşlıq çərçivələrini nəzərə alaraq,

2009-cu ilin 28-29 sentyabr tarixlərində Buxarest şəhərində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Rumıniyanın Prezidenti cənab Trayan Basesku arasında keçirilən görüş zamanı qəbul edilmiş yüksək səviyyəli qərarları və ikitərəfli energetika əməkdaşlığının inkişafı üçün Tərəflərin maraqlarını nəzərə alaraq,

energetika əməkdaşlığı sahəsində bütün əvvəlki öhdəlikləri təsdiq edərək,

neft, qaz və onların nəqli daxil olmaqla energetika sahəsində Azərbaycan Rumıniya əməkdaşlıq çərçivəsinin yaradılmasına Tərəflərin hazırlığını ifadə edərək,

2009-cu il mayın 8-də Cənub Dəhlizi Sammitinin Praqa Bəyannaməsinin qəbul edilməsini alqışlayaraq və onun prinsiplərini bir daha təsdiq edərək,

Cənub Dəhlizi Strategiyası çərçivəsində Xəzər regionunu Avropa ilə birləşdirən enerji tranzit dəhlizinin inkişafı üçün əməkdaşlığı genişləndirmək öhdəliklərini ifadə edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

1. Energetika sahəsində ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi imkanlarını birgə müzakirə etmək.

Bununla əlaqədar onlar aşağıdakı sahələrdə imkanları araşdırmaq və həlləri inkişaf etdirməkdə öz müvafiq şirkətlərini (ARDNŞ, ROMGAZ S.A., TRANSGAZ S.A., OLTCHİM S.A., Conpet və Neft Terminalı Constansa (OTC) Rumıniya) dəstəkləmək üçün çalışacaqlar:

qazın nəqli,

qaz ticarəti və Rumıniyadakı yeraltı qaz anbarlarının istifadəsi,

Rumıniya emal zavodlarında neft emalı,

Pan Avropa Neft Layihəsi (PEOP) vasitəsilə neft nəqli (Constansa-Triest),

Azərbaycan-Gürcüstan-Rumıniya Əlaqələndirici Layihəsi çərçivəsində Avropaya mayeləşdirilmiş təbii qazın tədakürü,

Rumıniya qaz boru xətti nəqli sisteminin imkanlarının təhlili.

Bununla əlaqədar Tərəflər öz müvafiq şirkətlərini Birgə İşçi Qrupu yaratmağa və yuxarıda sadalanan layihələrin həyata keçirilməsinin texniki mümkünlüyü və maliyyə səmərəliliyi üzrə danışıqlara başlamağa həvəsləndirməyə və onları dəstəkləməyə çalışacaqlar.

2. Avropa İttifaqı enerji təhlükəsizliyinə və Praqa Bəyannaməsində müəyyən olunduğu kimi Cənub Dəhlizi Strategiyasının həyata keçirilməsinə töhfə verən digər layihələri inkişaf etdirmək.

Bu Anlaşma Memorandumu Tərəflərin müvafiq Hökumətlərinə onun təsdiqi üçün təqdim ediləcəkdir. Tərəflərdən hər biri digərini diplomatik kanallar vasitəsilə onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə xəbərdar edəcəkdir. Bu Memorandum sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minəcəkdir.

2 fevral 2010-cu il tarixində Bakı şəhərində ingilis dilində iki əsl nüsxədə imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ SƏNAYE VƏ ENERGETİKA NAZİRLİYİ ADINDAN

NATİQ ƏLİYEV
İqtisadi inkişaf nazirinin müavini

RUMİNİYA İQTİSADİYYAT, TİCARƏT VƏ BİZNES MÜHİTİ NAZİRLİYİ ADINDAN

TUDOR ŞERBAN
İqtisadiyyat nazirinin müavini, enerji məsələləri üzrə dövlət katibi

2010-cu il aprelin 26-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Almaniya Federativ Respublikasının Federal Statistika İdarəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Birgə Niyyət Bəyannaməsi"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2010-cu il aprelin 26-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Almaniya Federativ Respublikasının Federal Statistika İdarəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Birgə Niyyət Bəyannaməsi" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Almaniya Federativ Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 iyul 2010-cu il

№ 1020

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Almaniya Federativ Respublikasının Federal Statistika İdarəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Birgə Niyyət Bəyannaməsi

I

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Almaniya Federativ Respublikasının Federal Statistika İdarəsi statistika sa-

həsində əməkdaşlığın gücləndirilməsinə və ölkələr arasında əlaqələrin inkişafında qarşılıqlı əməkdaşlığın səmərəliliyinə inanaraq, aşağıdakıları qəbul etməyə razıdırlar:

II

1. Tərəflər aşağıdakı istiqamətlər üzrə əməkdaşlıq edəcəklər:

a) texniki əməkdaşlıq üzrə beynəlxalq proqramlarda iştirakla əlaqədar birgə işlərin davam etdirilməsi;

b) statistik məlumat bazasının yaradılması və idarə olunması və statistik məlumatların toplanmasında informasiya texnologiyalarının tətbiq edilməsi də daxil olmaqla, statistika sahəsində informasiya texnologiyalarının tətbiq edilməsinə dair təcrübə mübadiləsi;

c) yeni statistik metodlara dair məlumat mübadiləsi və müasir informasiya cəmiyyətinin tələblərinə uyğun statistik metod və üsulların tətbiq olunması;

d) elmi-metodoloji tədqiqatların aparılmasında əməkdaşlıq və qarşılıqlı maraq doğuran layihələrin həyata keçirilməsi;

e) statistik müayinələrin metodoloji və tematik məsələləri üzrə statistik nəşrlərin mübadiləsi;

f) hər iki ölkənin sosial-iqtisadi inkişafına dair nəşrlərin (məsələn, illik statistik külliyatlar, tematik seriya və məcmuələr, bülletenlər) mübadiləsi.

2. Tərəflər bu Birgə Bəyannamənin I maddəsində müəyyən edilmiş tədbirləri mütəxəssislərin qarşılıqlı təcrübə mübadiləsi əsasında həyata keçirməyə razıdırlar.

III

1. Tərəflər bu əməkdaşlıq çərçivəsində nəzərdə tutulan aşağıdakı tədbirlərlə bağlı xərclərin Tərəflərin hər birinin qarşılayacağı nəzərə alınmaqla yerinə yetirilməli olmasını vurğulayırlar:

ekspertlərin göndərilməsi;

tədbirlərin yerinə yetirilməsinin təşkili.

2. Tərəflər daha sonra vurğulayırlar ki, fərdi tədbirlər yarana biləcək maliyyələşdirmə imkanları nəzərə alınaraq iki Tərəf arasında əlaqələndiriləcəkdir.

IV

1. Tərəflər fərdi tədbirlərin yerinə yetirilməsi nəticəsində əldə olunan təcrübəyə əsaslanaraq istənilən zaman qarşılıqlı razılıq əsasında bu Birgə Niyyət Bəyannaməsinə yazılı şəkildə dəyişiklik və ya əlavə edilməsinə razıdırlar.

2. Tərəflər sənədin imzalandığı gündən Birgə Niyyət Bəyannaməsi çərçivəsində əməkdaşlığa başlaya biləcəklərinə və Tərəflərdən birinin bu əməkdaşlığın ləğv edilməsi təklifini irəli sürəcəyi vaxta qədər davam etdirəcəklərinə razıdırlar. Birgə Bəyannaməyə əsasən, bu halda təklifi irəli sürəcək Tərəf əməkdaşlığın ləğv edilməsi tələbini ən azı 3 ay əvvəlcədən yazılı şəkildə digər Tərəfə çatdırmalıdır.

Bu Bəyannamə Bakı şəhərində 2010-cu il 26 aprel tarixində, hər biri Azərbaycan, al-

man və ingilis dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ ADINDAN	ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL STATİSTİKA İDARƏSİ ADINDAN
ARİF VƏLİYEV	*RODERİX EGELER*
Komitəsinin sədri	*Prezident*

2010-cu il aprelin 28-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası hökuməti və Rusiya Federasiyasının Stavropol diyarı hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2010-cu il aprelin 28-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası hökuməti və Rusiya Federasiyasının Stavropol diyarı hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Stavropol diyarı (Rusiya Federasiyası) hökumətini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 iyul 2010-cu il

№ 1021

Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyasının Stavropol diyarı Hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyasının Stavropol diyarı Hökuməti,

Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında 1997-ci il 3 iyul tarixli Müqavilənin məqsədlərini və prinsiplərini rəhbər tutaraq,

Azərbaycan Respublikası və Rusiya Federasiyasının 2001-ci il 9 yanvar tarixli Bakı Bəyannaməsi və Azərbaycan Respublikasının və Rusiya Federasiyasının 2004-cü il 6 fevral tarixli Moskva Bəyannaməsinin müddəalarına əsaslanaraq,

beynəlxalq inteqrasiyanın iqtisadi inkişafın vacib elementlərindən biri olduğunu nəzərə alaraq,

Azərbaycan Respublikası və Rusiya Federasiyasının Stavropol diyarında yaşayan xalqlar arasında olan münasibətlərdə mehriban qonşuluq və etimad ənənələrini nəzərə alaraq,

Azərbaycan Respublikası və Rusiya Federasiyasının Stavropol diyarının ərazilərində yerləşən təsərrüfat subyektləri arasında əməkdaşlığı təşviq etmək niyyətindən çıxış edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər əməkdaşlığı Azərbaycan Respublikasının və Rusiya Federasiyasının qanunvericiliyinə uyğun olaraq həyata keçirirlər.

Maddə 2

Tərəflər uzunmüddətli və hərtərəfli iqtisadi, hüquqi, elmi-texniki və mədəni əlaqələri bərabərlik, qarşılıqlı mənfəət, anlaşma, hörmət və etimad prinsipləri əsasında inkişaf etdirirlər.

Maddə 3

Tərəflər öz səlahiyyətləri çərçivəsində bu Sazişin həyata keçirilməsində birbaşa iştirak edən sənaye, sahibkarlıq və digər strukturların fəaliyyəti üçün təşkilati və informasiya sahələrində Azərbaycan Respublikasının və Rusiya Federasiyası Stavropol diyarının ərazilərində əlverişli şəraitin yaradılmasına yardım edirlər.

Maddə 4

Bu Saziş əsasında həyata keçirilən birgə layihələrin forma və həcmləri Azərbaycan Respublikasının və Rusiya Federasiyası Stavropol diyarının ərazilərində yerləşən təsərrüfat subyektləri arasında, onların təşkilati-hüquqi və mülkiyyət formalarından asılı olmayaraq, bağlanılmış müqavilələrlə müəyyən edilir. Tərəflər bu müqavilələrdən irəli gələn öhdəliklərə görə məsuliyyət daşımırlar.

Tərəflər öz səlahiyyətləri çərçivəsində ticarət-iqtisadi əlaqələrin müxtəlif istiqamətləri, xammala, komplektləşdirici, hazır məhsula olan tələbat və maddi resursların təchizatı imkanları haqqında məlumat mübadiləsini həyata keçirirlər, eləcə də Tərəflərin keçirdiyi yarmarka, sərgi, auksion və təqdimatlarda müəssisələrin və təşkilatların iştirakı şərtlərini təmin edirlər.

Maddə 5

Tərəflər istehsal-texniki təyinatlı malların, xammalın, xalq istehlakı mallarının və ərzaq məhsullarının qarşılıqlı təchizatının həyata keçirilməsi üçün təşkilati və informasiya xarakterli zəruri şəraiti yaradırlar.

Təsərrüfat subyektləri arasında bu Saziş çərçivəsində aparılan hesablaşma və digər maliyyə əməliyyatları Azərbaycan Respublikasının və Rusiya Federasiyasının qanunvericiliyinə uyğun həyata keçirilir.

Maddə 6

Tərəflər kənd təsərrüfatı məhsullarının və maddi-texniki resursların qarşılıqlı təchizatını, kənd təsərrüfatı texnikasının texniki xidmətlərinin təkmilləşdirilməsini və təmir bazasının inkişafını, eləcə də kənd təsərrüfatı sahəsində təcrübə, elmi nailiyyətlər və müasir texnologiyanın mübadiləsini təşviq edirlər.

Maddə 7

Tərəflər öz səlahiyyətləri çərçivəsində mədəniyyət, elm, səhiyyə, təhsil, idman və turizm müəssisələri, gənclər və digər ictimai təşkilatlar arasında əlaqələrin gücləndirilməsi üçün əlverişli şərait yaradır, tələbələrin orta və ali təhsil müəssisələrində təhsil almasına yardım edirlər.

Maddə 8

Tərəflər öz səlahiyyətləri çərçivəsində rəsmi nümayəndə heyətlərinin və təsərrüfat fəaliyyətinin müxtəlif sahələrində mütəxəssislərin qarşılıqlı səfərlərini, hakimiyyət orqanlarının iş təcrübəsinin mübadiləsini həyata keçirirlər.

Maddə 9

Bu Saziş əsasında əldə edilmiş məlumat yalnız Azərbaycan Respublikasının qanunvericiliyinə və Rusiya Federasiyasının qanunvericiliyinə uyğun olaraq və məlumatı alınan Tərəfin yazılı razılığının olması şərtilə üçüncü tərəfə verilə bilər.

Maddə 10

Bu Saziş Tərəflərin üçüncü tərəflərlə bağladıqları müqavilələrdən irəli gələn öhdəliklərinə toxunmur və onun iştirakçısı olan Tərəflərin üçüncü tərəflər qarşısında götürdükləri öhdəlikləri yerinə yetirmələrinə maneə törətmir.

Maddə 11

Bu Sazişə dəyişikliklər və əlavələr Tərəflərin qarşılıqlı razılığı ilə Sazişin tərkib hissəsi olan protokollarla rəsmiləşdirilə bilər.

Maddə 12

Bu Sazişin təfsiri və tətbiqi ilə əlaqədar mübahisəli məsələlər Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll edilir.

Maddə 13

Bu Saziş beş il müddətinə bağlanılır və onun qüvvəyə minməsi üçün zəruri prosedurların yerinə yetirildiyi barədə sonuncu yazılı bildirişi Tərəflərin aldıqları gün qüvvəyə minir.

Bu Sazişin qüvvədə olma müddəti bitdikdə Tərəflərdən heç biri onun qüvvəsini dayandırmaq niyyətini bildirməzsə, avtomatik olaraq bir il müddətinə uzadılır.

Maddə 14

Bu Sazişin qüvvəsi, Tərəflərdən birinin digərinə onun qüvvəsinin dayandırılması niyyəti haqqında göndərdiyi bildirişin alınması tarixindən altı aylıq müddət bitdikdə dayandırılır.

Bu Sazişin qüvvəsinin dayandırıldığı təqdirdə, o, qüvvədə olduğu müddətdə əsasında öhdəliklər yaranmış və bu öhdəliklərin icrası bitməmiş müqavilələrə, proqramlara və layihələrə tətbiq edilməkdə davam edəcəkdir.

Bu Saziş Bakı şəhərində 2010-cu il 28 aprel tarixində, hər biri Azərbaycan və rus dillərində olmaqla, iki nüsxədə imzalanmışdır, hər iki mətn eyni hüquqi qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	RUSİYA FEDERASİYASININ STAVROPOL DİYARI HÖKUMƏTİ ADINDAN
ƏLİ HƏSƏNOV	*VALERİ QAYEVSKİ*
Baş nazirinin müavini	*Qubenator*

2010-cu il mayın 13-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Serbiya Respublikasının Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2010-cu il mayın 13-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Serbiya Respublikasının Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Protokolun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Serbiya Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 iyul 2010-cu il

№ 1022

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Serbiya Respublikasının Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Serbiya Respublikasının Xarici İşlər Nazirliyi,

iki ölkə və xalq arasında ənənəvi yaxşı münasibətlərin, dostluğun və əlverişli qarşılıqlı əməkdaşlığın daha da inkişaf etdirilməsi və möhkəmləndirilməsi məqsədilə,

suverenlik, müstəqillik, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığının qarşılıqlı dəstəklənməsinin Azərbaycan Respublikası və Serbiya Respublikası arasında ikitərəfli münasibətlərin əsasını təşkil etdiyini etiraf edərək,

beynəlxalq hüquq və Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin prinsip və məqsədlərinə uyğun olaraq, beynəlxalq sülhün və təhlükəsizliyin qorunması, eləcə də beynəlxalq əməkdaşlığın təşviqi məqsədilə birgə fəaliyyət göstərərək,

Azərbaycan Respublikasının Avropa İttifaqının Şərq Tərəfdaşlığı çərçivəsində Avropa İttifaqı ilə intensiv siyasi, təhlükəsizlik, iqtisadi və humanitar münasibətləri inkişaf etdirmək qətiyyətini, həmçinin Serbiya Respublikasının Avropa İttifaqına qoşulmaq strateji məqsədini və ona üzv olmaq üçün müraciət etdiyini nəzərdə tutaraq,

iki ölkə arasında siyasi dialoqun və əməkdaşlığın möhkəmləndirilməsinin vacibliyini etiraf edərək,

Tərəflər arasında qarşılıqlı maraq doğuran məsələlər üzrə müxtəlif səviyyələrdə siyasi dialoqun və məsləhətləşmələrin rolunu yüksək qiymətləndirərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflərin xarici işlər nazirləri və yüksək rütbəli rəsmiləri ikitərəfli münasibətlərin, regional və qarşılıqlı maraq doğuran digər beynəlxalq məsələlərin təşviq edilməsinə dair müntəzəm məsləhətləşmələr aparacaqlar.

Xarici işlər nazirləri ehtiyac olduğu təqdirdə görüşəcəklər.

Tərəflərin yüksək rütbəli rəsmiləri ən azı ildə bir dəfə məsləhətləşmələr aparacaqlar. Bu cür məsləhətləşmələrin təmsil olunma səviyyəsi, tarixi, yeri və mövzusu diplomatik kanallar vasitəsilə razılaşdırılacaqdır.

Maddə 2

1-ci maddədə adı çəkilən məsləhətləşmələrin mövzusu bunları əhatə edəcəkdir:

siyasi, iqtisadi, elmi, texnoloji, mədəniyyət və konsulluq sahəsində Azərbaycan-Serbiya ikitərəfli əməkdaşlığının dərinləşdirilməsinə və intensivləşdirilməsinə dair məsələlər;

xüsusilə Avropada təhlükəsizlik, sabitlik və əməkdaşlığa dair məsələlər;

ikitərəfli və çoxtərəfli əməkdaşlığın Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası və NATO-nun Sülh Naminə Tərəfdaşlıq Proqramı da daxil olmaqla beynəlxalq təşkilatlar çərçivəsində dəstəklənməsi;

Azərbaycan Respublikasında siyasi, institusional və sosial-iqtisadi islahatları dəstəkləmək məqsədilə Avropa Qonşuluq Siyasəti və Şərq Tərəfdaşlığı çərçivəsində intensiv dialoq və əməkdaşlığın təşviqi, Avropaya inteqrasiya prosesi və Avropa işləri sahəsində dövlət qulluqçuları üçün inzibati imkanların yaradılması ilə əlaqədar fikir və təcrübə mübadiləsi;

ikitərəfli, həm də beynəlxalq və regional təşkilatlar vasitəsilə beynəlxalq terrorçuluğa, kütləvi qırğın silahlarının yayılmasına, mütəşəkkil cinayətkarlığa, çirkli pulların yuyulmasına, narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinə, insan alverinə və qanunsuz miqrasiyaya qarşı mübarizədə səylərin əlaqələndirilməsi;

hər iki ölkədə müvafiq dövlət qurumlarının qarşılıqlı maraq doğuran müxtəlif sahələrdə ikitərəfli müqavilələrin bağlanılması imkanlarının nəzərdən keçirilməsinin təşviq edilməsi;

hər iki ölkənin tərəfdar çıxdığı çoxtərəfli sazişlərin həyata keçirilməsinə dair məsələlər;

qarşılıqlı maraq doğuran digər məsələlər.

Maddə 3

Qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığı möhkəmləndirmək və genişləndirmək məqsədilə Tərəflər ekspertlər səviyyəsində aşağıdakı məsələlər barədə mütəmadi məsləhətləşmələr keçirəcəklər:

təhlükəsizlik siyasəti məsələlərində fikir mübadiləsi;

enerji təhlükəsizliyinin (xüsusilə Avropada) həyata keçirilməsi;

Birləşmiş Millətlər Təşkilatı və onun qurumları, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, həmçinin Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində qarşılıqlı maraq doğuran fəaliyyətlərə dair fikir və ideyaların mübadiləsi;

Sülh Naminə Tərəfdaşlıq ilə bağlı məsələlərdə əməkdaşlığın əsasının qoyulması və möhkəmləndirilməsi;

viza rejimləri və viza sadələşdirilməsi məsələlərində əməkdaşlıq dialoqunun əsasının qoyulması;

Azərbaycan və Serbiya vətəndaşları arasında, mədəni əməkdaşlıq da daxil olmaqla, birbaşa əlaqələrin və münasibətlərin möhkəmləndirilməsi.

Maddə 4

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyası və Serbiya Respublikası Xarici İşlər Nazirliyinin "Koca Popoviç" Diplomatik Akademiyası təcrübə, mühaziräçi və iştirakçıların mübadiləsi, xüsusilə gənc diplomatların təlimi sahəsində əməkdaşlığı inkişaf etdirəcəklər.

Diplomatik imkanlar Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə serbiyalı diplomatların, Serbiya Xarici İşlər Nazirliyinə azərbaycanlı diplomatların tədqiqat səfərləri vasitəsilə artırıla bilər.

Əməkdaşlığın spesifik formaları diplomatik kanallar vasitəsilə bildiriləcəkdir və adıçəkilən Akademiyalar mütəmadi əməkdaşlıq proqramları barədə razılığa gəlməkdə sərbəstdirlər.

Maddə 5

Azərbaycan Respublikasının və Serbiya Respublikasının üçüncü ölkələrdəki və beynəlxalq təşkilatlardakı diplomatik missiyaları, həmçinin onların beynəlxalq konfranslardakı nümayəndə heyətləri bir-biri ilə əlaqə saxlamağa təşviq edilə və mümkün olduqda, qarşılıqlı maraq doğuran məsələlərdə məsləhətləşmələr apara bilərlər.

Maddə 6

Bu Protokol iki Tərəf arasında qarşılıqlı yazılı razılıq əsasında dəyişdirilə bilər.

Maddə 7

Bu Protokol imzalandığı gündən qüvvəyə minir və 3 (üç) il müddətində qüvvədə olacaqdır. Tərəflərdən biri Sazişin müddətinin bitməsinə ən azı 3 (üç) ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti 3 (üç) illik müddətə uzadılacaqdır.

Bu Saziş Bakı şəhərində 2010-cu il 13 may tarixində, hər biri Azərbaycan, serb və ingilis dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Sazişin təfsirində fikir ayrılığı olduğu təqdirdə, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ ADINDAN	SERBİYA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*VUK YEREMİÇ*
Xarici işlər naziri	*Xarici işlər naziri*

Azərbaycan Respublikası və İordaniya Haşimilər Krallığı arasında 2010-cu il mayın 16-da Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və İordaniya Haşimilər Krallığı arasında 2010-cu il mayın 16-da Bakı şəhərində imzalanmış sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikası hökuməti və İordaniya Haşimilər Krallığı hökuməti arasında beynəlxalq əməkdaşlıq haqqında Anlaşma Memorandumu;

1.2. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və İordaniya Haşimilər Krallığının Ali Gənclər Şurası arasında gənclərlə iş sahəsində əməkdaşlıq haqqında Saziş.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu sərəncamın 1.1-1.2-ci bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1.1-1.2-ci bəndlərində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə İordaniya Haşimilər Krallığı tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 iyul 2010-cu il

№ 1023

Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında beynəlxalq əməkdaşlıq haqqında Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti,

iki ölkə arasında əməkdaşlığın gücləndirilməsinin və dəstəklənməsinin, habelə hər iki ölkə qurumları arasında davam edən əməkdaşlığın daha da intensivləşməsinin vacibliyini qeyd edərək, iki ölkə arasında beynəlxalq əməkdaşlıq sahəsində əlaqələndirmənin mahiyyətini dərk edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər beynəlxalq əməkdaşlıq məsələləri sahəsində məlumat, təcrübə və həmçinin öz müvafiq dövlət orqanları arasında səfərlər mübadiləsini təşviq edəcəklər.

Maddə 2

Tərəflər xarici yardım, həmçinin xarici yardımın idarə olunması və əlaqələndirilməsi sahəsində təcrübə mübadiləsini təşviq edəcəklər.

Maddə 3

Tərəflər məsləhətləşmələr və təcrübə mübadiləsi vasitəsilə Avropa İttifaqı ilə əməkdaşlıq məsələlərinə dair müvafiq dövlət qurumları arasında qarşılıqlı fəaliyyəti təşviq edəcəklər.

Maddə 4

İordaniya Haşimilər Krallığının Beynəlxalq Əməkdaşlıq və Planlaşdırma Nazirliyi azərbaycanlı mütəxəssislər üçün beynəlxalq əməkdaşlıq məsələləri üzrə təlim, tədqiqat turları və ən yaxşı təcrübə mübadiləsi təşkil edəcəkdir.

Maddə 5

Beynəlxalq Əməkdaşlıq və Planlaşdırma Nazirliyi İordaniyada azərbaycanlı mütəxəssisləri məşğələlərlə təmin edəcək, beynəlxalq əməkdaşlıq sahəsində Azərbaycanın təcrübəsi ilə tanış olacaqdır.

Maddə 6

Tərəflər bu Anlaşma Memorandumunun maddələrinin həyata keçirilməsini izləmək və icra proqramını tərtib etmək məqsədilə milli əlaqələndirici qurum təyin edəcək, habelə bu ikitərəfli əməkdaşlığın icrası üçün xüsusi vasitələr təklif edəcəklər.

Maddə 7

Bu Anlaşma Memorandumu çərçivəsində fəaliyyətlərinin həyata keçirilməsi ilə bağlı xərclər sonrakı mərhələlərdə Tərəflərin qarşılıqlı razılığı əsasında müəyyən ediləcəkdir.

Maddə 8

Bu Anlaşma Memorandumu onun qüvvəyə minməsi üçün tələb olunan müvafiq dövlətdaxili prosedurların tamamlanması barədə Tərəflərdən sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir. Bu Anlaşma Memorandumu beş il müddətinə bağlanılır və Tərəflərdən biri bu Memorandumun müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə digər Tərəfə yazılı şəkildə diplomatik kanallar vasitəsilə məlumat verməyəcəyi təqdirdə, Anlaşma Memorandumu avtomatik olaraq növbəti beşillik müddətə uzadılacaqdır.

Bu Anlaşma Memorandumu Bakı şəhərində 2010-cu il 16 may tarixində, hər biri Azərbaycan, ərəb və ingilis dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır. Bütün mətnlər bərabər qüvvəyə malikdir.

Bu Anlaşma Memorandumunun təfsiri ilə bağlı hər hansı bir fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	İORDANİYA HAŞİMİLƏR KRALLIĞI HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*NASİR CUDEH*
Xarici işlər naziri	*Xarici işlər naziri*

Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və İordaniya Haşimilər Krallığının Ali Gənclər Şurası arasında gənclərlə iş sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və İordaniya Haşimilər Krallığının Ali Gənclər Şurası,

iki dövlətin gənclərlə iş strukturları arasında rəsmi əlaqə yaratmaq məqsədilə,

gənclərlə iş sahəsində qarşılıqlı maraq və əməkdaşlığın təşviqi və inkişaf etdirilməsini arzulayaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər ölkələrinin gəncləri arasında əlaqələrin dövlət orqanları və gənclərlə iş üzrə qeyri-hökumət təşkilatları vasitəsilə möhkəmləndirilməsinə və inkişafına hərtərəfli yardım edəcəklər.

Maddə 2

Tərəflər gənclər fəaliyyətləri ilə məşğul olan tədqiqat institutları və mərkəzləri arasında birbaşa əlaqələrin inkişaf etdirilməsinə yardım edəcəklər.

Maddə 3

Tərəflər yay tətili zamanı gənclərin və uşaqların asudə vaxtlarının keçirilməsi və gənclər qruplarının mübadiləsinin təşkil edilməsinə yardım edəcəklər.

Maddə 4

Tərəflər bu Sazişin əhatə etdiyi sahələrdə keçirilən festival, konfrans, simpozium, seminar, müsabiqə, sərgi, görüş və forumlarda və gənclər sahəsinə aid digər tədbirlərdə iştiraka, mütəxəssislər arasında təcrübə mübadiləsi aparılmasına şərait yaradacaqlar.

Maddə 5

Tərəflər, qabaqcadan alınmış məlumata uyğun olaraq, öz ərazilərində digər Tərəfin mütəşəkkil gənclər qruplarına və müxtəlif rəsmi nümayəndələrə yardım edəcəklər.

Maddə 6

Tərəflər öz ölkələrinin milli olimpiya komitələrinin idman sahəsində ikitərəfli sazişlər imzalamasını təşviq edəcəklər.

Maddə 7

Bu Sazişdə əvvəlcədən nəzərdə tutulmuş nümayəndə heyətlərinin mübadiləsi müvafiq illik büdcələrin maliyyə müddəalarına uyğun həyata keçirilir.

Razılaşdırılmış gənclər mübadiləsi çərçivəsində əməkdaşlıq qarşılıq prinsipi əsasında həyata keçiriləcək; qəbul edən Tərəf yaşayış, yerli nəqliyyat, təcili tibbi sığorta ilə əlaqədar xərcləri öz üzərinə götürür, göndərən Tərəf isə qəbul edən Tərəfə gediş-gəliş üçün yol xərclərini öz üzərinə götürür.

Maddə 8

Bu Sazişin müddəalarının həyata keçirilməsini müzakirə etmək və növbəti il üçün birgə tədbirlər planı işləyib hazırlamaq məqsədilə Tərəflərin nümayəndələri hər il növbə ilə Bakı və Əmman şəhərlərində görüşəcəklər.

Maddə 9

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə əlavə və dəyişikliklər edilə bilər. Belə əlavə və dəyişikliklər Sazişin ayrılmaz hissəsi olan və 11-ci maddəsinə uyğun olaraq qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdiriləcəkdir.

Maddə 10

Tərəflər arasında mübahisə və fikir ayrılıqları ikitərəfli danışıqlar və məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

Maddə 11

Saziş onun qüvvəyə minməsi üçün lazımi dövlətdaxili prosedurları Tərəflərin hər birinin yerinə yetirməsi barədə son yazılı bildiriş alınan tarixdən qüvvəyə minir. Bu Saziş beş il müddətinə bağlanılır və Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə diplomatik kanallar vasitəsilə yazlı şəkildə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beş il müddətinə uzadılacaqdır.

Bakı şəhərində 2010-cu il 16 may tarixində, hər biri Azərbaycan, ərəb və ingilis dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır. Bütün mətnlər bərabər autentikdir.

Bu Sazişin təfsiri zamanı fikir ayrılığı olduqda, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİ ADINDAN	İORDANİYA HAŞİMİLƏR KRALLIĞININ ALİ GƏNCLƏR ŞURASI ADINDAN
AZAD RƏHİMOV	*NASİR CUDEH*
Gənclər və idman naziri	*Xarici işlər naziri*

Azərbaycan Respublikası və Misir Ərəb Respublikası arasında 2010-cu il mayın 24-də Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və Misir Ərəb Respublikası arasında 2010-cu il mayın 24-də Bakı şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Misir Ərəb Respublikasının Milli Gənclər Şurası arasında Anlaşma Memorandumu;

1.2. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyası və Misir Ərəb Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Tədqiqatlar İnstitutu arasında əməkdaşlıq haqqında Saziş.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu sərəncamın 1.1-1.2-ci bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1.1-1.2-ci bəndlərində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Misir Ərəb Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 iyul 2010-cu il

№ 1024

Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Misir Ərəb Respublikasının Milli Gənclər Şurası arasında Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Misir Ərəb Respublikasının Milli Gənclər Şurası,

iki ölkə arasında dostluq münasibətlərinin genişləndirilməsini və möhkəmləndirilməsini, həmçinin onların arasında gənclər sahəsində əməkdaşlığın təşviq edilməsini arzulayaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər hər iki ölkədə təşkil edilən beynəlxalq gənclər düşərgələrində iştirak etmək məqsədilə gənclərdən ibarət nümayəndə heyətlərinin mübadiləsini təşviq edəcəklər.

Maddə 2

Tərəflər hər iki ölkədə keçirilən sərgilərdə, festivallarda və beynəlxalq yarışlarda iştirakı təşviq edəcəklər.

Maddə 3

Tərəflər gənclər sahəsində təcrübə mübadiləsi məqsədilə gənclərdən ibarət nümayəndə heyətlərinin qarşılıqlı səfərlərini təşviq edəcəklər.

Maddə 4

Tərəflər iki ölkə arasında istedadlı gənclərin səfərlərinin mübadiləsini təşviq edəcəklər.

Maddə 5

Tərəflər gənclər sahəsində çap olunmuş materialların, tədqiqat işlərinin və araşdırmaların mübadiləsini təşviq edəcəklər.

Maddə 6

Bu Memorandum çərçivəsində keçiriləcək bütün əməkdaşlıq tədbirləri ilə bağlı tələb olunan xərclər Tərəflər arasında illik razılaşmalar əsasında müəyyənləşdirilərək ödəniləcəkdir.

Maddə 7

Bu Anlaşma Memorandumu imzalandığı gündən qüvvəyə minir və beş il müddətində qüvvədə olacaqdır. Tərəflərdən biri bu Anlaşma Memorandumunun müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beş ilə uzadılacaqdır.

Bu Memorandumun ləğv edilməsi bundan öncə başlanmış əməkdaşlıq proqramlarına təsir göstərməyəcəkdir.

Bu Anlaşma Memorandumu Bakı şəhərində 2010-cu il 24 may tarixində, hər biri Azərbaycan, ərəb və ingilis dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Anlaşma Memorandumunun təfsirində fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİ ADINDAN	MİSİR ƏRƏB RESPUBLİKASININ MİLLİ GƏNCLƏR ŞURASI ADINDAN
ELMAR MƏMMƏDYAROV	*ƏHMƏD ƏBUL ĞEYT*
Xarici işlər naziri	*Xarici işlər naziri*

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyası və Misir Ərəb Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Tədqiqatlar İnstitutu arasında əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyası və Misir Ərəb Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Tədqiqatlar İnstitutu,

iki ölkə arasında dostluq və qardaşlıq münasibətlərinin qorunması və dərinləşməsini arzu edərək,

xarici siyasət sahəsində kadr ehtiyatının hazırlanmasında əməkdaşlığın vacibliyini dərk edərək,

dövlətlərimizin xarici siyasətlərinin bir-birinə daha da bağlı olmasının əhəmiyyətini bilərək,

diplomatik kadr ehtiyatının hazırlanmasında və ixtisaslarının artırılmasında əməkdaşlığın qurulması və inkişaf etdirilməsi məqsədilə

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Məqsəd

Bu Sazişin məqsədi Tərəflərin proqramları və fəaliyyəti çərçivəsində müntəzəm əlaqənin, təhsil və elmi tədqiqat sahəsində məlumat mübadiləsi və əməkdaşlıq üçün şərtlərin və hüquqi bazanın yaradılmasıdır.

Maddə 2

Əməkdaşlıq sahələri

Əməkdaşlığın prioritet sahələri bunlardır:

1. Aşağıda göstərilmiş sahələr üzrə mütəxəssislərin hazırlanması və ixtisaslarının artırılması:

beynəlxalq münasibətlər;

beynəlxalq təşkilatlar;

beynəlxalq hüquq;

beynəlxalq iqtisadi münasibətlər;

regional məsələlər;

konsulluq məsələləri;

siyasi elmlər və digər sahələr.

2. Tədrisin metodologiyası və elmi-tədqiqat sahələrində Tərəflərin qarşılıqlı məlumatlandırılması.

3. Kitabxana və digər resursların inkişafı üçün qarşılıqlı yardım göstərilməsi.

Maddə 3

Əməkdaşlıq yolları

Tərəflər aşağıdakı yollarla əməkdaşlıq edəcəklər:

1. diplomatların, müəllimlərin, tədqiqatçıların və tələbələrin mübadiləsi;
2. birgə elmi tədqiqatlar və nəşrlər;
3. elmi işlərin və dissertasiyaların hazırlanmasında əməkdaşlıq;
4. diplomatik kadrların dil hazırlığı sahəsində əməkdaşlıq;
5. tədris prosesinin təşkili və onun metodikası məsələlərində təcrübə mübadiləsi;
6. tədris materialları, ədəbiyyatlar və nəşrlərin qarşılıqlı mübadiləsi.

Bir Tərəfin nümayəndələri digər Tərəfin təşkil etdiyi konfranslarda, elmi seminarlarda, simpoziumlarda və dəyirmi masalarda iştirak edə bilərlər. Tərəflər belə tədbirlərin təşkili haqqında müəyyən olunmuş qaydada əvvəlcədən bir-birinə məlumat verəcəklər.

Tərəflər qarşılıqlı maraq kəsb edən elmi araşdırmaların inkişafını və konkret layihələrin həyata keçirilməsini dəstəkləyəcəklər.

Tərəflər qarşılıqlı maraq kəsb edən mövzular üzrə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyası və Misir Ərəb Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Tədqiqatlar İnstitutunda mühazirələrin və çıxışların təşkilini dəstəkləyəcəklər.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyası Yaxın Şərq regionu haqqında illik kursların keçirilməsi üçün Misir Ərəb Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Tədqiqatlar İnstitutunun müəllim-təlimatçılarını dəvət edəcəkdir.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyası Misir Ərəb Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Tədqiqatlar İnstitutunun tələbə və müəllim-təlimatçılarını özünün illik yay məktəblərinə dəvət edəcəkdir.

Misir Ərəb Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Tədqiqatlar İnstitutu Xəzər regionu/Qafqaz və Mərkəzi Asiya sahələri üzrə kursların keçirilməsi üçün Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyasının müəllim-təlimatçılarını dəvət edəcəkdir.

Maddə 4

Maliyyələşdirmə

Əməkdaşlığın forması, müddəti və maliyyə şərtləri Tərəflər arasında ayrı sazişin predmeti olacaqdır. Tərəflər əməkdaşlıq fəaliyyətlərini onların müvafiq büdcələrindəki vəsaitləri çərçivəsində, imkanlarına uyğun olaraq maliyyələşdirəcəklər.

Maddə 5

Mübahisələrin həlli

Bu Sazişin icrası ilə yarana biləcək hər hansı məsələ Tərəflər arasında danışıqlar yolu ilə qarşılıqlı razılaşma əsasında həll ediləcəkdir.

Maddə 6

Müddət

Bu Saziş imzalandığı tarixdən qüvvəyə minir və beş (5) il müddətində qüvvədə olacaqdır. Tərəflərdən biri bu Sazişin müddətinin sona çatmasına altı (6) ay qalmış qarşı Tərəfə yazılı şəkildə diplomatik kanallar vasitəsilə Sazişi dayandırmaq qərarını bildirmədiyi təqdirdə, Saziş avtomatik olaraq növbəti 1 il müddətinə uzadılacaqdır.

Bu Sazişə Tərəflərin qarşılıqlı razılığı ilə yazılı məlumat mübadiləsi əsasında diplomatik kanallar vasitəsilə dəyişiklik edilə və ya o ləğv edilə bilər.

Sazişin müddətinin başa çatmasından əvvəl ləğv edilməsi onun qüvvədə olduğu müddətdə tərtib edilən və başlanan əməkdaşlıq fəaliyyətlərinə təsir etməyəcəkdir.

Bu Saziş Bakı şəhərində 2010-cu il 24 may tarixində ingilis dilində iki əsl nüsxədə imzalanmışdır və hər iki mətn bərabər autentikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİNİN DİPLOMATİK AKADEMİYASI ADINDAN	MİSİR ƏRƏB RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİNİN DİPLOMATİK TƏDQİQAT İNSTİTUTU ADINDAN
HAFİZ PAŞAYEV	*SABİR ƏBDÜLQADİR MANSUR*
Rektor	*Misirin Azərbaycandakı səfiri*

Azərbaycan Respublikası və Belarus Respublikası arasında 2010-cu il iyunun 3-də Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və Belarus Respublikası arasında 2010-cu il iyunun 3-də Bakı şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında informatizasiya və informasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş;

1.2. Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında elm və texnologiyalar sahəsində əməkdaşlıq haqqında Saziş;

1.3. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Belarus Respublikası Təbii Sərvətlər və Ətraf Mühitin Mühafizəsi Nazirliyi arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair Saziş;

1.4. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Belarus Respublikasının Milli Statistika Komitəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Saziş;

1.5. Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Belarus Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi arasında qarşılıqlı əməkdaşlıq haqqında Saziş.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu sərəncamın 1.1-1.5-ci bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1.1-1.5-ci bəndlərində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Belarus Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 iyul 2010-cu il

№ 1025

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında informatizasiya və informasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti,

dövlətlər arasında iqtisadi, elmi, texniki və mədəni münasibətlərin möhkəmləndirilməsi və inkişafı üzrə səylərini rəhbər tutaraq,

informasiya texnologiyalarının təkmilləşdirilməsinin və informasiya cəmiyyətinin qurulması üzrə ümumdünya prosesinə daxilolmanın vacibliyini dərk edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər öz səlahiyyətləri çərçivəsində və dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq, ən yeni informasiya texnologiyalarının tətbiq edilməsi əsasında müasir informasiya cəmiyyətinin inkişaf etdirilməsi məqsədilə, informatizasiya sahəsində qarşılıqlı faydalı iqtisadi və elmi-texniki əlaqələrin inkişafına, gücləndirilməsinə və iki ölkənin maraqlı təşkilatları, müəssisələri və istənilən mülkiyyət formalı şirkətləri arasında birbaşa əlaqələrin qurulmasına yardım edəcəklər.

Maddə 2

Əməkdaşlıq aşağıdakı istiqamətlər üzrə həyata keçiriləcəkdir:

dövlət elektron informasiya resurslarının yaradılması;

əhalinin uçota alınma registrləri, demoqrafiya, sosial müdafiə və məşğulluq məsələləri də daxil olmaqla sosial sahənin informatizasiyası;

birlik və digər kommersiya və qeyri-kommersiya təşkilatlarının yaradılmasına yardım göstərilməsi, texniki proqram vasitələrinin standartlaşdırılması;

informasiya cəmiyyətinin qurulması sahəsində birgə layihələrin işlənib hazırlanması;

elektron-rəqəmsal imza mexanizmlərindən istifadə olunması da daxil olmaqla, informasiyanın dövlətlərarası elektron mübadiləsinə dəstək verilməsi;

Tərəflərin qarşılıqlı razılığı əsasında digər əməkdaşlıq istiqamətləri.

Maddə 3

Tərəflər aşağıdakıların köməyi ilə əməkdaşlığın inkişafına dəstək olacaqlar:

informasiya sistemlərinin inkişafı və təkmilləşdirilməsi, normativ hüquqi aktlar və texniki sənədlər daxil olmaqla, bu sahədə dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsi məsələləri üzrə informasiya mübadiləsi;

birgə layihələrin maliyyələşdirilməsi üçün investisiyaların cəlb olunması;

təsərrüfat subyektləri arasında bağlanmış kontraktlar əsasında birgə müzakirələrin aparılması, informasiya texnologiyalarının, avtomatlaşdırılmış informasiya sistemləri və şəbəkələri layihələrinin işlənib hazırlanması və tətbiq edilməsi;

konfransların, sərgilərin, seminarların, dəyirmi masaların və digər işçi görüşlərinin təşkil olunması, mütəxəssislərin mübadiləsi;

tezlik spektorunun idarə olunması, tezlik spektorunun idarə olunması ilə bağlı təcrübə mübadiləsi, müasir tələblər səviyyəsində bu sahənin inkişaf etdirilməsi ilə bağlı yaranmış məsələlərin həllində əməkdaşlıq məqsədilə iki ölkənin mütəxəssislərindən ibarət işçi qrupunun yaradılması və ikitərəfli görüşlərin keçirilməsi;

qarşılıqlı faydalı əməkdaşlığın digər formaları.

Maddə 4

Tərəflər informatizasiya sahəsində əməkdaşlığın əlaqələndirilməsi və bu Sazişin praktiki həyata keçirilməsi məqsədilə səlahiyyətli orqanları müəyyən etdilər:

Azərbaycan tərəfindən - Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi;

Belarus tərəfindən - Belarus Respublikasının Rabitə və İnformatizasiya Nazirliyi.

Maddə 5

Bu Saziş çərçivəsində əməkdaşlıq zamanı əldə olunan əqli mülkiyyət obyektlərinin mühafizəsi və hüquqlarının bölüşdürülməsi hər bir Tərəfin dövlətinin milli qanunvericiliyinə və beynəlxalq müqavilələrinə uyğun olaraq həyata keçiriləcəkdir.

Maddə 6

Tərəflər, milli qanunvericiliklərinə uyğun olaraq, əməkdaşlıq çərçivəsində mübadilə etdikləri informasiyanın müxtəlifliyinin qorunması üçün bütün zəruri tədbirləri görəcəklər və belə informasiyanı təqdim etmiş Tərəfin yazılı icazəsi olmadan bu informasiyanı üçüncü tərəfə aşkarlamayacaqlar və ya yaymayacaqlar.

Maddə 7

Tərəflərin səlahiyyətli orqanları, zərurət olduğu halda, bu Sazişin müddəalarının yerinə yetirilməsi məsələləri üzrə ikitərəfli məsləhətləşmələr aparacaqlar.

Bu Sazişin təfsiri və ya tətbiqi ilə bağlı yaranan fikir ayrılıqları danışıqlar yolu ilə həll olunur.

Maddə 8

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və bu Sazişin 9-cu maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 9

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallarla alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş 5 (beş) il müddətinə bağlanılır və Tərəflərdən biri müvafiq müddətin bitməsinə ən azı 6 (altı) ay qalmış Sazişin qüvvəsini ləğv etmək niyyətində olduğu haqqında digər Tərəfi yazılı surətdə məlumatlandırmadığı təqdirdə, avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılacaqdır.

Bu Saziş Bakı şəhərində 2010-cu il 3 iyun tarixində, hər biri Azərbaycan və rus dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabərautentikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	BELARUS RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ƏLİ ABBASOV	*NİKOLAY PANTELEY*
Rabitə və informasiya texnologiyaları naziri	*Rabitə və informasiyalaşdırma naziri*

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında elm və texnologiyalar sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti,

elmi-texniki əməkdaşlığın ikitərəfli münasibətlərin bütün kompleksinin əsas tərkib elementlərindən biri olduğuna əmin olaraq, elmi tədqiqatların və araşdırmaların beynəlmiləlləşməsi şəraitində qarşılıqlı fəaliyyətin zəruriliyini etiraf edərək,

iki dövlətin sosial-iqtisadi inkişafına töhfə vermək məqsədilə iki dövlət arasında elm və texnika sahəsində əməkdaşlığın inkişaf etdirilməsini və dərinləşdirilməsini arzu edərək,

Azərbaycan Respublikası və Belarus Respublikası arasında mövcud elmi-texniki əlaqələri nəzərə alaraq,

belə qarşılıqlı fəaliyyətin iki ölkə və xalq arasında əməkdaşlığın möhkəmlənməsinə şərait yaradacağını, həmçinin qarşılıqlı faydalı ticarət-iqtisadi əlaqələrin inkişafı üçün zəmin yaradacağını diqqətə alaraq,

bu əməkdaşlığın inkişafı üçün uzunmüddətli əsas yaradılmasının zəruri hesab edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər təşkilati, hüquqi və iqtisadi şərait yaratmaqla elmi-texniki əməkdaşlığı hüquq bərabərliyi və qarşılıqlı faydalılıq prinsipləri əsasında dəstəkləyəcəklər.

Maddə 2

Bu Saziş çərçivəsində əməkdaşlıq Tərəflərin beynəlxalq öhdəliklərə riayət etməsi ilə və hər iki dövlətin qanunvericiliyinə uyğun olaraq həyata keçiriləcəkdir.

Maddə 3

Bu Saziş çərçivəsində elmi-texniki əməkdaşlığın istiqamətləri hər iki dövlətin elm və texnikasının inkişaf etdirilməsi maraqlarından çıxış edərək müəyyənləşdiriləcəkdir.

Maddə 4

Bu Sazişə uyğun olaraq Tərəflər arasında əməkdaşlıq aşağıdakı formalarda həyata keçiriləcəkdir:

birgə elmi tədqiqat işlərinin aparılması üçün alim və tədqiqatçıların mübadiləsi;

Tərəflərdən birinin dəvəti ilə elmi konfrans, simpozium, stajkeçmə və seminarlarda iştirak;

birgə elmi-texniki sərgilərin təşkili və keçirilməsi;

Tərəflərin qarşılıqlı razılığı əsasında digər formalarda.

Maddə 5

Bu Saziş çərçivəsində əməkdaşlıq zamanı əldə edilən intellektual mülkiyyət obyektlərinə olan hüquqların müdafiəsi və bölünməsi Tərəflərin hər birinin dövlətinin milli qanunvericiliyi və beynəlxalq müqavilələrinə uyğun olaraq həyata keçiriləcəkdir.

Bu Saziş çərçivəsində əməkdaşlıq zamanı əldə edilən intellektual mülkiyyətə aid olmayan, Tərəflərdən hər birinin dövlətinin qanunvericiliyinə müvafiq olaraq nəşr edilə bilən elmi və elmi-texniki məlumat ümumi qəbul edilən vasitələrlə yayıla bilər.

Maddə 6

Bu Sazişin yerinə yetirilməsi üzrə Tərəflərin səlahiyyətli orqanları aşağıdakılardır:

Azərbaycan Respublikası Hökuməti tərəfindən - Azərbaycan Milli Elmlər Akademiyası;

Belarus Respublikası Hökuməti tərəfindən - Belarus Dövlət Elm və Texnologiya Komitəsi.

Maddə 7

Birgə tədqiqatların və araşdırmaların əlaqələndirilməsi, həmçinin bu Sazişin effektiv həyata keçirilməsinin təmin edilməsi məqsədilə Tərəflər Azərbaycan Milli Elmlər Akademiyasının və Belarus Respublikası Dövlət Elm və Texnologiya Komitəsinin rəhbərlərinin başçılıq etdiyi elmi-texniki əməkdaşlıq üzrə işçi qrupu yaradacaqlar. İşçi qrupu çərçivəsində hər iki ölkənin dövlət elmi-texniki siyasəti məsələləri, bu sahədə iqtisadi və hüquqi tənzimləmə üzrə məsləhətləşmələr aparılacaq, həmçinin elmi-texniki

əməkdaşlığın prioritet istiqamətlərinin razılaşdırılması həyata keçiriləcəkdir.

İşçi qrupu elmi-texniki əməkdaşlığın səmərəli və operativ tələblərə cavab verən müxtəlif təşkilati formalarından istifadə edə bilər.

İşçi qrupu iclaslarını ildə bir dəfədən az olmamaqla növbə ilə Azərbaycanda və Belarusda keçirəcəkdir.

Maddə 8

Bu Sazişin müddəalarının təfsiri və ya tətbiqi ilə əlaqədar fikir ayrılıqları meydana çıxarsa, Tərəflər onları danışıqlar və məsləhətləşmələr yolu ilə həll edəcəklər.

Maddə 9

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və bu Sazişin 10-cu maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 10

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır. Tərəflərdən hər biri diplomatik kanallar vasitəsilə yazılı bildiriş təqdim etməklə istənilən zaman bu Sazişi ləğv edə bilər. Saziş belə bildirişin alındığı tarixdən 3 (üç) ay sonra qüvvədən düşmüş hesab edilir.

Tərəflər başqa cür razılaşmadıqları təqdirdə, Sazişin ləğv edilməsi onun qüvvədə olduğu müddətdə başlanan birgə proqram, layihə və digər tədbirlərin həyata keçirilməsinə təsir etməyəcəkdir.

Bu Saziş Bakı şəhərində 2010-cu il 3 iyun tarixində, hər biri Azərbaycan və rus dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni hüquqi qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	BELARUS RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
MAHMUD KƏRİMOV	*İQOR VOYTOV*
Milli Elmlər Akademiyasının prezidenti	*Dövlət Elm və Texnologiya Komitəsinin sədri*

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Belarus Respublikası Təbii Sərvətlər və Ətraf Mühitin Mühafizəsi Nazirliyi arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Belarus Respublikası Təbii Sərvətlər və Ətraf Mühitin Mühafizəsi Nazirliyi,

ekoloji problemlərin qlobal xarakterini nəzərə alaraq və ətraf mühitin sağlamlaşdırılmasında və qorunmasında məsuliyyətlərini dərk edərək,

ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığın genişləndirilməsinə səy göstərərək,

indiki və gələcək nəsillər üçün ətraf mühitin vəziyyətinin yaxşılaşdırılmasının və mühafizəsinin əhəmiyyətini dərk edərək,

beynəlxalq təbiəti mühafizə əməkdaşlığı sahəsində toplanmış təcrübəni nəzərə alaraq,

hər iki dövlətin iştirakçısı olduğu ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq müqavilələrin müddəalarına əsaslanaraq,

1992-ci ildə Rio-de-Janeyroda BMT-nin "Ətraf mühit və inkişaf" konfransında elan edilmiş və 2002-ci il 4 sentyabr tarixində Davamlı inkişafa dair Yohannesburq bəyannaməsi ilə təsdiq edilmiş davamlı inkişaf prinsiplərinin həyata keçirilməsinin təbiətdən istifadəyə məsuliyyətlə yanaşmanı tələb etdiyini qəbul edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər ətraf mühitin mühafizəsi sahəsində bərabərlik və qarşılıqlı fayda əsasında, davamlı inkişaf prinsipi və məqsədlərini rəhbər tutaraq, Tərəflərin dövlətlərinin milli qanunvericiliklərinə və beynəlxalq müqavilələrinə uyğun olaraq əməkdaşlıq edəcəklər.

Maddə 2

Əməkdaşlıq aşağıdakı istiqamətlərdə həyata keçiriləcəkdir:

təbiətdən istifadədə iqtisadi metodların tətbiq edilməsi;

ekoloji ekspertizanın aparılması;

ətraf mühitin mühafizəsi sahəsində normalaşdırma, standartlaşdırma, metrologiya və sertifikatlaşdırma;

ekoloji monitorinqin aparılması;

atmosfer havasının mühafizəsi;

səth və yeraltı suların mühafizəsi;

torpaqların mühafizəsi;

heyvan və bitki aləminin mühafizəsi;

xüsusi mühafizə olunan təbiət ərazilərinin mühafizəsi və inkişafı;

təbiəti mühafizə üsullarının tətbiqi ilə faydalı qazıntı yataqlarının kəşfi;

ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən rasional istifadə sahəsində elmi tədqiqat işlərinin aparılması;

ekoloji audit;

Tərəflərin məqsədəuyğun hesab etdikləri digər əməkdaşlıq istiqamətləri.

Maddə 3

Əməkdaşlıq aşağıdakı formalarda həyata keçirilə bilər:

birgə əməkdaşlıq proqramlarının, bu Sazişin 2-ci maddəsində göstərilmiş istiqamətlər üzrə layihələrin işlənib hazırlanması və həyata keçirilməsi;

müşavirə, konfrans və seminarların keçirilməsi;

birgə materialların, məqalələrin, monoqrafiyaların nəşri, ətraf mühitin vəziyyəti haqqında hökumət məruzələrinin, digər lazımı məlumatların mübadiləsi;

normativ hüquqi aktların, normativ texniki və metodik sənədlərin, elmi-texniki ədəbiyyatın, ətraf mühitin mühafizəsi və təbiətdən istifadə sahəsində digər məlumatların mübadiləsi;

Azərbaycan Respublikasında və Belarus Respublikasında keçirilən beynəlxalq tədbirlərdə Azərbaycan və Belarus mütəxəssislərinin iştirakı;

elmi-praktiki təbiəti mühafizə tədqiqatlarının və birgə ekspedisiyaların aparılması;

birgə işçi qruplarının yaradılması.

Əməkdaşlıq Tərəflərin razılaşdığı digər formalarda da həyata keçirilə bilər.

Maddə 4

Bu Sazişin qüvvəyə minməsindən sonra Tərəflərdən hər biri iki ay ərzində bu Saziş çərçivəsində əməkdaşlıq üzrə fəaliyyətin idarə olunması üçün məsul olan Milli Əlaqələndirici təyin edəcəkdir. Tərəflər milli əlaqələndiricilərin adları barədə bir-birinə məlumat verəcəklər.

Tərəflər bir-birinə yazılı bildiriş göndərməklə milli əlaqələndiriciləri əvəz edən şəxsləri müəyyən edə bilərlər.

Milli əlaqələndiricilər bu Sazişdə müəyyən edilmiş fəaliyyəti müzakirə etmək və ya ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair məsələlərə baxmaq məqsədilə qarşılıqlı razılaşma əsasında görüşlər keçirə bilərlər. Görüşün keçirilmə vaxtı və yeri qarşılıqlı razılaşma ilə müəyyən edilir.

Maddə 5

Əməkdaşlığın və birgə layihələrin həyata keçirilməsinin maliyyə şərtlərini hər bir ayrıca halda Tərəflər, öz dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq, Tərəflərin büdcə imkanları çərçivəsində nəzərdən keçirəcəklər.

Razılaşdırıldığı hallar istisna olmaqla, Tərəflərdən hər biri bu Sazişin həyata keçirilməsi ilə bağlı öz xərclərini öz üzərinə götürür.

Maddə 6

Tərəflər öz dövlətlərinin qanunvericiliyinə uyğun olaraq fəaliyyətləri ətraf mühitin mühafizəsi ilə bağlı olan təşkilatlar arasında bilavasitə əlaqələrin inkişafına imkan yaradacaqlar.

Bu maddənin birinci abzasında göstərilmiş subyektlər bu Saziş əsasında əməkdaşlıq şərtlərini, o cümlədən öhdəliklərin yerinə yetirilməməsinə görə maddi məsuliyyət şərtlərini müəyyən edən müqavilələr bağlaya bilərlər.

Tərəflər bu Saziş əsasında bağlanılmış müqavilələr çərçivəsində yuxarıda göstərilən subyektlərin öhdəlikləri üzrə məsuliyyət daşımırlar.

Maddə 7

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə onun ayrılmaz hissəsi olan və bu Sazişin 10-cu maddəsinə uyğun olaraq qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən dəyişikliklər və əlavələr edilə bilər.

Maddə 8

Bu Sazişin tətbiqi və təfsiri ilə bağlı fikir ayrılıqları bilavasitə Tərəflər arasında birbaşa danışıqlar və ya diplomatik kanallar vasitəsilə həll edilir.

Maddə 9

Bu Saziş Tərəflərin hər ikisinin dövlətinin iştirakçısı olduğu digər qüvvədə olan beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərə toxunmur.

Maddə 10

Bu Saziş beş il müddətinə bağlanılır və onun qüvvəyə minməsi üçün lazım olan zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Tərəflərdən biri bu müddətin başa çatmasına ən azı altı ay qalmış Sazişin qüvvəsini ləğv etmək niyyəti barədə digər Tərəfə diplomatik kanallar vasitəsilə bildirməzsə, bu Sazişin qüvvəsi növbəti beşillik müddətlərə uzadılır.

Tərəflər başqa cür razılaşmayıblarsa, bu Sazişin ləğv edilməsi bu Sazişin şərtlərinə əsasən, onun qüvvədə olduğu zaman başlanmış layihə və proqramların tamamlanmasına təsir göstərməyəcəkdir.

Bakı şəhərində 2010-cu il 3 iyun tarixində, Azərbaycan və rus dillərində, iki əsl nüsxədə imzalanmışdır və bütün mətnlər bərabər autentikdir.

AZƏRBAYCAN RESPUBLİKASI EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİ ADINDAN

HÜSEYNQULU BAĞIROV
Ekologiya və təbii sərvətlər naziri

BELARUS RESPUBLİKASI TƏBİİ SƏRVƏTLƏR VƏ ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ NAZİRLİYİ ADINDAN

SERGEY MARTINOV
Xarici işlər naziri

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Belarus Respublikasının Milli Statistika Komitəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Saziş

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Belarus Respublikasının Milli Statistika Komitəsi (bundan sonra - Tərəflər) gələcəkdə statistika sahəsində əməkdaşlığın inkişaf etdirilməsində, məlumat mübadiləsinin genişləndirilməsində və iki ölkənin statistika orqanlarının işində qarşılıqlı əlaqələrin möhkəmləndirilməsində qarşılıqlı maraqlı olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər əməkdaşlığı aşağıdakı formalarda həyata keçirirlər:

statistik araşdırmaların metodoloji və xüsusi məsələləri üzrə statistik nəşrlərin mübadiləsi;

ölkədə sosial-iqtisadi vəziyyət və onun inkişafı haqqında statistik nəşrlərin və çap məhsullarının (illik məcmuələrin, külliyyatların və s.) mübadiləsi;

statistik məlumatlar bazasının strukturu və idarə edilməsi də daxil olmaqla, informasiya texnologiyalarının istifadəsi və yeni informasiya texnologiyalarının tətbiq edilməsi üzrə təcrübə mübadiləsi;

statistika sahəsində yeni metodlar və müasir informasiya cəmiyyətinin tələblərinə statistik metodların uyğunlaşdırılması haqqında məlumat mübadiləsi;

beynəlxalq proqramlarda və layihələrdə iştirak məsələlərində qarşılıqlı fəaliyyət;

statistik tədqiqatların, siyahıyaalmaların və araşdırmaların aparılması, statistik göstəricilər sistemi sahəsində işləmələr və təcrübə mübadiləsi.

Maddə 2

Tərəflər zəruri hallarda təcrübə mübadiləsi aparacaq və bu Sazişin yerinə yetirildiyi müddətdə ortaya çıxan sualları müzakirə edəcəklər.

Maddə 3

Tərəflər, bu Saziş çərçivəsində fəaliyyətin əlaqələndirilməsinin daha da dərinləşdirilməsi məqsədilə, zərurət olduqda, öz nümayəndələrindən ibarət işçi qrupu yarada bilərlər.

Maddə 4

Bu Saziş çərçivəsində bir Tərəfin əldə etdiyi informasiya, informasiyanı təqdim etmiş Tərəfin yazılı razılığı olmadan üçüncü tərəflərə verilə bilməz.

Maddə 5

Bu Sazişə Tərəflərin qarşılıqlı razılığı ilə onun ayrılmaz tərkib hissəsi olan, 7-ci maddədə müəyyən olunan qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən dəyişikliklər və əlavələr edilə bilər.

Maddə 6

Bu Sazişin müddəalarının təfsiri və ya tətbiqi zamanı yarana biləcək fikir ayrılıqları Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

Maddə 7

Bu Saziş, onun qüvvəyə minməsi üçün Tərəflərin zəruri dövlətdaxili prosedurlarının yerinə yetirilməsi barədə diplomatik kanallarla sonuncu yazılı bildiriş alındığı gündən qüvvəyə minir və üç il ərzində qüvvədə qalır. Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə digər Tərəfə diplomatik kanallar vasitəsilə yazılı şəkildə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq

növbəti üçillik müddətlərə uzadılacaqdır.

Bu Saziş Bakı şəhərində 2010-cu il 3 iyun tarixində, hər biri Azərbaycan və rus dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ ADINDAN	BELARUS RESPUBLİKASININ MİLLİ STATİSTİKA KOMİTƏSİ ADINDAN
ARİF VƏLİYEV	*SERGEY MARTINOV*
Komitəsinin sədri	*Xarici işlər naziri*

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Belarus Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi arasında qarşılıqlı əməkdaşlıq haqqında Saziş

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Belarus Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi (bundan sonra "Tərəflər" adlandırılacaq)

ailə, qadın və uşaq məsələlərinə dair dövlət siyasətinin təkmilləşdirilməsi üçün Tərəflər arasında əməkdaşlığın təcrübə mübadiləsinə yönəldiləcəyini qəbul edərək,

Azərbaycan Respublikası və Belarus Respublikası arasında münasibətlərin inkişafına yardım etmək niyyətində olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər əməkdaşlığı aşağıdakı istiqamətlərdə inkişaf etdirəcəklər:

dövlət ailə siyasətinin həyata keçirilməsi;

gender bərabərliyinin təmin olunması;

qadınların məşğulluq sahəsində dövlət siyasətinin həyata keçirilməsi;

əlil qadınlara və psixofiziki inkişafdan qalmış uşaqlara sosial dəstək göstərilməsi;

göstərilən istiqamətlər üzrə kadrların hazırlanması, yenidən hazırlanması və ixtisas dərəcəsinin artırılması.

Maddə 2

Tərəflər mövcud qanunvericilik, dövlətlərinin müasir elmi nailiyyətləri, təhlil materialları və müvafiq sahələrdə ümumi təcrübə barədə məlumatı bir-birinə təqdim edirlər.

Maddə 3

Tərəflər əməkdaşlıq istiqamətləri üzrə yeni biliklərin əldə olunması məqsədilə, ekspert qruplarının mübadiləsini aparacaqlar.

Maddə 4

Tərəflər Azərbaycan Respublikası və Belarus Respublikası ərazisində keçirilən ailə, qa-

dın və uşaqların sosial müdafiəsi məsələləri üzrə milli və beynəlxalq konfranslarda, seminar və sərgilərdə iştirak etmək üçün maraqlı olan nümayəndələri dəvət edəcəklər.

Maddə 5

Bu Sazişin həyata keçirilməsi ilə bağlı xərclərin maliyyələşdirilməsini Tərəflər milli qanunvericiliklərinə uyğun olaraq sərbəst şəkildə həyata keçirəcəklər.

Maddə 6

Bu Sazişin təfsiri və tətbiqi ilə bağlı hər hansı fikir ayrılığı Tərəflər arasında qarşılıqlı məsləhətləşmələr və danışıqlar yolu ilə həll ediləcəkdir.

Maddə 7

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişin 9-cu maddəsi ilə müəyyən olunan qaydada qüvvəyə minən ayrıca protokollarla tərtib edilmiş, onun ayrılmaz hissəsi hesab edilən dəyişikliklər və əlavələr edilə bilər.

Maddə 8

Bu Sazişdən irəli gələn məlumat mübadiləsi rus dilində aparılır.

Maddə 9

Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallarla alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş 5 il müddətinə bağlanılır və Tərəflərdən biri müvafiq müddətin bitməsinə ən azı 6 (altı) ay qalmış Sazişin qüvvəsini ləğv etmək niyyətində olduğu haqqında digər Tərəfi yazılı şəkildə məlumatlandırmadığı təqdirdə, avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılacaqdır.

Bu Saziş Bakı şəhərində 2010-cu il 3 iyun tarixində, hər biri Azərbaycan və rus dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ ADINDAN	BELARUS RESPUBLİKASININ ƏMƏK VƏ SOSİAL MÜDAFİƏ NAZİRLİYİ ADINDAN
HİCRAN HÜSEYNOVA	*SERGEY MARTINOV*
Komitəsinin sədri	*Xarici işlər naziri*

T.M.Əliyevin Azərbaycan Respublikasının Ukraynada Fövqəladə və Səlahiyyətli Səfiri və Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilat - GUAM yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Tələt Müseyib oğlu Əliyev Azərbaycan Respublikasının Ukraynada fövqəladə və səlahiyyətli səfiri və Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilat - GUAM yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılsın.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 iyul 2010-cu il

№ 1026

E.Y.Mədətlinin Azərbaycan Respublikasının Pakistan İslam Respublikasında və Əfqanıstan İslam Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri vəzifələrindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Eynulla Yadulla oğlu Mədətli Azərbaycan Respublikasının Pakistan İslam Respublikasında və Əfqanıstan İslam Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifələrindən geri çağırılsın.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 iyul 2010-cu il

№ 1027

E.Y.Mədətlinin Azərbaycan Respublikasının Ukraynada Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Eynulla Yadulla oğlu Mədətli Azərbaycan Respublikasının Ukraynada fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 iyul 2010-cu il

№ 1028

"Azərbaycan Respublikası Hökuməti və Mavritaniya İslam Respublikası Hökuməti arasında energetika sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Mavritaniya İslam Respublikası Hökuməti arasında energetika sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası

Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının sənaye və energetika naziri Natiq Ağaəmi oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının sənaye və energetika naziri Natiq Ağaəmi oğlu Əliyevə verilməsi barədə Mavritaniya İslam Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 iyul 2010-cu il

№ 1029

"Azərbaycan Respublikası Hökuməti və Mavritaniya İslam Respublikası Hökuməti arasında ticarət və iqtisadi əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Mavritaniya İslam Respublikası Hökuməti arasında ticarət və iqtisadi əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının sənaye və energetika naziri Natiq Ağaəmi oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının sənaye və energetika naziri Natiq Ağaəmi oğlu Əliyevə verilməsi barədə Mavritaniya İslam Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 iyul 2010-cu il

№ 1030

"Azərbaycan Respublikası Hökuməti və Mavritaniya İslam Respublikası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Mavritaniya İslam Respublikası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İsmət Dursun oğlu Abasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq

səlahiyyətinin Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İsmət Dursun oğlu Abasova verilməsi barədə Mavritaniya İslam Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 iyul 2010-cu il

№ 1031

"Azərbaycan Respublikası Hökuməti və Mavritaniya İslam Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Mavritaniya İslam Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İsmət Dursun oğlu Abasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri ismət Dursun oğlu Abasova verilməsi barədə Mavritaniya İslam Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 iyul 2010-cu il

№ 1032

"Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Mavritaniya İslam Respublikasının Kəndlərin İnkişafı Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Mavritaniya İslam Respublikasının Kəndlərin İnkişafı Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İsmət Dursun oğlu Abasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İsmət Dursun oğlu Abasova verilməsi barədə Mavritaniya İslam Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 iyul 2010-cu il

№ 1033

Azərbaycan Respublikası ilə Beynəlxalq Atom Enerjisi Agentliyi arasında əməkdaşlıq üzrə Dövlət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası ilə Beynəlxalq Atom Enerjisi Agentliyi arasında əməkdaşlıq üzrə Dövlət Komissiyasının aşağıdakı yeni tərkibi təsdiq edilsin:

Komissiyanın sədri

Yaqub Eyyubov - Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

Komissiyanın üzvləri:

Natiq Əliyev - Azərbaycan Respublikasının sənaye və energetika naziri

Hüseynqulu Bağırov - Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri

Mahmud Kərimov - Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti

Aydın Əliyev - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri

Ramiz Həsənov - Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri

Elçin Quliyev - Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi

Araz Əzimov - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Faiq Tağızadə - Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini

Əli Şəfiyev - Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin müavini

Abbas Vəlibəyov - Azərbaycan Respublikası səhiyyə nazirinin müavini

Fuad İsmayılov - Azərbaycan Respublikasının Avstriya Respublikasında fövqəladə və səlahiyyətli səfiri, Vyana şəhərində beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi

Siyavuş Azakov - Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Agentliyinin rəisi

Ağadayı Ağayev - Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının xarici iqtisadi əlaqələr şöbəsinin müdiri (Komissiyanın katibi)

2. "Azərbaycan Respublikası ilə Beynəlxalq Atom Enerjisi Agentliyi arasında əməkdaşlıq üzrə Dövlət Komissiyası haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 5 sentyabr tarixli 1035 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 9, maddə 565) 1-ci bəndi qüvvədən düşmüş hesab edilsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Dövlət Komissiyasının yeni tərkibi barədə Beynəlxalq Atom Enerjisi Agentliyinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 iyul 2010-cu il

№ 1035

"Müstəqil Dövlətlər Birliyində malların mənşə ölkəsinin təyin edilməsi qaydaları haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2009-cu il noyabrın 20-də Yalta şəhərində imzalanmış "Müstəqil Dövlətlər Birliyində malların mənşə ölkəsinin təyin edilməsi qaydaları haqqında" Saziş təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsi ilə əlaqədar lazımi tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 iyul 2010-cu il

№ 1046

Müstəqil Dövlətlər Birliyində malların mənşə ölkəsinin təyin edilməsi qaydaları haqqında Saziş

20 noyabr 2009-cu il

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin bundan sonra "Tərəflər" adlandırılacaq Hökumətləri,

Azad ticarət zonasının yaradılması haqqında 15 aprel 1994-cü il tarixli Sazişi və Müstəqil Dövlətlər Birliyinin xarici iqtisadi fəaliyyətinin vahid əmtəə nomenklaturu barədə 3 noyabr 1995-ci il tarixli Sazişi rəhbər tutaraq,

azad ticarət zonasının lazımi və səmərəli surətdə fəaliyyət göstərməsi zərurətini nəzərə alaraq,

malların azad hərəkəti üçün şəraitin yaradılması məqsədilə,

malların mənşə ölkəsinin təyin edilməsinin vahid qaydasının müəyyən edilməsinə çalışaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tarif və qeyri-tarif tənzimlənməsi tədbirlərini tətbiq etmək məqsədilə Tərəflər bu Sazişin ayrılmaz tərkib hissəsi olan, Malların mənşə ölkəsinin təyin edilməsi Qaydalarını qəbul edirlər.

Maddə 2

Tərəflərin qarşılıqlı razılığına əsasən, bu Sazişə onun ayrılmaz tərkib hissəsi olan dəyişikliklər və əlavələr edilə bilər ki, bunlar da bu Sazişin 4-cü maddəsinə müvafiq olaraq qüvvəyə minən protokollarla rəsmiləşdirilir.

Maddə 3

Bu Sazişin tətbiqi və onun müddəalarının şərhi zamanı Tərəflər arasında yaranan mübahisəli məsələlər Tərəflərin məsləhətləşməsi və danışıqlar yolu ilə həll edilir.

Maddə 4

Bu Saziş onun qüvvəyə minməsi üçün lazım olan dövlətdaxili prosedurları Tərəflərin yerinə yetirməsi barədə üçüncü bildiriş depozitari tərəfindən alındığı tarixdən 30 gün keçdikdən sonra qüvvəyə minir

Dövlətdaxili prosedurları bundan gec yerinə yetirən Tərəflər üçün bu Saziş müvafiq sənədlərin depozitari tərəfindən alındığı tarixdən 30 gün keçdikdən sonra qüvvəyə minir.

Bu Saziş qeyri-müəyyən müddətə bağlanır. Tərəflərdən hər biri depozitariyə yazılı bildiriş yollayaraq bu Sazişdən çıxa bilər. Bu halda Saziş həmin Tərəfə münasibətdə öz təsirini depozitari tərəfindən bu cür bildiriş alındığı tarixdən 6 ay sonra dayandırır.

Maddə 5

Bu Saziş qüvvəyə mindikdən sonra qoşulma haqqında sənəd depozitariyə ötürülmək yolu ilə Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan istənilən dövlətin qoşulması üçün açıqdır.

Qoşulan dövlətlər üçün bu Saziş qoşulma barədə sənədin depozitari tərəfindən alındığı tarixdən 30 gün keçdikdən sonra qüvvəyə minir.

Yalta şəhərində 20 noyabr 2009-cu il tarixində rus dilində bir əsl nüsxədə imzalanmışdır. Əsl nüsxə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsində saxlanılır və Sazişi imzalamış hər bir dövlətə təsdiq edilmiş surəti göndəriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

YAQUB EYYUBOV
Baş nazirinin birinci müavini

ERMƏNİSTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

TİQRAN SARKİSYAN
Baş nazir

BELARUS RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

SERGEY SİDORSKİ
Baş nazir

RUSİYA FEDERASİYASI HÖKUMƏTİ ADINDAN

VLADİMİR PUTİN
Baş nazir

TACİKİSTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

AKİL AKILOV
Baş nazir

TÜRKMƏNİSTAN HÖKUMƏTİ ADINDAN

imza yoxdur

QAZAXISTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

KARİM MASİMOV
Baş nazir

QIRĞIZ RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

DANİYAR USENOV
Baş nazir

MOLDOVA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

VLADİMİR FİLAT
Baş nazir

ÖZBƏKİSTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

imza yoxdur

UKRAYNA HÖKUMƏTİ ADINDAN

YULİYA TİMOŞENKO
Baş nazir

Azərbaycan Respublikasının Ukraynada Fövqəladə və Səlahiyyətli Səfiri E.Y.Mədətlinin eyni zamanda Azərbaycan Respublikasının Demokratiya və İqtisadi İnkişaf uğrunda Təşkilat - GUAM yanında Daimi nümayəndəsi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının Ukraynada Fövqəladə və Səlahiyyətli Səfiri Eynulla Yadulla oğlu Mədətli eyni zamanda Azərbaycan Respublikasının Demokratiya və İqtisadi İnkişaf uğrunda Təşkilat - GUAM yanında Daimi nümayəndəsi təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 iyul 2010-cu il

№ 1048

Azərbaycan Respublikasının Rumıniyada Fövqəladə və Səlahiyyətli Səfiri E.H.Həsənovun iqamətgahı Buxarest şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Monteneqroda Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının Rumıniyada Fövqəladə və Səlahiyyətli Səfiri Eldar Hümbət oğlu Həsənov iqamətgahı Buxarest şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Monteneqroda Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 iyul 2010-cu il

№ 1049

Azərbaycan Respublikasının Meksika Birləşmiş Ştatlarında Fövqəladə və Səlahiyyətli Səfiri İ.Y.Muxtarovun iqamətgahı Mexiko şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Qvatemala Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının Meksika Birləşmiş Ştatlarında Fövqəladə və Səlahiyyətli Səfiri İlqar Yusif oğlu Muxtarov iqamətgahı Mexiko şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Qvatemala Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 iyul 2010-cu il

№ 1050

Azərbaycan Respublikasının İndoneziya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri İ.Ə.Hacıyevin iqamətgahı Cakarta şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Timor-Leste Demokratik Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının İndoneziya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri İbrahim Əsəd oğlu Hacıyev iqamətgahı Cakarta şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Timor-Leste Demokratik Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 iyul 2010-cu il

№ 1051

"Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Niderland Krallığının Ədliyyə Nazirliyi arasında cinayət işləri sahəsində qeyri-əməliyyat əməkdaşlığı haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Niderland Krallığının Ədliyyə Nazirliyi arasında cinayət işləri sahəsində qeyri-əməliyyat əməkdaşlığı haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının daxili işlər naziri Ramil İdris oğlu Usubova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının daxili işlər naziri Ramil İdris oğlu Usubova verilməsi barədə Niderland Krallığı tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 avqust 2010-cu il

№ 1054

"Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin terrorçuluqla mübarizədə əməkdaşlığı haqqında Müqavilə" üzrə səlahiyyətli orqanın müəyyən edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının 2010-cu il 22 iyun tarixli, 1050-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin terrorçuluqla mübarizədə əməkdaşlığı haqqında Müqavilə"nin 3-cü maddəsinin 1-ci bəndinin icrasını təmin etmək məqsədi ilə qərara alıram:

1. "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin terrorçuluqla mübarizədə əməkdaşlığı haqqında Müqavilə"nin 3-cü maddəsinin 1-ci bəndində nəzərdə tutulmuş səlahiyyətli orqan qismində Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi müəyyən edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndinə uyğun olaraq "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin terrorçuluqla mübarizədə əməkdaşlığı haqqında Müqavilə"nin 3-cü maddəsinin 1-ci bəndində nəzərdə tutulmuş səlahiyyətli orqanın müəyyən edilməsi barədə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 avqust 2010-cu il

№ 1057

2010-cu il iyunun 15-də Rabat şəhərində imzalanmış "Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Mərakeş Krallığının Sosial İnkişaf, Ailə və Həmrəylik Nazirliyi arasında ailə, qadınların inkişafı və uşaqların müdafiəsi sahələrində əməkdaşlıq haqqında Memorandum"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2010-cu il iyunun 15-də Rabat şəhərində imzalanmış "Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Mərakeş Krallığının Sosial İnkişaf, Ailə və Həmrəylik Nazirliyi arasında ailə, qadınların inkişafı və uşaqların müdafiəsi sahələrində əməkdaşlıq haqqında Memorandum" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Mərakeş Krallığı tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 avqust 2010-cu il

№ 1060

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Mərakeş Krallığının Sosial İnkişaf, Ailə və Həmrəylik Nazirliyi arasında ailə, qadınların inkişafı və uşaqların müdafiəsi sahələrində əməkdaşlıq haqqında Memorandum

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Mərakeş Krallığının Sosial İnkişaf, Ailə və Həmrəylik Nazirliyi,

öz səlahiyyətləri çərçivəsində qadınların və ailələrin inkişafı, uşaqların müdafiəsi sahələrində əməkdaşlıq əlaqələrini yaratmaq üçün ümumi niyyətlərindən çıxış edərək,

Tərəflər dövlətlərinin iştirakçısı olduqları beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərini və milli qanunvericiliklərini nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Memorandumun məqsədi

Bu Memorandum hər iki Tərəfin xalqlarının maraqları, xüsusilə də qadınların, ailələrin inkişafı və uşaqların müdafiəsi sahələrində qarşılıqlı faydalı əməkdaşlığın əsasını qoymaq məqsədi daşıyır.

Maddə 2

Əməkdaşlıq sahələri

Tərəflər dövlətlərinin milli qanunvericiliklərinə uyğun olaraq aşağıdakı istiqamətlər üzrə əməkdaşlıq edəcəklər:

1) əməkdaşlığı genişləndirmək və dövlət proqramları çərçivəsində ailə, qadın və uşaqlara sosial yardım göstərmək, o cümlədən onların sosial inteqrasiyası məsələlərinin inkişaf siyasətlərinə və proqramlarına daxil edilməsi istiqamətində zəruri tədbirləri görmək;

2) hər iki ölkədə ailə, qadın və uşaq məsələləri ilə bağlı hüquqi və sosial mexanizmlərin gücləndirilməsi və təkmilləşdirilməsi məqsədilə təhlillər aparmaq;

3) mütəmadi olaraq ailə, qadın və uşaq məsələləri sahələrində informasiya və təcrübə mübadiləsi aparmaq;

4) beynəlxalq təşkilatlarla əməkdaşlıq etməklə ailə, qadın və uşaq məsələləri sahələrində beynəlxalq görüşlərin, elmi konfrans, seminar və dəyirmi masaların təşkili;

5) bu Memorandum ilə nəzərdə tutulan sahələrdə digər dövlət qurumları ilə əməkdaşlıq üçün birgə fəaliyyət;

6) hər iki Tərəfin mütəxəssisləri üçün təcrübə mübadiləsi və qarşılıqlı dövri məşğələlər keçirmək;

7) ailə, qadın və uşaq problemləri sahəsində institusional layihələrin təməlini qoymaq məqsədilə ikitərəfli məsləhətləşmələri həyata keçirmək.

Maddə 3

Memorandumun müddəalarının həyata keçirilməsi

Memorandumun müddəalarının həyata keçirilməsi aşağıdakıları əhatə edəcəkdir:

həyata keçirilməli olan müxtəlif fəaliyyətlərə dair məqsədlərin müəyyənləşdirilməsi;

icra ediləcək illik tədbirlər planının birgə hazırlanması;

icra yollarını və xüsusilə də maliyyələşdirilmə mənbələrinin müəyyən edilməsi;

əldə olunmuş nəticələrin müntəzəm qiymətləndirilməsi.

Tərəflər bu Memorandumun müddəalarının yerinə yetirilməsini təmin etmək məqsədilə İşçi Qrupu yaradırlar. İşçi Qrupu ildə bir dəfə növbə ilə Azərbaycanda və Mərakeşdə toplaşacaqdır.

Maddə 4

Memoranduma dəyişikliklərin edilməsi

Tərəflərin qarşılıqlı razılığı ilə bu Memoranduma əlavələr və dəyişikliklər edilə bilər. Belə əlavələr və dəyişikliklər bu Memorandumun ayrılmaz hissəsi olan ayrı-ayrı protokollar formasında rəsmiləşdiriləcəkdir və bu Memorandumun 5-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minəcəkdir.

Maddə 5

Memorandumun qüvvəyə minməsi

Bu Memorandum onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin bir-birinə diplomatik kanallar vasitəsilə göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Bu Memorandum beş (5) il müddətinə bağlanılır və Tərəflərdən biri bu Memorandumun müddətinin bitməsinə altı (6) ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beş il müddətinə uzadılır.

Bu Memorandum Rabat şəhərində 15 iyun 2010-cu il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, ərəb, fransız və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Memorandumun təfsirində fikir ayrılığı olduqda, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ ADINDAN	MƏRAKEŞ KRALLIĞININ SOSİAL İNKİŞAF, AİLƏ VƏ UŞAQ MÜDAFİƏSİ NAZİRLİYİ ADINDAN
HİCRAN HÜSEYNOVA	*NUZHA SKALLİ*
Komitənin sədri	*Sosial inkişaf, ailə və uşaq müdafiəsi naziri*

Azərbaycan Respublikasının Rumıniyada Fövqəladə və Səlahiyyətli Səfiri E.H.Həsənovun iqamətgahı Buxarest şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Bosniya və Herseqovinada Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyanın 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının Rumıniyada Fövqəladə və Səlahiyyətli Səfiri Eldar Hümbət oğlu Həsənov iqamətgahı Buxarest şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Bosniya və Herseqovinada Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 avqust 2010-cu il.

№ 1072

"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Avstriya Respublikası Federal Maliyyə Nazirliyi arasında gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Avstriya Respublikası Federal Maliyyə Nazirliyi arasında gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində

əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Aydın Əli oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Aydın Əli oğlu Əliyevə verilməsi barədə Avstriya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 avqust 2010-cu il.

№ 1074

2010-cu il avqustun 3-də Ankara şəhərində imzalanmış "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Türkiyə Respublikası Baş Qərargahı arasında maddi-texniki təminatın tətbiqi Protokolu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2010-cu il avqustun 3-də Ankara şəhərində imzalanmış "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Türkiyə Respublikası Baş Qərargahı arasında maddi-texniki təminatın tətbiqi Protokolu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Türkiyə Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 31 avqust 2010-cu il.

№ 1075

"Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Amerika Birləşmiş Ştatlarının Avropa Komandanlığı arasında hərbi əməkdaşlıq üzrə İş Planı"nı imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Amerika Birləşmiş Ştatlarının Avropa Komandanlığı arasında hərbi əməkdaşlıq üzrə İş Planı"nı imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının müdafiə naziri Səfər Axundbala oğlu Əbiyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən İş Planını imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının müdafiə naziri Səfər Axundbala oğlu Əbiyevə verilməsi barədə Amerika Birləşmiş Ştatları tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 31 avqust 2010-cu il.

№ 1076

Azərbaycan Respublikasının Fransa Respublikasındakı və Azərbaycan Respublikasının Özbəkistan Respublikasındakı səfirliklərinin tabeliyində mədəniyyət mərkəzlərinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının daxili və xarici siyasəti, mədəniyyəti, tarixi, sosial, iqtisadi inkişafı, elmi-texniki və turizm potensialı barədə təbliğat işini genişləndirmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Fransa Respublikasındakı və Azərbaycan Respublikasının Özbəkistan Respublikasındakı səfirliklərinin tabeliyində mədəniyyət mərkəzləri yaradılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki:

2.1. iki ay müddətində "Azərbaycan Respublikasının xarici ölkədəki diplomatik nümayəndəliyinin tabeliyində olan mədəniyyət mərkəzi haqqında Əsasnamə"ni Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.2. bu Sərəncamın 1-ci bəndi ilə yaradılan mədəniyyət mərkəzlərinin fəaliyyətinin təmin edilməsi ilə bağlı lazımi tədbirlər görsün.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 sentyabr 2010-cu il

№ 1079

"Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında Samur transsərhəd çayının su ehtiyatlarının səmərəli istifadəsi və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında Samur transsərhəd çayının su ehtiyatlarının səmərəli istifadəsi və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilməsi barədə Rusiya Federasiyası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 sentyabr 2010-cu il

№ 1081

2010-cu il avqustun 10-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Niderland Krallığının Ədliyyə Nazirliyi arasında cinayət işləri sahəsində qeyri-əməliyyat əməkdaşlığı haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2010-cu il avqustun 10-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Niderland Krallığının Ədliyyə Nazirliyi arasında cinayət işləri sahəsində qeyri-əməliyyat əməkdaşlığı haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Niderland Krallığı tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 sentyabr 2010-cu il

№ 1088

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Niderland Krallığının Ədliyyə Nazirliyi arasında cinayət işləri sahəsində qeyri-əməliyyat əməkdaşlığı haqqında Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Niderland Krallığının Ədliyyə Nazirliyi,

hər iki ölkənin suverenliyinə və müstəqilliyinə qarşılıqlı hörmət prinsiplərinə əsaslanaraq,

insan hüquq və azadlıqlarının qanunsuz qəsdlərdən səmərəli müdafiəsini və onlardan müvafiq cəmiyyətlərdə qeyri-qanuni sui-istifadənin qarşısının alınmasını təmin etmək niyyəti ilə,

Tərəflər arasında səmimi münasibətlərin dəstəklənməsi və genişləndirilməsi məqsədilə,

BMT-nin Transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə haqqında Konvensiyası və ona əlavə protokolları, eləcə də tərəfdaş olduqları müvafiq çoxtərəfli müqavilələr çərçivəsin-

də cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlığın gücləndirilməsi məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər öz səlahiyyətləri çərçivəsində, dövlətlərinin milli qanunvericiliyinə və tərəfdar çıxdıqları beynəlxalq müqavilələrə uyğun olaraq mütəşəkkil cinayətkarlıq sahəsində qeyri-əməliyyat təcrübə mübadiləsini, qanunsuz miqrasiya və insan alveri, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərlə mübarizə sahəsində əməkdaşlığı həyata keçirəcəklər.

Maddə 2

Tərəflərin bu Anlaşma Memorandumunun yerinə yetirilməsi zamanı bir-birinə ötürdüyü bütün məlumatlar konfidensial xarakter daşıyır və məlumatı təqdim edən Tərəfin yazılı razılığı olmadan üçüncü tərəfə açıqlana bilməz.

Tərəflər bir-biri ilə diplomatik kanallar, habelə telefon, faks və elektron vasitələri ilə əlaqə yaradacaqlar.

Bu Anlaşma Memorandumunun icrasından irəli gələn hər hansı fəaliyyət Tərəflərin maliyyə imkanları və kadr ehtiyatları ilə məhdudlaşdırılacaqdır və hər bir Tərəf öz xərclərini ödəyəcəkdir.

Maddə 3

Anlaşma Memorandumu beynəlxalq hüquqdan irəli gələn hər hansı bir öhdəlik və hüquqları yaratmır və ya onlara əlavə dəyişiklik etmir.

Maddə 4

1. Anlaşma Memorandumuna əlavə və dəyişikliklər Tərəflərin qarşılıqlı razılığı ilə edilə bilər. Belə əlavə və dəyişikliklər Anlaşma Memorandumunun tərkib hissəsi kimi ayrıca protokollar formasında tərtib edilə bilər.

2. Bu Anlaşma Memorandumunun təfsiri və tətbiqi ilə bağlı yaranan fikir ayrılığı Tərəflər arasında dostcasına məsləhətləşmələr və danışıqlar yolu ilə həll ediləcəkdir.

Maddə 5

Bu Anlaşma Memorandumu imzalandığı gündən qüvvəyə minir. Tərəflərdən hər biri istənilən zaman bu Memorandumu xitam vermək niyyəti barədə digər Tərəfə nəzərdə tutulmuş xitamvermə tarixindən üç ay öncə yazılı şəkildə bildiriş göndərə bilər.

Bu Anlaşma Memorandumu Bakı şəhərində 10 avqust 2010-cu il tarixində, Azərbaycan, holland və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni hüquqi qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ ADINDAN	NİDERLAND KRALLIĞININ ƏDLİYYƏNAZİRLİYİ ADINDAN
RAMİL USUBOV	*ERNST XİRŞ BALLİN*
Daxili işlər naziri	*Ədliyyə naziri*

Bəzi komissiyaların tərkibində dəyişikliklər və əlavələr edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

1. "Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 iyul tarixli, 431 nömrəli Fərmanına və bəzi sərəncamlarına aşağıdakı dəyişikliklər və əlavələr edilsin:

1.1. "Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 iyul tarixli, 431 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 7, maddə 595; 2010-cu il, № 2, maddə 80) 1-ci bəndində "Abbasəli Həsənov" sözləri "Cavanşir Axundov" sözləri ilə əvəz edilsin və "Əlixan Məlikov - "Azəriqaz" Qapalı Səhmdar Cəmiyyətinin sədri" sözləri çıxarılsın;

1.2. "Azərbaycan Respublikası ilə Ukrayna arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 26 avqust tarixli, 1640 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 8, maddə 725; 2009-cu il, № 7, maddə 589) 1-ci bəndində "Tələt Əliyev" sözləri "Eynulla Mədətli" sözləri ilə əvəz edilsin;

1.3. "Azərbaycan-Fransa İqtisadi Komissiyasının Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 sentyabr tarixli, 1699 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 9, maddə 800; 2009-cu il, № 1, maddə 17; 2009-cu il, № 7, maddə 589) 1-ci bəndində "Avtandil Babayev - Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini" sözlərindən sonra "Elçin Əmirbəyov - Azərbaycan Respublikasının Fransa Respublikasında fövqəladə və səlahiyyətli səfiri" sözləri əlavə edilsin;

1.4. "Azərbaycan Respublikası Hökuməti ilə Yunanıstan Respublikası Hökuməti arasında iqtisadi, sənaye və texnoloji sahələrdə əməkdaşlıq üzrə birgə komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 mart tarixli, 2015 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 3, maddə 247; 2008-ci il, № 11, maddə 1030; 2009-cu il, № 7, maddə 589) 1-ci bəndində "Mir-Həmzə Əfəndiyev" sözləri "Rəhman Mustafayev" sözləri ilə əvəz edilsin;

1.5. "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 mart tarixli, 2016 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 3, maddə 248; 2009-cu il, № 6, maddə 424; 2010-cu il, № 2, maddə 80) 1-ci bəndində "Zakir Həşimov" sözləri "Faiq

Bağırov" sözləri ilə əvəz edilsin;

1.6. "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası üzrə yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 30 mart tarixli, 2070 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 3, maddə 296; 2009-cu il, № 1, maddə 17, № 9, maddə 720) 1-ci bəndində "Lətif Qəndilov" sözləri "Zakir Həşimov" sözləri ilə əvəz edilsin;

1.7 "Azərbaycan Respublikası ilə Türkmənistan Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 20 iyun tarixli, 2236 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 6, maddə 650; 2009-cu il, № 6, maddə 424; № 7, maddə 589) 1-ci bəndində "Elxan Hüseynov" sözləri "Vəhdət Sultanzadə" sözləri ilə əvəz edilsin;

1.8. "Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında Ticarət, İqtisadi və Texniki Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 7 fevral tarixli, 2670 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 2, maddə 78, № 11, maddə 1030; 2010-cu il, № 2, maddə 80) 1-ci bəndində "Sənan Kərimov" sözləri "Abbas Vəlibəyov" sözləri ilə əvəz edilsin;

1.9. "Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 21 may tarixli, 2830 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 5, maddə 419; 2009-cu il, № 1, maddə 17; 2010-cu il, № 2, maddə 80) 1-ci bəndində "Sənan Kərimov" sözləri "Abbas Vəlibəyov" sözləri ilə əvəz edilsin;

1.10. "Azərbaycan Respublikası ilə Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi arasında Müştərək Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 19 noyabr tarixli, 57 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 11, maddə 1016) 1-ci bəndində "Elşad Nəsirov - Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti" sözlərindən sonra "Ağasəlim Şükürov - Azərbaycan Respublikasının Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsindəki fövqəladə və səlahiyyətli səfiri" sözləri əlavə edilsin və "Rüfət Mahmud" sözləri "Anar Kərimov" sözləri ilə əvəz edilsin;

1.11. "Azərbaycan Respublikası Hökuməti və Macarıstan Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 16 yanvar tarixli, 118 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 1, maddə 18; 2010-cu il, № 2, maddə 80) 1-ci bəndində "Həsən Həsənov" sözləri "Vilayət Quliyev" sözləri ilə əvəz edilsin və "Sənan Kərimov" sözləri "Abbas Vəlibəyov" sözləri ilə əvəz edilsin;

1.12. "Azərbaycan Respublikası və Polşa Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6 mart tarixli, 196 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 3, maddə 177; 2010-cu il, № 2, maddə 80) 1-ci bəndində "Vilayət Quliyev" sözləri "Həsən Həsənov" sözləri ilə əvəz edilsin;

1.13. "Azərbaycan Respublikası Hökuməti ilə İsveçrə Federal Şurası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 14 aprel tarixli, 226 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 4, maddə 243) 1-ci bəndində "Elçin Əmirbəyov" sözləri "Murad Nəcəfbəyli" sözləri ilə əvəz edilsin;

1.14. "Azərbaycan Respublikası və Misir Ərəb Respublikası arasında Hökumətlərarası iqtisadi, texniki və elmi əməkdaşlıq üzrə Müştərək Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 10 avqust tarixli, 438 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 8, maddə 646) 1-ci bəndində "Faiq Bağırov" sözləri "Şahin Abdullayev" sözləri ilə əvəz edilsin;

1.15. "Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında Əməkdaşlıq üçün Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 8 fevral tarixli, 718 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 2, maddə 99) 1-ci bəndində "Şahin Abdullayev" sözləri "Tural Rzayev" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Fərmanın 1.1-1.15-ci bəndlərində göstərilən dəyişikliklər və əlavələr barədə aidiyyəti tərəflərə müvafiq bildirişlər göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 sentyabr 2010-cu il

№ 325

"Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Rusiya Federasiyasının Daxili İşlər Nazirliyi arasında 2011-2012-ci illər üçün qarşılıqlı fəaliyyət haqqında Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Rusiya Federasiyasının Daxili İşlər Nazirliyi arasında 2011-2012-ci illər üçün qarşılıqlı fəaliyyət haqqında Protokol"u

imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının daxili işlər naziri Ramil İdris oğlu Usubova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının daxili işlər naziri Ramil İdris oğlu Usubova verilməsi barədə Rusiya Federasiyası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 sentyabr 2010-cu il

№ 1094

"Azərbaycan Respublikası Dövlət Mülki Aviasiya Administrasiyası və Özbəkistan Respublikası Uçuşların Təhlükəsizliyinə Nəzarət üzrə Dövlət Müfəttişliyi (Dövlətavianəzarət) arasında aviasiya personalı şəhadətnamələrinin qarşılıqlı tanınması haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Dövlət Mülki Aviasiya Administrasiyası və Özbəkistan Respublikası Uçuşların Təhlükəsizliyinə Nəzarət üzrə Dövlət Müfəttişliyi (Dövlətavianəzarət) arasında aviasiya personalı şəhadətnamələrinin qarşılıqlı tanınması haqqında Saziş"i imzalamaq səlahiyyəti "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti Cahangir Cəlal oğlu Əsgərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti Cahangir Cəlal oğlu Əsgərova verilməsi barədə Özbəkistan Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 sentyabr 2010-cu il.

№ 1116

"Azərbaycan Respublikası Baş Prokurorluğu və Özbəkistan Respublikası Baş Prokurorluğu arasında əməkdaşlıq və hüquqi yardım haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Baş Prokurorluğu və Özbəkistan Respublikası Baş Prokurorluğu arasında əməkdaşlıq və hüquqi yardım haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının baş prokuroru Zakir Bəkir oğlu Qaralova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının baş prokuroru Zakir Bəkir oğlu Qaralova verilməsi barədə Özbəkistan Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 sentyabr 2010-cu il.

№ 1117

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və Özbəkistan Milli Teleradio Şirkəti arasında Əməkdaşlıq Sazişi"ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və Özbəkistan Milli Teleradio Şirkəti arasında Əməkdaşlıq Sazişi"ni imzalamaq səlahiyyəti "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri Arif Nizam oğlu Alışanova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri Arif Nizam oğlu Alışanova verilməsi barədə Özbəkistan Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 sentyabr 2010-cu il.

№ 1118

"Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi və Özbəkistan Respublikası Daxili İşlər Nazirliyinin 2010-2012-ci illərdə qarşılıqlı fəaliyyəti haqqında Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi və Özbəkistan Respublikası Daxili İşlər Nazirliyinin 2010-2012-ci illərdə qarşılıqlı fəaliyyəti haqqında Protokol"u imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının daxili işlər naziri Ramil İdris oğlu Usubova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının daxili işlər naziri Ramil İdris oğlu Usubova verilməsi barədə Özbəkistan Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 sentyabr 2010-cu il.

№ 1119

"Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında 2011-2015-ci illər üzrə iqtisadi əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında 2011-2015-ci illər üzrə iqtisadi əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubova verilməsi barədə Özbəkistan Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 sentyabr 2010-cu il.

№ 1120

2005-ci il aprelin 21-də Bakı şəhərində imzalanmış "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Sazişin Tərəflərinin Hökumətləri arasında TRASEKA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin (TRASEKA HAK DK) birgə maliyyələşdirilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2005-ci il aprelin 21-də Bakı şəhərində imzalanmış "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Sazişin Tərəflərinin Hökumətləri arasında TRASEKA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin (TRASEKA HAK DK) birgə maliyyələşdirilməsi haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 sentyabr 2010-cu il.

№ 1124

Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Sazişin Tərəflərinin Hökumətləri arasında TRASEKA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin (TRASEKA HAK DK) birgə maliyyələşdirilməsi haqqında Saziş

1998-ci il 8 sentyabr tarixində Bakı şəhərində imzalanmış Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Sazişin (bundan sonra

"Əsas Saziş" adlandırılacaq) Tərəflərinin (bundan sonra "Tərəflər" adlandırılacaq) Hökumətləri, TRASEKA HAK DK-nin müstəqil maliyyələşdirilməsi, habelə TRASEKA HAK-ın iclaslarının və onun Əsas Sazişin müddəalarına uyğun olaraq yaradılmış işçi qruplarının işinin təşkil edilməsi zərurətindən çıxış edərək,

Əsas Sazişin 9-cu maddəsinin 3-cü bəndinə əsasən,

bundan sonra "Maliyyələşdirmə haqqında Saziş" adlandırılacaq bu Sazişi imzalamaq barədə razılığa gəldilər.

Maddə 1

Ümumi müddəalar

1. Maliyyələşdirmə haqqında bu Sazişin müddəaları TRASEKA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin (TRASEKA HAK DK) birgə maliyyələşdirilməsi qaydalarını müəyyən edir.

2. Hər növbəti il üçün illik büdcə TRASEKA HAK-ın illik iclasında onun öz qərarı ilə təsdiq edilir. Həmin qərar bu Sazişin bütün Tərəfləri üçün məcburi xarakter daşıyır.

3. Maliyyə ili yanvarın 1-də başlayır və dekabrın 31-də başa çatır.

4. TRASEKA HAK-ın müvafiq qərarında başqa cür nəzərdə tutulmayıbsa, Tərəflərin üzvlük haqlan və TRASEKA HAK-ın məqsədləri üçün müvafiq mühasibat hesablaşmaları avro ilə həyata keçirilir.

Maddə 2

Birgə maliyyələşdirmənin prinsipləri

1. İllik büdcənin maliyyə vəsaitləri Maliyyələşdirmə haqqında bu Sazişin Tərəflərinin ödədiyi üzvlük haqlan, habelə digər mənbələrdən daxil olan vəsaitlər hesabına təmin edilir.

2. Tərəflərin üzvlük haqlan bərabər paylarla ödənilir.

3. İllik büdcənin həcmi və buna müvafiq olaraq Tərəflərin üzvlük haqları aşağıdakılara əsasən müəyyən edilir:

a) növbəti maliyyə ili üçün nəzərdə tutulmuş xərclər;

b) növbəti maliyyə ili üçün gözlənilən gəlirlər (mədaxillər);

c) əvvəlki maliyyə ilindən qalmış vəsaitlərin qalıqları (balans);

d) digər gəlirlər.

Maddə 3

İllik büdcənin strukturu

1. TRASEKA HAK DK-nin illik büdcəsinin mədaxil hissəsinə daxildir:

a) cari maliyyə ili üçün Tərəflərin üzvlük haqları;

b) əvvəlki ilin büdcəsindən qalan vəsait (balans);

c) bank faizlərindən, valyuta kursundan gələn gəlir;

d) donorların və təşkilatların qrantları;

e) digər gəlirlər.

2. TRASEKA HAK DK-nın illik büdcəsinin məxaric hissəsinə daxildir:

a) TRASEKA HAK DK-nın rəhbərliyi və əməkdaşlarına ödənişlər TRASEKA HAK DK-nın rəhbərliyinin, əməkdaşlarının və Milli katiblərin bütün xərcləri: əməkhaqları, tibbi sığorta ödənişləri, onların saxlanılma və mənzil xərcləri ilə bağlı müntəzəm ödənişlər;

b) Ofis xərcləri

TRASEKA HAK DK-nın Bakıda yerləşən Mənzil-qərargahının və onun Əsas Sazişə Tərəflərinin ərazisində yerləşən daimi nümayəndəliklərinin fəaliyyəti ilə bağlı kommunikasiya, ezamiyyət xərcləri, avtomobillərin saxlanılması, TRASEKA vebsaytının, məlumat bazasının xərcləri, materialların yayılması, çapı, nəşrlər, dəftərxana ləvazimatları üçün xərclər də daxil olmaqla, bütün xərclər;

c) Reinvestisiya

TRASEKA HAK DK-nın Mənzil-qərargahının və onun daimi nümayəndəliklərinin fəaliyyəti üçün zəruri olan müasir avadanlıqlarla təchizat, o cümlədən kompyuterlərin texniki və proqram təminatı, ofis avadanlığı, avtomobil, otaqların təmiri/yenidən qurulması ilə əlaqədar bütün xərclər;

d) HAK İşçi qruplarının iclasları

TRASEKA tədbirlərinin təşkili və keçirilməsi ilə əlaqədar yerdəyişmə, yaşayış, qidalanma, sənədlərin hazırlanması və yayılması, yerli nəqliyyat xərclərindən ibarət olmaqla bütün xərclər;

e) digər xərclər

Bank hesablan xidmətləri, valyuta kurslarındakı fərqlərlə əlaqədar və bu siyahıda göstərilməyən istənilən digər xərclər.

Maddə 4

Üzvlük haqlarının köçürülməsi

1. Tərəflər növbəti maliyyə ili üçün üzvlük haqlarını Mənzil-qərargahı Azərbaycan Respublikası, Bakı şəhərində yerləşən TRASEKA HAK DK-nın hesabına cari ilin 31 dekabr tarixinədək və növbəti ilin 31 mart tarixindən gec olmamaqla ödəməlidirlər.

2. Bu maddənin 1-ci bəndində göstərilən müddəalara riayət olunmadığı halda, TRASEKA HAK Əsas Sazişin 8-ci və 12-ci maddələrinə əsaslanmaqla müvafiq qərarlar qəbul edir.

Maddə 5

Büdcə proseduru

1. Büdcə layihəsini Daimi Katiblik işləyib hazırlayır. Büdcə layihəsinə əlavə olunan izahat məktubunda əvvəlki dövr üçün gəlir və xərclərin təhlili və hesabat dövrünə dair məlumatlarla müqayisədə ayrı-ayrı maddələr üzrə büdcə layihəsinə edilən dəyişikliklərin səbəbləri göstərilir.

2. Büdcə layihəsi və izahat məktubu TRASEKA HAK-ın növbəti iclasının açılışma ən azı 3 (üç) ay qalmış Tərəflərə göndərilməlidir.

3. TRASEKA HAK DK-nın milli katibləri Tərəflərin TRASEKA HAK DK-nın büdcə layihəsinə dair qeydlərini TRASEKA HAK-ın növbəti iclasının açılışına ən azı 2 (iki) ay qalmış TRASEKA HAK DK-yə göndərirlər.

4. Tərəflərin qeydləri izahat məktubuna əlavə olunur və TRASEKA HAK DK-nın növbəti iclasının açılışına ən azı 2 (iki) həftə qalmış Tərəflərə göndərilir.

5. Büdcə layihəsi, ona əlavə olunan izahat məktubu və Tərəflərin qeydlərinə TRASEKA HAK DK-nın iclasında baxılır.

6. Bu maddənin 2-4-cü bəndlərinə uyğun olaraq razılaşdırılmış büdcə layihəsi, TRASEKA HAK-ın növbəti iclasının açılışına ən azı 3 (üç) həftə qalmış Tərəflərin nəzərinə çatdırılmalıdır.

7. TRASEKA HAK DK-nın Baş katibi büdcə layihəsini TRASEKA HAK-ın təsdiqinə çıxarır.

8. Büdcə təsdiq edilənədək xərclər ötən büdcə ilinin analoji dövrünə təsadüf edən xərclər nəzərə alınmaqla, TRASEKA HAK DK-nın normal fəaliyyətinin təmin edilməsi zərurətindən çıxış etməklə həyata keçirilməlidir.

9. Büdcənin müvafiq maddəsi ilə təsdiq olunan məbləğ xərclənib qurtardığı halda, TRASEKA HAK DK-nın Baş katibi digər maddələrdə nəzərdə tutulan xərclərə qənaət hesabına 20% həcmində əlavə vəsaitin xərclənməsinə icazə vermək hüququna malikdir.

10. TRASEKA HAK DK-nın Baş katibi Maliyyələşdirmə haqqında bu Sazişin müddəalarına uyğun olaraq və iş proqramı və illik büdcəyə dair TRASEKA HAK-ın qərarlarına əsasən büdcənin idarə olunmasına görə məsuliyyət daşıyır.

11. TRASEKA HAK DK-nın Baş katibi TRASEKA HAK-ın hər bir illik iclasında əvvəlki ilin büdcəsinin icrası barədə maliyyə hesabatı təqdim edir. Maliyyə hesabatı TRASEKA HAK-ın qərarı ilə qəbul olunur.

12. TRASEKA HAK özünün illik iclasında büdcəyə nəzarətin həyata keçirilməsi üzrə auditor qrupunu müəyyən edir. Qrupa heç biri sədrlik edən ölkədən olmamaqla, müxtəlif Tərəflərdən maliyyə məsələləri üzrə 3 ekspert daxil edilir. Auditor qrupunun tərkibi TRASEKA HAK-ın qərarı ilə təsdiq edilir.

13. Auditor qrupunun bütün maliyyə hesabat kitablarına və digər sənədlərə sərbəst buraxılış hüququ vardır. TRASEKA HAK DK maliyyə nəzarətinin həyata keçirilməsi zamanı yardım göstərməyə, eləcə də yoxlama keçirilən məsələlərlə əlaqədar tələb olunan bütün sənədləri təqdim etməyə borcludur.

14. Auditin nəticələri, ekspertlərin çıxardıqları nəticələri və TRASEKA HAK DK-nın maliyyə fəaliyyətinin yaxşılaşdırılması üzrə onların tövsiyələrini özündə əks etdirən Auditor hesabatı ilə rəsmiləşdirilir. Bu Auditor hesabatını auditor qrupunun bütün üzvləri mütləq imzalamalıdırlar. TRASEKA HAK DK-nın Baş katibi Auditor hesabatı

ilə tanış olmaq və yazılı şəkildə öz qeydlərini təqdim etmək hüququna malikdir. Auditor hesabatı və Baş katibin yazılı qeydləri baxılmaq üçün TRASEKA HAK-ın iclasına çıxarılır.

15. TRASEKA HAK-ın iclasına baxılmaq üçün çıxarılanadək, büdcənin icrası barədə maliyyə hesabatı və Auditor hesabatı bu maddənin 5-ci bəndində göstərildiyi kimi TRASEKA HAK DK-nın iclasında müzakirə olunmalıdır.

Maddə 6

Maliyyə sənədləri və əməliyyatları

1. Maliyyə əməliyyatları, sənədləşmə və hesabatlar TRASEKA HAK DK-nın Mənzil-qərargahının yerləşdiyi ölkənin milli qanunvericiliyinə əsasən və TRASEKA HAK-ın sənəd və qərarlarına uyğun olaraq həyata keçirilir.

2. Maliyyə öhdəlikləri nəzərdə tutan bütün sənədlərdə, o cümlədən hesab və digər bank sənədlərində TRASEKA HAK DK-nın Baş katibinin imzası olmalıdır.

3. DK-nın gündəlik işində istifadə olunan maliyyə sənədləri (mühasibat kitabları, orderlər, formulyarlar, kassa çekləri və s.) maliyyə hesabatları məqsədilə lazımi qaydada 10 (on) il müddətində saxlanılmalıdır.

Maddə 7

Dəyişiklik və əlavələrin edilməsi

1. Tərəflərin razılığı ilə maliyyələşdirmə haqqında bu Sazişə, bu Sazişin tərkib hissəsi olan Protokolla rəsmiləşdirilən dəyişiklik və əlavələr edilə bilər.

2. Dəyişiklik və əlavələr haqqında Protokol da Maliyyələşdirmə haqqında Saziş kimi eyni qaydada qüvvəyə minir.

Maddə 8

Depozitari

1. Maliyyələşdirmə haqqında bu Sazişin depozitarisi Azərbaycan Respublikasıdır və o, Sazişin təsdiq edilmiş surətlərini onu imzalamış Tərəflərə göndərəcəkdir.

2. Depozitari maliyyələşdirmə haqqında Sazişə digər dövlətlərin qoşulması və Sazişin istənilən Tərəfə münasibətdə qüvvədən düşməsi barədə Tərəfləri məlumatlandırır.

Maddə 9

Qüvvəyəminmə, qoşulma və qüvvədəolma müddəti

1. Maliyyələşdirmə haqqında bu Saziş, onun ratifikasiyası və ya qəbul olunmasına dair dördüncü sənədin 8-ci maddədə göstərilən depozitariyə verilməsindən otuz gün sonra qüvvəyə minir.

2. Əgər Maliyyələşdirmə haqqında bu Saziş 2006-cı il yanvarın 1-dək qüvvəyə minməzsə, qüvvəyə minənədək müvəqqəti olaraq tətbiq olunur.

3. Maliyyələşdirmə haqqında bu Sazişin müvəqqəti tətbiqi onun qüvvəyə mindiyi andan dayandırılır.

4. Maliyyələşdirmə haqqında Saziş Əsas Sazişin iştirakçılarının qoşulması üçün açıqdır.

5. Qoşulma haqqında sənədlər saxlamaq üçün Maliyyələşdirmə haqqında Sazişin 8-ci maddəsində göstərilən depozitariyə verilir.

6. Ratifikasiya, qəbuletmə və ya qoşulma barədə dördüncü sənəd depozitariyə verildikdən sonra Maliyyələşdirmə haqqında Sazişi ratifikasiya edən, qəbul edən və ya ona qoşulan hər bir Tərəf üçün bu Saziş, ratifikasiya, qəbuletmə və ya qoşulma haqqında öz sənədini depozitariyə təqdim etdiyi vaxtdan otuz gün sonra qüvvəyə minir.

7. Maliyyələşdirmə haqqında Saziş Əsas Saziş qüvvədə olduğu müddətdə qüvvədə qalır.

2005-ci il aprelin 21-də Azərbaycan Respublikası, Bakı şəhərində, ingilis və rus dillərində bir əsl nüsxədə imzalanmışdır və hər iki mətn bərabər autentikdir.

AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN	MOLDOVA RESPUBLİKASI ADINDAN
(imza)	*(imza)*
BOLQARISTAN RESPUBLİKASI ADINDAN	RUMINİYA ADINDAN
(imza)	*(imza)*
GÜRCÜSTAN ADINDAN	TACİKİSTAN RESPUBLİKASI ADINDAN
(imza)	*(imza)*
QAZAXISTAN RESPUBLİKASI ADINDAN	TÜRKİYƏ RESPUBLİKASI ADINDAN
(imza)	*(imza)*

"Azərbaycan Respublikası hökuməti və Avstriya Federal hökuməti arasında diplomatik və xidməti pasportlara malik olan vətəndaşların vizasız gediş-gəlişi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Azərbaycan Respublikası hökuməti və Avstriya Federal hökuməti arasında diplomatik və xidməti pasportlara malik olan vətəndaşların vizasız gediş-gəlişi haqqında" 2010-cu il iyunun 23-də Bakı şəhərində imzalanmış saziş təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2010-cu il

№ 1061-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Avstriya Federal Hökuməti arasında diplomatik və xidməti pasportlara malik olan vətəndaşların vizasız gediş-gəlişi haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər"adlandırılan Azərbaycan Respublikası Hökuməti və Avstriya Federal Hökuməti,

İki dövlət arasında olan dostluq münasibətlərini nəzərə alaraq,

Azərbaycan Respublikasının və Avstriya Respublikasının diplomatik və xidməti pasportlara malik olan vətəndaşlarının müvafiq olaraq digər Razılığa gələn Tərəfin ərazisinə gediş-gəlişini asanlaşdırmaq arzusunda olaraq,

Razılığa gələn Tərəflərin milli qanunvericiliklərinə uyğun olaraq, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Vizasız gediş-gəliş

Etibarlı diplomatik və xidməti pasportlara malik olan. Azərbaycan Respublikası vətəndaşları Avstriya Respublikasının ərazisinə vizasız daxil ola, tranzit qaydada keçə və ya giriş günündən etibarən 6 ay müddətində 90 (doxsan) günə qədər orada qala bilərlər. Müddətlər Avstriya Respublikasının və ya birgə sərhədlərdəki yoxlanışlarının tədricən ləğvini nəzərdə tutan 14 iyun 1985-ci il tarixli Şengen Sazişinin həyata keçirilməsi haqqında 19 iyun 1990-cı il tarixli Sazişin iştirakçısı olan digər bir dövlətin ərazisinə ilkin daxil olma günündən etibarən hesablanır.

Etibarlı diplomatik və xidməti pasportlara malik olan Avstriya Respublikası vətəndaşları Azərbaycan Respublikasının ərazisinə vizasız daxil ola, tranzit qaydada keçə və ya ölkəyə giriş günündən etibarən 6 ay müddətində 90 (doxsan) günə qədər orada qala bilərlər.

Maddə 2

Pasportun etibarlılıq müddəti

Hər iki Razılığa gələn Tərəflərin vətəndaşlarının diplomatik və xidməti pasportlarının etibarlılıq müddəti onların digər Razılığa gələn Tərəfin ərazisinə daxil olduğu gün ən azı 6 ay təşkil etməlidir.

Maddə 3

Giriş-çıxış şərtləri

Razılığa gələn Tərəflərin etibarlı diplomatik və xidməti pasportlara malik olan vətəndaşları digər Razılığa gələn Tərəfin səlahiyyətli orqanları tərəfindən giriş-çıxış məqsədləri ilə müəyyənləşdirilmiş məntəqələrdən istifadə edərək, müvafiq olaraq digər Razılığa gələn Tərəfin ərazisinə gedib-gələ bilər və o zaman onlara qarşı təhlükəsizlik, immiqrasiya, gömrük, səhiyyə və digər sahələr üzrə olan qanunlarda nəzərdə tutulmuş və bu növ etibarlı pasportlara malik şəxslərə hüquqi cəhətdən şamil edilən məhdudiyyətlərdən başqa digər məhdudiyyətlər tətbiq olunmur.

Maddə 4

Diplomatik və konsulluq nümayəndəliklərinin üzvləri üçün viza

1. Bu Sazişin 1-ci maddəsi Razılığa gələn Tərəflərin etibarlı diplomatik və ya xidməti pasportlara malik olan, digər Razılığa gələn Tərəfin ərazisindəki diplomatik və ya konsulluq nümayəndəliyinə ezam edilmiş vətəndaşlarına ilk dəfə həmin ölkəyə səfər etdikləri zaman şamil edilmir.

2. 4-cü maddənin 1-ci bəndi, 1-ci bənddə göstərilmiş pasport sahiblərinin onlarla birlikdə yaşayan və diplomatik və ya xidməti pasporta malik olan ailə üzvlərinə də tətbiq edilir.

3. Bu Sazişin 1-ci maddəsi digər Razılığa gələn Tərəfin ərazisində 1-ci maddədə göstərilmiş vaxtdan çox qalmağı və ya əmək münasibətlərinə girməyi planlaşdıran şəxslərə tətbiq olunmur. Bu hallarda Razılığa gələn Tərəflərin immiqrasiya şərtlərinə uyğun olaraq giriş vizası və ya ölkədə qalma icazəsi almaq lazımdır.

4. Razılığa gələn Tərəflərin beynəlxalq hüquqa əsasən imtiyaz və immunitetlərə malik və qəbul edən dövlət tərəfindən verilmiş fotoşəkilli vəsiqələri olan vətəndaşlarından bu vəsiqənin etibarlılıq müddəti ərzində Razılığa gələn Tərəfin ərazisində qalmaq və ölkəyə yenidən daxil olmaq məqsədilə sərhədi keçərkən və bu etibarlı fotoşəkilli vəsiqə və diplomatik və ya xidməti pasportu təqdim etdiyi təqdirdə giriş vizası və ya ölkədə qalmaq üçün sənəd tələb olunmur.

Maddə 5

Hakimiyyət orqanlarının səlahiyyətləri

1. Bu Saziş Razılığa gələn Tərəflərin vətəndaşlarını digər Razılığa gələn Tərəfin əcnəbilərin ölkəyə daxil olması, ölkədə qalması və ölkədən getməsi ilə bağlı olan qanun və qaydalarına riayət etmək öhdəliyindən azad etmir.

2. Hər iki Razılığa gələn Tərəf arzu olunmayan və ya ictimai asayiş, əhalinin sağlamlığı və milli təhlükəsizlik üçün təhlükə hesab olunan şəxslərə ölkəyə daxil olmaq üçün icazə verməkdən imtina etmək və ya ölkədə qalma müddətini azaltmaq hüququnu özündə saxlayır.

Maddə 6

Sazişin dayandırılması

1. Hər bir Razılığa gələn Tərəf milli təhlükəsizlik, ictimai asayiş və ya vətəndaşların sağlamlığı ilə bağlı olan səbəblər üzündən bu Sazişin tətbiqini müvəqqəti olaraq tamamilə və ya qismən dayandıra bilər.

2. 1-ci bənddəki tədbirlərin həyata keçirilməsi və ya aradan qaldırılması barədə digər Razılığa gələn Tərəfə dərhal diplomatik kanallar vasitəsilə məlumat verilməlidir.

Maddə 7

Pasportun və ya səyahət sənədinin nümunəsi və verilməsi

1. Razılığa gələn Tərəflər digər Razılığa gələn Tərəfin istifadə etdiyi diplomatik və xidməti pasportların nümunələrini bu Sazişin imzalanmasından sonra 30 (otuz) gün müddətində diplomatik kanallar vasitəsilə bir-birilə mübadilə edəcəklər; hər bir Razılığa gələn Tərəf hər dəfə yeni pasportu dövriyyəyə buraxdıqdan ən azı 30 (otuz) gün öncədən

onun nümunəsini digər Razılığa gələn Tərəfə göndərəcəkdir.

2. Hər iki Razılığa gələn Tərəf pasport sənədləri ilə bağlı öz qayda və qanunlarındakı dəyişikliklər barədə bir-birilərini müvafiq şəkildə məlumatlandıracaqdır.

3. Razılığa gələn Tərəflərdən birinin vətəndaşı digər Razılığa gələn Tərəfin ərazisində bu Sazişin 1-ci maddəsində göstərilən etibarlı pasportunu itirdikdə qəbul edən dövlətin səlahiyyətli orqanlarını məlumatlandıracaqdır. Səlahiyyətli diplomatik və konsulluq nümayəndəliyi yuxanda göstərilən dövlətin vətəndaşı üçün yeni pasport və ya yeni səyahət sənədi verəcəkdir və qəbul edən dövlətin səlahiyyətli orqanlarını bu barədə məlumatlandıracaqdır.

Maddə 8

Mübahisələrin həlli

Bu Sazişin müddəalarının təfsiri və tətbiqi ilə bağlı yarana bilən hər hansı fikir ayrılığı və ya mübahisə Razılığa gələn Tərəflər arasında məsləhətləşmələr və ya danışıqlar yolu ilə xoş məramla həll ediləcəkdir.

Maddə 9

Sazişə dəyişiklik

Bu Sazişə, əgər tələb olunarsa, Razılığa gələn Tərəflərin qarşılıqlı yazılı razılığı əsasında dəyişikliklər və ya əlavələr edilə bilər. Belə dəyişikliklər və ya əlavələr xüsusilə 1-ci maddədə qeyd edilmiş müddətlərin uzadılmasını ehtiva edə bilər. Sazişə edilən dəyişiklik və ya əlavə Razılığa gələn Tərəflərin bunun üçün müəyyən etdiyi gün qüvvəyə minir.

Maddə 10

Sazişin qüvvəyə minməsi, müddəti və sona çatması

1. Bu Saziş Razılığa gələn Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetirdikləri barədə bir-birilərinə diplomatik kanallar vasitəsilə göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdən sonra 30-cu (otuzuncu) gün qüvvəyə minir.

2. Bu Saziş 5 (beş) il ərzində qüvvədədir və avtomatik olaraq hər dəfə növbəti 5 (beş) illik müddətə uzadılacaqdır.

3. Hər bir Razılığa gələn Tərəf bu Sazişi istənilən vaxt yazılı xəbərdarlıq etməklə xitam edə bilər. Belə halda Saziş xitam notasının digər Razılığa gələn Tərəfə daxil olduğu tarixdən 30 (otuz) gün sonra qüvvədən düşür.

Bu Saziş Bakı şəhərində 23 iyun 2010-cu il tarixində iki əsl nüsxədə Azərbaycan və alman dillərində imzalanmışdır və hər iki mətn eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ELMAR MƏMMƏDYAROV
Xarici işlər naziri

AVSTRİYA FEDERAL HÖKUMƏTİ ADINDAN

MİXAEL ŞPİNDELEQQER
Avropa və beynəlxalq işlər üzrə federal naziri

"Azərbaycan Respublikası hökuməti və Birləşmiş Ərəb Əmirlikləri hökuməti arasında diplomatik pasportlara malik olan şəxslərin giriş vizasından azad edilməsi haqqında" Anlaşma Memorandumunun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Azərbaycan Respublikası hökuməti və Birləşmiş Ərəb Əmirlikləri hökuməti arasında diplomatik pasportlara malik olan şəxslərin giriş vizasından azad edilməsi haqqında" 2010-cu il iyunun 9-da Bakı şəhərində imzalanmış Anlaşma Memorandumu təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2010-cu il

№ 1062-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında diplomatik pasportlara malik olan şəxslərin giriş vizasından azad edilməsi haqqında Anlaşma Memorandumu

Bundan sonra 'Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti,

iki dost ölkə arasında ikitərəfli münasibətlərin və əməkdaşlığın inkişafını təşviq etmək arzusunda olaraq,

hər iki ölkənin diplomatik pasportlarına malik olan vətəndaşlarının bir-birinin dövlət ərazisinə daxil olmaq üçün ilkin giriş vizasından azad edəcəklərinə hazır olduqlarını vurğulayaraq,

1961-ci il Diplomatik münasibətlər haqqında Vyana Konvensiyasını və 1963-cü il Konsulluq münasibətləri haqqında Vyana Konvensiyasını nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Anlaşma Memorandumuna uyğun olaraq giriş vizasından azad edilən pasportlar ölkələrin etibarlı diplomatik pasportlarıdır.

Maddə 2

1. Tərəflər bir-birinin diplomatik pasportlarına malik olan vətəndaşlarına öz dövlət ərazilərinə ilkin giriş vizasız və rüsumsuz daxil olmağa, tərk etməyə və tranzit keçməyə icazə verəcəklər.

2. Tərəflərin diplomatik pasportlarına malik olan vətəndaşlarına bir-birinin dövlət ərazisində 90 (doxsan) gündən artıq olmayan müddətə qalmağa icazə veriləcəkdir.

Maddə 3

1. Tərəflər öz diplomatik pasportlarının nümunəsini bu Anlaşma Memorandumun qüvvəyə minməsindən ən azı 30 (otuz) gün əvvəl diplomatik kanallarla mübadilə edəcəklər.

2. Tərəflərdən biri öz diplomatik pasportlarına hər hansı dəyişiklikləri etdiyi təqdirdə, onların tətbiq olunması tarixdən 30 (otuz) gün əvvəl yeni pasportların nümunəsi digər Tərəfə ötürülməlidir.

Maddə 4

1. Tərəflərdən birinin vətəndaşları digər Tərəfin dövlət ərazisinə yalnız beynəlxalq sərnişin daşınması üçün müəyyən edilmiş sərhəd məntəqələrindən daxil ola bilərlər.

2. Diplomatik pasporta malik olan bir Tərəfin vətəndaşları qalma müddətləri ərzində digər Tərəfin dövlət ərazisində qüvvədə olan qanun və qaydalarına riayət edəcəkdir.

Maddə 5

1. Hər bir Tərəf digər Tərəfin diplomatik pasporta malik olan istənilən vətəndaşını "persona non grata" və ya arzuolunmaz hesab edərsə, onun öz dövlət ərazisinə daxil olmasına və ya orada qalmasına imtina etmək hüququnu özündə saxlayır.

2. Əgər bir Tərəfin vətəndaşı digər Tərəfin dövlət ərazisində öz pasportunu itirərsə, o həmin Tərəfin aidiyyəti qurumlarını məlumatlandırmalıdır. Aidiyyəti diplomatik nümayəndəlik və ya konsulluq öz vətəndaşına yeni pasport və ya səyahət sənədi verəcək və qəbul edən dövlətin aidiyyəti qurumlarını məlumatlandıracaqdır.

Maddə 6

1-ci Maddədə qeyd olunan diplomatik pasportlara malik olan şəxslər hər hansı əmək fəaliyyəti ilə məşğul olmağa və ya peşə təhsili almağa cəlb olunmasına hər iki ölkədə bu fəaliyyətlərlə bağlı tətbiq olunan qaydalara və qanunlara riayət etmədən icazə verilməyəcəkdir.

Maddə 7

Bu Anlaşma Memorandumu Tərəflərin iştirakçısı olduqları beynəlxalq müqavilələrindən və sazişlərdən irəli gələn hüquq və öhdəliklərinə təsir etmir.

Maddə 8

Bu Anlaşma Memorandumunun təfsiri və ya tətbiqi zamanı yaranan hər hansı fikir ayrılığı Tərəflər arasında məsləhətləşmələr və danışıqlar yolu ilə diplomatik kanallarla həll ediləcəkdir.

Maddə 9

1. Bu Anlaşma Memorandumuna Tərəflər arasında qarşılıqlı razılaşma əsasında və diplomatik kanallarla rəsmi notalar mübadiləsi ilə düzəlişlər edilə bilər.

2. Tərəflər milli təhlükəsizlik, ictimai asayiş və ya əhalinin sağlamlığı səbəblərindən bu Anlaşma Memorandumunun tətbiqini tam və ya qismən dayandıra bilər. Bu dayandırma barədə diplomatik kanallar vasitəsilə digər Tərəfə dərhal məlumat verilməlidir.

Maddə 10

Bu Anlaşma Memorandumu onun qüvvəyə minməsi üçün milli qanunvericilikdə tələb olunan müvafiq proseduraların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən 30 (otuz) gün sonra qüvvəyə minəcəkdir.

Bu Anlaşma Memorandumu Tərəflərdən birinin onu ləğv etmək niyyəti barədə yazılı şəkildə məlumat verməsinə qədər qeyri-müəyyən müddətə qüvvədə qalacaqdır.

Bu Anlaşma Memorandumu Tərəflərdən hər hansı birinin bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən 30 (otuz) gün sonra qüvvədən düşəcəkdir.

Bu Anlaşma Memorandumu Bakı şəhərində 9 iyun 2010-cu il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsir zamanı fikir ayrılığı yarandıqda, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ HÖKUMƏTİ ADINDAN
XƏLƏF XƏLƏFOV	*TARİQ ƏL HAYDAN*
Xarici işlər nazirinin müavini	*Xarici işlər nazirinin müavini*

"Azərbaycan Respublikası hökuməti və Misir Ərəb Respublikası hökuməti arasında diplomatik, xidməti və xüsusi pasportlara malik şəxslər üçün vizaların ləğv edilməsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Azərbaycan Respublikası hökuməti və Misir Ərəb Respublikası hökuməti arasında diplomatik, xidməti və xüsusi pasportlara malik şəxslər üçün vizaların ləğv edilməsi haqqında" 2010-cu il mayın 24-də Bakı şəhərində imzalanmış saziş təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2010-cu il

№ 1063-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti arasında diplomatik, xidməti və xüsusi pasportlara malik şəxslər üçün vizaların ləğv edilməsi haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti,

dövlətləri arasında dostluq münasibətlərinin və əməkdaşlığın daha da inkişaf etdirilməsini arzulayaraq,

iki dövlətin diplomatik, xidməti və xüsusi pasportlara malik olan şəxsləri üçün səyahət prosedurlarının sadələşdirilməsinə səy göstərərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bir Tərəfin dövlətinin etibarlı diplomatik, xidməti və xüsusi pasportlara malik olan vətəndaşları digər Tərəfin dövlətinin ərazisinə daxil olmaq, tranzit keçmək və orada 30 (otuz) gündən artıq olmayan müddətə qalmaq üçün viza tələbindən azad ediləcəkdir.

Maddə 2

Bir Tərəfin dövlətinin etibarlı diplomatik, xidməti və xüsusi pasportlarına malik, digər Tərəfin dövlətinin ərazisində yerləşən diplomatik və ya konsulluq nümayəndəliklərinin və beynəlxalq təşkilatların heyətinin üzvləri olan vətəndaşlarına, həmçinin onlarla birlikdə yaşayan etibarlı diplomatik, xidməti və xüsusi pasportlara malik ailə üzvlərinə, digər Tərəfin dövlətinin ərazisinə vizasız daxil olmaq və rəsmi təyinatı müddəti ərzində orada qalmaq üçün icazə veriləcəkdir.

Maddə 3

1-ci maddədə qeyd edilən bir Tərəfin dövlətinin etibarlı diplomatik, xidməti və xüsusi pasportlarına malik olan vətəndaşları digər Tərəfin dövlətinin ərazisində otuz (30) gündən artıq uzun müddətə qalmaq niyyətində olduqları halda, onlardan digər Tərəfin dövlətinin milli qanunvericiliyinə uyğun olaraq viza əldə etmək tələb olunacaqdır.

Maddə 4

Hər iki Tərəfin dövlətinin diplomatik, xidməti və xüsusi pasportlara malik olan vətəndaşları digər Tərəfin dövlətinin ərazisinə beynəlxalq sərnişin daşınması üçün rəsmi təyin edilmiş istənilən sərhəd keçid məntəqəsindən daxil olacaq və həmin ərazini tərk edəcəklər.

Maddə 5

Bu Saziş hər iki Tərəfin dövlətinin diplomatik, xidməti və xüsusi pasportlara malik olan vətəndaşlarını digər Tərəfin dövlətinin ərazisində qanunlara və qaydalara hörmət etmək öhdəliyindən azad etmir.

Maddə 6

Bu Saziş hər bir Tərəfin səlahiyyətli qurumlarının digər Tərəfin dövlətinin diplomatik, xidməti və xüsusi pasporta malik olan hər hansı vətəndaşını, qərarlarının səbəbini bildirmədən "persona non grata" hesab etdikdə, həmin vətəndaşın daxil olmasına və ya qalmasına icazə verməkdən imtina etmək hüququnu məhdudlaşdırmayacaqdır.

Maddə 7

1. Hər bir Tərəf milli təhlükəsizlik, ictimai asayiş və ya əhalinin sağlamlığının qorunması məqsədilə bu Sazişin qüvvəsini tam və ya qismən dayandırmaq hüququnu özündə saxlayır.

2. Belə dayandırma digər Tərəfin diplomatik kanallarla bildiriş aldıqdan iyirmi dörd

(24) saat sonra qüvvəyə minir. Hər bir Tərəf bu dayandırma aradan qaldırıldıqda da eyni qaydada hərəkət edəcəkdir.

Maddə 8

Hər iki Tərəf bu Sazişin qüvvəyə minməsindən ən azı 30 (otuz) gün əvvəl diplomatik kanallar vasitəsilə diplomatik, xidməti və xüsusi pasportların üç nümunəsini mübadilə edəcəkdir. Yeni pasportlar təqdim olunduqda və ya istifadə olunan pasportlara düzəlişlər edildikdə, bu dəyişikliklərin təqdim edilməsindən əvvəl, 30 (otuz) gündən gec olmayaraq hər bir Tərəf digər Tərəfi diplomatik kanallarla yeni və ya düzəlişlər edilmiş pasport nümunələri ilə təmin edəcəkdir.

Maddə 9

Bu Sazişin təfsiri və tətbiqi zamanı yarana biləcək hər hansı mübahisələr Tərəflər arasında diplomatik kanallar vasitəsi ilə həll ediləcəkdir.

Maddə 10

Bu Sazişə Tərəflərin qarşılıqlı razılığı ilə istənilən əlavə və dəyişikliklər edilə bilər. Belə əlavə və dəyişikliklər bu Sazişin ayrılmaz hissəsi olaraq ayrı-ayrı protokollar formasında rəsmiləşdiriləcək və bu Sazişin 11-ci maddəsinin müddəalarına uyğun olaraq qüvvəyə minəcəkdir.

Maddə 11

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş beş il müddətinə bağlanılır və Tərəflərdən birinin bu Sazişin müddətinin bitməsinə ən azı altı (6) ay qalmış onu ləğv etmək niyyətini yazılı şəkildə bildirmədiyi təqdirdə, onun qüvvəsi avtomatik olaraq eyni müddətlərə uzadılacaqdır.

Bu Saziş Bakı şəhərində 24 may 2010-cu il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Sazişin təfsirində fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	MİSİR ƏRƏB RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*ƏHMƏD ƏBUL ĞEYT*
Xarici işlər naziri	*Xarici işlər naziri*

"Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin əməkçi miqrantlarının və onların ailə üzvlərinin hüquqi statusu haqqında" Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin əməkçi miqrantlarının və onların ailə üzvlərinin hüquqi statusu haqqında" 2008-ci il noyabrın 14-də Kişinyov şəhə-

rində imzalanmış Konvensiya Azərbaycan Respublikasının ona dair qeyd-şərti ilə (qeyd-şərtin mətni əlavə olunur) təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2010-cu il

№ 1064-IIIQ

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin əməkçi miqrantlarının və onların ailə üzvlərinin hüquqi statusu haqqında Konvensiya

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlər (bundan sonra Tərəflər adlandırılacaq),

öz qanunvericiliyi və beynəlxalq öhdəliklərlə müəyyən edilmiş qaydada əməkçi miqrantlara, onların ailə üzvlərinə və qəbul edən Tərəfin vətəndaşlarına eyni münasibətin təmin edilməsinə şərait yaradılmasına çalışaraq,

milli maraqlarına əsaslanaraq Tərəflərin ərazisində işçi qüvvəsinin yerdəyişməsinə əlverişli şəraitin yaradılmasının zəruriliyini dərk edərək,

əmək miqrasiyası axınının effektiv tənzimlənməsi və bu axının həcmi, istiqaməti və tərkibinin Tərəflərin sosial-iqtisadi inkişafı marağına uyğunlaşdırılmasına nail olunması məqsədi ilə,

müxtəlif xalqların nümayəndələri arasında qarşılıqlı anlaşma, dözüm, hörmət prinsiplərini rəhbər tutaraq, Müstəqil Dövlətlər Birliyinin inkişafı marağından və Birləşmiş Millətlər Təşkilatının 10 dekabr 1948-ci il tarixli İnsan Haqları ümumi Bəyannaməsinə, həmçinin insan haqları və əməkçi miqrantların hüquqlarının mühafizəsi sahəsində Birləşmiş Millətlər Təşkilatının və Müstəqil Dövlətlər Birliyinin, onlar üçün icrası məcburi olan digər başlıca sənədlərinə tərəfdarlıqdan çıxış edərək,

aşağıdakılar barədə razılığa gəlmişlər:

I fəsil

Tətbiq dairəsi və anlayışlar

Maddə 1

Bu Konvensiyanın məqsədləri üçün aşağıda göstərilən terminlər bu mənaları daşıyırlar:

əməkçi miqrant - vətəndaşı olmadığı və daimi yaşamadığı Tərəfin ərazisində qanuni əsaslarla qalan və qanuni əsaslarla haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olan digər Tərəfin vətəndaşı olan şəxs, həmçinin digər Tərəfin ərazisində daimi yaşayan vətəndaşlığı olmayan şəxs;

sərhədyanı işçi - bir Tərəfin sərhədyanı ərazisində işləyən və hər gün və ya həftədə ən azı bir dəfə sərhədyanı ərazidə daimi yaşayış yerini saxladığı Tərəfə qayıdan əməkçi miqrant;

mövsümi işçi - öz xarakterinə görə mövsümi şəraitlərlə bağlı olan və ilin müəyyən

dövrlərində həyata keçirilən işlə məşğul olan əməkçi miqrant;

işəgötürən - qəbul edən Tərəfin qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada və şərtlərlə əməkçi miqranta iş təqdim edən hüquqi və ya fiziki şəxs;

əməkçi miqrantın ailə üzvü - əməkçi miqrantla nikahda olan şəxs, həmçinin onun himayəsində olan uşaqları və qəbul edən Tərəfin qanunvericiliyi ilə ailə üzvü sayılan digər şəxslər;

daimi yaşayış Tərəfi - əməkçi miqrantın ərazisində daimi yaşadığı və digər Tərəfin ərazisinə haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün ərazisindən çıxdığı dövlət;

tranzit dövləti - əməkçi miqrantın qəbul edən Tərəfə və ya qəbul edən Tərəfdən daimi yaşayış Tərəfinə getdiyi zaman keçdiyi dövlət;

qəbul edən Tərəf - əməkçi miqrantın haqqı ödənilən əmək fəaliyyətini həyata keçirdiyi dövlət;

səlahiyyətli orqanlar - Tərəflərin, bu Konvensiyanın yerinə yetirilməsi ilə bağlı məsələlərin səlahiyyətlərinə aid olduğu dövlət orqanları;

əmək şəraiti - insanın əmək fəaliyyətini həyata keçirdiyi, əmək prosesinin və istehsalat mühitinin əmək prosesində onun sağlamlığına, iş qabiliyyətinə təsir edən faktorların məcmusu, həmçinin qəbul edən Tərəfin qanunvericiliyinə uyğun müəyyən olunmuş iş və istirahət vaxtının müddəti, ödənişli məzuniyyətlərin verilməsi qaydası, əməyin ödənilməsi və digər əmək şəraiti;

əməyin mühafizəsi - qəbul edən Tərəfin qanunvericiliyi ilə müəyyən edilmiş hüquqi, sosial-iqtisadi, təşkilati-texniki, sanitar-gigiyenik, müalicə-profilaktika, bərpa və digər tədbir və vasitələri özündə birləşdirən, əmək fəaliyyəti prosesində əməkçi miqrantların sağlamlığının və həyatının təhlükəsizliyinin təminatı sistemi;

miqrasiya dövriyyəsi - daimi yaşayış Tərəfindən çıxış, tranzit, qəbul edən Tərəfə giriş, qəbul edən Tərəfin ərazisində qalmaq və orada haqqı ödənilən əmək fəaliyyətinin həyata keçirilməsi, həmçinin daimi yaşayış Tərəfinə qayıdış dövrünü əhatə edən zaman müddəti.

Maddə 2

Bu Konvensiya cinsinə, irqinə, dilinə, dininə və ya əqidəsinə, siyasi və ya digər baxışlarına, milli, etnik və ya sosial mənşəyinə, Tərəflərin vətəndaşlığına, yaşına, iqtisadi, əmlak və ailə vəziyyətinə və ya digər hər hansı əsaslara görə fərq qoyulmadan qəbul edən Tərəfin ərazisində qanuni əsaslarla yaşayan bütün əməkçi miqrantlara və onların ailə üzvlərinə şamil edilir.

Bu Konvensiya əməkçi miqrantların və onların ailə üzvlərinin bütün miqrasiya dövriyyəsi zamanı yaranan münasibətləri tənzimləyir.

Maddə 3

Bu Konvensiyanın qüvvəsi aşağıdakılara şamil edilmir:

Tərəflərin beynəlxalq təşkilatlara göndərdiyi və ya beynəlxalq təşkilatlar, qurumlar, ya-

xud rəsmi funksiyaların öz ərazisindən kənarda yerinə yetirilməsi üçün hər hansı bir Tərəfin cəlb etdiyi və statusu beynəlxalq hüquq normaları və ya Tərəflərin tərəfdar çıxdığı beynəlxalq müqavilələr əsasında tənzimlənən şəxslərə;

Tərəflərdən birinin onun ərazisindən kənara inkişaf və ya əməkdaşlıq proqramlarında iştirak etmək məqsədilə göndərdiyi və ya işə cəlb etdiyi, işə qəbulu və statusu qəbul edən Tərəflə bağlanmış beynəlxalq müqavilələr əsasında tənzimlənən və bu beynəlxalq müqavilələr əsasında əməkçi miqrant hesab edilməyən şəxslərə;

bir Tərəfin vətəndaşı olan və digər Tərəfin ərazisində filialı (nümayəndəliyi) yerləşən təşkilatın adından və onun maraqları üçün həmin Tərəf ərazisində işləri həyata keçirən şəxslərə;

qəbul edən Tərəfin qanunvericiliyində və onun tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa hal nəzərdə tutulmayıbsa, sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərə;

qəbul edən Tərəfin ərazisində qaçqın statusu almaq və ya sığınacaq almaq məqsədilə vəsatət qaldıran şəxslərə;

qəbul edən Tərəfin ərazisində qaçqın statusu və ya sığınacaq alan şəxslərə;

qəbul edən Tərəfin rəsmi qaydada qeydiyyata alınmış dini qurumlarında dini fəaliyyət göstərən din xadimlərinə;

dənizçilərə;

təhsil almaq məqsədilə gələn şəxslərə;

qəbul edən Tərəfin ərazisində xarici şirkətlərin nümayəndəliklərinin və ya kütləvi informasiya vasitələrinin əməkdaşları qismində akkreditə edilmiş şəxslərə.

Maddə 4

1. Tərəflərdən hər biri öz qanunvericiliyinə uyğun olaraq əməkçi miqrantlar üçün aşağıdakılarla bağlı məhdudiyyətlər qoya bilər:

Tərəfin maraqları baxımından cəlb edilən iş kateqoriyalarına, məşğulluq və ya fəaliyyət növlərinə;

yerli əmək bazarının qorunması və boş iş yerlərinin tutulmasında öz vətəndaşlarının üstün hüququnu təmin etmək məqsədi ilə haqqı ödənilən əmək fəaliyyətinə buraxılması.

2. Milli təhlükəsizliyin, ictimai asayişin, əhalinin sağlamlığının və mənəviyyatının qorunmasının təmin edilməsi və ya digər şəxslərin hüquq və azadlıqlarının müdafiəsi məqsədi ilə əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqları Tərəflərin qanunvericiliyində nəzərdə tutulmuş qaydada məhdudlaşdırıla bilər.

3. Tərəflər bu maddə ilə əməkçi miqrantlar üçün nəzərdə tutulmuş məhdudiyyətlərin qəbul edilməsi haqqında bu məhdudiyyətlərin qəbul edildiyi tarixdən 45 gün ərzində depozitariyə məlumat verməlidir.

II fəsil

ƏMƏKÇİ MİQRANTLAR VƏ ONLARIN AİLƏ ÜZVLƏRİNİN ƏSAS HÜQUQLARI

Maddə 5

Əməkçi miqrantlar və onların ailə üzvləri qəbul edən Tərəfin qanunvericiliyi və/və ya beynəlxalq müqavilələrlə müəyyən edilmiş qaydada onun ərazisinə gəlmək, ərazisində qalmaq, yerini dəyişmək və ərazisindən getmək hüququna malikdilər.

Maddə 6

1. Əməkçi miqrantlar qəbul edən Tərəfin ərazisində aşağıdakılarla bağlı qanunvericiliklə həmin Tərəfin vətəndaşları üçün nəzərdə tutulmuş hüquqlara malikdilər:

təhlükəsiz əmək şəraiti;

eyni işə görə eyni əmək haqqı verilməsi, həmçinin əlavə ödəmələr və kompensasiyalar almaq hüququna malik şəxslərlə eyni qaydada əlavə ödəmələrin və kompensasiyaların verilməsi;

haqqı ödənilməklə mənzildən istifadə etmək;

qəbul edən Tərəfin qanunvericiliyinə uyğun olaraq pensiya istisna olmaqla, sosial təminat (sosial sığorta);

qəbul edən Tərəfin qanunvericiliyinə uyğun olaraq istehsalatda bədbəxt hadisə və peşə xəstəliklərindən məcburi sosial sığorta;

istehsalatda bədbəxt hadisə və ya peşə xəstəlikləri nəticəsində həyat və sağlamlığa dəymiş ziyanın ödənilməsi;

bu Konvensiyanın 4-cü maddəsi ilə nəzərdə tutulmuş məhdudiyyətlər nəzərə alınmaqla, əməkçi miqrantdan asılı olmayan səbəblərdən iş yerinin itirilməsi halında yeni haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq.

2. Əməkçi miqrantların qəbul edən Tərəfi ərazisində əmək fəaliyyətinin həyata keçirilməsi hüququ həmin Tərəfin qanunvericiliyi və tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə tənzimlənir.

Maddə 7

1. Əməkçi miqrantlar və onların ailə üzvləri qəbul edən Tərəfin qanunvericili və tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq aşağıdakı əsas hüquqlara malikdilər:

yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq;

nikaha daxil olmaq;

qanun və məhkəmə qarşısında qəbul edən Tərəfin vətəndaşları ilə bərabərlik;

şəxsi və ailə həyatına qanunsuz müdaxilədən müdafiə;

mənzil toxunulmazlığına qanunsuz qəsdlərdən müdafiə;

şəxsi yazışma və digər əlaqə formalarının məxfiliyinin qorunması;

şərəf, ləyaqət və işgüzar nüfuzun qorunması;

qanuni əsaslarla ona məxsus olan xüsusi mülkiyyətin müdafiəsi;

təhsil almaq;

mədəni həyatda iştirak;

pensiya istisna olmaqla, sosial təminat (sosial sığorta);

pulsuz təcili (təxirəsalınmaz) tibbi yardım və ödənişli tibbi yardım almaq;

qəbul edən Tərəfdə uşağın anadan olmasının qeydiyyata alınması.

2. Tərəflər qəbul edən Tərəfin qanunvericiliyinə uyğun olaraq əməkçi miqrantların və onların ailə üzvlərinin söz azadlığı, din, öz fikrini ifadə etmək, birlik və ictimai təşkilat yaratmaq, həmkarlar ittifaqlarına üzv olmaq hüquqlarının həyata keçirilməsinə təminat verir.

3. Tərəfin qanunvericiliyinə və tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq əməkçi miqrant və onun ailə üzvləri Tərəflərdən hər hansı birinin ərazisində hüququn subyekti kimi tanınmaq hüququna malikdirlər.

Maddə 8

Tərəflər əməkçi miqrant və ya onun ailə üzvlərinin köləlikdə və ya əsarətdə saxlanılmasına, məcburi əməyə cəlb edilməsinə, işgəncələrə məruz qalmasına, onlara qarşı qəddar, insan şərəf və ləyaqətini alçaldan davranış və ya cəza tədbiq edilməsinə yol vermirlər.

Maddə 9

Əməkçi miqrantlar və onların ailə üzvlərinin şəxsi əmlakının, həmçinin əmək fəaliyyəti üçün zəruri olan alətlərinin gətirilməsi və çıxarılması zamanı beynəlxalq müqavilələr və qəbul edən Tərəfin qanunvericiliyi tədbiq olunur.

Maddə 10

Əməkçi miqrantlar bu Konvensiyaya uyğun olaraq əmək fəaliyyətləri zamanı qazandıqları pul vəsaitini qəbul edən Tərəfin qanunvericiliyi və beynəlxalq müqavilələrə uyğun olaraq həmin Tərəfin pul vahidi və beynəlxalq valyuta ilə qəbul edən Tərəfin ərazisindən köçürmək və aparmaq hüququna malikdirlər.

Maddə 11

Əməkçi miqrantlar və onların ailə üzvləri Tərəflərin səlahiyyətli orqanlarından aşağıdakılara dair pulsuz məlumat əldə etmək hüququna malikdirlər:

onların bu Konvensiyadan irəli gələn hüquq və azadlıqlarının həyata keçirilməsi qaydaları;

onların ölkədə qalma və haqqı ödənilən əmək fəaliyyətinin həyata keçirilməsi şərtləri, həmçinin qəbul edən Tərəfin və ya tranzit dövlətin qanunvericiliyindən və beynəlxalq müqavilələrindən irəli gələn hüquq və vəzifələri.

Maddə 12

1. Əməkçi miqrantlar və onların ailə üzvləri, qəbul edən Tərəfin qanunvericiliyində və tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulan əsaslar istisna olmaqla, onun ərazisindən çıxarıla, deportasiyaya və ya readmissiyaya məruz qala bilməzlər.

2. Tərəflər təminat verirlər ki, qəbul edən Tərəfin qanunvericiliyi ilə müəyyən edilmiş qaydada fəaliyyət göstərən səlahiyyətli orqan istisna olmaqla heç kəs əməkçi miqrantın və onun ailə üzvlərinin şəxsiyyətini təsdiq edən sənədləri, həmçinin ölkə ərazisinə girişə, həmin ərazidə qalmağa və/və ya haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmağa hüquq verən sənədləri onlardan ala bilməz.

Bu sənədlərin səlahiyyətli orqanlar tərəfindən alınması, yalnız onların alınmasını təsdiq edən rəsmi sənəd verilməklə həyata keçirilir. Əməkçi miqrant və/və ya onun ailə üzvlərinin pasportunun və ya şəxsiyyətini təsdiq edən sənədin, həmçinin ölkə ərazisinə girişə, həmin ərazidə qalmağa və/və ya haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmağa hüquq verən sənədlərin məhv edilməsinə və ya korlanmasına yol verilmir.

Maddə 13

1. Əməkçi miqrantların ailə üzvləri (sərhədyanı və mövsümi işçilər istisna olmaqla) qəbul edən Tərəfin ərazisində onun vətəndaşları kimi ümumi təhsil və əlavə peşə təhsili almaq üzrə eyni hüquqa malikdirlər.

"Ümumi təhsil" və "əlavə peşə təhsili" anlayışlarının mənası qəbul edən Tərəfin qanunvericiliyi ilə müəyyən edilir.

2. Tərəflər əməkçi miqrantların ailə üzvlərinin qəbul edən Tərəfin dilinin öyrənilməsi proqramlarının təşkilinə köməklik göstərir və ana dilinin öyrənilməsinə maneçilik törətmirlər.

III fəsil

SƏRHƏDYANI VƏ MÖVSÜMİ İŞÇİLƏRƏ VƏ ONLARIN AİLƏ ÜZVLƏRİNƏ TƏTBİQ EDİLƏN MÜDDƏALAR

Maddə 14

1. Sərhədyanı işçilər bu Konvensiyanın 4-cü maddəsi ilə nəzərdə tutulmuş məhdudiyyətlər nəzərə alınmaqla, qəbul edən Tərəfin ərazisində olmaları və haqqı ödənilən əmək fəaliyyətini həyata keçirmələri ilə əlaqədar onlara verilə bilən, bu Konvensiya ilə nəzərdə tutulmuş hüquqlardan istifadə edirlər.

2. Tərəflər sərhədyanı işçilər üçün sadələşdirilmiş sərhəd keçidi və işə düzəlmə qaydaları ilə bağlı məsələləri ikitərəfli beynəlxalq müqavilələr əsasında tənzimləyirlər.

Maddə 15

1. Bu Konvensiyanın 4-cü maddəsi ilə nəzərdə tutulmuş məhdudiyyətlər nəzərə alınmaqla, Konvensiyanın müddəaları mövsümi işçilərə əmək fəaliyyətini həyata keçirdikləri dövrdə şamil edilir.

2. Tərəflər mövsümi işçilər üçün sadələşdirilmiş işədüzəlmə qaydaları ilə bağlı məsələləri beynəlxalq müqavilələr əsasında tənzimləyirlər.

IV fəsil

ƏMƏKÇİ MİQRANTLAR VƏ ONLARIN AİLƏ ÜZVLƏRİNİN HÜQUQLARININ QORUNMASI SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ

Maddə 16

1. Tərəflər əməkçi miqrantları Tərəflərin ərazisinə işə cəlb etmək və onların əməyindən istifadə etmək sahəsində qarşılıqlı fəaliyyət göstərirlər.

2. Daimi yaşayış Tərəfi və qəbul edən Tərəf əməkçi miqrantların qəbul edən Tərəfin ərazisində qalma və haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olma müddəti bitdikdən sonra, həmçinin onlar tərəfindən qəbul edən Tərəfin miqrasiya sahəsindəki qanunvericiliyinin pozulması hallarında onların geri qayıtması məsələləri ilə bağlı, o cümlədən readmissiya sazişlərinin bağlanması yolu ilə, bütün mümkün tədbirləri görürlər.

3. Tərəflər, əməkçi miqrantlar və onların ailə üzvləri üçün biometrik göstəricilərin daxil edildiyi sənədlərin tərtib edilməsi və daimi yaşayış Tərəfindən gələn və qəbul edən Tərəfin ərazisində əmək fəaliyyəti ilə məşğul olan əməkçi miqrantlar haqqında bu sənədlər əsasında məlumat bankının yaradılması, həmçinin əməkçi miqrantlar haqqında məlumat mübadiləsi üzrə razılaşdırılmış tədbirlər həyata keçirirlər.

Maddə 17

Tərəflər əməkçi miqrantların tibbi sığortası sahəsində əməkdaşlıq edirlər.

Maddə 18

Qəbul edən Tərəf və daimi yaşayış Tərəfi əməkçi miqrantların qəbul edən Tərəfin əmək bazarında tələbat olan peşə və ixtisaslar üzrə hər iki Tərəfin ərazisində peşə təhsilinin həyata keçirilməsi məsələləri ilə bağlı əməkdaşlıq edə bilərlər.

Maddə 19

Tərəflərin səlahiyyətli orqanları əməkçi miqrantların gəlirlərinə və əmlakına münasibətdə ikiqat vergitutmaya cəlb olunmaması məqsədi ilə müvafiq Tərəflərin tərəfdar çıxdıqları beynəlxalq müqavilələrin müddəalarını rəhbər tuturlar.

Maddə 20

Əməkçi miqrantların və onların ailə üzvlərinin pensiya təminatı daimi yaşayış Tərəfinin qanunvericiliyi və Tərəflərin beynəlxalq müqavilələri ilə tənzimlənir.

Maddə 21

Tərəflər əmək, əhalinin məşğulluğu və əmək miqrasiyası sahəsində, ölkəyə gəlmək, ölkədə qalmaq, yer deyişmək, ölkədən getmək və haqqı ödənilən əmək fəaliyyətinin həyata keçirilməsi qaydaları ilə bağlı qanunvericiliyə edilmiş dəyişikliklər, həmçinin həyat şəraiti və yerli əmək bazarlarının vəziyyəti haqqında vaxtlı-vaxtında məlumat mübadiləsi aparırlar.

Maddə 22

Əməkçi miqrant və ya onun ailə üzvü vəfat etdikdə Tərəflərin səlahiyyətli orqanları:

daimi yaşayış Tərəfinin diplomatik nümayəndəliyini və ya konsulluq müəssisəsini

əməkçi miqrantın və ya onun ailə üzvünün Ölüm faktı haqda məlumatlandırır, onlara ölüm faktı üzrə lazımi məlumatlar təqdim edirlər;

vəfat etmiş əməkçi miqrantın cənazəsinin və şəxsi əşyalarının daimi yaşayış Tərəfinə göndərilməsinin işəgötürən tərəfindən həyata keçirilməsinə, eləcə də işəgötürənin vəfat etmiş əməkçi miqrant və onun ailə üzvləri qarşısında öz maliyyə öhdəliklərinin əmək müqaviləsinin şərtlərinə uyğun olaraq həyata keçirməsinə köməklik göstərirlər.

V fəsil

YEKUN MÜDDƏALAR

Maddə 23

1. Bu Konvensiyanın heç bir müddəası müvafiq Tərəfin qanunvericiliyi və hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normaları və prinsipləri ilə tanınan və təminat verilən əsas insanın hüquq və azadlıqlarının məhdudlaşdırılması və ya pozulması kimi şərh edilə bilməz.

2. Bu Konvensiya ilə əməkçi miqrantlar və onların ailə üzvlərinin hüquq və azadlıqları ilə bağlı müəyyən edilmiş məhdudiyyətlər onların tətbiqi nəzərdə tutulan məqsədlər istisna olmaqla başqa məqsədlər üçün tətbiq edilməməlidir.

Maddə 24

Tərəflər bu Konvensiyanı imzaladıqları tarixdən üç aydan gec olmayaraq onun həyata keçirilməsi həvalə ediləcək səlahiyyətli orqanları müəyyən edir və bu barədə depozitariyə məlumat verirlər.

Səlahiyyətli orqanların dəyişdirildiyi halda Tərəflər dərhal bu barədə depozitariyə məlumat verirlər.

Maddə 25

Bu Konvensiya Tərəflərin imzaladıqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə təsir etmir.

Maddə 26

Bu Konvensiyanın müddəalarının həyata keçirilməsi vəziyyətinə dair məsələlər Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin miqrasiya orqanlarının rəhbərləri Şurasının, habelə Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin əmək, miqrasiya və əhalinin sosial müdafiəsi üzrə Məşvərət Şurasının iclaslarında baxılır.

Maddə 27

Bu Konvensiyanın tətbiqi və ya onun şərhi ilə bağlı yaranan mübahisəli məsələlər maraqlı Tərəflər arasında məsləhətləşmələr və danışıqlar yolu ilə həll edilir.

Maddə 28

Bu Konvensiya onun qüvvəyə minməsi üçün onu imzalamış Tərəflərin zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında üçüncü bildirişin depozitari tərəfindən alındığı tarixdən 30 gün sonra qüvvəyə minir.

Bu Konvensiya dövlətdaxili prosedurları gec yerinə yetirmiş Tərəflər üçün müvafiq sə-

nədlərin depozitari tərəfindən alındığı tarixdən 30 gün sonra qüvvəyə minir.

Maddə 29

Bu Konvensiyaya Tərəflərin razılığı ilə dəyişikliklər və əlavələr edilə bilər. Dəyişikliklər və əlavələr ayrıca protokolla rəsmiləşdirilir və Konvensiyanın 28-ci maddəsində nəzərdə tutulmuş qaydada qüvvəyə minir.

Maddə 30

Hər bir Tərəf bu Konvensiyanın qüvvədə olduğu müddətdə yaranmış öhdəlikləri tənzimləyərək Konvensiyadan çıxış tarixindən azı 12 ay əvvəldən depozitariya bu barədə yazılı bildiriş göndərməklə Konvensiyadan çıxa bilər.

Maddə 31

Bu Konvensiya qüvvəyə mindikdən sonra Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan hər bir dövlətin qoşulması üçün açıqdır. Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan hər bir dövlət qoşulma haqqında sənədləri depozitariyə təqdim etməklə bu Konvensiyaya qoşula bilər.

Qoşulan Tərəf üçün Konvensiya belə qoşulma haqqında sənədin depozitari tərəfindən alındığı tarixdən 30 gün sonra qüvvəyə minir.

Maddə 32

Bu Konvensiya qüvvəyə mindiyi tarixdən beş il ərzində qüvvədə qalır. Bu müddət bitdikdən sonra, Tərəflər başqa qərar qəbul etmədikdə, Konvensiya avtomatik olaraq hər dəfə növbəti beş illik müddətə uzadılır.

Bu Konvensiya Kişinyov şəhərində, 2008-ci il noyabrın 14-də, 1 əsl nüsxədə rus dilində imzalanmışdır. Nüsxənin əsli Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsində saxlanılır və Komitə onun təsdiq edilmiş surətini Konvensiyanı imzalamış hər bir dövlətə göndərir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ARTUR RASİZADƏ
Baş nazir

ERMƏNİSTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

TİQRAN SARKİSYAN
Baş nazir

BELARUS RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

SERGEY SİDORSKİ
Baş nazir

MOLDOVA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

imza yoxdur

RUSİYA FEDERASİYASI HÖKUMƏTİ ADINDAN

VLADİMİR PUTİN
Baş nazir

TACİKİSTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

AKİL AKILOV
Baş nazir

GÜRCÜSTAN HÖKUMƏTİ ADINDAN

imza yoxdur

QAZAXISTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

KARİM MASİMOV
Baş nazir

QIRĞIZ RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

İQOR ÇUDİNOV
Baş nazir

TÜRKMƏNİSTAN HÖKUMƏTİ ADINDAN

imza yoxdur

ÖZBƏKİSTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

RUSTAM KASIMOV
Baş nazirinin müavini

UKRAYNA HÖKUMƏTİ ADINDAN

YULİYA TİMOŞENKO
Baş nazir

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin əməkçi miqrantlarının və onların ailə üzvlərinin hüquqi statusu haqqında Konvensiyaya dair Azərbaycan Respublikasının qeyd-şərti

Hazırkı Konvensiyanın 4-cü maddəsinin müddəalarının tətbiq olunması, insan və vətəndaş hüquq və əsas azadlıqlarının müdafiəsi sahəsində beynəlxalq hüququn ümumtanınmış prinsip və normaları ilə nəzərdə tutulmuş insan və vətəndaş hüquq və əsas azadlıqlarının müdafiəsi səviyyəsinin məhdudlaşdırılmasına gətirib çıxarmamalıdır.

MDB-nin iştirakçısı olan dövlətlərin əməkçi miqrantları və onların ailə üzvlərinin hüquqi statusu haqqında Konvensiyaya dair Qazaxıstan Respublikasının qeyd-şərti

Qazaxıstan Respublikası hazırkı Konvensiyanın 7-ci maddəsinin 12-ci abzası və 13-cü maddəsinin 1-ci bəndinin müddəalarının tətbiqi zamanı öz milli qanunvericiliyinin tələblərini rəhbər tutacaqdır.

Qazaxıstan Respublikasının Baş naziri K.Məsimov

"Azərbaycan Respublikası hökuməti və Avropa Birliyi arasında hava xidmətlərinin müəyyən aspektlərinə dair" Sazişin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Azərbaycan Respublikası hökuməti və Avropa Birliyi arasında hava xidmətlərinin müəyyən aspektlərinə dair" 2009-cu il iyulun 7-də Strasburq şəhərində imzalanmış saziş təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2010-cu il

№ 1065-IIIQ

Azərbaycan Respublikası hökuməti və Avropa Birliyi arasında hava xidmətlərinin müəyyən aspektlərinə dair Saziş

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ

bir tərəfdən və

AVROPA BİRLİYİ

digər tərəfdən

(bundan sonra "Tərəflər" adlandırılır)

Azərbaycan Respublikası ilə Avropa Birliyinin bir neçə Üzv Dövləti arasında Birliyin qanunvericiliyinə zidd müddəaları olan hava əlaqəsi haqqında ikitərəfli sazişlərin bağlandığını qeyd edərək;

Avropa Birliyinin Üzv Dövlətləri və üçüncü ölkələr arasında hava əlaqəsi haqqında ikitərəfli

sazişlərə daxil edilə bilən bır neyə aspektə dair Avropa Birliyinin xüsusi səlahiyyətə malik

olduğunu qeyd edərək;

Avropa Birliyinin qanunlarına uyğun olaraq hər hansı bir Üzv Dövlətdə yaradılan Birliyin aviasiya şirkətlərinin Avropa Birliyinin Üzv Dövlətləri və üçüncü ölkələr arasında hava marşrutlarına ayrı-seçkilik olmadan daxil olmaq hüququna malik olduğunu qeyd edərək;

Avropa Birliyi və müəyyən üçüncü ölkələr arasında bağlanan. bu üçüncü ölkələrin vətəndaşlarına Avropa Birliyinin qanunlarına uyğun olaraq lisenziya verilmiş aviasiya şirkətlərinə sahib olmaq imkanı verən sazişləri nəzərə alaraq;

Azərbaycan Respublikası və Avropa Birliyi arasında hava əlaqəsinin yaradılması və belə hava əlaqəsinin davamlılığının saxlanılması üçün möhkəm hüquqi bazanın təşkili məqsədi ilə Azərbaycan Respublikası və Avropa Birliyinin Üzv Dövlətləri arasında bağlanan hava əlaqəsi haqqında ikitərəfli sazişlərdə Birliyin qanunvericiliyinə zidd olan müddəaların Birliyin qanunvericiliyinə tamamilə uyğunlaşdırılmalı olduğunu etiraf edərək;

Azərbaycan Respublikası və Avropa Birliyinin Üzv Dövlətləri arasında bağlanan hava əlaqəsi

haqqında ikitərəfli sazişlərin Birliyin qanunvericiliyinə zidd olmayan müddəalarına dəyişikliyə və əlavəyə ehtiyac olmadığını qeyd edərək;

Bu danışıqların bir hissəsi olaraq, Azərbaycan Respublikası və Avropa Birliyi arasında hava daşımalarının ümumi həcmini artırmaq. Azərbaycan Respublikasının hava daşıyıcıları və Birliyin hava daşıyıcıları arasında balansa təsir etmək və ya nəqliyyat hüquqlarına aid olan mövcud hava əlaqəsi haqqında ikitərəfli sazişlərin müddəalarına dəyişikliklər edilməsi barədə danışıqlar aparmağın Avropa Birliyinin məqsədi olmadığını qeyd edərək;

AŞAĞIDAKILAR BARƏSİNDƏ RAZILIĞA GƏLDİLƏR:

MADDƏ 1

Ümumi müddəalar

1. Bu Sazişin məqsədləri üçün "Üzv Dövlətlər" ifadəsi Avropa Birliyinin Üzv Dövlətləri mənasını bildirir.

2. 1 nömrəli əlavədə sadalanan hər bir Sazişdə həmin Sazişə tərəf olan Üzv Dövlətin vətəndaşlarına istinadlar Avropa Birliyinin Üzv Dövlətlərinin vətəndaşlarına istinadlar kimi başa düşüləcəkdir.

3. 1 nömrəli əlavədə sadalanan hər bir Sazişdə həmin Sazişə tərəf olan Üzv Dövlətin hava

daşıyıcılarına və ya aviasiya şirkətlərinə istinadlar bu Üzv Dövlət tərəfindən təyin olunmuş hava

daşıyıcılarına və ya aviasiya şirkətlərinə istinadlar kimi başa düşüləcəkdir.

MADDƏ 2

Üzv Dövlət tərəfindən təyinat

1. Bu maddənin 2-ci və 3-cü bəndlərinin müddəaları 2 nömrəli əlavənin (a) və (b) bəndlərində qeyd olunan, aidiyyəti Üzv Dövlət tərəfindən hər hansı bir hava daşıyıcısının təyinatına, ona səlahiyyət verilməsinə və Azərbaycan Respublikası tərəfindən icazə verilməsinə, habelə hava daşıyıcısının səlahiyyəti və ya icazəsindən imtina edilməsi, onun ləğv edilməsi, təxirə salınması və ya məhdudlaşdırılmasına dair maddələrin müvafiq müddəalarını münasib olaraq əvəz edəcəkdir.

2. Üzv Dövlət tərəfindən təyinat alınan kimi, Azərbaycan Respublikası prosedur gecikdirilmə minimal olmaqla, müvafiq səlahiyyət və icazələri aşağıdakı şərtlərlə təmin edəcəkdir:

i. hava daşıyıcısı onu təyin edən Üzv Dövlətin ərazisində Avropa Birliyini yaradan Müqaviləyə uyğun olaraq yaradılıb və Avropa Birliyinin qanunvericiliyinə əsasən qüvvədə olan İstismar Lisenziyasına malikdir;

ii. hava daşıyıcısına tənzimedici səmərəli nəzarət Hava İstismarçısı Sertifikatının verilməsinə məsuliyyət daşıyan Üzv Dövlət tərəfindən həyata keçirilir, dəstəklənir və təyinatda müvafiq aviasiya hakimiyyəti orqanları aydın müəyyən edilmişdir və

iii. hava daşıyıcısı Üzv Dövlətlərə və/və ya onların vətəndaşlarına və /və ya 3 nömrəli əlavədə sadalanan digər dövlətlərə və/və ya həmin digər dövlətlərin vətəndaşlarına birbaşa və ya mülkiyyətdə pay çoxluğu ilə məxsusdur və məxsus olmaqda davam edəcəkdir və həmin dövlətlər və/və ya həmin vətəndaşlar tərəfindən həmişə səmərəli şəkildə nəzarət ediləcəkdir.

3. Azərbaycan Respublikası aşağıdakı hallarda Üzv Dövlət tərəfindən təyin edilmiş hava daşıyıcısının səlahiyyətlərindən və ya icazəsindən imtina edə, onu ləğv edə, təxirə sala və ya məhdudlaşdıra bilər:

i. hava daşıyıcısı Avropa Birliyini yaradan Müqaviləyə uyğun olaraq onu təyin edən Üzv Dövlətin ərazisində yaradılmayıb və ya Avropa Birliyinin qanunvericiliyinə əsasən qüvvədə olan İstismar Lisenziyası yoxdur;

ii. hava daşıyıcısına tənzimedici səmərəli nəzarət Hava İstismarçısı Sertifikatının verilməsinə məsuliyyət daşıyan Üzv Dövlət tərəfindən həyata keçirilmir, dəstəklənmir və ya təyinatda müvafiq aviasiya hakimiyyəti orqanları aydın müəyyən edilməmişdir, və ya

iii. hava daşıyıcısı Üzv Dövlətlərə və/və ya onların vətəndaşlarına və/və ya 3 nömrəli əlavədə sadalanan digər dövlətlərə və/və ya həmin digər dövlətlərin vətəndaşlarına birbaşa və ya mülkiyyətdə pay çoxluğu ilə məxsus deyildir və ya səmərəli şəkildə nəzarət edilmir.

Azərbaycan Respublikası bu bəndə əsasən öz hüququnu həyata keçirərkən Birliyin hava daşıyıcılarına milli əsasda ayrı-seçkili münasibət göstərməyəcəkdir.

MADDƏ 3

Tənzimedici nəzarət üzrə hüquqlar

1. Bu maddənin 2-ci bəndinin müddəaları 2 nömrəli əlavənin (c) bəndində sadalanan maddələri tamamlayacaqdır.

2. Əgər hər hansı bir Üzv Dövlət digər Üzv Dövlət tərəfindən tənzimedici səmərəli nəzarət olunan və dəstəklənən hava daşıyıcısını təyin edibsə, Azərbaycan Respublikasının hüquqları hava daşıyıcısını təyin edən Azərbaycan Respublikası və Üzv Dövlət arasında bağlanan Sazişin təhlükəsizlik müddəaları əsasında həyata keçiriləcək, həmin digər Üzv Dövlətin təhlükəsizlik standartlarının qəbul edilməsi, yerinə yetirilməsi və ya dəstəklənməsinə və həmin hava daşıyıcısının istismar səlahiyyətlərinə münasibətdə bərabər tətbiq ediləcəkdir.

MADDƏ 4

Aviasiya yanacağına vergi qoyulması

1. Bu maddənin 2-ci bəndinin müddəaları 2 nömrəli əlavənin (d) bəndində sadalanan maddələrin müvafiq müddəalarını tamamlayacaqdır.

2. Hər hansı bir digər zidd müddəalara baxmayaraq, 2 nömrəli əlavənin (d) bəndində sadalanan sazişlərin heç bir müddəası Üzv Dövlətə Azərbaycan Respublikasının təyin edilmiş hava daşıyıcısının bu Üzv Dövlətin ərazisindəki hər hansı bir məntəqə ilə bu Dövlətin və ya digər Üzv Dövlətin ərazisindəki digər məntəqə arasında uçuşlar yerinə yetirən hava gəmisi üçün istifadə edilən yanacağa öz ərazisində ayrı-seçkilik yaratmadan vergilər, tutulmalar, rüsumlar, ödənişlər və ya yığımlar tətbiq etməyə mane olmayacaqdır.

3. Hər hansı bir digər zidd müddəalara baxmayaraq, 2 nömrəli əlavənin (d) bəndində sadalanan sazişlərin heç bir müddəası Azərbaycan Respublikasına Üzv Dövlətin təyin edilmiş hava daşıyıcısının Azərbaycan Respublikasının ərazisindəki hər hansı bir məntəqə ilə Azərbaycan Respublikasının ərazisindəki digər məntəqə arasında uçuşlar yerinə yetirən hava gəmisi üçün istifadə edilən yanacağa öz ərazisində ayrı-seçkilik yaratmadan vergilər, tutulmalar, rüsumlar. ödənişlər və ya yığımlar tətbiq etməyə mane olmayacaqdır.

MADDƏ 5

Avropa Birliyi hüdudlarında daşıma tarifləri

1. Bu maddənin 2-ci bəndinin müddəaları 2 nömrəli əlavənin (e) bəndində sadalanan maddələri tamamlayacaqdır.

2. 2 nömrəli əlavənin (e) bəndində sadalanan müddəaları özündə tamamilə əks etdirən 1 nömrəli əlavədəki Sazişə əsasən Azərbaycan Respublikası tərəfindən təyin olunmuş hava daşıyıcısının (daşıyıcılarının) yalnız Avropa Birliyi hüdudlarında daşımalara görə tətbiq edəcəyi tariflər Avropa Birliyinin qanunvericiliyinə uyğun olmalıdır.

MADDƏ 6

Sazişə əlavələr

Bu Sazişə əlavələr onun tərkib hissəsi hesab olunur.

MADDƏ 7

Yenidən baxılma və ya dəyişiklik

Tərəflər hər hansı bir vaxt qarşılıqlı razılaşma yolu ilə bu Sazişə yenidən baxa və ya ona dəyişiklik edə bilərlər.

MADDƏ 8

Qüvvəyə minmə və müvəqqəti tətbiq etmə

1. Tərəflər bir-birini bu Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların tamamlanması barədə yazılı şəkildə xəbərdar etdikdən sonra bu Saziş qüvvəyə minəcəkdir.

2. Tərəflər 1-ci bəndin müddəalarına baxmayaraq, bu Sazişin müvəqqəti tətbiq edilməsi üçün zəruri olan dövlətdaxili prosedurların tamamlanması barədə bir-birini xəbərdar etdikdən sonra növbəti ayın birinci günündən Sazişin müvəqqəti tətbiq olunması haqqında razılaşırlar.

3. Azərbaycan Respublikası və Üzv Dövlətlər arasında bağlanan, bu Sazişin imzalandığı tarixdə hələ qüvvəyə minməyən və müvəqqəti tətbiq olunmayan sazişlər və digər razılaşmalar 1 nömrəli əlavənin (b) bəndində göstərilmişdir Bütün belə sazişlər və razılaşmalar qüvvəyə mindikdən və ya müvəqqəti tətbiq olunduqdan sonra bu. Saziş onlara tətbiq ediləcəkdir.

MADDƏ 9

Ləğv edilmə

1. Əgər I nömrəli əlavədə sadalanan saziş ləğv edilərsə, bu Sazişin 1 nömrəli əlavədə göstərilən aidiyyəti Sazişlə əlaqəli bütün müddəaları eyni zamanda ləğv ediləcəkdir.

2. Əgər I nömrəli əlavədə sadalanan bürün sazişlər ləğv edilərsə, bu Saziş də eyni zamanda ləğv ediləcəkdir.

Bunun təsdiqi olaraq, aşağıda imza edənlər lazımi şəkildə səlahiyyət alaraq bu Sazişi imzaladılar.

Strasburq şəhərində 7 iyul 2009-cu il tarixində Azərbaycan, alman, bolqar, çex, danimarka, eston, fin, fransız, ingilis, ispan, isveç, italyan, latış, litva, macar, malta, niderland, polşa, portuqal, rumın, slovak, sloven və yunan dillərində iki nüsxədə imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	AVROPA BİRLİYİ ADINDAN
(imza)	*(imza)*

ƏLAVƏ I

Bu Sazişin 1-ci maddəsində istinad edilən sazişlərin siyahısı

(a) Bu Sazişin imzalandığı tarixdə bağlanan, imzalanan və/və ya müvəqqəti tətbiq edilən, Azərbaycan Respublikası Hökuməti və Avropa Birliyinin Üzv Dövlətləri arasında Hava əlaqəsi haqqında sazişlər:

2 nömrəli əlavədə istinad edilən, bundan sonra "Azərbaycan - Avstriya Sazişi" adlandırılan,

Vyana şəhərində 2000-ci il iyul ayının 4-də imzalanmış Azərbaycan Respublikası Hökuməti ilə

Avstriya Respublikası Hökuməti arasında Hava daşımaları haqqında Saziş;

2 nömrəli əlavədə istinad edilən, bundan sonra "Azərbaycan - Belçika Sazişi" adlandırılan, Bakı şəhərində 1998-ci il aprel ayının 13-də imzalanmış Azərbaycan Respublikası Hökuməti ilə Belçika Krallığı Hökuməti arasında 1 lava əlaqələri haqqında Saziş;

2 nömrəli əlavədə istinad edilən, bundan sonra "Azərbaycan - Bolqarıstan Sazişi" adlandırılan,

Sofiya şəhərində 1995-ci ü iyun ayıran 29-da imzalanmış Azərbaycan Respublikası Hökuməti ilə Bolqarıstan Respublikası Hökuməti arasında Hava əlaqələri haqqında Saziş;

2 nömrəli əlavədə istinad edilən, bundan sonra "Azərbaycan - Danimarka Sazişi" adlandırılan. Kopenhagen şəhərində 2000-ci il aprel ayının 27-də paraflanmış Azərbaycan Respublikası Hökuməti ilə Danimarka Krallığı Hökuməti arasında Hava daşımaları haqqında Saziş. Sonuncu dəyişikliklər 1 mart 2004-cü il və 17 dekabr 2004-cü il tarixli məktublarla mübadilə yolu ilə daxil edilmişdir.

2 nömrəli əlavədə istinad edilən, bundan sonra "Azərbaycan - Almaniya Sazişi" adlandırılan, Bakı şəhərində 1995-ci il iyul ayının 2-də imzalanmış Azərbaycan Respublikası Hökuməti ilə Almaniya Federativ Respublikası I hökuməti arasında Hava daşımaları haqqında Saziş. Sonuncu dəyişikliklər Bakı şəhərində 1995-ci il iyul ayının 28-də imzalanmış Azərbaycan Respublikası Hökuməti ilə Almaniya Federativ Respublikası Hökuməti arasında I hava daşımaları haqqında Sazişə dair Bakı şəhərində 1998-ci il iyun ayının 29-da imzalanan Düzəliş və Əlavələr Protokolu ilə daxil edilmişdir.

2 nömrəli əlavədə istinad edilən, bundan sonra "Azərbaycan - Fransa Sazişi" adlandırılan. Paris şəhərində 1997-ci il iyun ayının 19-da imzalanmış Azərbaycan Respublikası Hökuməti ilə Fransa Respublikası Hökuməti arasında Hava əlaqələri haqqında Saziş;

2 nömrəli əlavədə istinad edilən, bundan sonra "Azərbaycan Yunanıstan Sazişi" adlandırılan, Afina şəhərində 1995-ci il iyun ayının 6-da paraflanmış Azərbaycan Respublikası Hökuməti ilə Yunanıstan Respublikası Hökuməti arasında Hava daşımaları haqqında Saziş;

2 nömrəli əlavədə istinad edilən, bundan sonra "Azərbaycan - İtaliya Sazişi" adlandırılan. Roma şəhərində 1997-ci il sentyabr ayının 25-də imzalanmış Azərbaycan Respublikası Hökuməti ilə İtaliya Respublikası Hökuməti arasında Hava əlaqələri haqqında Saziş;

2 nömrəli əlavədə istinad edilən, bundan sonra "Azərbaycan - Lüksemburq Sazişi" adlandırılan, Bakı şəhərində 2001-ci il iyul ayının 3-də paraflanmış Azərbaycan Respublikası Hökuməti ilə Böyük Lüksemburq Hersoqluğu Hökuməti arasında Hava əlaqəsi haqqında Saziş;

2 nömrəli əlavədə istinad edilən bundan sonra "Azərbaycan Niderland Sazişi" adlandırılan, Bakı şəhərində 1996-cı il iyul ayının 11-də imzalanmış Azərbaycan Respublikası və Niderland Krallığı arasında Hava daşımaları haqqında Saziş;

2 nömrəli əlavədə istinad edilən, bundan sonra "Azərbaycan - Polşa Sazişi" adlandırılan Varşava şəhərində 1997-ci il avqust ayının 26-da imzalanmış Azərbaycan Respublikası Hökuməti ilə Polşa Respublikası Hökuməti arasında Mülki hava daşımaları haqqında Saziş;

2 nömrəli əlavədə istinad edilən, bundan sonra "Azərbaycan Rumıniya Sazişi" adlandırılan, Bakı şəhərində 1996-cı il mart ayıran 27-də imzalanmış Azərbaycan Respublikası Hökuməti ilə Rumıniya Hökuməti arasında Hava əlaqəsi haqqında Saziş;

2 nömrəli əlavədə istinad edilən, bundan sonra "Azərbaycan Slovakiya Respublikası Sazişi" adlandırılan Bab şəhərində 2000-ci il oktyabr ayının 27-də paraflanmış Azərbaycan Respublikası Hökuməti ilə Slovakiya Respublikası Hökuməti arasında Hava əlaqələri haqqında Saziş;

2 nömrəli əlavədə istinad edilən, bundan sonra "Azərbaycan - İspaniya Sazişi" adlandırılan, Madrid şəhərində 2004-cü il noyabr ayının 18-də paraflanmış Azərbaycan Respublikası və İspaniya Krallığı arasında Hava əlaqəsi haqqında Saziş;

2 nömrəli əlavədə istinad edilən, bundan sonra "Azərbaycan - İsveç Sazişi" adlandırılan Kopenhagen şəhərində 2000-ci il aprel ayının 27-də paraflanmış Azərbaycan Respublikası Hökuməti ilə İsveç Krallığı Hökuməti arasında Hava daşımaları haqqında Saziş. Sonuncu dəyişikliklər 1 mart 2004-cü il və 17 dekabr 2004-cü il tarixli məktublarla mübadilə yolu ilə daxil edilmişdir.

2 nömrəli əlavədə istinad edilən, bundan sonra "Azərbaycan - Birləşmiş Krallıq Sazişi" adlandırılan, London şəhərində 1994-cü il fevral ayının 23-də imzalanmış Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Hökuməti ilə Azərbaycan Respublikası Hö-

kuməti arasında Hava əlaqələri haqqında Saziş. 20 iyun və 23 dekabr 1996-cı il tarixli Notalar mübadiləsi yolu ilə düzəliş edilmişdir. Sonuncu dəyişikliklər 2000-ci il 3-4 iyul tarixlərdə Bakı şəhərində imzalanan Qarşılıqlı anlaşma haqqında memorandumla daxil edilmişdir.

b) Bu Sazişin imzalandığı tarixdə qüvvədə olmayan və müvəqqəti tətbiq edilməyən, Azərbaycan Respublikası və Avropa Birliyinin Üzv Dövlətləri arasında paraflanan və ya imzalanan hava daşımaları sazişləri və digər razılaşmalar:

- bundan sonra 2 nömrəli əlavədə "Azərbaycan - Çexiya Respublikası Sazişi" adlandırılan, Praqa şəhərində 1998-ci il dekabr ayının 3-də imzalanmış Azərbaycan Respublikası Hökuməti ilə Çexiya Respublikası Hökuməti arasında Hava nəqliyyatı haqqında Saziş.

- bundan sonra 2 nömrəli əlavədə "Azərbaycan - Estoniya Sazişi" adlandırılan. Tallin şəhərində 2002-ci il noyabr ayının 8-də paraflanan Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında Hava əlaqəsi Sazişi;

- bundan sonra 2 nömrəli əlavədə "Azərbaycan - Finlandiya Sazişi" adlandırılan, Bakı şəhərində 2002-ci il sentyabr ayının 29-da paraflanan Finlandiya Respublikası Hökuməti ilə Azərbaycan Respublikası Hökuməti arasında Hava əlaqəsi haqqında Saziş.

ƏLAVƏ II

Bu Sazişin I nömrəli əlavəsində sadalanan və 2 - 5-ci maddələrində istinad edilən sazişlərin maddələrinin siyahısı

(a) Üzv Dövlət tərəfindən təyinat:

- Azərbaycan - Avstriya Sazişinin 3-cü Maddəsinin 5-ci bəndi;
- Azərbaycan - Bolqarıstan Sazişinin 3-cü Maddəsinin 5-ci bəndi;
- Azərbaycan - Çexiya Respublikası Sazişinin 3-cü Maddəsinin 4-cü bəndi;
- Azərbaycan - Danimarka Sazişinin 3-cü Maddəsinin 4-cü bəndi;
- Azərbaycan - Estoniya Sazişinin 3-cü Maddəsinin 4-cü bəndi:
- Azərbaycan - Almaniya Sazişinin 3-cü Maddəsinin 4-cü bəndi;
- Azərbaycan - Yunanıstan Sazişinin 3-cü Maddəsinin 4-cü bəndi;
- Azərbaycan - Fransa Sazişinin 4-cü Maddəsinin 3-cü bəndi;
- Azərbaycan - İtaliya Sazişinin 4-cü Maddəsinin 4-cü bəndi;
- Azərbaycan - Lüksemburq Sazişinin 3-cü Maddəsinin 4-cü bəndi;
- Azərbaycan - Niderland Sazişinin 3-cü Maddəsinin 4-cü bəndi;
- Azərbaycan - Polşa Sazişinin 3-cü Maddəsinin 4-cü bəndi;
- Azərbaycan - Rumıniya Sazişinin 3-cü Maddəsinin 4-cü bəndi;
- Azərbaycan - Slovakiya Respublikası Sazişinin 4-cü Maddəsinin 4-cü bəndi;
- Azərbaycan - İsveç Sazişinin 3-cü Maddəsinin 4-cü bəndi;

- Azərbaycan - Birləşmiş Krallıq Sazişinin 4-cü Maddəsinin 4-cü bəndi.

(b) Səlahiyyət və ya icazələrdən imtina edilməsi, onun ləğvi, təxirə salınması və ya məhdudlaşdırılması:

- Azərbaycan - Avstriya Sazişinin 4-cü Maddəsinin 1 (a) bəndi;
- Azərbaycan - Belçika Sazişinin 5-ci Maddəsinin 1 (d) bəndi;
- Azərbaycan - Bolqarıstan Sazişinin 4-cü Maddəsinin 1 (a) bəndi;
- Azərbaycan - Çexiya Respublikası Sazişinin 4-cü Maddəsinin 1 (b) bəndi;
- Azərbaycan - Danimarka Sazişinin 4-cü Maddəsinin 1 (a) bəndi;
- Azərbaycan - Estoniya Sazişinin 4-cü Maddəsinin 1 (a) bəndi;
- Azərbaycan - Yunanıstan Sazişinin 4-cü Maddəsinin 1 (b) bəndi;
- Azərbaycan - Fransa Sazişinin 5-ci Maddəsinin 1-ci bəndi;
- Azərbaycan - Finlandiya Sazişinin 5-ci Maddəsinin 1 (a) bəndi;
- Azərbaycan - İtaliya Sazişinin 5-ci Maddəsinin 1 (a) bəndi;
- Azərbaycan - Lüksemburq Sazişinin 4-cü Maddəsinin 1 (a) bəndi;
- Azərbaycan - "Niderland Sazişinin 4-cü Maddəsinin 1 (c) bəndi;
- Azərbaycan - Polşa Sazişinin 4-cü Maddəsinin 1 (a) bəndi;
- Azərbaycan - Rumıniya Sazişinin 4-cü Maddəsinin 1 (a) bəndi;
- Azərbaycan - Slovakiya Respublikası Sazişinin 5-ci Maddəsinin 1 (a) bəndi;
- Azərbaycan - İsveç Sazişinin 4-cü Maddəsinin 1 (a) bəndi;
- Azərbaycan - Birləşmiş Krallıq Sazişinin 5-ci Maddəsinin 1 (a) bəndi.

(c) Tənzimedici nəzarət:

- Azərbaycan - Avstriya Sazişinin 6-cı Maddəsi;
- Azərbaycan - Belçika Sazişinin 7-ci Maddəsi;
- Azərbaycan - Çexiya Respublikası Sazişinin 7-ci Maddəsi;
- Azərbaycan - Danimarka Sazişinin 14-cü Maddəsi;
- Azərbaycan - Estoniya Sazişinin 15-ci Maddəsi;
- Azərbaycan - Almaniya Sazişinin 11-ci Maddəsi;
- Azərbaycan - Yunanıstan Sazişinin 6-cı maddəsi;
- Azərbaycan - Fransa Sazişinin 8-ci Maddəsi;
- Azərbaycan - Finlandiya Sazişinin 13-cü Maddəsi;
- Azərbaycan - İtaliya Sazişinin 10-cu Maddəsi;
- Azərbaycan - Lüksemburq Sazişinin 6-cı Maddəsi;
- Azərbaycan - Niderland Sazişinin 13-cü Maddəsi;

- Azərbaycan - Slovakiya Respublikası Sazişinin 10-cu Maddəsi;
- Azərbaycan - İsveç Sazişinin 14-cü Maddəsi;

d) Aviasiya yanacağına vergi qoyma:

- Azərbaycan - Avstriya Sazişinin 7-ci Maddəsi;
- Azərbaycan - Belçika Sazişinin 10-cu Maddəsi;
- Azərbaycan - Bolqarıstan Sazişinin 7-ci Maddəsi;
- Azərbaycan - Çexiya Respublikası Sazişinin 8-ci Maddəsi;
- Azərbaycan - Danimarka Sazişinin 6-cı Maddəsi;
- Azərbaycan - Estoniya Sazişinin 7-ci Maddəsi;
- Azərbaycan - Almaniya Sazişinin 6-cı Maddəsi;
- Azərbaycan - Yunanıstan Sazişinin 9-cu Maddəsi;
- Azərbaycan - Fransa Sazişinin 11-ci Maddəsi;
- Azərbaycan - Finlandiya Sazişinin 6-cı Maddəsi;
- Azərbaycan - İtaliya Sazişinin 6-cı Maddəsi;
- Azərbaycan - Lüksemburq Sazişinin 8-ci Maddəsi;
- Azərbaycan - Niderland Sazişinin 9-cu Maddəsi;
- Azərbaycan - Polşa Sazişinin 6-cı Maddəsi;
- Azərbaycan - Rumıniya Sazişinin 9-cu Maddəsi;
- Azərbaycan - İspaniya Sazişinin 5-ci Maddəsi;
- Azərbaycan - Slovakiya Respublikası Sazişinin 9-cu Maddəsi;
- Azərbaycan - İsveç Sazişinin 6-cı Maddəsi;
- Azərbaycan - Birləşmiş Krallıq Sazişinin 8-ci Maddəsi;

e) Avropa Birliyi hüdudlarında daşıma tarifləri:

- Azərbaycan - Avstriya Sazişinin 11-ci Maddəsi;
- Azərbaycan - Belçika Sazişinin 13-cü Maddəsi;
- Azərbaycan - Bolqarıstan Sazişinin 9-cu Maddəsi;
- Azərbaycan - Çexiya Respublikası Sazişinin 12-ci Maddəsi;
- Azərbaycan - Danimarka Sazişinin 10-cu Maddəsi;
- Azərbaycan - Estoniya Sazişinin 13-cü Maddəsi;
- Azərbaycan - Almaniya Sazişinin 10-cu Maddəsi;
- Azərbaycan - Yunanıstan Sazişinin 12-ci Maddəsi;
- Azərbaycan - Fransa Sazişinin 17-ci Maddəsi;
- Azərbaycan - Finlandiya Sazişinin 10-cu Maddəsi;

- Azərbaycan - İtaliya Sazişinin 8-ci Maddəsi;
- Azərbaycan - Lüksemburq Sazişinin 10-cu Maddəsi;
- Azərbaycan - Niderland Sazişinin 5-ci Maddəsi;
- Azərbaycan - Polşa Sazişinin 10-cu Maddəsi;
- Azərbaycan - Rumıniya Sazişinin 8-ci Maddəsi;
- Azərbaycan - Slovakiya Respublikası Sazişinin 8-ci Maddəsi;
- Azərbaycan - İsveç Sazişinin 10-cu Maddəsi;
- Azərbaycan - Birləşmiş Krallıq Sazişinin 7-ci Maddəsi.

ƏLAVƏ III

Bu Sazişin 2-ci maddəsində istinad edilən digər dövlətlərin siyahısı

a) İslandiya Respublikası (Avropa İqtisadi Zonası Sazişinə əsasən);

b) Lixtenşteyn Knyazlığı (Avropa İqtisadi Zonası Sazişinə əsasən);

c) Norveç Krallığı (Avropa İqtisadi Zonası Sazişinə əsasən);

d) İsveçrə Konfederasiyası (Avropa Birliyi və İsveçrə Konfederasiyası arasında Hava Nəqliyyatı Sazişinə əsasən)

"Azərbaycan Respublikası hökuməti və Çexiya Respublikası hökuməti arasında hava nəqliyyatı haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Azərbaycan Respublikası hökuməti və Çexiya Respublikası hökuməti arasında hava nəqliyyatı haqqında" 2010-cu il mayın 14-də Bakı şəhərində imzalanmış saziş təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2010-cu il

№ 1066-IIIQ

Azərbaycan Respublikası hökuməti və Çexiya Respublikası hökuməti arasında hava nəqliyyatı haqqında Saziş

Gələcəkdə "Razılığa Gələn Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Çexiya Respublikası Hökuməti,

1944-cü il dekabrın 7-də Çikaqoda imzalanmaq üçün açıq olan Beynəlxalq Mülki Aviasiya haqqında Konvensiyanın iştirakçıları olaraq, və

onların müvafiq ərazilərі arasında hava əlaqəsini inkişaf etdirmək məqsədilə Saziş im-

zalamaq niyyəti ilə

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

(Tərifiər)

Bu Sazişin məqsədləri üçün, əgər məzmun digərini tələb etmirsə:

(a) **"Konvensiya"** termini 1944-cü il dekabrın 7-də Çikaqoda imzalanmaq üçün açılmış Beynəlxalq Mülki Aviasiya haqqında Konvensiyanı ifadə edir və ona bu Konvensiyanın 90-cı Maddəsinə əsasən qəbul edilmiş hər hansı Əlavə, həmçinin Konvensiyanın 90 və 94-cü Maddələrinə əsasən Əlavələrə və ya Konvensiyaya edilmiş hər hansı düzəlişlər Razılığa Gələn hər iki Tərəfin qəbul etdiyi dərəcədə aiddir;

b) **"aviasiya hakimiyyəti orqanı"** termini Azərbaycan Respublikasına münasibətdə Dövlət Mülki Aviasiya Administrasiyası, Çexiya Respublikasına münasibətdə isə Nəqliyyat Nazirliyi və ya hər iki halda qeyd edilmiş aviasiya orqanları tərəfindən yerinə yetirilən funksiyaları həyata keçirmək üçün səlahiyyətləndirilmiş hər hansı digər orqan deməkdir;

c) **"təyin edilmiş aviasiya şirkəti"** termini bir Razılığa Gələn Tərəfin təyin etdiyi və bu barədə yazılı şəkildə digər Razılığa Gələn Tərəfə məlumat verdiyi, bu Sazişin 2-ci Maddəsinin 1-ci bəndinə müvafiq surətdə müəyyən edilmiş marşrutlar üzrə razılaşdırılmış xidmətləri yerinə yetirmək üçün bu Sazişin 3-cü Maddəsinə uyğun qaydada səlahiyyət almış hər bir aviasiya şirkəti deməkdir;

d)**"ərazi"**, **"hava əlaqəsi"**, **"beynəlxalq hava əlaqəsi"**, **"aviasiya şirkəti"** və **"qeyri-kommersiya məqsədləri ilə dayanacaq"** terminləri Konvensiyanın 2 və 96-cı Maddələrində qeyd edilmiş müvafiq mənaları daşıyır;

e) **"tutum"** termini razılaşdırılmış xidmətlərə şamil edilərkən, belə daşımada istifadə edilən hava gəmisində mövcud yerlərin sayının hava gəmisinin müəyyən vaxt ərzində bütün marşrut boyu və ya marşrutun bir hissəsində yerinə yetirdiyi uçuşların sayına vurulmasından alınan tutumu ifadə edir;

f) **"Əlavə"** termini bu Sazişin hər hansı Əlavəsini və ya Sazişin 18-ci maddəsinin müddəalarına uyğun olaraq dəyişdirilmiş Əlavəni bildirir. Əlavələr bu Sazişin ayrılmaz hissəsini təşkil edir və başqa razılıq birmənalı olaraq əldə edilməmişsə, bu Sazişə bütün istinadlar Əlavələrə də şamil edilir.

Maddə 2

(Daşıma hüquqları)

1. Təyin edilmiş aviasiya şirkəti və ya şirkətləri tərəfindən Əlavənin müvafiq bölməsində müəyyən edilmiş marşrutlar üzrə beynəlxalq hava daşımalarını yerinə yetirmək məqsədilə hər bir Razılığa Gələn Tərəf digər Razılığa Gələn Tərəfə bu Sazişlə müəyyən edilmiş hüquqları verir. Bu daşımalar və marşrutlar gələcəkdə müvafiq olaraq "razılaşdırılmış xidmətlər" və "müəyyən edilmiş marşrutlar" adlandırılacaq.

2. Hər bir Razılığa Gələn Tərəfin təyin etdiyi aviasiya şirkəti və ya şirkətləri, bu Sazişin

müddəalarına riayət etmək şərtilə, müəyyən edilmiş marşrutlar üzrə razılaşdırılmış xidmətləri yerinə yetirərkən aşağıdakı hüquqlardan istifadə edir:

a) yerə enmədən digər Razılığa Gələn Tərəfin ərazisi üzərindən uçaraq keçmək;

b) qeyri-kommersiya məqsədləri ilə digər Razılığa Gələn Tərəfin ərazisində enmək;

c) bir Razılığa Gələn Tərəfin ərazisinə gedən və ya oradan qayıdan sərnişinləri, baqajı və yükü, o cümlədən poçtu ayrı-ayrılıqda və ya birlikdə digər Razılığa Gələn Tərəfin ərazisində bu Sazişin Əlavəsində nəzərdə tutulmuş məntəqələrdə götürmək və boşaltmaq; və

d) Əlavədə müəyyən edilən digər Razılığa Gələn Tərəfin ərazisindəki məntəqələrə gedən və ya oradan qayıdan sərnişinləri, baqajı və yükü, o cümlədən poçtu Əlavənin müddəalarına uyğun olaraq ayrı-ayrılıqda və ya birlikdə üçüncü dövlətlərin ərazisində Əlavədə qeyd edilən məntəqələrdə götürmək və boşaltmaq.

3. Hər bir Razılığa Gələn Tərəfin bu Sazişin 3-cü Maddəsinə əsasən təyin edilmiş aviasiya şirkətlərindən başqa aviasiya şirkətləri də bu Maddənin 2-ci (a) və (b) bəndləri ilə müəyyən edilmiş hüquqlardan istifadə edir.

4. Bu Maddənin 2-ci bəndində qeyd edilənlər hər hansı bir Razılığa Gələn Tərəfin təyin edilmiş aviaşirkətinə sərnişinləri, baqajı və yükü, o cümlədən poçtu digər Razılığa Gələn Tərəfin ərazisində bir məntəqədən digərinə haqq müqabilində və ya muzdlu daşımaq üçün gəmiyə götürmək hüququ vermir.

Maddə 3

(Aviasiya şirkətinin təyin edilməsi və istismar səlahiyyətlərinin verilməsi)

1. Hər bir Razılığa Gələn Tərəf həmin Tərəfin adından hava əlaqəsini həyata keçirən bir və ya bir neçə aviasiya şirkətini təyin etmək, hər hansı aviasiya şirkətinin təyinatından imtina etmək və ya təyin edilmiş aviasiya şirkətini dəyişdirmək hüququna malikdir. Bu təyinat Razılığa Gələn hər iki Tərəfin aviasiya hakimiyyət orqanları arasında yazılı bildirişlərin mübadiləsindən sonra qüvvəyə minəcəkdir.

2. Təyinat haqqında bildiriş almış bir Razılığa Gələn Tərəfin aviasiya hakimiyyət orqanı bu Maddənin 3 və 4-cü bəndlərinin müddəalarına uyğun olaraq digər Razılığa Gələn Tərəfin təyin etdiyi aviasiya şirkətinə dərhal lazımi istismar səlahiyyəti verəcəkdir.

3. Razılığa Gələn Tərəflərdən birinin aviasiya hakimiyyət orqanı beynəlxalq hava daşımaları zamanı digər Razılığa Gələn Tərəfin Konvensiyanın müddəalarına uyğun olaraq tətbiq etdiyi qanunvericilik və normativ aktlarla müəyyən edilmiş şərtləri həmin Razılığa Gələn Tərəfin təyin etdiyi aviasiya şirkətinin yerinə yetirməyə qadir olduğunu sübut etməyi tələb edə bilər.

4. Hər bir Razılığa Gələn Tərəfin aviasiya hakimiyyət orqanı təyin edilmiş aviasiya şirkəti üzərində mülkiyyət hüququnun (nizamnamə kapitalının yarısından çoxunun) və həqiqi nəzarətin digər Razılığa Gələn Tərəfə və ya onun dövlətinin vətəndaşlarına məxsus olduğuna əmin olmadığı hər hansı halda həmin aviasiya şirkətinin təyinatını qəbul etməmək və bu Maddənin 2-ci bəndində göstərilmiş istismar səlahiyyətlərini ver-

məkdən imtina etmək, yaxud təyin edilmiş aviasiya şirkətindən bu Sazişin 2-ci maddəsində qeyd edilən hüquqlardan istifadə zamanı zəruri hesab edəcəyi şərtlərin yerinə yetirilməsini tələb etmək hüququna malik olacaqdır.

5. Aviasiya şirkəti bu Maddəyə uyğun qaydada təyin edildikdən və səlahiyyət aldıqdan sonra razılaşdırılmış xidmətləri tam və ya qismən yerinə yetirə bilər, bu şərtlə ki, Sazişin 12 və 14-cü Maddələrinin müddəalarına uyğun olaraq müəyyən edilən tariflər və uçuş cədvəlləri həmin xidmətlərə münasibətdə qüvvədə qalır.

Maddə 4

(Hüquqların ləğv edilməsi və dayandırılması)

1. Hər bir Razılığa Gələn Tərəfin aviasiya hakimiyyət orqanı aşağıdakı hallarda digər Razılığa Gələn Tərəfin təyin etdiyi aviasiya şirkətinə verilən istismar səlahiyyətlərini ləğv etmək və ya bu Sazişin 2-ci maddəsində qeyd edilən hüquqlardan istifadəni dayandırmaq, yaxud bu hüquqlardan istifadə zamanı zəruri hesab edə biləcəyi müvəqqəti və ya daimi şərtlərin yerinə yetirilməsini tələb etmək hüququna malik olacaqdır:

a) aviasiya şirkəti həmin hüquqları vermiş Razılığa Gələn Tərəfin aviasiya hakimiyyət orqanının Konvensiyanın müddəalarına uyğun olaraq qanunvericiliyə və normativ aktlara əsasən tətbiq etdiyi şərtləri yerinə yetirməyə qadir olduğunu həmin aviasiya hakimiyyət orqanına sübut edə bilmədikdə; və ya

b) aviasiya şirkəti üzərində mülkiyyət hüququnun və həqiqi nəzarətin digər Razılığa Gələn Tərəfə və ya onun dövlətinin vətəndaşlarına məxsus olduğunu sübut edə bilmədikdə; və ya

c) aviasiya şirkəti bu Sazişin müddəalarına uyğun olaraq razılaşdırılmış xidmətləri yerinə yetirməyə qadir olmadıqda.

2. Əgər yuxarıda qeyd edilən qanunvericiliyin və normativ aktların pozulmasının davam etməsinin qarşısını almaq üçün təxirəsalınmaz tədbir tələb olunmursa, o zaman bu Maddənin 1-ci bəndində qeyd edilən hüquqlardan yalnız digər Razılığa Gələn Tərəfin aviasiya hakimiyyət orqanı ilə məsləhətləşmələr keçirildikdən sonra istifadə ediləcəkdir. Hər iki Razılığa Gələn Tərəfin aviasiya hakimiyyət orqanları arasında digər razılıq əldə edilmədikdə belə məsləhətləşmələr Razılığa Gələn Tərəflərdən birinin aviasiya hakimiyyət orqanının məsləhətləşmə üçün yazılı müraciət aldığı tarixdən altmış (60) gün ərzində keçiriləcəkdir.

Maddə 5

(Qanunvericiliyin, normativ aktların və prosedurların tətbiqi)

1. Bir Razılığa Gələn Tərəfin təyin edilmiş aviasiya şirkəti digər Razılığa Gələn Tərəfin ərazisinə gələrkən, ərazidə olarkən və ya ərazini tərk edərkən hava gəmisinin uçuşlarının həyata keçirilməsi və naviqasiyası ilə əlaqədar həmin Tərəfin ərazisində qüvvədə olan qanunvericiliyinə, normativ aktlarına və prosedurlarına riayət etməlidir.

2. Bir Razılığa Gələn Tərəfin təyin edilmiş aviasiya şirkətinin istismar etdiyi hava gəmisi digər Razılığa Gələn Tərəfin ərazisinə daxil olarkən, oradan yola düşərkən və ya hüdudları daxilində qalarkən, sərnişinlərin, ekipajın, baqaj və yükün, o cümlədən poçtun

əraziyə buraxılması, orada saxlanması, ərazidən tranzitlə keçirilməsi və ya həmin ərazidən göndərilməsi ilə əlaqədar həmin Razılığa Gələn Tərəfin əraziyə daxil olma, ərazidən çıxma, immiqrasiya, pasport, gömrük, valyuta, karantin və sanitariya tədbirləri, habelə sağlamlığa nəzarət tədbirlərinə dair onun ərazisində qüvvədə olan qanunvericiliyi, normativ aktları və prosedurları birinci Razılığa Gələn Tərəfin hava gəmisi ilə daşınan sərnişinlər, ekipaj, baqaj, yük və poçta münasibətdə tətbiq edilir.

3. Razılığa Gələn Tərəflərdən heç biri gömrük, karantin və digər bu qəbildən qaydaları tətbiq edərkən digər Razılığa Gələn Tərəfin həmin beynəlxalq hava daşımalarını həyata keçirən aviasiya şirkətindən başqa, özünə məxsus olan və ya hər hansı digər aviasiya şirkətinə üstünlük verməməlidir

Maddə 6

(Aviasiya təhlükəsizliyi)

1. Razılığa Gələn Tərəflər beynəlxalq hüquqa dair hüquq və vəzifələrinə uyğun olaraq mülki aviasiyanın təhlükəsizliyinin qanunsuz müdaxilədən müdafiəsi üçün bir-birinə münasibətdə öhdəliklərinin bu Sazişin ayrılmaz hissəsini təşkil etdiyini yenidən təsdiq edirlər.

2. Hər bir Razılığa Gələn Tərəf 1963-cü il sentyabrın 14-də Tokioda imzalanmış Hava gəmilərində törədilmiş cinayətlər və bəzi digər aktlar haqqında Konvensiya, 1970-ci il dekabrın 16-da Haaqada imzalanmış Hava gəmilərinin qanunsuz zəbt edilməsinə qarşı mübarizə haqqında Konvensiya, 1971-ci il sentyabrın 23-də Monrealda imzalanmış Mülki aviasiyanın təhlükəsizliyinə qarşı yönəldilən qanunsuz hərəkətlər əleyhinə mübarizə haqqında Konvensiya və 1988-ci il fevralın 24-də imzalanmış Mülki aviasiyanın təhlükəsizliyinə qarşı yönəldilən qeyri-qanuni hərəkətlər əleyhinə mübarizə haqqında Konvensiyanı tamamlayan Beynəlxalq mülki aviasiyaya xidmət göstərən aeroportlarda qanunsuz zorakılıq hərəkətləri əleyhinə mübarizə haqqında Protokol və ya aviasiya təhlükəsizliyini tənzimləyən və hər iki Razılığa Gələn Tərəf üçün məcburi olan hər hansı çoxtərəfli sazişlərin müddəalarına uyğun fəaliyyət göstərir.

3. Hər bir Razılığa Gələn Tərəf digər Razılığa Gələn Tərəfin xahişi ilə mülki hava gəmilərinin qanunsuz ələ keçirilməsinin və hava gəmilərinin, onların sərnişinlərinin və heyətlərinin, hava limanlarının və naviqasiya vasitələrinin təhlükəsizliyinə qarşı yönəldilən başqa qanunsuz hərəkətlərin, habelə mülki aviasiyanın təhlükəsizliyi üçün qorxu törədən hər hansı başqa hərəkətin qarşısının alınması üçün bütün lazımi yardım göstərir.

4. Razılığa Gələn Tərəflər qarşılıqlı fəaliyyət göstərərkən Beynəlxalq Mülki Aviasiya Təşkilatının müəyyən etdiyi və Konvensiyaya Əlavə kimi təqdim edilən aviasiya təhlükəsizliyi üzrə müddəalara müvafiq qaydada, bu müddəaların Razılığa Gələn Tərəflərə münasibətdə tətbiq edildiyi dərəcədə hərəkət edəcəklər; hər bir Razılığa Gələn Tərəf qeydiyyata aldıqları hava gəmilərinin istismarçılarının, yaxud əsas fəaliyyət yeri və ya daimi yeri onların ərazisində olan hava gəmilərinin istismarçılarının, eyni zamanda onların öz ərazisindəki hava limanlarının istismarçılarının aviasiya təhlükəsizliyi üzrə belə müddəalara müvafiq surətdə fəaliyyət göstərmələrini tələb edəcək.

5. Hər bir Razılığa Gələn Tərəf bununla razılaşır ki, bu maddənin 4-cü bəndində göstərilən və digər Razılığa Gələn Tərəfin əraziyə gəlmək, ərazidən çıxmaq və ya hüdudları

daxilində qalmaq üçün nəzərdə tutduğu aviasiya təhlükəsizliyi müddəalarına riayət olunması hava gəmiləri istismarçılarından tələb edilə bilər.

6. Hər bir Razılığa Gələn Tərəf öz ərazisi daxilində hava gəmilərinin müdafiəsi və sərnişinlərin, ekipajın, əl yükünün, baqajın, yükün və gəmi ehtiyatlarının enmə və ya yükləmə zamanı, yaxud əvvəl yoxlanması üçün lazımı tədbirlərin görülməsini təmin edəcəkdir.

7. Hər bir Razılığa Gələn Tərəf digər Razılığa Gələn Tərəfin konkret təhlükə ilə əlaqədar xüsusi təhlükəsizlik tədbirlərinin görülməsi barədə xahişini də xeyirxahlıqla müzakirə edəcəkdir.

8. Mülki hava gəmilərinin qanunsuz ələ keçirilməsi və ya hava gəmilərinin, onların sərnişinlərinin və ekipajının, hava limanlarının və ya aeronaviqasiya vasitələrinin təhlükəsizliyinə qarşı yönəldilən başqa qanunsuz hərəkətlərlə bağlı insident baş verdikdə və ya təhlükə yarandıqda, Razılığa Gələn Tərəflər rabitəni asanlaşdırmaq və bu insidenti və ya təhlükəni tez və təhlükəsiz aradan qaldırmaq üçün müvafiq tədbirlər görərək bir-birinə kömək göstərəcəklər.

9. Əgər bir Razılığa Gələn Tərəf digər Razılığa Gələn Tərəfin bu Maddənin aviasiya təhlükəsizliyinə dair müddəalarından kənara çıxdığına əmindirsə, həmin Razılığa Gələn Tərəfin aviasiya hakimiyyət orqanı digər Razılığa Gələn Tərəfin aviasiya hakimiyyət orqanı ilə təcili məsləhətləşmələr aparılmasını tələb edə bilər. Bu bildirişin təqdim edildiyi tarixdən sonra bir (1) ay ərzində qənaətbəxş razılığın əldə edilə bilməməsi Sazişin 4-cü Maddəsinin tətbiqinə əsas verəcək. Zəruri halda hər hansı Razılığa Gələn Tərəf bir aylıq müddət başa çatanadək ilkin tədbirlər görə bilər.

Maddə 7

(Uçuşların təhlükəsizliyi)

1. Razılığa Gələn Tərəflərdən birinin verdiyi və ya etibarlı hesab etdiyi və hələ də qüvvədə qalan uçuş yararlığı şəhadətnamələrini, ixtisas vəsiqələrini və lisenziyalarını digər Razılığa Gələn Tərəf razılaşdırılmış xidmətləri yerinə yetirmək məqsədilə etibarlı hesab edir, bu şərtlə ki, həmin şəhadətnamə və vəsiqələr ən azı Konvensiyaya əsasən müəyyən edilmiş minimal standartlara bərabər tutulsun.

2. Hər bir Razılığa Gələn Tərəf digər Razılığa Gələn Tərəfin qəbul etdiyi, ekipaja, hava gəmilərinə və ya onların istismarına aid istənilən sahədə təhlükəsizlik standartları ilə əlaqədar məsləhətləşmələrin keçirilməsini tələb edə bilər. Bu cür məsləhətləşmələr sorğu alındıqdan sonra otuz (30) gün müddətində keçirilir.

3. Əgər bu cür məsləhətləşmələrdən sonra bir Razılığa Gələn Tərəf digər Razılığa Gələn Tərəfin Konvensiyaya əsasən müəyyən edilmiş və minimum standartlara bərabər tutulan istənilən sahədə təhlükəsizlik standartlarına səmərəli şəkildə riayət etmədiyini və onların tətbiq olunmadığını aşkar edərsə, bu zaman birinci Razılığa Gələn Tərəf müəyyən edilən faktlar və həmin minimal standartlara riayət etmək üçün zəruri saydığı gələcək tədbirlər barədə digər Razılığa Gələn Tərəfə xəbər verəcək, digər Razılığa Gələn Tərəf isə yaranmış vəziyyətin aradan qaldırılması üçün zəruri tədbirlər görəcəkdir. Digər Razılığa Gələn Tərəfin on beş (15) gün ərzində və ya razılaşdırılmalı olan daha artıq

müddət ərzində müvafiq tədbirlər görmək iqtidarında olmaması bu Sazişin 4-cü Maddəsinin tətbiq edilməsinə əsas verəcək.

4. Tərəflər razılaşırlar ki, Konvensiyanın 33-cü Maddəsində qeyd edilən öhdəliklərə baxmayaraq, bir Razılığa Gələn Tərəfin aviasiya şirkəti və ya şirkətləri tərəfindən, yaxud icarə müqaviləsinə əsasən onların adından digər Razılığa Gələn Tərəfin ərazisinə və ya onun ərazisindən kənara hava daşımalarını həyata keçirmək üçün istifadə edilən hər hansı hava gəmisi digər Razılığa Gələn Tərəfin ərazisində olarkən, əsassız ləngiməyə gətirib çıxarmayacağı şərtilə, hava gəmisinin və onun ekipajının sənədlərinin etibarlı olmasının, hava gəmisinin və onun avadanlığının vəziyyətinin yoxlanması məqsədilə həmin Tərəfin səlahiyyətli nümayəndələri tərəfindən gəmi və perron yoxlaması (bu Maddədə yoxlama "perronda yoxlama" adlanır) həyata keçiriləcək.

5. Əgər perronda aparılan yoxlamalardan hər hansı biri və ya bir neçəsi: (a) hava gəmisinin və ya onun istismarının Konvensiyaya əsasən müəyyən edilmiş minimal standartlara cavab verməməsi ilə əlaqədar ciddi təhlükə yarandığını, və ya (b) xidmət zamanı və Konvensiyaya əsasən müəyyən edilmiş təhlükəsizlik standartlarını rəhbər tutarkən diqqətsizliyə yol verilməsi ilə əlaqədar ciddi təhlükə yarandığını aşkar edirsə, yoxlamanı həyata keçirən Razılığa Gələn Tərəf Konvensiyanın 33-cü Maddəsinin müddəalarına riayət etmək məqsədilə, həmin hava gəmisinə və ya onun ekipajına verilən, yaxud etibarlı sayılan sertifikat və ya vəsiqələrlə əlaqədar, yaxud hava gəmisinin istismarı ilə əlaqədar tələblərin Konvensiyaya əsasən müəyyən edilmiş minimal standartlara bərabər olmaması və ya yuxarı olması haqqında nəticə çıxara bilər.

6. Bir Razılığa Gələn Tərəfin aviasiya şirkətinin və ya şirkətlərinin nümayəndələri həmin aviasiya şirkəti və ya şirkətləri tərəfindən, yaxud onların adından istismar edilən hava gəmisinin bu Maddənin 4-cü bəndinə uyğun olaraq perronda yoxlanılmasına icazə vermədikləri halda, digər Razılığa Gələn Tərəf 5-ci bənddə qeyd edilən ciddi təhlükənin mövcud olması və həmin bənddə qeyd edilən hallara səbəb olması barədə nəticə çıxara bilər.

7. Əgər bir Razılığa Gələn Tərəf ya perronda aparılan bir və ya bir neçə yoxlama, ya perronda yoxlamadan imtina, ya keçirilən məsləhətləşmələr nəticəsində, ya da digər qaydada təxirəsalınmaz tədbirlərin digər Razılığa Gələn Tərəfə məxsus aviasiya şirkətinin və ya şirkətlərinin yerinə yetirdiyi uçuşların təhlükəsizliyi üçün zəruri olduğu barədə qərar qəbul edərsə, digər Razılığa Gələn Tərəfin aviasiya şirkətinin və ya şirkətlərinin istismar səlahiyyətlərini təxirə salınmadan dayandırmaq və ya dəyişmək hüququna malikdir.

8. Bir Razılığa Gələn Tərəfin yuxarıda qeyd edilən 3-cü və 7-ci bəndlərə uyğun şəkildə hər hansı hərəkəti onun həyata keçirilməsi üçün əsasın mövcud olmadığı halda dayandırılmalıdır.

Maddə 8

(Gömrük şərtləri)

1. Hər bir Razılığa Gələn Tərəf digər Razılığa Gələn Tərəfin təyin etdiyi aviasiya şirkətinin hava gəmisini, yanacaq və sürtgü materiallarını, işlənən texniki ehtiyatları, ehtiyat hissələrini, o cümlədən mühərrikləri, adi gəmi avadanlığını, gəmi ehtiyatlarını (o cüm-

lədən spirtli içkilər, tütün məmulatları, içkilər və uçuş vaxtı sərnişinlərə məhdud miqdarda satmaq üçün nəzərdə tutulan digər məhsullar), həmin Razılığa Gələn Tərəfin təyin etdiyi aviasiya şirkəti tərəfindən yalnız razılaşdırılmış xidmətləri yerinə yetirən hava gəmisinin istismarı və xidmət göstərilməsi üçün istifadə olunan digər əşyaları xarici məhdudiyyətlərdən, gömrük rüsumlarından, vasitəli vergilərdən, yoxlama haqlarından və digər ödənişlərdən azad edir.

2. Bu maddənin 1-ci bəndində qeyd edilən əşyalar aşağıdakı hallarda ödənişlərdən azad ediləcəkdir:

a) Razılığa Gələn Tərəflərdən birinin təyin edilmiş aviasiya şirkəti tərəfindən və ya onun adından digər Razılığa Gələn Tərəfin ərazisinə gətirildikdə;

b) Razılığa Gələn Tərəflərdən birinin ərazisində olduğu müddət ərzində və ərazidən çıxarılanadək digər Razılığa Gələn Tərəfin təyin etdiyi aviasiya şirkətinə məxsus hava gəmisində saxlandıqda;

c) ödənişlərdən azad edən Razılığa Gələn Tərəfin ərazisində tam və ya qismən istifadə ediləcəyindən asılı olmayaraq, həmin Razılığa Gələn Tərəfin ərazisində saxlanılmayacağı şərtilə, razılaşdırılmış xidmətləri yerinə yetirərkən istifadə etmək məqsədilə digər Razılığa Gələn Tərəfin təyin etdiyi aviasiya şirkətinə məxsus hava gəmisinə götürüldükdə.

3. Adətən Razılığa Gələn Tərəflərdən birinin təyin edilmiş aviasiya şirkətinə məxsus olan hava gəmisində saxlanılan adi gəmi avadanlığı, habelə materiallar, ehtiyatlar və ləvazimatlar digər Razılığa Gələn Tərəfin ərazisində yalnız həmin Tərəfin gömrük orqanlarının icazəsi ilə boşaldıla bilər. Bu halda həmin əşyalar geri qaytarılan anadək qeyd edilən orqanların müşahidəsi altına alına və ya gömrük qaydalarına uyğun qaydada istifadə edilə bilər.

4. Razılığa Gələn Tərəflərdən birinin təyin etdiyi aviasiya şirkəti digər aviasiya şirkətləri ilə texniki ehtiyatlardan, ehtiyat hissələrindən, o cümlədən mühərriklərdən, adi gəmi avadanlığından müvəqqəti istifadə və ya digər Razılığa Gələn Tərəfin ərazisinə gətirilməsi haqqında müqavilə imzalayarsa, həmin avadanlıqlar ödənişlərdən azad ediləcəkdir, bu şərtlə ki, qeyd edilən başqa aviaşirkətlər də həmin Razılığa Gələn Tərəfin təqdim etdiyi bu güzəştlərdən istifadə edəcəkdir.

Maddə 9

(Hava limanları və tikililərdən istifadə)

1. Razılığa Gələn Tərəflərdən birinin ərazisində hava limanlarından, aeronaviqasiya və digər vasitələrdən istifadə müqabilində digər Razılığa Gələn Tərəfin təyin etdiyi aviasiya şirkətindən tutulan haqq birinci Razılığa Gələn Tərəfin həmin beynəlxalq hava daşımalarını həyata keçirən milli hava gəmiləri tərəfindən ödənilən yığımlardan artıq deyil.

2. Razılığa Gələn Tərəflərin heç biri hava limanlarından, hava xətlərindən, hava hərəkəti xidmətindən, habelə onun nəzarəti altında olan müvafiq vasitələrdən istifadə edərkən, ona məxsus olan aviasiya şirkətinə və ya hər hansı digər aviasiya şirkətinə digər Razılığa Gələn Tərəfin həmin beynəlxalq hava daşımalarını yerinə yetirən aviasiya şirkəti ilə müqayisədə üstünlük verməyəcəkdir.

3. Hər bir Razılığa Gələn Tərəf onların yığım toplayan səlahiyyətli orqanları ilə həmin orqanların təqdim etdiyi xidmətlərdən və vasitələrdən istifadə edən aviasiya şirkətləri arasında istehlak yığımları üzrə məsləhətləşmələr aparacaqdır. Bu cür məsləhətləşmələr imkan daxilində həmin aviasiya şirkətlərinin nümayəndəlikləri vasitəsilə həyata keçiriləcəkdir. İstehlakçılar həmin yığımların dəyişdirilməsinə dair istənilən təkliflər barədə xəbərdar edilməli və hər-hansı dəyişiklik edilənə qədər bu istehlakçılara öz fikirlərini bildirmək imkanı verilməlidir. Hər bir Razılığa Gələn Tərəf gələcəkdə istehlak yığımları toplayan səlahiyyətli orqanlarla istehlakçılar arasında müvafiq məlumat mübadiləsinə imkan yaradacaqdır.

Maddə 10

(Tranzit)

Razılığa Gələn Tərəfin ərazisi üzərindən birbaşa tranzitlə keçən və hava limanının bu məqsədlə ayrılmış sahəsini tərk etməyən sərnişinlər Sazişin 6-cı Maddəsində qeyd edilən aviasiya təhlükəsizliyinə dair müddəaların tətbiq edildiyi hallar, habelə narkotik və psixotrop maddələrin keçirilməsinin qarşısının alınması üzrə tədbirlər istisna edilməklə, yalnız sadələşdirilmiş nəzarətdən keçir. Birbaşa tranzitlə daşınan baqaj və yük gömrük yığımlarından və digər oxşar vergilərdən azad edilir.

Maddə 11

(Hava daşımalarının satışı və pul vəsaitlərinin köçürülməsi)

1. Birinci Razılığa Gələn Tərəfin təyin etdiyi aviasiya şirkəti və ya şirkətləri digər Razılığa Gələn Tərəfin aviasiya orqanında qeydə alındıqdan, habelə həmin Tərəfin milli qanun və qaydalarına uyğun müvafiq qeydiyyatdan keçdikdən sonra, həmin Razılığa Gələn Tərəfin ərazisində hava daşımalarını bilavasitə və ya öz agentləri vasitəsilə satmaq, hər hansı şəxs isə həmin daşımaları qüvvədə olan qanun və qaydalara uyğun olaraq qeyd edilən ərazidə tərəfin milli valyutasında almaq, həmçinin göstərilən Razılığa Gələn Tərəfin qanunvericiliyi ilə qadağan edilmədiyi halda, hər hansı sərbəst dönərli valyutada satmaq hüququna malikdir.

2. Razılığa Gələn Tərəflərin təyin etdikləri aviasiya şirkətləri digər Razılığa Gələn Tərəfin ərazisində əldə etdikləri gəlirdən əlavə məbləği konvertasiya etmək və öz ərazisinə köçürmək hüququna malikdir. Hesablama və pul köçürmələri məhdudiyyət qoyulmadan, köçürmə günü cari ödənişlər üçün rəsmi mübadilə məzənnəsi üzrə, rəsmi məzənnə olmadıqda isə, köçürmə aparılan an cari ödənişlər üçün xarici valyuta mübadiləsinin üstünlük təşkil edən bazar məzənnəsi ilə həyata keçiriləcəkdir. Faktiki köçürmə təxirəsalınmadan və bu halda tutulan adi bank yığımları istisna edilməklə, hər hansı yığımlar tutulmadan həyata keçirilir. Köçürmə gəlir əldə etdiyi Razılığa Gələn Tərəfin ərazisində qüvvədə olan vergi qanunvericiliyinə və valyuta mübadiləsi qaydalarına uyğun aparılmalıdır.

3. Razılığa Gələn Tərəflər arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergilərin ödənilməsindən yayınmanın qarşısının alınması haqqında xüsusi saziş qüvvəyə mindikdə, həmin sazişin müddəaları üstünlük təşkil edəcəkdir.

Maddə 12

(Tariflər)

1. Sazişdə istifadə edilən "tarif" termini sərnişin, baqaj və yük daşımaları müqabilində qiymət və yığımı (poçt daşımalarına görə ödəniş və şərtlər istisna edilir), habelə onların tətbiqi üçün irəli sürülən şərtləri, o cümlədən daşıma zamanı agent xidmətlərinə görə komisyon haqlarını, habelə daşımalarla əlaqədar aviasiya şirkətlərinin təqdim etdiyi hər hansı əlavə xidmətə görə yığım və şərtləri bildirir. Həmçinin bu terminə daşımalarla əlaqədar alınan istənilən böyük məbləğdə mənfəət daxildir.

2. Razılığa Gələn Tərəfin təyin etdiyi aviasiya şirkətinin Sazişi əhatə edən xidmətlərin yerinə yetirilməsinə görə tətbiq etdiyi tariflər bütün müvafiq amillər, o cümlədən istehlakçının mənafeyi, istismar xərcləri, xidmət xüsusiyyətləri (sürət və yerləşdirmə standartları), komisyon haqları, səmərəli mənfəət, başqa aviaşirkətlərin tarifləri və bazar konyunkturasının digər aspektləri nəzərə alınmaqla, münasib səviyyədə müəyyən ediləcəkdir.

3. Hər iki Razılığa Gələn Tərəfin təyin etdiyi aviasiya orqanları qeyri-şüurlu surətdə hüquq bərabərliyini pozan, hakim vəziyyətdən sui-istifadə ilə əlaqədar əsassız olaraq yüksək olan və ya məhdudiyyət qoyan, yaxud birbaşa və ya vasitəli subsidiya və ya yardımla əlaqədar süni endirilmiş, ya da çox baha olan tarifləri qəbul etməyəcəkdir.

4. Razılığa Gələn Tərəflərin aviasiya hakimiyyət orqanlarının heç biri, tariflər razılaşdırılmayanadək, təyin etdikləri aviasiya şirkətlərindən digər aviaşirkətlərlə məsləhətləşmələrin keçirilməsini tələb etməyəcək, habelə bu məsləhətləşmələrin keçirilməsi üçün maneə yaratmayacaqdır.

5. Təyin edilmiş aviasiya şirkəti tarifi onun qüvvəyə minəcəyi tarixdən ən azı otuz (30) gün əvvəl Razılığa Gələn hər iki Tərəfin aviasiya hakimiyyət orqanlarına təqdim etməlidir. Aviasiya hakimiyyət orqanları Razılığa Gələn iki Tərəfin ərazilərı arasında bir və ya hər iki istiqamətə həyata keçirilən və ilkin məntəqəsi onların öz ərazilərində olan daşımalar üçün tarifləri təsdiq edə, ya da etməyə bilər.

Bir Razılığa Gələn Tərəfin təyin etdiyi aviasiya şirkəti ərazisində tarifin tətbiq ediləcəyi digər Razılığa Gələn Tərəfin aviasiya hakimiyyət orqanı tərəfindən təsdiq edilmək üçün tarifi göndərərkən, müraciətin alındığı tarixdən sonrakı on dörd (14) gün ərzində sonuncu Razılığa Gələn Tərəfin aviasiya hakimiyyət orqanı tarifi təqdim edən aviasiya şirkətinə tarifi qəbul etmədiyi barədə yazılı məlumat verməzsə, həmin tarif təsdiq edilmiş hesab ediləcəkdir.

Razılığa Gələn Tərəflərin aviasiya hakimiyyət orqanları tarifləri təsdiq edərkən, onun qüvvədən düşməsi üçün münasib tarix müəyyən edə bilərlər. Əgər tarifin qüvvədən düşmə tarixi mövcuddursa, müvafiq aviaşirkət və ya aviaşirkətlər tərəfindən ləğv edildiyi və ya müddəti başa çatanadək yeni tarifin təklif və təsdiq edildiyi hallar istisna edilməklə, müddəti başa çatanadək tam qüvvədə qalacaqdır.

6. Aviasiya hakimiyyət orqanlarının heç biri təklif edilən tariflərin qüvvəyə minməsinin qarşısını almaq və ya iki Razılığa Gələn Tərəfin ərazisi arasında həyata keçirilən və digər Razılığa Gələn Tərəfin ərazisində başlanan daşımalar üçün mövcud olan tarifləri

qüvvədə saxlamaq məqsədilə birtərəfli tədbir görməyəcəkdir.

7. Bir Razılığa Gələn Tərəfin təyin etdiyi aviasiya şirkəti digər Razılığa Gələn Tərəfin aviasiya hakimiyyət orqanının müraciətinə əsasən, həmin digər Tərəfin ərazisində başlayan və üçüncü ölkələrə istiqamətlənən marşrutlar üzrə həyata keçirilən daşımalar üçün müəyyən edilmiş tariflər haqqında məlumatı təqdim edəcəkdir.

8. Yuxarıda qeyd edilən 6-cı bəndə baxmayaraq, əgər Razılığa Gələn Tərəflərdən hər hansı birinin aviasiya hakimiyyət orqanı onun ərazisində daşımalar üçün müəyyən edilmiş tarifləri 3-cü bənddə ifadə edilmiş kateqoriyaya aid edərsə, tarifləri qəbul etmədiyi barədə xəbərdarlığı tez bir zamanda və ya tarifin razılaşdırmaq üçün təqdim edildiyi gündən ən azı on dörd (14) gün əvvəl digər Razılığa Gələn Tərəfin aviasiya hakimiyyət orqanına və ya təyin edilmiş aviasiya şirkətlərinə təqdim etməlidir.

9. Hər iki Razılığa Gələn Tərəfin aviasiya hakimiyyət orqanları Razılığa Gələn Tərəflərin ərazilərindəki məntəqələr arasında yük daşımaları tariflərinin təsdiq edilmək üçün təqdim edilməsini tələb etməyəcək. Bununla belə, təyin edilmiş aviasiya şirkətləri tarifləri bu maddənin 3 və 8-ci bəndlərinə əsasən qiymətləndirmək məqsədilə, tətbiq edilməsi üçün nəzərdə tutulan tarixdən ən azı on dörd (14) gün əvvəl hər iki Razılığa Gələn Tərəfin aviasiya hakimiyyət orqanında qeydiyyatdan keçirməlidir. Qeydiyyatdan səkkiz (8) gün sonra tarifi təsdiq etmək üçün təqdim edən təyin edilmiş aviasiya şirkəti yük daşımalarının ərazisində başladığı Razılığa Gələn Tərəfin aviasiya hakimiyyət orqanından qeyd edilən yük tarifləri ilə razı olmaması barədə məlumat almadığı halda, qeydiyyatdan keçmiş həmin yük tarifi nəzərdə tutulan tarixdən qüvvəyə minəcək.

10. Razılığa Gələn Tərəflərdən birinin aviasiya hakimiyyət orqanı istənilən vaxt digər Razılığa Gələn Tərəfin aviasiya hakimiyyət orqanı ilə bu Maddənin müddəalarının tətbiqi ilə əlaqədar məsləhətləşmələrin keçirilməsini xahiş edə bilər. Bu məsləhətləşmələr sorğu alındıqdan otuz (30) gün sonra keçiriləcəkdir. Əgər heç bir razılıq əldə edilməzsə, ərazisində daşımaların ilkin məntəqəsi olan Razılığa Gələn Tərəfin aviasiya hakimiyyət orqanının qərarı üstünlük təşkil edəcək.

11. Təyin edilmiş aviasiya şirkətləri öz tariflərini, o cümlədən çarter reyslərinin dəyərini Əlavədə qeyd edilən marşrutda adı iki dəfə qeyd edilən məntəqələr arasında hər hansı aviaşirkətin təsdiq etdiyi tariflərə uyğunlaşdırmaq hüququna malikdir. Bu qayda ilə uyğunlaşdırılmış tarif onun qüvvəyə mindiyi gündən gec olmayaraq ərazisində tarifin tətbiq ediləcəyi Razılığa Gələn Tərəfin aviasiya hakimiyyət orqanına məlumat məqsədilə təqdim ediləcəkdir.

Razılığa Gələn Tərəflərdən hər birinin aviasiya hakimiyyət orqanı hər hansı aviaşirkət, sərnişin və yük əməliyyatları üzrə agent, turist səfərlərinin təşkilatçısı və ya yük göndərən tərəfindən tariflərin və satış şərtlərinin pozulması hallarını araşdırmaq hüququna malik olacaqdır.

Maddə 13

(Tutum)

1. Hər bir Razılığa Gələn Tərəfin təyin olunmuş aviasiya şirkətlərinə bu Sazişin Əlavəsində müəyyən edilmiş hər hansı marşrut üzərində hava daşımalarını həyata keçirmək üçün ədalətli və bərabər imkanlar veriləcəkdir.

2. Hər bir Razılığa Gələn Tərəfin təyin etdiyi aviasiya şirkəti razılaşdırılmış xidmətləri yerinə yetirərkən digər Razılığa Gələn Tərəfin təyin etdiyi aviasiya şirkətinin bütün marşrut boyu və ya marşrutun bir hissəsində yerinə yetirdiyi daşımalara mənfi təsir göstərməmək üçün həmin Razılığa Gələn Tərəfin mənafeyini nəzərə alacaqdır.

3. Razılığa Gələn Tərəflərin təyin edilmiş aviasiya şirkətlərinin həyata keçirdikləri razılaşdırılmış xidmətlər müəyyən edilmiş marşrutlar üzrə sərnişin daşımalarına olan tələbata uyğun olmalı və əsasən səmərəli yükləmə əmsalı tətbiq edərkən, aviasiya şirkətini təyin edən Razılığa Gələn Tərəfin ərazisinə və ya ərazisindən kənara sərnişin və/və ya yük, o cümlədən poçt daşımalarına münasibətdə mövcud və səmərəli tələbata cavab verən tutum təmin etmək məqsədi daşımalıdır. Aviasiya şirkətini təyin etməyən Dövlətlərin həm ərazisinə, həm də ərazisindən kənara sərnişin və/və ya yük, o cümlədən poçt daşımaları ümumi prinsiplərə uyğun həyata keçirilməlidir. Bu prinsiplərə əsasən tutum aşağıdakılardan asılı olacaqdır:

a) aviasiya şirkətini təyin edən Razılığa Gələn Tərəfin ərazisinə və ərazisindən kənara daşımalara olan tələbatdan;

b) razılaşdırılmış xidmətlərin yerinə yetirildiyi regionları marşruta daxil edən dövlətlərə məxsus aviaşirkətlər tərəfindən həyata keçirilən digər hava daşımaları nəzərə alınmaqla, həmin regionların daşımalara olan tələbatından, və

c) tranzit daşımalara olan tələbatdan.

Maddə 14

(Uçuş cədvəlləri)

1. Bir Razılığa Gələn Tərəfin təyin etdiyi aviasiya şirkəti nəzərdə tutduğu uçuşların cədvəlini uçuşların yerinə yetirilməsinə başlamazdan ən azı qırx beş (45) gün əvvəl təsdiq etmək üçün digər Razılığa Gələn Tərəfin aviasiya hakimiyyət orqanına təqdim edir. Cədvəldə hava daşımalarının sayı, hava gəmilərinin növləri, vaxt, yerlərin quruluşu və sayı, cədvəlin qüvvədə olduğu müddət göstərilir. Bu qayda cədvəldə edilən istənilən dəyişikliklər üçün tətbiq edilir.

2. Təyin edilmiş aviasiya şirkətinin cədvəldə qeyd edilən uçuşlardan əlavə reys həyata keçirmək arzusu meydana çıxarsa, digər Razılığa Gələn Tərəfin aviasiya hakimiyyət orqanından icazə almalıdır. Bu məqsədlə adətən uçuşlar yerinə yetirilməzdən ən azı iki (2) iş günü əvvəl müraciət etmək lazımdır.

Maddə 15

(Aviasiya şirkətinin nümayəndəliyi)

1. Bir Razılığa Gələn Tərəfin təyin edilən aviasiya şirkətinə qarşılıqlı surətdə digər Razılığa Gələn Tərəfin ərazisində nümayəndəliyini açmaq, habelə razılaşdırılmış xidmətləri həyata keçirmək üçün lazım olan kommersiya, texniki və digər personalın saxlanmasına icazə verilir.

2. Nümayəndələr və personal digər Razılığa Gələn Tərəfin ərazisində qüvvədə olan qanun və qaydalara tabe olmalıdır.

3. Müvafiq ərazidə qüvvədə olan qanun və qaydalara əsasən hər iki Razılığa Gələn Tərəfin təyin etdikləri aviasiya şirkətləri digər Razılığa Gələn Tərəfin ərazisində hava daşımalarına kömək göstərmək və hava nəqliyyatı xidmətlərinin satışı üçün bir və ya bir neçə ofis açmaq hüququna malikdir.

Maddə 16

(Məlumatın təqdim edilməsi)

Bir Razılığa Gələn Tərəfin aviasiya hakimiyyət orqanı digər Razılığa Gələn Tərəfin aviasiya hakimiyyət orqanının razılaşdırılmış xidmətləri təhlil etmək məqsədilə müraciətinə əsasən, təyin edilmiş aviasiya şirkətinin Sazişdə müəyyən edilmiş marşrutlar üzrə yerinə yetirdiyi hava daşımaları ilə əlaqədar dövri statistik göstəriciləri və ya digər bu qəbildən məlumatı təyin edilmiş aviasiya şirkətinə təqdim edəcək.

Maddə 17

(Məsləhətləşmələr)

1. Razılığa Gələn Tərəflərin aviasiya hakimiyyət orqanları sıx əməkdaşlıq məqsədilə vaxtaşırı olaraq bir-biri ilə əlaqə saxlayaraq, Sazişin müddəalarının yerinə yetirilməsinə təsir göstərən bütün aspektlər üzrə müzakirələr və ya yazışma yolu ilə sıx əməkdaşlıq edirlər.

2. Razılığa Gələn Tərəflərdən hər biri Sazişin müddəaları ilə əlaqədar meydana çıxan hər hansı problemin həlli məqsədilə istənilən vaxt məsləhətləşmələr keçirilməsini xahiş edə bilər. Məsləhətləşmələr, Razılığa Gələn Tərəflərin başqa razılığa gəldiyi hallar istisna edilməklə, digər Razılığa Gələn Tərəfin yazılı sorğu aldığı gündən altmış (60) gün ərzində başlanmalıdır.

Maddə 18

(Düzəlişlər)

1. Razılığa Gələn Tərəflərdən biri Sazişin hər hansı müddəasında düzəliş etmək niyyətində olarsa, bu düzəliş Razılığa Gələn Tərəflər arasında razılaşdırılmışdırsa, onun qəbul edilməsi üçün qanunvericiliyə müvafiq olaraq tələb olunan rəsmiyyətlərin yerinə yetirildiyini təsdiq edən diplomatik notaların sonuncusunun alındığından sonrakı otuzuncu (30) gün qüvvəyə minəcəkdir.

2. Beynəlxalq hava nəqliyyatı ilə əlaqədar olan və iki Razılığa Gələn Tərəf arasındakı münasibətlərə təsir göstərən əsas çoxtərəfli konvensiya qüvvəyə mindikdə, bu çoxtərəfli konvensiyanın müddəalarına müvafiq qaydada, həmin müddəaları Razılığa Gələn Tərəflərin qəbul etdiyi dərəcədə Sazişdə düzəlişlər aparılır.

Maddə 19

(Mübahisələrin həlli)

1. Razılığa Gələn Tərəflər arasında bu Sazişin təfsiri və ya tətbiqi ilə əlaqədar mübahisə yarandığı təqdirdə, Razılığa Gələn Tərəflərin aviasiya hakimiyyət orqanları onu danışıqlar yolu ilə həll etməyə çalışacaqlar.

2. Aviasiya hakimiyyət orqanları arasında razılıq əldə edilmədikdə, mübahisə Razılığa Gələn Tərəflər arasında danışıqlar yolu ilə həll edilir.

3. Razılığa Gələn Tərəflər mübahisəni danışıqlar yolu ilə də həll edə bilmədikdə, həmin məsələ onlar arasında əldə edilən razılaşmadan asılı olaraq məsləhətverici rəy və ya icrası məcburi olan qərar çıxarmaq üçün razılığa əsasən üçüncü şəxsə və ya quruma verilə bilər; və ya Razılığa Gələn Tərəflərdən birinin xahişi ilə üç münsifdən ibarət arbitraj məhkəməsinə təqdim ediləcək.

4. Arbitraj məhkəməsi aşağıdakı qaydada yaradılır: hər bir Razılığa Gələn Tərəf bir məhkəmə üzvü təyin edəcəkdir, həmin iki üzv isə öz aralarında razılığa gələrək sədr qismində üçüncü dövlətin vətəndaşını təyin edəcəklər. Həmin məhkəmə üzvləri bir Razılığa Gələn Tərəfin mübahisənin müzakirəsini Arbitraj Məhkəməsi yolu ilə həll etmək niyyətini digər Razılığa Gələn Tərəfə bildirdiyi tarixdən iki (2) ay ərzində, sədr isə üç (3) ay ərzində təyin ediləcəkdir.

5. 4-cü bənddə qeyd edilən müddətlərə riayət edilmədikdə, hər hansı Razılığa Gələn Tərəf digər müvafiq razılıq olmadıqda, Beynəlxalq Mülki Aviasiya Təşkilatı (İKAO) Şurasının Prezidentini lazımi təyinatları etməyə dəvət edə bilər. Şuranın Prezidenti Razılığa Gələn Tərəflərdən hər hansı birinin dövlətinin vətəndaşıdırsa və ya hər hansı səbəbdən bu funksiyanı icra edə bilmirsə, onu təmsil edən vitse-prezident lazımi təyinatları edir.

6. Arbitraj Məhkəməsinin qərarları səs çoxluğu ilə qəbul edilir. Bu qərarlar Razılığa Gələn Tərəflər üçün məcburi xarakter daşıyır. Hər bir Razılığa Gələn Tərəf təyin etdiyi məhkəmə üzvünün məsrəflərini, həmçinin onun məhkəmə işində təmsil edilməsi ilə əlaqədar məsrəfləri ödəyəcəkdir; sədrin məsrəfləri və digər məsrəflər Razılığa Gələn Tərəflər arasında bərabər şəkildə bölünərək ödəniləcəkdir. Bütün digər hallarda arbitraj məhkəməsi öz prosedurunu müəyyən edir.

Maddə 20

(Qeydiyyat)

Bu Saziş və ona hər hansı sonrakı düzəliş Beynəlxalq Mülki Aviasiya Təşkilatında qeydə alınmalıdır.

Maddə 21

(Sazişin qüvvədən düşməsi)

Hər bir Razılığa Gələn Tərəf istənilən zaman bu Sazişi ləğv etmək niyyəti barədə digər Razılığa Gələn Tərəfə diplomatik kanallarla yazılı bildiriş göndərə bilər. Belə bildiriş, eyni zamanda, Beynəlxalq Mülki Aviasiya Təşkilatına təqdim ediləcəkdir. Bu halda digər Razılığa gələn Tərəf belə bildirişi aldığı gündən altı (6) ay sonra, həmin müddət bitənədək razılıq əsasında ləğvetmə haqqında bildiriş geri götürülməzsə, Saziş qüvvədən düşür. Digər Razılığa Gələn Tərəf belə bildirişi aldığını təsdiq etməzsə, həmin bildiriş Beynəlxalq Mülki Aviasiya Təşkilatı tərəfindən alındıqdan on dörd (14) gün sonra alınmış hesab edilir.

Maddə 22

(Qüvvəyə minmə)

1. Hər bir Razılığa Gələn Tərəf Sazişin qüvvəyə minməsi üçün konstitusiya tələblərinin və ya qanunvericiliyində nəzərdə tutulmuş digər prosedurların yerinə yetirildiyi barədə

digər Razılığa Gələn Tərəfə diplomatik kanallar vasitəsilə bildiriş göndərəcəkdir. Bu Saziş qeyd olunan bildirişlərin sonuncusunun alındığı tarixdən sonrakı otuzuncu (30) gün qüvvəyə minir.

2. Bu Saziş beş (5) il müddətinə bağlanılır. Razılığa Gələn Tərəflərdən heç biri Sazişin müddətinin başa çatmasına ən azı altı (6) ay qalmış diplomatik nota vasitəsi ilə onu ləğv etmək niyyəti barədə bildirməzsə, Sazişin qüvvəsi avtomatik olaraq növbəti beş (5) illik müddətə uzadılacaqdır.

Bakı şəhərində 14 may 2010-cu ildə Azərbaycan, çex və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Fikir ayrılığı yarandıqda, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ELMAR MƏMMƏDYAROV
Xarici işlər naziri

ÇEXİYA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

JAN KOHOUT
Baş nazirinin müavini, xarici işlər naziri

ƏLAVƏ

MARŞRUTLARIN CƏDVƏLİ

I bölmə

Azərbaycan Respublikasının təyin edilmiş aviasiya şirkətinin və ya şirkətlərinin uçuşlar yerinə yetirdiyi marşrutlar:

Azərbaycan Respublikasındakı məntəqələr - aralıq məntəqələr - Çexiya Respublikasındakı məntəqələr - kənar məntəqələr.

QEYDLƏR:

1. Uçuşun Azərbaycan Respublikasının ərazisində başlanması və ya başa çatması şərtilə, hər hansı sahədə aralıq məntəqələr buraxıla bilər.

2. Razılığa Gələn Tərəflərin aviasiya hakimiyyət orqanları arasında vaxtaşırı qarşılıqlı razılaşma halları istisna edilməklə, aralıq və ya kənar məntəqələrdə, Çexiya Respublikasının ərazisinə və geriyə daşımalar həyata keçirilə bilməz. Bu məhdudiyyət, Razılığa Gələn Tərəflər arasında digər razılıq əldə edildiyi hallar istisna olunmaqla, bütün tranzit hərəkət (stop-over) formalarına şamil edilir.

II bölmə

Çexiya Respublikasının təyin edilmiş aviasiya şirkətinin və ya şirkətlərinin uçuşlar yerinə yetirdiyi marşrutlar:

Çexiya Respublikasındakı məntəqələr - aralıq məntəqələr - Azərbaycan Respublikasındakı məntəqələr - kənar məntəqələr.

QEYDLƏR:

1. Uçuşun Çexiya Respublikasının ərazisində başlanması və ya başa çatması şərtilə, hər hansı sahədə aralıq məntəqələr buraxıla bilər.

2. Razılığa Gələn Tərəflərin aviasiya hakimiyyət orqanları arasında vaxtaşırı qarşılıqlı razılaşma halları istisna edilməklə, aralıq və ya kənar məntəqələrdə, Azərbaycan Respublikasının ərazisinə və geriyə daşımalar həyata keçirilə bilməz. Bu məhdudiyyət, Razılığa Gələn Tərəflər arasında digər razılıq əldə edildiyi hallar istisna olunmaqla, bütün tranzit hərəkət (stop-over) formalarına şamil edilir.

Azərbaycan Respublikası Prezidentinin və Belarus Respublikası Prezidentinin Birgə Bəyannaməsinin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

Azərbaycan Respublikası Prezidentinin və Belarus Respublikası Prezidentinin 2010-cu il iyunun 3-də Bakı şəhərində imzalanmış Birgə Bəyannaməsi təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2010-cu il.

№ 1067-IIIQ

Azərbaycan Respublikası Prezidentinin və Belarus Respublikası Prezidentinin Birgə Bəyannaməsi

Azərbaycan Respublikasının Prezidenti və Belarus Respublikasının Prezidenti (bundan sonra "Tərəflər" adlandırılacaqdır),

2 may 2007-ci ildə imzalanmış Azərbaycan Respublikası və Belarus Respublikası arasında dostluq və əməkdaşlıq haqqında Müqavilənin iki ölkə arasında münasibətlərin genişləndirilməsində və dərinləşdirilməsindəki əsas rolunu nəzərə alaraq,

İki ölkə arasında hərtərəfli əməkdaşlığa, qarşılıqlı hörmətə və etimada əsaslanan dostluq münasibətlərinin yüksək səviyyədə olduğunu qeyd edərək,

Yüksək səviyyədə ikitərəfli dialoqu davam etdirmək, həmçinin bütün digər səviyyələrdə qarşılıqlı fəaliyyəti daha da genişləndirmək qətiyyətlərini bir daha təsdiq edərək,

Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin məqsədlərinə və beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarına sadiqliklərini təsdiq edərək,

Dövlətlərinin suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığına qarşılıqlı dəstəyi vurğulayaraq,

Sülh və sabitliyə yönələn təhdidlərlə mübarizə məqsədi ilə siyasi, iqtisadi, humanitar, müdafiə və təhlükəsizlik sahələrində əməkdaşlığın vacibliyini təsdiq edərək,

Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycan Respublikasına hazırkı səfərinin iki ölkə arasında dostluq və əməkdaşlığın dərinləşdirilməsi və genişləndirilməsinə imkan yaradacağına əminliklərini ifadə edərək,

aşağıdakıları bəyan edirlər:

1. Tərəflər ikitərəfli münasibətlərin, qarşılıqlı maraq doğuran beynəlxalq və regional məsələlərin bütün spektrlar üzrə müxtəlif səviyyələrdə siyasi dialoqun fəal şəkildə inkişaf etdirilməsi barədə razılığa gəldilər.

2. Tərəflər, parlamentlərarası əlaqələri ikitərəfli əməkdaşlığın vacib tərkib hissəsi kimi qiymətləndirərək, hər iki dövlətin parlamentləri arasında əməkdaşlığın fəallaşdırılmasının və parlament üzvlərinin qarşılıqlı səfərlərinin müntəzəm həyata keçirilməsinin əhəmiyyətini vurğulayırlar.

3. Tərəflər iqtisadiyyat, ticarət, hərbi və hərbi-texniki, kommunikasiya, turizm, elm, təhsil, mədəniyyət sahələrində, habelə səhiyyə, ətraf mühitin mühafizəsi və digər sahələrdə ikitərəfli münasibətlərin gələcəkdə də dərinləşdirilməsi əzmində olduqlarını ifadə edərək, müvafiq hüquqi bazasının təkmilləşdirilməsinin zəruriliyini qeyd edirlər.

4. Tərəflər terrorçuluğa, separatizmə, ekstremizmə, transmilli cinayətkarlığa, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qeyri-qanuni dövriyyəsinə, insan alverinə, kütləvi qırğın silahlarının yayılmasına və çirkli pulların yuyulmasına qarşı fəaliyyət üzrə beynəlxalq və ikitərəfli əməkdaşlığın möhkəmləndirilməsinin vacibliyini qeyd edirlər.

5. Tərəflər münaqişələrin dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərinin toxunulmazlığına hörmət edilməsi və riayət olunması əsasında sülh yolu ilə həlli məqsədi ilə BMT-nin Nizamnaməsinə və ATƏT-in sənədlərinə uyğun olaraq fəaliyyətin həyata keçirilməsinin vacibliyini təsdiqləyirlər.

6. Tərəflər Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarına uyğun olaraq, ilk öncə dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərinin toxunulmazlığına riayət olunması və təmin edilməsi, habelə BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələri və ATƏT-in qərarları əsasında tezliklə həll olunmasının vacibliyini vurğulayırlar.

7. Tərəflər Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsinə yönəldilmiş ATƏT çərçivəsində davam edən səylərə, həmçinin Minsk Qrupunun fəaliyyətinə istinad edərək, bu istiqamətdə gələcəkdə daha təsirli addımlar atılmasının vacibliyini qeyd etdilər.

8. Tərəflər mal dövriyyəsinin ciddi şəkildə artırılması üçün tədbirlər görmək, iş yerlərinin yaradılmasını təşviq etmək, həmçinin iqtisadi artımın təmin olunmasına, biznes mühitinin inkişaf etdirilməsinə, dərin istehsalat əməkdaşlığına, mal və xidmətlərin Azərbaycan, Belarus və üçüncü ölkə bazarlarına çıxışı imkanlarının artırılmasına yönəlmiş mümkün birgə addımlar atmaq qətiyyətlərini ifadə edir, habelə hər iki ölkənin sahibkarları arasındakı əlaqələrin gücləndirilməsinə yardım edəcək biznes forumlarının təşkilini dəstəkləyirlər.

9. Tərəflər qarşılıqlı sərmayələrin iqtisadi əməkdaşlığın əsas amillərindən biri olduğunu qeyd edərək, energetika, ticarət, ağır sənaye, maşınqayırma, kənd təsərrüfatı, nəqliyyat, kommunikasiya və qarşılıqlı maraq doğuran digər sahələrdə investisiyaların qorunması və inkişaf etdirilməsi barədə razılığa gəlirlər. Həmin məqsədə, həmçinin bu səfər zamanı imzalanan "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş" də xidmət

edəcəkdir.

10. Tərəflər tranzit və nəqliyyat kommunikasiya sahəsində qarşılıqlı fəaliyyətin inkişaf etdirilməsinə və dərinləşdirilməsinə, Azərbaycan Respublikasının və Belarus Respublikasının ərazilərində yerləşən hava və su yolları əlaqələrindən, avtomobil və dəmir yolları şəbəkələrindən, boru kəmərlərindən istifadə etməklə nəqliyyat əməliyyatlarının həyata keçirilməsi üçün əlverişli şərtlərin yaradılmasına və təmin edilməsinə hazır olduqlarını ifadə edirlər.

11. Tərəflər informasiya texnologiyaları və kommunikasiya, tikinti, kiçik və orta sahibkarlıq sahələrində əməkdaşlığın genişləndirilməsinin, habelə sənaye sahəsində birgə layihələrin inkişaf etdirilməsinin vacibliyini qeyd edirlər.

12. Tərəflər turizm mübadilələrinin təşviqinə yönəlmiş layihələri həvəsləndirmək məqsədilə əməkdaşlığı genişləndirmək barədə razılığa gəlirlər.

13. Tərəflər Xəzər regionunun enerji ehtiyatlarının beynəlxalq enerji təhlükəsizliyinin təmin edilməsində artan rolunu qeyd edir və bu karbohidrogenlərin dünya bazarına çatdırılması yollarının diversifikasiyasının və müvafiq layihələrin həyata keçirilməsinin əhəmiyyətini təsdiqləyirlər.

14. Tərəflər ikitərəfli iqtisadi münasibətlərin inkişafının effektiv əlaqələndirici mexanizmi kimi ticarət-iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Belorus hökumətlərarası Komissiyanın fəaliyyətini yüksək qiymətləndirirlər.

15. Tərəflər Avropa inteqrasiyası, Aİ ilə fərdi əməkdaşlıq planının yerinə yetirilməsində təcrübə mübadiləsi edəcək və Aİ-nin Şərq Tərəfdaşlığının həyata keçirilməsi çərçivəsində mövqeləri əlaqələndirəcəklər.

16. Tərəflər iqlim dəyişikliyinin səbəb olduğu təhlükələrlə bağlı narahatlığını ifadə edir və beynəlxalq birliyin iqlim dəyişikliyinin mənfi nəticələrinin qarşısının alınması və onlarla mübarizəyə yönəlmiş səylərinə qoşulmaq qətiyyətlərini təsdiq edirlər.

17. Tərəflər dövlətlərarası münasibətlərin möhkəmləndirilməsi məqsədi ilə humanitar sahədə əməkdaşlığın əhəmiyyətini qeyd edir, mədəniyyət, elm və təhsil sahələrində hərtərəfli qarşılıqlı fəaliyyətin vacibliyini təsdiq edirlər. Tərəflər tələbə və müəllimlərin mübadiləsi proqramları çərçivəsində müvafiq qurumlan arasında birgə layihələrin həyata keçirilməsini dəstəkləyəcəklər.

Bakı şəhərində, 3 iyun 2010-cu il tarixində, iki əsl nüsxədə Azərbaycan və rus dillərində imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ	BELARUS RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEV	*ALEKSANDR LUKAŞENKO*

"Azərbaycan Respublikası hökuməti və Belarus Respublikası hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Azərbaycan Respublikası hökuməti və Belarus Respublikası hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında" 2010-cu il iyunun 3-də Bakı şəhərində imzalanmış saziş təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2010-cu il

№ 1068-IIIQ

Azərbaycan Respublikası hökuməti və Belarus Respublikası hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq, Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti,

Hər iki Razılığa gələn Tərəfin qarşılıqlı faydası üçün iqtisadi əməkdaşlığın gücləndirilməsi,

Bir Razılığa gələn Tərəfin sərmayəçilərinin digər Razılığa gələn Tərəfin dövlətinin ərazisindəki sərmayələri üçün əlverişli şəraiti saxlamaq (müəyyən etmək) niyyətində olaraq,

Bu Saziş iki ölkə arasında sərmayələrinin qorunmasının və təşviqinin işgüzar təşəbbüslərin yaranmasına təkan verəcəyini qəbul edərək,

AŞAĞIDAKILAR BARƏDƏ RAZILIĞA GƏLDİLƏR:

MADDƏ 1

ANLAYIŞLAR

Bu Sazişin məqsədi üçün:

1. **"Sərmayə"** termini bir Razılığa gələn Tərəfin sərmayəçisi tərəfindən qoyulan digər Razılığa gələn Tərəfin dövlətinin ərazisində sonuncu Razılığa gələn Tərəfin milli qanunvericiliyinə müvafiq olaraq, xüsusilə aşağıdakılar daxil olmaqla, lakin bununla məhdudlaşmayaraq, əmlakın hər növü deməkdir:

a. daşınar və daşınmaz əmlak, və ya digər əşya hüquqları, ipotekalar, girov hüquqları, girovlar və oxşar hüquqlar;

b. paylar, səhmlər, istiqrazlar və ya kommersiya təşkilatlarında iştirakın istənilən digər forması;

c. pul vəsaitləri üçün hüquqi tələblər və ya müqaviləyə uyğun olaraq öhdəliklərin yerinə yetirilməsi ilə bağlı iqtisadi əhəmiyyətə malik olan istənilən iş üçün hüquqlar;

d. müəllif hüquqları, əlaqəli hüquqlar, inteqral sxem topologiyasına və məlumat toplularına hüquqlar, patentlər, ticarət nişanları, sənaye nümunələri, coğrafi işarələr və texniki proseslər, istehsalatın sirri, firma adlan, "nou-hau" və "qudvi" kimi əqli mülkiyyət hüquqları və hər iki ölkənin Razılığa gələn Tərəflərin milli qanunvericiliyində öz əksini tapmış digər oxşar hüquqlar;

e. sərmayəni Qəbul edən Razılığa gələn Tərəfin milli qanunvericiliyinə uyğun olaraq müqavilə əsasında səlahiyyətli hakimiyyət orqanı tərəfindən verilən konsessiyalar, təbii ehtiyatların kəşfiyyatına, işlənməsinə, çıxarılmasına və ya istismarına verilən səlahiyyətlər.

Sərmayəni Qəbul edən Razılığa gələn Tərəfin milli qanunvericiliyinə zidd deyilsə, aktivlərin qoyulduğu və yaxud təkrar qoyulduğu formanın istənilən dəyişikliyi sərmayələr kimi onların mahiyyətinə təsir etmir.

2. **"Gəlir"** termini sərmayələrdən əldə edilən məbləğlər və xüsusilə, lakin bununla məhdudlaşmayaraq, mənfəət, dividendlər, faizlər, royalti, kapital artımı və ya sərmayələrə aid istənilən ödəmələr deməkdir.

3. **"Sərmayəçi"** *termini hər bir Razılığa gələn bir Tərəfin fiziki və ya hüquqi şəxsi* digər Razılığa gələn Tərəfin dövlət ərazisində sərmayə qoyan:

a. "Fiziki şəxs" anlayışı Razılığa gələn Tərəfin milli qanunvericiliyinə uyğun olaraq onun vətəndaşı olan istənilən fiziki şəxs;

b. "Hüquqi şəxs" anlayışı Razılığa gələn Tərəfin milli qanunvericiliyinə uyğun qeydiyyatdan keçmiş və ya yaradılmış və həmin Razılığa gələn Tərəfin dövlətinin ərazisində real ticarət

fəaliyyəti həyata keçirən şirkət və ya digər müəssisə. Həmin anlayış sərmayəni Qəbul edən Razılığa gələn Tərəfin heç bir diplomatik münasibəti olmayan dövlətin vətəndaşlığına malik olan şəxsə məxsus olduğu və ya onun tərəfindən nəzarət edildiyi halda öz əksini tapmır.

4. **"Ərazi"** termini:

a. Azərbaycan Respublikasına münasibətdə - Xəzər dənizinin müvafiq sektoru da daxil olmaqla, üzərində Azərbaycan Respublikasının öz milli qanunvericiliyinə və beynəlxalq hüquqa uyğun olaraq suveren hüquqlarını və ya yurisdiksiyasını həyata keçirdiyi Azərbaycan Respublikasının ərazisi;

b. Belarus Respublikasına münasibətdə - onun suverenliyi altında olan, beynəlxalq hüquqa uyğun olaraq suveren hüquqlarını və ya yurisdiksiyasını həyata keçirdiyi Belarus Respublikasının ərazisi.

MADDƏ 2

SƏRMAYƏLƏRİN TƏŞVİQİ VƏ QORUNMASI

1. Hər bir Razılığa gələn Tərəf öz dövlətinin ərazisində digər Razılığa gələn Tərəfin sərmayəçilərinin sərmayələrini təşviq edəcək və onlar üçün əlverişli şərait yaradacaqdır və öz milli qanunvericiliyinə uyğun verilən hüquqlar əsasında bu cür sərmayələri qəbul edəcəkdir.

2. Hər bir Razılığa gələn Tərəf hər zaman öz dövlətİnin ərazisində digər Razılığa gələn Tərəfin sərmayəçilərinin sərmayələrinə ədalətli və qərəzsiz rejim tətbiq edəcək və onların tam və daimi müdafiəsini və təhlükəsizliyini təmin edəcəkdir. Hər bir Razılığa gələn Tərəf hər zaman öz dövlətinin ərazisində digər Razılığa gələn Tərəfin sərmayəçilərinin sərmayələrinin idarə edilməsinə, saxlanmasına, istifadəsinə əsassız və ya ayrı-seçkilik yolu ilə qarışmayacaqdır. Razılığa gələn hər bir Tərəf öz ərazisində sərmayəçilərinin sərmayələrinə bütün öhdəliklərin yerinə yetirilməsini təmin edəcəkdir.

MADDƏ 3

MİLLİ VƏ ƏN ƏLVERİŞLİ REJİM

1. Bir Razılığa gələn Tərəfin sərmayəçilərinin digər Razılığa gələn Tərəfin dövlət ərazisindəki sərmayələrinə və ya onlarla bağlı gəlirlərə münasibətdə, Qəbul edən Razılığa gələn Tərəfin öz sərmayəçilərinin və ya hər hansı üçüncü dövlətin sərmayəçilərinin qoyduğu sərmayələrə və gəlirlərə münasibətdə tətbiq etdiyi rejimdən (sərmayəçi üçün hansı daha əlverişlidirsə) az əlverişli olmayan rejim tətbiq ediləcəkdir.

2. Bir Razılığa gələn Tərəfin sərmayəçilərinə münasibətdə sərmayələrin idarə edilməsi, saxlanılması, istifadə edilməsi ilə əlaqədar, digər Razılığa gələn Tərəf öz sərmayəçilərinə və ya hər hansı üçüncü dövlətin sərmayəçilərinə münasibətdə tətbiq etdiyi rejimdən (sərmayəçi üçün hansı daha əlverişlidirsə) az əlverişli olmayan rejim tətbiq ediləcəkdir.

3. Bu Maddənin 1 və 2 bəndlərin müddəaları bir Razılığa gələn Tərəfin aşağıda qeyd edilənlər əsasında hər hansı rejim, imtiyaz və ya güzəştin digər Razılığa gələn Tərəfin sərmayəçilərinə şamil etmək öhdəliyində olması kimi şərh edilməyəcəkdir:

a. Razılığa gələn Tərəflərdən birinin üzv olduğu və ya üzv ola biləcəyi hər hansı mövcud və ya gələcəkdə yaradılacaq sərbəst ticarət zonası, gömrük ittifaqı, ümumi *bazar, iqtisadi və pul ittifaqı* və yaxud *analoji beynəlxalq sazişi, o cümlədən regional* iqtisadi əməkdaşlıq sazişi;

b. tam və ya qismən vergitutmaya aid olan hər hansı beynəlxalq müqavilə və ya razılaşma və ya vergitutmaya aid olan hər hansı Saziş.

MADDƏ 4

EKSPROPRİASİYA

1. Bir Razılığa gələn Tərəfin sərmayəçilərinin digər Razılığa gələn Tərəfin dövlətinin ərazisində sərmayələri, ictimai mənafenin tələb etdiyi, ayrı-seçkiliyə yol vermədən, qanun tələblərinə müvafiq olaraq və dərhal, adekvat və effektiv kompensasiyanın ödənilməsi halları istisna olmaqla, ekspropriasiyaya, milliləşdirməyə və ya, birbaşa və ya dolayısı ekspropriasiyaya və ya milliləşdirməyə (bundan sonra "ekspropriasiya" adlanır) bərabər nəticə verən hər hansı digər tədbirlərə məruz qalmayacaqlar.

2. Kompensasiya heç bir məhdudiyyət və ya gecikdirmə olmadan sərmayəni qoyulduğu valyutada həyata keçiriləcəkdir.

Bu cür kompensasiya, ekspropriasiyanın həyata keçirildiyi və ya ictimaiyyətə məlum olduğundan, hansı daha tez baş verərsə, bilavasitə əvvəlki vaxtda ekspropriasiya edil-

miş sərmayənin ədalətli bazar dəyərinə bərabər olacaqdır və ekspropriasiya tarixindən ödəniş tarixinə qədər bazarla müəyyənləşən kommersiya dərəcəsi üzrə faizi daxil edəcəkdir və bu dərəcə heç bir halda üstünlük təşkil edən LİBOR faiz dərəcəsindən və ya onun ekvivalentdən az olmamaq şərti ilə sərmayə qoyulan valyutada olacaqdır.

3. Bir Razılığa gələn Tərəfin sərmayəçisinin digər Razılığa gələn Tərəfin dövlətinin ərazisində sonuncu Razılığa gələn Tərəfin milli qanunvericiliyinə müvafiq olaraq yaradılmış və ya təsis edilmiş əmlakı və ya kommersiya təşkilatlarındakı payı ekspropriasiya edildiyi halda, qanun tələblərinə müvafiq olaraq, adekvat və effektiv kompensasiyanın həyata keçirilməsi üçün bu Maddənin müddəalarına tətbiq edilməsinə zəmanət veriləcəkdir.

4. Sərmayələri ekspropriasiya edəcək sərmayəçi bu Maddədə ifadə olunmuş prinsiplərə müvafiq qaydada onun sərmayələrinin qiymətləndirilməsinin Qəbul edən Razılığa gələn Tərəfin məhkəmə və ya digər səlahiyyətli orqanı tərəfindən təxirə salınmadan yenidən baxılması hüququna malik olacaqdır.

MADDƏ 5

ZƏRƏRƏ GÖRƏ KOMPENSASİYA

1. Bir Razılığa gələn Tərəfin sərmayəçilərinin digər Razılığa gələn Tərəfin dövlətinin ərazisindəki sərmayələri sonuncu Razılığa gələn Tərəfin dövlətinin ərazisində baş verən müharibə və ya digər silahlı münaqişə, fövqəladə vəziyyət, inqilab, üsyan, qiyam və ya təbii fəlakət nəticəsində ziyan çəkirsə, sonuncu Razılığa gələn Tərəf onlara münasibətdə restitusiya, əvəzin ödənilməsi, kompensasiya və ya hər hansı başqa ödənişlərlə bağlı rejim tətbiq edəcəkdir, və bu, sonuncu Razılığa gələn Tərəfin öz sərmayəçilərinə münasibətdə tətbiq etdiyi rejimdən, sərmayəçi üçün hansı daha əlverişlidirsə, az əlverişli olmayacaqdır.

2. Bu Maddənin 1-ci bəndinə zərər yetirmədən, əvvəlki bənddə göstərilən hər hansı vəziyyətdə Razılığa gələn bir Tərəfin ərazisində digər Razılığa gələn Tərəf aşağıdakılar nəticəsində ziyan çəkirsə:

sonuncunun silahlı qüvvələri və ya hakimiyyət orqanları tərəfindən onun sərmayəsinin tam və ya bir hissəsinin müsadirəsi, və ya

sonuncunun silahlı qüvvələri və ya hakimiyyət orqanları tərəfindən onun sərmayəsinin tam və ya bir hissəsinin, vəziyyətin zəruriliyi tələb etmədən məhv edilməsi,

hər hansı bir halda sonuncu Razılığa gələn Tərəf adekvat və effektiv kompensasiya həyata keçirəcəkdir. Kompensasiyaya gəldikdə, o, müsadirə və yaxud məhv edilməsi anından başlayaraq faktiki ödəniş tarixinə qədər 4-cü Maddənin 2-4-cü bəndlərinə uyğun həyata keçiriləcəkdir.

MADDƏ 6

SƏRBƏST KÖÇÜRMƏ

1. Hər bir Razılığa gələn Tərəf digər Razılığa gələn Tərəfin sərmayəçiləri (vergi və rüsumların ödənilməsindən sonra) üçün sərmayə ilə bağlı ödəmələrin sərbəst köçürülməsini vicdanla təmin edəcək. Belə ödəmələrə xüsusi halda, lakin bununla məhdudlaşmayaraq:

a. 1-ci Maddənin 2-ci bəndinə uyğun olaraq gəlirlər;

b. sərmayənin saxlanılması və ya inkişaf etdirilməsi üçün əsas və əlavə məbləğlər;

c. borc sazişləri daxil olmaqla, müqavilələrlə bağlı ödəmələr;

d. sərmayənin tam və ya qismən satışından və ya ləğvindən əldə edilən

e. 4-cü və 5-ci maddələrə uyğun olaraq ödənilməli olan kompensasiya;

f. Sərmayəni Qəbul edən Razılığa gələn Tərəfin milli qanunvericiliyinə uyğun olaraq sərmayə ilə bağlı işləyən xaricdən cəlb olunmuş fiziki şəxslərin xalis gəlirləri;

g. idarəetmə xərcləri, royaltilər və lisenziya haqlan və ya digər oxşar xərclərin ödənilməsi kimi sərmayə qoyuluşu ilə bağlı fəaliyyətdən yaranan xərclərin ödənilməsi üçün tələb olunan məbləğlər;

h. mübahisənin tənzimlənməsindən irəli gələn ödəmələr.

2. Bu Maddədə göstərilən köçürmələr heç bir gecikdirmə olmadan sərbəst dönərli valyutada və köçürmə valyutasının köçürmə günü tətbiq edilən məzənnədə, köçürmələr aparılan Razılığa gələn Tərəfin dövlətin ərazisində valyuta tənzimlənməsi haqqında milli qanunvericiliyinə əsasən həyata keçiriləcəkdir.

3. Bu Maddənin 1-ci və 2-ci bəndlərinə baxmayaraq, sərmayəçinin Qəbul edən Razılığa gələn Tərəfin fəaliyyətinin yoxlanılması üçün milli qanunvericiliyinə uyğun olaraq ədalətli, qərəzsiz, ayn-seçkilik olmadan köçürməni yubada və ya qarşısını ala bilər

a. vergi və rüsumların ödənilməsi;

b. müflisləşmə, iflas və ya kreditorların hüquqlarının müdafiəsi;

c. cinayət və ya inzibati hüquq pozuntuları;

d. Qəbul edən Razılığa gələn Tərəfin məhkəmələrinin qərar və ya prosedurlarına uyğun olaraq təmin edilməsi.

MADDƏ 7

SUBROQASİYA

Əgər Razılığa gələn bir Tərəf və ya onun səlahiyyətli qurumu digər Razılığa gələn Tərəfin ərazisində sərmayəçinin sərmayələrinə aid zəmanət və yaxud sığorta müqaviləsi çərçivəsində ödəniş həyata keçirərsə, Sonuncu Razılığa gələn Tərəf bu sərmayə ilə bağlı bütün hüquqların və tələblərin zaminə verilməsini və zaminin bu cür hüquqları və tələbləri ilkin sərmayəçi qədər həyata keçirmək hüququna malik olduğunu tanıyacaqdır.

MADDƏ 8

SƏRMAYƏÇİ VƏ QƏBUL EDƏN RAZILIĞA GƏLƏN TƏRƏF ARASINDA MÜBAHİSƏLƏR

1. Bir Razılığa gələn Tərəfin sərmayəçisi və digər Razılığa gələn Tərəf arasında, sonuncu Razılığa gələn Tərəfin dövlət ərazisindəki sərmayəyə münasibətdə hər hansı mübahisə imkan daxilində dostcasına tənzimlənəcəkdir.

2. Əgər mübahisənin tənzimlənməsi ilə əlaqədar yazılı müraciət verildiyi tarixdən 3 ay müddətində qərar qəbul edilməzsə, mübahisənin həlli üçün sərmayəçi öz seçimi ilə aşağıdakı qurumlara ünvanlaya bilər:

a. Dövlətinin ərazisində sərmayə qoyulmuş Razılığa gələn Tərəfin səlahiyyətli məhkəməsinə; və ya

b. 1965-ci il 18 mart tarixində Vaşinqtonda imzalanma üçün açıq elan edilmiş Dövlətlər və digər Dövlətlərin vətəndaşları arasında sərmayəyə aid mübahisələrin həlli üzrə konvensiyaya uyğun olaraq təsis edilmiş Sərmayə Mübahisələrinin Həlli üzrə Beynəlxalq Mərkəzə (bundan sonra "Mərkəz" adlandırılır); və ya

c. Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Ticarət Hüququ üzrə Komissiyasının ("UNCITRAL") Arbitraj Qaydalarına müvafiq olaraq təsis edilmiş "ad hok" arbitraj məhkəməsinə; və ya

d. qabaqcadan razılaşdırılmış digər Beynəlxalq "ad hok"arbitraj məhkəməsinə;

3. Mübahisəni səlahiyyətli məhkəməyə təqdim edən sərmayəçi bu Maddənin 2(b)-2(d) paraqraflarında göstərilən arbitraj məhkəmələrdən birinə xahişlə müraciət edə bilməz.

4. Mübahisə tərəfi olan Razılığa gələn Tərəflərdən heç biri arbitraj prosedurunun və ya arbitraj məhkəməsi qərarının yerinə yetirilməsinin hər hansı bir mərhələsində, mübahisədə qarşı tərəf olan sərmayəçinin sığorta əsasında onun itkilərini tam və ya qismən ödəyən kompensasiyanın alınmasına etiraz edə bilməz.

5. Məhkəmənin qərarı mübahisə tərəfləri üçün son və məcburi olacaq və mübahisə tərəfi olan Razılığa gələn Tərəfin dövlətinin prosessual qanunvericiliyə uyğun icra ediləcəkdir.

MADDƏ 9

RAZILIĞA GƏLƏN TƏRƏFLƏR ARASINDA MÜBAHİSƏLƏR

1. Bu Sazişin müddəaların təfsiri və tətbiqi ilə bağlı Razılığa gələn Tərəflər arasında mübahisələr mümkün qədər tez, danışıqlar yolu ilə həll ediləcəkdir.

2. Əgər mübahisə hər hansı bir Razılığa gələn Tərəfin belə danışıqların aparılması haqqında müraciət etdiyi tarixdən etibarən altı (6) ay ərzində bu yolla həll edilə bilməzsə, o hər hansı bir Razılığa gələn Tərəfin müraciəti əsasında bu Maddəyə əsasən Arbitraj Məhkəməsinə veriləcəkdir.

3. Belə Arbitraj Məhkəməsi hər bir fərdi iş üçün aşağıdakı qaydada təsis olunacaqdır. Arbitraj haqqında müraciətin alındığı tarixdən etibarən iki (2) ay ərzində hər bir Razılığa gələn Tərəf Məhkəmənin bir üzvünü təyin edəcəkdir. Sonra bu iki üzv hər iki Razılığa gələn Tərəfin razılığı əsasında Məhkəmənin Sədri kimi təyin olunacaq üçüncü dövlətin vətəndaşını seçəcəklər. Sədr digər iki üzvün təyin olunduğu vaxtdan sonra dörd (4) ay ərzində təyin olunacaqdır.

4. Əgər bu Maddənin 3-cü bəndində göstərilən müddətlər ərzində zəruri təyinatlar həyata keçirilməzsə, digər razılaşmanın olmadığı təqdirdə, Razılığa gələn Tərəflərdən hər hansı biri Beynəlxalq Məhkəmənin Sədrinə hər hansı zəruri təyinatların həyata keçirilməsi üçün ünvanlana bilər. Əgər Sədr Razılığa gələn Tərəflərdən hər hansı birinin

vətəndaşıdırsa və ya hər hansı səbəbdən göstərilən funksiyanı yerinə yetirə bilmirsə, Razılığa gələn Tərəflərdən heç birinin vətəndaşı olmayan və bu funksiyam yerinə yetirə biləcək, Beynəlxalq Məhkəmənin rütbəcə sonra gələn üzvü zəruri təyinatların həyata keçirilməsi üçün dəvət ediləcəkdir.

5. Arbitraj Məhkəməsi öz qərarın səs çoxluğu ilə qəbul edəcəkdir. Məhkəmənin qərarları hər iki Razılığa gələn Tərəf üçün son və məcburi olacaqdır. Hər bir Razılığa gələn Tərəf özünün təyin etdiyi üzvün və özünün məhkəmə prosesində təmsil edilməsi xərclərini ödəyəcəkdir. Hər iki Razılığa gələn Tərəf Sədrin xərcini, həmçinin digər ümumi xərclərin ödənilməsini bərabər hissədə öz üzərinə götürəcəkdir. Digər məsələlər ilə bağlı Arbitraj Məhkəməsi öz iş reqlamentini müəyyən edəcəkdir.

MADDƏ 10

DİGƏR QAYDALARIN TƏTBİQİ

1. Əgər, bu Sazişə əlavə olaraq, Razılığa gələn hər hansı Tərəfin dövlətinin qanunvericiliyinin müddəaları və ya Razılığa gələn Tərəflər arasında beynəlxalq hüquq əsasında mövcud olan və ya gələcəkdə qəbul ediləcək öhdəliklər Razılığa gələn digər Tərəfin sərmayəçilərinin qoyduğu sərmayələr üçün bu Sazişlə təmin edilən rejimdən daha əlverişli rejimin tətbiqi haqqında ümumi və ya xüsusi qayda müəyyən edərsə, həmin müddəalar, onların sərmayəçi üçün daha əlverişli olduğu dərəcədə, bu Sazişə nisbətən üstünlük təşkil edəcəkdir.

2. Razılığa gələn hər bir Tərəf öz ərazisində hər bir xüsusi sərmayəçi ilə bağlı nəzərdə tutulmuş bütün öhdəliklərin vicdanla yerinə yetirilməsini təmin edəcəkdir.

MADDƏ 11

SAZİŞİN TƏTBİQİ

Bu Sazişin müddəaları Razılığa gələn Tərəflərdən hər hansı birinin sərmayəçiləri tərəfindən digər Razılığa gələn Tərəfin ərazisində gələcəkdə qoyulacaq sərmayələrə və bu Sazişin qüvvəyə minməsi tarixində Razılığa gələn Tərəflərin milli qanunvericiliyinə uyğun mövcud olan sərmayələrə tətbiq olunacaq. Lakin bu Sazişin müddəaları onun qüvvəyə minməsindən əvvəl baş verdiyi hallardan irəli gələn mübahisələrə və ya onun qüvvəyə minməsindən əvvəl həll olunmuş mübahisələrə tətbiq olunmayacaqdır.

MADDƏ 12

ŞƏFFAFLIQ

1. Hər bir Razılığa gələn Tərəf imkan daxilində, öz dövlətinin ərazisində digər Razılığa gələn Tərəfin sərmayəçilərinin sərmayələrinə təsir edə biləcək hamı tərəfindən istifadə edilmiş qanunvericilik, habelə beynəlxalq müqavilələrin nəşr edilməsini və ya digər yolla ictimaiyyətə çatdırılmasını təmin edəcəkdir.

2. Qəbul edən Razılığa gələn Tərəf potensial investordan və ya onun mənşə ölkəsindən onun korporativ idarəetmə tarixçəsini, həmçinin fəaliyyəti və təcrübəsi haqqında informasiya əldə etmək hüququ var. Qəbul edən Razılığa gələn Tərəf sərmayə və sərmayəçilər haqqında xüsusi məlumatların alınmasında, tam məxfiliyə təminat verir.

MADDƏ 13

MƏSLƏHƏTLƏŞMƏLƏR

Razılığa gələn Tərəflər, zərurət yarandığı halda, onlardan hər hansı birinin müraciəti əsasında, bu Sazişin yerinə yetirilməsi ilə bağlı hər hansı bir məsələnin nəzərdən keçirilməsi üçün məsləhətləşmələr keçirməyə razılaşırlar. Belə məsləhətləşmələr Razılığa gələn Tərəflər arasında diplomatik kanallar vasitəsilə razılaşdırılmış yerdə və vaxtda Razılığa gələn Tərəflərin səlahiyyətli orqanları arasında həyata keçiriləcəkdir.

MADDƏ 14

ƏLAVƏ VƏ DƏYİŞİKLİKLƏR

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və Sazişin 15-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən ayrıca Protokollarla rəsmiləşdirilən dəyişikliklər və əlavələr edilə bilər.

MADDƏ 15

QÜVVƏYƏ MİNMƏ, QÜVVƏDƏ QALMA VƏ XİTAM

1. Bu Saziş Razılığa gələn Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri dövlətdaxili prosedurları yerinə yetirdikləri barədə bir-birilərinə göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdən sonra otuzuncu (30) gündə qüvvəyə minəcək.

2. Bu Saziş on (10) il müddətində qüvvədə qalacaq və bir Razılığa gələn Tərəf digər Razılığa gələn Tərəfə ona xitam vermək niyyəti barədə diplomatik kanallar vasitəsilə on iki (12) ay əvvəl yazılı şəkildə bildiriş göndərməzsə, növbəti on (10) illik müddətlərə uzadılacaqdır.

3. Bu Sazişə xitam verilməsi tarixindən əvvəl qoyulmuş sərmayələrə münasibətdə onun 1-14-cü maddələrinin şərtləri bu Sazişə xitam verilməsi barədə bildirişin verilmə tarixindən növbəti on (10) il müddətində qüvvədə qalacaqdır.

BUNUN TƏSDİQİ OLARAQ, bunun üçün lazımi surətdə səlahiyyətlər almış, aşağıda imza etmiş təmsilçilər, hazırkı Sazişi imzaladılar.

Bu Saziş Bakı şəhərində 3 iyun 2010-cu il tarixində, hər biri Azərbaycan və rus dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	BELARUS RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ŞAHİN MUSTAFAYEV	*SERGEY MARTINOV*
İqtisadi inkişaf naziri	*Xarici işlər naziri*

Azərbaycan Respublikası Prezidentinin və Serbiya Respublikası Prezidentinin Birgə Bəyanatının təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

Azərbaycan Respublikası Prezidentinin və Serbiya Respublikası Prezidentinin 2010-cu

il mayın 13-də Bakı şəhərində imzalanmış Birgə Bəyanatı təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2010-cu il

№1069-IIIQ

Azərbaycan Respublikası Prezidentinin və Serbiya Respublikası Prezidentinin Birgə Bəyanatı

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dəvəti ilə Serbiya Respublikasının Prezidenti cənab Boris Tadiç, 12-13 may 2010-cu il tarixində Azərbaycan Respublikasına rəsmi səfər etmişdir.

Prezidentlər dostcasına və əhatəli danışıqlarında ikitərəfli əlaqələrin müvafiq sahələrdə daha da inkişaf etdirilməsi istiqamətində iki ölkə arasında münasibətləri müzakirə etdilər və siyasi dialoqlarının davam etdirilməsi barədə niyyətlərini və qərarlarını ifadə etdilər. Prezidentlər regional və beynəlxalq təşkilatlar və qurumlar çərçivəsində hər iki ölkənin maraqlarının həyata keçirilməsi məqsədi ilə əməkdaşlığa dəstək verilməsinin vacibliyini xüsusi ilə qeyd etdilər. Onlar Serbiya Respublikası Prezidentinin Azərbaycan Respublikasına rəsmi səfərinin iki ölkə arasında əməkdaşlığın və dostluğun daha da dərinləşməsinə töhfə verəcəyinə, bunun da etimadın, dəstəyin və anlaşmanın əldə olunmuş səviyyəsini möhkəmləndirəcəyinə əminliklərini ifadə etdilər.

1. Hər iki Prezident danışıqlar zamanı ikitərəfli münasibətləri demokratiya, qanunun aliliyi, vətəndaş cəmiyyəti, insan hüquqlarına hörmət və bazar iqtisadiyyatı kimi müştərək dəyərlər və məqsədlər əsasında inkişaf etdirmək qətiyyətlərini vurğuladı.

2. Prezidentlər inkişafın yeni, keyfiyyətcə daha yüksək səviyyəsinə daxil olmaq üçün ikitərəfli münasibətləri siyasi, iqtisadi və mədəni əlaqələri vasitəsi ilə təşviq və səfərbər etmək qərarlarını qeyd etdilər.

3. Onlar müntəzəm siyasi dialoqun keçirilməsinin və iki ölkə arasında əməkdaşlığın möhkəmləndirilməsinin vacibliyini qeyd etdilər, ümumi maraqlarına aid ikitərəfli və beynəlxalq məsələlərə həsr edilmiş yüksək səviyyəli illik görüşlərin, həmçinin iki xarici işlər nazirləri arasında müntəzəm görüşlərin və yüksək səviyyəli rəsmilər və mütəxəssislər səviyyəsində mütəmadi məsləhətləşmələrin keçirilməsi barədə qərara gəldilər.

4. Prezidentlər iki ölkənin xarici işlər nazirləri tərəfindən bu gün imzalanmış Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Serbiya Respublikasının Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Protokolun imzalanması ilə əlaqədar öz məmnunluqlarını ifadə etdilər.

5. Hər iki Prezident universal təşkilat kimi Birləşmiş Millətlərin rolunun və yerinin gücləndirilməsinə ehtiyac olduğunu və BMT Nizamnaməsində təsbit edilmiş ümumtanınmış prinsiplərə sadiqliklərini qeyd etdilər. Onlar birlikdə fəaliyyət göstərməyin və Birləşmiş Millətlər Təşkilatının dünyada sülhün və təhlükəsizliyin qorunub saxlanılmasında, həmçinin beynəlxalq və regional problem və mübahisələrin həll edilməsində oyna-

dığı əsas roluna töhfə verməyin vacibliyini qeyd etdilər.

6. Onlar iki ölkə arasında dialoq, təcrübə və fikir mübadiləsi, namizədlərin qarşılıqlı dəstəklənməsi vasitəsi ilə BMT, ATƏT, Avropa Şurası, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın davam etdirilməsi barədə razılığa gəldilər. Onlar, həmçinin terrorçuluq, kütləvi qırğın silahlarının yayılması və mütəşəkkil cinayətkarlığın bütün formaları kimi yeni təhdid və çağırışlarla mübarizədə müntəzəm dialoqun, məsləhətləşmələrin və əməkdaşlığın həyata keçirilməsinin zəruri olduğunu qeyd etdilər.

7. Prezidentlər beynəlxalq sərhədlərin zor işlətməklə birtərəfli qaydada dəyişdirilməsinin qəbuledilməz olduğu barədə mövqelərini təsdiq edərək, beynəlxalq birliyin suverenliyə və ərazi bütövlüyünə qarşı yönələn birtərəfli aktlarla mübarizədə birgə səylərinin beynəlxalq təhlükəsizliyin gücləndirilməsinə əhəmiyyətli töhfə olduğunu qeyd etdilər.

8. Prezidentlər Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn ümumtanınmış prinsipləri və normaları, BMT-nin" Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə və ATƏT-in Lissabon Sammitinin üç prinsipinə uyğun olaraq, Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı əsasında tezliklə həll olunmasının zəruriliyini vurğuladılar.

9. Prezidentlər Serbiyanın ərazi bütövlüyünə və suverenliyinə hörmət etdiklərini təsdiqlədilər və Kosovo məsələsinin beynəlxalq hüququn və BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq həll olunmasını dəstəklədiklərini ifadə etdilər.

10. Onlar iqtisadi əməkdaşlığı və ticarəti daha da təşviq etmək və inkişaf etdirmək, həmçinin hər iki tərəfi qane edəcək davamlı və sabit iqtisadi inkişafı təmin etmək, Ticarət və İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya yaratmaq, iqtisadi məlumatın əldə olunmasını təmin etmək, ticarət palataları və digər biznes assosiasiyaları arasında əməkdaşlığı dəstəkləmək barədə niyyətlərini vurğuladılar. Hər iki Prezident qarşılıqlı sərmayələr və müştərək müəssisələr üçün əlverişli şəraitin yaradılması barədə qərara gəldilər. Onlar iki ölkə arasında energetika, neft-kimya, nəqliyyat, iqtisadiyyat, sənaye istehsalı, ərzaq sənayesi, kommunikasiya, turizm, səhiyyə, hərbi tibb və kadrların hazırlanması, elm, təhsil, mədəniyyət, ətraf mühitin mühafizəsi sahələrində və humanitar məsələlər sahəsində münasibətlərin və əməkdaşlığın hərtərəfli təşviq edilməsi və inkişaf etdirilməsi qətiyyətlərini xüsusi ilə qeyd etdilər.

11. Prezidentlər parlamentlərarası əlaqələrin və parlament nümayəndə heyətlərinin müntəzəm qarşılıqlı səfərlərinin həyata keçirilməsinin xüsusi vacibliyini vurğuladılar, Avropa Şurasının Parlament Assambleyası və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyası çərçivəsində əməkdaşlığa ehtiyac olduğunu qeyd etdilər.

12. Onlar gələcək münasibətlərin hərtərəfli inkişafı üçün əlavə təkan rolunu oynayacaq ikitərəfli əməkdaşlığın hüquqi bazasının genişləndirilməsi üzrə fəaliyyətin davam etdirilməsini dəstəklədilər.

13. Prezidentlər ümumilikdə enerji təhlükəsizliyi, enerjinin səmərəli istifadə olunması və bərpa olunan enerji ehtiyatlarından istifadə məqsədi ilə energetika sahəsində əməkdaşlığın davam etdirilməsinin vacibliyini vurğuladılar. Onlar Xəzər dənizinin enerji mənbələrinin geniş beynəlxalq enerji sabitliyinin təmin edilməsi və Xəzər regionu ölkələrinin iqtisadi inkişafı üçün əhəmiyyətini qeyd etdilər.

14. Onlar iki ölkə arasında mədəniyyət, elm, təhsil, media, humanitar məsələlər sahəsində və inkişafa töhfə verən bütün digər sahələrdə əməkdaşlığın təşviq edilməsinin, əməkdaşlıq sahələrinin və əlaqələrin genişləndirilməsinin əhəmiyyətini qeyd etdilər. Prezidentlər mədəniyyətlərarası və dinlərarası dialoqun saxlanılmasının, bir-birini daha yaxşı tanımağın və qarşılıqlı anlaşmanın inkişaf etdirilməsi zəruriliyinin əhəmiyyətini vurğuladılar. Azərbaycan, çoxlu millətlər, dinlər və mədəniyyətlər olan Balkan ölkəsi kimi Serbiyanın roluna yüksək dəyər verir. Serbiya, Avropa ilə Asiyanın qovşağında yerləşən və özündə Şərq və Qərb sivilizasiyalarının xüsusiyyətlərini birləşdirən və onlara hörmət edən Azərbaycanın oynadığı vacib rolu yüksək qiymətləndirir.

Bakı şəhərində, 13 may 2010-cu il tarixində, iki əsl nüsxədə Azərbaycan, serb və ingilis dillərində imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ	SERBİYA RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEV	*BORİS TADİÇ*

"Azərbaycan Respublikası hökuməti və Serbiya Respublikası hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında" Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Azərbaycan Respublikası hökuməti və Serbiya Respublikası hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında" 2010-cu il mayın 13-də Bakı şəhərində imzalanmış Konvensiya təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2010-cu il

№ 1070-IIIQ

Azərbaycan Respublikası hökuməti və Serbiya Respublikası hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında Konvensiya

Azərbaycan Respublikası Hökuməti və Serbiya Respublikası Hökuməti gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında Konvensiya bağlamaq məqsədi ilə aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

KONVENSİYANIN TƏTBİQ EDİLDİYİ ŞƏXSLƏR

Bu Konvensiya, Razılığa gələn Dövlətlərdən birinin və ya hər ikisinin rezidenti olan şəxslərə tətbiq edilir.

Maddə 2

KONVENSİYANIN TƏTBİQ EDİLDİYİ VERGİLƏR

1. Bu Konvensiya, vergitutma üsulundan asılı olmayaraq, Razılığa gələn Dövlət və ya onun siyasi, yaxud inzibati-ərazi bölmələri və ya yerli hakimiyyət orqanları tərəfindən gəlirlərə və əmlaka görə tutulan vergilərə tətbiq edilir.

2. Gəlirlərə və əmlaka görə vergilərə - gəlirin ümumi məbləğindən, əmlakın ümumi dəyərindən və ya gəlirin və ya əmlakın elementlərindən, o cümlədən, daşman və ya daşınmaz əmlakın özgəninkiləşdirilməsindən əldə edilən gəlirlərdən, müəssisələr tərəfindən ödənilən əmək haqqı və ya maaşların ümumi məbləğlərindən, həmçinin əmlakın dəyərinin artımından tutulan bütün vergilər aiddir.

3. Konvensiyanın tətbiq edildiyi mövcud vergilər xüsusilə aşağıdakılardır:

Azərbaycanda:

1) fiziki şəxslərin gəlir vergisi;

2) hüquqi şəxslərin mənfəət vergisi;

3) əmlak vergisi;

4) torpaq vergisi

(bundan sonra "Azərbaycan vergisi" adlanır);

Serbiyada:

1) korporativ gəlir vergisi;

2) şəxsi gəlir vergisi;

3) əmlak vergisi.

(bundan sonra "Serbiya vergisi" adlanır).

4. Bu Konvensiya, həmçinin, onun imzalandığı tarixdən sonra mövcud vergilərə əlavə olaraq və ya həmin vergilərin əvəzinə tətbiq edilən istənilən eyni və ya mahiyyətcə oxşar vergilərə də tətbiq edilir. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları öz vergi qanunvericiliklərində baş verən hər bir əhəmiyyətli dəyişiklik barədə bir-birini xəbərdar edirlər.

Maddə 3

ÜMUMİ ANLAYIŞLAR

1. Kontekst başqa cür tələb etmirsə, bu Konvensiyanın məqsədləri üçün:

1) **"Razılığa gələn Dövlət"** və **"Razılığa gələn digər Dövlət"** terminləri - kontekstdən asılı olaraq Azərbaycan Respublikasını və ya Serbiya Respublikasını bildirir;

2) **"Azərbaycan"** termini - Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan sektoru və Azərbaycan Respublikasının üzərindəki hava məkanı da daxil olmaqla, yerin təki, dənizin dibi və təbii sərvətlərə münasibətdə Azərbaycan Respublikasının suveren hüquqlarının və yurisdiksiyasının tətbiq edildiyi Azərbaycan Respublikası ərazisini, habelə, beynəlxalq hüquqa və Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq müəyyən edilmiş və gələcəkdə müəyyən edilə bilən istənilən digər ərazini bildirir;

3) **"Serbiya"** termini - Serbiya Respublikasını ifadə edir və coğrafi mənada istifadə edildikdə Serbiya Respublikasının ərazisini bildirir;

4) **"milli şəxs"** termini aşağıdakıları bildirir:

- Razılığa gələn Dövlətin vətəndaşı olan istənilən fiziki şəxsi;

- özünün müvafiq statusunu Razılığa gələn Dövlətdə qüvvədə olan qanunvericiliyə müvafiq olaraq almış istənilən hüquqi şəxsi, tərəfdaşlığı və ya assosiasiyanı.

5) **"şəxs"** termini - fiziki şəxsi, şirkəti və şəxslərin hər hansı digər birliklərini bildirir;

6) **"şirkət"** termini - hər hansı hüquqi şəxsi və ya vergi məqsədləri üçün ayrıca qurum kimi baxılan hər hansı təşkilatı bildirir;

7) **"Razılığa gələn Dövlətin müəssisəsi"** və **"Razılığa gələn digər Dövlətin müəssisəsi"** terminləri - müvafiq olaraq, Razılığa gələn Dövlətin rezidenti olan müəssisəni və Razılığa gələn digər Dövlətin rezidenti olan müəssisəni bildirir;

8) **"beynəlxalq daşıma"** termini - Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən istismar edilən dəniz və ya hava gəmiləri vasitəsilə yerinə yetirilən istənilən daşımaları (dəniz və ya hava gəmisinin müstəsna olaraq Razılığa gələn digər Dövlətin məntəqələri arasında istismar edilməsi hallan istisna olmaqla) bildirir;

9) **"səlahiyyətli orqan"** termini aşağıdakıları bildirir:

- Azərbaycanda, Maliyyə Nazirliyi və Vergilər Nazirliyini;

- Serbiyada, Maliyyə Nazirliyi və ya onun səlahiyyətli nümayəndəsini.

2. Razılığa gələn Dövlət tərəfindən bu Konvensiyanın istənilən vaxt tətbiqi zamanı, bu Konvensiyada müəyyən edilməmiş hər hansı termin, kontekst başqa cür tələb etmirsə, Konvensiyanın tətbiq edildiyi vergilərə münasibətdə həmin vaxt həmin Dövlətin qanunvericiliyində nəzərdə tutulmuş mənaya malikdir və bu terminin həmin Dövlətin qüvvədə olan Vergi qanunvericiliyində nəzərdə tutulmuş mənası, həmin terminin həmin Dövlətin digər qanunlarında nəzərdə tutulmuş mənası üzərində üstünlük təşkil edir.

Maddə 4

REZİDENT

1. Bu Konvensiyanın məqsədləri üçün "Razılığa gələn Dövlətin rezidenti" termini həmin Dövlətin qanunvericiliyinə müvafiq olaraq yaşayış yerinə, daimi olduğu yerə, qey-

diyyat yerinə, idarəetmə yerinə və ya oxşar xarakterli hər hansı digər meyara əsasən həmin dövlətdə vergiyə cəlb edilməli olan istənilən şəxsi bildirir, həmçinin, həmin Dövləti və onun hər hansı siyasi və ya inzibati-ərazi bölməsi və ya yerli hakimiyyət orqanını da əhatə edir. Bununla belə, bu termin, yalnız həmin Dövlətdəki mənbələrdən gəlirlərə və ya orada yerləşən əmlaka münasibətdə orada vergiyə cəlb edilməli olan hər hansı şəxsi əhatə etmir.

2. Əgər, 1-ci bəndin müddəalarına müvafiq olaraq, fiziki şəxs Razılığa gələn Dövlətlərdən hər ikisinin rezidentidirsə, bu halda onun statusu aşağıdakı qaydada müəyyən edilir:

1) o, yalnız daimi yaşayış yerinə malik olduğu Dövlətin rezidenti hesab edilir; əgər onun hər iki Dövlətdə daimi yaşayış yeri vardırsa, o, yalnız şəxsi və iqtisadi əlaqələrinin daha sıx olduğu (həyati mənafelərin mərkəzi) Dövlətin rezidenti hesab edilir;

2) əgər, onun həyati mənafelərinin mərkəzinin yerləşdiyi Dövləti müəyyən etmək mümkün deyildirsə və ya onun bu Dövlətlərdən heç birində daimi yaşayış yeri yoxdursa, bu halda o, yalnız adətən yaşadığı Dövlətin rezidenti hesab edilir;

3) əgər o, adətən hər iki Dövlətdə yaşayırsa və ya onlardan heç birində yaşamırsa, o, yalnız milli şəxsi olduğu Dövlətin rezidenti hesab edilir;

4) əgər o, hər iki Dövlətin milli şəxsidirsə və ya onlardan heç birinin milli şəxsi deyildirsə, Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları məsələni qarşılıqlı razılaşma yolu ilə həll edirlər.

3. Əgər, 1-ci bəndin müddəalarına müvafiq olaraq, fiziki şəxs olmayan şəxs Razılığa gələn Dövlətlərdən hər ikisinin rezidentidirsə, bu halda Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanlar faktiki idarəetmə yeri və ya digər müvafiq meyar əsas götürülməklə məsələni həll etməyə səy göstərəcəklər. Razılığa gəlmək mümkün olmadığı təqdirdə, həmin şəxs bu Konvensiyanın verdiyi üstünlüklərdən istifadə etmək hüququna malik olmayacaqdır.

Maddə 5

DAİMİ NÜMAYƏNDƏLİK

1. Bu Konvensiyanın məqsədləri üçün, "daimi nümayəndəlik" termini, müəssisənin sahibkarlıq fəaliyyətinin tamamilə və ya qismən həyata keçirildiyi daimi fəaliyyət yermi bildirir.

2. "Daimi nümayəndəlik" terminə xüsusilə aşağıdakılar aiddir:

1) idarəetmə yeri;

2) filial;

3) ofis;

4) fabrik;

5) emalatxana;

6) yataq, neft və ya qaz quyusu, karxana və ya təbii ehtiyatların hasil olunduğu hər hansı digər yer;

7) qurğu, tikili və ya gəmi, yaxud təbii ehtiyatların kəşfiyyatı üçün istifadə edilən hər hansı digər yer; və

8) satış nöqtəsi (outlet) kimi istifadə edilən yerlər və anbarlar.

3. "Daimi nümayəndəlik" terminə həmçinin aşağıdakılar aid edilir:

1) Tikinti meydançası, quraşdırma və ya yığma layihəsi və ya bunlarla bağlı nəzarət fəaliyyəti - yalnız bu cür meydança, layihə və ya fəaliyyət doqquz aydan artıq davam etdikdə;

2) Məsləhət xidmətləri də daxil olmaqla, müəssisə tərəfindən öz işçiləri və ya bu cür məqsədlər üçün cəlb edilmiş digər heyət vasitəsilə xidmətlərin göstərilməsi - yalnız bu xarakterli fəaliyyət (eyni və ya əlaqəli layihə üçün) Razılığa gələn Dövlətin ərazisində istənilən on iki aylıq dövr ərzində ümumilikdə altı aydan artıq bir dövr və ya dövrlər ərzində davam etdikdə.

4. Bu maddənin əvvəlki müddəalarından asılı olmayaraq, "daimi nümayəndəlik" terminə aşağıdakılar aid edilmir:

1) qurğulardan müəssisəyə məxsus olan malların və ya məmulatların mənfəət əldə etmədən, müstəsna olaraq saxlanılması, nümayiş etdirilməsi və ya qeyri-müntəzəm çatdırılması məqsədi üçün istifadə edilməsi, bir şərtlə ki, bu qurğular onların yerləşdiyi Razılığa gələn Dövlətdə satış nöqtəsi kimi istifadə edilməsin;

2) müəssisəyə məxsus olan mal və ya məmulat ehtiyatlarının mənfəət əldə etmədən, müstəsna olaraq saxlanılma, nümayiş etdirilmə və ya qeyri-müntəzəm çatdırılma məqsədi üçün saxlanılması, bir şərtlə ki, bu mal və ya məmulatlar ehtiyatların yerləşdiyi Razılığa gələn Dövlətdə satılmasın;

3) müəssisəyə məxsus olan mal və ya məmulat ehtiyatlarının müstəsna olaraq başqa müəssisə tərəfindən emal edilmək məqsədi üçün saxlanılması;

4) daimi sahibkarlıq fəaliyyəti yerinin müstəsna olaraq müəssisə üçün mal və ya məmulatların satın alınması və ya informasiya toplanılması məqsədi üçün saxlanılması;

5) daimi sahibkarlıq fəaliyyəti yerinin müstəsna olaraq müəssisə üçün hazırlıq və ya yardımçı xarakterli istənilən digər fəaliyyətin göstərilməsi məqsədi üçün saxlanılması;

6) daimi sahibkarlıq fəaliyyəti yerinin müstəsna olaraq 1) - 5) yarımbəndlərində sadalanmış fəaliyyət növlərinin istənilən kombinasiyası üçün saxlanılması - bir şərtlə ki, daimi sahibkarlıq fəaliyyəti yerinin bu kombinasiyanın nəticəsi olan məcmu fəaliyyəti hazırlıq və ya yardımçı xarakter daşısın.

5. 1-ci və 2-ci bəndlərin müddəalarından asılı olmayaraq, əgər 7-ci bəndin tətbiq edildiyi müstəqil statuslu agentdən fərqli şəxs Razılığa gələn Dövlətdə Razılığa gələn digər Dövlətin müəssisəsinin adından fəaliyyət göstərirsə, həmin müəssisə, həmin şəxsin onun üçün həyata keçirdiyi hər hansı fəaliyyətə münasibətdə adı birinci çəkilən Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə malik olan müəssisə hesab edilir, əgər bu cür şəxs:

1) müəssisənin adından müqavilə bağlamaq səlahiyyətlərinə malikdirsə və adətən həmin Dövlətdə bu səlahiyyətlərdən istifadə edirsə, bir şərtlə ki, həmin şəxsin fəaliyyəti 4-cü bənddə göstərilmiş fəaliyyətlə məhdudlaşmasın, belə ki, həmin fəaliyyət, hətta daimi sahibkarlıq fəaliyyəti yeri vasitəsilə həyata keçirilsə belə, həmin bəndin müddəalarına əsasən bu cür daimi sahibkarlıq fəaliyyəti yerini daimi nümayəndəliyə çevirmir; və ya

2) bu cür səlahiyyətlərə malik olmadan, adətən adı birinci çəkilən mal və ya məmulat ehtiyatları saxlayırsa və oradan müntəzəm olaraq həmin müəssisənin adından mal və ya məmulatlar çatdırırsa.

6. Bu maddənin əvvəlki müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin sığorta şirkəti Razılığa gələn digər Dövlətin ərazisində 7-ci bəndin tətbiq edildiyi müstəqil statuslu agentdən fərqli şəxs vasitəsilə sığorta haqları toplayırsa və ya orada yerləşən riskləri sığorta edirsə (təkrarsığorta istisna olmaqla), həmin digər Dövlətdə daimi nümayəndəliyə malik olan müəssisə hesab edilir.

7. Müəssisə Razılığa gələn Dövlətdə sadəcə olaraq broker, baş komisyon agenti və ya müstəqil statuslu hər hansı digər agent vasitəsilə sahibkarlıq fəaliyyətini həyata keçirdiyinə görə həmin Dövlətdə daimi nümayəndəliyə malik olan müəssisə hesab edilmir, bir şərtlə ki, bu cür şəxslər adi fəaliyyətləri çərçivəsində fəaliyyət göstərsinlər. Bununla belə, bu cür agentin fəaliyyəti tamamilə və ya demək olar ki, tamamilə həmin müəssisə üçün həyata keçirildiyi və həmin müəssisə ilə həmin agentin kommersiya və maliyyə münasibətlərində onlar arasında yaradılmış və ya müəyyən edilmiş şərtlər müstəqil müəssisələr arasında ola biləcək şərtlərdən fərqli olduğu halda, həmin agent, bu bəndin məqsədləri üçün müstəqil statuslu agent hesab edilmir.

8. Razılığa gələn Dövlətin rezidenti olan şirkətin Razılığa gələn digər Dövlətin rezidenti olan və ya həmin digər Dövlətdə sahibkarlıq fəaliyyətini həyata keçirən (daimi nümayəndəlik vasitəsilə və ya başqa tərzdə) şirkətə nəzarət etməsi və ya onun nəzarətində olması faktı özlüyündə bu şirkətlərdən heç birini digərinin daimi nümayəndəliyinə çevirmir.

Maddə 6

DAŞINMAZ ƏMLAKDAN GƏLİRLƏR

1. Razılığa gələn Dövlətin rezidenti tərəfindən Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakdan əldə edilən gəlirlər (kənd və ya meşə təsərrüfatından gəlirlər də daxil olmaqla) həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. "Daşınmaz əmlak" termini həmin əmlakın yerləşdiyi Razılığa gələn Dövlətin qanunvericiliyinə əsasən bu terminə verilən mənaya malikdir. Bu termin istənilən halda, daşınmaz əmlaka münasibətdə yardımçı əmlakı, kənd və meşə təsərrüfatında istifadə edilən mal-qara və avadanlığı, torpaq mülkiyyəti barədə milli qanunvericiliyin müddəalarının tətbiq edildiyi hüquqları, daşınmaz əmlakın uzufruktunu və mineral ehtiyatların, mənbələrin və digər təbii resursların işlənməsi və ya işlənmə hüququ əvəzində ödənilən dəyişkən və ya təsbit edilmiş ödənişlərə olan hüquqları əhatə edir; dəniz və hava gəmiləri daşınmaz əmlak hesab edilmir.

3) 1-ci bəndin müddəaları daşınmaz əmlakın birbaşa istifadəsindən, icarəyə verilməsindən və ya hər hansı digər formada istifadəsindən əldə edilən gəlirlərə tətbiq edilir.

4. 1-ci və 3-cü bəndlərin müddəaları, həmçinin, müəssisənin daşınmaz əmlakından gəlirlərə və müstəqil fərdi xidmətlərin göstərilməsi üçün istifadə edilən daşınmaz əmlakdan gəlirlərə də tətbiq edilir.

Maddə 7

SAHİBKARLIQ FƏALİYYƏTİNDƏN MƏNFƏƏT

1. Razılığa gələn Dövlətin müəssisəsinin mənfəəti yalnız həmin Dövlətdə vergiyə cəlb edilir, bir şərtlə ki, həmin müəssisə Razılığa gələn digər Dövlətdə sahibkarlıq fəaliyyətini orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirməsin. Əgər müəssisə sahibkarlıq fəaliyyətini yuxanda göstərilən tərzdə həyata keçirirsə, bu halda onun mənfəətinin yalnız həmin daimi nümayəndəliyə aid edilə bilən hissəsi həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. 3-cü bəndin müddəaları nəzərə alınmaqla, əgər Razılığa gələn Dövlətin müəssisəsi Razılığa gələn digər Dövlətdə sahibkarlıq fəaliyyətini orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirirsə, Razılığa gələn Dövlətlərin hər birində bu daimi nümayəndəliyin mənfəətinə, onun eyni və ya oxşar şəraitdə, eyni və ya oxşar fəaliyyətlə məşğul olan müstəqil və ayrıca müəssisə olduğu və daimi nümayəndəliyi olduğu müəssisədən tamamilə asılı olmadan fəaliyyət göstərdiyi halda əldə edə biləcəyi mənfəət aid edilir.

3. Daimi nümayəndəliyin mənfəəti müəyyən edilərkən, daimi nümayəndəliyin yerləşdiyi Razılığa gələn Dövlətdə və ya hər hansı digər yerdə çəkilməsindən asılı olmayaraq, daimi nümayəndəliyin məqsədləri üçün çəkilmiş xərclərin, o cümlədən, idarəetmə və ümumi inzibati xərclərin çıxılmasına yol verilir.

4. Əgər, Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə aid olan mənfəət adətən müəssisənin ümumi mənfəətinin onun ayrı-ayrı hissələri arasında bölüşdürülməsi əsasında müəyyən edilirsə, bu maddənin 2-ci bəndinin müddəaları, vergiyə cəlb edilməli olan mənfəətin bu cür bölgü vasitəsilə müəyyənləşdirilməsində Razılığa gələn Dövlətə heç bir mancə yaratmır; bununla belə, tətbiq edilən bölgü metodu elə olmalıdır ki, nəticə bu maddədə nəzərdə tutulan prinsiplərə müvafiq olsun.

5. Daimi nümayəndəlik tərəfindən sadəcə olaraq öz müəssisəsi üçün mal və ya məmulat alınmasına görə həmin daimi nümayəndəliyə heç bir mənfəət aid edilmir.

6. Əvvəlki bəndlərin məqsədləri üçün, daimi nümayəndəliyə aid edilə bilən mənfəət hər il eyni metodla müəyyən edilir, bir şərtlə ki, bunun əksi üçün tutarlı və kifayət qədər əsaslı səbəb olmasın.

7. Əgər, mənfəətə, barəsində bu Konvensiyanın digər maddələrində ayrıca söhbət açılan gəlir növləri daxildirsə, bu halda bu maddənin müddəaları həmin maddələrin müddəalarına təsir göstərmir.

Maddə 8

BEYNƏLXALQ DAŞIMALAR

1. Razılığa gələn Dövlətin müəssisəsinin dəniz və ya hava gəmilərinin beynəlxalq daşımalarda istismarından əldə etdiyi mənfəət yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

2. Bu maddənin məqsədləri üçün və 12-ci maddənin müddəalarından asılı olmayaraq, "dəniz və ya hava gəmilərinin beynəlxalq daşımalarda istismarından əldə olunan mənfəət" terminə həmçinin aşağıdakılar aiddir:

1) dəniz və ya hava gəmilərinin qeyri-müntəzəm olaraq beynəlxalq daşımalarda heyətsiz icarəyə verilməsindən mənfəət; və

2) konteynerlərin (konteynerlərin daşınması üçün treylerlər və əlaqədar avadanlıq da daxil olmaqla) istifadəsi və ya icarəyə verilməsindən mənfəət,

bir şərtlə ki, bu cür icarə və ya istifadə dəniz və ya hava gəmilərinin beynəlxalq daşımalarda istismarına münasibətdə tamamlayıcı və ya qeyri-müntəzəm xarakter daşısın.

3. 1-ci bəndin müddəaları həmçinin pulda ("pool"), birgə sahibkarlıq fəaliyyəti və ya beynəlxalq əməliyyat təşkilatında iştirakdan mənfəətə də tətbiq edilir.

Maddə 9

QARŞILIQLI ƏLAQƏLİ MÜƏSSİSƏLƏR

1. Əgər:

1) Razılığa gələn Dövlətin müəssisəsi Razılığa gələn digər Dövlətin müəssisəsinin idarə edilməsində, ona nəzarətdə və ya onun kapitalında birbaşa və ya dolayısı ilə iştirak edirsə, və ya

2) eyni şəxslər Razılığa gələn Dövlətin müəssisəsinin və Razılığa gələn digər Dövlətin müəssisəsinin idarə edilməsində, onlara nəzarətdə və ya onların kapitalında birbaşa və ya dolayısı ilə iştirak edirlərsə,

və hər bir halda bu iki müəssisənin qarşılıqlı kommersiya və ya maliyyə münasibətlərində onlar arasında yaradılmış və ya müəyyən edilmiş şərtlər müstəqil müəssisələr arasında mövcud ola biləcək şərtlərdən fərqlidirsə, bu halda, onlardan birinə hesablana biləcək, Lakin bu şərtlər səbəbindən hesablanmamış hər hansı mənfəət, həmin müəssisənin mənfəətinə daxil edilə və müvafiq qaydada vergiyə cəlb edilə bilər.

2. Əgər, Razılığa gələn Dövlət həmin Dövlətin müəssisəsinin mənfəətinə Razılığa gələn digər Dövlətin müəssisəsinin həmin digər Dövlətdə vergiyə cəlb edilmiş mənfəətini daxil edir və müvafiq qaydada vergiyə cəlb edirsə və bu tərzdə daxil edilmiş mənfəət, bu müəssisələr arasındakı münasibətlər müstəqil müəssisələr arasında ola biləcək münasibətlər olduğu halda adı birinci çəkilən Dövlətin müəssisəsinə hesablana biləcək mənfəətdirsə, bu halda, həmin digər Dövlət müvafiq düzəlişi əsaslı hesab edərsə, orada bu mənfəətdən hesablanan verginin məbləğinə düzəliş edəcəkdir. Bu cür düzəlişin müəyyən edilməsi zamanı bu Konvensiyanın digər müddəaları müvafiq qaydada nəzərə alınır və Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları zəruri olduqda bir-biri ilə məsləhətləşmələr aparırlar.

Maddə 10

DİVİDENDLƏR

1. Razılığa gələn Dövlətin rezidenti olan şirkət tərəfindən Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən dividendlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Bununla belə, bu cür dividendlər həmçinin həmin dividendləri ödəyən şirkətin rezident olduğu Razılığa gələn Dövlətdə və onun qanunvericiliyinə müvafiq qaydada da vergiyə cəlb edilə bilər, lakin dividendlərin faktiki sahibi Razılığa gələn digər Dövlətin rezidentidirsə, tutulan vergi dividendlərin ümumi məbləğinin 10 faizindən artıq olmamalıdır.

Bu bənd, dividendlər ödənilən mənfəətə münasibətdə şirkətin vergiyə cəlb edilməsinə təsir etmir.

3. Bu maddədə istifadə edilən "dividendlər" termini səhmlərdən və ya borc tələbləri olmayan, mənfəətdə iştirak hüququ verən digər hüquqlardan gəlirləri, o cümlədən, gəlirləri bölüşdürən şirkətin rezident olduğu Dövlətin qanunvericiliyinə müvafiq olaraq, səhmlərdən gəlirlərin cəlb edildiyi eyni qaydada vergitutmaya cəlb edilən digər korporativ hüquqlardan əldə edilən gəlirləri bildirir.

4. 1-ci və 2-ci bəndlərin müddəaları, dividendlərin faktiki sahibinin Razılığa gələn Dövlətin rezidenti olmaqla, dividendləri ödəyən şirkətin rezident olduğu Razılığa gələn digər Dövlətdə sahibkarlıq fəaliyyətini orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirdiyi və ya həmin digər Dövlətdə orada yerləşən daimi baza vasitəsilə müstəqil fərdi xidmətlər göstərdiyi və dividendlərin ödənilməsi ilə bağlı olan holdinqin bu cür daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəli olduğu halda tətbiq edilmir. Bu halda, şəraitdən asılı olaraq, 7-ci və ya 14-cü maddələrin müddəaları tətbiq edilir.

5. Əgər, Razılığa gələn Dövlətin rezidenti olan şirkət Razılığa gələn digər Dövlətdən mənfəət və ya gəlir əldə edirsə, həmin digər Dövlət, hətta şirkət tərəfindən ödənilən dividendlər və ya onun bölüşdürülməmiş mənfəəti tamamilə və ya qismən həmin digər Dövlətdə yaranan mənfəət və ya gəlirdən ibarət olduğu halda belə, dividendlərin həmin digər Dövlətin rezidentinə ödənildiyi və ya dividendlərin ödənilməsi ilə bağlı olan holdinqin həmin digər Dövlətdə yerləşən daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəli olduğu hallar istisna edilməklə, nə şirkət tərəfindən ödənilən dividendlərə hər hansı vergi tətbiq edə, nə də şirkətin bölüşdürülməmiş mənfəətini şirkətin bölüşdürülməmiş mənfəəti üzrə vergiyə cəlb edə bilməz.

Maddə 11

FAİZLƏR

1. Razılığa gələn Dövlətdə yaranan və Razılığa gələn digər; Dövlətin rezidentinə ödənilən faizlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Bununla belə, bu cür faizlər həmçinin onların yarandığı Razılığa gələn Dövlətdə və onun qanunvericiliyinə müvafiq qaydada da vergiyə cəlb edilə bilər, lakin faizlərin faktiki sahibi Razılığa gələn digər Dövlətin rezidentidirsə, tutulan vergi faizlərin ümumi məbləğinin 10 faizindən artıq olmamalıdır.

3. 2-ci bəndin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətdə yaranan faizlər Razılığa gələn digər Dövlətin Hökuməti, o cümlədən onun hər hansı siyasi və ya inzibati-ərazi bölməsi, yaxud yerli hakimiyyət orqanı və ya Mərkəzi Bankı, yaxud tamamilə və ya əsasən həmin digər Dövlətə məxsus olan hər hansı maliyyə institutuna ödənildiyi və onun faktiki sahibliyində olduğu halda yarandığı Razılığa gələn Dövlətdə vergidən azad edilir.

4. Bu maddədə istifadə edilən "faizlər" termini ipoteka təminatının olub-olmamasından və borcluların mənfəətində iştirak hüququ verib-verməməsindən asılı olmayaraq, istənilən növ borc tələblərindən gəlirləri, və xüsusilə, hökumətin qiymətli kağızlarından gəlirləri və. istiqrazlardan və ya borc öhdəliklərindən gəlirləri, o cümlədən bu cür qiymətli kağızlar, istiqrazlar və ya borc öhdəlikləri üzrə mükafatlar və uduşları bildirir. Gecikdirilmiş ödənişlərə görə cərimələr bu maddənin məqsədi üçün faizlər hesab edilmir.

5. 1-ci və 2-ci bəndlərin müddəaları, faizlərin faktiki sahibinin Razılığa gələn Dövlətin rezidenti olmaqla, faizlərin yarandığı Razılığa gələn digər Dövlətdə sahibkarlıq fəaliyyətini orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirdiyi və ya həmin digər Dövlətdə orada yerləşən daimi baza vasitəsilə müstəqil fərdi xidmətlər göstərdiyi və faizlərin ödənilməsi ilə bağlı olan borc öhdəliyinin bu cür daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəli olduğu halda tətbiq edilmir. Bu halda, şəraitdən asılı olaraq, 7-ci və ya 14-cü maddələrin müddəaları tətbiq edilir.

6. Faizlərin ödəyicisi Razılığa gələn Dövlətin rezidenti olduğu halda, faizlər həmin Dövlətdə yaranmış hesab edilir. Bununla belə, faizləri ödəyən şəxs Razılığa gələn Dövlətin rezidenti olub-olmamasından asılı olmayaraq, Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə və ya daimi bazaya sahib olduğu və faizlər ödənilən borcun bu cür daimi nümayəndəlik və ya daimi baza ilə bağlı yarandığı və bu faizlərin ödənilməsi üzrə xərclərin bu cür daimi nümayəndəlik və ya daimi baza tərəfindən çəkildiyi halda, bu cür faizlər daimi nümayəndəliyin və ya daimi bazanın yerləşdiyi Dövlətdə yaranmış hesab edilir.

7. Əgər, ödəyici və faktiki sahib arasında və ya onların hər ikisi ilə hər hansı digər şəxs arasındakı xüsusi münasibətlər səbəbindən, borc tələbi ilə əlaqədar ödənilən faizlərin məbləği, bu münasibətlər olmadığı halda ödəyici və faktiki sahib arasında razılaşdırıla biləcək məbləğdən artıqdırsa, bu maddənin müddəaları yalnız adı sonuncu çəkilən məbləğə tətbiq edilir. Bu halda, ödənişlərin artıq hissəsi, bu Konvensiyanın digər müddəaları müvafiq qaydada nəzərə alınmaqla, Razılığa gələn Dövlətlərdən hər birinin qanunvericiliyinə müvafiq qaydada vergiyə cəlb edilir.

Maddə 12

ROYALTİLƏR

1. Razılığa gələn Dövlətdə yaranan və Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən royaltilər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Bununla belə, bu cür royaltilər həmçinin onların yarandığı Razılığa gələn Dövlətdə və onun qanunvericiliyinə müvafiq qaydada da vergiyə cəlb edilə bilər, lakin royaltilərin faktiki sahibi Razılığa gələn digər Dövlətin rezidentidirsə, tutulan vergi royaltilərin ümumi məbləğinin 10 faizindən artıq olmamalıdır.

3. Bu maddədə istifadə olunan "royaltilər" termini hər hansı ədəbiyyat, incəsənət və ya elm əsərləri, o cümlədən kinofilmlər üzrə müəlliflik hüquqlarının, kompüter proqramları, hər hansı patent, ticarət markası, dizayn və ya model, plan, məxfi formula və ya prosesin istifadəsi və ya istifadə hüququ əvəzində və ya sənaye, kommersiya və ya elmi avadanlığın istifadəsi və ya istifadə hüququ əvəzində, yaxud sənaye, kommersiya və ya elmi təcrübəyə dair informasiya əvəzində alınan istənilən növ ödənişləri bildirir.

4. 1-ci və 2-ci bəndlərin müddəaları, royaltilərin faktiki sahibinin Razılığa gələn Dövlətin rezidenti olmaqla, royaltilərin yarandığı Razılığa gələn digər Dövlətdə sahibkarlıq fəaliyyətini orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirdiyi və ya həmin digər Dövlətdə orada yerləşən daimi baza vasitəsilə müstəqil fərdi xidmətlər göstərdiyi və royaltilərin ödənilməsi ilə bağlı olan hüquq və ya əmlakın bu cür daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəli olduğu halda tətbiq edilmir. Bu halda, şəraitdən asılı olaraq, 7-ci və ya 14-cü maddələrin müddəaları tətbiq edilir.

5. Royaltilərin ödəyicisi Razılığa gələn Dövlətin rezidenti olduğu halda, royaltilər həmin Dövlətdə yaranmış hesab edilir. Bununla belə, royaltiləri ödəyən şəxs Razılığa gələn Dövlətin rezidenti olub-olmamasından asılı olmayaraq, Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə və ya daimi bazaya sahib olduğu və royaltiləri ödəmək öhdəliyinin bu cür daimi nümayəndəlik və ya daimi baza ilə bağlı yarandığı və bu royaltilərin ödənilməsi üzrə xərclərin bu cür daimi nümayəndəlik və ya daimi baza tərəfindən çəkildiyi halda, bu cür royaltilər daimi nümayəndəliyin və ya daimi bazanın yerləşdiyi Dövlətdə yaranmış hesab edilir.

6. Əgər, ödəyici və faktiki sahibi arasında və ya onların hər ikisi ilə hər hansı digər şəxs arasındakı xüsusi münasibətlər səbəbindən istifadə, hüquq və ya informasiya ilə əlaqədar ödənilən royaltilərin məbləği, bu münasibətlər olmadığı halda ödəyici və faktiki sahib arasında razılaşdırıla biləcək məbləğdən artıqdırsa, bu maddənin müddəaları yalnız adı sonuncu çəkilən məbləğə tətbiq edilir. Bu halda, ödənişlərin artıq hissəsi, bu Konvensiyanın digər müddəaları müvafiq qaydada nəzərə alınmaqla, Razılığa gələn Dövlətlərdən hər birinin qanunvericiliyinə müvafiq qaydada vergiyə cəlb edilir.

Maddə 13

ƏMLAKIN DƏYƏRİNİN ARTIMINDAN GƏLİRLƏR

1. Razılığa gələn Dövlətin rezidenti tərəfindən, 6-cı maddədə qeyd edilmiş və Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakın özgəninkiləşdirilməsindən əldə edilən gəlirlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdə sahib olduğu daimi nümayəndəliyinin kommersiya əmlakının bir hissəsini təşkil edən daşınan əmlakın və ya Razılığa gələn Dövlətin rezidentinin müstəqil fərdi xidmətlər göstərmək məqsədi üçün Razılığa gələn digər Dövlətdə sərəncamında olan daimi bazaya aid daşınan əmlakın özgəninkiləşdirilməsindən gəlirlər, bu cür daimi nümayəndəliyin (ayrılıqda və ya bütün müəssisə ilə birlikdə) və ya bu cür daimi bazanın özgəninkiləşdirilməsindən gəlirlər də daxil olmaqla həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

3. Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən beynəlxalq daşımalarda istismar edilən dəniz və ya hava gəmilərinin və ya bu cür dəniz və ya hava gəmilərinin istismarı ilə

bağlı olan daşınan əmlakın özgəninkiləşdirilməsindən əldə edilən gəlirlər yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

4. Razılığa gələn Dövlətin rezidenti tərəfindən, dəyərinin 50 faizindən çoxunu bilavasitə və ya dolayısı ilə Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakdan əldə edən səhmlərin özgəninkiləşdirilməsindən əldə edilən gəlirlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

5. 1-ci, 2-ci, 3-cü və 4-cü bəndlərdə qeyd edilənlər istisna edilməklə - hər hansı əmlakın özgəninkiləşdirilməsindən gəlirlər, yalnız əmlakı özgəninkiləşdirən şəxsin rezident olduğu Razılığa gələn Dövlətdə vergiyə cəlb edilir.

Maddə 14

MÜSTƏQİL FƏRDİ XİDMƏTLƏR

1. Razılığa gələn Dövlətin rezidenti tərəfindən peşəkar xidmətlərdən və ya müstəqil xarakterli digər fəaliyyətlərdən əldə edilən gəlirlər, bu cür gəlirlərin həmçinin Razılığa gələn digər Dövlətdə də vergiyə cəlb edilə biləcəyi aşağıdakı hallar istisna edilməklə, yalnız həmin Dövlətdə vergiyə cəlb edilir:

1) Əgər o, öz fəaliyyətini həyata keçirmək məqsədi üçün Razılığa gələn digər Dövlətdə müntəzəm istifadə etdiyi daimi bazaya sahibdirsə; bu halda, gəlirin yalnız həmin daimi bazaya aid edilə bilən hissəsi Razılığa gələn digər Dövlətdə vergiyə cəlb edilə bilər; və ya

2) Əgər o, cari təqvim ilində başlayan və ya başa çatan istənilən on iki aylıq dövr ərzində ümumilikdə 183 günə bərabər və ya ondan artıq bir dövr və ya dövrlər ərzində Razılığa gələn digər Dövlətdə qalırsa; bu halda gəlirin yalnız həmin digər Dövlətdə həyata keçirilən fəaliyyətdən əldə edilən hissəsi həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. "Peşəkar xidmətlər" terminінə xüsusilə müstəqil elmi, ədəbi, artistlik, təhsil və ya tədris fəaliyyəti ilə yanaşı, həkimlərin, hüquqşünasların, mühəndislərin, memarların, stomatoloqların, mühasiblərin və auditorların müstəqil fəaliyyəti daxildir.

Maddə 15

MUZDLU İŞDƏN GƏLİR

1. 16-cı, 18-ci, 19-cu, 20-ci və 21-ci maddələrin müddəaları nəzərə alınmaqla, Razılığa gələn Dövlətin rezidenti tərəfindən muzdlu işlə bağlı əldə edilən maaş, əmək haqqı və digər oxşar mükafatlar yalnız həmin Dövlətdə vergiyə cəlb edilir, bir şərtlə ki, muzdlu iş Razılığa gələn digər Dövlətdə həyata keçirilməsin. Əgər muzdlu iş Razılığa gələn digər Dövlətdə həyata keçirilirsə, onunla bağlı orada əldə edilən bu cür mükafatlar həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. 1-ci bəndin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin rezidenti tərəfindən Razılığa gələn digər Dövlətdə həyata keçirilən muzdlu işlə bağlı əldə edilən mükafat yalnız adı birinci çəkilən Dövlətdə vergiyə cəlb edilir, əgər:

1) resipient digər Dövlətdə cari vergi ilində başlayan və ya başa çatan istənilən 12 (on iki) aylıq dövr ərzində ümumilikdə 183 gündən artıq olmayan bir dövr və ya

dövrlər ərzində qalırsa, və

2) mükafat digər Dövlətin rezidenti olmayan işəgötürən tərəfindən və ya onun adından ödənilirsə, və

3) mükafatların ödənilməsi üzrə xərclər işəgötürənin digər Dövlətdə sahib olduğu daimi nümayəndəlik və ya daimi baza tərəfindən çəkilmirsə.

3. Bu maddənin əvvəlki müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən beynəlxalq daşımalarda istismar edilən dəniz və ya hava gəmisinin göyərtəsində həyata keçirilən muzdlu işlə bağlı əldə edilən mükafatlar həmin Dövlətdə vergiyə cəlb edilə bilər.

Maddə 16

DİREKTORLARIN QONORARLARI

Razılığa gələn Dövlətin rezidenti tərəfindən Razılığa gələn digər Dövlətin rezidenti olan şirkətin direktorlar şurasının və ya digər oxşar orqanının üzvü qismində əldə edilən qonorarlar və digər oxşar ödənişlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

Maddə 17

İNCƏSƏNƏT İŞÇİLƏRİ VƏ İDMANÇILAR

1. 14-cü və 15-ci maddələrin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin rezidenti tərəfindən teatr, kino, radio və ya televiziya artisti və ya musiqiçi qismində Razılığa gələn digər Dövlətdə həyata keçirilən incəsənət işçisi kimi və ya idmançı kimi fərdi fəaliyyətdən əldə edilən gəlir həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Əgər, incəsənət işçisi və ya idmançının bu cür şəxs kimi fərdi fəaliyyəti ilə bağlı gəlir incəsənət işçisi və ya idmançının özünə deyil, digər şəxsə hesablanırsa, həmin gəlir, 7-ci, 14-cü və 15-ci maddələrin müddəalarından asılı olmayaraq, incəsənət işçisi və ya idmançının fəaliyyətinin həyata keçirildiyi Razılığa gələn Dövlətdə vergiyə cəlb edilə bilər.

3. 1-ci və 2-ci bəndlərin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin rezidentinin incəsənət işçisi və ya idmançı qismində fərdi fəaliyyətindən əldə etdiyi gəlir, bu fəaliyyət Razılığa gələn digər Dövlətin ərazisində hər iki Razılığa gələn Dövlət tərəfindən təsdiq edilmiş mədəni və ya idman mübadiləsi proqramı çərçivəsində həyata keçirildiyi halda yalnız adı birinci çəkilən Dövlətdə vergiyə cəlb edilir.

Maddə 18

TƏQAÜDLƏR

19-cu maddənin 2-ci bəndinin müddəaları nəzərə alınmaqla, Razılığa gələn Dövlətin rezidentinə keçmişdəki muzdlu işlə bağlı ödənilən təqaüdlər və digər oxşar mükafatlar yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

Maddə 19

DÖVLƏT QULLUĞU

1. 1) Razılığa gələn Dövlət və ya onun siyasi, yaxud inzibati-ərazi bölməsi və ya yerli hakimiyyət orqanı tərəfindən fiziki şəxsə, həmin Dövlətə və ya bölməyə, yaxud

hakimiyyət orqanına göstərilən xidmətlərlə bağlı ödənilən maaş, əmək haqqı və təqaüd olmayan digər oxşar mükafatlar yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

2) Bununla belə, əgər xidmətlər Razılığa gələn digər Dövlətdə göstərilirsə və fiziki şəxs həmin Dövlətin rezidentidirsə və o:

- həmin Dövlətin milli şəxsidirsə; və ya

yalnız qulluq göstərmək məqsədi üçün həmin Dövlətin rezidenti olmamışdırsa, bu cür maaş, əmək haqqı və digər oxşar mükafatlar yalnız Razılığa gələn digər Dövlətdə vergiyə cəlb edilir.

2. 1) 1-ci bəndin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlət və ya onun siyasi, yaxud inzibati-ərazi bölməsi və ya yerli hakimiyyət orqanı tərəfindən və ya onlar tərəfindən yaradılmış fondlardan fiziki şəxsə, həmin Dövlətə və ya bölməyə, yaxud hakimiyyət orqanına göstərilən xidmətlərlə bağlı ödənilən təqaüdlər yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

2) Bununla belə, əgər fiziki şəxs Razılığa gələn digər Dövlətin rezidenti və milli şəxsidirsə, bu cür təqaüdlər yalnız həmin digər Dövlətdə vergiyə cəlb edilir.

3. 15-ci, 16-cı, 17-ci və 18-ci maddələrin müddəaları Razılığa gələn Dövlətin və ya onun inzibati-ərazi bölməsinin və ya yerli hakimiyyət orqanının sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı göstərilən xidmətlərlə əlaqədar ödənilən maaş, əmək haqqı, təqaüd və digər oxşar mükafatlara tətbiq edilir.

Maddə 20

TƏLƏBƏLƏR

1. Razılığa gələn Dövlətin rezidenti olan və ya Razılığa gələn digər Dövlətə gəlməzdən bilavasitə əvvəl adı birinci çəkilən Dövlətin rezidenti olmuş və həmin digər Dövlətdə yalnız təhsil və ya təlim almaq məqsədilə olan tələbələrin və ya təcrübə keçən şəxslərin yaşamaq, təhsil və ya təlim almaq məqsədilə aldıqları ödənişlər həmin digər Dövlətdə vergiyə cəlb edilmir, bir şərtlə ki, bu cür ödənişlərin mənbəyi həmin digər Dövlətdən kənarda olsun.

2. 1-ci bənddə göstərilən tələbə, stajı və ya təcrübə keçən şəxs əlavə olaraq bu cür təhsil və ya tədris müddətində 1-ci bənddə göstərilməyən qrantlar, təqaüdlər və muzdlu işdən mükafatlara münasibətdə, qaldığı Dövlətin rezidentlərinə verilən eyni azadolmalar, güzəştlər və çıxılmalardan istifadə edəcəkdir.

Maddə 21

MÜƏLLİMLƏR VƏ TƏDQİQATÇILAR

1. Razılığa gələn Dövlətə yalnız həmin Dövlətdəki universitetdə, kollecdə, məktəbdə və ya digər tanınmış təhsil qurumunda dərs vermək yaxud tədqiqat aparmaq məqsədilə gələn və Razılığa gələn digər Dövlətin rezidenti olan və ya adı birinci çəkilən Dövlətə gəlməzdən bilavasitə əvvəl həmin digər Dövlətin rezidenti olmuş fiziki şəxs adı birinci çəkilən Dövlətdə bu cür müəllimlik və ya tədqiqatla bağlı aldığı istənilən mükafatlara münasibətdə iki ildən artıq olmayan müddətə vergidən azad ediləcəkdir, bir şərtlə ki, bu cür mükafatlar onun tərəfindən həmin Dövlətdən kənardakı mənbələrdən əldə edilsin.

2. Tədqiqat fiziki şəxs tərəfindən dövlət maraqları üçün deyil, ilk növbədə hər hansı şəxsin yaxud şəxslərin şəxsi mənfəəti üçün həyata keçirildiyi halda 1-ci bəndin müddəaları bu cür fəaliyyətdən əldə edilən gəlirə tətbiq edilmir.

Maddə 22

DİGƏR GƏLİRLƏR

1. Razılığa gələn Dövlətin rezidentinin, barəsində bu Konvensiyanın əvvəlki maddələrində söhbət açılmayan gəlir növləri, yaranma mənbəyindən asılı olmayaraq yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

2. 1-ci bəndin müddəaları, 6-cı maddənin 2-ci bəndinə əsasən müəyyən edilmiş daşınmaz əmlakdan əldə olunan gəlirlərdən fərqli olan digər gəlirlərə, bu gəlirlərin resipienti Razılığa gələn Dövlətin rezidenti olmaqla sahibkarlıq fəaliyyətini Razılığa gələn digər Dövlətdə orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirdiyi və ya həmin digər Dövlətdə orada yerləşən daimi baza vasitəsilə müstəqil fərdi xidmətlər göstərdiyi və gəlirin ödənilməsi ilə bağlı olan hüquq və ya əmlakın bu cür daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəli olduğu halda tətbiq edilmir. Bu halda, şəraitdən asılı olaraq, 7-ci və ya 14-cü maddələrin müddəaları tətbiq edilir.

3. 1-ci və 2-ci bəndlərin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin rezidentinin, barəsində bu Konvensiyanın əvvəlki maddələrində söhbət açılmayan və Razılığa gələn digər Dövlətdə yaranan gəlir növləri, həmçinin həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

Maddə 23

ƏMLAK

1. 6-cı maddədə qeyd edilmiş, Razılığa gələn Dövlətin rezidentinə məxsus olan və Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakla ifadə olunmuş əmlak həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdə sahib olduğu daimi nümayəndəliyinin kommersiya əmlakının bir hissəsini təşkil edən daşınan əmlakla və ya Razılığa gələn Dövlətin rezidentinin müstəqil fərdi xidmətlər göstərmək məqsədi üçün Razılığa gələn digər Dövlətdə sərəncamında olan daimi bazaya aid daşınan əmlakla ifadə olunmuş əmlak həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

3. Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən beynəlxalq daşımalarda istismar edilən dəniz və ya hava gəmiləri və ya onların istismar ilə bağlı olan daşınan əmlakla təmsil olunmuş əmlak yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

4. Razılığa gələn Dövlətin rezidentinin bütün digər əmlak elementləri yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

Maddə 24

İKİQAT VERGİTUTMANIN ARADAN QALDIRILMASI

1. Əgər Razılığa gələn Dövlətin rezidenti bu Konvensiyanın müddəalarına müvafiq olaraq Razılığa gələn digər Dövlətdə vergiyə cəlb edilə bilən gəlir əldə edirsə və ya əmla-

ka sahibdirsə, adı birinci çəkilən Dövlət aşağıdakılara icazə verəcəkdir:

1) həmin rezidentin gəlir vergisindən həmin digər Dövlətdə ödənilmiş gəlir vergisinə bərabər məbləğin çıxılmasına;

2) həmin rezidentin gəlir vergisindən həmin digər Dövlətdə ödənilmiş gəlir vergisinə bərabər məbləğin çıxılmasına.

Bununla belə, bu cür çıxılma Razılığa gələn Dövlətdə vergiyə cəlb edilə bilən gəlir və ya əmlaka aid olan və çıxılma verilməzdən əvvəl hesablanmış gəlir və ya əmlak vergisi məbləğindən artıq olmamalıdır.

2. Əgər bu Konvensiyanın hər hansı bir müddəasına müvafiq olaraq, Razılığa gələn Dövlətin rezidenti tərəfindən əldə edilmiş gəlir və ya ona məxsus olan əmlak həmin Razılığa gələn Dövlətdə vergidən azaddırsa, həmin Dövlət, buna baxmayaraq, bu cür rezidentin qalan gəlirinə və ya əmlakına vergi hesablayarkən, vergidən azad edilmiş gəliri və ya əmlakı nəzərə ala bilər.

3. Razılığa gələn Dövlətdə çıxılma əldə edilmək məqsədilə, Razılığa gələn digər Dövlətdə ödənilmiş vergilərə həmçinin, həmin digər Dövlətdə ödənilməli olan, lakin, həmin digər Dövlətdə mövcud olan vergi güzəştləri barədə qanunvericilik müddəalarına əsasən azaldılmış və ya tutulmamış vergilər də aid edilir.

Maddə 25

DİSKRİMİNASİYAYA YOL VERİLMƏMƏSİ

1. Razılığa gələn Dövlətin milli şəxsləri Razılığa gələn digər Dövlətdə həmin digər Dövlətin milli şəxslərinin eyni şəraitdə, xüsusilə rezidentliyə münasibətdə, cəlb edildiyi və ya cəlb edilə biləcəyi vergitutma və ya bununla bağlı olan öhdəliklərdən fərqli və ya daha ağır olan vergitutma və ya bununla bağlı olan öhdəliklərə məruz qalmamalıdırlar. Bu müddəa, 1-ci maddənin müddəalarından asılı olmayaraq, həmçinin Razılığa gələn Dövlətlərdən birinin və ya hər ikisinin rezidenti olmayan şəxslərə də tətbiq edilir.

2. Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdə sahib olduğu daimi nümayəndəliyinin vergiyə cəlb edilməsi həmin digər Dövlətdə həmin digər Dövlətin eyni fəaliyyətlə məşğul olan müəssisələrinin vergiyə cəlb edilməsindən az əlverişli olmamalıdır. Bu müddəa, Razılığa gələn Dövlətin üzərinə onun öz rezidentlərinə mülki status və ya ailə öhdəlikləri nəzərə alınmaqla verdiyi verigitutma məqsədləri üçün hər hansı şəxsi imtiyazların,

güzəştlərin və çıxılmaların Razılığa gələn digər Dövlətin rezidentlərinə də verilməsi öhdəliyinin qoyulması kimi təfsir edilməməlidir.

3. 9-cu maddənin 1-ci bəndinin, 11-ci maddənin 7-ci bəndinin və ya 12-ci maddənin 6-cı bəndinin müddəalarının tətbiq edildiyi hallar istisna edilməklə, Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən faizlər, royaltilər və digər ödənişlər, bu cür müəssisənin vergiyə cəlb edilməli olan mənfəətinin müəyyən edilməsi məqsədilə adı birinci çəkilən Dövlətin rezidentinə ödənildiyi halda tətbiq olunan eyni şərtlər əsasında çıxılmalıdır. Eynilə, Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətin rezidentinə olan hər hansı bir borcu, həmin müəssisənin vergiyə cəlb edilməli olan kapitalının müəyyən edilməsi məqsədilə adı birinci çə-

kilən Dövlətin rezidentinə olan borc kimi eyni şərtlər əsasında çıxılmalıdır.

4. Razılığa gələn Dövlətin, əmlakı tamamilə və ya qismən Razılığa gələn digər Dövlətin rezidentinə və ya rezidentlərinə məxsus olan və ya onların birbaşa və ya dolayı nəzarəti altında olan müəssisəsi adı birinci çəkilən Dövlətdə həmin Dövlətin digər oxşar müəssisələrinin cəlb edildiyi və ya cəlb edilə biləcəyi vergitutma və ya bununla bağlı olan öhdəliklərdən fərqli və ya daha ağır olan vergitutma və ya bununla bağlı olan öhdəliklərə cəlb edilə bilməz.

5. Bu maddənin müddəaları, 2-ci maddənin müddəalarından asılı olmayaraq, istənilən növlü və xarakterli vergilərə tətbiq edilir.

Maddə 26

QARŞILIQLI RAZILAŞMA PROSEDURU

1. Əgər hər hansı şəxs Razılığa gələn Dövlətlərdən birinin və ya hər ikisinin hərəkətlərinin onun bu Konvensiyanın müddəalarına uyğun olmayan tərzdə vergiyə cəlb edilməsinə gətirib çıxardığını və ya gətirib çıxaracağını zənn edirsə, həmin şəxs, həmin Dövlətlərin daxili qanunvericiliklərində nəzərdə tutulmuş müdafiə vasitələrindən asılı olmayaraq, bu işlə bağlı rezident olduğu Razılığa gələn Dövlətin və ya bu hal 25-ci maddənin 1-ci bəndinin əhatə dairəsinə aiddirsə, milli şəxsi olduğu Razılığa gələn Dövlətin səlahiyyətli orqanlarına müraciət edə bilər. Müraciət, bu Konvensiyanın müddəalarına uyğun olmayan vergitutmaya gətirib çıxaran hərəkətlər haqqında ilk məlumat tarixindən etibarən üç il ərzində təqdim edilməlidir.

2. Əgər, səlahiyyətli orqan etirazı əsaslandırılmış hesab edərək, eyni zamanda, qənaətbəxş qərara gələ bilmirsə, bu Konvensiyanın müddəalarına uyğun olmayan vergitutmanın qarşısının alınması məqsədilə məsələni Razılığa gələn digər Dövlətin səlahiyyətli orqanı *ilə qarşılıqlı razılıq yolu ilə həll etməyə səy göstərir.* Əldə edilmiş hər hansı bir razılıq, Razılığa gələn Dövlətin daxili qanunvericiliyində nəzərdə tutulmuş hər hansı zaman məhdudiyyətlərindən asılı olmayaraq həyata keçirilməlidir.

3. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu Konvensiyanın təfsiri və ya tətbiqi ilə bağlı meydana çıxan bütün çətinlikləri və ya şübhələri qarşılıqlı razılıq yolu ilə həll etməyə səy göstərməlidirlər. Onlar, həmçinin bu Konvensiyada nəzərdə tutulmamış hallarda ikiqat vergitutmanın aradan qaldırılması üçün bir-biri ilə məsləhətləşmələr apara bilərlər.

4. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları, əvvəlki bəndlərin anlaşılmasında razılığın əldə edilməsi məqsədilə bir-biri ilə birbaşa, o cümlədən onların özləri və ya nümayəndələrindən ibarət olan birgə komissiya vasitəsilə əlaqələr yarada bilərlər.

Maddə 27

MƏLUMAT MÜBADİLƏSİ

1. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu Konvensiyanın müddəalarının yerinə yetirilməsi və ya Razılığa gələn Dövlətlər və ya onların inzibati-ərazi bölmələri və ya yerli hakimiyyət orqanları tərəfindən tutulan istənilən növlü və xarakterli vergilərlə bağlı daxili qanunvericiliklərin inzibatçılığı və tətbiqi üçün aidiyyəti olacağı hesab edilən olan məlumat mübadiləsi həyata keçirirlər, bir şərtlə ki, həmin qanunvericilikdə

nəzərdə tutulmuş vergitutma bu Konvensiyaya zidd olmasın. Məlumat mübadiləsi 1-ci maddə ilə məhdudlaşmır. Razılığa gələn Dövlət tərəfindən əldə edilmiş hər hansı informasiya, həmin Dövlətin daxili qanunvericiliyi əsasında əldə edilmiş informasiyaya tətbiq edilən eyni qayda əsasında sirr hesab edilir və yalnız 1 -ci bənddə göstərilən vergilərin hesablanması və ya toplanması, məcburi alınması və ya prosessual qaydada təqib edilməsi, yaxud həmin vergilərlə bağlı şikayətlərə baxılması ilə məşğul olan şəxslərə və ya orqanlara (o cümlədən, məhkəmələrə və inzibati orqanlara) açıqlanır. Bu şəxslər və ya orqanlar həmin məlumatdan yalnız bu cür məqsədlər üçün istifadə edirlər. Onlar bu məlumatı açıq məhkəmə prosesi və ya məhkəmə qərarlarında açıqlaya bilərlər.

2. Heç bir halda, 1-ci və 2-ci bəndlərin müddəaları Razılığa gələn Dövlətlərin üzərinə aşağıdakı öhdəliklərin qoyulması kimi şərh edilməməlidir:

1) bu və ya digər Razılığa gələn Dövlətin qanunvericiliyində və inzibati təcrübəsində nəzərdə tutulmuş tədbirlərdən fərqli olan inzibati tədbirlər həyata keçirmək;

2) bu və ya digər Razılığa gələn Dövlətin qanunvericiliyi və ya adi inzibatçılığı əsasında əldə edilməsi mümkün olmayan məlumat təqdim etmək;

3) hər hansı ticarət, sahibkarlıq, sənaye, kommersiya və ya peşə sirrini, yaxud ticarət prosesini açа biləcək məlumat və ya açılması dövlət siyasətinə zidd olan məlumat təqdim etmək.

3. Əgər Razılığa gələn Dövlət tərəfindən bu maddəyə müvafiq olaraq məlumat əldə edilməsi üçün sorğu verilirsə, Razılığa gələn digər Dövlət, hətta öz vergi məqsədləri üçün bu məlumata ehtiyacı olmadıqda belə, sorğu edilmiş məlumatın əldə edilməsi üçün özünün məlumat əldə etmə vasitələrindən istifadə edəcəkdir. Əvvəlki cümlədə göstərilmiş öhdəlik 2-ci bəndin məhdudiyyətlərinə tabedir, lakin, bu məhdudiyyətlər Razılığa gələn Dövlətə hər-hansı məlumatın əldə edilməsində özünün marağı olmaması səbəbindən məlumatın təqdim edilməsindən imtina etməyə imkan verən müddəalar kimi təfsir edilməməlidir.

Maddə 28

DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏR VƏ KONSULLUQ İDARƏLƏRİNİN ÜZVLƏRİ

Bu Konvensiyanın heç bir müddəası diplomatik nümayəndəliklərin və ya konsulluq idarələrinin üzvlərinin beynəlxalq hüququn normalarına və ya xüsusi müqavilələrə əsasən müəyyən edilmiş vergi imtiyazlarına toxunmur.

Maddə 29

QÜVVƏYƏ MİNMƏ

1. Razılığa gələn Dövlətlər bir-birini, özlərinin milli qanunvericiliyinə əsasən bu Konvensiyanın qüvvəyə minməsi üçün tələb olunan dövlətdaxili prosedurların tamamlanması barədə diplomatik kanallar vasitəsi ilə yazılı bildiriş göndərməklə xəbərdar edirlər.

2. Bu Konvensiya sonuncu bildirişin alındığı tarixdən qüvvəyə minir və aşağıdakılara münasibətdə tətbiq edilir:

1) Azərbaycanda:

- mənbədə tutulan vergilərə münasibətdə - Konvensiyanın qüvvəyə mindiyi ildən sonrakı təqvim ilinin 1 yanvar tarixində və ya ondan sonra əldə edilən gəlirlərə;

- digər gəlir vergilərinə və əmlak vergilərinə münasibətdə - Konvensiyanın qüvvəyə mindiyi ildən sonrakı təqvim ilinin 1 yanvar tarixində və ya ondan sonra başlanan hər hansı vergi ili üzrə tutulan vergilərə.

2) Serbiyada:

- Konvensiyanın qüvvəyə mindiyi ildən sonrakı təqvim ilinin 1 yanvar tarixində və ya ondan sonra başlanan hər hansı vergi ili üzrə əldə edilən gəlirlərə və mülkiyyətdə olan əmlaka görə vergilərə münasibətdə.

Maddə 30

QÜVVƏDƏN DÜŞMƏ

Bu Konvensiya Razılığa gələn Dövlətlərdən hər hansı biri tərəfindən onun qüvvəsi ləğv edilənədək qüvvədə olacaqdır. Razılığa gələn Dövlətlərdən hər biri bu Konvensiyanın qüvvəyə mindiyi tarixdən sonrakı beş illik dövr bitdikdən sonra hər hansı təqvim ilinin başa çatmasına ən azı altı ay qalmış, diplomatik kanallarla qüvvədən düşmə haqqında yazılı bildiriş təqdim etməklə, Konvensiyanın qüvvəsini ləğv edə bilər. Bu halda, bu Konvensiyanın qüvvəsi aşağıdakılara münasibətdə ləğv edilir:

1) Azərbaycanda:

- mənbədə tutulan vergilərə münasibətdə - Konvensiyanın qüvvədən düşməsi haqqında bildirişin verildiyi ildən sonrakı təqvim ilinin 1 yanvar tarixində və ya ondan sonra əldə edilən gəlirlərə;

- digər gəlir vergilərinə və əmlak vergilərinə münasibətdə - Konvensiyanın qüvvədən düşməsi haqqında bildirişin verildiyi ildən sonrakı təqvim ilinin 1 yanvar tarixində və ya ondan sonra başlanan hər hansı vergi ili üzrə tutulan vergilərə.

2) Serbiyada:

- Qüvvədən düşmə haqqında bildirişin verildiyi ildən sonrakı təqvim ilinin 1 yanvar tarixində və ya ondan sonra başlanan hər hansı vergi ili üzrə əldə edilən gəlirlərə və mülkiyyətdə olan əmlaka görə vergilərə münasibətdə.

Bunun təsdiqi olaraq, müvafiq qaydada səlahiyyət verilmiş aşağıda imza edənlər bu Konvensiyanı imzaladılar.

Bu Konvensiya Bakı şəhərində 13 may 2010-cu il tarixində, iki əsl nüsxədə, hər biri Azərbaycan, serb və ingilis dillərində olmaqla imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Konvensiyanın təfsirində fikir ayrılığı yarandıqda, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	SERBİYA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
FAZİL MƏMMƏDOV	*VUK YEREMİÇ*
Vergilər naziri	*Xarici işlər naziri*

"Azərbaycan Respublikası hökuməti və Serbiya Respublikası hökuməti arasında diplomatik və xidməti/rəsmi pasportlara malik şəxslər üçün vizaların ləğv edilməsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Azərbaycan Respublikası hökuməti və Serbiya Respublikası hökuməti arasında diplomatik və xidməti/rəsmi pasportlara malik şəxslər üçün vizaların ləğv edilməsi haqqında" 2010-cu il mayın 13-də Bakı şəhərində imzalanmış saziş təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2010-cu il

№ 1071-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Serbiya Respublikası Hökuməti arasında diplomatik və xidməti/rəsmi pasportlara malik şəxslər üçün vizaların ləğv edilməsi haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Serbiya Respublikası Hökuməti,

İkitərəfli münasibətlərinin təşviq edilməsini arzulayaraq,

diplomatik və xidməti/rəsmi pasportlara malik olan vətəndaşlarının səyahətlərini asanlaşdırmaq məqsədi ilə,

Aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bir Tərəfin dövlətinin etibarlı diplomatik və xidməti/rəsmi pasportlara malik olan vətəndaşları digər Tərəfin dövlətinin ərazisinə daxil olmaq, tranzit keçmək və orada 90 (doxsan) gündən artıq olmayan müddətə qalmaq üçün viza tələbindən azad ediləcəklər.

Maddə 2

1. Bir Tərəfin dövlətinin diplomatik və xidməti/rəsmi pasportlarına malik olan, digər Tərəfin dövlətinin ərazisində yerləşən diplomatik və ya konsulluq nümayəndəliyinin heyətinin üzvləri olan vətəndaşları və onlarla birlikdə yaşayan diplomatik və xidməti/rəsmi pasportlara malik olan ailə üzvləri, həmin şəxslərin ilk daxil olması barədə 30 (otuz) gün əvvəl məlumat verildiyi təqdirdə, vizasız daxil ola və qala bilərlər.

2. Bir Tərəfin dövlətinin digər Tərəfin dövlətinin ərazisində yerləşən beynəlxalq təşkilatda öz ölkəsini təmsil edən diplomatik və xidməti/rəsmi pasportlara malik olan vətəndaşları və onlarla birlikdə yaşayan diplomatik və xidməti/rəsmi pasportlara malik olan ailə üzvləri yuxandakı 1-ci bənddə göstərilən eyni hüquqlara malikdirlər.

Maddə 3

Hər iki Tərəfin dövlətinin diplomatik və xidməti/rəsmi pasportlara malik olan vətəndaş-

ları digər Tərəfin dövlətinin ərazisinə beynəlxalq səyahətə açıq olan istənilən sərhəd-keçid məntəqəsindən daxil ola və oranı tərk edə bilərlər.

Maddə 4

Hər bir Tərəfin dövlətinin diplomatik və xidməti/rəsmi pasportlara malik olan vətəndaşları digər Tərəfin dövlətinin ərazisində qaldığı müddət ərzində onun qüvvədə olan qanun və qaydalarına riayət etməlidirlər.

Maddə 5

Bu Saziş hər bir Tərəfin səlahiyyətli qurumlarının digər Tərəfin dövlətinin diplomatik və xidməti/rəsmi pasporta malik olan hər hansı vətəndaşını, qərarlarının səbəbini bildirmədən "persona non grata" hesab etdikdə, həmin vətəndaşın daxil olmasına və ya qalmasına icazə verməkdən imtina etmək hüququnu məhdudlaşdırmayacaqdır.

Maddə 6

Tərəflərdən birinin dövlətinin vətəndaşı digər Tərəfin dövlətinin ərazisində pasportunu itirdikdə, həmin vətəndaş qəbul edən dövlətin səlahiyyətli qurumlarına məlumat verəcəkdir. Səlahiyyətli diplomatik və ya konsulluq nümayəndəliyi öz vətəndaşına yeni pasport və ya fövqəladə səyahət sənədi verəcək, qəbul edən dövlətin hökumət qurumlarını müvafiq qaydada məlumatlandıracaqdır.

Maddə 7

1, Tərəflər Sazişin qüvvəyə minməsindən əvvəl, 30 (otuz) gündən gec olmayaraq diplomatik kanallar vasitəsilə diplomatik və xidməti/rəsmi pasportların nümunələrini və onların istifadəsi ilə bağlı məlumatı mübadilə edəcəklər.

2. Yeni pasportlar təqdim olunsa və ya istifadədə olanlara düzəlişlər edildikdə, hər bir Tərəf digər Tərəfi dərhal məlumatlandıracaq və onların rəsmi təqdim edilməsindən əvvəl, 30 (otuz) gündən gec olmayaraq diplomatik kanallarla nümunələrini mübadilə edəcəkdir.

Maddə 8

Bu Sazişin təfsiri və tətbiqi zamanı yarana biləcək hər hansı mübahisələr diplomatik kanallar vasitəsi ilə həll ediləcəkdir.

Maddə 9

Hər bir Tərəf milli təhlükəsizlik, ictimai asayiş və ya əhalinin sağlamlığının qorunması məqsədilə bu Sazişin qüvvəsini müvəqqəti olaraq tam və ya qismən dayandırmaq hüququnu özündə saxlayır. Belə dayandırma digər Tərəfin diplomatik kanallarla bildiriş aldıqdan 24 (iyirmi dörd) saat sonra qüvvəyə minir. Hər bir Tərəf bu dayandırma aradan qaldırıldıqda da eyni qaydada hərəkət edəcəkdir.

Maddə 10

Bu Sazişə Tərəflərin qarşılıqlı razılığı ilə Sazişin ayrılmaz tərkib hissəsi olan və 11-ci maddəsində müəyyən olunan qaydada qüvvəyə minən dəyişikliklər və əlavələr edilə bilər.

Maddə 11

Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır və onun qüvvəyə minməsi üçün hər iki Tərəfin milli qanunvericiliyində nəzərdə tutulan tələblərin yerinə yetirməsi barədə sonuncu yazılı bildirişin alındığı tarixdən 30 (otuz) gün sonra qüvvəyə minir.

Tərəflərdən hər biri digər Tərəfə diplomatik kanallar vasitəsilə yazılı bildiriş göndərməklə hazırkı Sazişi ləğv edə bilər. Saziş belə bildirişin alındığı tarixdən 90 (doxsan) gün sonra qüvvədən düşür.

Bu Saziş Bakı şəhərində, 13 may 2010-cu il tarixində Azərbaycan, serb və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün, mətnlər bərabər autentikdir. Təfsir zamanı fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	SERBİYA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*VUK YEREMİÇ*
Xarici işlər naziri	*Xarici işlər naziri*

"Azərbaycan Respublikası hökuməti və Serbiya Respublikası hökuməti arasında ticarət və iqtisadi əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Azərbaycan Respublikası hökuməti və Serbiya Respublikası hökuməti arasında ticarət və iqtisadi əməkdaşlıq haqqında" 2010-cu il mayın 13-də Bakı şəhərində imzalanmış saziş təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2010-cu il

№ 1072-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Serbiya Respublikası Hökuməti arasında ticarət və iqtisadi əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Serbiya Respublikası Hökuməti,

- bərabərlik və qarşılıqlı fayda əsasında uzunmüddətli ticarət-iqtisadi əməkdaşlığı inkişaf etdirmək və genişləndirmək arzusunda olaraq,

- iki dövlət arasında ticarət-iqtisadi əməkdaşlığın davamlı və dinamik inkişafı və diversifikasiyası üçün bu Sazişin lazımi zəmin yaratdığına əmin olaraq,

- Tərəflərin ikitərəfli əmtəə dövriyyəsinin həcminin artırılmasında maraqlı olduqlarını rəhbər tutaraq və bu istiqamətdə səylərin artırılmasının vacibliyini vurğulayaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər, dövlətləri arasında ticarətin və iqtisadi əməkdaşlığın daha da inkişaf etdirilməsini dəstəkləyəcək və təşviq edəcəklər. Tərəflər bu Sazişin müddəalarına və Tərəflərin dövlətlərinin milli qanunvericiliklərinə uyğun olaraq, Tərəflərin dövlətlərinin fiziki və hüquqi şəxsləri arasında müxtəlif iqtisadi əlaqələrin inkişafına yardım edəcəklər, həmçinin qarşılıqlı razılaşma əsasında əməkdaşlıqda bütün maneələri aradan qaldıracaqlar.

Maddə 2

Tərəflər qarşılıqlı ticarətdə mənşəyi Tərəflərin dövlətlərinin ərazilərindən olan mallara münasibətdə ən əlverişli rejim tətbiq edəcəklər. Bu şərt ixraca, idxala tətbiq olunan gömrük rüsumlarına və digər analoji xarakterli ödəmələrə və onların yığım qaydalarına, həmçinin idxal və ixraca aid olan bütün qayda və rəsmiyyətlərə şamil edilir.

Bu şərt aşağıdakılara tətbiq edilməyəcək:

1) sərhədyanı daşımaları və ticarəti təşviq etmək məqsədilə Tərəfin istənilən qonşu dövlətə münasibətdə tətbiq etdiyi və ya edəcəyi güzəştlərə;

2) gömrük ittifaqı və/və ya sərbəst ticarət zonası və/və ya regional inteqrasiya üzrə beynəlxalq müqavilələr çərçivəsində əməkdaşlıq əsasında Tərəfin üçüncü dövlətə münasibətdə tətbiq etdiyi və ya edəcəyi güzəştlərə.

Maddə 3

Tərəflər səlahiyyətləri çərçivəsində öz dövlətləri arasında ticarət və xüsusilə sənaye, kənd təsərrüfatı, texniki və elmi-texnoloji sahələrdə digər iqtisadi əməkdaşlıq formalarının inkişafına səy göstərəcəklər.

Maddə 4

Tərəflər ticarət və iqtisadi əməkdaşlığın inkişafı məqsədilə öz dövlətlərinin milli qanunvericiliklərinə və iqtisadi proqramlarına, həmçinin qarşılıqlı maraq kəsb edən digər məsələlərə aid olan məlumatların milli qanunvericiliklərinə uyğun olaraq mübadiləsini həyata keçirəcəklər.

Maddə 5

Ticarət əməliyyatlarında fiziki və hüquqi şəxslər qismində çıxış edən tərəflər arasında digər qayda razılaşdırılmayıbsa, Tərəflərin dövlətləri arasında əmtəə üzrə ödənişlər və pul köçürmələri Tərəflərin dövlətlərinin milli qanunvericiliklərinə və beynəlxalq bazarda mövcud olan qiymət və standart şərtlərə uyğun olaraq sərbəst dönərli valyutada həyata keçiriləcəkdir.

Bu Saziş çərçivəsində hesablaşmalar bank təcrübəsində qəbul edilən hər hansı bir beynəlxalq hesablaşma növünə əsasən müvafiq fiziki və hüquqi şəxslər arasında qarşılıqlı razılıq əsasında və Tərəflərin dövlətlərinin milli qanunvericiliklərinə uyğun olaraq həyata keçirilə bilər.

Maddə 6

Qarşılıqlı əmtəə dövriyyəsi Tərəflərin dövlətlərinin fiziki və hüquqi şəxsləri arasında

bağlanmış müqavilələr əsasında milli qanunvericiliklərinə və qiymət, keyfiyyət, təchizat və ödənişlərin şərtlərinə münasibətdə qəbul edilmiş kommersiya təcrübəsinə uyğun olaraq həyata keçiriləcəkdir.

Maddə 7

Tərəflər sərbəst tranzit prinsipinin bu Sazişin məqsədlərinin həyata keçirilməsi üçün zəruri şərt olması ilə razılaşırlar. Bununla bağlı, hər bir Tərəf digər Tərəfin gömrük ərazisindən gətirilən və ya onun gömrük ərazisi üçün nəzərdə tutulmuş malların öz dövlətinin ərazisindən sərbəst tranzitini təmin edəcəkdir.

Maddə 8

Tərəflər əlaqədar təsərrüfat subyektləri arasında bağlanmış və onların hüquq və öhdəliklərini müəyyən edən müqavilələrə əsasən öz dövlətlərinin milli qanunvericiliklərinə uyğun olaraq yarmarkaların, ixtisaslaşdırılmış sərgilərin və digər bu kimi tədbirlərin təşkilində bir-birinə köməklik göstərəcəklər.

Tərəflər milli qanunvericiliklərinə uyğun olaraq, digər Tərəfin dövlətinin ərazisində hazırlanmış reklam materialının və pulsuz nümunələrin həmçinin, satış üçün nəzərdə tutulmayan yarmarka və sərgilər üçün mal və avadanlıqların müvəqqəti idxalının gömrük rüsumlarından azad edilməsi barədə razılaşdılar.

Maddə 9

Tərəflər bu Sazişin müddəalarını rəhbər tutaraq Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın (bundan sonra - Komissiya) yaradılması barədə razılaşdılar.

Komissiyanın iclasları növbə ilə ildə bir dəfədən az olmayaraq və ya zərurət yarandığı təqdirdə Tərəflərdən birinin sorğusu əsasında Tərəflərin dövlətlərinin ərazisində keçirilir.

Komissiya hər iki Tərəfin dövlətləri arasında ticarət və iqtisadi əməkdaşlığın təşviqi və genişləndirilməsi məqsədilə:

1) ticarət və iqtisadi əməkdaşlığın təşviqi və inkişafı üçün imkanları araşdıracaq;

2) Tərəflər arasında ticarət və iqtisadi əməkdaşlıq sahəsində bağlanmış beynəlxalq müqavilələrin həyata keçirilməsi vəziyyətinə baxacaq, o cümlədən qeyd olunan müqavilələrin həyata keçirilməsində yarana biləcək problemlərin həlli üzrə tövsiyələr verəcək;

3) ticarət və iqtisadi əməkdaşlığın inkişafına şərait yaradan sahələri müəyyən edəcək, həmçinin Tərəflərin dövlətlərinin səlahiyyətli orqanlarına tövsiyələr təqdim edəcək;

4) ikitərəflİ ticarət və iqtisadi əməkdaşlığa mancə törədən məsələləri müəyyən edəcək və onların həll edilməsi üzrə səy göstərəcək;

5) hazırkı Sazişin müddəalarının həyata keçirilməsi ilə bağlı mübahisəli məsələlərlə bağlı qərarlar qəbul edəcək.

Komissiyanın iş qaydası, o cümlədən maliyyələşdirmə məsələləri Komissiyanın Reqlamenti ilə müəyyən edilir.

Maddə 10

Hazırkı Saziş Tərəflərin iştirakçısı olduqları beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

Maddə 11

Bu Sazişin müddəalarının təfsiri və tətbiqi ilə bağlı yarana biləcək mübahisələr Tərəflər arasında məsləhətləşmələr və danışıqlar yolu ilə həll ediləcəkdir.

Maddə 12

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və 13-cü maddəsinin 1-ci bəndində müəyyən olunmuş qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən dəyişikliklər və əlavələr edilə bilər.

Bu Sazişə əlavə və dəyişildiklərin edilməsi və ya onun qüvvədən düşməsi bu Sazişin qüvvədə olduğu müddət ərzində Tərəflərin dövlətlərinin təsərrüfat subyektləri arasında bağlanılmış müqavilələrin həyata keçirilməsinə mancə törətməyəcəkdir.

Maddə 13

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin bir-birinə diplomatik kanallar vasitəsilə göndərdikləri sonuncu yazılı bildirişin alınmasından 30 gün sonra qüvvəyə minir.

Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır. Tərəflərdən biri diplomatik kanallar vasitəsilə bu Sazişin ləğv edilməsi niyyəti barədə digər Tərəfi yazılı şəkildə məlumatlandırmaqla bu Sazişi ləğv edə bilər. Bu Saziş Tərəflərdən biri belə bildiriş aldığı tarixdən etibarən 3 aylıq müddətin bilməsindən sonra qüvvədən düşmüş hesab edilir.

Bu Saziş Bakı şəhərində 13 may 2010-cu il tarixində Azərbaycan, serb və rus dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Sazişin müddəalarının təfsiri və tətbiqi zamanı fikir ayrılığı yarandığı təqdirdə rus dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	SERBİYA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ŞAHİN MUSTAFAYEV	*MLADYAN DİNKİÇ*
İqtisadi inkişaf naziri	*Baş nazirinin müavini, iqtisadiyyat və regionların inkişafı naziri*

"Azərbaycan Respublikası hökuməti və Serbiya Respublikası hökuməti arasında cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Azərbaycan Respublikası hökuməti və Serbiya Respublikası hökuməti arasında cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında" 2010-cu il mayın 13-də Bakı şəhərində imzalanmış saziş təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2010-cu il

№ 1073-IIIQ

Azərbaycan Respublikası hökuməti və Serbiya Respublikası hökuməti arasında cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Serbiya Respublikası Hökuməti,

hər 2 iki ölkənin suverenliyinə, bərabərliyinə və müstəqilliyinə qarşılıqlı hörmət prinsiplərinə əsaslanaraq,

insan hüquqları və əsas azadlıqlarının səmərəli müdafiəsini təmin etmək niyyəti ilə,

Tərəflər arasında cinayətkarlıqla mübarizə sahəsində əlaqələri genişləndirmək və qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirmək məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Əməkdaşlığın istiqamətləri

1. Tərəflər öz səlahiyyətləri çərçivəsində, milli qanunvericilikləri və dövlətlərinin iştirakçısı olduqları beynəlxalq müqavilələrə uyğun olaraq aşağıda göstərilən cinayətlərin qarşısının alınması və aradan qaldırılması sahəsində əməkdaşlığı həyata keçirirlər:

a) terrorçuluq və mütəşəkkil cinayətkarlıq;

b) həyat və sağlamlıq əleyhinə olan cinayətlər;

c) silah, döyüş sursatı, partlayıcı, zəhərli, nüvə və radioaktiv maddələrdən istifadə edilməklə törədilmiş və ya hazırlanan cinayətlər;

d) narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarınınqanunsuz dövriyyəsi;

e) qanunsuz miqrasiya və insan alveri;

f) şəxsiyyəti təsdiq edən sənədlərin, banknotların, kredit kartlarının, qiymətli kağızların saxtalaşdırılması və qanunsuz hazırlanması;

g) mədəni və tarixi irsə qarşı törədilən cinayətlər;

h) mülkiyyət əleyhinə cinayətlər.

2. Tərəflər həmçinin digər ümumi maraq doğuran sahələrdə əməkdaşlığı həyata keçirirlər.

Maddə 2

Əməkdaşlığın formaları

1. Tərəflər əməkdaşlığı aşağıdakı formalarda həyata keçirirlər:

a) qarşı Tərəfin sorğusu əsasında əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi;

b) məlumat mübadiləsi;

c) təcrübə mübadiləsi;

d) kadrların hazırlığı və onların peşə biliklərinin artırılması sahəsində qarşılıqlı yardımın göstərilməsi.

2. Tərəfin sorğusu əsasında digər Tərəf aşağıdakı əməliyyat-axtarış tədbirlərini həyata keçirir:

a) istintaqdan və (və ya) məhkəmədən gizlənən, barəsində məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü olduğu halda cəza çəkməkdən boyun qaçıran, məhkəmə qətnamələrinin icrasından yayman, habelə itkin düşmüş şəxslərin axtarışı;

b) tanınmamış meyitlərin, naməlum şəxslərin şəxsiyyətinin müəyyənləşdirilməsi;

c) digər Tərəfin dövlətində icazəsiz və ya şəxsiyyəti təsdiq edən saxta sənədlə yaşayan və ya sənədi olmayan şəxslərin müəyyənləşdirilməsi;

d) qarşılıqlı razılıq əsasında digər əməliyyat-axtarış tədbirləri.

3. Əməkdaşlığı həyata keçirərkən Tərəflər aşağıdakıları mübadilə edirlər:

a) bu maddənin 2-ci bəndinə əsasən keçirilmiş əməliyyat-axtarış tədbirlərinə və onların nəticələrinə dair məlumatlar;

b) cinayətkarlıqla mübarizədə yeni metodların tətbiqi və müasir texnikadan istifadə təcrübəsini;

c) Tərəflərin normayaradıcılıq və normativ-hüquqi aktların tətbiqinin təkmilləşdirilməsi sahəsində fəaliyyətinə dair məlumatları və təcrübəni;

d) polisin fəaliyyətini tənzimləyən milli qanunvericilik aktlarını;

e) bu Saziş çərçivəsində ümumi maraq doğuran digər məsələlər üzrə məlumat və təcrübəni.

4. Tərəflər tədris müəssisələrində digər tərəfin polis əməkdaşları üçün zəruri ixtisasartırma kursları təşkil edirlər.

Maddə 3

Səlahiyyətli qurumlar

Tərəflər bu Sazişin müddəalarının icrasına məsul olan səlahiyyətli qurumlar haqqında bir-birini diplomatik kanallar vasitəsilə məlumatlandıracaqlar.

Maddə 4

Əməkdaşlığa dair sorğuların icrası ilə bağlı fəaliyyət

1. Tərəflər qarşılıqlı fəaliyyəti aşağıdakı rekvizitlərə malik olan yazılı sorğular əsasında həyata keçirirlər:

a) sorğu göndərən orqanın və sorğu göndərilən orqanın adı;

b) sorğu üzrə göndərilən materialın qısa məzmunu və sorğunun icra olunması üçün digər sənədlər;

c) sorğu göndərən Tərəfi maraqlandıran sualların siyahısı.

2. Sorğu müvafiq qaydada imzalanmalı və onu göndərən orqanın möhürü ilə təsdiq edilməlidir. Sorğu göndərən Tərəfin dövlət dilində tərtib olunmuş sorğular ingilis dilinə tərcümə olunmalıdır.

3. Təxirəsalınmaz hallarda sorğular şifahi formada ifadə oluna bilər, lakin onlar sonradan yazılı şəkildə təsdiq edilməlidir.

4. Sorğu icra olunarkən sorğunu alan Tərəfin milli qanunvericiliyi tətbiq edilir.

5. Sorğunun icrası Tərəfin dövlətinin suverenliyinə, təhlükəsizliyinə, milli mənafeyinə təhlükə yaradarsa və ya milli qanunvericiliyinə zidd olarsa, sorğunun icrasına qismən və bütövlükdə imtina edilə bilər.

6. Hər bir halda müraciət etmiş Tərəfə qəbul olunmuş qərar haqqında məlumat verilməlidir.

Maddə 5

Xərclər

Bu Saziş çərçivəsində keçiriləcək bütün əməkdaşlıq tədbirləri ilə bağlı tələb olunan xərclər bu Sazişin müddəalarının həyata keçirilməsinə məsul olan səlahiyyətli orqanlar arasında qarşılıqlı razılaşmalar əsasında müəyyənləşdirilərək ödəniləcəkdir.

Maddə 6

Digər fəaliyyətlər

Tərəflər, gələcək əməkdaşlığın inkişaf etdirilməsinə və səmərəliliyinin artırılmasına dair məsələlərin müzakirəsi məqsədilə işgüzar görüşlər və məsləhətləşmələr təşkil edirlər.

Maddə 7

Digər beynəlxalq müqavilələr üzrə öhdəliklər

Bu Saziş, Tərəflərin dövlətlərinin iştirakçıları olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsinə təsir etmir.

Maddə 8

Konfidensiallıq

Göndərən Tərəf məlumatın açıqlanmasını arzuolunmaz hesab etdiyi halda, Tərəf digər Tərəfdən əldə edilən məlumatın konfidensiallığını təmin etməlidir. Bu məlumatı verən Tərəf onun konfidensiallıq dərəcəsini müəyyənləşdirməlidir.

Bu Saziş çərçivəsində mübadilə edilən məlumatlar onu təqdim edən Tərəfin yazılı razılığı olmadan üçüncü Tərəfə verilə bilməz.

Maddə 9

Mübahisələrin həll olunması

Bu Sazişin müddəalarının təfsiri və ya tətbiqi zamanı mübahisələr yarandığı təqdirdə, Tərəflər onları danışıqlar və məsləhətləşmələr yolu ilə həll edirlər.

Maddə 10

Dəyişikliklər

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə dəyişikliklər edilə bilər. Belə dəyişikliklər bu Sazişin ayrılmaz hissəsi olaraq ayrı-ayrı prolokollarla rəsmiləşdirilir və bu Sazişin 11-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minir.

Maddə 11

Qüvvəyə minmə və qüvvədən düşmə

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlət daxiliprosedurların yerinə yetirilməsi barədə diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş beş il müddətinə bağlanılır və Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə digər Tərəfə məlumat vermədiyi təqdirdə onun qüvvəsi avtomatik olaraq növbəti beş illik müddətlərə uzadılacaqdır.

Bu Saziş Bakı şəhərində 13 may 2010-cu ildə, Azərbaycan, serb və ingilis dillərində iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir.

Bu Sazişin təfsirində fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	SERBİYA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
RAMİL USUBOV *Daxili işlər naziri*	*İVİSA DAÇİÇ* *Baş nazirinin birinci müavini, daxili işlər naziri*

"Azərbaycan Respublikası hökuməti və Finlandiya Respublikası hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Azərbaycan Respublikası hökuməti və Finlandiya Respublikası hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında" 2010-cu il mayın 11-də Helsinki şəhərində imzalanmış saziş təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2010-cu il

№ 1074

Azərbaycan Respublikası Hökuməti və Finlandiya Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş

Bundan sonra Razılığa gələn Tərəflər adlandırılan Azərbaycan Respublikası Hökuməti və Finlandiya Respublikası Hökuməti,

Gömrük qanunvericiliyinin pozulmasının onların iqtisadi, ticarət, maliyyə, ictimai, mədəni, sənaye və aqrar maraqlarına ziyan vurduğunu nəzərə alaraq;

Gömrük qanunvericiliyinin pozulmasına qarşı fəaliyyətin gömrük orqanları arasında sıx əməkdaşlıq yolu ilə daha səmərəli həyata keçiriləcəyinə əmin olaraq;

İdxal və ya ixrac zamanı toplanan gömrük rüsumları və digər vergilərin dəqiq müəyyən edilməsinin və qadağan, məhdudiyyət və nəzarət tədbirlərinin düzgün tətbiqinin, o cümlədən sonuncunun saxta mallara və qeydiyyata alınmış ticarət nişanlarına aid qanun və qaydaların tətbiqini həyata keçirmək də daxil olmaqla, təmin olunmasının həmiyyətini nəzərə alaraq;

Silahların, sursatların, partlayıcı maddələrin, zəhərli maddələrin, radioaktiv materialların, narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsinin ictimai sağlamlıq və cəmiyyət üçün təhlükəli olduğunu nəzərə alaraq;

Mühüm ehtiyatları ilə transmilli mütəşəkkil cinayətkarlığın və terrorçu birləşmələrin təhlükəsini və onlara qarşı effektiv mübarizə aparmaq zərurətini nəzərə alaraq;

22 aprel 1996-cı il tarixdə imzalanmış Bir Tərəfdən Avropa İttifaqı və onun üzvü olan Dövlətlər, digər tərəfdən Azərbaycan Respublikası arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişini nəzərə alaraq;

Transmilli mütəşəkkil cinayətkarlığın qarşısının alınması və onunla mübarizə aparılması məqsədilə cinayət işlərində beynəlxalq qarşılıqlı yardım üçün çərçivəni müəyyən edən, Nyu-York şəhərində 15 noyabr 2000-ci il tarixdə qəbul olunmuş, Birləşmiş Millətlər Təşkilatının Transmilli Mütəşəkkil Cinayətkarlığa qarşı Konvensiyasının nəzərə alaraq;

Birləşmiş Millətlər Təşkilatının himayəçiliyi ilə tərtib olunmuş dəyişdirilmiş redaksiyada 1961-ci il tarixli Narkotik Vasitələr haqqında Vahid Konvensiyanın və dəyişdirilmiş redaksiyada 1971-ci İl tarixli Psixotrop maddələr haqqında Konvensiyanın, o cümlədən Birləşmiş Millətlər Təşkilatının dəyişdirilmiş redaksiyada 1988-ci il tarixli Narkotik Vasitələrin və Psixotrop Maddələrin qeyri-qanuni dövriyyəsinə qarşı Konvensiyanın və onun Əlavəsinin müddəalarını nəzərə alaraq;

Həmçinin, Gömrük Əməkdaşlıq Şurasının müvafiq sənədlərini, xüsusilə Qarşılıqlı İnzibati Yardım haqqında 5 dekabr 1953-cü il tarixli Tövsiyəsini nəzərə alaraq;

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərif lər

Bu Sazişin məqsədləri üçün:

a) **"Gömrük qanunvericiliyi"** malların idxalı, ixracı, tranziti, saxlancı və dövriyyəsi, o cümlədən gömrük orqanlarının topladığı gömrük rüsumlarına, vergilərə və ya digər yığımlara aid ödəmə üsulları və ya qadağan, məhdudiyyət və ya nəzarət tədbirləri ilə bağlı Razılığa gələn Tərəflərin gömrük orqanlarının həyata keçirdiyi hüquqi və tənzimləyici müddəalar;

b) **"Gömrük orqanı"** bu Maddənin "a" bəndində istinad edilən müddəaların həyata keçirilməsində səlahiyyəti olan Azərbaycan Respublikasında - Dövlət Gömrük Komitəsi və Finlandiya Respublikasında - Milli Gömrük İdarəsidir;

c) **"Gömrük qanunvericiliyinin pozulması"** gömrük qanunvericiliyinin hər hansı şəkildə pozulması və ya pozulmasına cəhd;

d) **"Gömrük rüsumları və vergiləri"** malların idxalı və ya ixracı ilə bağlı toplanılan, göstərilən xidmətlərin təqribi dəyəri ilə məhdudlaşan ödəniş və yığımlar istisna olmaqla, Finlandiya Respublikası üçün Avropa İttifaqının səlahiyyətli orqanları tərəfindən müəyyənləşdirildiyi kimi rüsumlar və vergilər daxil olmaqla, gömrük rüsumları və bütün digər rüsumlar, vergilər və yığımlar;

e) **"Şəxs"** mənası başqa cür tələb etmirsə, hər hansı fiziki və ya hüquqi şəxs;

f) **"Şəxs barədə məlumat"** müəyyən olunmuş və ya oluna bilən şəxs barədə hər hansı məlumat;

g) **"Narkotik vasitələr"** dəyişdirilmiş redaksiyada 1961-ci il tarixli Narkotik vasitələr haqqında Vahid Konvensiyanın I və II siyahılarına daxil edilmiş hər hansı təbii və ya sintetik maddə və o cümlədən milli qanunvericilikdə narkotik vasitə hesab edilən hər hansı maddə;

h) **"Psixotrop maddələr"** dəyişdirilmiş redaksiyada Birləşmiş Millətlər Təşkilatının 1971-ci il tarixli Psixotrop maddələr haqqında Konvensiyanın I, II, III və IV siyahılarına daxil edilmiş hər hansı təbii və ya sintetik maddə və ya hər hansı təbii material, o cümlədən milli qanunvericilikdə psixotrop maddə hesab edilən hər hansı maddə;

i) **"Prekursorlar"** Birləşmiş Millətlər Təşkilatının dəyişdirilmiş redaksiyada 1988-ci il tarixli Narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsinə qarşı Konvensiyasının Əlavəsinə daxil edilmiş kimyəvi maddələr;

j) **"Nəzarətli göndəriş"** səlahiyyətli orqanların xəbərdarlığı və onların nəzarəti altında, gömrük qanunvericiliyinin pozulması ilə əlaqədar olan şəxslərin aşkarlanması və müəyyən edilməsi məqsədilə, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların və ya onları əvəz edən digər maddələrin, o cümlədən qanunsuz olaraq daşınan digər malların Razılığa gələn Tərəflərin ərazilərindən aparılması, keçirilməsi və gətirilməsinə icazə verilməsi metodu;

k) **"Sorğu göndərən gömrük orqanı"** Razılığa gələn Tərəfin gömrük məsələlərində yardımı sorğu edən gömrük orqanı;

l) **"Sorğu alan gömrük orqanı"** Razılığa gələn Tərəfin gömrük məsələlərində yardım göstərmək üçün sorğu alan gömrük orqanı.

Maddə 2

Sazişin tətbiq edilmə dairəsi

1. Razılığa gələn Tərəflər gömrük orqanları vasitəsilə və bu Sazişdə göstərilən müddəalara müvafiq olaraq bir-birinə yardım göstərəcəklər:

a) gömrük qanunvericiliyinə düzgün riayət edilməsinin təmin edilməsi məqsədilə;

b) gömrük qanunvericiliyinin pozulmasının qarşısının alınması, araşdırılması və təhqiqatın aparılması məqsədilə;

c) gömrük qanunvericiliyinin tətbiqinə aid sənədlərin çatdırılması/bildirilməsi ilə bağlı hallarda.

2. Bu Saziş çərçivəsində yardım, sorğu alan Razılığa gələn Tərəfin dövlətinin ərazisində qüvvədə olan qanunvericiliyə uyğun olaraq və sorğu alan gömrük orqanının səlahiyyətləri və mövcud imkanları daxilində təmin edilməlidir. Zəruri olduğu təqdirdə, sorğu alan gömrük orqanı yardımın başqa səlahiyyətli orqan tərəfindən təmin edilməsini təşkil edə bilər.

3. Bu Saziş gömrük rüsumlarının, vergilərin və digər yığımların qaytarılmasını nəzərdə tutmur.

4. Bu Saziş Razılığa gələn Tərəflərin qoşulduqları cinayət məsələlərində hüquqi yardım haqqında beynəlxalq sazişlərin və ya gömrük əməkdaşlığı haqqında beynəlxalq sazişlərin tətbiqinə təsir etməyəcəkdir.

Maddə 3

Yardımın əhatə dairəsi

1. Razılığa gələn Tərəflərin gömrük orqanları hüquqi və tənzimləyici müddəaların kontekstində sorğu əsasında və zərurət olduqda ilkin təhqiqatdan sonra onlara gömrük rüsumlarının və vergilərin düzgün toplanmasının təmin olunmasına imkan verən hər hansı məlumatı, xüsusilə aşağıdakıları asanlaşdıran məlumatı mübadilə edəcəklər:

a) vergiyə cəlb olunan dəyərin müəyyən edilməsi, malların tarif təsnifatı və mənşəyi;

b) qadağan, məhdudiyyət və nəzarətlə bağlı müddəaların həyata keçirilməsi;

2. Sorğu alan gömrük orqanı sorğu əsasında həmin Razılığa gələn Tərəfdə tətbiq olunan gömrük qanunvericiliyi və prosedurlar barədə və gömrük qanunvericiliyinin pozulmasına aid araşdırmalarla bağlı bütün məlumatı təmin edəcəkdir.

3. Gömrük orqanları sorğu əsasında və ya öz təşəbbüsü ilə gömrük qanunvericiliyinin düzgün tətbiq olunmasına və gömrük qanunvericiliyinin pozulmasının qarşısının alınmasına, araşdırılmasına və aradan qaldırılmasına yardım edən məlumat və sənədlərlə bir-birini təmin edirlər.

4. Hər hansı bir gömrük orqanı digər gömrük orqanın adından sorğu edərkən o, bu sorğuları özü üçün və ya həmin Razılığa gələn Tərəfin digər orqanının sorğusu əsasında həyata keçirdiyi kimi hərəkət edəcəkdir.

5. Sorğu alan gömrük orqanı sorğunu icra etmək üçün müvafiq orqan olmadığı hallarda, o, onu dərhal müvafiq orqana ötürəcək və həmin orqanla əməkdaşlıq edəcəkdir.

Maddə 4

Yardım göstərilməsi halları

Gömrük orqanları öz təşəbbüsü ilə və ya sorğu əsasında bir-birini aşağıdakı məlumatla təmin edəcəkdir:

a) Razılığa gələn Tərəflərdən birinin dövlətinin ərazisinə idxal edilmiş malların digər Razılığa gələn Tərəfin dövlətinin ərazisindən qanuni ixrac olunub-olunmaması və əgər mövcuddursa, malların yerləşdirildiyi gömrük proseduru;

b) Razılığa gələn Tərəflərdən birinin dövlətinin ərazisindən ixrac olunmuş malların digər Razılığa gələn Tərəfin dövlətinin ərazisinə qanuni idxal olunub-olunmaması və əgər mövcuddursa, malların yerləşdirildiyi gömrük proseduru;

c) bir Razılığa gələn Tərəfin dövlətinin ərazisindən ixrac zamanı əlverişli dövriyyəyə tətbiq olunan malların digər Razılığa gələn Tərəfin dövlətinin ərazisinə lazımi şəkildə idxal olunub-olunmaması və belə malların məruz qaldığı hər hansı gömrük nəzarət tədbirləri haqqında məlumatla təmin etməlidir.

Maddə 5

Xüsusi nəzarət

1. Sorğu əsasında, sorğu alan gömrük orqanı aşağıdakılar barədə məlumat təmin edəcək və onlar üzərində xüsusi nəzarət aparacaqdır:

a) sorğu göndərən gömrük orqanına gömrük qanunvericiliyini pozması məlum olan və ya bunu etməkdə şübhəli bilinən şəxslər, xüsusilə sorğu alan Razılığa gələn Tərəfin dövlətinin ərazisinə daxil olan və həmin ərazini tərk edən şəxslər;

b) sorğu alan Razılığa gələn Tərəfin dövlətinin ərazisində qanunsuz dövriyyədə olduğuna şübhələnməyə əsas verən sorğu göndərən gömrük orqanı tərəfindən bildirilən malların hərəkəti;

c) sorğu göndərən gömrük orqanı tərəfindən hər hansı Razılığa gələn Tərəfin dövlətinin ərazisində qüvvədə olan gömrük qanunvericiliyinin pozulmasının törədilməsində istifadəsi şübhəli bilinən nəqliyyat vasitələri;

d) sorğu göndərən gömrük orqanı tərəfindən hər hansı Razılığa gələn Tərəfin dövlətinin ərazisində qüvvədə olan gömrük qanunvericiliyinin pozulmasının törədilməsində istifadəsi şübhəli bilinən malların saxlancı üçün istifadə olunan yerlər.

2. Razılığa gələn Tərəflərin gömrük orqanları öz səlahiyyətləri çərçivəsində aşağıdakıların qarşısını alacaqdır:

a) razılığa gələn Tərəflər arasında qanuni ticarətdə nəzərdə tutulmuş məqsədlərdən kənar istifadə olunması məqsədilə digər Razılığa gələn Tərəfin dövlətinin ərazisinə ixrac olunması bilinən və ya əsaslı şəkildə şübhəli bilinən malların ixracı;

b) digər Razılığa gələn Tərəfin dövlətinin ərazisinə idxalı qadağan olan malların ixracı.

Maddə 6

Xüsusi əhəmiyyətli malların qanunsuz dövriyyəsinə qarşı fəaliyyət

Gömrük orqanları öz təşəbbüsləri və ya sorğu əsasında və. gecikmədən Razılığa gələn Tərəflərin birinin dövlətinin ərazisində qüvvədə olan gömrük qanunvericiliyini pozan, yaxud poza bilən törədilmiş və ya planlaşdırılan fəaliyyətlər barədə, xüsusilə aşağıdakıların hərəkəti sahəsində bir-birini bütün müvafiq məlumatlarla təmin edir:

a) silahlar, sursatlar və partlayıcı maddələr;

b) aidiyyəti beynəlxalq sazişlərə və müvafiq çoxtərəfli razılaşmalara və ya rejimlərə və/yaxud müvafiq yayılmamağa dair öhdəliklərə uyğun olaraq nəzarət altında olan həssas və strateji mallar;

c) narkotik vasitələr, psixotrop maddələr və prekursorlar;

d) mühüm tarixi, mədəni və ya arxeoloji dəyərə malik olan incəsənət və əntiq əşyaları;

e) zəhərli maddələr, radioaktiv materiallar, o cümlədən ətraf mühit və ya sağlamlıq üçün təhlükəli mallar və maddələr;

f) yüksək rüsumlara və ya vergilərə cəlb olunan mallar, xüsusilə spirtli içkilər və tütün məhsulları;

g) əqli mülkiyyət hüquqlarını pozan mallar.

Maddə 7

Nəzarətli göndəriş

1. Gömrük orqanları silahların, sursatların, partlayıcı maddələrin, zəhərli maddələrin, radioaktiv materialların, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların, o cümlədən qanunsuz daşınan digər malların qeyri-qanuni dövriyyəsi ilə əlaqədar şəxslərin müəyyən edilməsi və onlara qarşı qanuni tədbirlərin görülməsi məqsədilə nəzarətli göndərişin müvafiq istifadəsinə icazə vermək üçün öz səlahiyyətləri daxilində müvafiq tədbirlər görməlidir. Nəzarətli göndərişin istifadəsinə dair qərarın qəbul edilməsi gömrük orqanının səlahiyyətləri daxilində olmadığı zaman o, bu səlahiyyətə malik milli orqanlarla əməkdaşlığa başlayacaq və işi həmin orqana ötürəcəkdir.

2. Nəzarətli göndərişin istifadəsinə dair qərarlar hər bir hal üzrə və zərurət yarandıqda xüsusi halla əlaqədar olaraq əldə edilə bilən hər hansı razılıq və ya razılaşmalara uyğun qəbul ediləcəkdir. Onlar zərurət yarandıqda, səlahiyyətli milli orqanları arasında əldə edilmiş maliyyə razılaşmalarını və anlaşmaların, milli qanunvericiliklərinə uyğun olması şərti ilə, nəzərə ala bilərlər.

3. Nəzarətli göndərişin razılaşdırılmış qanunsuz partiyaları səlahiyyətli orqanların qarşılıqlı razılığı ilə dayandırıla və silahlar, sursatlar, partlayıcı maddələr, zəhərli mallar, radioaktiv materiallar, narkotik vasitələr, psixotrop maddələr və prekursorlar, o cümlədən malların toxunulmaz və ya yerindən götürülmüş, yaxud tam və ya qismən yeri dəyişdirilmiş halda davam etdirilməsinə icazə verilə bilər.

Maddə 8

Yardını üçün sorğuların forması və məzmunu

1. Bu Sazişə uyğun olaraq sorğular yazılı şəkildə verilməlidir. Onlar sorğunun icrasına imkan yaratmaq üçün lazım olan sənədlərlə müşayiət edilməlidir. Təxirəsalınmaz hallarda tələb olunduqda şifahi sorğular da qəbul edilə bilər, lakin onlar dərhal yazılı şəkildə təsdiq edilməlidir.

2. Bu maddənin 1-ci bəndinə müvafiq olaraq sorğulara aşağıdakı məlumatlar daxil edilməlidir:

a) sorğu edən gömrük orqanı;

b) sorğu olunan tədbir;

c) sorğunun predmeti və səbəbi;

d) aidiyyəti qanunlar, qaydalar və digər hüquqi elementlər;

e) araşdırmaların obyekti olan şəxslərin mümkün qədər dəqiq və müfəssəl göstərilməsi;

f) 9-cu maddədə nəzərdə tutulan hallar istisna olmaqla, müvafiq faktların və artıq həyata keçirilmiş sorğuların qısa məzmunu.

3. Yardım üçün sorğular ingilis dilində təqdim edilməlidir.

4. Əgər sorğu formal tələblərə cavab vermirsə, onun düzəlişi və ya tamamlanması tələb edilə bilər, buna baxmayaraq, ehtiyat tədbirləri tətbiq oluna bilər.

Maddə 9

Sənədlər haqda bildiriş

1. Bir Razılığa gələn Tərəfin gömrük orqanının sorğusu əsasında digər Razılığa gələn Tərəfin gömrük orqanı onun dövlətinin ərazisində yaşayan və ya qeydiyyatda olan əlaqədar şəxslərə gömrük qanunvericiliyinin tətbiqində inzibati orqanlar tərəfindən həyata keçirilən tədbirlər və qərarlarla bağlı sənədlər haqda bildiriş verməlidir.

2. Sənədlər barədə bildiriş sorğu alan Razılığa gələn Tərəfin dövlətinin ərazisində qüvvədə olan qanunvericiliyə uyğun verilməlidir. Buna baxmayaraq, sənədlər barədə bildiriş, sorğu alan Razılığa gələn Tərəfin qanunvericiliyinə zidd hesab edilməməsi şərtilə, sorğuda olan forma və ya üsula uyğun olaraq da verilə bilər.

Bildiriş barədə sübut tarix qoyulmuş və imzalanmış təsdiqin əlaqədar şəxs tərəfindən alınması və ya bildirişin üsulu və tarixi qeyd edilməsi ilə sorğu alan Razılığa gələn Tərəfin səlahiyyətli orqanının sertifikatı formasında ola bilər.

Maddə 10

Araşdırmalar

1. Əgər bir gömrük orqanı sorğu göndərərsə, digər gömrük orqanı sorğu göndərən gömrük orqanının dövlətinin ərazisində qüvvədə olan gömrük qanunvericiliyinə zidd olan,

etməyi tələb edən şəxslərdən başqa heç kimə ötürülməməlidir;

c) sorğu alan gömrük orqanı ötürüləcək şəxs barədə məlumatın həqiqiliyini və düzgünlüyünü təsdiq etməlidir. Məlumatı ötürən gömrük orqanı onun dəqiq və yeni olmasını təmin etməlidir. Sorğu göndərən gömrük orqanı, belə tələb olunduqda, şəxs barədə məlumatı düzəltməli, məhv etməli və ya silməlidir;

d) sorğu alan gömrük orqanı şəxs barədə məlumatla yanaşı öz qanunvericiliyinə uyğun olaraq məlumatın silinməsi üçün tələb olunan son müddətə dair məlumatı da təmin etməlidir. Şəxs barədə məlumat onun ötürüldüyü məqsəd üçün zəruri olan müddətdən çox olmayan vaxt ərzində saxlanılacaqdır;

e) gömrük orqanları ötürülən və ya alınan məlumatın qeydiyyatını aparacaq və şəxs barədə hər hansı məlumatı icazəsiz girişdən, dəyişdirilməkdən, nəşr etməkdən, zərər yetirməkdən və ya məhv etməkdən effektiv şəkildə qoruyacaqdır.

2. Bu Saziş çərçivəsində şəxs barədə məlumat mübadilə olunduğu ballarda, Razılığa gələn Tərəflər məlumatın qorunması sahəsində ən azı bu Sazişin ayrılmaz hissəsi olan Əlavədə əks olunmuş prinsiplərin həyata keçirilməsindən irəli gələn standartlara bərabər səviyyədə standartlar müəyyən edəcəklər.

3. Razılığa gələn Tərəflər şəxs barədə məlumatın qorunması ilə bağlı sorğuların hansı səlahiyyətli milli orqana göndərilə biləcəyi haqda bir-birini məlumatlandıracaqlar.

Maddə 16

Məlumat və sənədlərin dəlil kimi istifadəsi

1. Gömrük orqanları bu Sazişin məqsədlərinə uyğun olaraq və onun tətbiq dairəsi çərçivəsində dəlil haqda qeydlərdə, hesabatlarda, şahid ifadələrində və məhkəmə qarşısına çıxarılan İşlərdə bu Sazişə uyğun olaraq əldə edilmiş məlumat və sənədlərdən dəlil kimi istifadə edə bilər.

2. Belə məlumatdan və sənədlərdən məhkəmələrdə dəlil kimi istifadə və ona veriləcək əhəmiyyət Razılığa gələn Tərəflərin milli qanunvericiliyinə uyğun olaraq müəyyən edilməlidir.

Maddə 17

Yardım göstərmək öhdəliyindən istisnalar

1. Əgər bir Razılığa gələn Tərəfin sorğu alan gömrük orqanı ondan sorğu edilən yardımın həyata keçirilməsinin həmin Razılığa gələn Tərəfin suverenliyinə, təhlükəsizliyinə, ictimai asayişinə və ya digər mühüm maraqlarına zərər gətirəcəyini, yaxud sənaye, kommersiya və ya peşəkar sirrin pozulmasına səbəb olacağım, yaxud onun daxili hüquq sisteminin əsas prinsiplərinə zidd olacağını hesab edirsə, o, yardımı təmin etməkdən imtina edə, yaxud onu qismən təmin edə, yaxud onu müəyyən şərtlər və tələblər əsasında təmin edə bilər.

2. Əgər sorğu göndərən gömrük orqanı, sorğu alan gömrük orqanı tərəfindən oxşar sorğunun göndərildiyi halda, onu həyata keçirə bilməzsə, o, bu fakta diqqət yetirəcəkdir. Belə sorğunun yerinə yetirilməsi sorğu alan gömrük orqanının ixtiyarında olacaqdır.

3. Sorğu alan gömrük orqanı tərəfindən yardımın göstərilməsi həmin yardımın davam

edən araşdırma, təhqiqat və ya prosesə müdaxilə etməsi səbəbindən təxirə salına bilər. Belə halda, sorğu alan gömrük orqanı sorğu göndərən gömrük orqanı ilə sorğu alan gömrük orqanının tələb edə biləcəyi şərtlər və imkanlara uyğun olaraq yardım edilməsinin müəyyənləşdirilməsi üzrə məsləhətləşməlidir.

4. Gömrük orqanları yardımın göstərilməsindən imtina və ya təxirə salındığı hallarda, imtina və ya təxirə salmanın səbəblərini qeyd etməklə bir-birini xəbərdar edəcəklər.

Maddə 18

Xərclər

1. Gömrük orqanları hökumət məmurları olmayan ekspertlərə və şahidlərə ödənilən xərclər, o cümlədən sorğu alan gömrük orqanı tərəfindən ödənilməli olan şifahi və yazılı tərcüməçilərə çəkilən xərclər istisna olmaqla, bu Sazişin həyata keçirilməsində çəkilmiş xərclərin əvəzinin ödənilməsi üçün bütün iddialardan imtina etməlidir.

2. Əgər sorğunun icrası üçün əlavə və ya qabaqcadan nəzərdə tutulmamış xərclər tələb olunur və ya olunarsa, gömrük orqanları sorğunun icra edilmə şərtlərini, o cümlədən xərclərin hansı qaydada ödəniləcəyini müəyyən etmək üçün məsləhətləşməlidirlər.

Maddə 19

Əlavə

14 və 15-ci maddələrə xələl yetirmədən, bu Saziş İttifaqın marağında əla biləcək gömrük məsələlərində əldə edilmiş hər hansı məlumatın Avropa İttifaqı Komissiyasının səlahiyyətli xidmətləri və Finlandiya Respublikasının gömrük orqanları arasında ötürülməsini tənzimləyən İttifaqın müddəalarına xələl yetirməyəcəkdir.

Maddə 20

Sazişin tətbiqi

1. Bu Sazişə əsasən yardım Razılığa gələn Tərəflərin gömrük orqanları arasında birbaşa olaraq mübadilə ediləcəkdir.

2. Gömrük orqanları bu Sazişin tətbiqini asanlaşdırmaq üçün müfəssəl hazırlıq tədbirləri barədə qərar qəbul edəcəkdir.

3. Gömrük orqanları gömrük qanunvericiliyinin pozulmasının araşdırılmasına və ya qarşısının alınmasına məsul vəzifəli şəxslərinin bir-biri ilə şəxsi və birbaşa əlaqələrini daxili inzibati prosedurlara uyğun şəkildə qurmaları üçün müvafiq tədbirlər görə bilər.

4. Bu Sazişin tətbiq olunması və şərhi ilə bağlı bütün mübahisəli məsələlər Razılığa gələn Tərəflərin gömrük orqanları arasında danışıqlar yolu ilə həll olunur. Qarşılıqlı həlli tapılmayan mübahisələr diplomatik kanallar vasitəsilə həll ediləcəkdir.

5. Bu Sazişdə nəzərdə tutulan məlumat hər bir gömrük orqanı tərəfindən bu məqsəd üçün xüsusilə təyin olunan vəzifəli şəxslərə ötürüləcəkdir.

Maddə 21

Ərazi üzrə tətbiq edilmə

Bu Saziş Azərbaycan Respublikasının gömrük ərazisində və Finlandiya Respublikasının gömrük ərazisində tətbiq olunur.

Maddə 22

Əlavə və dəyişikliklər

Razılığa gələn Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan ayrı-ayrı protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər. Həmin protokollar bu Sazişin 23-cü maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minir.

Maddə 23

Qüvvəyə minmə və ləğv edilmə

1. Razılığa gələn Tərəflər bu Sazişin qüvvəyə minməsi üçün bütün zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə diplomatik kanallar vasitəsilə bir-birinə məlumat verəcəklər. Saziş sonuncu bildiriş alındıqdan altmış gün sonra qüvvəyə minəcəkdir.

2. Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır. Hər bir Razılığa gələn Tərəf diplomatik kanallar vasitəsilə göndərilən yazılı bildirişlə bu Sazişi ləğv edə bilər.

3. Ləğv etmə digər Razılığa gələn Tərəfin belə bildirişi aldıqdan sonra altı ayın sonunda qüvvəyə minir.

4. Sazişin ləğv edilməsi zamanı aparılan işlər bu Sazişin müddəalarına uyğun olaraq, mümkün olduğu qədər, bitirilməlidir.

Bunları təsdiq edərək, səlahiyyət verilmiş aşağıda imza edən nümayəndələr bu Sazişi imzalamışlar.

Helsinki şəhərində 11 may 2010-cu il tarixdə, iki əsl nüsxədə, hər biri Azərbaycan, fin və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Sazişin təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	FİNLANDİYA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
AYDIN ƏLİYEV	*TAPANİ ERLİNQ*
Dövlət Gömrük Komitəsinin sədri	*Milli Gömrük İdarəsinin baş direktoru*

Azərbaycan Respublikası Hökuməti və Finlandiya Respublikası Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı yardım və əməkdaşlıq haqqında Sazişə əlavə Məlumatın qorunmasının əsas prinsipləri

1. Avtomatik işlənməyə məruz qalan şəxs barədə məlumat:

a) müvafiq qaydada və qanuna uyğun olaraq əldə edilməli və işlənməlidir;

b) xüsusi və qanuni məqsədlər üçün saxlanmalı və bu məqsədlərə uyğun olmayan şəkildə istifadə olunmamalıdır;

c) onların saxlandığı məqsədlərlə əlaqədar olaraq müvafiq, aidiyyəti və artıq olmamalıdır;

d) dəqiq və zəruri hallarda yenilənmiş saxlanmalı;

e) məlumat subyektlərinin müəyyən edilməsinə şərait imkan verən şəkildə bu məlumatların saxlandığı məqsəd üçün tələb olunandan artıq olmayan müddət üçün saxlanmalı.

2. İrqi mənşəyi, siyasi fikirləri Və ya dini, yaxud başqa inancları ifşa edən şəxs barədə məlumat, o cümlədən səhhətə və ya cinsi həyata aid şəxs barədə məlumat daxili qanunvericilik müvafiq təhlükəsizlik tədbirlərini təmin etmədiyi təqdirdə avtomatik şəkildə işlənilə bilməz. Eyni prinsip cinayət məsuliyyətinə cəlb olunmuş şəxs barədə məlumata tətbiq olunacaqdır.

3. Avtomatlaşdırılmış məlumat fayllarında saxlanılan şəxs barədə məlumatın icazəsiz məhv edilmədən və ya təsadüfi itirilmədən, o cümlədən icazəsiz daxil olmadan, dəyişdirilmədən və ya yayılmadan qorunması üçün müvafiq təhlükəsizlik tədbirləri görülməlidir.

4. Hər bir şəxsə imkan veriləcəkdir:

a) şəxs barədə avtomatlaşdırılmış məlumat faylının mövcudluğunu, onun əsas məqsədlərini, o cümlədən faylın nəzarətçisinin şəxsiyyətini və daimi yaşayış yerini və ya əsas iş yerini müəyyən etməyə;

b) ona aid şəxs barədə məlumatın avtomaflaşdırılmış məlumat faylında saxlanıb-saxlanmadığının təsdiqinə münasib vaxtda və gecikmədən və ya xərcsiz, o cümlədən belə məlumatın ona aydın şəkildə çatdırılmasına nail olmağa;

c) şəraitdən asılı olaraq, belə məlumatın, onun bu əlavənin 1 və 2-ci prinsiplərində müəyyən olunan əsas prinsiplərini tətbiq etməklə daxili qanunvericiliyinin müddəalarına zidd olaraq işləndiyi təqdirdə, düzəldilməsinə və ya ləğv edilməsinə nail olmağa;

d) şəraitdən asılı olaraq, bu prinsipin b) və c) bəndlərində qeyd olunduğu kimi əlaqə, düzəldilmə və ya məhv etmə üçün sorğu həyata keçirilmədiyi təqdirdə tədbir görməyə.

5. 5.1. Bu əlavənin 1, 2 və 4 prinsiplərinə uyğun müddəalara, aşağıdakı prinsipdə müəyyən olunan çərçivələr istisna olmaqla, heç bir istisnaya yol verilməyəcəkdir.

5.2. Bu əlavənin 1, 2 və 4 prinsiplərinə uyğun müddəalardan məhdudiyyətə, belə məhdudiyyətin Razılığa gələn Tərəfin qanunvericiliyi ilə nəzərdə tutulduğu və aşağıdakılar naminə demokratik cəmiyyətdə zəruri tədbir təşkil etdiyi halda, yol verilir;

a. dövlət, ictimai təhlükəsizliyinin, dövlətin pul maraqlarının qorunması və ya cinayət hüquqpozmalarının qarşısının alınması;

b. məlumat subyektinin və ya digərlərin hüquq və azadlıqlarının qorunması.

5.3. Bu əlavənin 4-cü prinsipinin b) və d) bəndlərində müəyyən olunan hüquqların həyata keçirilməsinə dair məhdudiyyətlər, məlumat subyektlərinin hüquqlarının pozulması riskinin açıq-aydın olmadığı hallarda, statistika və ya elmi araşdırma məqsədləri üçün istifadə olunan şəxs barədə məlumat fayllar; ilə bağlı qanunvericiliklə təmin oluna bilər.

6. Hər bir Razılığa gələn Tərəf bu əlavədə müəyyən olunan əsas prinsipləri tətbiq et-

məklə daxili qanunvericiliyinin müddəalarının pozulmasına qarşı müvafiq sanksiyaları və hüquq-mühafizə vasitələrini müəyyən etmək üçün öhdəlik götürür.

7. Bu əlavənin heç bir müddəası Razılığa gələn Tərəf üçün məlumat subyektlərinə bu əlavədə müəyyən olunan qorumadan daha geniş qorumanın təmin olunması mümkünlüyünün məhdudlaşdırılması və ya başqa cür təsir etməsi kimi şərh olunmamalıdır.

"Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi və "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə uyğun olaraq xidməti pasport almaq hüququ olan vəzifəli şəxslərin siyahısının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 1995-ci il 13 iyun tarixli 1053 nömrəli qərarının qüvvədən düşmüş hesab edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994-cü il, № 18, maddə 243; 1995-ci il, № 14, maddə 237; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, № 5, maddə 385, № 6, maddə 493; 1998-ci il, № 2, maddə 70; 2000-ci il, № 12, maddə 835; 2001-ci il, № 3, maddə 143, № 6, maddə 378, № 11, maddə 674; 2002-ci il, № 1, maddə 4, № 8, maddə 463; 2004-cü il, № 7, maddə 505; 2005-ci il, № 3, maddə 152, № 10, maddə 874; 2006-cı il, № 1, maddə 3, № 2, maddə 64, № 3, maddə 219, № 4, maddə 319, № 11, maddə 933, № 12, maddələr 1006, 1017, 1029; 2007-ci il, № 7, maddə 712, № 8, maddə 753, № 11, maddə 1053; 2008-ci il, № 3, maddə 158, № 8, maddələr 699, 701, № 10, maddə 886; 2009-cu il № 7, maddə 519; 2010-cu il, № 3, maddə 166, № 4, maddə 276) 5-ci maddəsinin birinci hissəsi aşağıdakı redaksiyada verilsin:

"Xidməti pasport xidməti işlə əlaqədar xarici ölkələrə ezam olunan siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən vəzifəli şəxslərə, o cümlədən Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı, Milli Məclisi, Hesablama Palatası aparatlarının, Azərbaycan Respublikası Prokurorluğunun, Mərkəzi Bankının, Mərkəzi Bank yanında Maliyyə Monitorinqi Xidmətinin, müvafiq icra hakimiyyəti orqanlarının məsul işçilərinə, hakimlərə, Mərkəzi Seçki Komissiyasının üzvlərinə, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarına, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin və müvafiq icra hakimiyyəti orqanının aparatlarının məsul işçilərinə, müvafiq icra hakimiyyəti orqanlarının başçılarına və onların müavinlərinə, Azərbaycan Respublikasının xarici ölkələrdəki nümayəndəliklərinin inzibati-texniki işçilərinə, onlar üç aydan artıq xarici ölkələrdə işləyərsə onların arvadına (ərinə) və 18 yaşına çatmış əmək qabiliyyəti olmayan uşaqlarına, beynəlxalq xətlərdə çalışan dəniz və hava gəmiləri, dəmir yolu, avtonəqliyyat işçilərinə verilir. Xidməti pasport müvafiq dövlət orqanları rəhbərlərinin təqdimatı daxil olduqda ən geci beş iş günü keçənədək Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən sahiblərinin səlahiyyət müddətinə və ya beş illik müddətə verilir.".

II. "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə uyğun olaraq xidməti pasport almaq hüququ olan vəzifəli

şəxslərin siyahısının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 1995-ci il 13 iyun tarixli 1053 nömrəli qərarı (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995-ci il, № 11-12, maddə 206) 2011-ci il yanvarın 1-dən qüvvədən düşmüş hesab edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2010-cu il

№ 1075-IIIQD

Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"nə və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əlavələr və dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994-cü il, №17, maddə 234; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, №11, maddə 687; 2004-cü il, №7, maddə 505; 2006-cı il, №3, maddə 223) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"nə aşağıdakı əlavələr edilsin:

1. aşağıdakı məzmunda 38-1-ci maddə əlavə edilsin:

"Maddə 38-1 Konsul qanunvericiliklə nəzərdə tutulmuş müvafiq inzibati xətalar haqqında işlərə baxmaq hüququna malikdir.";

2. VII fəsilin adında "dövlət rüsumu" sözlərindən sonra "və müvafiq inzibati xətalara görə inzibati cərimə" sözləri əlavə edilsin;

3. 56-cı maddəyə aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

"Xarici ölkədə törədilən müvafiq inzibati xətalara görə inzibati cərimə tətbiq edilir.";

4. 57-ci maddəyə aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

"İnzibati cərimə konsulluğun yerləşdiyi xarici ölkənin valyutası ilə tutulur.";

5. 59-cu maddədə "dövlət rüsumu" sözlərindən sonra "və müvafiq inzibati xətalara görə inzibati cərimə" sözləri əlavə edilsin.

II. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, №8, I kitab, maddə 584; 2001-ci il, №1, maddə 24, №3, maddə 139, №7, maddə 455, №11, maddələr 680, 698, №12, maddə 731; 2002-ci il, №1, maddə 9, №4, I kitab, maddə 165, №5, maddələr 234, 237, 239, №6, maddə 326, №8, maddə 463, №12, maddə 692; 2003-cü il, №1, maddələr 3, 13, 23, №4, maddələr 177, 178, №5, maddə 228, №6, maddələr 257, 276, 279, №8, maddələr 407, 425, №12, I kitab, maddələr 676, 696, II kitab, maddələr 713, 714; 2004-cü il, №1, maddələr 6, 7, 10, 13, №4, maddələr 200, 201, 204, №5, maddələr 313, 314, 317, 321, №6, maddə 397, №8, maddələr 596, 597, №10, maddələr 762, 779, №11, maddə 900,

№12 maddə 973; 2005-ci il, №1 maddələr 5, 6, №2 maddə 61, №4 maddələr 272, 273, 275, 278, №6, maddələr 462, 466, №7, maddə 576, №8, maddələr 691, 692, №10, maddələr 875, 877, 904, №11, maddələr 993, 994, 995, №12, maddələr 1083, 1085; 2006-cı il, №2, maddələr 64, 68, №3, maddələr 219, 220, 223, 225, №5, maddə 385, №6, maddə 478, №11, maddələr 923, 924, 932, №12, maddələr 1005, 1020, 1024; 2007-ci il, №1, maddələr 3, 4, №2, maddələr 65, 68, №5, maddələr 397, 398, 401, 440, №6, maddələr 560, 561, 562, 579, № 8, maddə 757, №10, maddələr 935, 936, 938, 940, №11, maddələr 1048, 1049, 1053, 1070, 1077, 1080, 1089, 1091, №12, maddələr 1195, 1211, 1217, 1218, 1221; 2008-ci il, №2, maddə 47, №3, maddələr 146, 152, 159, №4, maddə 249, №5, maddə 340, №6, maddələr 454, 460, 461, 464, №7, maddələr 601, 602, 605, №8, maddələr 699, 701, №10, maddələr 884, 885, №11, maddələr 956, 957, №12, maddələr 1045, 1047, 1049; 2009-cu il, №2, maddələr 36, 45, 49, 52, 53, №5, maddələr 309, 315, №6, maddələr 404, 405, №7, maddələr 517, 518, 519, №8, maddə 611, №11, maddə, 878, №12, maddələr 953, 954, 966, 971; 2010-cu il, №2, maddələr 70, 71, №3, maddələr 167, 171, 178, №4, maddələr 275, 276, №5, maddə 379, 380, №6, maddə 483; Azərbaycan Respublikasının 2010-cu il 31 may tarixli, 1014-IIIQD nömrəli, 18 iyun tarixli, 1034-IIIQD, 1037-IIIQD, 1038-IIIQD nömrəli, 22 iyun tarixli, 1045-IIIQD, 1047-IIIQD nömrəli qanunları) 25.3-25.6-cı maddələri müvafiq olaraq 25.4-25.7-ci maddələr hesab edilsin və aşağıdakı məzmunda 25.3-cü maddə əlavə edilsin:

"25.3. İnzibati xətalara görə Azərbaycan Respublikasının diplomatik nümayəndəlik və konsulluqları tərəfindən tətbiq edilən inzibati cərimələr həmin nümayəndəlik və konsulluqların yerləşdiyi xarici ölkənin valyutası ilə tutulur.".

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2010-cu il.

№ 1076-IIIQD

"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Monqolustan Baş Gömrük İdarəsi arasında kadrların peşəkar hazırlığı və ixtisasının artırılması sahəsində əməkdaşlıq haqqında Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Monqolustan Baş Gömrük İdarəsi arasında kadrların peşəkar hazırlığı və ixtisasının artırılması sahəsində əməkdaşlıq haqqında Protokol"u imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Aydın Əli oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Aydın Əli oğlu Əliyevə verilməsi barədə Monqolustan tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 oktyabr 2010-cu il

№ 1128

2010-cu il iyulun 15-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Portuqaliya Respublikasının Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələr haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2010-cu il iyulun 15-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Portuqaliya Respublikasının Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələr haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Portuqaliya Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 01 oktyabr 2010-cu il

№1129

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Portuqaliya Respublikasının Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələr haqqında Anlaşma Memorandumu

Bundan sonra "İmzalayan Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Portuqaliya Respublikasının Xarici İşlər Nazirliyi,

Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə və Helsinki Yekun Aktına uyğun olaraq suverenlik, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, bərabərlik, daxili işlərə qarışmama prinsiplərinə əsaslanaraq,

İki ölkə arasında mövcud olan dostluq münasibətlərinin və əməkdaşlığın inkişaf etdirilməsini və dərinləşdirilməsini arzu edərək,

Qarşılıqlı maraq kəsb edən digər regional və beynəlxalq məsələlərin ikitərəfli və digər aspektləri üzrə konstruktiv və sabit dialoqun qarşılıqlı anlaşma və daha yaxın əlaqələrin təşviqinə töhfə verəcəyinə əmin olaraq,

Aşağıdakılar barədə qərara gəlirlər:

Maddə 1

İmzalayan Tərəflər öz aralarında əməkdaşlığın genişləndirilməsi və dərinləşdirilməsi imkanlarını müzakirə etmək məqsədi ilə mütəmadi yüksək səviyyəli görüşlər keçirəcəklər.

Maddə 2

1. İmzalayan Tərəflərin keçirdikləri məsləhətləşmələr aşağıdakı sahələri əhatə edəcəkdir:

a) siyasi, hüquqi, iqtisadi, elmi, texniki, təhsil və mədəni məsələlər üzrə ikitərəfli münasibətlərin inkişafı;

b) bununla yanaşı hər iki dövlətin üzv olduqları beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı maraq kəsb edən məsələlər üzrə iki ölkənin mövqelərinin əlaqələndirilməsi və fikir mübadiləsi.

2. İmzalayan Tərəflər digər sahələr üzrə məsləhətləşmələrin aparılması haqqında qərar verə bilərlər.

Maddə 3

1. Məsləhətləşmələr hər il və ya zəruri olduqda daha tez-tez növbə ilə Bakı və ya Lissabonda keçirilə bilər.

2. Hər bir məsləhətləşmənin gündəliyi diplomatik kanallar vasitəsi ilə müəyyən ediləcəkdir.

Maddə 4

1. Əgər İmzalayan Tərəflər zəruri hesab edərlərsə, bu Memorandumda təsbit edilmiş əməkdaşlıq fəaliyyətlərinin müəyyən edilməsi və həyata keçirilməsi məqsədi ilə İşçi Qrupu yarada bilərlər.

2. İmzalayan Tərəflər ümumi maraq kəsb edən məsələlər üzrə xüsusi sahələrin müzakirə edilməsi məqsədi ilə işçi qrupları və ya ekspertlərin görüşlərini təşkil edə bilərlər.

Maddə 5

İmzalayan Tərəflərin qarşılıqlı razılığı ilə məsləhətləşmələrin nəticəsi ictimaiyyətə açıqlana bilər.

Maddə 6

Bu Memoranduma İmzalayan Tərəflərin qarşılıqlı yazılı razılığı ilə istənilən vaxt dəyişikliklər edilə bilər.

Maddə 7

1. Bu Memorandum imzalandığı tarixdən qüvvəyə minəcəkdir.

2. Bu Memorandum İmzalayan Tərəflərdən birinin onu ləğv etmək niyyəti barədə yazılı bildirişi digər İmzalayan Tərəfə verdiyi tarixdən sonra 30-cu gün qüvvədən düşəcəkdir.

Bu Anlaşma Memorandumu Bakı şəhərində, 15 iyul 2010-cu ildə iki əsl nüsxədə, Azərbaycan, portuqal və ingilis dillərində imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ ADINDAN

ELMAR MƏMMƏDYAROV
Xarici işlər naziri

PORTUQALİYA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ ADINDAN

LUİS AMADO
Xarici işlər naziri

Azərbaycan Respublikası və Mavritaniya İslam Respublikası arasında 2010-cu il iyulun 15-də Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və Mavritaniya İslam Respublikası arasında 2010-cu il iyulun 15-də Bakı şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Mavritaniya İslam Respublikasının Ticarət, Ənənəvi Sənaye və Turizm Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş;

1.2. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Mavritaniya İslam Respublikasının Kəndlərin İnkişafı Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.2-ci bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.2-ci bəndlərində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Mavritaniya İslam Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 01 oktyabr 2010-cu il

№1130

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Mavritaniya İslam Respublikasının Ticarət, Ənənəvi Sənaye və Turizm Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Mavritaniya İslam Respublikasının Ticarət, Ənənəvi Sənaye və Turizm Nazirliyi,

iki dövlət arasında turizm sahəsində əməkdaşlığı inkişaf etdirmək niyyətində olaraq,

onların müvafiq potensialların nəzərə alaraq, eləcə də turizm sahəsində fəal əməkdaşlığı genişləndirmək əzmində olaraq,

turizm sektorunda davamlı inkişafa zəmanət vermək üçün Tərəflərin təbii, ətraf mühit və mədəni resursları qoruyub saxlamaqda istənilən tədbiri həyata keçirmək arzusunu nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər hər iki ölkə arasında tarix və mədəniyyətin qarşılıqlı öyrənilməsinin səviyyəsini qaldırmaq məqsədilə turizm əlaqələrinin inkişafına və gücləndirilməsinə xüsusi diqqət göstərilməsi barədə razılığa gəlirlər.

Tərəflər hər iki ölkənin turizmlə məşğul olan müəssisə, təşkilat, təsisat və orqanları arasında əməkdaşlığı dəstəkləyəcəklər.

Maddə 2

Tərəflər turizm sektorunun inkişafı üçün əməkdaşlığı genişləndirməyə səy göstərəcək və dövlətlərinin qanunvericiliklərinə uyğun olaraq turizm investisiyalarının inkişafı və müvafiq ərazilərin daha yaxşı qorunması və idarə edilməsi məqsədilə təlim və texnoloji tədqiqat sahələrində əməkdaşlıq edərək turizmi və turizm idarəçiliyini təşviq etmək üçün təcrübə mübadiləsinə şərait yaradacaqlar.

Maddə 3

Tərəflər aşağıdakı tədbirlərin həyata keçirilməsi üçün lazımi şərait yaradacaqlar:

- turizmin təşviq edilməsində birgə fəaliyyəti təmin etmək üçün imkanların araşdırılması və müvafiq təcrübə mübadiləsi məqsədilə turizmin təşviqi və əyləncə sahəsində texniki missiyaların həyata keçirilməsi;
- nəşrlər və turizm təşviqi materiallarının mübadiləsi;
- hər iki ölkədə turizm məqsədləri üçün maddi və qeyri maddi mədəni irsin qorunması üzrə əməkdaşlığın genişləndirilməsi;
- turizm sahəsində, xüsusən ixtisasartırma sahəsində milli qanunvericiliyin öyrənilməsi;
- eko-turizm sahəsində təcrübə mübadiləsi və əməkdaşlıq.

Maddə 4

Tərəflər peşəkar təlim sahəsində əməkdaşlığı dəstəkləyəcək və turizm sektorunda təhsil proqramları haqqında informasiya mübadiləsinə yardım edəcəklər.

Maddə 5

Tərəflər turizm sektorunda mehmanxana idarəçiliyi və turist səfərlərinin təşkilinə dair təhsil proqramlarının həyata keçirilməsinə səy göstərəcəklər.

Maddə 6

Tərəflər turizm sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın inkişafına səy göstərəcəklər.

Maddə 7

Bu Sazişin nəticəsi olan əməkdaşlığın bütün formaları Tərəflərin milli qanunvericiliyinə uyğun olaraq həyata keçiriləcəkdir.

Maddə 8

Tərəflər hazırkı Sazişin icrasını təmin etmək, onların səlahiyyətli orqanları arasında əməkdaşlığı əlaqələndirmək və Saziş çərçivəsində həyata keçirilən layihələrə nəzarət etmək üçün İşçi Qrupu yaradırlar. İşçi Qrupu Tərəflərdən birinin müraciətinə əsasən müvafiq məsələlərin müzakirə edilməsi məqsədilə toplaşır.

Maddə 9

Bu Sazişə 10-cu maddədə göstərilən qaydada qüvvəyə minən və ayrıca protokollarla

rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 10

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında Tərəflərin diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minəcəkdir.

Bu Saziş beş il müddətinə bağlanılır və Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə ən az altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə digər Tərəfə diplomatik kanallar vasitəsilə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beşillik müddətə uzadılacaqdır.

Bakı şəhərində 15 iyul 2010-cu il tarixində Azərbaycan və ərəb dillərində iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ ADINDAN	MAVRİTANİYA İSLAM RESPUBLİKASININ TİCARƏT, ƏNƏNƏVİ SƏNAYE VƏ TURİZM NAZİRLİYİ ADINDAN
ELMAR MƏMMƏDYAROV *Xarici işlər naziri*	*NAHA MİNT HAMDİ ULD MUKNASS* *Xarici işlər və əməkdaşlıq naziri*

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Mavritaniya İslam Respublikasının Kəndlərin İnkişafı Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Mavritaniya İslam Respublikasının Kəndlərin İnkişafı Nazirliyi,

Azərbaycan-Mavritaniya əlaqələrini inkişaf etdirmək istəyini rəhbər tutaraq,

bərabərlik və qarşılıqlı faydalılıq prinsipləri əsasında kənd təsərrüfatı sahəsində iqtisadi və elmi-texniki əlaqələrin inkişaf etdirilməsi istiqamətində səy göstərərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər öz səlahiyyətləri və milli qanunvericilik və iştirak etdikləri digər beynəlxalq müqavilələr çərçivəsində, hər iki ölkənin kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsində fəaliyyət göstərən təsərrüfat subyektləri, müəssisələr və təşkilatlar arasında əlaqələrin yaradılmasına kömək edəcəklər.

Maddə 2

Tərəflər səmərəli əməkdaşlığa nail olmaq üçün aşağıdakı istiqamətlərdə əməkdaşlığı dəstəkləyəcək və inkişaf etdirəcəklər:

a) Heyvan cinslərinin və bitkilərin, o cümlədən pambıq, düyü, arpa sortlarının qarşılıqlı mübadiləsi və sınağı;

b) Heyvandarlıqda damazlıq və seleksiya işlərinin aparılması;

c) Bitkiçilik və heyvandarlıqda genetik və bioloji materiallar mübadiləsi;

d) Torpaqların münbitliyinin bərpası, artırılması və mühafizəsi, mütərəqqi suvarma texnologiyalarının və aqrotexniki tədbirlərin tətbiqi;

e) Aqrar yönümlü elmi-tədqiqat müəssisələrinin əməkdaşlıq əlaqələrinin yaradılması, aqrar informasiya və təcrübə mübadiləsinin təşkili;

f) Şoranlaşma, eroziya, səhralaşma və quraqlıq problemlərinin idarə olunması sahəsində təcrübə mübadiləsi;

g) Kənd təsərrüfatının müxtəlif sahələrinə həsr edilmiş elmi-texniki proqramların, simpozium, seminar, konfrans, sərgi və yarmarkaların təşkili;

h) Beynəlxalq standartlar, texnologiyalar və elmi-texniki yeniliklər barədə informasiya mübadiləsi;

i) Aqrar sahənin prioritet problemlərinin həlli üçün layihələrin hazırlanması və həyata keçirilməsi.

Maddə 3

Tərəflər bu Sazişdən irəli gələn problemlərin həlli üçün məsləhətləşmələr keçirəcəklər. Məsləhətləşmələrin keçirildiyi yer, tarix, gündəlik qarşılıqlı razılıq əsasında müəyyənləşdiriləcək, səfərlə bağlı xərclər göndərən tərəfin hesabına ödəniləcəkdir.

Məsləhətləşmələr nəticəsində razılıq əldə edilməzsə, mübahisəli məsələlər diplomatik kanallar vasitəsilə həll olunacaqdır.

Maddə 4

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə dəyişiklik və əlavələr edilə bilər. Bu dəyişiklik və əlavələr Sazişin ayrılmaz tərkib hissəsi olan ayn-ayrı Protokollarla rəsmiləşdiriləcək və Sazişin 5-ci maddəsinə uyğun olaraq qüvvəyə minəcəkdir.

Maddə 5

Bu Saziş Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetirmələri barədə diplomatik kanallarla sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

Tərəflərdən biri bu müddətin başa çatmasına ən azı altı ay qalmış onun qüvvəsini ləğv etmək niyyətini digər Tərəfə diplomatik kanallarla yazılı şəkildə xəbərdar etmədiyi təqdirdə, bu Sazişin qüvvəsi növbəti beşillik müddətə uzadılır.

Bakı şəhərində 15 iyul 2010-cu ildə, Azərbaycan və ərəb dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ ADINDAN	MAVRİTANİYA İSLAM RESPUBLİKASININ KƏNDLƏRİN İNKİŞAFI NAZİRLİYİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*İBRAHİM ULD MÜBARƏK ULD*
Xarici işlər naziri	*MƏHƏMMƏD MUXTAR*
	Kəndlərin inkişafı naziri

2010-cu il iyulun 13-də Ankara şəhərində imzalanmış "Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi və Türkiyə Respublikasının Kapital Bazarı Şurası arasında əməkdaşlıq və informasiya mübadiləsi haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2010-cu il iyulun 13-də Ankara şəhərində imzalanmış "Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi və Türkiyə Respublikasının Kapital Bazan Şurası arasında əməkdaşlıq və informasiya mübadiləsi haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Türkiyə Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 oktyabr 2010-cu il

№ 1131

Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi və Türkiyə Respublikasının Kapital Bazarı Şurası arasında əməkdaşlıq və informasiya mübadiləsi haqqında Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi və Türkiyə Respublikasının Kapital Bazarı Şurası, maliyyə bazarlarında beynəlxalq fəallığın inkişafını və bununla əlaqədar müvafiq orqanlar arasında qarşılıqlı əməkdaşlığın zəruriliyini nəzərə alaraq,

aşağıdakılar barəsində razılığa gəldilər:

ANLAYIŞLAR

1. Bu Anlaşma Memorandumunda (Memorandum) aşağıdakı anlayışlardan istifadə edilir:

"sorğu alan Tərəf" - bu Memorandumun fəaliyyət dairəsinə müvafiq olaraq sorğunun ünvanlandığı Tərəf;

"sorğu edən Tərəf" - bu Memorandumun fəaliyyət dairəsinə müvafiq olaraq sorğu edən Tərəf.

MƏQSƏDLƏR

2. Bu Memorandumun məqsədi əməkdaşlığın çərçivəsini, qarşılıqlı anlaşmanı və ikitə-

rəfli əlaqələri genişləndirməklə, texniki və tənzimləyici informasiya mübadiləsini gücləndirməklə, habelə tədqiqat sahəsində yardımı təmin etməklə, tənzimlənən bazarların inteqrasiyasını təşviq etməkdən və investorların hüquqlarının müdafiəsindən ibarətdir.

3. Bu Memorandum Azərbaycan Respublikasının və Türkiyə Respublikasının milli qanunvericiliyinə uyğun olaraq, Tərəflər arasında onların səlahiyyəti çərçivəsində əməkdaşlığın əsasını təşkil edir.

4. Bu Memorandumun müddəalarının tətbiqi Tərəflərin dövlətlərinin qanunları, qaydaları və tərəfdar çıxdıqları beynəlxalq müqavilələr çərçivəsində, Tərəflərin milli maraqlarına zidd olmayaraq həyata keçirilməlidir.

5. Tərəflər, Azərbaycan Respublikasının və Türkiyə Respublikasının milli qanunvericiliyinə müvafiq olaraq, digər Tərəfi onun yurisdiksiyasına aid olan milli qanunvericiliyin pozulmasına və ya pozula biləcəyinə dair şübhə yaradan məlumatlarla təmin etmək üçün lazımi səylər göstərəcəklər.

6. Tərəflər qarşılıqlı olaraq öz milli qanunvericiliyi çərçivəsində digər Tərəfi məlumat sorğusu vasitəsilə onun yurisdiksiyasına aid olan qanunvericiliyin pozulması və pozula biləcəyi mövzusuna aid olmayan məlumatlarla da təmin etmək məqsədilə lazımi səylər göstərəcəklər. Hər bir halda, bu kimi sorğular sorğu edən Tərəfin öz milli qanunvericiliyindən irəli gələn vəzifələrinin icrası və açıq, ədalətli və səmərəli bazarların inkişafı və qorunmasının təmin edilməsi məqsədilə həyata keçiriləcəkdir.

7. Tərəflər inanırlar ki, baş verən və ya ehtimal olunan böhranın qarşısının alınması üçün məlumatın əsas məğzinin təqdim edilməsi çox vacib bir amildir ki, bu da hər bir Tərəfin öz milli qanunvericiliyi və təcrübəsi çərçivəsində digər Tərəfin yurisdiksiyasında olan tənzimlənən bazarlara ziyan vurulmasına yol verməmək məqsədilə çevik reaksiya verməsini və digər Tərəfi bu haqda xəbərdar etməsini nəzərdə tutur.

QARŞILIQLI YARDIM

Əhatə dairəsi

8. Bu Memorandumun fəaliyyət dairəsinə müvafiq olaraq, Tərəflər öz milli qanunvericiliyi çərçivəsində qarşılıqlı yardımı həyata keçirəcəklər. Belə yardım tənzimlənən bazarlarda milli qanunvericiliyin tətbiqini asanlaşdırmağa xidmət edəcəkdir.

9. Tərəflər, qiymətli kağızlar bazarlarında tədqiqatların aparılması və onların inteqrasiyasının təmin edilməsi, qiymətli kağızlar bazarlarının iştirakçıları arasında münasibətlərin möhkəmləndirilməsi, habelə bir Tərəfin peşəkar iştirakçılarının, emitentlərinin və investorlarının digər Tərəfin qiymətli kağızlar bazarında iştirakının təmin edilməsi məqsədilə qarşılıqlı əməkdaşlıq həyata keçirəcəklər.

10. Tərəflər müvafiq funksiyalarının icrasına yardım məqsədilə, sorğulara cavab olaraq aşağıdakı fəaliyyət sahələri üzrə qarşılıqlı əməkdaşlığı və informasiya mübadiləsini təmin etməyə razılaşırlar:

(a) insayder ticarətinin, bazar manipulyasiyasının və qiymətli kağızlarla digər qeyri-qanuni əməllərin aşkarlanması;

(b) qiymətli kağızların buraxılışına, yerləşdirilməsinə, idarə edilməsinə, əqdlərin

bağlanmasına və maliyyə məsləhətləri xidmətlərinin göstərilməsinə dair milli qanunvericiliyə riayət olunmasına nəzarət;

(c) yuxanda əks olunan sahələrdə biznesin aparılmasına səlahiyyətli olan fiziki və hüquqi şəxslərin peşəkarlıq səviyyələrinin uyğunluğu və bu biznesdə yüksək standartların, şəffaflığın təşviq edilməsi;

(ç) qiymətli kağızlar emitentlərinin və ticarət iştirakçılarının investorlar üçün zəruri olan məlumatların tam və dürüst açıqlanması vəzifələri;

(d) şirkətlərin qiymətli kağızlarına dair məlumatların açıqlanması;

(e) Tərəflərin razılaşdırdığı digər məsələlər.

Sorğular

11. Sorğular yazılı şəkildə ingilis dilində tərtib edilməli və Tərəflərlə məktub mübadiləsi vasitəsilə müvəkkil edilmiş sorğu alan Tərəfin əlaqələndirici şəxsinə ünvanlanmalıdır. Təcili yardım sorğusu və bu sorğuya cavab 10 (on) iş günü ərzində bu Memorandumda göstərilən qaydada təsdiq olunmaqla, qısa formada və məktub mübadiləsindən qeyri vasitələrlə həyata keçirilə bilər.

12. Yardımın asanlaşdırılması məqsədilə, sorğu edən Tərəf sorğuda aşağıdakıları əks etdirməlidir:

(a) sorğu edilən məlumat (o cümlədən şəxslərin xüsusatları və suallar daxil edilməklə);

(b) informasiyanın sorğu edilməsinin məqsədləri (pozulmuş və ya pozulması ehtimal olunan milli qanunvericiliyin göstərilməsi ilə);

(c) sorğuya səbəb olmuş əməlin və ya ehtimal olunan əməlin təsviri;

(ç) sorğu edilən məlumatlara malik olan və ya malik olması ehtimal olunan şəxslərin və həmin məlumatların əldə olunmasının mənbələri;

(d) müvafiq milli qanunvericiliyin sorğu edən Tərəfin tənzimləyici funksiyaları ilə əlaqəsi;

sorğu edilən məlumatın müvafiq milli qanunvericiliyə uyğunluğu;

(ə) məlumatın zəruri halda kimə açıqlanmasının mümkünlüyü və bunun səbəbləri;

(f) sorğunun təciliyi və həmin yardımın təqdim edilmə müddəti.

13. Bu Memorandum, Tərəflərin öz dövlətlərində olan prosedurlara əməl etməklə, şəxslərdən könüllü əsaslarla məlumatın alınması imkanlarını məhdudlaşdırmır. Məlumatı könüllü əsaslarla şəxslərdən əldə etmiş Tərəf, bu haqda digər Tərəfi təfsilatı ilə xəbərdar etməlidir.

14. Tərəflər, öz yurisdiksiyaları daxilində, habelə hüquq pozuntusu sayılmayan məsələlərə dair də yardımın göstərilməsi barədə razılaşırlar.

15. Məlumatların verilməsini gecikdirməmək məqsədilə, sorğu alan Tərəf məlumatları topladıqca, onları hissə-hissə ötürəcək və bu prosedur üzrə məsləhətləşmələr aparacaqdır.

16. Sorğu edən Tərəf təqdim olunan məlumatlarla qane olmadığı təqdirdə, o, dəqiqləşdirilməsi zəruri olan məlumatı qeyd etməklə, əlavə məlumatı yenidən sorğu edə bilər.

17. Bu Memorandum üzrə sorğu edilən məlumatların onun müddəalarına müvafiqliyini müəyyən etmək məqsədilə, sorğu alan Tərəf hər bir sorğu üzrə məlumatın təqdim edilməsi imkanlarını nəzərdən keçirəcəkdir. Sorğu tam həcmdə icra oluna bilmədiyi təqdirdə, sorğu alan Tərəf digər müvafiq məlumatların və ya yardımın təqdim edilməsi mümkünlüyünü nəzərdən keçirəcəkdir.

18. Sorğunun icrası və ya icradan imtina edilməsi qərarını vermək üçün sorğu alan Tərəf aşağıdakıları nəzərə almalıdır:

(a) sorğu alan Tərəfin dövlətinin milli qanunvericiliyi ilə müəyyən edilmiş məsələləri;

(b) sorğu edən Tərəfin dövləti tərəfindən eyni yardımın göstərilməsinin mümkün olub-olmamasını;

(c) sorğunun sorğu edən Tərəfin tanınmayan yurisdiksiyasına aid olub-olmamasını;

(ç) sorğunun milli maraqlara zidd olub-olmamasını;

(d) informasiya mübadiləsinin sorğu alan Tərəfin dövlətinin suverenliyinə, təhlükəsizliyinə və ya dövlət maraqlarına mənfi təsir göstərə bilib-bilməyəcəyini;

(e) həmin faktlar üzrə və həmin şəxslərə qarşı cinayət icraatının aparılması və ya bu şəxslərin səlahiyyətli orqanlar tərəfindən müvafiq məsuliyyətə cəlb olunub-olunmamasını.

Sorğu alan Tərəf sorğunun bu Memorandumun əhatə dairəsinə müvafiq olmadığını hesab etdiyi təqdirdə, bu maddənin müddəalarını nəzərə alaraq, sorğunun icrasından imtina edilməsi səbəblərini sorğu edən Tərəfə dərhal açıqlayacaqdır.

19. Bu Memorandumun əhatə dairəsinə aid olan sorğuya cavab olaraq təqdim olunmuş hər bir sənəd və ya digər materiallar, habelə onların surətləri sorğu alan Tərəfin müraciəti ilə ona qaytarılmalıdır.

20. Tərəflər üçün maraqlı ola bilən məlumatların digər Tərəfə təqdim edilməsi üçün Azərbaycan Respublikasının və Türkiyə Respublikasının milli qanunvericiliyi çərçivəsində Tərəflər zəruri tədbirlər görəcəklər.

21. Bu Memorandum üzrə sorğunun icrası sorğu alan Tərəf üçün əlavə xərclər yaratdığı təqdirdə, Tərəflər sorğunun icrasınadək öz aralarında həmin xərclərin bölüşdürülməsi barədə razılaşacaqlar.

MƏLUMATIN MƏXFİLİYİ VƏ İSTİFADƏ QAYDALARI

22. Bu Memorandum üzrə təqdim olunacaq məlumat və yardım Tərəflərin bu Memorandumun əhatə dairəsinə aid olan məsələlərlə bağlı öz tənzimləyici funksiyalarını həyata keçirmələrində bir-birinə kömək etmək məqsədi daşıyacaqdır.

Tərəflər öz milli qanunvericiliyi çərçivəsində aşağıdakılar üzrə məxfiliyi təmin edəcəklər:

(a) bu Memorandum üzrə hər hansı məlumatlara dair sorğular;

(b) onların əməliyyatlarından irəli gələn bütün məsələlər;

(c) bu Memorandum üzrə ötürülən bütün məlumatlar.

23. Göstərilən yardım və məlumatlar, onları təqdim edən Tərəfin yazılı razılığı olmadan üçüncü tərəflərə açıqlanmayacaqdır.

24. Bu Memorandum üzrə ötürülən məlumatlardan yalnız sorğuda göstərilən məqsədlər üçün istifadə oluna bilər və həmin məlumatlar aşağıdakılardan ibarət olmalıdır:

(a) sorğuda göstərilən milli qanunvericiliyə riayət edilməsinin və ya onun məcburiliyinin təmin edilməsi;

(b) aşağıdakılara dair təhqiqatların aparılması və ya buna yardım göstərilməsi və yaxud aşağıdakıların həyata keçirilməsi və ya buna yardımın göstərilməsi:

(i) bazara nəzarət;

(ii) sorğuda göstərilən milli qanunvericiliyin pozulması haqqında ümumi ittihamlara dair təhqiqatın aparılması;

(iii) 2-ci bəndə aid olan məsələlərə dair mülki və inzibati icraatlar;

(c) cinayət icraatlarına dair səlahiyyətli orqanlara arayışların tərtib və təqdim edilməsi.

25. Sorğu edən Tərəf əldə olunan məlumatlardan yuxarıda qeyd olunan məqsədlərdən fərqli olan hər hansı digər məqsədlər üçün istifadə etmək niyyətində olduqda, o, əvvəlcədən sorğu alan Tərəfin yazılı razılığını əldə etməlidir. Sorğu alan Tərəf məlumatların digər məqsədlər üçün istifadəsinə müəyyən şərtlər əsasında razılıq verə bilər. Sorğu alan Tərəf məlumatların istifadəsinə etirazını bildirərsə, Tərəflər etirazın səbəbləri və məlumatların istifadəsini mümkün edən hallar və şərtlər barəsində məsləhətləşmələr aparacaqlar.

26. Bu Memorandum Azərbaycan Respublikasının və Türkiyə Respublikasının milli qanunvericiliyi üzrə öhdəliklərinin icrası məqsədilə, Tərəflərə məxfi məlumatların hüquq mühafizə və ya digər tənzimləyici orqanlara verilməsini qadağan etmir. Bu halda, sorğu edən Tərəf sorğu alan Tərəfi məlumatlandırmalı və bu Memorandumda nəzərdə tutulan məxfilik tələblərinin müvafiq orqan tərəfindən yerinə yetiriləcəyi ilə bağlı öhdəlik götürməlidir.

MƏSLƏHƏTLƏŞMƏLƏR

27. Tərəflər bu Memorandumun icrasını daimi nəzarət altında saxlayacaq və onun icrasının təkmilləşdirilməsi məqsədilə və irəli sürülə bilən hər hansı məsələlərin həllinə dair məsləhətləşmələr aparacaqlar. Xüsusilə də, məsləhətləşmələr Tərəflərdən birinin bu Memorandum üzrə digər Tərəfin sorğusuna və ya təklifinə etiraz bildirdiyi və ya icrasından imtina etdiyi təqdirdə aparılacaqdır.

28. Bu Memorandumun 8-ci, 9-cu və 10-cu bəndlərinə müvafiq olaraq, Tərəflər hər zaman öz mülahizələri daxilində sorğuya və ya təqdim edilən hər hansı məlumatlara dair qeyri-rəsmi məsləhətləşmələr apara bilərlər. Aydınlaşdırılması zəruri olan məsələlər üzrə əlavə məlumatlar sorğu edilə bilər.

29. Bu Memorandumla nəzərdə tutulan əməkdaşlığı inkişaf etdirmək məqsədilə, Tərəf-

lər Memorandumun tətbiqinə dair müntəzəm olaraq məsləhətləşmələr və müzakirələr aparacaqlar.

30. Qiymətli kağızlar və digər investisiya alətləri bazarlarına dair tənzimləyici bazanın inkişafının sürətləndirilməsi və ikitərəfli təcrübə mübadiləsinin genişləndirilməsi məqsədilə Tərəflər əməkdaşlar arasında təlim və texniki yardımların keçirilməsini, habelə onlar arasında təcrübə mübadiləsinin genişləndirilməsini təmin edəcəklər.

ƏLAQƏ QAYDALARI

31. Tərəflər, digər qayda nəzərdə tutulmadıqda, öz aralarında bütün əlaqələri məktublar mübadiləsi yolu ilə müvəkkil edilmiş əlaqələndirici şəxslər vasitəsilə həyata keçirəcəklər.

ƏLAVƏ VƏ DƏYİŞİKLİKLƏR

32. Memorandumun tətbiqinə dair milli qanunvericilikdə və ya onun icra təcrübəsində əlavələr və mühüm dəyişikliklər baş verdiyi təqdirdə, Tərəflərin qarşılıqlı razılığı ilə bu Memoranduma əlavələr və dəyişikliklər edilə bilər. Belə əlavələr və dəyişikliklər bu Memorandumun ayrılmaz hissəsi olacaq və bu Memorandumun 33-cü bəndində nəzərdə tutulmuş qaydada qüvvəyə minəcək ayrıca protokollar formasında rəsmiləşdiriləcəkdir.

QÜVVƏYƏMİNMƏ VƏ XİTAMVERMƏ

33. Bu Memorandum imzalandığı gündən qüvvəyə minir və qeyri-müəyyən müddətə bağlanılır. Tərəflər diplomatik kanallar vasitəsilə yazılı bildiriş təqdim etməklə bu Memorandumun qüvvəsinə xitam verə bilər. Memorandum belə bildirişin alındığı tarixdən iki ay sonra qüvvədən düşmüş hesab edilir. Tərəflərdən biri belə bir bildirişi etdikdə, bu Memorandumun qüvvədən-düşmə tarixinədək təqdim edilən bütün yardım sorğuları icra olunacaqdır. Bu Memorandumda nəzərdə tutulan məxfiliyə dair müddəalara Memorandumun qüvvəsinə xitam verildikdən sonra da əməl olunacaqdır.

34. Bu Memorandum Ankara şəhərində 2010-cu il iyulun 13-də, hər biri Azərbaycan, türk və ingilis dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Memorandumun hər hansı mətninin təfsiri ilə bağlı fikir ayrılığı yarandıqda, ingilis dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ QİYMƏTLİ KAĞIZLAR ÜZRƏ DÖVLƏT KOMİTƏSİ ADINDAN	TÜRKİYƏ RESPUBLİKASININ KAPİTAL BAZARI ŞURASI ADINDAN
(imza)	*(imza)*

2010-cu il sentyabrın 1-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Avstriya Respublikası Federal Maliyyə Nazirliyi arasında gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2010-cu il sentyabrın 1-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Avstriya Respublikası Federal Maliyyə Nazirliyi arasında

gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Avstriya Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri 4 oktyabr 2010-cu il

№ 1135

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Avstriya Respublikası Federal Maliyyə Nazirliyi arasında gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu

Bundan sonra Razılığa gələn Tərəflər adlandırılan Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Avstriya Respublikası Federal Maliyyə Nazirliyi,

22 aprel 1996-cı il tarixdə Lüksemburqda imzalanmış bir tərəfdən Avropa İttifaqı və onun Üzvü olan Dövlətlər, digər tərəfdən Azərbaycan Respublikası arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinin gömrük məsələlərində səlahiyyətli orqanların arasında qarşılıqlı yardıma dair Protokolunun və 19 noyabr 2002-ci il tarixdə Vyana şəhərində imzalanmış Azərbaycan Respublikası Hökuməti və Avstriya Respublikası Hökuməti arasında gömrük məsələləri üzrə qarşılıqlı yardım və əməkdaşlıq haqqında Sazişin həyata keçirilməsi məqsədilə, həmçinin yuxarıda adı çəkilən Protokolda qeyd olunan əməkdaşlığı nəzərə alaraq;

Gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində qarşılıqlı bilik və təcrübə mübadiləsi vasitəsilə iki gömrük orqanı arasında əməkdaşlığı inkişaf etdirmək və gücləndirməyin əhəmiyyətini nəzərə alaraq;

Narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlərə qarşı mübarizənin hər iki ölkənin gömrük orqanlarının qarşısında duran əsas vəzifələrdən biri olduğunu və bu sahədə əməkdaşlığın vacibliyini dərk edərək;

Hər iki ölkənin iqtisadi təhlükəsizliyini və maraqlarını müdafiə etmək üçün gömrük hüquqpozmalarının qarşısının alınması, araşdırılması və aradan qaldırılması məqsədilə öz səlahiyyətləri çərçivəsində birgə tədbirlərin görülməsinə ehtiyac olduğunu anlayaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Razılığa gələn Tərəflər öz dövlətlərində gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində qanunvericiliyə və digər normativ-hüquqi aktlara edilən əlavə və dəyişikliklər barədə bir-birini məlumatlandıracaqdır.

Maddə 2

Razılığa gələn Tərəflər öz təşəbbüsləri və ya sorğu əsasında, zərurət yarandıqda, onların dövlətlərinin digər səlahiyyətli orqanları ilə məsləhətləşmələr və koordinasiya əsasında milli qanunvericiliklərinə uyğun olaraq və öz səlahiyyətləri çərçivəsində aşağıdakılar barədə bir-birini bütün müvafiq məlumatlarla təmin edəcəkdir:

a) narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərə qarşı mübarizənin yeni üsulları;

b) narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərə qarşı mübarizə aparılmasında məsul olan gömrük idarələrinin strukturu;

c) narkotik vasitələrin yeni növləri;

d) narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarının qaçaqmalçılığı üçün istifadə olunan yeni marşrutlar;

e) narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarının gizlədilməsi üçün istifadə olunan üsullar;

f) odlu silahların, döyüş sursatlarının, partlayıcı maddələrin və təhlükəli materialların qanunsuz dövriyyəsi;

g) hər iki Razılığa gələn Tərəfin dövlətinin qoşulduğu beynəlxalq müqavilələrə müvafiq olaraq xüsusi nəzarətdə olan və yayılmamağa dair öhdəliklərdən irəli gələn malların hərəkəti;

h) mühüm tarixi, mədəni və ya arxeoloji əhəmiyyətə malik əşyaların qanunsuz dövriyyəsi;

i) əqli və sənaye mülkiyyətinin qorunması;

j) gömrük hüquqpozmaları sahəsində birgə maraq doğuran digər məsələlər.

Maddə 3

Razılığa gələn Tərəflər öz aralarındakı əməkdaşlığı gücləndirmək məqsədilə bu Anlaşma Memorandumundan irəli gələn müəyyən tapşırıqların yerinə yetirilməsi üçün təyin etdikləri müvafiq şəxslər barədə bir-birinə məlumat verəcəkdir.

Maddə 4

Azərbaycan Respublikasının gömrük sisteminin Avropa İttifaqının gömrük sisteminə uyğunlaşdırılmasına yardım məqsədilə Avstriya Respublikası Federal Maliyyə Nazirliyi öz təcrübəsini mübadilə edəcəkdir.

Maddə 5

Razılığa gələn Tərəflərin rəhbərləri və ya ekspertləri qarşılıqlı şəkildə razılaşdırılan tarixdə bu Anlaşma Memorandumundan irəli gələn məsələləri müzakirə etmək məqsədilə görüşəcəkdir.

Maddə 6

Razılığa gələn Tərəflərin yazılı razılığı ilə bu Anlaşma Memorandumuna əlavə və dəyişikliklər edilə bilər. Belə əlavə və dəyişikliklər bu Anlaşma Memorandumunun ayrılmaz hissəsi olan əlavə Protokollarla rəsmiləşdiriləcək və Anlaşma Memorandumunun 7-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minəcəkdir.

Maddə 7

1. Bu Anlaşma Memorandumu onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişin alındığı tarixdən 60 (altmış) gün sonra qüvvəyə minəcəkdir.

2. Bu Anlaşma Memorandumu qeyri-müəyyən müddətə bağlanılır. Hər bir Razılığa gələn Tərəf bu Anlaşma Memorandumunu ləğv etmək niyyəti barədə digər Razılığa gələn Tərəfə diplomatik kanallarla göndərdiyi yazılı bildiriş vasitəsilə onu ləğv edə bilər. Bu Anlaşma Memorandumu belə bildirişin alındığı tarixdən 3 (üç) ay sonra qüvvədən düşür.

1 sentyabr 2010-cu il tarixdə Bakı şəhərində Azərbaycan, alman və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır və bütün mətnlər bərabər autentikdir. Anlaşma Memorandumunun təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT GÖMRÜK KOMİTƏSİ ADINDAN	AVSTRİYA RESPUBLİKASININ FEDERAL MALİYYƏ NAZİRLİYİ ADINDAN
AYDIN ƏLİYEV	*RAYHOLD LOPATKA*
Komitəsinin sədri	*Gömrük məsələləri üzrə dövlət katibi*

"Azərbaycan Respublikası Hökuməti və Kuba Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Kuba Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri Əli Məmməd oğlu Abbasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri

Əli Məmməd oğlu Abbasova verilməsi barədə Kuba Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 oktyabr 2010-cu il

№ 1137

"Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Meksika Birləşmiş Ştatlarının Rabitə və Nəqliyyat Katibliyi arasında telekommunikasiya və informasiya-kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Meksika Birləşmiş Ştatlarının Rabitə və Nəqliyyat Katibliyi arasında telekommunikasiya və informasiya-kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri Əli Məmməd oğlu Abbasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri Əli Məmməd oğlu Abbasova verilməsi barədə Meksika Birləşmiş Ştatları tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 oktyabr 2010-cu il

№ 1138

"Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi və Koreya Respublikası Strategiya və Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi və Koreya Respublikası Strategiya və Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Əvəz oğlu Həsənova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Əvəz oğlu Həsənova verilməsi barədə Koreya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 oktyabr 2010-cu il

№ 1139

E.H.Zeynalovun Azərbaycan Respublikasının Bolqarıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Elman Hidayət oğlu Zeynalov Azərbaycan Respublikasının Bolqarıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 oktyabr 2010-cu il

№ 1140

E.Z.Kərimovun Azərbaycan Respublikasının İtaliya Respublikasında, San Marino Respublikasında, Malta Respublikasında fövqəladə və səlahiyyətli səfiri və Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Ümumdünya Ərzaq Proqramı, Kənd Təsərrüfatı üzrə İnkişaf Fondu yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Emil Zülfüqar oğlu Kərimov Azərbaycan Respublikasının İtaliya Respublikasında, San Marino Respublikasında, Malta Respublikasında fövqəladə və səlahiyyətli səfiri və Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Ümumdünya Ərzaq Proqramı, Kənd Təsərrüfatı üzrə İnkişaf Fondu yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılsın.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 oktyabr 2010-cu il

№ 1141

E.Z.Kərimovun Azərbaycan Respublikasının Bolqarıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Emil Zülfüqar oğlu Kərimov Azərbaycan Respublikasının Bolqarıstan Respublikasında

fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 oktyabr 2010-cu il

№ 1142

T.N.Zülfüqarovun Azərbaycan Respublikasının Latviya Respublikasında və iqamətgahı Riqa şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Estoniya Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifələrindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Tofiq Nadir oğlu Zülfüqarov Azərbaycan Respublikasının Latviya Respublikasında və iqamətgahı Riqa şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Estoniya Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifələrindən geri çağırılsın.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 oktyabr 2010-cu il

№ 1143

T.N.Zülfüqarovun Azərbaycan Respublikasının Estoniya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Tofiq Nadir oğlu Zülfüqarov Azərbaycan Respublikasının Estoniya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 oktyabr 2010-cu il

№ 1144

E.H.Zeynalovun Azərbaycan Respublikasının Latviya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Elman Hidayət oğlu Zeynalov Azərbaycan Respublikasının Latviya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 oktyabr 2010-cu il

№ 1145

H.N.Nəcəfova birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.2-ci maddəsini rəhbər tutaraq qərara alıram:

Hüseyn Nizami oğlu Nəcəfova birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi diplomatik rütbəsi verilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 oktyabr 2010-cu il

№ 1146

H.N.Nəcəfovun Gürcüstanın Batumi şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Hüseyn Nizami oğlu Nəcəfov Gürcüstanın Batumi şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 oktyabr 2010-cu il

№ 1147

Birləşmiş Millətlər Təşkilatının "Əlillərin hüquqları haqqında" Konvensiyasına uyğun olaraq Azərbaycan Respublikasının qəbul etdiyi öhdəliklərin yerinə yetirilməsi ilə bağlı ilk hesabatın hazırlanması və təqdim olunması barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Birləşmiş Millətlər Təşkilatının "Əlillərin hüquqları haqqında" Konvensiyasına Azərbaycan Respublikasının qoşulduğunu nəzərə alaraq və həmin Konvensiyanın müddəalarına uyğun olaraq Azərbaycan Respublikasının öz öhdəliklərini yerinə yetirməsi ilə bağlı həyata keçirdiyi tədbirlər barədə ilk hesabatın hazırlanmasını və Birləşmiş Millət-

lər Təşkilatının Əlillərin hüquqları üzrə Komitəsinə təqdim olunmasını təmin etmək məqsədi ilə qərara alıram:

1. Birləşmiş Millətlər Təşkilatının "Əlillərin hüquqları haqqında" Konvensiyasına uyğun olaraq Azərbaycan Respublikasının qəbul etdiyi öhdəliklərin yerinə yetirilməsi ilə bağlı ilk hesabatın hazırlanması üçün aşağıdakı tərkibdə işçi qrup yaradılsın:

İşçi qrupun rəhbəri

Fizuli Ələkbərov - Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri

İşçi qrupun üzvləri:

İlqar Fəti-zadə - Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini

Əsgər Ələkbərov - Azərbaycan Respublikası daxili işlər nazirinin müavini

Sevinc Həsənova - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini

Faiq Tağı-zadə - Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini

Elsevər Ağayev - Azərbaycan Respublikası səhiyyə nazirinin müavini

Musa Pənahov - Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini

Elmir Vəlizadə - Azərbaycan Respublikası rabitə və informasiya texnologiyaları nazirinin müavini

Elmar Qasımov - Azərbaycan Respublikası təhsil nazirinin müavini

İntiqam Babayev - Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini

Sevda Məmmədəliyeva - Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini

Sədaqət Qəhrəmanova - Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini

Dövlətxan Dövlətxanov - Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini

Pərviz Musayev - Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti rəisinin müavini

Elman Mehdiyev - Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondu sədrinin müavini

Mübariz Elyazov - Azərbaycan Respublikası Milli Televiziya və Radio Şurasının üzvü

Faiq Qurbanov - Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi

Ramin Həsənov - Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Beynəlxalq hüquq və müqavilələr idarəsi rəisinin müavini

2. İşçi qrupa tapşırılsın ki, 2 ay müddətində bu Sərəncamın 1-ci bəndində göstərilən hesabatın layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən ilk hesabatın hazırlanıb baxıldıqdan sonra 2011-ci il yanvarın

28-dək Birləşmiş Millətlər Təşkilatının Əlillərin hüquqları üzrə Komitəsinə təqdim olunmasını təmin etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 oktyabr 2010-cu il

№ 1161

"Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Belarus Respublikasının İqtisadiyyat Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Belarus Respublikasının İqtisadiyyat Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Şahin Abdulla oğlu Mustafayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Şahin Abdulla oğlu Mustafayevə verilməsi barədə Belarus Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 oktyabr 2010-cu il

№ 1162

Azərbaycan Respublikasının Türkiyə Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri F.N. Bağırovun iqamətgahı Ankara şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Makedoniya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının Türkiyə Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri Faiq Nüsrət oğlu Bağırov iqamətgahı Ankara şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Makedoniya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 oktyabr 2010-cu il

№ 1164

Azərbaycan Respublikasının Meksika Birləşmiş Ştatlarında Fövqəladə və Səlahiyyətli Səfiri İ.Y. Muxtarovun iqamətgahı Mexiko şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Kolumbiya Respublikasında və Panama Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının Meksika Birləşmiş Ştatlarında Fövqəladə və Səlahiyyətli Səfiri İlqar Yusif oğlu Muxtarov iqamətgahı Mexiko şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Kolumbiya Respublikasında və Panama Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 oktyabr 2010-cu il

№ 1165

Azərbaycan Respublikasının Cənubi Afrika Respublikasında (Pretoriya şəhərində) Səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

Azərbaycan Respublikasının Cənubi Afrika Respublikasında (Pretoriya şəhərində) Səfirliyi təsis edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 oktyabr 2010-cu il.

№ 1102-IIIQ

Azərbaycan Respublikasının Braziliya Federativ Respublikasında (Brazilia şəhərində) Səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

Azərbaycan Respublikasının Braziliya Federativ Respublikasında (Brazilia şəhərində) Səfirliyi təsis edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 oktyabr 2010-cu il

№ 1103-IIIQ

Azərbaycan Respublikasının İraq Respublikasında (Bağdad şəhərində) Səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

Azərbaycan Respublikasının İraq Respublikasında (Bağdad şəhərində) Səfirliyi təsis edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 oktyabr 2010-cu il.

№ 1104-IIIQ

Azərbaycan Respublikasının Vyetnam Sosialist Respublikasında (Hanoy şəhərində) Səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

Azərbaycan Respublikasının Vyetnam Sosialist Respublikasında (Hanoy şəhərində) Səfirliyi təsis edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 oktyabr 2010-cu il.

№ 1105-IIIQ

Azərbaycan Respublikası Prezidentinin və Mavritaniya İslam Respublikası Prezidentinin Birgə Bəyannaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

Azərbaycan Respublikası Prezidentinin və Mavritaniya İslam Respublikası Prezidentinin 2010-cu il iyulun 15-də Bakı şəhərində imzalanmış Birgə Bəyannaməsi təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 oktyabr 2010-cu il

№ 1106-IIIQ

Azərbaycan Respublikası Prezidentinin və Mavritaniya İslam Respublikası Prezidentinin Birgə Bəyannaməsi

Azərbaycan Respublikasının Prezidenti və Mavritaniya İslam Respublikasının Prezidenti (bundan sonra "Tərəflər" adlandırılacaq),

İki ölkə arasında dostluq münasibətlərinin inkişaf və möhkəmlənməsini məmnunluqla qeyd edərək,

İkitərəfli dialoqu müntəzəm olaraq davam etdirmək, həmçinin bütün səviyyələrdə məsləhətləşmələrin aparılmasının zəruriliyinə inanaraq,

Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin məqsəd və prinsiplərinə, beynəlxalq hüququn prinsip və normalarına sadiqliklərini ifadə edərək,

Beynəlxalq terrorizm, mütəşəkkil cinayətkarlıq, narkotiklərin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə sahəsində əməkdaşlığın əHəmiyyətini vurğulayaraq,

Bir-birilərinin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünə qarşılıqlı dəstəklərini bildirərək,

Mavritaniya İslam Respublikasının Prezidenti cənab Məhəmməd Uld Əbdüləzizin Azərbaycan Respublikasına hazırkı səfərinin iki ölkə arasında dostluq və əməkdaşlığın dərinləşməsinə və daha da genişlənməsinə töhfə verəcəyinə inandıqlarını qeyd edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

İkitərəfli münasibətlərin, qarşılıqlı maraq doğuran beynəlxalq və regional məsələlərin bütün spektorları üzrə bütün səviyyələrdə siyasi dialoqun davam etdirilməsi;

İki ölkə arasında iqtisadiyyat, ticarət, kənd təsərrüfatı, sənaye, energetika, turizm, səhiyyə, elm, təhsil, mədəniyyət, və humanitar sahələrdə münasibətlərin hərtərəfli inkişaf etdirilməsi və mövcud hüquq bazasının genişləndirilməsi;

Beynəlxalq təhdid və çağırışların qarşısında onlar arasında əməkdaşlığın davam etdirilməsi;

İkitərəfli və beynəlxalq səviyyələrdə bütün milli, regional və beynəlxalq hədələrə qarşı əməkdaşlığın möhkəmləndirilməsinin vacibliyinin vurğulanması;

Dövlətlərin suverenliyi və ərazi bütövlüyünə qarşı təcavüzkar əməllərin qarşısının alınması üçün dünya birliyinin səylərinin birləşdirilməsinin beynəlxalq asayişin təmin edilməsində vacib amil olduğunu nəzərə alaraq beynəlxalq səviyyədə tanınmış sərhədlərin zorla dəyişdirilməsinin rədd edilməsi;

Təhlükəsizlik sahəsində ikitərəfli əlaqələrinin möhkəmləndirilməsi üzrə tədbirlərin həyata keçirilməsinin zəruriliyi;

Mövcud olan bütün münaqişələrin sülh yolu ilə həllinə yönəlmiş təşəbbüslərin əhəmiyyətinin vurğulanması;

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi üzrə BMT-nin və İKT-nin müvafiq qətnamələrinin yerinə yetirilməsinin və bu münaqişənin. beynəlxalq hüququn ümumtanınmış prinsipləri və normalarına uyğun olaraq Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında tezliklə həll olunmasının dəstəklənməsi;

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi istiqamətində ATƏT, həmçinin Minsk Qrupunun göstərdiyi davamlı səylər çərçivəsində daha təsirli və qətiyyətli addımlar atılmasının zəruriliyi;

Qarşılıqlı investisiyaların iqtisadi əməkdaşlığın əsas faktorlarından biri olduğuna inanaraq, energetika, ticarət, sənaye, maliyyə, bank sektoru, kənd təsərrüfatı və qarşılıqlı maraq kəsb edən digər sahələrdə investisiya qoyuluşunun və əməkdaşlığın inkişafının təşviq edilməsi;

İqlim dəyişikliyinin səbəb olduğu təhlükələrlə bağlı narahatlıqlarını ifadə edərək müvafiq beynəlxalq sənədləri imzalayan Tərəflər kimi, iqlim dəyişikliyinin mənfi təsirlərinin qarşısının alınması və onlarla mübarizədə beynəlxalq birliyin səylərinə qoşulmaq qətiyyətlərinin yenidən təsdiq edilməsi;

Dövlətlərarası münasibətlərin möhkəmləndirilməsində humanitar sahədə əməkdaşlığın əhəmiyyətinin qeyd edilməsi, mədəniyyət, elm, təhsil, informasiya vasitələri və digər istiqamətlərdə əməkdaşlığın hərtərəfli inkişafı üçün əlavə tədbirlərin görülməsinin mühümlüyü;

Müvafiq qurumlar arasında tələbə və müəllimlərin mübadiləsi proqramları sahəsində birgə layihələrin həyata keçirilməsi;

Qarşılıqlı maraq doğuran məsələlər üzrə əməkdaşlığın gücləndirilməsi məqsədilə BMT və onun ixtisaslaşdırılmış təşkilatları, eləcə də İKT və digər beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığın inkişaf etdirilməsi və bir-birilərinin mövqelərinin dəstəklənməsi;

Tərəflər bu Birgə Bəyannamənin Azərbaycan Respublikası və Mavritaniya İslam Respublikası arasındakı münasibətlərin hərtərəfli inkişafına təkan verəcəyinə əminliklərini ifadə edirlər.

Bakı şəhərində 15 iyul 2010-cu il tarixində, iki əsl nüsxədə Azərbaycan və ərəb dillərində imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ	MAVRİTANİYA İSLAM RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEV	*MƏHƏMMƏD ULD ƏBDÜLƏZİZ*

"Azərbaycan Respublikası hökuməti və Mavritaniya İslam Respublikası hökuməti arasında energetika sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Azərbaycan Respublikası hökuməti və Mavritaniya İslam Respublikası hökuməti arasında energetika sahəsində əməkdaşlıq haqqında" 2010-cu il iyulun 15-də Bakı şəhərində imzalanmış saziş təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 oktyabr 2010-cu il

№ 1107-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Mavritaniya İslam Respublikası Hökuməti arasında energetika sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra ayrı-ayrılıqda "Tərəf" və birlikdə "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Mavritaniya İslam Respublikası Hökuməti,

ikitərəfli qarşılıqlı iqtisadi maraqların inkişafını,

Azərbaycan Respublikasının energetika sahəsində böyük təcrübəyə malik olmasını,

Mavritaniya İslam Respublikasının bu sahədə mövcud resurslara sahib olmasını və iqtisadiyyatın ən vacib sahəsi olan energetikanın inkişafına əhəmiyyət vermələrini nəzərə alaraq,

hər iki tərəfin energetika sahəsində fəaliyyət göstərən dövlət və özəl müəssisələri arasında birbaşa əlaqələrin qurulması və inkişafı üçün əlverişli şəraitin yaradılması məqsədilə,

aşağıda qeyd olunanlar üzrə razılığa gəldilər:

Maddə 1

Tərəflər energetika sahəsində əməkdaşlıq və əlaqələrini qarşılıqlı faydalılıq prinsipləri əsasında inkişaf etdirəcəklər.

Maddə 2

Tərəflər dövlətlərinin mövcud milli qanunvericilikləri çərçivəsində energetikanın müxtəlif sahələrində, o cümlədən yataqların işlənilməsində, avadanlığın istehsalında, ehtiyat hissələrinin hazırlanmasında və bu istiqamətdə xidmət və ticarətin təşkil edilməsində bir-birinə köməklik edəcəklər.

Tərəflər ətraf mühitin qorunması sahəsində beynəlxalq standartlar əsasında ümumiləşdirilmiş metodologiyanın hazırlanmasına dəstək verəcəklər.

Maddə 3

Tərəflər energetika sahəsi (neft, elektroenergetika və s.) üzrə mütəxəssislərin hazırlanmasında və onların ixtisaslarının artırılmasında Azərbaycan Respublikasının elmi-texniki potensialından səmərəli istifadə edilməsi məqsədilə ikitərəfli danışıqların aparılmasının təşkili üçün səy göstərəcəklər.

Maddə 4

Tərəflər ikitərəfli əlaqələrin möhkəmləndirilməsi məqsədilə Azərbaycan Respublikası və Mavritaniya İslam Respublikasında energetika sahəsində keçirilən tenderlər, sərgi və konfranslara aidiyyəti və maraqlı olan şirkətlərinin dəvət olunmasını təmin edəcəklər.

Maddə 5

Bu Sazişin təfsiri və tətbiqi ilə əlaqədar ortaya çıxan anlaşılmazlıqlar Tərəflər arasında məsləhətləşmələr yolu ilə öz həllini tapacaqdır.

Maddə 6

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və bu Sazişin

7-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən və ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 7

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında Tərəflərin diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minəcəkdir.

Bu Saziş beş il müddətinə bağlanılır və Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə ən az altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə digər Tərəfə diplomatik kanallar vasitəsilə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beş il müddətə uzadılacaqdır.

Bakı şəhərində 15 iyul 2010-cu il tarixində hər biri iki əsl nüsxədə olmaqla Azərbaycan və ərəb dillərində imzalanmışdır. Bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	MAVRİTANİYA İSLAM RESPUBLİKASININ HÖKUMƏTİ ADINDAN
NATİQ ƏLİYEV	*NAHA MİNT HAMDİ ULD MUKNASS*
Sənaye və energetika naziri	*Xarici işlər və əməkdaşlıq naziri*

"Azərbaycan Respublikası hökuməti və Mavritaniya İslam Respublikası hökuməti arasında ticarət və iqtisadi əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Azərbaycan Respublikası hökuməti və Mavritaniya İslam Respublikası hökuməti arasında ticarət və iqtisadi əməkdaşlıq haqqında" 2010-cu il iyulun 15-də Bakı şəhərində imzalanmış saziş təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 oktyabr 2010-cu il

№ 1108-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Mavritaniya İslam Respublikası Hökuməti arasında ticarət və iqtisadi əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Mavritaniya İslam Respublikası Hökuməti,

bərabərlik və qarşılıqlı fayda əsasında iki ölkə arasında ticarət və iqtisadi əlaqələri inkişaf etdirməyi və gücləndirməyi arzulayaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər onların müvafiq qanunvericiliyinə uyğun olaraq iki ölkə arasında mal və xidmətlər üzrə ticarəti və ticarət məlumatlarının mübadiləsini təşviq edəcək və asanlaşdıracaqlar.

Maddə 2

Tərəflər onların müvafiq qanunvericiliyinə və qoşulduqları hər hansı beynəlxalq sazişlərə uyğun olaraq, onların hüquqi və fiziki şəxsləri arasında ticarət təcrübəsi və texnologiyaların qarşılıqlı mübadiləsini, ticarət şirkətləri və birgə müəssisələrin yaradılmasını təşviq edəcəklər.

Maddə 3

Tərəflər onların müvafiq qanunvericiliyinə uyğun olaraq ticarət şirkətləri və müəssisələrini digər Tərəfin ərazisində keçiriləcək beynəlxalq və xüsusi sərgilərdə iştirak etməyə təşviq edəcəklər.

Maddə 4

Tərəflər onların müvafiq qanunvericiliyinə uyğun olaraq, bu Saziş çərçivəsində aşağıdakıları asanlaşdıracaqlar:

1. Digər Tərəfin dövlətinin ərazisindən daxil olan və üçüncü ölkənin ərazisinə istiqamətlənən malların tranzitini;

2. Üçüncü ölkənin ərazisindən daxil olan və digər Tərəfin dövlətinin ərazisinə istiqamətlənən malların tranzitini.

Maddə 5

Tərəflər onların müvafiq qanunvericiliyinə uyğun olaraq müvəqqəti sərgilərdə iştirakın asanlaşdırılması üçün fəaliyyət göstərəcəklər.

Tərəflər onların müvafiq qanunvericiliyinə uyğun olaraq beynəlxalq sərgilərdə nümayiş etdirilməsi məqsədilə malların daxil olmasına əlverişli şərait yaradacaqlar. Əgər hər iki Tərəf başqa qaydada razılaşmazsa, nümayiş olunan mallar onların qanunvericiliyinin tələblərinə uyğun olaraq geri qaytarılmalıdır.

Maddə 6

Tərəflər qarşılıqlı razılıq əsasında bu Sazişə onun tərkib hissəsi olan və bu Sazişin 7-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən, ayrıca Protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edə bilərlər.

Maddə 7

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında Tərəflərin diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minəcəkdir.

Bu Saziş beş il müddətinə bağlanılır və Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə ən az altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə digər Tərəfə diplomatik kanallar vasitəsilə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beş

il müddətə uzadılacaqdır.

Bakı şəhərində 15 iyul 2010-cu ildə Azərbaycan və ərəb dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	MAVRİTANİYA İSLAM RESPUBLİKASININ HÖKUMƏTİ ADINDAN
NATİQ ƏLİYEV	*SİSİ İLD TAH*
Sənaye və energetika naziri	*İqtisadi məsələlər və inkişaf naziri*

"Azərbaycan Respublikası hökuməti və Mavritaniya İslam Respublikası hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Azərbaycan Respublikası hökuməti və Mavritaniya İslam Respublikası hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında" 2010-cu il iyulun 15-də Bakı şəhərində imzalanmış saziş təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 oktyabr 2010-cu il

№ 1109-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Mavritaniya İslam Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Mavritaniya İslam Respublikası Hökuməti,

Azərbaycan-Mavritaniya əlaqələrini inkişaf etdirmək istəyini rəhbər tutaraq,

diri heyvanların, heyvan mənşəli məhsulların qarşılıqlı ticarətinin genişləndirilməsini arzu edərək,

insan və heyvanların sağlamlığını qorumaq məqsədilə öz ölkələrinin ərazilərindən yoluxucu heyvan xəstəliklərinin keçməsinin qarşısını almağa cəhd edərək,

milli qanunvericiliyə uyğun olaraq baytarlıq sahəsində ikitərəfli əməkdaşlığın dərinləşdirməsi marağını nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflərin bu Sazişin yerinə yetirilməsi üzrə fəaliyyətinin əlaqələndirilməsini həyata keçirən səlahiyyətli orqanları:

Azərbaycan Respublikasında - Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidməti;

Mavritaniya İslam Respublikasında - Kəndlərin İnkişafı Nazirliyi yanında Dövlət Baytarlıq Xidmətidir.

Maddə 2

1. Bu Sazişdə "heyvanlar" adı altında aşağıdakılar anlaşılmalıdır:

- təkdırnaqlılar (at, eşşək, qatır və s.);

- cütdırnaqlı ev (iri buynuzlu heyvan, qoyunlar, keçilər, donuzlar, dəvələr və s.) və vəhşi heyvanlar;

- ev və vəhşi gəmiricilər (ev və çöl dovşanları, siçovullar, hind donuzları və s.);

- ev quşları (toyuqlar, hind toyuqları, qazlar, ördəklər, firəng toyuğu və s.);

- dekorativ quşlar (qırqovul, kəklik, meşə xoruzu və s.);

- ekzotik quş və heyvanlar (tutuquşuları, meymunlar və s.);

- sirk heyvanları;

- arılar;

- balıqlar, ilbizlər, xərçəngkimilər, digər onurğasızlar, tısbağalar, qurbağalar, ipək qurdları.

2. Bu Sazişdə "heyvan mənşəli məhsullar" adı altında aşağıdakılar anlaşılmalıdır:

- işlənilməmiş halda heyvan mənşəli xammal;

- heyvanların doğub-törəmə materialları (toxum, yumurta hüceyrələri,ziqotalar və embrionlar, mayalanmış kürü);

- qida üçün istifadə olunan heyvan mənşəli qida məhsulları, subməhsullar və hazır heyvandarlıq məhsulları;

- qida üçün istifadə olunmayan heyvan mənşəli məhsullar.

3. Bu Sazişdə "yem" anlayışı altında tərkibində toksiki maddələr olmayan və heyvanların yemlənməsi üçün istifadə edilə bilən bitki, heyvan, baytarlıq preparatları, yem əlavələri, mineral, mikrobioloji, kimyəvi və digər mənşəliyemlər anlaşılmalıdır.

Maddə 3

1. Tərəf ölkələrinə gələn və ya onun ərazisindən keçən diri heyvan, heyvanmənşəli məhsullar, yem və baytarlıq xidmətinin nəzarətində olan digər yüklərin (bundan sonra "yük") idxalına və tranzitinə milli qanunvericilikdə nəzərdə tutulmuş aşağıdakı qaydalara əməl edildikdə icazə verilir:

a) idxal edən ölkə və ya müvafiq tranzit ölkənin qəbul etdiyi baytarlıq - sanitariya tələbləri yerinə yetirildikdə;

b) yola salınmazdan əvvəl idxal edən ölkənin və ya müvafiq tranzit ölkənin səlahiyyətli orqanları tərəfindən yükə icazə verildikdə;

c) yük iki dildə-idxalçı ölkənin və ingilis dilində yazılmış baytarlıq sertifikatı ilə müşayiət edildikdə.

2. Tərəflər öhdələrinə götürürlər:

a) yükün idxalı və tranzitində istifadə edilən baytarlıq sertifikatları nümunələrinin mübadiləsini aparmağı və onlarda hər hansı dəyişiklik edilməsi barədə təcili olaraq biri-birinə xəbər verməyi.

Maddə 4

1. Əgər yükün baytarlıq sertifikatında göstərilən şərtlərə uyğun gəlməməsi aşkar edilərsə, idxalı həyata keçirən Tərəfin səlahiyyətli orqanının qüvvədə olan milli qanunvericiliyinə uyğun müvafiq tədbir görmək hüququ vardır.

2. Bu maddənin 1-ci bəndində təfsir edilmiş vəziyyət baş verdikdə, idxalı həyata keçirən Tərəflərin səlahiyyətli orqanı, yükü göndərən Tərəfin səlahiyyətli orqanına pozuntu və görülmüş tədbirlər barəsində məlumat verməlidir.

Maddə 5

1 .Tərəflərin səlahiyyətli orqanları öhdələrinə götürürlər:

a) ərazilərində Beynəlxalq Epizootik Büronun siyahısına daxil edilən heyvanların yoluxucu xəstəliklərinin baş verməsi, yayılması və ləğv edilməsi, heyvan xəstəlikləri barədə həmin Büro tərəfindən müəyyən edilmiş müddətə və vasitələrlə biri-birinə müntəzəm surətdə məlumat verirlər. Məlumatda xəstəlik baş vermiş regionlar, xəstə heyvanların növü, sayı, xəstəliyini ləğvi və məhdudlaşdırılması, infeksiyanın yayılma səbəbləri və ehtimal edilən yoluxma yollarını göstərməyi;

b) heyvan sürülərinin yoluxucu xəstəliklərdən qabaqlayıcı qorunma tədbirləri və ona nəzarət edilməsi tədbirləri barədə məlumat mübadiləsi aparmağı;

2. Tərəflərin səlahiyyətli orqanları həmçinin aşağıdakıları öhdələrinə götürürlər:

a) Beynəlxalq Epizootik Büronun tövsiyəsi çərçivəsində yoluxucu xəstəliklər üzərində nəzarət üzrə əməkdaşlığa və texniki layihələrin birgə işlənməsinə köməklik göstərməyi;

b) yüklərin idxalı (tranziti) zamanı öz dövlətləri ərazilərinə heyvanların yoluxucu xəstəliklərinin kənardan gətirilməsinin və yayılmasının, təhlükəli məhsulların keçməsinin qarşısını almaq üzrə tədbirlər görməyi.

Maddə 6

1. Tərəflərin səlahiyyətli orqanları baytarlıq sahəsində aşağıdakı ikitərəfli əməkdaşlığa kömək edəcəklər:

a) baytarlıq fəaliyyəti ilə əlaqədar olan normativ sənədlərin və ya xüsusi nəşrlərin qarşılıqlı əsasda mübadiləsinə;

b) qarşılıqlı maraqlardan irəli gələn problemlərin öyrənilməsi və tədqiq edilməsi ilə məşğul olan elmi institutlar, diaqnostik və analitik laboratoriyalar arasında əməkdaşlığa;

c) heyvan xəstəliklərinin müşahidə və ona nəzarət edilməsi, onun qarşısının alınması

sahəsində ikitərəfli texniki yardımın və ekspertizanın genişləndirilməsinə;

ç) heyvanların yoluxucu xəstəliklərinə qarşı mübarizə tədbirləri və profilaktikasına dair məlumat mübadiləsinə;

d) baytarlıq xidmətinin təşkilində və fəaliyyətində ikitərəfli anlaşma və etimadı gücləndirmək məqsədilə milli baytarlıq ekspertləri ilə mübadilə;

e) Tərəf dövlətlərinin ərazilərində istehsal edilən baytarlıq preparatları ilə (dərman maddələri, parazit əleyhinə, immunobioloji və diaqnostik vasitələr) ticarət mübadiləsi, habelə birgə istehsal və ticarət təşkilatlarının yaradılması;

2. Məlumat və sənədləşmə mübadiləsi ilə bağlı xərclər bu informasiya və sənədləşməni göndərən Tərəfin hesabına ödənilir. Nümayəndə heyətinin səfərləri ilə bağlı xərclər, əgər bu barədə əvvəlcədən razılaşma yoxdursa, göndərən Tərəfin hesabına ödənilir.

Maddə 7

Bu Sazİşin təfsiri və yerinə yetirilməsi ilə bağlı mübahisələr Tərəflərin səlahiyyətli orqanları arasında danışıqlar yolu ilə həll edilir.

Maddə 8

Bu Saziş Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdə müəyyən edilmiş hüquq və öhdəliklərinə toxunmur.

Maddə 9

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə əlavə və dəyişiklik edilə bilər. Əlavə və dəyişikliklər bu Sazişin ayrılmaz hissəsi olan protokolla rəsmiləşdirilir və bu Sazişin 10-cu maddəsində göstərilən qaydada qüvvəyə minir.

Maddə 10

Bu Saziş Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə diplomatik kanallarla göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş beş il müddətinə bağlanılır. Əgər Tərəflərdən heç biri müvafiq müddətin bitməsinə altı aydan gec olmayaraq Sazişin qüvvəsinin ləğv etmək niyyətində olduğu barədə digər Tərəfə yazılı bildiriş göndərməzsə, Sazişin qüvvəsi avtomatik olaraq növbəti beş il müddətə uzadılır.

Bakı şəhərində 15 iyul 2010-cu il tarixində hər biri Azərbaycan və ərəb dillərində olan iki əsl nüsxədə imzalanmışdır və bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	MAVRİTANİYA İSLAM RESPUBLİKASININ HÖKUMƏTİ ADINDAN
İSMƏT ABASOV	*İBRAHİM ULD MÜBARƏK ULD MƏHƏMMƏD MUXTAR*
Kənd təsərrüfatı naziri	*Kəndlərin inkişafı naziri*

"Azərbaycan Respublikası hökuməti və Mavritaniya İslam Respublikası hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Azərbaycan Respublikası hökuməti və Mavritaniya İslam Respublikası hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında" 2010-cu il iyulun 15-də Bakı şəhərində imzalanmış saziş təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 oktyabr 2010-cu il

№ 1110-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Mavritaniya İslam Respublikası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Mavritaniya İslam Respublikası Hökuməti,

karantin tətbiq edilən zərərli orqanizmlərin daxil olmasının və yayılmasının qarşısının alınması sahəsində əməkdaşlığın əhəmiyyətini nəzərə alaraq,

Tərəflər arasında ticarət əlaqələrinin inkişafı və kommersiya kontraktları həyata keçirilərkən öz dövlətlərinin ərazilərini karantin tətbiq edilən zərərli orqanizmlərin daxil olmasından və yayılmasından qorunması maraqlarından çıxış edərək,

bitki karantini və mühafizəsi sahəsində əməkdaşlığı davam etdirmək, genişləndirmək və dövlət karantin tədbirlərinin əlaqələndirilməsini təmin etmək istəyini rəhbər tutaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Sazişdə istifadə edilən terminlər aşağıdakı mənaları daşıyır:

- **"zərərli orqanizm"** - bitki və bitkiçilik məhsullarına zərər vuran heyvanların, bitkilərin və ya xəstəlik törədən mikroorqanizmlərin hər-hansı növü, növün dəyişmiş forması, yaxud bioloji tipi (bitki xəstəlikləri, zərərvericiləri və alaq otları);

- **"karantin tətbiq edilən zərərli orqanizm"** - ərazidə hələlik mövcud olmayan və yaxud mövcud olaraq məhdud dairədə yayılmış və rəsmi mübarizə obyektinə çevrilmiş, ətraf mühitə, ərazinin iqtisadiyyatına və əhalinin sağlamlığına potensial təhlükə yaradan zərərli orqanizm;

- **"karantin nəzarətində olan material"** - zərərli orqanizmlərin məskunlaşmasına (gizlənməsinə) və yayılmasına şərait yaradan, fitosanitartədbirlərin aparılmasını tələb edən

(xüsusilə beynəlxalq yükdaşımaları zamanı) bitki, bitkiçilik məhsulları, onların saxlanma yeri, qablaşdırma materialı, nəqliyyat vasitələri, torpaq və hər hansı orqanizm, obyekt, yük.

Maddə 2

Bu Sazişin həyata keçirilməsi üzrə fəaliyyətin əlaqələndirilməsi üçün Tərəflərin səlahiyyətli orqanları:

Azərbaycan Respublikası Hökuməti tərəfindən - Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidməti;

Mavritaniya İslam Respublikası HÖkuməti tərəfindən - Kəndlərin İnkişafı Nazirliyinin Kənd Təsərrüfatı Departamentidir.

Maddə 3

Tərəflər karantin nəzarətində olan materialların idxalı, ixracı və tranziti zamanı qüvvədə olan milli qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri bu Sazişin ayrılmaz hissəsi olan əlavə 1-də və əlavə 2-də göstərilən karantin tətbiq edilən zərərli orqanizmlərin siyahılarına uyğun olaraq həyata keçirəcəklər.

Tərəflərin səlahiyyətli orqanlarının qarşılıqlı razılığı ilə karantin tətbiq edilən zərərli orqanizmlərin siyahılarına əlavələr və dəyişikliklər edilə bilər.

Pullu xidmətlərin mövcud olduğu təqdirdə, karantin nəzarətində olan materialların yoxlanılmasına çəkilən xərclər yük sahibi tərəfindən Tərəflərin dövlətlərinin ərazisində mövcud tariflərə uyğun ödənilir.

Maddə 4

Tərəflər bir ölkədən göndərilən karantin nəzarətində olan materialların idxalı, ixracı və tranziti zamanı Tərəflərin qüvvədə olan milli və beynəlxalq qanunvericiliklərinə müvafiq olaraq təsdiq olunmuş fitosanitar qaydalarına riayət etməyi öhdələrinə götürürlər.

Maddə 5

Tərəflər bitki karantini və mühafizəsi sahəsində səmərəli əməkdaşlıq etmək məqsədilə qüvvədə olan milli qanunvericiliyə müvafiq olaraq öhdələrinə götürürlər:

- karantin nəzarətində olan materialların idxalı, ixracı və tranziti zamanı karantin zərərverici orqanizmlərinin bir Tərəfin dövlətinin ərazisindən o biri tərəfin dövlətinin ərazisinə daxil olmasının qarşısını almaq məqsədilə lazımi tədbirlərin görülməsini;

- Azərbaycan Respublikasının və Mavritaniya İslam Respublikasının ərazilərində bitki karantini və mühafizəsi tədbirlərini tənzimləyən qayda və əsasnamələrin mübadiləsini;

- Tərəflərin dövlətlərinin ərazilərində karantin və digər təhlükəli zərərli orqanizmlərin qeydə alınması və yayılması barədə informasiya mübadiləsini;

- bitki karantini və mühafizəsi sahəsində elmi-tədqiqat işləri barədə informasiya mübadiləsini;

- karantin nəzarətində olan materialların istehsalı və tədarükü yerlərində seçmə yolu ilə

yoxlanılmasını təşkil etmək, bitki karantini və mühafizəsinə aid məsələlərin operativ həlli, eləcə də bitki karantini və mühafizəsi sahəsində elmi nailiyyətləri və təcrübəni öyrənmək məqsədilə mütəxəssislərin ezam edilməsini və təcrübə mübadiləsini;

- bitki karantini və mühafizəsi tədbirlərinin keçirilməsini, karantin tətbiq edilən zərərli orqanizmlərin aşkar edilməsini, lokallaşdırılmasını, ləğv edilməsini;

- Tərəflərdən birinin xahişi ilə fövqəladə hallarda qarşılıqlı təcili tədbirlər görmək məqsədilə bitki karantini və mühafizəsi sahəsi üzrə mütəxəssislərdən ibarət ekspedisiyaların ezam olunmasını.

Maddə 6

Tərəflər qüvvədə olan milli qanunvericiliyə uyğun olaraq, ixrac, idxal olunan və ya tranzit daşınan karantin nəzarətində olan materiallarla karantin tətbiq edilən zərərli orqanizmlərin Azərbaycan Respublikasının və ya Mavritaniya İslam Respublikasının ərazisinə daxil olmasının qarşısını almaq məqsədilə bütün lazımi tədbirlərin görülməsini öhdələrinə götürürlər.

Bir Tərəfin dövlətinin ərazisinə digər Tərəfin dövlətinin ərazisindən idxal edilən karantin nəzarətində olan materialın hər yük partiyası ixrac edən ölkənin bitki karantini və mühafizəsi xidməti tərəfindən verilmiş fitosanitar sertifikatla müşayiət edilməlidir və Tərəflər sertifikatların nümunələri ilə mübadilə etməlidirlər. Sertifikat karantin nəzarətində olan materiallar idxal edən Tərəfin idxal karantini icazəsində qoyulmuş fitosanitar normalarına cavab verməsini təsdiq etməlidir.

Fitosanitar sertifikata və idxal karantin icazəsinə çəkilən xərclər yük sahibi tərəfindən, iki dövlətin ərazilərində qəbul olunmuş tariflər üzrə ödənilməlidir (pullu xidmətlər mövcud olduğu təqdirdə).

Tərəflərin səlahiyyətli orqanları karantin nəzarətində olan materialların ayrı-ayrı yük partiyalarının alınması zamanı, habelə materialların fitosanitar vəziyyətinə dair əlavə şərtlər qoymaq (zərərsizləşdirmək, yenidən qablaşdırmaq, kənar qarışıqlardan və torpaqdan azad edilməsi, ağac qabığının olmaması, yuyulma, germetiklik və s.) hüququna malikdirlər.

Karantin nəzarətində olan materialların ölkə ərazisindən tranziti Tərəflərin milli və beynəlxalq qanunvericiliklərinə müvafiq olaraq həyata keçirilir.

Maddə 7

Azərbaycan Respublikasının və Mavritaniya İslam Respublikasının dövlət əraziləri ilə karantin nəzarətində olan materialların ixracı, idxalı və tranziti Tərəflərin milli qanunvericiliyində müəyyən edilmiş qaydada sərhəd buraxılış məntəqələri vasitəsilə həyata keçirilir.

Maddə 8

Karantin nəzarətində olan materialların ixracı zamanı qablaşdırma materialı kimi karantin tətbiq edilən zərərli orqanizmlərin daşıyıcıları olmayan və torpaqdan azad olan taxta kəpəyi, yonqar, kağız, plastik kütlə və s. materiallar tətbiq ediləcəkdir. Quru ot, küləş,

püfə, yarpaq və başqa bitkimənşəli materiallardan isə Tərəflərin ilkin razılaşmalarından sonra istifadə oluna bilər.

Tərəflərin birinin dövlətinin ərazisindən digər Tərəfin dövlətinin ərazisinə karantin nəzarətində olan materialların daşınmasında istifadə olunan nəqliyyat vasitələri əsaslı təmizlənməli və lazım gəldikdə zərərsizləşdirilməlidir.

Maddə 9

Tərəflərin səlahiyyətli orqanları fitosanitar nəzarəti zamanı zərərli orqanizmləri aşkar etdikdə Tərəflərin milli qanunvericiliyində nəzərdə tutulan tədbirlər görülür.

Karantin nəzarətində olan materialların geri qaytarılması və ya zərərsizləşdirilməsi mümkün olmadıqda onun məhv edilməsi milli qanunvericilik əsasında və digər Tərəfin səlahiyyətli orqanına əvvəlcədən məlumat verməklə həyata keçirilməlidir.

Maddə 10

Bu Sazişin həyata keçirilməsində praktiki məsələlərin həlli üçün Tərəflərin səlahiyyətli orqanları lazım gəldikdə hər iki dövlətdə növbə ilə birgə məsləhətləşmələr keçirilməsini təşkil edirlər.

Məsləhətləşmələrin yeri, tarixi və müzakirə olunan məsələlərin siyahısı Tərəflərin səlahiyyətli orqanları tərəfindən müəyyən edilir.

Məsləhətləşmələrin keçirilməsi ilə bağlı təşkilatı xərcləri qəbul edən Tərəfin səlahiyyətli orqanı ödəyir. Nəqliyyat və kommunal xərcləri hər bir Tərəf özü ödəyir.

Maddə 11

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə, onun ayrılmaz hissəsi olan və 14-cü maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən, ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 12

Bu Sazişin təfsiri və tətbiqi zamanı yaranan mübahisəli məsələlər Tərəflər arasında məsləhətləşmələr və danışıqlar yolu ilə həll edilir.

Maddə 13

Bu Sazişin müddəaları Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən və ya onların bitki karantini və mühafizəsi üzrə beynəlxalq təşkilatlara üzvlüyündən irəli gələn hüquq və öhdəliklərinə təsir etmir.

Maddə 14

Bu Saziş Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetirmələri barədə sonuncu yazılı bildirişin diplomatik kanallarla alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş 5 il müddətinə bağlanılır. Tərəflərdən biri müvafiq müddətin bitməsinə ən azı altı ay qalmış Sazişi ləğv etmək niyyəti barədə digər Tərəfi diplomatik kanallarla yazılı şəkildə xəbərdar etmədiyi təqdirdə, Sazişin qüvvəsi növbəti beşillik müddətə uzadılır.

Bakı şəhərində 15 iyul 2010-cu ildə iki əsl nüsxədə, hər biri Azərbaycan və ərəb dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	MAVRİTANİYA İSLAM RESPUBLİKASININ HÖKUMƏTİ ADINDAN
İSMƏT ABASOV	*İBRAHİM ULD MÜBARƏK ULD*
Kənd təsərrüfatı naziri	*MƏHƏMMƏD MUXTAR*
	Kəndlərin inkişafı naziri

Emmit Riçard Art Makhaffinin Amerika Birləşmiş Ştatlarının Santa Fe şəhərində Azərbaycan Respublikasının fəxri konsulu təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Emmit Riçard Art Makhaffi Amerika Birləşmiş Ştatlarının Santa Fe şəhərində Azərbaycan Respublikasının fəxri konsulu təyin edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 oktyabr 2010-cu il

№ 1166

V.İ. Sadıqovun Azərbaycan Respublikasının İtaliya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Vaqif İsmayıl oğlu Sadıqov Azərbaycan Respublikasının İtaliya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 oktyabr 2010-cu il

№ 1169

"Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 29 yanvar tarixli 16 nömrəli Fərmanına əlavə edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

"Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 29 yanvar tarixli 16

nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 1, maddə 22; 2005-ci il, № 10, maddə 910; 2008-ci il, № 11, maddə 970; 2009-cu il, № 2, maddə 59; № 7, maddə 532; № 12, maddə 983) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 13.7-1-ci bənd əlavə edilsin:

"Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Nazirliyin idarə rəislərini vəzifəyə təyin və vəzifədən azad edir;".

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 02 noyabr 2010-cu il

№ 348

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və Ukrayna Milli Teleşirkəti arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və Ukrayna Milli Teleşirkəti arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri Arif Nizam oğlu Alışanova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri Arif Nizam oğlu Alışanova verilməsi barədə Ukrayna tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 noyabr 2010-cu il

№ 1170

Azərbaycan Respublikasının Yunanıstan Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri R.S.Mustafayevin iqamətgahı Afina şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Albaniya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının Yunanıstan Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri Rəhman Sahib oğlu Mustafayev iqamətgahı Afina şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Albaniya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 noyabr 2010-cu il

№ 1173

Azərbaycan Respublikasının Misir Ərəb Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri Ş.Ş.Abdullayevin eyni zamanda Azərbaycan Respublikasının Ərəb Dövlətləri Liqası yanında Daimi müşahidəçisi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının Misir Ərəb Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri Şahin Şakir oğlu Abdullayev eyni zamanda Azərbaycan Respublikasının Ərəb Dövlətləri Liqası yanında Daimi müşahidəçisi təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 noyabr 2010-cu il

№ 1174

2010-cu il fevralın 1-də Vaşinqton şəhərində imzalanmış "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Amerika Birləşmiş Ştatları Müdafiə Departamenti arasında məlumat mübadiləsi haqqında Saziş"in qüvvədəolma müddətinin uzadılmasına dair 1 saylı Protokol"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2010-cu il fevralın 1-də Vaşinqton şəhərində imzalanmış "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Amerika Birləşmiş Ştatları Müdafiə Departamenti arasında məlumat mübadiləsi haqqında Saziş"in qüvvədəolma müddətinin uzadılmasına dair 1 saylı Protokol" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Amerika Birləşmiş Ştatları tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 noyabr 2010-cu il

№ 1177

"Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və İtaliya Respublikasının Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmləri sahəsində Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və İtaliya Respublikasının Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmləri sahəsində Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının səhiyyə naziri Oqtay Kazım oğlu Şirəliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının səhiyyə naziri Oqtay Kazım oğlu Şirəliyevə verilməsi barədə İtaliya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 8 noyabr 2010-cu il

№ 1182

"Azərbaycan Respublikası Hökuməti və BMT-nin Təhsil, Elm və Mədəniyyət üzrə Təşkilatı (YUNESKO) arasında Yaponiyanın İnsan Resursları İmkanlarının Gücləndirilməsi üzrə İnam Fondunun Layihəsi üçün Əməliyyat Planına dair Müqavilə"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və BMT-nin Təhsil, Elm və Mədəniyyət üzrə Təşkilatı (YUNESKO) arasında Yaponiyanın İnsan Resursları İmkanlarının Gücləndirilməsi üzrə İnam Fondunun Layihəsi üçün Əməliyyat Planına dair Müqavilə"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərim oğlu Kərimova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Müqaviləni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərim oğlu Kərimova verilməsi barədə BMT-nin Təhsil, Elm və Mədəniyyət üzrə Təşkilatına (YUNESKO-ya) müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 8 noyabr 2010-cu il

№ 1183

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Çin Xalq Respublikası Müdafiə Nazirliyi arasında Çin tərəfindən Azərbaycana təmənnasız hərbi yardım göstərilməsi haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Çin Xalq Respublikası Müdafiə Nazirliyi arasında Çin tərəfindən Azərbaycana təmənnasız hərbi yardım göstərilməsi haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Çin Xalq Respublikasındakı hərbi attaşesi Nurulla Arif oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Çin Xalq Respublikasındakı hərbi attaşesi Nurulla Arif oğlu Əliyevə verilməsi barədə Çin Xalq Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 noyabr 2010-cu il

№ 1184

"Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Fələstin Dövlətinin Xarici İşlər Nazirliyi arasında Fələstin Dövlətinin Azərbaycan Respublikasındakı Səfirliyinin fəaliyyətinə maddi-texniki yardım göstərilməsi haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Fələstin Dövlətinin Xarici İşlər Nazirliyi arasında Fələstin Dövlətinin Azərbaycan Respublikasındakı Səfirliyinin fəaliyyətinə maddi-texniki yardım göstərilməsi haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Xələf Alı oğlu Xələfova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Xələf Alı oğlu Xələfova verilməsi barədə Fələstin Dövləti tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 noyabr 2010-cu il

№1185

2010-cu il sentyabrın 17-də Sankt-Peterburq şəhərində imzalanmış "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Rusiya Federasiyasının Daxili İşlər Nazirliyi arasında 2011-2012-ci illər üçün qarşılıqlı fəaliyyət haqqında Protokol"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2010-cu il sentyabrın 17-də Sankt-Peterburq şəhərində imzalanmış "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Rusiya Federasiyasının Daxili İşlər Nazirliyi arasında 2011-2012-ci illər üçün qarşılıqlı fəaliyyət haqqında Protokol" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Rusiya Federasiyası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri 12 noyabr 2010-cu il

№ 1186

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Rusiya Federasiyasının Daxili İşlər Nazirliyi arasında 2011-2012-ci illər üçün qarşılıqlı fəaliyyət haqqında Protokol

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Rusiya Federasiyasının Daxili İşlər Nazirliyi,

qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsi səylərini təsdiq edərək,

19 aprel 1996-cı il tarixli "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Rusiya Federasiyasının Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"in və 4 fevral 2000-ci il tarixli "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Rusiya Federasiyasının Daxili İşlər Nazirliyi arasında sərhədyanı regionların daxili işlər orqanlarının əməkdaşlığı haqqında Saziş"in müddəalarını rəhbər tutaraq,

öz səlahiyyətləri çərçivəsində, öz dövlətlərinin milli qanunvericiliklərinə və beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərinə riayət etməklə 2011-2012-ci illərdə aşağıdakı tədbirlərin həyata keçirilməsi barədə razılığa gəldilər:

1. Tərəflər aşağıdakıların aşkar edilməsi, qarşısının alınması üzrə razılaşdırılmış tədbirlərin həyata keçirilməsi təcrübəsini davam etdirəcəklər:

qanunsuz silahlı dəstələrin fəaliyyətinin;

terrorçuluq və digər ekstremizm fəaliyyətinin, o cümlədən nəqliyyat infrastrukturu obyektlərində;

zorakı ekstremizm fəaliyyətinin maliyyələşdirilməsində iştirak;

həmçinin aşağıdakı cinayətlərin də qarşısının alınması, aşkar edilməsi, aradan qaldırılması və açılması üzrə fəaliyyət göstərəcəklər:

mütəşəkkil cinayətkar birliklər, kriminal qruplaşmalar tərəfindən törədilən cinayətlər;

silahların, döyüş sursatının, partlayıcı qurğuların, partlayıcı, zəhərləyici və radioaktiv maddələrin qanunsuz dövriyyəsi;

narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi;

iqtisadi sahədə cinayətlər;

su bioresurslarının qanunsuz dövriyyəsi;

strateji əhəmiyyətli xammalın və materialların qanunsuz olaraq sərhəddən keçirilməsi ilə əlaqəli cinayətlər;

mədəni və tarixi dəyərlərin oğurlanması və qaçaqmalçılığı ilə bağlı cinayətlər;

qanunsuz miqrasiya ilə əlaqəli cinayətlər;

insan alveri ilə bağlı cinayətlər;

avtomobil, dəmir yolu, hava və su nəqliyyatı ilə daşınan yüklərin oğurlanması ilə bağlı cinayətlər;

daxili işlər orqanları əməkdaşlarının iştirakı ilə törədilən cinayətlər. Sərhədyanı bölgələrdə qanunsuz silahlı birləşmələrin, ekstremizmin, terrorçu qruplaşmaların fəaliyyətinin qarşısının alınması və aradan qaldırılması, nəqliyyat, enerji infrastrukturlarının etibarlı mühafizəsinin təmin olunması üzrə razılaşdırılmış qarşılıqlı fəaliyyətə xüsusi diqqət yetiriləcəkdir.

2. Tərəflər Azərbaycan Respublikası və Rusiya Federasiyasının sərhədyanı ərazilərində daxili işlər orqanları və polisin qarşılıqlı fəaliyyətinin razılaşdırılması və əlaqələndirilməsi üzrə Azərbaycan-Rusiya işçi qrupu formatında qarşılıqlı fəaliyyətlərini davam etdirəcəklər.

3. Tərəflər, razılaşdırılmış şərtlər əsasında, praktik qarşılıqlı fəaliyyətlə bağlı məsələlərin həll olunması və əməliyyat-xidməti fəaliyyətin müxtəlif istiqamətləri üzrə iş təcrübəsinin öyrənilməsi üçün mütəxəssislərin ezamiyyətlərini təşkil edəcəklər. Bu Protokolun icrası ilə bağlı yarana biləcək xərclər müəyyən olunmuş qaydada əvvəlcədən razılaşdırılır.

Ezamiyyətlərin müddəti, nümayəndə heyətinin tərkibi və səfər proqramları Tərəflər arasında əvvəlcədən razılaşdırılacaqdır.

4. Tərəflər mütəmadi olaraq əməliyyat-axtarış, məlumat, kriminalistik və qarşılıqlı maraq doğuran digər, ilk növbədə aşağıdakı sahələrə dair informasiya mübadiləsinin həyata keçirilməsini davam etdirəcəklər:

ekstremizmin hazırlanan və törədilən zorakı təzahürləri və digər ağır və xüsusilə ağır cinayətlər, habelə həmin cinayətlərə aşkar edilmiş və qarşısı alınmış cəhdlər, o cümlədən dövlət xadimlərinə, diplomatik nümayəndəliklərin, konsulluq idarələrinin və bey-

nəlxalq təşkilatların əməkdaşlarına, diplomatik müdafiədən istifadə edən digər şəxslərə, həmçinin dövlət səfərlərinin, siyasi, idman və digər tədbirlərin iştirakçılarına qarşı yönəlmiş cinayətlər barədə;

ekstremizm yönümlü cinayətlər, digər ağır və xüsusilə ağır cinayətlər hazırlayan və (və ya) törədən, həmçinin bu cür əməllərdə digər formada iştirak edən təşkilatlar, qruplar və şəxslər barədə;

ekstremizm fəaliyyətinin həyata keçirilməsi və digər cinayətlərin törədilməsinə görə barələrində axtarış elan edilmiş şəxslər barədə;

ekstremizm fəaliyyətinin həyata keçirilməsi və digər ağır və xüsusilə ağır cinayətlər tətbiqetmə formaları, üsulları və vasitələri barədə;

ekstremizm fəaliyyətinin həyata keçirilməsi və ya digər cinayətkar məqsədlər üçün tətbiq edilməsi məqsədilə güclü təsirə malik zəhərli, zəhərləyici, partlayıcı maddələrin, radioaktiv materialların, silahların, partlayıcı qurğuların, odlu silahların, döyüş sursatının, nüvə, kimyəvi, bioloji və kütləvi qırğın silahının, onun hazırlanmasında istifadə edilə bilən ikili təyinatlı materialların və avadanlıqların qanunsuz hazırlanması, əldə edilməsi, saxlanılması, ötürülməsi, yerdəyişməsi, satışı və istifadəsi barədə;

qanunsuz miqrasiya kanallarının çıxış, təyinat və tranzit nöqtələrinin, qanunsuz miqrasiyanın təşkilində istifadə olunan daşıyıcıların və nəqliyyat vasitələrinin aşkar edilməsi barədə;

narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəyə çıxarılmış yeni növləri, həmçinin narkotik vasitələrin və psixotrop maddələrin tədqiqinin və eyniləşdirilməsinin qabaqcıl metodları barədə;

ekstremizmin zorakı təzahürləri və digər cinayətlərə qarşı mübarizədə əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsində özünü doğrultmuş yeni forma və metodlar barədə;

ən yeni elmi-texniki nailiyyətlərdən istifadə olunmaqla bioloji ekspertizaların (DNA analizi) keçirilməsi metodları barədə;

ağır və xüsusilə ağır cinayətlər üzrə mərkəzləşdirilmiş kriminalistik uçotların tamamlanması və təkmilləşdirilməsi barədə;

digər Tərəfin dövlətinin ərazisində cinayət və hüquq pozuntusunun törədilməsinə görə məsuliyyətə cəlb olunmuş daxili işlər orqanlarının əməkdaşları barədə;

bir Tərəfin daxili işlər orqanlarının əməkdaşlarının digər Tərəfin dövlətinin ərazisində törətdiyi cinayətin üsulları barədə.

5. Tərəflər qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi və genişləndirilməsi üzrə fəaliyyətlərini çoxtərəfli əsaslar üzərində, ilk növbədə aşağıdakı qurumlar çərçivəsində davam etdirəcəklər:

Beynəlxalq kriminal polis təşkilatı - İnterpol;

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Daxili İşlər Nazirləri Şurası;

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin daxili işlər nazirləri-

nin Müşavirəsi.

6. Tərəflər əməkdaşlığın müqavilə-hüquq bazasının möhkəmləndirilməsi istiqamətində fəaliyyətlərini davam etdirəcək, normativ hüquqi aktların, analitik-informasiya materiallarının, dövri idarə nəşrlərinin, həmçinin metodiki vəsaitlərin sistemli şəkildə mübadiləsini həyata keçirəcəklər.

7. Tərəflər kadrların hazırlanması sahəsində əməkdaşlığı genişləndirəcəklər.

8. Tərəflər cinayətkarlıqla mübarizə problemləri üzrə fəaliyyətin elmi sahəsində əməkdaşlığı həyata keçirəcəklər.

9. Tərəflər hüquq mühafizə orqanları tərəfindən istifadə olunan xüsusi vasitələrin, texnikanın, avadanlığın və proqram təminatının işlənib hazırlanması, istehsalı və təchiz edilməsi sahəsində əməkdaşlığa dair təkliflərini bir-biri ilə mübadilə edəcəklər.

10. Tərəflər mədəniyyət və idman sahəsində əməkdaşlığı inkişaf etdirəcək, həmçinin öz əməkdaşlarının və onların ailə üzvlərinin istirahətinin və müalicəsinin təşkil edilməsində bir-birinə qarşılıqlı yardım göstərəcəklər. Bu məqsədlə, əvvəlcədən razılaşdırılmış qaydada, həmçinin maliyyə şərtləri nəzərə alınmaqla, xidməti borclarını yerinə yetirərkən həlak olmuş və ya ağır yaralanmış əməkdaşların uşaqlarından ibarət qrupların mübadiləsi həyata keçiriləcəkdir.

11. Tərəflər arasında qarşılıqlı fəaliyyətin təşkili və əlaqələndirilməsi həvalə olunur:

Azərbaycan Respublikası DİN tərəfindən - Beynəlxalq Əməkdaşlıq İdarəsinə;

Rusiya DİN tərəfindən - İnzibati Departamentin Beynəlxalq Əməkdaşlığın Təşkili İdarəsinə.

12. Tərəflər növbəti dövr üçün qarşılıqlı fəaliyyət haqqında Protokola daxil ediləcək tədbirlərə dair təkliflərini 2012-ci il noyabrın 15-dək mübadilə edəcəklər.

Sankt-Peterburq şəhərində 17 sentyabr 2010-cu il tarixində, hər biri Azərbaycan və rus dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ ADINDAN	RUSİYA FEDERASİYASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ ADINDAN
RAMİL USUBOV	*RAŞİD NURQALİYEV*
Daxili işlər naziri	*Daxili işlər naziri*

2008-ci il oktyabrın 10-da Bişkek şəhərində Azərbaycan Respublikası tərəfindən qeyd-şərt ilə imzalanmış "Dövlət tərəfindən mühafizə olunmalı şəxslərin təhlükəsizliyinin təmin edilməsi sahəsində Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin qarşılıqlı fəaliyyəti haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2008-ci il oktyabrın 10-da Bişkek şəhərində Azərbaycan Respublikası tərəfindən qeyd-şərt ilə imzalanmış "Dövlət tərəfindən mühafizə olunmalı şəxslərin təhlükəsizliyinin təmin edilməsi sahəsində Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin qarşılıqlı fəaliyyəti haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 noyabr 2010-cu il

№ 1187

Dövlət tərəfindən mühafizə olunman şəxslərin təhlükəsizliyinin təmin edilməsi sahəsində Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin qarşılıqlı fəaliyyəti haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlər,

dövlət mühafizəsi obyektlərinin təhlükəsizliyinin təmin edilməsi və mühafizə olunan obyektlərin qorunması sahəsində əməkdaşlığın inkişaf etdirilməsi və dərinləşdirilməsi üçün imkan yaradılmasını arzu edərək,

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin terrorçuluqla mübarizədə əməkdaşlığı haqqında 1999-cu il 4 iyun tarixli Müqavilənin müddəalarını nəzərə alaraq,

dövlət mühafizəsi obyektlərinin təhlükəsizliyinin təmin edilməsi və mühafizə olunan obyektlərin qorunması məsələləri üzrə Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin əməkdaşlığının hüquqi bazasının inkişaf etdirilməsi zərurətindən çıxış edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Sazişin məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə olunur:

dövlət mühafizəsi - dövlət hakimiyyəti orqanlarının hüquqi, təşkilati, informasiya, mühafizə, rejim, əməliyyat-axtarış, texniki və s. tədbirlərin məcmusu əsasında dövlət mühafizəsi obyektlərinin təhlükəsizliyinin təmin edilməsi sahəsində dövlət idarəçiliyinin ehtiyaclan üçün həyata keçirilən funksiyası;

dövlət mühafizəsi obyekti - Tərəflərin qanunlarına və digər normativ hüquqi aktlarına uyğun olaraq dövlət tərəfindən mühafizə olunmalı şəxs;

mühafizə tədbiri - dövlət mühafizəsi obyektlərinin daimi və müvəqqəti olduqları yerlərdə, o cümlədən keçdikləri yollarda təhlükəsizliyinin təmin edilməsi və mühafizə olunan obyektlərin qorunması üçün Tərəflərin səlahiyyətli dövlət orqanları tərəfindən, o cümlədən təhlükəsizliyi təmin edən digər dövlət orqanlarının qüvvə və vasitələrini də

tətbiq etməklə həyata keçirilən hərəkətlərin məcmusu;

mühafizə olunan obyektlər - dövlət hakimiyyəti orqanlarının yerləşdiyi binalar, tikililər və qurğular, göstərilən binalarla, tikililərlə və qurğularla yanaşı olan və dövlət mühafizəsi obyektlərinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə qorunmalı ərazilər və akvatoriyalar, habelə Tərəflərin qanunlarına və digər normativ hüquqi aktlarına uyğun olaraq qorunmalı olan digər obyektlər;

gələn Tərəf - qəbul edən Tərəfin ərazisinə gələn dövlət mühafizəsi obyektlərinin məxsus olduğu dövlət;

qəbul edən Tərəf - gələn Tərəfin dövlət mühafizəsi obyektlərinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə ərazisində mühafizə tədbirlərinin keçirildiyi dövlət;

şəxsi təhlükəsizlik - Tərəfin səlahiyyətli dövlət orqanının fəaliyyətini pozan amillərin qarşısını almaq qabiliyyətini təmin edən xarici və daxili təhdidlərdən müdafiə olunma vəziyyəti;

səlahiyyətli dövlət orqanı - dövlət mühafizəsi sahəsində səlahiyyət verilmiş dövlət icra hakimiyyəti orqanı.

Maddə 2

Tərəflər səlahiyyətli dövlət orqanlarının şəxsində aşağıdakı əsas istiqamətlər üzrə qarşılıqlı fəaliyyəti və öz fəaliyyətlərinin əlaqələndirilməsini həyata keçirirlər:

a) dövlət mühafizəsi obyektlərinin təhlükəsizliyinin təmin edilməsi və mühafizə olunan obyektlərin qorunması;

b) məlumat mübadiləsi, məlumat sistemlərinin, əməliyyat qeydiyyatlarının və arxivlərin toplanması və istifadə olunması;

c) materiallardan, texniki və nəqliyyat vasitələrindən, təchizatlardan, silahlardan, döyüş sursatından, xüsusi vasitələrdən, avadanlıqdan və rabitə vasitələrindən mühafizə fəaliyyətində istifadə olunması;

ç) səlahiyyətli dövlət orqanının şəxsi təhlükəsizliyinin təmin edilməsi;

d) kadrların peşə təlimi və təkmilləşdirilməsi;

e) normativ hüquqi bazanın işlənib hazırlanması.

Səlahiyyətli dövlət orqanlarının əməkdaşlığının konkret istiqamətləri üzrə qarşılıqlı fəaliyyətin reallaşdırılması və fəaliyyətin əlaqələndirilməsi qaydası Tərəflərin bağladığı və bu Sazişə əlavə olunan ayrı-ayrı protokollarla müəyyən edilir.

Maddə 3

Dövlət mühafizəsi obyektlərinin təhlükəsizliyinin təmin edilməsi və mühafizə olunan obyektlərin qorunması sahəsində Tərəflər aşağıdakı hallarda qarşılıqlı fəaliyyəti həyata keçirir və öz fəaliyyətlərini əlaqələndirirlər:

a)Tərəflərin ərazilərində dövlət mühafizəsi obyektlərinin olduğu yerlərdə mühafizə tədbirləri keçirilərkən;

b) dövlət mühafizəsi obyektlərinə və mühafizə olunan obyektlərə qəsd edən hüqu-

qazidd hərəkətləri qabaqlayarkən, aşkar edərkən və aradan qaldırarkən;

c) dövlət mühafizəsi obyektlərinin həyat əhəmiyyətli maraqlarına təhlükə barədə məlumat alarkən;

ç) dövlət mühafizəsi obyektlərinin təhlükəsizliyinin təmin olunmasının maraqları naminə əməliyyat-axtarış tədbirləri keçirilərkən.

Tərəflərin qanunlarına və digər normativ hüquqi aktlarına uyğun olaraq dövlət tərəfindən mühafizə olunmalı şəxslər qəbul edən Tərəfin ərazisində olduqları müddətdə Tərəflərin səlahiyyətli dövlət orqanlarının sorğularına əsasən qəbul edən Tərəf onların təhlükəsizliyini təmin edir.

Qəbul edən Tərəfin ərazisində olduqları müddətdə dövlət mühafizəsi obyektlərinin təhlükəsizliyi qəbul edən Tərəfin səlahiyyətli dövlət orqanının qərarı ilə təmin oluna bilər.

Dövlət mühafizəsi obyektlərinin təhlükəsizliyinin təmin edilməsi üçün tələb olunan lazımi qüvvə və vasitələrin, o cümlədən avtonəqliyyat vasitələrinin zəruri miqdarının ayrılması, dövlət mühafizəsi obyektlərinin təhlükəsizliyinə qarşı yönəlmiş təhdidlərin reallığına və xarakterinə əsaslanaraq gələn Tərəfin səlahiyyətli dövlət orqanının rəyini nəzərə almaqla qəbul edən Tərəf müəyyən edir.

Maddə 4

Tərəflər səlahiyyətli dövlət orqanlarının səlahiyyətləri çərçivəsində Tərəflərin qanunvericiliyinə və bu Sazişə uyğun olaraq qarşılıqlı maraq doğuran məsələlər barədə informasiya mübadiləsi aparır və onun əldə olunması üçün Tərəflərdən birinin sorğusu əsasında tədbirlər görürlər.

Qarşılıqlı razılaşma əsasında Tərəflərin səlahiyyətli dövlət orqanları dövlət mühafizəsi obyektlərinin təhlükəsizliyinin təmin edilməsi üçün yaratdıqları əməliyyat qeydiyyatlarında və arxivlərində, həmçinin informasiya sistemlərində toplanmış məlumatları bir-birinə təqdim edirlər.

Bu Saziş çərçivəsində səlahiyyətli dövlət orqanları arasında mübadilə edilməli olan məlumatların siyahısı, həmçinin sorğuların edilməsi və informasiyanın ötürülməsi qaydaları Tərəflərin qarşılıqlı razılığı ilə müəyyən edilir.

Tərəfin səlahiyyətli dövlət orqanı aldığı informasiyanın qorunmasını təmin edir və həmin informasiya üçüncü tərəfə yalnız onu təqdim edən Tərəfin yazılı razılığı ilə və müəyyən etdiyi həcmdə verilə bilər. Tərəflərin bu informasiyadan istifadə etməsi onların maraq obyektlərinin, birgə və/və ya razılaşdırılmış tədbirlərin və istifadə olunan əməliyyat qüvvələrinin və vasitələrinin aşkarlanmasına gətirib çıxarmamalıdır.

Tərəflərin maraqlarına toxunan informasiyanın icazə verilmədən yayılması və ya informasiya daşıyıcılarının itirilməsi faktları üzrə Tərəflərin səlahiyyətli dövlət orqanları xidməti təhqiqatlar (araşdırmalar), o cümlədən zəruri hallarda birgə və/və ya razılaşdırılmış xidməti təhqiqatlar (araşdırmalar) aparırlar.

Tərəflərin dövlət sirri təşkil edən məlumatlarının ötürülməsi və qorunması qaydaları Tərəflərin qanunvericiliyi və bu Sazişlə müəyyən edilir.

Tərəflərin əldə olunmuş informasiyanın qorunmasının təmin edilməsi üzrə öhdəlikləri bu Sazişin qüvvədəolma müddətinin bitməsindən sonra da qüvvədə qalır.

Maddə 5

Silahın gətirilməsi, aparılması, daşınması, tətbiqi və istifadəsi, materialların, texniki və nəqliyyat vasitələrinin, təchizatların, döyüş sursatlarının, xüsusi vasitələrin, avadanlığın və rabitə vasitələrinin gətirilməsi, aparılması və istifadəsi qəbul edən Tərəfin qanunvericiliyi ilə nizamlanır.

Maddə 6

Tərəflərin səlahiyyətli dövlət orqanlarının, onların əməkdaşlarının və əməkdaşlarının ailə üzvlərinin təhlükəsizliyinə qarşı yönəlmiş təhdidlər, həmçinin Tərəflərin səlahiyyətli dövlət orqanlarının əməkdaşlarının hüquqa-zidd və nüfuzdan salan digər hərəkətləri barədə onlara məlum olan informasiyanı Tərəflərin səlahiyyətli dövlət orqanları vaxtında bir-biri ilə mübadilə edirlər.

Maddə 7

Tərəflərdən hər biri birgə mühafizə tədbirlərinin iştirakçılarının hüquqi vəziyyətinə hörmətlə yanaşaraq, onların vətəndaş hüquqlarını və azadlıqlarını beynəlxalq hüququn hamılıqla tanınan prinsip və normalarına uyğun qaydada tam təmin edir, xidməti vəzifələrinin icrası üçün zəruri şərait yaradır.

Tərəfin səlahiyyətli dövlət orqanının əməkdaşları qəbul edən Tərəfin ərazisində müvəqqəti olduqları müddətdə yurisdiksiya məsələlərində aşağıdakı prinsipləri rəhbər tutmalıdırlar:

gələn Tərəfin səlahiyyətli dövlət orqanının hərəkətləri qəbul edən Tərəfin qanunvericiliyinə zidd olmamalıdır;

gələn Tərəfin səlahiyyətli dövlət orqanının əməkdaşı hüquq pozuntusu törətdikdə, qəbul edən Tərəfin qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyır;

prosessual hərəkətlər həyata keçirilərkən, habelə hüquqi yardım göstərilərkən Tərəflər milli qanunvericiliyi və üzərlərinə götürdükləri beynəlxalq öhdəlikləri rəhbər tuturlar.

Dövlət mühafizəsi obyektlərinin təhlükəsizliyi təmin edilərkən Tərəflərin səlahiyyətli dövlət orqanlarının əməkdaşlarının hərəkətləri ilə qəbul edən Tərəfin ərazisində vurulmuş ziyanı Tərəflər ödəyirlər.

Maddə 8

Tərəflərin milli qanunvericiliyinə uyğun olaraq, Tərəflərin səlahiyyətli dövlət orqanları müqavilələr (kontraktlar) əsasında kadrların peşə hazırlığı və təkmilləşdirilməsində qarşılıqlı yardım göstərir, bu məqsədlə sərəncamlarında olan xüsusi təlim bazasından istifadə edirlər.

Tərəflərin səlahiyyətli dövlət orqanları müqavilələr (kontraktlar) əsasında təcrübənin, tədris-metodik materialların, elmi tədqiqatların nəticələrinin mübadiləsi, ekspert yardımı göstərilməsi, qarşılıqlı maraq kəsb edən elmi tədqiqatların əlaqələndirilməsi yolu ilə tədris-metodik, pedaqoji və elmi tədqiqat fəaliyyəti sahəsində əməkdaşlıq edirlər.

Maddə 9

Tərəflərin səlahiyyətli dövlət orqanlarının fəaliyyətinin səmərəliliyinin təmin edilməsi məqsədilə və dövlət mühafizəsi obyektlərinin təhlükəsizliyinin təmin edilməsi və mühafizə olunan obyektlərin qorunması maraqlan naminə Tərəflər milli qanunvericiliklərinin yaxınlaşdırılması və əməkdaşlığın normativ hüquqi bazasının təkmilləşdirilməsi məsələləri üzrə qarşılıqlı fəaliyyət göstərirlər.

Tərəflərin səlahiyyətli dövlət orqanları milli qanunvericiliyə uyğun olaraq qarşılıqlı maraq kəsb edən normativ hüquqi aktları mübadilə edirlər.

Maddə 10

Tərəflər, zəruri hallarda, konkret fəaliyyət istiqamətləri üzrə birgə əlaqələndirmə qərargahları, şuraları və ya işçi qrupları yarada, statusu və səlahiyyəti bu Sazişə dair ayrıca protokollarla müəyyən edilən nümayəndələrini mübadilə edə və birgə tədbirlər planlarını işləyib hazırlaya bilərlər.

Maddə 11

Bu Saziş Tərəflərdən hər birinin iştirakçısı olduğu digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

Maddə 12

Bu Sazişin tətbiqi və təfsiri ilə bağlı Tərəflər arasında yaranan mübahisəli məsələlər maraqlı Tərəflərin məsləhətləşmələri və danışıqları yolu ilə və ya Tərəflərin razılaşdırdıqları digər prosedurlar vasitəsilə həll olunur.

Maddə 13

Tərəflərin razılığı ilə bu Sazişə onun ayrılmaz tərkib hissəsi olan və müvafiq protokolla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 14

Bu Saziş qeyri-müəyyən müddətə bağlanır və qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları onu imzalayan Tərəflərin yerinə yetirmələri barədə üçüncü bildirişin depozitariyə saxlanmaq üçün verildiyi tarixdən qüvvəyə minir.

Qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları gec yerinə yetirmiş Tərəflər üçün bu Saziş müvafiq sənədlərin depozitariyə verildiyi tarixdən qüvvəyə minir.

Maddə 15

Qüvvəyə mindikdən sonra bu Saziş Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan istənilən üzvün qoşulma barədə sənədlərini depozitariyə verməsi yolu ilə ona qoşulması üçün açıqdır.

Bu Saziş ona qoşulmuş dövlət üçün qoşulma haqqında sənədin depozitari tərəfindən alındığı tarixdən qüvvəyə minir.

Maddə 16

Tərəflərdən hər biri Sazişdən çıxmazdan ən azı 6 ay əvvəl depozitariyə bu niyyəti barədə yazılı bildiriş göndərməklə və Sazişin qüvvədə olduğu müddətdə yaranmış maliyyə

və digər öhdəliklərlə bağlı məsələləri həll etməklə bu Sazişdən çıxa bilər.

Bişkek şəhərində 2008-ci il oktyabrın 10-da rus dilində bir əsl nüsxədə imzalanmışdır. Əsl nüsxə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsində saxlanılır və o bu Sazişi imzalamış hər bir dövlətə onun təsdiq edilmiş nüsxəsini göndərəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN	MOLDOVA RESPUBLİKASI ADINDAN
ARTUR RASİZADƏ *Baş nazir*	*VLADİMİR VORONİN* *Prezident*
ERMƏNİSTAN RESPUBLİKASI ADINDAN	RUSİYA FEDERASİYASI ADINDAN
SERJ SARKİSYAN *Prezident*	*DMİTRİ MEDVEDEV* *Prezident*
BELARUS RESPUBLİKASI ADINDAN	TACİKİSTAN RESPUBLİKASI ADINDAN
ALEKSANDR LUKAŞENKO *Prezident*	*ƏMOMƏLİ RƏHMON* *Prezident*
GÜRCÜSTAN ADINDAN	TÜRKMƏNİSTAN ADINDAN
imza yoxdur	*imza yoxdur*
QAZAXISTAN RESPUBLİKASI ADINDAN	ÖZBƏKİSTAN RESPUBLİKASI ADINDAN
NURSULTAN NAZARBAYEV *Prezident*	*İSLAM KƏRİMOV* *Prezident*
QIRĞIZ RESPUBLİKASI ADINDAN	UKRAYNA ADINDAN
KURMANBEK BAKİYEV *Prezident*	*imza yoxdur*

"Dövlət tərəfindən mühafizə olunmalı şəxslərin təhlükəsizliyinin təmin edilməsi sahəsində Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin qarşılıqlı fəaliyyəti haqqında Saziş"ə dair Azərbaycan Respublikasının qeyd-şərti

1. 10-cu maddə istisna olmaqla.

2. Azərbaycan Respublikasının bütün işğal olunmuş əraziləri azad edilməyənədək və Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünün nəticələri tam aradan qaldırılmayanadək "Dövlət tərəfindən mühafizə olunmalı şəxslərin təhlükəsizliyinin təmin edilməsi sahəsində Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin qarşılıqlı fəaliyyəti haqqında Saziş"də ifadə edilmiş hüquqların, vəzifələrin

və müddəaların heç biri Azərbaycan Respublikası tərəfindən Ermənistan Respublikasına münasibətdə tətbiq olunmayacaqdır.

Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ

"Dövlət tərəfindən mühafizə olunmalı şəxslərin təhlükəsizliyinin təmin edilməsi sahəsində Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin qarşılıqlı fəaliyyəti haqqında Saziş" barədə Azərbaycan Respublikasının qeyd-şərtinə Ermənistan Respublikasının etirazı

Ermənistan Respublikası "Dövlət tərəfindən mühafizə olunmalı şəxslərin təhlükəsizliyinin təmin edilməsi sahəsində Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin qarşılıqlı fəaliyyəti haqqında Saziş" barədə Azərbaycan Respublikasının qeyd-şərtini qəbul etmir, çünki bu, göstərilən sənədin obyekti və məqsədləri ilə bir araya sığmır, həmçinin DQR-ə münasibətdə xalqın azad şəkildə bəyan etdiyi iradəsinə qarşı Azərbaycan Respublikasının hərbi güc tətbiq etməsi və təcavüzü nəticəsində yaranmış münaqişənin həqiqi səbəb və nəticələrinə dair məsələdə Dağlıq Qarabağ probleminin mahiyyətini təhrif edir.

Göstərilən qeyd-şərtlə əlaqədar olaraq "Dövlət tərəfindən mühafizə olunmalı şəxslərin təhlükəsizliyinin təmin edilməsi sahəsində Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin qarşılıqlı fəaliyyəti haqqında Saziş"in müddəaları həmçinin Ermənistan Respublikası tərəfindən də Azərbaycan Respublikasına münasibətdə qəbul edilməyəcəkdir.

Ermənistan Respublikasının Prezidenti S. SARKİSYAN

"Dövlət tərəfindən mühafizə olunmalı şəxslərin təhlükəsizliyinin təmin edilməsi sahəsində Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin qarşılıqlı fəaliyyəti haqqında Saziş" barədə MDB Dövlət Başçıları Şurasının Qərarına Moldova Respublikasının qeyd-şərti

Moldova Respublikası "Dövlət tərəfindən mühafizə olunmalı şəxslərin təhlükəsizliyinin təmin edilməsi sahəsində Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin qarşılıqlı fəaliyyəti haqqında Saziş" çərçivəsində əməkdaşlığı milli qanunvericiliyin və bu sahədə beynəlxalq öhdəliklərin tələblərinə uyğun həyata keçirəcəkdir.

Moldova Respublikası özünü "Dövlət tərəfindən mühafizə olunmalı şəxslərin təhlükəsizliyinin təmin edilməsi sahəsində Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin qarşılıqlı fəaliyyəti haqqında Saziş"dən irəli gələn qanunvericiliyin harmonizasiyası, birgə əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi, Moldova Respublikasının ərazisində birgə daimi əlaqələndirmə qərargahlarının, şuralarının və ya işçi qruplarının yaradılmasına dair öhdəliklərlə bağlı hesab etmir.

Moldova Respublikası özünü "Dövlət tərəfindən mühafizə olunmalı şəxslərin təhlükəsizliyinin təmin edilməsi sahəsində Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin qarşılıqlı fəaliyyəti haqqında Saziş"in 16-cı maddəsinin maliyyə və digər öhdəliklərin nizamlanmasına dair hissəsinə aid olan öhdəliklərlə bağlı hesab etmir.

"Dövlət tərəfindən mühafizə olunmalı şəxslərin təhlükəsizliyinin təmin edilməsi sahəsində Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin qarşılıqlı fəaliyyəti haqqında Saziş"in müddəaları yalnız Moldova Respublikasının konstitusiya orqanları ilə əməkdaşlıqda və köməyi ilə həyata keçiriləcəkdir.

Moldova Respublikasının Prezidenti Vladimir VORONİN

Azərbaycan Respublikasının Cənubi Afrika Respublikasında (Pretoriya şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının Cənubi Afrika Respublikasında (Pretoriya şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikasının Cənubi Afrika Respublikasında (Pretoriya şəhərində) Səfirliyinin fəaliyyətinin təminatı ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirilmə məsələlərini həll etsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasının Cənubi Afrika Respublikasında (Pretoriya şəhərində) Səfirliyinin strukturunu və ştat cədvəlini təsdiq etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 noyabr 2010-cu il.

№ 1194

Azərbaycan Respublikasının Braziliya Federativ Respublikasında (Brazilia şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının Braziliya Federativ Respublikasında (Brazilia şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikasının Braziliya Federativ Respublikasında (Brazilia şəhərində) Səfirliyinin fəaliyyətinin təminatı ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirilmə məsələlərini həll etsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasının Braziliya Federativ Respublikasında (Brazilia şəhərində) Səfirliyinin strukturunu və ştat cədvəlini təsdiq etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 noyabr 2010-cu il.

№ 1195

Azərbaycan Respublikasının Vyetnam Sosialist Respublikasında (Hanoy şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının Vyetnam Sosialist Respublikasında (Hanoy şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikasının Vyetnam Sosialist Respublikasında (Hanoy şəhərində) Səfirliyinin fəaliyyətinin təminatı ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirilmə məsələlərini həll etsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasının Vyetnam Sosialist Respublikasında (Hanoy şəhərində) Səfirliyinin strukturunu və ştat cədvəlini təsdiq etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 noyabr 2010-cu il

№ 1197

Azərbaycan Respublikasının İtaliya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri V.İ.Sadıqovun eyni zamanda Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Ümumdünya Ərzaq Proqramı, Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fondu yanında Daimi nümayəndəsi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının İtaliya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri Vafiq İsmayıl oğlu Sadıqov eyni zamanda Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Ümumdünya Ərzaq Proqramı, Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fondu yanında Daimi nümayəndəsi təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 noyabr 2010-cu il

№ 1199

"Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi və "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə uyğun olaraq xidməti pasport almaq hüququ olan vəzifəli şəxslərin siyahısının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 1995-ci il 13 iyun tarixli 1053 nömrəli qərarının qüvvədən düşmüş hesab edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

"Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi və "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə uyğun olaraq xidməti pasport almaq hüququ olan vəzifəli şəxslərin siyahısının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 1995-ci il 13 iyun tarixli 1053 nömrəli qərarının qüvvədən düşmüş hesab edilməsi haqqında" Azərbaycan Respublikasının 2010-cu il 30 sentyabr tarixli 1075-IIIQD nömrəli qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi və "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə uyğun olaraq xidməti pasport almaq hüququ olan vəzifəli şəxslərin siyahısının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 1995-ci il 13 iyun tarixli 1053 nömrəli qərarının qüvvədən düşmüş hesab edilməsi haqqında" Azərbaycan Respublikasının 2010-cu il 30 sentyabr tarixli 1075-IIIQD nömrəli qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. xidməti pasport almaq hüququ olan vəzifəli şəxslərin siyahısının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.4. öz səlahiyyətləri daxilində "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi və "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə uyğun olaraq xidməti pasport almaq hüququ olan vəzifəli şəxslərin siyahısının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 1995-ci il 13 iyun tarixli 1053 nömrəli qərarının qüvvədən düşmüş hesab edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin birinci hissəsinin birinci cümləsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini birinci halda Azərbaycan Respublikasının Prezidenti, ikinci halda Azərbaycan Respublikasının Prezidenti və Azərbaycan Respublikasının Nazirlər Kabineti, üçüncü halda Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.2. həmin qanunun 5-ci maddəsinin birinci hissəsinin birinci cümləsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini birinci halda mərkəzi icra hakimiyyəti orqanları, ikinci halda yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

2.3. həmin qanunun 5-ci maddəsinin birinci hissəsinin ikinci cümləsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həyata keçirir.

3. "Azərbaycan Respublikasının diplomatik və xidməti pasportları haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1993-cü il 2 aprel tarixli 502 nömrəli fərmanı (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1993-cü il, № 8, maddə 208) qüvvədən düşmüş hesab edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 noyabr 2010-cu il

№ 351

"Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"nə və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əlavələr və dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2010-cu il 30 sentyabr tarixli 1076-IIIQD nömrəli Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

"Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"nə və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əlavələr və dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2010-cu il 30 sentyabr tarixli 1076-IIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 26 fevral tarixli 532 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, №2, maddə 98; 2009-cu il, №2, maddə 59) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsulluğu haqqında Əsasnamə"nin 14.23-cü bəndində "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu" sözləri "və müvafiq inzibati xətalara görə tutulan inzibati cəriməni Azərbaycan Respublikasının qanunvericiliyi" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

2.1. qüvvədə olan qanunvericilik aktlarının "Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"nə və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əlavələr və dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. müvafiq sənədlərə şəhadətnamənin (apostilin) verilməsi üçün alınan dövlət rüsumunun məbləğinə dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.4. öz səlahiyyətləri daxilində "Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"nə və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əlavələr və dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 noyabr 2010-cu il

№ 352

Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və İspaniya Krallığının Ali İdman Şurası arasında idman sahəsində əməkdaşlığa dair Memorandum"u imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və İspaniya Krallığının Ali İdman Şurası arasında idman sahəsində əməkdaşlığa dair Memorandum"u imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Arif oğlu Rəhimova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Arif oğlu Rəhimova verilməsi barədə İspaniya Krallığı tərəfinə müvafiq bildiriş göstərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 noyabr 2010-cu il

№ 1204

"Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Argentina Respublikasının Xarici İşlər, Beynəlxalq Ticarət və Etiqad Nazirliyi arasında siyasi məsləhətləşmələr haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Argentina Respublikasının Xarici İşlər, Beynəlxalq Ticarət və Etiqad Nazirliyi arasında siyasi məsləhətləşmələr haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Xələf Alı oğlu Xələfova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Xələf Alı oğlu Xələfova verilməsi barədə Argentina Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 noyabr 2010-cu il

№ 1209

"Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyası və Argentina Respublikası Xarici İşlər, Beynəlxalq Ticarət və Etiqad Nazirliyinin Diplomatik Xidmət İnstitutu arasında əməkdaşlıq haqqında Memorandum"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyası və Argentina Respublikası Xarici İşlər, Beynəlxalq Ticarət və Etiqad Nazirliyinin Diplomatik Xidmət İnstitutu arasında əməkdaşlıq haqqında Memorandum"u imzalamaq səlahiyyəti Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Hafiz Mir Cəlal oğlu Paşayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Hafiz Mir Cəlal oğlu Paşayevə verilməsi barədə Argentina Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 noyabr 2010-cu il

№ 1210

K.T.Xasiyevin Azərbaycan Respublikasının NATO yanında Nümayəndəliyinin başçısı vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Kamil Tacid oğlu Xasiyev Azərbaycan Respublikasının NATO yanında Nümayəndəliyinin başçısı vəzifəsindən geri çağırılsın.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 noyabr 2010-cu il

№ 1218

K.T.Xasiyevin Azərbaycan Respublikasının Xorvatiya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Kamil Tacid oğlu Xasiyev Azərbaycan Respublikasının Xorvatiya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 noyabr 2010-cu il

№ 1219

"Azərbaycan Respublikasının xarici ölkədəki diplomatik nümayəndəliyinin tabeliyində olan mədəniyyət mərkəzi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

"Azərbaycan Respublikasının Fransa Respublikasındakı və Azərbaycan Respublikasının Özbəkistan Respublikasındakı səfirliklərinin tabeliyində mədəniyyət mərkəzlərinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 1 sentyabr tarixli 1079 nömrəli Sərəncamının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabinеti qərara alır:

1. "Azərbaycan Respublikasının xarici ölkədəki diplomatik nümayəndəliyinin tabeliyində olan mədəniyyət mərkəzi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

Azərbaycan Respublikasının Baş naziri A.RASİZADƏ

Bakı şəhəri, 1 dekabr 2010-cu il

№ 229

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2010-cu il 1 dekabr
tarixli 229 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

Azərbaycan Respublikasının xarici ölkədəki diplomatik nümayəndəliyinin tabeliyində olan mədəniyyət mərkəzi haqqında Əsasnamə

I. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının xarici ölkədəki diplomatik nümayəndəliyinin tabeliyində Mədəniyyət Mərkəzi (bundan sonra - Mərkəz) Azərbaycan Respublikasının daxili və xarici siyasəti, mədəniyyəti, tarixi, sosial, iqtisadi inkişafı, elmi-texniki və turizm potensialı barədə təbliğat işini genişləndirmək məqsədi ilə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin və Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin birgə təklifi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin vəsatəti əsasında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə yaradılır və Azərbaycan Respublikası Səfirliyinin (bundan sonra - Səfirlik) tabeliyində fəaliyyət göstərir.

1.2. Mərkəz öz fəaliyyətində Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı müvafiq beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının Hökuməti ilə qəbul edən dövlətin hökuməti arasında Azərbaycan Respublikası Səfirliyinin tabeliyində Mədəniyyət Mərkəzinin yaradılması və fəaliyyətinə dair bağlanmış sazişi, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi haqqında Əsasnaməni, bu Əsasnaməni, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin və Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əmr, sərəncam və göstərişlərini rəhbər tutur və qəbul edən dövlətin qanunvericiliyini nəzərə alır.

1.3. Mərkəzin yerləşdiyi binada və ya onun ərazisində Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq Azərbaycan Respublikasının Dövlət bayrağı qaldırılır. Mərkəzin yerləşdiyi binaya və ya onun ərazisinə Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və Azərbaycan dilində və qəbul edən dövlətin dövlət dilində (dillərində) "Azərbaycan Respublikasının (qəbul edən dövlətin adı) Mədəniyyət Mərkəzi" yazısı olan lövhə vurulur.

1.4. Azərbaycan Respublikasının mülkiyyəti olan Mərkəzin daşınar və daşınmaz əmlakı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada Mərkəzin direktoruna təhkim olunur.

1.5. Mərkəzin saxlanılması xərcləri və fəaliyyətinin maliyyələşdirilməsi Azərbaycan Respublikasının dövlət büdcəsindən Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə ayrılan vəsaitlər və qanunvericiliklə qadağan olunmayan digər mənbələr hesabına həyata keçirilir.

1.6. Mərkəz müstəqil balansa, müvafiq bank hesablarına, üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və mərkəzin adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.

II. Mərkəzin vəzifələri

2.1. Mərkəz öz səlahiyyətləri daxilində aşağıdakı vəzifələri yerinə yetirir:

2.1.1. qəbul edən dövlətin ictimaiyyətini Azərbaycan Respublikasının daxili və xarici siyasəti, mədəniyyəti, tarixi, sosial, iqtisadi inkişafı, elmi-texniki və turizm potensialı barədə məlumatlandırır;

2.1.2. Mərkəzə müraciət edən şəxslərin kitab, qəzet, jurnal və disklərdən, eləcə də mədəni, elmi və texniki xarakterli sənədlərdən istifadə etmələrinə şərait yaradır;

2.1.3. qəbul edən dövlətdə Azərbaycan dilinin tədrisi və təbliğinə yardım edir;

2.1.4. qəbul edən dövlətdə təhsil alan Azərbaycan Respublikasının vətəndaşları, həmçinin həmin dövlətin Azərbaycan Respublikasında təhsil alan tələbələri və məzunları ilə əlaqələrin yaradılmasında iştirak edir;

2.1.5. qəbul edən dövlətdə yaşayan azərbaycanlılarla mədəni əlaqələrin qurulmasına və əməkdaşlığın inkişafına öz səlahiyyətləri daxilində yardım edir.

III. Mərkəzin funksiyaları

3.1. Mərkəz bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrə uyğun olaraq, öz səlahiyyətləri daxilində aşağıdakı funksiyaları yerinə yetirir:

3.1.1. Azərbaycan Respublikasının daxili və xarici siyasəti, mədəniyyəti, tarixi, sosial, iqtisadi inkişafı, elmi-texniki və turizm potensialı barədə konfranslar, kollokviumlar, görüşlər, tamaşalar, konsertlər, təqdimatlar, sərgiləri və digər tədbirləri Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən bu məqsədlər üçün ayrılmış vəsaitlər dairəsində təşkil edir;

3.1.2. Azərbaycan Respublikasının və qəbul edən dövlətin mədəniyyət və turizm, elm, təhsil orqanları, təşkilatları və qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) arasında əlaqələrin və əməkdaşlığın yaradılmasına və inkişaf etdirilməsinə yardım edir;

3.1.3. mədəniyyət, elm, təhsil, turizm və informasiya əlaqələri sahəsində əməkdaşlıq proqramlarının hazırlanmasında və həyata keçirilməsində iştirak edir;

3.1.4. mədəniyyət, elm, təhsil və turizm sahəsində məlumat və təşviqedici material mübadiləsini həyata keçirir;

3.15. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən ayrılmış vəsaitlər dairəsində film və audiovizual sənədlərin nümayiş etdirilməsini təşkil edir;

3.1.6. qəbul edən dövlətdə təhsil alan Azərbaycan Respublikası vətəndaşlarının, həmçinin həmin dövlətin Azərbaycan Respublikasında təhsil alan tələbə və məzunlarının klub və birliklərinin yaradılmasına şərait yaradır, onların Azərbaycan Respublikası ilə mütəmadi olaraq əlaqə saxlamalarına kömək edir;

3.1.7. qəbul edən dövlətin ali təhsil müəssisələrində və Mədəniyyət Mərkəzində Azərbaycan dilinin tədrisinə şərait yaradır;

3.1.8. Azərbaycan Respublikasının və qəbul edən dövlətin şəhərləri və regionları arasında dostluq, qardaşlıq münasibətlərinin yaradılmasına, inkişafına yardım edir.

IV. Mərkəzin hüquqları

4.1. Mərkəz öz vəzifələrini yerinə yetirmək üçün səlahiyyətləri daxilində aşağıdakı hüquqlara malikdir:

4.1.1. qəbul edən dövlətin rəsmi və ya qeyri-rəsmi mədəniyyət və turizm qurumları, kütləvi informasiya vasitələri ilə əlaqələr yaratmaq və bu əlaqələrin inkişaf etdirilməsində iştirak etmək;

4.1.2. üçüncü dövlətlərin mədəniyyət mərkəzləri ilə əlaqələr yaratmaq və əməkdaşlıq etmək;

4.1.3. Azərbaycan Respublikasının dövlət orqanlarından müəyyən olunmuş qaydada sənədlər, məlumat və digər xarakterli materiallar almaq;

4.1.4. Azərbaycanın mədəniyyəti, tarixi, sosial, iqtisadi inkişafı, elmi-texniki və turizm potensialı barədə konfranslar, kollokviumlar, görüşlər, tamaşalar, konsertlər, təqdimatlar, sərgilər təşkil etmək;

4.1.5. Mərkəzin yerləşdiyi binanın və keçirdiyi tədbirlərin təhlükəsizliyini təmin etmək üçün zəruri tədbirlər görmək;

4.1.6. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun digər hüquqları həyata keçirmək.

V. Mərkəzin fəaliyyətinin təşkili

5.1. Mərkəzə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təqdimatı əsasında Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırılmaqla vəzifəyə təyin olunan və vəzifədən azad edilən direktor rəhbərlik edir. Mərkəzin direktoru Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən ezam olunur və geri çağırılır.

5.2. Mərkəzin direktorunun aylıq vəzifə maaşı Azərbaycan Respublikasının müvafiq ölkədə fəaliyyət göstərən səfirinin aylıq vəzifə maaşının 75 faizi məbləğində müəyyən edilir.

5.3. Mərkəzin direktoru fəaliyyət göstərdiyi dövrdə diplomatik xidmət əməkdaşları üçün müəyyən edilən imtiyaz və immunitetlərdən istifadə edir, onun yaşayış yeri ilə təminat normaları, nəqliyyat vasitələri üçün aylıq yürüş həddi normaları, yüklərinin daşınması, məzuniyyət, təhsil və tibbi sığorta xərcləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 21 yanvar tarixli 11 nömrəli qərarı ilə təsdiq edilmiş "Diplomatik xidmət əməkdaşlarına təminat və kompensasiyaların verilməsi Qaydaları"na uyğun olaraq müəyyən edilir.

5.4. Mərkəzin direktoru vəzifəsinə təyin olunmuş şəxsin əməkhaqqının əvvəlki iş yeri üzrə hesablanan əməkhaqqı (mərkəzi icra hakimiyyəti orqanlarının aparatında şöbə müdiri müavininin əməkhaqqından çox olmamaqla) məbləğinə bərabər olan hissəsi məcburi dövlət sosial sığortasına cəlb olunur. Bu məqsəd üçün tələb olunan xərclər dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərinin "Mədəniyyət və incəsənət sahəsində fəaliyyət" köməkçi bölməsinin müvafiq paraqrafında Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi üzrə nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilir.

5.5. Mərkəzin direktoru və onunla birlikdə gedən arvadı (əri) və 18 yaşına çatmış ərdə

olmayan qızı ezamiyyətdə olduğu müddətdə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən diplomatik pasportla təmin olunurlar.

5.6. Mərkəzin direktorunun əmək funksiyaları Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə razılaşdırılır və müvafiq qanunvericiliyə uyğun olaraq, onunla Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi arasında ezamiyyətdə olduğu müddət üçün əmək müqaviləsi bağlanılır.

5.7. Mərkəzin direktoru öz səlahiyyətləri daxilində Mərkəzin fəaliyyətini təmin edir və rəhbərliyi həyata keçirir. O, öz fəaliyyətini Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə müvafiq qaydada razılaşdırır. Mərkəzin direktoru Mərkəzə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi üçün şəxsən məsuliyyət daşıyır, göstəriş və tapşırıqların icrası ilə bağlı səfirə və Azərbaycan Respublikasının mədəniyyət və turizm nazirinə hesabat verir.

5.8. Mərkəzin işi müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə razılaşdırılmaqla, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təsdiq edilmiş iş planı əsasında təşkil olunur.

5.9. Mərkəz öz fəaliyyəti ilə bağlı dövri hesabatı Səfirlik vasitəsilə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə və Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə təqdim edir.

5.10. Mərkəzin xərclər smetası Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə razılaşdırılmaqla, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təsdiq edilir.

5.11. Mərkəzin vəsaitləri Azərbaycan Respublikasının dövlət büdcəsindən ayırmalar, fəaliyyətindən əldə olunan büdcədənkənar daxilolmalar və Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmayan digər mənbələr hesabına formalaşır.

5.12. Mərkəz büdcədən ayrılan təxsisatlardan əlavə, fəaliyyətindən əldə etdiyi digər gəlirlər və daxilolmalar üzrə xərcləri Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə razılaşdırmaqla, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təsdiq edilmiş smetaya uyğun həyata keçirir.

5.13. Mərkəzdə mühasibat uçotu Səfirlikdəki mühasib tərəfindən aparılır. Mərkəzin bankdakı hesabına daxil olan vəsaitlərin xərclənməsi həmin Səfirliyin mühasibinin və Mərkəzin direktorunun birgə imzası ilə həyata keçirilir və Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə müvafiq qaydada maliyyə hesabatları təqdim edilir.

Azərbaycan Respublikasının Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı arasında "Xəzər dənizi: tükənməkdə olan balıq ehtiyatlarının bərpası və daimi regional ətraf mühit idarəçiliyinin gücləndirilməsi" layihə sənədini Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. Azərbaycan Respublikasının Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı arasında "Xəzər dənizi: tükənməkdə olan balıq ehtiyatlarının bərpası və daimi

regional ətraf mühit idarəçiliyinin gücləndirilməsi" layihə sənədini Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən sənədi Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilməsi barədə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramına müvafiq bildiriş göndərsin.

Azərbaycan Respublikasının Baş naziri A.RASİZADƏ

Bakı şəhəri 3 dekabr 2010-cu il

№ 366s

"Azərbaycan Respublikası Hökuməti və İtaliya Respublikası Hökuməti arasında diplomatik və xidməti pasportlara malik şəxslərin viza tələbindən azad edilməsi haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və İtaliya Respublikası Hökuməti arasında diplomatik və xidməti pasportlara malik şəxslərin viza tələbindən azad edilməsi haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Xələf Alı oğlu Xələfova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Xələf Alı oğlu Xələfova verilməsi barədə İtaliya Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 dekabr 2010-cu il

№ 1228

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında hərbi maliyyə əməkdaşlığı haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında hərbi maliyyə əməkdaşlığı haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Türkiyə Respublikasındakı hərbi attaşesi Ənvər Əkbər oğlu İbrahimova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Türkiyə Respublikasındakı hərbi attaşesi Ənvər Əkbər oğlu İbrahimova verilməsi barədə Türkiyə Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 dekabr 2010-cu il

№ 1230

Azərbaycan Respublikasının İtaliya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri V.İ.Sadıqovun iqamətgahı Roma şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Malta Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının İtaliya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri Vaqif İsmayıl oğlu Sadıqov iqamətgahı Roma şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Malta Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 dekabr 2010-cu il

№ 1235

Azərbaycan Respublikasının İtaliya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri V.İ.Sadıqovun iqamətgahı Roma şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının San Marino Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının İtaliya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri Vaqif İsmayıl oğlu Sadıqov iqamətgahı Roma şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının San Marino Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 dekabr 2010-cu il

№ 1236

Türkdilli Ölkələrin Dövlət Başçılarının X Zirvə Toplantısının Bəyannaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

2010-cu il sentyabrın 16-da İstanbul şəhərində imzalanmış Türkdilli Ölkələrin Dövlət Başçılarının X Zirvə Toplantısının Bəyannaməsi təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 dekabr 2010-cu il

№ 23-IVQ

Türkdilli Ölkələrin Dövlət Başçılarının X Zirvə Toplantısının Bəyannaməsi (İstanbul, 16 sentyabr 2010-cu il)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev, Qırğız Respublikasının Prezidenti Roza Otunbayeva, Türkiyə Respublikasının Prezidenti Abdullah Gül və Türkmənistanın Prezidenti Qurbanqulu Berdiməhəmmədov 16 sentyabr 2010-cu il tarixində İstanbul şəhərində keçirilmiş Türkdilli Ölkələrin Dövlət Başçılarının X Zirvə Toplantısında iştirak etdilər.

Bu Bəyannaməni imzalayan Dövlət başçıları,

Türkdilli ölkələr arasında ortaq tarix, dil, mənsubiyyət və mədəniyyətə əsaslanan qarşılıqlı maraqları və münasibətləri daha da inkişaf etdirmək və həmrəyliyi gücləndirmək niyyətlərini qeyd edərək,

Türkdilli ölkələrin dövlət başçılarının Zirvə Toplantılarının faydasını və 2009-cu ildə Azərbaycan Respublikasında keçirilmiş Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Toplantısında qəbul edilmiş Naxçıvan Bəyannaməsi də daxil olmaqla əvvəllər keçirilmiş Zirvə Toplantılarında qəbul edilmiş Bəyannamələrin müddəalarını təsdiq edərək,

Türkdilli ölkələr arasında hərtərəfli münasibətlərin və mövcud həmrəyliyin Avrasiya məkanında regional və beynəlxalq əməkdaşlığı gücləndirdiyinə əmin olaraq,

Helsinki Yekun Aktı başda olmaqla, Birləşmiş Millətlər Təşkilatının (BMT) Nizamnaməsinin məqsəd və prinsiplərinə, Avropada Əməkdaşlıq və Təhlükəsizlik Təşkilatının (ATƏT) sənədlərinə sadiq olduqlarını ifadə edərək,

Suverenlik, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı, bir-birinin daxili işlərinə qarışmamaq, zor işlətməmək və ya zor işlətməklə hədələməmək prinsipləri əsasında dövlətlərin siyasi və iqtisadi təhlükəsizliyinin möhkəmləndirilməsinə çalışaraq,

3 oktyabr 2009-cu il tarixində Naxçıvan şəhərində keçirilmiş Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Toplantısında "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişi"nin imzalanmasını məmnuniyyətlə qeyd edərək,

aşağıdakıları bəyan etdilər:

1. 27 iyun 2010-cu il tarixində Qırğızıstanda keçirilən referendumun uğurla baş tutmasından məmnunluqlarını ifadə etdilər və 10 oktyabr 2010-cu il tarixində keçiriləcək parlament seçkilərinin regional sülh və sabitlik baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayaraq, bu keçid dövründə Qırğızıstana dəstək verməyə davam edəcəklərini təsdiq etdilər.

2. Qırğızıstana yardım məqsədilə Qazaxıstan tərəfindən Almatı şəhərində təşkil ediləcək Beynəlxalq Donor Konfransının çağırılmasını dəstəklədilər və beynəlxalq birliyi bu Konfransda fəal iştirak etməyə dəvət etdilər.

3. İstanbulda keçirilən Türkdilli Ölkələrin Dövlət Başçılarının X Zirvə Toplantısının Türkdilli dövlətlər arasında ikitərəfli və çoxtərəfli münasibətlərin və əməkdaşlığın gələcək inkişafına töhfə verəcəyini qeyd etdilər.

4. Türkdilli ölkələr arasında ortaq tarix, mədəniyyət, mənsubiyyət və dilə əsaslanan qarşılıqlı maraqlan, münasibətləri və həmrəyliyi inkişaf etdirmək niyyətlərini ifadə etdilər və bununla əlaqədar, milli və regional təhlükəsizliyə, sabitlik və sülhün qorunmasına, həmçinin demokratiya, insan hüquqlarına hörmət, bazar iqtisadiyyatının inkişafı, qanunun aliliyi və yaxşı idarəçilik prinsiplərinə sadiqliklərini bir daha təsdiqlədilər.

5. Türkdilli ölkələr arasında əməkdaşlıq və həmrəyliyin əsasını təşkil edən ortaq tarixi dəyərlərin və mədəni irsin qorunması və gələcək nəsillərə çatdırılmasının əhəmiyyətini vurğulayaraq, bu istiqamətdə görülən tədbirləri dəstəklədiklərini ifadə etdilər.

6. Türkdilli ölkələr arasında münasibətlərin inkişaf etdirilməsi istiqamətində təhlükəsizlik, iqtisadiyyat, mədəniyyət, təhsil, elm, yerli hakimiyyət, vətəndaş cəmiyyəti təşkilatlan arasında əməkdaşlıq daxil olmaqla, bütün sahələrdə qarşılıqlı səfərlərin, təcrübə mübadiləsinin və əməkdaşlığın həyata keçirilməsinə töhfə verəcəklərini vurğuladılar və Türkdilli xalqlar arasındakı əlaqələri gücləndirən parlamentlərarası münasibətlərin vacibliyini qeyd etdilər.

7. Terrorçuluq, ekstremizm, insan alveri və qeyri-qanuni miqrasiya, narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsi, transmilli mütəşəkkil cinayətkarlıq, həmçinin qeyri-qanuni silah alveri də daxil olmaqla beynəlxalq təhlükəsizliyə təhlükə törədən digər təhdid və çağırışlara qarşı mübarizədə əməkdaşlığın və birgə fəaliyyətin əhəmiyyətini bir daha vurğuladılar və Türkdilli ölkələr arasında və beynəlxalq təşkilatlarla həmrəyliyin vacibliyini bir daha təsdiq etdilər.

8. Sərhədlərin zorla dəyişdirilməsinin yolverilməz olmasına dair öz mövqelərini bir daha təsdiqlədilər, beynəlxalq sülh və sabitliyə, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə təhlükə yaradan təcavüz aktlarına qarşı beynəlxalq birliyin mübarizəsinin gücləndirilməsinin qlobal təhlükəsizliyin bərqərar olunmasında həlledici amil olduğuna əminliklərini qeyd etdilər.

9. Türkdilli ölkələr üçün həssas olan məsələlərin regional və beynəlxalq təşkilatların gündəliyində daha intensiv yer tutması məqsədilə beynəlxalq təşkilatlarda birgə mövqenin nümayiş etdirilməsinin əhəmiyyətinə diqqət yetirdilər. Bununla əlaqədar, mühüm beynəlxalq tədbirlərdən əvvəl Türkdilli ölkələr arasında görüşlərin keçirməsinin və əməkdaşlıq imkanlarının müzakirə edilməsinin Türkdilli ölkələr arasında münasibətləri genişləndirəcəyini və gücləndirəcəyini ifadə etdilər.

10. 2010-cu ildə Qazaxıstanın ATƏT-ə sədrliyə başlamasının və onu uğurla davam etdirməsinin ATƏT-in iştirakçı dövlətləri tərəfindən Qazaxıstana göstərilən etimadın əyani nümayişi olduğunu vurğulayaraq, Qazaxıstanın ATƏT-ə sədrliyinin uğurla davam etdirməsini arzuladılar.

11. ATƏT-in İstanbul Sammitindən on bir il sonra ilk ATƏT Sammitinin Astanada keçirilməsi qərarı münasibəti ilə Qazaxıstanı təbrik etdilər, həmçinin 2010-cu ildə Qazaxıstanın rəhbərliyi altında Avro-Atlantik və Avrasiya təhlükəsizliyi ilə əlaqədar davam etdirilən dialoqun Astana Sammitində qəbul ediləcək qərarlarla daha da inkişaf etdirilməsinə ümidlərini ifadə etdilər.

12. Asiyada Qarşılıqlı Əlaqə və Etimadyaratma Tədbirləri üzrə Konfransın (AQƏETK) Asiya qitəsində sülh və sabitliyə artan töhfəsinin vacibliyini təsdiq edərək, AQƏETK-nin siyasi dialoq forumu olaraq əməkdaşlığa əsaslanan təhlükəsizliyin təmin edilməsi istiqamətində səylərini fəal şəkildə dəstəkləyəcəklərini bəyan etdilər.

13. İstanbul Zirvə Toplantısında AQƏETK sədrliyinin bir türk dövlətindən digər bir türk dövlətinə keçməsi ilə bağlı məmnunluq ifadə etdilər, Qazaxıstanın sədrliyi dövründə AQƏETK-nin uğurla təşkilatlanmasına istinad edərək, onun Asiyada etimadyaratma tədbirlərinin həyata keçirilməsində üzərinə götürdüyü aparıcı rola və öhdəliklərə diqqət yetirdilər.

14. Qazaxıstanın 2010-cu il ATƏT sədrliyini və Türkiyənin 2010-2012-ci illərdə AQƏETK sədrliyini və hər iki ölkənin beynəlxalq təşkilatlarda həmrəylik və daha fəal olmağı təşviq edən Avrasiya təhlükəsizlik məkanındakı mərkəzi rolunu qeyd etdilər.

15. Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) ortaq dəyərlərin müəyyən edilməsi, zənginləşdirilməsi, yayılması və təşviqində, həmçinin Türkdilli ölkələr və xalqlar arasında mədəni əlaqələrin dərinləşdirilməsində mühüm bir vəzifəni yerinə yetirdiyini vurğuladılar.

16. Dünya sivilizasiyasının inkişafına əhəmiyyətli töhfə vermiş zəngin türk mədəni irsinin qorunması məqsədilə Bakıda Türk Mədəniyyətinə Dəstək və Türk İrsinin Qorunması Fondunun yaradılması ilə əlaqədar təşəbbüsün həyata keçirilməsinin əhəmiyyətini təsdiqlədilər.

17. 2012-ci ildə Astananın Türk Mədəniyyətinin Paytaxtı elan olunması ilə bağlı TÜRKSOY-un təklifini dəstəklədilər.

18. Türkdilli Ölkələrin Parlament Assambleyasının (TürkPA) Katibliyinin Bakıda fəaliyyətə başlamasından duyduqları məmnuniyyəti ifadə etdilər və TürkPA-nın Türkdilli ölkələrin parlamentləri ilə digər ölkələrin parlamentləri arasında əməkdaşlığın inkişafına töhfə verəcəyini qeyd etdilər.

19. Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Toplantısında imzalanmış Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişi əsasında təsis edilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının üzv dövlətlər arasında əməkdaşlığa təşkilati xüsusiyyət qazandıracağından və regional əməkdaşlığa müsbət töhfə verəcəyindən əmin olduqlarını bildirdilər.

20. İstanbul şəhərində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Katibliyinin təsis

edilməsi istiqamətində görülən tədbirlərin son mərhələyə çatmasından məmnun qaldılar və Türkiyə Respublikası tərəfindən namizədliyi irəli sürülən və Naxçıvan Sazişinin qüvvəyə minməsindən sonra rəsmi olaraq vəzifəsinin icrasına başlayacaq səfir Halil Akıncının Katibliyin ilk Baş katibi kimi təyin olunmasını təsdiq etdilər.

21. Naxçıvan Sazişində nəzərdə tutulan müvafiq sənədləri yekunlaşdırmaq və qəbul etmək barədə Türkdilli Dövlətlərin Xarici İşlər Nazirlərinə təlimat verdilər.

22. Bərabərlik və qarşılıqlı fayda prinsipləri əsasında ticarət və iqtisadiyyat sahəsində münasibətlərin inkişaf etdirilməsini və sənaye, kənd təsərrüfatı, nəqliyyat, rabitə, su enerjisi, alternativ enerji və turizm də daxil olmaqla bütün sahələrdə əməkdaşlığın genişləndirilməsi niyyətlərini ifadə etdilər.

23. Türkdilli ölkələrin dinamik inkişaf edən iqtisadiyyatlarının bir çox sahələrdə, o cümlədən işgüzar dairələr arasında əməkdaşlıq üçün əlverişli şərtlər yaratdığını vurğuladılar və mövcud potensialdan maksimum istifadə edilməsinin əhəmiyyətini təsdiq etdilər.

24. İqtisadi əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə Türkdilli Dövlətlərin Biznes Şurasının yaradılması barədə razılığa gəldilər.

Qeyri-neft sektorunun inkişafına dəstək və özəl sektor üçün yeni imkanların yaradılması məqsədilə birgə Sığorta Şirkətinin və İstanbulda Türkdilli Dövlətlərin İnkişaf Bankının yaradılması imkanlarını araşdırmağı qərara aldılar.

25. Xəzər regionundakı enerji ehtiyatlarının Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində artan rolunu təsdiqləyərək, strateji Bakı-Tiflis-Ceyhan neft və Bakı-Tiflis-Ərzurum qaz kəmərlərinin qlobal enerji təhlükəsizliyinə və region ölkələrinin davamlı iqtisadi inkişafına xidmət etdiyinə əmin olduqlarını ifadə etdilər. Bununla əlaqədar, onlar Bakı-Tiflis-Ceyhan kəmərinin nəql qabiliyyətindən maksimum istifadə olunmasının vacibliyini qeyd etdilər və Aktau limanı ilə Bakı-Tiflis-Ceyhan neft kəməri arasında əlaqəyə xüsusi əhəmiyyət verdilər.

26. 2012-ci ildə fəaliyyətə başlaması nəzərdə tutulan Bakı-Tiflis-Qars dəmiryolu xəttinin Türkdilli ölkələr arasında nəqliyyat əlaqələrini asanlaşdıracağını, eyni zamanda Avrasiya regionunda ticarət həcmini artıracağını, regional inkişaf və iqtisadi inteqrasiyanı sürətləndirəcəyini qeyd etdilər və dəmiryolu xəttinin ən qısa müddətdə fəaliyyətə başlamasının zəruriliyini vurğuladılar.

27. Elm, təhsil, mədəniyyət, incəsənət, turizm, idman və digər sahələrdəki münasibətlərin genişləndirilməsində qarşılıqlı maraqlarını təsdiq etdilər, Türkdilli xalqlar arasında humanitar təmasların gücləndirilməsini dəstəklədiklərini və Türkdilli dövlətlərin gənclər birliklərinin belə fəaliyyətlərə töhfə verəcəyinə ümidlərini ifadə etdilər.

28. Elm təşkilatları, təhsil müəssisələri və elm xadimləri arasında əlaqələrin daha da inkişaf etdirilməsinə töhfə verəcək konkret layihələrə dəstəklərini ifadə etdilər, təhsil sahəsində əməkdaşlığın dərinləşdirilməsinin zəruriliyini yenidən vurğuladılar və xalqlararası dostluğun gücləndirilməsi və bir-birilərinə daha yaxın gələcək nəsillər yetişdirmək məqsədilə təhsil sahəsində sənədlərin qarşılıqlı tanınması imkanlarının araşdırılmasının əhəmiyyətini qeyd etdilər.

29. Astana şəhərində Türk Akademiyasının açılmasından məmnunluqlarını ifadə etdilər və elm sahəsində əməkdaşlığın inkişaf etdirilməsinin və Türkdilli ölkələrin elmi potensialının ortaya çıxarılmasının əhəmiyyətini qeyd etdilər.

30. Türkologiya elmi sahəsində elmi resursların, etno-mədəniyyətin və etno-turizmin təşviqinin əhəmiyyətini etiraf edərək, Türkologiya elminin geniş şəkildə anlaşılması və inkişaf etdirilməsi məqsədilə Türk Tarixi Muzeyinin və "Türk Akademiyası" çərçivəsində Türk Kitabxanasının yaradılması təşəbbüsünü dəstəkləyərək, Türk Akademiyası beynəlxalq təşkilatının yaradılmasının zəruriliyini vurğuladılar.

31. Türk Akademiyasının fəaliyyətini dəstəkləmək məqsədilə universitetlər arasında birliyin yaradılmasını və bu məqsədlə universitetlər arasında birgə tədrisi də əhatə edən əməkdaşlıq formalarını təşviq edəcəklərini bildirdilər.

32. Türkdilli ölkələrin mövcud tədqiqat və inkişaf potensialından qarşılıqlı faydalanma və bu potensialın təşkilatlandırılaraq inkişaf etdirilməsi məqsədilə xüsusi fondun təsis edilməsi barədə razılığa gəldilər.

33. İqlim dəyişikliyi və ətraf mühit məsələləri ilə əlaqədar beynəlxalq müstəvi də daxil olmaqla əməkdaşlıqlarını inkişaf etdirmək istəklərini bəyan etdilər.

34. Su ehtiyatlarından hərtərəfli istifadə edilməsi məqsədilə beynəlxalq əməkdaşlığın zəruriliyini bildirdilər.

35. Ətraf mühitin mühafizəsinin əhəmiyyətini vurğuladılar və tərəfləri regionda, xüsusilə Aral dənizi hövzəsində ətraf mühitin vəziyyətinin yaxşılaşdırılması və buzlaqların əriməsinin qarşısının alınması üzrə təcili tədbirlər görməyə çağırdılar.

36. Regional və qlobal təhlükəsizliyin möhkəmləndirilməsinə, bütün sahələrdə qarşılıqlı fəaliyyətin və əməkdaşlığın, sıx əlaqə və birgə tədbirlərin inkişafına yönəlmiş siyasi məsləhətləşmələrin daha da təşviq olunmasının zəruriliyini təsdiq etdilər.

37. Beynəlxalq təhlükəsizlik, davamlı inkişaf, həmçinin BMT Nizamnaməsində təsbit olunmuş məqsədlərə nail olunması üçün qlobal və strateji məsələlərin həllində BMT-nin rolunun gücləndirilməsinə xüsusi diqqət yetirdiklərini bildirdilər, BMT-dəki islahatların Təşkilatın beynəlxalq məsələlərdə mərkəzi rolunun gücləndirilməsinə, onun potensialının beynəlxalq hüquq qaydasına yeni təhlükə və təhdidlərə qarşı çevik və səmərəli istifadəsinə yönəldilməli olduğunu qeyd etdilər.

38. Azərbaycanın və Türkiyənin 2010-2014-cü illər üzrə Beynəlxalq Telekommunikasiya İttifaqı Şurasının üzvlüyünə 2010-cu ilin oktyabr ayında keçiriləcək seçkilərdə namizədliklərini, həmçinin Qırğızıstanın Radio Tənzimləmə Şurasına namizədliyini ("C" regionu üzrə) dəstəkləyəcəklərini bəyan etdilər.

39. 2011-2015-ci illər üzrə BMT-nin Təhsil, Elm və Mədəniyyət üzrə Təşkilatının (UNESCO) İcraedici Şurasının üzvlüyünə 2011-ci ilin oktyabr ayında keçiriləcək seçkilərdə Türkiyənin namizədliyini dəstəkləyəcəklərini təsdiq etdilər.

40. BMT İnsan Hüquqları Şurasının üzvlüyünə Qazaxıstanın namizədliyini 2012-2015-ci illər üzrə 2012-ci ilin may ayında və Türkiyənin namizədliyini 2013-2016-cı illər üzrə 2013-cü ilin may ayında keçiriləcək seçkilərdə dəstəkləyəcəklərini ifadə etdilər.

41. BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə Azərbaycanın və Qırğızıstanın 2012-2013-cü illər üzrə 2011-ci ildə və Qazaxıstanın 2017-2018-ci illər üzrə 2016-cı ildə keçiriləcək seçkilərdə namizədliklərinin ciddi şəkildə nəzərdən keçirilməsi niyyətlərini təsdiq etdilər.

42. BMT-nin İqtisadi və Sosial Şurasının (ECOSOC) üzvlüyünə Türkmənistanın namizədliyini 2012-2013-cü illər üzrə 2011-ci ildə və Qırğızıstanın namizədliyini 2013-2015-ci illər üzrə 2012-ci ildə keçiriləcək seçkilərdə dəstəkləyəcəklərini ifadə etdilər.

43. İslam Konfransı Təşkilatı (İKT) çərçivəsində birgə dəyərlər əsasında əməkdaşlığın və həmrəyliyin gücləndirilməsinin zəruriliyini vurğuladılar.

44. Qazaxıstanın 2011-ci ildə İKT Xarici İşlər Nazirləri Şurasına sədrliyinə başlamasını məmnuniyyətlə qarşıladılar, sədrliyi dövründə Qazaxıstana dəstək verəcəklərini bir daha təsdiq etdilər.

45. İKT-nin üzvü olan dövlətlər arasında ticarətin artırılması məqsədilə yaradılmış İKT preferensial ticarət sisteminin iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində mühüm rol oynayacağına dair əminliklərini qeyd etdilər.

46. İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) gücləndirilməsi və səmərəliliyinin artırılması üzrə səylərə töhfə verəcəklərini təsdiq etdilər.

47. Avropa Şurası ilə dialoq aparmaq və əməkdaşlıq etmək barədə birgə niyyətlərini ifadə etdilər.

48. Əfqanıstanda sabitlik və yenidənqurmanın təmin edilərək onun qonşu ölkələrlə sülh və əməkdaşlıq şəraitində yaşamasını dəstəklədiklərini ifadə etdilər. 18 sentyabr 2010-cu il tarixində Əfqanıstanda keçiriləcək parlament seçkilərinin ölkədə milli birlik və həmrəyliyin möhkəmləndirməsinə və ictimai barışığa töhfə verəcəyinə ümidvar olduqlarını bildirdilər. "Asiyanın qəlbində" dostluq və əməkdaşlıq üçün İstanbul Bəyanatı"nda qeyd olunmuş yanaşma əsasında Əfqanıstanda regional əməkdaşlıq və əlaqələrin təşviqinə dinc vasitələrlə töhfə vermək niyyətlərini ifadə etdilər.

49. İraqın suverenliyi və ərazi bütövlüyünün qorunması və bütün İraq cəmiyyətinin ayrılmaz hissəsi olan türk mənşəli icmanın hüquq və azadlıqlarının təminatının zəruriliyinə diqqət yetirdilər.

50. 31 may 2010-cu il tarixində İsrail tərəfindən Qəzzaya humanitar yardım aparan gəmi karvanına qarşı beynəlxalq sularda həyata keçirilən və 9 dinc şəxsin öldürülməsi ilə nəticələnən basqına dərindən təəssüfləndilər. Regional sülh və təhlükəsizliyi təhdid edən bu cür hadisələrin təkrarlanmasının qarşısının alınması və beynəlxalq hüquqa hörmət anlayışının həyata keçirilməsi məqsədilə sözügedən hadisənin təhqiqatı üçün BMT-nin Baş katibi Ban Ki-Mun tərəfindən yaradılmış Təhqiqat Qrupunun vəzifəsini BMT Təhlükəsizlik Şurası sədrinin 1 iyun 2010-cu il tarixli Bəyanatına müvafiq şəkildə beynəlxalq standartlara uyğun olaraq dərhal, qərəzsiz, etibarlı və şəffaf şəkildə yerinə yetirilməsinə əhəmiyyət verdiklərini vurğuladılar. Təhqiqat Qrupunun işlərinə yardımçı element kimi BMT İnsan Hüquqları Şurası tərəfindən yaradılmış "Fakt-Araşdırma

Missiyası"nın fəaliyyətinə dəstəklərini ifadə etdilər.

51. Regional və qlobal sülh və sabitlik üçün İranın nüvə proqramı ilə bağlı fikir ayrılığının dialoq və diplomatiya vasitəsilə həllinin əhəmiyyətini vurğuladılar, 17 may 2010-cu il tarixində Tehranda imzalanmış Birgə Bəyannamənin həyata keçirilməsinin fikir ayrılığının hərtərəfli və yekun həlli üçün zəruri dialoq mühitinin yaradılmasına töhfə verəcəyinə inandıqlarını bildirdilər və beynəlxalq birliyi bu fürsətdən ən yaxşı şəkildə istifadə etməyə çağırdılar.

52. Türkiyənin Avropa İttifaqına (Aİ) üzv olması hədəfmi və bu prosesin hazırkı öhdəliklər əsasında inkişaf etdirilməsini dəstəklədilər, eyni zamanda Türkiyənin Avrasiya regionunda mühüm dövlətlərdən biri olduğunu, onun Aİ-yə üzvlüyünün regionda siyasi, iqtisadi və sosial inkişafı sürətləndirəcəyini və region ilə Aİ arasında əlaqələri gücləndirəcəyini vurğuladılar.

53. Kiprdə iki tərəf arasında davam edən hərtərəfli tənzimləmə danışıqlarına dəstəklərini qeyd etdilər və Kipr liderlərinin birgə bəyanatlarında müəyyən edilmiş çərçivədə yaradılmış yeni Tərəfdaşlıq yaradılması ilə BMT Baş katibinin 11 may 2010-cu il tarixli xoşməramlı missiyası məruzəsində göstərilən məqsəd istiqamətində 2010-cu ilin sonunadək hərtərəfli həllin əldə edilməsinə ümidlərini ifadə etdilər, Kipr türklərinin beynəlxalq arenada hər hansı hüquqi əsası olmayan təcridinin təxirə salınmadan aradan qaldırılması ilə əlaqədar BMT və İKT tərəfindən edilən müraciətləri dəstəklədilər.

54. Davamlı sabitliyə və regional əməkdaşlığa əsas maneələrdən biri olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı əsasında sülh yolu ilə həll edilməsinin vacib olduğunu qeyd etdilər və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinin Avrasiya məkanında sülh, sabitlik və rifahın təmin edilməsi istiqamətində mühüm tərəqqi olacağına əminliklərini təsdiq etdilər.

55. BMT-nin təşəbbüsü olan və mədəniyyətlər arasında qarşılıqlı hörmət, harmoniya və tolerantlıq mühitinin artırılması məqsədini güdən Sivilizasiyalar Alyansına dəstək verdiklərini və Türkdilli ölkələrin Alyansın işinə göstərdikləri yaxın münasibətdən məmnun qaldıqlarını ifadə etdilər.

56. 26-29 aprel 2010-cu il tarixində Azərbaycanda keçirilmiş Dini Liderlərin Ümumdünya Sammitinin və Qazaxıstanın rəhbərliyi altında Dünyəvi və Ənənəvi Din Liderlərinin Konqresinin müxtəlif mədəniyyətlər və etiqadlar arasında qarşılıqlı anlaşmanın gücləndirilməsinə verdiyi töhfəni məmnuniyyətlə qeyd etdilər.

57. Naxçıvan Sazişinin imzalanma gününün (3 oktyabr) Türkdilli Dövlətlərin Əməkdaşlıq Günü kimi qeyd edilməsini qərara aldılar.

58. Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistanın müstəqilliyinin əldə edilməsinin 20-ci il dönümünü 2011-ci ildə birgə tədbirlər təşkil etməklə qeyd etməyi qərara aldılar.

Bu çərçivədə 2011-ci ildə Aşqabadda Türkdilli Ölkələrin mədəniyyət festivalının keçirilməsi barədə Türkmənistanın təklifmi məmnuniyyətlə qarşıladılar.

59. Türkdilli Dövlətlərin Əməkdaşlı Şurasının Birinci Zirvə Toplantısının 2011-ci ildə

Qazaxıstanda və İkinci Zirvə Toplantısının 2012-ci ildə Qırğızıstanda keçirilməsi barədə qərar qəbul etdilər.

60. Qonaqlar Zirvə Toplantısının nəticələri ilə bağlı məmnunluqlarını ifadə etdilər, onlara göstərilən səmimi qəbul və qonaqpərvərliyə görə türk xalqına və Türkiyə Respublikasının Prezidenti Abdullah Gülə təşəkkürlərini bildirdilər.

16 sentyabr 2010-cu il tarixində İstanbul şəhərində Azərbaycan, qazax, qırğız və türk dillərində imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ	QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEV	*ROZA OTUNBAYEVA*
QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ	TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
NURSULTAN NAZARBAYEV	*ABDULLAH GÜL*

"Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında" Müqavilənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında" 2010-cu il avqustun 16-da Bakı şəhərində imzalanmış Müqavilə təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 dekabr 2010-cu il

№ 24-IVQ

Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası və Türkiyə Respublikası,

9 fevral 1994-cü il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə"ni və "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokol"u rəhbər tutaraq, habelə 13 oktyabr 1921-ci il tarixli Qars Müqaviləsinə sadiq olduqlarını ifadə edərək,

ənənəvi dostluq və qardaşlıq münasibətlərinin müştərək dəyərlər, hərtərəfli əməkdaşlıq, etimad və hər iki ölkənin maraqlarına qarşılıqlı hörmət əsasında daha da gücləndiril-

məsi əzmində olaraq,

bir-birinin daxili işlərinə qarışmamaq, suveren bərabərlik, ərazi bütövlüyü və beynəlxalq tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinin vacibliyini təsdiq edərək, müstəqilliklərinə, suverenliklərinə, ərazi bütövlüklərinə yönələn silahlı basqın halında lazımi qarşılıqlı yardım tədbirlərin həyata keçirilməsinin zəruriliyini vurğulayaraq,

milli təhlükəsizliklərinin təmin edilməsi və iqtisadi qüdrətlərinin gücləndirilməsinin və müştərək dəyərlərinin qorunmasının Tərəflərin on ümdə maraqlan olduğu üçün siyasi, iqtisadi, energetika, mədəni, humanitar, hərbi və hərbi-texniki sahələrdəki əməkdaşlıqlarını inkişaf etdirmək və dərinləşdirmək qətiyyətində olduqlarını ifadə edərək,

aktual beynəlxalq məsələlərdə birgə mövqe nümayiş etdirmək məqsədilə, beynəlxalq və regional təşkilatlarda iki ölkə arasında mövcud əməkdaşlığın daha da möhkəmləndirilməsinin əhəmiyyətini vurğulayaraq,

bölgədə sülh, əmin-amanlıq, rifah və inkişaf məqsədi ilə əlverişli şəraitin bərqərar olması üçün dövlətlərin təhlükəsizliyinin, suverenliyinin və ərazi bütövlüyünün təmin edilməsinin ən vacib şərt olduğunu təsdiqləyərək,

insan hüquqları, qanunun aliliyi və yaxşı idarəetmə prinsiplərinə sadiq olduqlarını ifadə edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Hərbi-siyasi və təhlükəsizlik məsələləri

Maddə 1

Tərəflər qonşu və qardaş dövlətlər olaraq bir-birinin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının təmin olunmasında və qorunmasında bir-biri ilə sıx əməkdaşlıq edəcəklər. Tərəflərin hər hansı biri ərazi bütövlüyünün, suverenliyinin və sərhədlərinin toxunulmazlığının təhdid edildiyi və ya təhlükə altında olduğu qənaətində olduqda, Tərəflər bu təhdid və təhlükələrin aradan qaldırılması istiqamətində görülə biləcək tədbirlər barədə təxirəsalınmadan məsləhətləşmələr aparacaqlar.

Maddə 2

Tərəflərdən biri üçüncü dövlət və ya bir qrup dövlət tərəfindən silahlı basqın və ya hərbi təcavüzə məruz qaldıqda, Tərəflər BMT Nizamnaməsinin 51-ci maddəsi ilə tanınan fərdi və ya kollektiv özünü müdafiə hüququnun həyata keçirilməsi üçün hərbi imkan və qüdrətlərindən istifadə etmək də daxil olmaqla, mövcud imkanları çərçivəsində bütün zəruri tədbirlərin görülməsi məqsədi ilə bir-birinə qarşılıqlı yardım göstərəcəkləri barədə razılığa gəldilər. Bu yardımın forması və həcmi təxirəsalınmadan Tərəflər arasında razılaşdırılacaqdır.

Maddə 3

Tərəflər bu Müqavilənin 2-ci maddəsini rəhbər tutaraq, bir-birinə qarşılıqlı yardımın təmin edilməsi üçün səylərin birləşdirilməsi və razılaşdırılmış tədbirlərin icrası məqsədi ilə müdafiə və hərbi-texniki sahədə siyasətlərinin həyata keçirilməsində və silahlı qüvvələri arasındakı əlaqələrin daha da gücləndirilməsində sıx əməkdaşlıq edəcəklər.

Maddə 4

Tərəflər onların maraqlarına toxunan bütün beynəlxalq təhlükəsizlik məsələləri üzrə bir-biri ilə məsləhətləşmələr aparacaq və bu Müqavilənin məqsədlərinin uğurla həyata keçirilməsinə nail olmaq üçün həyati maraqlarının, ələlxüsus milli təhlükəsizliyinin təmin edilməsi və milli təhlükəsizliyə qarşı yönələn hər hansı təhdid və təhlükənin aradan qaldırılması üçün qarşılıqlı məsləhətləşmələr əsasında fərdi və birgə tədbirlər görmək imkanlarının inkişaf etdirilməsində və artırılmasında bir-birinə davamlı, səmərəli yardım göstərəcək və əməkdaşlıq edəcəklər.

Maddə 5

Tərəflərdən hər hansı biri, digər Tərəfin müstəqilliyinə, suverenliyinə və ərazi bütövlüyünə qarşı yönələ bilən ittifaq və hərəkətlərdə iştirak etməyəcək, öz ərazisində digər Tərəfin müstəqilliyinə, suverenliyinə və ərazi bütövlüyünə təhlükə yaradan təşkilatların və qrupların yaradılmasını və fəaliyyətini qadağan edəcəklər.

Tərəflərdən hər hansı biri öz ərazisindən digər Tərəfə qarşı təcavüz aktlarının və digər zorakı hərəkətlərin həyata keçirilməsi üçün istifadə edilməsinə yol verməməyi öhdələrinə götürürlər.

Maddə 6

Tərəflər regional və beynəlxalq sabitliyə və təhlükəsizliyə mənfi təsir edən müxtəlif təhdid və çağırışlara, xüsusilə terrorçuluğa, onun bütün forma və təzahürlərinə, maliyyələşdirilməsinə, həmçinin kütləvi qırğın silahlarının yayılmasına, mütəşəkkil cinayətkarlığa, çirkli pulların yuyulmasına, narkotiklərin qeyri-qanuni dövriyyəsinə, insan alverinə, qeyri-qanuni miqrasiyaya qarşı mübarizə sahəsində birgə səylərini və əməkdaşlıqlarını gücləndirəcəklər.

Hərbi və hərbi-texniki əməkdaşlıq məsələləri

Maddə 7

Tərəflər bu Müqavilədə nəzərdə tutulan müdafiə sahəsində əməkdaşlığın və qarşılıqlı yardımın həyata keçirilməsi üçün, öz milli qanunvericilikləri və beynəlxalq öhdəlikləri əsasında və qanuni müdafiə ehtiyaclarının təmin olunması zərurətini nəzərə alaraq, silahlı qüvvələrinin güc və idarəetmə strukturlarının əlaqələndirilməsi üçün lazımi planlaşdırma həyata keçirirlər.

Maddə 8

Tərəflər bu Müqavilənin 2-ci maddəsində qeyd olunan müdafiə və qarşılıqlı yardımın həyata keçirilməsi çərçivəsində birgə hərbi əməliyyatlar aparılması məqsədi ilə hərbi infrastrukturlarının təkmilləşdirilməsi, silahlı qüvvələrin hərtərəfli hazırlığı, onların zəruri silahlarla və hərbi texnika ilə təmin edilməsi üçün bütün lazımi milli tədbirləri görürlər.

Maddə 9

Tərəflər arasında müdafiə sahəsində əməkdaşlıq çərçivəsində nəzərdə tutulan tədbirlər aşağıdakı şəkildə həyata keçiriləcəkdir:

- Tərəflərin müdafiə ehtiyacları və təhlükəsizliyi üçün müdafiə təyinatlı məhsulların və maddi-texniki vasitələrin təchizatı;

- müdafiə təyinatlı məhsulların yaradılması və istehsalı;

- müdafiə təyinatlı xidmətlərin təqdim edilməsi;

- birgə hərbi təlimlərin və müdafiə hazırlığı üzrə tədbirlərin keçirilməsi;

- silahlı qüvvələr üçün mütəxəssislərin hazırlanması;

- silahlı qüvvələrin fəaliyyətinin arxa cəbhə təminatı;

- hərbi tibb və səhiyyə;

- qarşılıqlı razılığa əsasən digər sahə və məsələləri.

İqtisadi əməkdaşlıq məsələləri

Maddə 10

Tərəflər ticarət-iqtisadi əlaqələrin hər iki ölkənin potensialına uyğun olaraq genişləndirilməsi, habelə iki ölkə arasında iqtisadi inteqrasiyanın dərinləndirilməsi məqsədi ilə fəaliyyətlərini daha da intensivləşdirəcəklər.

Maddə 11

Tərəflər qarşılıqlı investisiya və ticarət əlaqələrini, sənaye, maliyyə və bank sektorunda, kənd təsərrüfatı, yeyinti və yüngül sənaye, rabitə və informasiya texnologiyaları, kommunikasiya, nəqliyyat və turizm, alternativ enerji mənbələrindən istifadə və digər iqtisadi sahələrdə əməkdaşlığı inkişaf etdirəcək, habelə üçüncü ölkələrdə fəaliyyət göstərən müəssisələri arasında qarşılıqlı faydalı əməkdaşlığı təşviq edəcəklər. Tərəflər ixracın gücləndirilməsi, məhsuldarlığın artırılması, yeni texnologiyaların istifadəsi və investisiyaların cəlb olunması məqsədi ilə əməkdaşlığı genişləndirəcəklər.

Maddə 12

Tərəflər enerji sahəsində qlobal və regional enerji təhlükəsizliyinin təmin edilməsi və iqtisadiyyatlarının gücləndirilməsi məqsədi ilə ərazilərdən keçən qlobal əhəmiyyətli enerji layihələrinin davamlı fəaliyyəti üçün bütün zəruri tədbirləri həyata keçirəcək və bu istiqamətdəki əməkdaşlıqlarını genişləndirəcəklər.

Tərəflər, həmçinin öz ölkələrində və üçüncü ölkələrdə karbohidrogen ehtiyatlarının inkişaf etdirilməsi, daşınması və satışının təmin edilməsi üçün müştərək investisiya layihələri həyata keçirmək niyyətindədirlər. Bu məqsədlərin həyata keçirilməsi üçün Tərəflər aidiyyəti qurum və təşkilatlarının nümayəndələrindən ibarət olacaq Enerji Sahəsində Birgə Komissiya yaradılması barədə razılığa gəldilər.

Maddə 13

Tərəflər sərnişinlərinin və yüklərinin öz ölkələrinin hüdudları daxilindəki dəniz və hava limanlarından, dəmir və magistral yolları şəbəkələrindən maneəsiz keçməsinin təmin olunması istiqamətində əməkdaşlığı inkişaf etdirəcəklər. Tərəflər iştirakçıları olduqları beynəlxalq müqavilələrinə və milli qanunvericiliklərinə uyğun olaraq, tranzit nəqliyyat xətləri və nəqliyyatın digər sahələri ilə bağlı olan infrastrukturların inkişafında əməkdaşlıqlarını dərinləşdirəcəklər.

Humanitar məsələlər

Maddə 14

Tərəflər Parlamentlərarası əməkdaşlığın gələcəkdə daha da inkişaf etdirilməsini təşviq edəcəklər.

Maddə 15

Tərəflər, lazımi dövlət dəstəyini də təmin edərək, müştərək dəyərlərə söykənən xalqları arasında güclü əlaqələrinin ictimai inteqrasiyası məqsədilə humanitar, sosial müdafiə, səhiyyə, təhsil, mədəniyyət, gənclər və idman sahələrində əməkdaşlığı inkişaf etdirəcək, hər iki xalqın müştərək dəyərlərinin əsas ünsürləri olan dillərinin, müqəddəs dəyərlərinin və mədəni irslərinin hər iki ölkədə də tanıdılmasını və inkişaf etdirilməsini təşviq edəcək və lazımi ictimai dəstəyinin göstərilməsini təmin edəcək, tarixi və mədəni irslərinin qorunması üçün birgə fəaliyyət həyata keçirəcəklər.

Tərəflər, bir-birlərinin incəsənət qurumlarının fəaliyyətlərinin hər iki ölkədə də genişləndirilməsi və müştərək mədəniyyət və incəsənət qurumlarının yaradılması barədə razılığa gəldilər.

Maddə 16

Tərəflər intellektual, elmi və texniki potensiallarının daha da artırılması və ümumi elmi-texniki məkanın yaradılması məqsədi ilə, elmi müəssisələri arasında əlaqələrin gücləndirilməsini təşviq edəcək, müştərək elmi tədqiqat layihələrinin icrası və əldə olunan elmi, texniki və texnoloji nailiyyətlərin ən yaxşı şəkildə tətbiqi və qarşılıqlı istifadə olunması istiqamətində əməkdaşlıq edəcəklər.

Maddə 17

Tərəflər rabitə və informasiya texnologiyaları sahəsində, eləcə də kütləvi informasiya vasitələri arasında əməkdaşlığın inkişaf etdirilməsini təşviq edəcəklər.

Maddə 18

Tərəflər milli qanunvericiliklərinə uyğun olaraq, vətəndaşlarının bir-birinin ölkələrinə gediş-gəlişinin asanlaşdırılması, bir Tərəfin vətəndaşının digər tərəfinin ölkəsində yaşamasının, daşınmaz əmlak əldə etməsinin, əmək fəaliyyəti ilə məşğul olması və sosial müdafiəsinin təmin olunması üçün tədbirlər görəcəklər.

Tərəflər milli qanunvericiliklərinə uyğun olaraq, hər iki ölkənin milli maraqlarının müdafiəsi, xalqlarının tarixi və mədəniyyətinin dünya ictimaiyyətinə çatdırılması, Tərəflərin üçüncü ölkədə yaşayan vətəndaşlarının, habelə üçüncü ölkənin vətəndaşı olan və ya vətəndaşlığı olmayan, lakin etnik, dil, mədəniyyət və ya tarixi əlaqələr baxımından Tərəflərdən birinə bağlılığı olan soydaşların hüquqlarının qorunması istiqamətində digər ölkələrdəki diasporlarının fəaliyyətinə beynəlxalq hüquqi aktlar çərçivəsində və müvafiq ölkələrin qanunvericiliyinin imkan verdiyi həddə dəstək verəcəklər.

Maddə 19

Tərəflər ətraf mühitin mühafizəsi və iqlim dəyişikliyinin mənfi təsirlərinin qarşısının alınması sahəsində birgə səylərin göstərilməsi məqsədilə ətraf mühit sahəsində höku-

mət və qeyri-hökumət təşkilatları arasında əməkdaşlığı təşviq edəcəklər.

Maddə 20

Tərəflər ərzaq təhlükəsizliklərinin təmin edilməsi istiqamətində kənd təsərrüfatı və ərzaq təminatı sahəsində əməkdaşlıqlarını daha da inkişaf etdirəcəklər.

Ümumi və yekun müddəalar

Maddə 21

Bu Müqavilənin müddəaları Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə xələl gətirməyəcəkdir.

Maddə 22

Bu Müqavilə müddəalarının təfsirindən və ya tətbiqindən irəli gələn hər cür fikir ayrılığı arbitraja və ya hər hansı bir milli və ya beynəlxalq məhkəməyə ya da digər üçüncü tərəf vasitəsilə həll yollarına müraciət etmədən Tərəflər arasında danışıqlar yolu ilə dostcasına həll olunacaqdır.

Maddə 23

Bu Müqavilə, Tərəflərin milli qanunvericiliklərinin nəzərdə tutduğu lazımi prosedurların başa çatması ilə əlaqədar ratifikasiya sənədlərinin mübadilə edildiyi gündən qüvvəyə minir və 10 il müddətində qüvvədə qalacaqdır.

Tərəflərdən hər biri bu Müqavilənin müddətinin bitməsinə ən azı 6 ay qalmış diplomatik kanallar vasitəsilə yazılı olaraq Müqavilənin ləğvi barədə bildiriş təqdim etmədiyi halda Müqavilənin qüvvədə olma müddəti avtomatik olaraq növbəti 10 illik müddətlərə uzadılacaqdır.

Bu Müqavilə qarşılıqlı razılaşma ilə dəyişdirilə bilər. Hər bir dəyişiklik bu maddənin birinci bəndində müəyyən edilmiş qaydaya uyğun olaraq qüvvəyə minəcəkdir.

Bu Müqavilə Bakı şəhərində 16 avqust 2010-cu il tarixində Azərbaycan və Türk dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni hüquqi qüvvəyə malikdir. Təfsir zamanı fərqlər olduğu halda bütün mətnlər bərabər dərəcədə əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN	TÜRKİYƏ RESPUBLİKASI ADINDAN
İLHAM ƏLİYEV	*ABDULLAH GÜL*
Prezident	*Prezident*

"Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yaradılması haqqında" Birgə Bəyannamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yaradılması haqqında" 2010-cu il sentyabrın 15-də İstanbul şəhərində imzalanmış Birgə Bəyannamə təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 dekabr 2010-cu il

№ 25-IVQ

Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yaradılması haqqında Birgə Bəyannamə

Azərbaycan Respublikasının Prezidenti və Türkiyə Respublikasının Baş naziri iki ölkə arasında mövcud olan ortaq tarixi və mənəvi dəyərlərə söykənən, möhkəm dostluq və qardaşlıq əlaqələri və ənənəvi həmrəylik ruhundan irəli gələrək, iki ölkə arasında ən yüksək səviyyədə davam edən mövcud əlaqələrin bütün sahələrdə daha da inkişaf etdirərək, əhatəli İnteqrasiyanın əldə olunması və iki ölkənin maraqlarına uyğun regional və beynəlxalq məsələlərdə əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının (bundan sonra Şura) yaradılmasını qərara aldılar.

Şura Azərbaycan və Türkiyə arasında mövcud olan siyasi, hərbi, iqtisadi, ticarət, energetika, nəqliyyat, mədəniyyət, elm və humanitar sahələrdə həyata keçirilən əlaqələrin strategiyasını müəyyən edəcək, bu strategiyanın əsasında əməkdaşlıq layihələrinin inkişaf etdirilməsi və həmin layihələrin icra olunmasını təşviq edəcəkdir.

Azərbaycan Respublikasının Prezidenti və Türkiyə Respublikasının Baş naziri Şuranın həmsədrləri vəzifəsini öz üzərinə götürürlər.

Şuranın iclaslarında, gündəlikdə olan mövzulara uyğun olaraq Azərbaycan Respublikası Hökumətinin və Türkiyə Respublikası Hökumətinin üzvləri iştirak edəcəklər. Şuranın iclasları Tərəflərin razılığı ilə mütəmadi olaraq keçiriləcəkdir. Hökumət üzvləri Şuranın qərarlarının həyata keçirilməsi üçün məsuliyyət daşıyacaqlar.

Şuranın bazasında, siyasi mövzularda iki ölkə arasındakı əlaqələrin və əməkdaşlığın daha da inkişaf etdirilməsi, ikitərəfli, regional və qlobal mövzularda siyasi fikir mübadiləsinin aparılması və əməkdaşlığın prioritet sahələrinin və layihələrinin müəyyən edilməsi məqsədilə Birgə Strateji Planlaşdırma Qrupu təsis ediləcəkdir. Qrupun iclasları il ərzində ən azı bir dəfə, xarici işlər nazirlərinin həmsədrliyi ilə keçiriləcəkdir. Birgə Strateji Planlaşdırma Qrupu lazım olduğu təqdirdə Müşavir/Müşavirin müavini və Nazir müavini səviyyəsində və aidiyyəti digər qurum nümayəndələrinin iştirakı ilə əlavə iclaslar təşkil edə bilər. Qrup iclaslarının nəticəsi haqqında Şuraya məlumat verəcəkdir.

Hərbi və təhlükəsizlik məsələlərində əlaqədar təşkilatlar arasındakı əməkdaşlıq və qarşılıqlı fəaliyyət gücləndirilərək davam etdiriləcəkdir. Şuraya hərbi və təhlükəsizlik sahəsində əməkdaşlığa dair məlumat və təkliflər müvafiq nazirlər tərəfindən təqdim olunacaqdır.

Daxili işlər, gömrük və digər hüquq-mühafizə orqanlarının fəaliyyəti əsasında terrorçu-

luq, mütəşəkkil cinayətkarlığın forma və təzahürləri, habelə qaçaqmalçılıqla mübarizə məsələləri üzrə əməkdaşlığın daha da möhkəmləndirilməsi davam etdiriləcəkdir. Bu məqsədlə mövcud və ya təsis ediləcək Komissiyaların fəaliyyəti haqqında aidiyyəti nazirlər tərəfindən Şuraya məlumat veriləcəkdir.

İqtisadi və ticarət məsələlərində iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiya əsas mexanizm rolunu oynamağa davam edəcəkdir. Komissiya iclasların nəticələri haqqında Şuraya məlumat verəcəkdir.

Nəqliyyat, əmək və əhalinin sosial müdafiəsi sahələrində əməkdaşlıq gücləndiriləcəkdir. Bu sahələrdə mövcud olan Komissiyaların fəaliyyətinə nəzarət müvafiq nazirlər tərəfindən davam etdiriləcək, lazım olduğu təqdirdə əlavə Komissiyalar təsis ediləcək və Komissiya iclaslarının nəticələri haqqında Şuraya məlumat veriləcəkdir.

Enerji təminatı, nəqli və təhlükəsizliyi sahəsində birgə layihələrin işlənilib-hazırlanması və tətbiq olunması məqsədilə iki ölkənin əlaqədar orqan və təşkilat nümayəndələrinin iştirakı ilə təsis ediləcək Birgə Energetika Komissiyası energetika sahəsində əməkdaşlığın gücləndirilməsi məsələsində əsas mexanizm rolunu oynayacaqdır. Komissiya il ərzində ən azı bir dəfə yığılacaq və fəaliyyətinin nəticələrini Şuraya təqdim edəcəkdir.

Təhsil sahəsində iki ölkə arasında davam edən əməkdaşlığın birgə strategiya və layihələr əsasında inkişaf etdirilməsi məqsədilə iki ölkənin əlaqədar qurumlarının nümayəndələrindən ibarət bir Komissiya təsis ediləcəkdir. Komissiya il ərzində ən azı bir dəfə yığılacaq və Şuraya fəaliyyətinin nəticələri haqqında məlumat verəcəkdir.

Mədəniyyət, elm və humanitar sahələrdə hazırlanacaq strategiyalar və layihələrə nəzarət aidiyyəti Nazirlər tərəfindən həyata keçiriləcək və nəticələr haqqında Şuraya məlumat veriləcəkdir.

İki ölkənin xalqları arasında mövcud olan çoxyönlü və hərtərəfli əlaqələr çərçivəsində dialoq kanallarının səmərəliliyini daha da artırmaq, eyni zamanda vətəndaş cəmiyyəti təşkilatlarının əməkdaşlığını gücləndirmək və şaxələndirmək məqsədi ilə Vətəndaş Cəmiyyəti Forumu təsis ediləcəkdir. Foruma biznes dairələri, təlimçilər, diaspora təşkilatlarının da daxil olduğu müxtəlif qeyri-hökumət təşkilatlarının nümayəndələri, sənətçilər, elm xadimləri, mətbuat orqanlarının nümayəndələri də daxil olmaqla cəmiyyətin bütün təbəqələri öz töhfəsini verə biləcək. Forum iclasları Şura iclaslarından əvvəl və ya eyni vaxtda, Şura iclasının təşkil olunacağı şəhərdə keçiriləcəkdir.

İstanbul şəhərində, 15 sentyabr 2010-cu il tarixində, iki əsl nüsxədə Azərbaycan və Türk dillərində imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ	TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ
İLHAM ƏLİYEV	*RƏCƏB TAYYİB ƏRDOĞAN*

Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya Prezidentlərinin və Macarıstanın Baş nazirinin Bakı Bəyannaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

2010-cu il sentyabrın 14-də Bakı şəhərində imzalanmış Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya Prezidentlərinin və Macarıstanın Baş nazirinin Bakı Bəyannaməsi təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 dekabr 2010-cu il

№ 26-IVQ

Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya Prezidentlərinin və Macarıstanın Baş nazirinin Bakı Bəyannaməsi

Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya Prezidentləri və Macarıstanın Baş Naziri,

Onların dövlətləri arasında vətəndaşlarının rifahı naminə formalaşan, hərtərəfli əməkdaşlığa, etimada və onların maraqlarına qarşılıqlı hörmətə əsaslanan strateji tərəfdaşlıq münasibətlərini təsdiq edərək,

Xəzər regionunda başlıca karbohidrogen istehsalçısı kimi Azərbaycan Respublikasının əsas rolunu, enerji tranziti dövləti kimi Gürcüstanın əhəmiyyətini və Azərbaycan təbii qazının Avropaya birbaşa çıxışını təmin etmək üçün Rumıniyanın strateji mövqeyini, həmçinin Macarıstanın Mərkəzi Avropa qaz bazarı ilə əlaqəsi kimi strateji yerini və hər iki Avropa İttifaqı Üzv Dövlətinin saxlama imkanlarının nəzərə alaraq həm enerji təchizatı mənbələrinin, həm də marşrutlarının diversifikasiyasının təmin edilməsi məqsədini güdərək,

14 noyabr 2008-ci il tarixli Bakı Enerji Sammiti Bəyannaməsində əksini tapmış müddəaları nəzərə alaraq,

Cənub dəhlizi çərçivəsində inkişaf etmiş layihələrin təşviqi üçün həyata keçirilən addımları dəstəkləyərək,

Enerji sahəsində onların üst-üstə düşən maraqlarını dərk edərək və əməkdaşlıq çərçivəsinin onların ölkələrinə gətirə biləcəyi qarşılıqlı faydam nəzərə alaraq,

Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan arasında enerji təhlükəsizliyi məsələləri üzrə strateji əməkdaşlığın artan əhəmiyyətini təsdiq edərək və indiyədək əldə olunan əməkdaşlıq səviyyəsindən razılığı qeyd edərək,

Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi, Gürcüstanın Enerji Nazirliyi və Rumıniyanın İqtisadiyyat, Ticarət və Biznes Mühiti Nazirliyi arasında 13 aprel 2010-cu il tarixində Buxarestdə imzalanmış "Mayeləşdirilmiş təbii qaz və onun nəqli

sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu, həmçinin 12 may 2010-cu ildə Tiflisdə imzalanmış AGRI Layihəsi İnkişaf Təşkilatının yaradılması haqqında Protokolu nəzərə alaraq,

Aşağıdakılar barədə razılığa gəldilər:

Karbohidrogen resurslarının nəql edilməsinin diversifikasiyasına əsaslanan Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstanı birləşdirən LNG İnterconnector Layihəsinin həyata keçirilməsini dəstəkləyirlər.

AGRI Layihəsinin inkişafı üçün müvafiq Hökumətlər əlaqədar tədbirləri dəstəkləyirlər.

Cənub Dəhlizinə və Avropa enerji təhlükəsizliyinə töhfə kimi Avropa İttifaqının AGRİ-nin dəstəklənməsinə yönəlmiş zəruri addımlarını həvəsləndirirlər.

AGRI Layihəsinin texniki-iqtisadi əsaslandırılmasının hazırlıq işlərinin sürətləndirilməsini təşviq edirlər.

Maraqlı dövlətlərin, beynəlxalq maliyyə təsisatlarının və şirkətlərinin, o cümlədən digər maraqlı tərəflərin AGRI Layihəsinin həyata keçirilməsində və inkişafında iştiraklarını alqışlayırlar.

14 sentyabr 2010-cu ildə Bakı şəhərində, Azərbaycan Respublikasında imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ	MACARISTANIN BAŞ NAZİRİ
İLHAM ƏLİYEV	*VİKTOR ORBAN*
GÜRCÜSTAN PREZİDENTİ	RUMİNİYA PREZİDENTİ
MİXAİL SAAKAŞVİLİ	*TRAYAN BASESKU*

Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dövlət sərhədi haqqında" Müqavilənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dövlət sərhədi haqqında" 2010-cu il sentyabrın 3-də Bakı şəhərində imzalanmış Müqavilə təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 dekabr 2010-cu il

№ 27-IVQ

Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dövlət sərhədi haqqında Müqavilə

Bundan sonra Tərəflər adlandırılan, Azərbaycan Respublikası və Rusiya Federasiyası,

Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin məqsəd və prinsiplərini, habelə Helsinki Yekun Aktının müddəalarını, xüsusilə ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsiplərini rəhbər tutaraq,

Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında 1997-ci il 3 iyul tarixli Müqavilənin müddəalarına əsaslanaraq,

Azərbaycan və Rusiya xalqları arasında dostluq və yaxın qonşuluq əlaqələrinin daha da inkişaf etməsi və möhkəmlənməsi üçün əlverişli şəraitin təmin edilməsi niyyətində olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Hazırkı Müqavilədə "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasındakı dövlət sərhədi" (bundan sonra - "dövlət sərhədi") termini altında Azərbaycan Respublikası və Rusiya Federasiyasının ərazilərini (quru, sular, yerin təki və hava məkanı) ayıran xətt və bu xətlə keçən şaquli səth başa düşülür.

Maddə 2

Dövlət sərhədi başlanğıc nöqtəsindən - Azərbaycan Respublikası, Rusiya Federasiyası və Gürcüstanın dövlət sərhədlərinin qovuşma nöqtəsindən, dövlət sərhədinin Xəzər dənizinin suyu ilə kəsişən çıxışında yerləşən 41° 50,5? şimal en dairəsi və 48° 35,6? şərq uzunluq dairəsi koordinatlarındakı son nöqtəsinə qədər keçir.

Son nöqtənin koordinatları Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında Xəzər dənizinin dibinin həmhüdud sahələrinin bölünməsi haqqında 2002-ci il 23 sentyabr tarixli Sazişlə müəyyən edilmişdir.

Azərbaycan Respublikası, Rusiya Federasiyası və Gürcüstanın dövlət sərhədlərinin qovuşma nöqtəsi ayrıca üçtərəfli müqavilə ilə müəyyən olunur.

Maddə 3

Dövlət sərhədi başlanğıc nöqtəsindən son nöqtəsinədək Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dövlət sərhəd xəttinin keçməsi Təsvirində (Əlavə 1) göstərildiyi və Azərbaycan Respublikası və Rusiya Federasiyası arasındakı dövlət sərhədinin Xəritəsində (Əlavə 2) qırmızı rəngli bütöv xətlə çəkildiyi kimi keçir.

1 və 2 nömrəli Əlavələr hazırkı Müqavilənin ayrılmaz hissəsidir.

Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dövlət sərhəd xəttinin keçməsi Təsviri ilə Azərbaycan Respublikası və Rusiya Federasiyası arasındakı dövlət sərhədinin Xəritəsi arasında uyğunsuzluqların aşkar edildiyi təqdirdə Tərəflər Təsviri əsas tutacaqlar.

Maddə 4

Yer üzündə baş verə biləcək hər-hansı təbii dəyişikliklər, Tərəflər digər razılığa gəlmədiyi təqdirdə, hazırkı Müqavilə ilə müəyyən edilmiş dövlət sərhədini dəyişmir.

Maddə 5

Dövlət sərhədinin bu Müqaviləyə uyğun olaraq yer üzərində qurulması və işarələnməsi, demarkasiya üzrə müvafiq sənədlərin tərtib edilməsi üçün, Tərəflər, mümkün qədər qısa müddət ərzində, paritet əsaslarda Azərbaycan-Rusiya Birgə demarkasiya komissiyası yaradacaqlar.

Maddə 6

Dövlət sərhədi ilə kəsişən və ya dövlət sərhədinin üzərindən keçən mühəndis qurğularının, kommunikasiyaların və digər infrastruktur obyektlərinin istismarı ilə əlaqədar, həmçinin bioloji resursların qorunması və istifadəsi, sudan istifadə və ətraf mühitin mühafizəsi ilə bağlı məsələlər Tərəflər arasında ayrıca sazişlərlə tənzimlənir.

Maddə 7

Hazırkı Müqavilə ratifikasiya edilməlidir və ratifikasiya sənədlərinin mübadiləsi tarixindən qüvvəyə minir.

Bakı şəhərində 03 sentyabr 2010-cu il tarixində, hər biri Azərbaycan və rus dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, hər iki mətn eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN	RUSİYA FEDERASİYASI ADINDAN
ELMAR MƏMMƏDYAROV	*SERGEY LAVROV*
Xarici işlər naziri	*Xarici işlər naziri*

"Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında Samur transsərhəd çayının su ehtiyatlarının səmərəli istifadəsi və mühafizəsi sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında Samur transsərhəd çayının su ehtiyatlarının səmərəli istifadəsi və mühafizəsi sahəsində əməkdaşlıq haqqında" 2010-cu il sentyabrın 3-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 dekabr 2010-cu il

№ 28-IVQ

Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında Samur transsərhəd çayının su ehtiyatlarının səmərəli istifadəsi və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq, Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti,

Samur transsərhəd çayının su ehtiyatlarından istifadə ilə bağlı təsərrüfat və digər fəaliyyətin tənzimlənməsi, yalnız hər iki Tərəfin dövlətlərinin maraqları nəzərə alınmaqla həyata keçə biləcəyini dərk edərək,

Tərəflərin dövlətlərinin sosial-iqtisadi inkişafı, ətraf mühitinin mühafizəsi və sərhədyanı regionlarının biomüxtəlifliyinin saxlanılması üçün Samur transsərhəd çayının su ehtiyatlarının və onlarla hidravlik bağlılığı olan yeraltı suların böyük əhəmiyyətini nəzərə alaraq,

Samur transsərhəd çayının su ehtiyatlarının bölüşdürülməsinin, transsərhəd su obyektlərindən ədalətli və dərrakəli istifadəsi prinsiplərinə cavab verməli olduğunu anlayaraq,

17 mart 1992-ci il tarixli sərhəddən keçən su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsinə dair Konvensiyanı rəhbər tutaraq,

21 may 1997-ci il tarixli beynəlxalq su axınlarının qeyri-gəmiçilik məqsədləri üçün istifadə hüququ haqqında Konvensiyanın müddəalarını nəzərə alaraq,

3 iyul 1997-ci il tarixli Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında Müqaviləyə əsaslanaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Sazişdə istifadə olunan anlayışlar

Hazırkı Sazişdə istifadə olunan anlayışlar aşağıdakılardır:

"Samur transsərhəd çayının su ehtiyatları" - Samur transsərhəd çayının sərhəd sahəsindəki yerüstü suları;

"Gündəlik axını" - gün ərzində Samur transsərhəd çayının sərhəd sahəsinin başlanğıcına daxil olan su həcmi;

"Samur hidroqovşağındakı gündəlik axım" - Samur hidroqovşağının yuxarı byefinə gün ərzində daxil olan su həcmi;

"Ekoloji suburaxına" - Samur hidroqovşağının aşağı byefinə daxil olan, Samur hidroqovşağından aşağıda Samur çayının hidroloji rejiminin saxlanılması və Samur çayının deltasında təbii ekosistemin əlverişli vəziyyətinin təmin edilməsi üçün zəruri olan su ehtiyatlarının həcmi;

"Samur transsərhəd çayının sərhəd sahəsi" - Azərbaycan-Rusiya dövlət sərhədinin Samur transsərhəd çayından keçən sahəsi;

"Fövqəladə vəziyyət" - insanların ölümü ilə nəticələnən və ya ölümünə səbəb ola bilə-

cək, insanların sağlamlığına və ya ətraf mühitə zərər vuran, xeyli maddi itkilərə və insanların həyat fəaliyyətinin pozulmasına gətirib çıxaran qəza, təhlükəli təbiət hadisələri, faciələr, təbii və digər fəlakətlər nəticəsində yaranan vəziyyət.

Maddə 2

Sazişin məqsədləri

Hazırkı Sazişin məqsədləri bu Sazişin 3-cü maddəsində müəyyən olunan su bölgüsü prinsiplərinə əsasən Tərəflərin dövlətlərinin Samur transsərhəd çayının su ehtiyatları ilə təmin olunması, həmçinin Samur çayının deltasında təbii ekosistemin saxlanılmasıdır.

Maddə 3

Su ehtiyatlarının bölüşdürülməsinin prinsipləri

1. Həcmi 30,5 faizə bərabər müəyyən edilən (bundan sonra - suyun bölünməsi) ekoloji suburaxına çıxmaqla, Samur transsərhəd çayının sərhəd sahəsinin başlanğıcına daxil olan su ehtiyatlan Tərəflərin dövlətləri arasında bərabər payla bölünməlidir.

2. Suyun bölünməsi gündəlik həyata keçirilir. Suyun bölüşdürülməsinin və ekoloji suburaxmanın həcminin planlaşdırılması su təsərrüfatındakı yaranan vəziyyət və Tərəflərin tələbatı nəzərə alınmaqla ongünlüklər üzrə həyata keçirilir.

3. Ekoloji suburaxına hesabına Tərəflərin su tələbatının Samur transsərhəd çayının su ehtiyatları ilə təmin edilməsi yol verilməzdir.

4. Samur hidroqovşağında suyun bölünməsi Samur hidroqovşağının tərkibinə daxil olmayan Samur transsərhəd çayının sərhədyanı sahəsində Tərəflərin dövlətlərinin sugötürən qurğuları ilə götürülə biləcək su həcmi nəzərə alınmaqla həyata keçirilir.

5. Tərəflər hazırkı maddənin 1-ci bəndinə uyğun olaraq onlar üçün müəyyən edilmiş su ehtiyatları payından, istədikləri qaydada istifadə etmək üçün müstəsna hüquqa malikdirlər və texniki və iqtisadi imkanlara, texnoloji və yaxud digər məhdudiyyətlərə baxmayaraq su götürmə hüququnu özlərində saxlayırlar.

6. Əgər Tərəflərdən biri bu maddənin 1-ci bəndinə uyğun olaraq müəyyən edilmiş payı çərçivəsində su ehtiyatından tam istifadə etmədikdə, digər Tərəf onunla razılaşdırmaqla tələb olunmayan su həcmini əlavə olaraq götürə bilər.

7. Hazırkı maddənin 6-cı bəndinə uyğun olaraq tələb olunmayan həcmdə Tərəflərdən birinin əlavə su götürməsi, həmçinin bu maddənin 1-ci bəndində müəyyən edilmiş paydan artıq yerinə yetirilən ekoloji suburaxına, sonrakı müddətlərdəki su bölgüsündə və ekoloji su buraxmalarda nəzərə alınmır.

8. Hazırkı Sazişin 6-cı maddəsinin 8-ci bəndinə uyğun olaraq, Samur transsərhəd çayında, digər Tərəfdə əhəmiyyətli transsərhəd təsirlər yarada bilən və sudan istifadə şərtlərinə təsir edə biləcək su təsərrüfatı tədbirlərinin həyata keçirilməsi planlaşdırıldıqda Tərəflər bir-birinə məlumat verirlər.

9. Tərəflər Samur transsərhəd çayının yerüstü suları ilə hidravlik əlaqəsi olan yeraltı sulardan istifadə edərkən, Samur çayının deltasında qrunt sularının səviyyəsinin aşağı düşməsini istisna edən yeraltı sulardan istifadə rejimini təmin etməlidirlər.

Maddə 4

Səlahiyyətli qurumlar

Hazırkı Sazişin həyata keçirilməsi üzrə səlahiyyətli qurumlar aşağıdakılardır:

Azərbaycan tərəfindən - Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti;

Rusiya tərəfindən - Rusiya Federasiyası Təbii Sərvətlər və Ekologiya Nazirliyi, Su Ehtiyatları Federal Agentliyi.

Maddə 5

Azərbaycan-Rusiya Birgə komissiyası

1. Hazırkı Sazişin həyata keçirilməsi məqsədilə, Tərəflər Samur transsərhəd çayının su ehtiyatlarının bölünməsi üzrə Azərbaycan-Rusiya Birgə komissiyası yaradırlar (bundan sonra - Birgə komissiya).

Birgə komissiya hər bir Tərəfin təyin etdiyi iki həmsədrin rəhbərliyi altında fəaliyyət göstərir.

2. Tərəflərin səlahiyyətli qurumlan hazırkı Sazişin qüvvəyə mindiyi gündən üç ay ərzində Birgə komissiyanın həmsədrlərinin təyin olunması və onun Tərəflərin bərabər nümayəndəlik prinsipindən çıxış edərək formalaşdırılan milli tərkibi barədə diplomatik kanallar vasitəsilə bir-birini məlumatlandırırlar.

3. Birgə komissiya suyun operativ bölüşdürülməsi üzrə işçi qrupu və digər işçi orqanları formalaşdırır, onların fəaliyyətini paritet əsasda təmin edir.

Birgə komissiyanın işinə Tərəflərin dövlətlərinin digər dövlət qurumlarının nümayəndələri və ekspertlər cəlb edilə bilər.

4. Birgə komissiyanın, onun işçi orqanlarının, ekspertlərin iclasları mütəmadi olaraq növbə ilə Tərəflərin dövlətlərinin ərazisində keçirilir.

Birgə komissiya iclaslarını yarım ildə bir dəfədən az olmayaraq keçirir. Birgə komissiyanın birinci iclası Tərəflərin həmsədrlərinin təyinatı barədə qarşılıqlı bildirişdən sonra üç aydan gec olmayaraq keçirilir.

5. İclasların təşkili və keçirilməsi xərclərini qəbul edən Tərəf ödəyir. Birgə komissiyanın, işçi orqanlarının iclaslarındakı iştirakçıların xərclərini isə göndərən Tərəf ödəyir.

6. Birgə komissiyanın və onun işçi orqanlarının rəsmi dili rus dilidir.

7. Birgə komissiyanın iş qaydası, Birgə komissiyanın birinci iclasında qəbul edilmiş Əsasnamə ilə müəyyən edilir.

8. Birgə komissiyanın işçi orqanlarının iş qaydası Birgə komissiyanın təsdiq etdiyi müvafiq reqlamentlərlə müəyyən edilir.

Maddə 6

Birgə komissiyanın səlahiyyətləri

Birgə komissiya səlahiyyətlidir:

1) hazırkı Sazişin 3-cü maddəsində müəyyən edilmiş prinsiplərə uyğun olaraq Samur transsərhəd çayının su ehtiyatlarının bölüşdürülməsini təşkil etmək;

2) su bölgüsü və ekoloji suburaxma həcmlərinin ongünlük qrafiklərini tərtib və təsdiq etmək;

3) Tərəflərin istifadə etmədiyi su ehtiyatlarının, həmçinin fövqəladə vəziyyət yarandıqda Tərəflərin paylarının istifadəsi barədə qərarlara baxmaq və onları qəbul etmək;

4) Samur hidroqovşağının birgə idarə olunması və istismarı qaydalarını tərtib və təsdiq etmək;

5) Samur transsərhəd çayının su ehtiyatlarının düzgün uçotunu, Samur çayının sərhəd sahəsindən və Samur hidroqovşağından onların götürülməsini təşkil və təmin etmək;

6) Samur transsərhəd çayının sərhəd sahəsində suyun keyfiyyəti üzrə monitorinq proqramlarının işlənib hazırlanmasını və yerinə yetirilməsini təşkil etmək;

7) hazırkı Sazişi yerinə yetirmək məqsədilə birgə informasiya sistemlərindən istifadə etməklə, Samur transsərhəd çayının su ehtiyatlarının vəziyyəti barədə cari və operativ hidroloji, su təsərrüfatı və digər məlumatların mübadiləsini təşkil etmək;

8) digər Tərəfin sudan istifadə şərtlərinə təsir edən və əhəmiyyətli transsərhəd təsirə səbəb ola bilən su təsərrüfatı tədbirlərinin həyata keçirilməsinin planlaşdırılması barədə Tərəflərin bir-birini məlumatlandırılması qaydalarını müəyyən etmək;

9) təbii və texnogen xarakterli fövqəladə vəziyyətlərin xəbərdarlıq edilməsi, onların təsirinin yüngülləşdirilməsi və ləğvi ilə əlaqədar birgə fəaliyyət qaydalarını müəyyən etmək;

10) Samur transsərhəd çayının su ehtiyatlarının bölüşdürülməsi, həmçinin Samur hidroqovşağının birgə idarə edilməsi və istismarı ilə bağlı mübahisəli məsələləri tənzimləmək.

Maddə 7

Samur hidroqovşağının birgə idarə edilməsi və istismarı

1. Tərəflər, tərkibinə aşağıdakı qurğular daxil olmaqla Samur hidroqovşağının birgə idarə edilməsi və istismarını həyata keçirirlər:

su bölüşdürücü;

su aşıran bənd, avtokeçid ilə birlikdə;

Samur-Dərbənd kanalının başlanğıcında tunel;

sudurulducu;

yuyucu şlyuz;

sağ və sol sahil su istiqamətləndirici dambalar, su istiqamətləndirici şporlar.

2. Tərəflərin Samur hidroqovşağının birgə idarə edilməsi və istismarı üzrə əsas məqsədləri aşağıdakılardır:

su bölgüsü və ekoloji su buraxmanın həcm qrafiklərinə riayət etmək; Samur hidroqovşağının tərkibinə daxil olan qurğuların istismar etibarlığını və təhlükəsizliyini təmin etmək,

3. Tərəflər Samur hidroqovşağının birgə idarə və istismarı üçün məsuliyyət daşıyan təşkilatları təyin edirlər.

4. Samur hidroqovşağının və onun tərkibinə daxil olan qurğuların birgə idarə və istismarı zamanı Tərəflərin səlahiyyətli təşkilatları texnoloji avadanlıqların və hidroqovşağın qurğularının, su bölgüsü və ekoloji suburaxma həcmlərinin qrafikləri ilə müəyyən olunmuş iş rejimlərinə daimi birgə nəzarəti təmin edirlər.

Maddə 8

Monitorinq

1. Tərəflər, Samur transsərhəd çayının hidroloji müşahidələrini, su ehtiyatlarının və onların istifadəsinin uçotunu təmin edirlər.

2. Hazırkı Sazişin həyata keçirilməsi məqsədilə, Tərəflər bu Sazişin qüvvəyə mindiyi gündən 1 il müddətində Samur transsərhəd çayının sərhəd sahəsinin başlanğıcında birgə hidroloji müşahidə məntəqəsi yaradır və onun işini təşkil edirlər.

3. Samur transsərhəd çayının su ehtiyatlarının kəmiyyət və keyfiyyətinin qiymətləndirilməsi Tərəflərin razılaşdırdığı proqram və metodikalar ilə Tərəflərin razılığa gəldiyi müşahidə məntəqələrində həyata keçirilir.

4. Tərəflər hazırkı Sazişin yerinə yetirilməsi üçün hidroloji, su təsərrüfatı, o cümlədən istifadə olunan yeraltı suların həcmlərini daxil etməklə götürülən suyun həcmləri barədə və digər məlumatları mübadilə edirlər və su təsərrüfatı sahəsində su obyektlərinin kompleks istifadəsi və mühafizəsi, hidrotexniki qurğuların istismarı, suların çirklənməsi və tükənməsinin qarşısının alınmasında əməkdaşlığın inkişafına yardım edirlər.

Maddə 9

Azərbaycan-Rusiya dövlət sərhədindən keçid, bu Sazişdə toxunulan obyektlərə daxil olma

1. Samur hidroqovşağının tərkibinə daxil olan qurğularda istismar işlərini yerinə yetirmək, cari və əsaslı təmirləri təmin etmək, monitorinq aparmaq, təbii və texnogen xarakterli fövqəladə vəziyyətlərin xəbərdarlıq üzrə tədbirləri və onların təsirinin ləğvi üçün, Tərəflər işçi heyətin, maşınların, mexanizmlərin və materialların Azərbaycan-Rusiya dövlət sərhədindən sadələşdirilmiş qaydada keçməsi, yerdəyişməsi və buraxılması məqsədilə şərait yaradırlar.

2. Hazırkı Sazişi yerinə yetirmək məqsədi ilə Tərəflər Birgə komissiyanın nümayəndələrini, onların işçi orqanlarını, həmçinin Tərəflərin səlahiyyətli təşkilatlarını, hazırkı Sazişin əhatə dairəsinə aid olan Tərəflərin dövlətlərinin obyektlərinə, Samur hidroqovşağının tərkibinə daxil olan texnoloji avadanlıq və qurğulara, Tərəflərin Samur hidroqovşağının tərkibinə daxil olmayan Samur transsərhəd çayının sərhəd sahəsində su götürmələrinə, Tərəflərin müşahidə məntəqələri şəbəkəsinə çıxışını təmin edirlər.

Maddə 10

Fövqəladə vəziyyətlər

1. Tərəflər, təbii və texnogen xarakterli fövqəladə vəziyyətlərin xəbərdarlıq edilməsi üzrə birgə fəaliyyəti təmin edirlər.

2. Samur transsərhəd çayının su ehtiyatlarının çirklənməsi və digər səbəblər nəticəsində sudan istifadənin şərtlərinin pozulmasına gətirib çıxaran hallar baş verdikdə, hər bir Tərəf təxirə salınmadan o biri Tərəfi məlumatlandırır və öz dövlətinin ərazisində bu səbəblərin aradan qaldırılması və onların təsirinin yüngülləşdirilməsi üçün tədbirlər görür.

3. Samur hidroqovşağının tərkibinə daxil olan qurğularda fövqəladə vəziyyətlər baş verərsə, Tərəflər gecikdirilmədən bir-birinə xəbər verir, müvafiq məlumatları mübadilə edir, həmçinin onların ləğvi və yaxud yüngülləşdirilməsi və nəticəsinin aradan qaldırılması üçün birgə tədbirlər görürlər.

Maddə 11

Mübahisələrin tənzimlənməsi

Hazırkı Sazişin təfsiri və ya tətbiqinə aid olan mübahisələr Tərəflər arasında məsləhətləşmələr yolu ilə həll edilir.

Maddə 12

Digər beynəlxalq müqavilələrə münasibət

Hazırkı Saziş Tərəflərin dövlətlərinin iştirakçısı olduğu digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

Maddə 13

Sazişə dəyişikliklər və əlavələr

Hazırkı Sazişə Tərəflərin razılığı əsasında ayrıca protokollar ilə rəsmiləşdirilən dəyişikliklər və əlavələr edilə bilər. Belə protokollar qüvvəyə mindikdən sonra Sazişin ayrılmaz tərkib hissəsi olur.

Maddə 14

Qüvvəyə minmə və fəaliyyət müddəti

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

Hazırkı Saziş 5 il müddətinə bağlanılır.

Tərəflərdən biri müvafiq müddətin bitməsinə ən azı 12 ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə digər Tərəfə məlumat verməzsə, Saziş avtomatik olaraq növbəti beş illik müddətlərə uzadılacaqdır.

Hazırkı Sazişin fəaliyyətinin dayandırılması, onun fəaliyyəti dövründə başlanmış tədbirlərin yerinə yetirilməsinə mane olmur.

Bu Saziş Bakı şəhərində 3 sentyabr 2010-cu il tarixində, iki nüsxədə, hər biri Azərbaycan və rus dillərində olmaqla imzalanmışdır, hər iki mətn eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	RUSİYA FEDERASİYASI HÖKUMƏTİ ADINDAN
HÜSEYNQULU BAĞIROV	*YURİ TRUTNEV*
Ekologiya və təbii sərvətlər naziri	*Təbii ehtiyatlar və ekologiya naziri*

"Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatlarının "Uşaqların Xilası" ("Save the Children") Təşkilatı arasında Uşaq və Ailələrə Dəstək mərkəzlərinin təhvili haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatlarının "Uşaqların Xilası" ("Save the Children") Təşkilatı arasında Uşaq və Ailələrə Dəstək mərkəzlərinin təhvili haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Kamran qızı Hüseynovaya verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Kamran qızı Hüseynovaya verilməsi barədə Amerika Birləşmiş Ştatları tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 dekabr 2010-cu il

№ 1252

2009-cu il oktyabrın 9-da Kişinyov şəhərində imzalanmış "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin veteranlar təşkilatları haqqında Qərar"ın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2009-cu il oktyabrın 9-da Kişinyov şəhərində imzalanmış "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin veteranlar təşkilatları haqqında Qərar" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Qərarın həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Qərarın qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 dekabr 2010-cu il

№ 1253

MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİ DÖVLƏT BAŞÇILARI ŞURASI

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin veteranlar təşkilatları haqqında Qərar

9 oktyabr 2009-cu il
Kişinyov şəhəri

Müstəqil Dövlətlər Birliyinin dövlət başçıları Şurası veteranlar hərəkatının əhəmiyyətindən və onun sonrakı inkişafının zərurətindən çıxış edərək,

qərara aldı:

1. "Müstəqil dövlətlərin veteranların (təqaüdçülərin) ictimai təşkilatlarının birliyi" Beynəlxalq ittifaqının Əlaqələndirmə şurasının Məlumatını nəzərə almaq (əlavə olunur).

2. Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin veteranlar təşkilatlarına, habelə "Müstəqil dövlətlərin veteranların (təqaüdçülərin) ictimai təşkilatlarının birliyi" Beynəlxalq ittifaqının Əlaqələndirmə şurasına (bundan sonra - Əlaqələndirmə şurası) aşağıdakıları tövsiyə etmək:

veteranların (təqaüdçülərin) sosial-iqtisadi hüquqlarının və qanuni maraqlarının hərtərəfli qorunmasını davam etdirmək;

gənclərin vətənpərvərlik və beynəlmiləlçilik ruhunda tərbiyə olunması, 1941-1945-ci illər Böyük Vətən müharibəsi tarixinin saxtalaşdırılmasının qarşısının alınması üzrə fəaliyyəti gücləndirmək.

3. Əlaqələndirmə şurasına Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin veteranlar təşkilatları qarşısında duran ictimai əhəmiyyətli sosial vəzifələrin həllinə yönəlmiş tədbirlər planını işlənib hazırlanmasını və onların baxılmaq üçün MDB-nin Dövlət başçıları Şurasına müəyyən olunmuş qaydada təqdim edilməsini tövsiyə etmək.

4. Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Hökumətləri tərəfindən yuxanda göstərilən tədbirlər planlarının icrasını təmin etmək məqsədi ilə ictimai əhəmiyyətli sosial tədbirlərin həyata keçirilməsində Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin veteranlar təşkilatlarına və Əlaqələndirmə şurasına maliyyə dəstəyinin göstərilməsi imkanlarına baxmaq.

5. Hazırkı Qərar imzalandığı andan, qanunvericiliyi dövlətdaxili prosedurların yerinə yetirilməsini tələb edən dövlətlər üçün isə göstərilən prosedurların yerinə yetirilməsi haqqımda bildirişin depozitariyə saxlanmaq üçün verildiyi tarixdən qüvvəyə minir.

AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

(imza)

RUSİYA FEDERASİYASI ADINDAN

(imza)

ERMƏNİSTAN RESPUBLİKASI ADINDAN

(imza)

TACİKİSTAN RESPUBLİKASI ADINDAN

(imza)

BELARUS RESPUBLİKASI ADINDAN

(imza)

TÜRKMƏNİSTAN ADINDAN

(imza yoxdur)

QAZAXISTAN RESPUBLİKASI ADINDAN

(imza)

ÖZBƏKİSTAN RESPUBLİKASI ADINDAN

(imza yoxdur)

QIRĞIZ RESPUBLİKASI ADINDAN

(imza)

UKRAYNA ADINDAN

(imza)

MOLDOVA RESPUBLİKASI ADINDAN

(imza)

"Müstəqil dövlətlərin veteranların (təqaüdçülərin) ictimai təşkilatlarının birliyi" Beynəlxalq ittifaqının Əlaqələndirmə şurasının fəaliyyəti haqqında Məlumat

"Müstəqil dövlətlərin veteranların (təqaüdçülərin) ictimai təşkilatlarının birliyi" Beynəlxalq ittifaqı (bundan sonra - Beynəlxalq veteranlar şurası) MDB-nin iştirakçısı olan dövlətlərin, habelə Gürcüstanın, Latviyanın və Estoniyanın veteranların 11 ictimai təşkilatını birləşdirir və sıralarında yaşlı nəslin nümayəndələri olan 51 milyon insanı əhatə edir. Onların sırasında 1 milyona yaxın Böyük Vətən müharibəsinin iştirakçıları (cəbhəçilər), 600 mindən çox müharibə əlili, müharibə illərində arxa cəbhədə çalışan 6 milyona yaxın zəhmətkeş, 1,2 milyondan çox döyüş əməliyyatlarının veteranları (lokal müharibələrin və hərbi münaqişələrin iştirakçıları), 4 milyondan çox hərbi xidmət veteranı, 23 milyondan çox əmək veteranı vardır. Veteranların (təqaüdçülərin) MDB-nin iştirakçısı olan dövlətlər üzrə say tərkibi əlavə olunan cədvəldə təqdim edilmişdir.

Beynəlxalq veteranlar şurasının rəhbər orqanı 5 il müddətinə seçilən, 1991-ci ilin dekabrından fəaliyyət göstərən və öz fəaliyyətini ictimai əsaslarla həyata keçirən Əlaqələndirmə şurasıdır.

Əlaqələndirmə şurasının və Birliyin dövlətlərinin bütün veteranlar təşkilatlarının fəaliyyətinin əsas istiqamətləri aşağıdakılardır:

bütün kateqoriyalardan olan veteranların, təqaüdçülərin, yaşlı insanların sosial hüquq və maraqlarının müdafiəsi, onların həyat səviyyəsinin yüksəldilməsi uğrunda mübarizə, təqaüd təminatının və tibbi xidmətin yaxşılaşdırılması;

əhalinin, xüsusilə də gənclərin vətənpərvər, beynəlmiləl və mənəvi-əxlaqi tərbiyəsi, MDB dövlətləri arasında qardaş dostluğunun, qarşılıqlı hörmətin və etibarın möhkəmləndirilməsi;

tarixi dəyərlərin, Birliyin dövlətlərinin təşəkkül tapası və inkişafı tarixi haqqında həqiqətin müdafiəsi, ümumi tariximizin, xüsusilə də 1941-1945-ci illər Böyük Vətən müharibəsi dövrünün təhrif edilməsinə, saxtalaşdırılmasına qarşı mübarizə;

Vətən uğrunda fədakarcasına həlak olmuş müdafiəçilərin xatirəsinin, Öz xalqı uğrunda

onların göstərdikləri qəhrəmanlıqlarının əbədiləşdirilməsi, bu işin cəmiyyətdə sağlam mənəvi-əxlaqi ab-havanın formalaşdırılmasında istifadə edilməsi.

Bu məsələlərin hər birinə Birliyin bütün dövlətlərinin veteranlar təşkilatları rəhbərlərinin iştirakı ilə Prezidiumunun iclaslarında və Əlaqələndirmə şurasının plenumlarında, Beynəlxalq veteranlar şurasının qurultay və konfranslarında müntəzəm olaraq baxılır. Bu müddət ərzində Beynəlxalq veteranlar şurasının 3 qurultayı keçirilmiş, o cümlədən hər il Əlaqələndirmə şurasının bir plenumu və Prezidiumunun iki iclası keçirilir.

Belə ki, Əlaqələndirmə şurasının 15 noyabr 2007-ci il və 26 noyabr 2008-ci il tarixli plenumlarında Beynəlxalq veteranlar şurasının IV qurultayının qərarlarının yerinə yetirilməsi vəziyyəti və müstəqil dövlətlərin veteranlar təşkilatlarının veteranlar hərəkatının birliyinin və həmrəyliyinin möhkəmləndirilməsinə müvafiq olaraq onun təşkilatı quruluşunun təkmilləşdirilməsi üzrə fəaliyyəti haqqında məsələlərə baxılmışdır.

Əlaqələndirmə şurasının prezidiumlarında aşağıdakı məsələlərə baxılmışdır:

Ukrayna veteranlar Təşkilatı Şurasının 1941-1945-ci illər Böyük Vətən müharibəsi tarixinin saxtalaşdırılması, faşizm üzərində Qələbənin qazanılmasında müharibə veteranlarının rolunun və yerinin nüfuzdan salınması cəhdlərinin qarşısının alınması üzrə fəaliyyət haqqında (23 may 2007-ci il);

Moldova Respublikası veteranlar Təşkilatının 1941-1945-ci illər Böyük Vətən müharibəsində qəhrəmancasına şücaət göstərmiş və faşist işğalçıları ilə mübarizədə həlak olmuş döyüşçülərinin təbliğ edilməsi və xatirələrinin əbədiləşdirilməsi üzrə fəaliyyət haqqında (14 noyabr 2007-ci il);

Birliyin dövlətlərinin veteranlar təşkilatlarının 1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 65-ci ildönümünün qeyd edilməsinə hazırlıq üzrə vəzifələr haqqında (21 may 2008-ci il). Bu iclasın yekunları üzrə Beynəlxalq veteranlar şurasının Əlaqələndirmə şurası Prezidiumunun Böyük Vətən müharibəsi tarixinin saxtalaşdırılması və hitler faşistlərinin əlbirlərinə bəraət qazandırılması cəhdlərini pisləyən Bəyanat, habelə 1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 65-ci ildönümünə hazırlıqla bağlı Əlaqələndirmə şurasının və Ümumi həmkarlar ittifaqları konfederasiyasının İcraiyyə komitəsinin MDB-nin iştirakçısı olan dövlətlərin veteranlar və həmkarlar təşkilatlarına Müraciəti qəbul edilmişdir;

Qazaxıstan Respublikası veteranlar təşkilatlarının yaşlı nəslin sosial-hüquqi müdafiə məsələlərinin həlli üzrə fəaliyyət təcrübəsi haqqında (27 noyabr 2008-ci il).

Əlaqələndirmə şurası respublika veteranlar strukturlarından daxil olan məlumatları təhlil edir və ümumiləşdirir, onların fəaliyyətinin qabaqcıl təcrübəsinin yayılmasına, Birliyin dövlətlərinin veteranlar təşkilatlarının birliyinin və həmrəyliyinin möhkəmləndirilməsinə böyük diqqət yetirir. Bu məqsədlə "Veteran" qəzetini nəşr edir. Birliyin dövlətlərinin veteranlar şuralarının (komitələrinin) səylərini daimi olaraq beynəlxalq və respublika vətənpərvərlik aksiyalarının, festivallarının və xalq yaradıcılığı müsabiqələrinin həyata keçirilməsində fəal iştirak edilməsinə yönəldir. Buna misal kimi MDB ölkələrinin veteranlar təşkilatlarının fəal iştirakı ilə keçirilən "Biz Qələbənin varisləyik!" adlı Beynəlxalq aksiyasını göstərə bilərik. Onun mərhələləri artıq Belarusda, Qazaxıstanda, Ermənistanda həyata keçirilib. 2009-cu ildə onun Azərbaycanda keçirilməsi

planlaşdırılır.

Lakin respublika həm veteranlar təşkilatlarında, həm də Əlaqələndirmə şurasında da şəxsi vəsaitlərin olmaması, habelə olduqca məhdud sponsor yardımı bir çox praktiki tədbirlərin həyata keçirilməsinə imkan vermir.

Əlaqələndirmə şurasının maliyyə vəsaitləri yalnız nizamnamə fəaliyyətlərini həyata keçirmək və ildə iki dəfə plenumların, müharibə və hərbi xidmət veteranlarının Prezidiumunun və Komitəsinin iclaslarını təşkil etmək və keçirmək üçün kifayət edir. Bununla yanaşı, göstərilən tədbirlərə gələnlərin səyahət xərclərinin ödənilməsi mümkün olmur. Aparatın əməkdaşlarının və xidməti heyətin əmək haqqı 4-5 min rus rublu təşkil edir (Moskva şəhərindəki yaşayış minimumundan aşağıdır). Buna görə də onlar yalnız ictimaiyyətçilərin şövqündə dayanaraq işləyirlər.

Əlaqələndirmə şurasının əməkdaşları pul vəsaitlərinin olmaması səbəbindən bir çox vacib tədbirləri nəinki təşkil edə bilmir, hətta həmin tədbirlərə, o cümlədən MDB-nin iştirakçısı olan dövlətlərin veteranlar təşkilatlarının qurultay və konfranslarında, beynəlxalq seminarlarda, xatirə növbələrində, MDB tarixinin, Böyük Vətən müharibəsinin əlamətdar günlərinə həsr edilmiş təntənəli bayram tədbirlərində iştirak edə bilmirlər. Bundan əlavə, maliyyə çətinlikləri səbəbindən Əlaqələndirmə şurası aparatının rəhbərliyi heç də hər zaman veteranlar təşkilatlarının fəaliyyəti, yaşlı nəslin sosial-hüquqi problemləri və s. ilə bilavasitə bağlı mühüm məsələlərin baxıldığı Dövlət başçıları Şurasının, Hökumət başçıları Şurasının, Xarici işlər nazirləri Şurasının və MDB-nin İqtisadi Şurasının iclaslarında iştirak edə bilmir.

Lakin, hətta bu cür mürəkkəb iqtisadi şəraitdə Əlaqələndirmə şurası fəal həyat mövqeyi tutmağa davam edir və Birliyin dövlətlərinin veteranlar təşkilatlarına bütün vacib və aktual, xüsusilə də sosial xarakterli məsələləri dövlət və regional hakimiyyət orqanları, başqa ictimai təşkilatlar ilə sıx qarşılıqlı əlaqədə həll etməyi israrla tövsiyə edir.

Əlaqələndirmə şurası öz fəaliyyətini özünün daimi nümayəndəsinə malik olduğu MDB İcraiyyə komitəsi ilə daimi əlaqədə həyata keçirir. Əlaqələndirmə şurası MDB-nin ali orqanlarına baxılmaq üçün sənədləri təqdim etmək hüququndan istifadə edərək (MDB DBŞ-nın 28 mart 1997-ci il tarixli Qərarı), bu müddət ərzində veteranların, ilk növbədə 1941-1945-ci illərin Böyük Vətən müharibəsi veteranlarının sosial hüquq və maraqlarının qorunması, o cümlədən həlak olmuş Vətən müdafiəçilərinin xatirələrinin əbədiləşdirilməsi məsələləri üzrə 10 sənəd layihəsi hazırlanaraq təqdim edilmişdir. Onların sırasında aşağıdakı qərar layihələri vardır:

1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 55-ci (1999-cu il), 60-cı (2002-ci il) və 65-ci (2007-ci il) ildönümünün qeyd edilməsinə hazırlıq görülməsi haqqında;

Xatirə Kitablarının, "Şöhrət ordeninin üç dərəcəsinin kavalerləri" məcmuəsinin nəşrinin tamamlanması haqqında, müharibə illərinin (1941-1945-ci illər) Sosialist Əməyi Qəhrəmanları haqqında kitabların nəşr edilməsi haqqında;

MDB-nin iştirakçısı olan dövlətlərdə Beynəlxalq yaşlılar ilinin hazırlanması və keçirilməsi haqqında;

müstəqil dövlətlərin veteranlar təşkilatları Biliyinin (İttifaqının) Əlaqələndirmə şurasının Plenumu iştirakçılarının MDB-nin iştirakçısı olan dövlətlərin başçılarına Müraciəti haqqında;

1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin qeyd edilməsinin əbədiləşdirilməsi haqqında və s.

Bundan əlavə, Əlaqələndirmə şurası iştirakçı olan dövlətlər və MDB orqanları tərəfindən təqdim edilmiş sənəd layihələrinin işlənib başa çatdırılmasında fəal iştirak edir. Onların sırasında aşağıdakı layihələr vardır:

1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 60-cı ildönümünə hazırlıq görülməsi və qeyd edilməsi Proqramları;

Böyük Vətən müharibəsinin əlil və iştirakçılarının, eləcə də onlara bərabər tutulan şəxslərin güzəştli gediş-gəliş hüquqlarının qarşılıqlı tanınması haqqında 1993-cü il 12 mart tarixli Sazişə dəyişiklik və əlavələr edilməsi haqqında Protokol;

1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 65-ci ildönümünə hazırlıq görülməsi və qeyd edilməsi üzrə əsas tədbirlər planı və s.

Beləliklə, Əlaqələndirmə şurasının və Beynəlxalq veteranlar şurasının bütün respublika təşkilatlarının fəaliyyəti daimi olaraq MDB-nin gələcək inkişafı və təkmilləşdirilməsinə, birliyin, qarşılıqlı etibarın və Birliyin xalqlarının qardaşlıq dostluğunun möhkəmlənməsinə yönəlmiş və yönəlməkdə qalmaqdadır.

MDB Dövlət başçıları Şurasının Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin veteranlar təşkilatları haqqında Qərarına dair Moldova Respublikasının qeyd-şərti

9 oktyabr 2009-cu il Kişinyov şəhəri

Moldova Respublikası bu Qərarın həyata keçirilməsində milli qanunvericiliyə uyğun olaraq və bu məqsədlə dövlət tərəfindən ayrılan maliyyə vəsaitləri çərçivəsində iştirak edəcək.

Baş nazirin müavini, iqtisadiyyat və ticarət naziri Valeriu LAZER

MDB Dövlət başçıları Şurasının iclasının gündəliyinin 4-cü bəndinə dair Ukraynanın qeyd-şərti

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin veteranlar təşkilatları haqqında 9 oktyabr 2009-cu il Kişinyov şəhəri

Ukrayna veteranlar təşkilatlarının maliyyələşdirilməsində bu məqsədlər üçün Ukraynanın Dövlət büdcəsində nəzərdə tutulan vəsaitlər çərçivəsində iştirak edəcək.

Ukraynanın Prezidenti Viktor Yuşenko

Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında 2010-cu il sentyabrın 27-də Daşkənd şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında 2010-cu il sentyabrın 27-də Daşkənd şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi və Özbəkistan Respublikası Daxili İşlər Nazirliyinin 2010-2012-ci illərdə qarşılıqlı fəaliyyəti haqqında Protokol;

1.2. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Özbəkistan Respublikası Xarici İşlər Nazirliyi arasında 2010-2012-ci illər üçün Əməkdaşlıq Proqramı;

1.3. Azərbaycan Respublikası Dövlət Mülki Aviasiya Administrasiyası və Özbəkistan Respublikası Uçuşların Təhlükəsizliyinə Nəzarət üzrə Dövlət Müfəttişliyi (Dövlətavianəzarət) arasında aviasiya personalı şəhadətnamələrinin qarşılıqlı tanınması haqqında Saziş;

1.4. Azərbaycan Respublikası Baş Prokurorluğu və Özbəkistan Respublikası Baş Prokurorluğu arasında əməkdaşlıq və hüquqi yardım haqqında Saziş;

1.5. "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və Özbəkistan Milli Teleradio Şirkəti arasında Əməkdaşlıq Sazişi;

1.6. Azərbaycan Milli Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutu və Özbəkistan Rəssamlıq Akademiyası arasında əməkdaşlıq haqqında Müqavilə.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.6-cı bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.6-cı bəndlərində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Özbəkistan Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 dekabr 2010-cu il

№ 1254

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi və Özbəkistan Respublikası Daxili İşlər Nazirliyinin 2010-2012-ci illərdə qarşılıqlı fəaliyyəti haqqında Protokol

Bundan sonra Tərəflər adlandırılan Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi və Özbəkistan Respublikası Daxili İşlər Nazirliyi,

18 iyun 1997-ci il tarixli Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi və Özbəkistan

Respublikası Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Sazişin icrası məqsədilə fəaliyyət göstərərək,

Tərəflərin qarşılıqlı fəaliyyətinin daha da möhkəmləndirilməsi istəyindən çıxış edərək,

öz dövlətlərinin milli qanunvericiliklərinin və beynəlxalq öhdəliklərinin müddəalarını rəhbər tutaraq, 2010-2012-ci illərdə aşağıdakı tədbirlərin həyata keçirilməsi barədə razılığa gəldilər:

1. Tərəflər, qarşılıqlı fəaliyyət və ayrı-ayrı razılaşmalar əsasında əməkdaşlığın genişləndirilməsi, iş təcrübəsinin öyrənilməsi və praktiki qarşılıqlı fəaliyyət məsələlərinin həllinin səmərəliləşdirilməsi məqsədilə, özlərinin bölmələrinin əməkdaşlarının qarşılıqlı səfərlərini təşkil edəcəklər.

Əməkdaşların gediş-gəliş müddəti, tərkibi və proqramları barədə məlumatlar Tərəflər arasında əvvəlcədən razılaşdırılacaqdır.

Əməkdaşlığın əlaqələndirilməsi üçün Tərəflərin orqanları:

- Azərbaycan tərəfindən: Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Beynəlxalq Əməkdaşlıq İdarəsi,

AZ 1005, Bakı, Azərbaycan prospekti 7
Telefon: (994 12) 590 99 64, 590 92 97
Faks: (994 12) 492 03 49,492 45 90

- Özbəkistan tərəfindən: Özbəkistan Respublikası Daxili İşlər Nazirliyinin Təşkilati-inspektor İdarəsi,

100029, Daşkənd, Y.Rəcəbiy küçəsi 1
Telefon: (998 7) 233 81 43, 233 38 97
Faks: (998 7) 233 38 97,236 38 46

2. Tərəflər Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi və Özbəkistan Respublikası Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında 18 iyun 1997-ci il tarixli Sazişin 5-ci və 6-cı maddələrində, həmçinin Azərbaycan Respublikası ilə Özbəkistan Respublikasının tərəfdar çıxdığı, Daxili İşlər Nazirliklərinin səlahiyyətlərinə aid olan məsələlər üzrə beynəlxalq müqavilələrdə nəzərdə tutulan istiqamətlər üzrə yardım etmə barədə sorğuların təxirə salınmadan icra olunması üçün bütün zəruri tədbirləri görürlər.

3. Hər bir Tərəf, sorğu edən Tərəfin xahişi üzrə, sorğu edilən Tərəfin dövlətinin qanunvericiliyinə uyğun olaraq, yardım haqqında sorğunun icrası zamanı onun nümayəndəsinin iştirakı mümkünlüyünü təmin edir.

4. Tərəflər, ilk növbədə aşağıdakı cinayətkar fəaliyyətlərin aşkar edilməsi, qarşısının alınması, xəbərdar olunması üzrə razılaşdırılmış tədbirlərin keçirilməsi praktikasını davam etdirəcəklər:

- mütəşəkkil cinayətkar qruplar və cinayətkar təşkilatlar (birləşmələr) tərəfindən törədilmiş cinayətlərin;

- silahların, döyüş sursatının, partlayıcı qurğuların, partlayıcı maddələrin, yüksək təsirli, zəhərli və radioaktiv materialların qanunsuz dövriyyəsi ilə əlaqəli cinayətlərin;

- narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə əlaqəli cinayətlərin;

- incəsənət əşyalarının, xüsusilə tarixi, elmi, ədəbi və ya mədəni dəyəri olan əşyaların və ya sənədlərin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin;

- insan alveri ilə əlaqəli cinayətlərin;

- miqrasiya-sahəsində cinayətlərin və Azərbaycan və Özbəkistanın ərazisindən keçən qanunsuz miqrasiya kanalları, marşrutları, onları daşıyanları, və qanunsuz miqrasiyanın həyata keçirilməsi və təşkilində istifadə olunan nəqliyyat vasitələri barədə;

- nəqliyyat vasitələrinin oğurlanması və qanunsuz dövriyyəsi;

- avtomobil, dəmiryolu və hava nəqliyyatı ilə daşınan yüklərin oğurlanması.

5. Tərəflər əməliyyat-axtarış, məlumat, kriminalistik və qarşılıqlı maraq doğuran digər, ilk növbədə aşağıdakı sahələrə aid informasiya mübadiləsinin həyata keçirilməsini mütəmadi olaraq davam etdirəcəklər:

- digər ağır və xüsusi ağır cinayətləri hazırlayan və/yaxud törədən, həmçinin onların məqsədləri, əlaqələri və digər məlumatlan daxil edilməklə təşkilatlar, qruplar və şəxslər barədə;

- digər Tərəfin ərazisində hərəkət etməsi barədə ehtimal olunan terror aktları və digər cinayətlərin törədilməsinə görə axtarılan şəxslər, həmçinin itkin düşmüş şəxslər və meyitlərin tanınması barədə;

- mütəşəkkil cinayətkarlıqda, qanunsuz miqrasiya, eləcə də qanunsuz yollarla əldə edilmiş gəlirlərin leqallaşdırılmasında əlaqəli bilinən fiziki və hüquqi şəxslər barədə;

- narkotik vasitələrin və psixotrop maddələrin, imkan daxilində onların qanunsuz dövriyyəyə çıxarılmış yeni növləri, hazırlanma texnologiyası və bunun üçün istifadə olunan maddələr barədə;

- axtarışda olan nəqliyyat vasitələri barədə.

6. Tərəflər təhlükəsizliyin təmin olunması və cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlığın müqavilə-hüquq bazasının möhkəmləndirilməsi üzrə fəaliyyətlərini davam etdirəcəklər,

7. Tərəflər aidiyyəti tibb müəssisələrinin iş təcrübəsinin mübadiləsi üzrə əməkdaşlığı, həmçinin daxili işlər orqanları əməkdaşlarının və onların ailə üzvlərinin müalicəsi və sağlamlaşdırılması məsələləri üzrə əməkdaşlığı inkişaf etdirəcəklər.

8. Bu Protokol, Tərəflərin dövlətlərinin milli qanunvericiliklərinə və beynəlxalq öhdəliklərinə müvafiq olaraq digər razılaşdırılmış tədbirlərin keçirilməsinə maneçilik yaratmır.

9. Tərəflər 2012-ci ilin noyabr ayının 20-nə qədər növbəti dövrlər üçün əməkdaşlıq Protokoluna daxil ediləcək tədbirlər barədə mübadilə aparacaqlar.

Bu Protokol imzalandığı gündən qüvvəyə minir.

Daşkənd şəhərində 27 sentyabr 2010-cu il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, özbək və rus dillərində olmaqla imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malik-

dir. Bu Protokolun təfsirində fikir ayrılığı yarandığı təqdirdə rus dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ ADINDAN	ÖZBƏKİSTAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ ADINDAN
RAMİL USUBOV	*BAXODIR MATLYUBOV*
Daxili işlər naziri	*Daxili işlər naziri*

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Özbəkistan Respublikası Xarici İşlər Nazirliyi arasında 2010-2012-ci illər üçün Əməkdaşlıq Proqramı

Bundan sonra Tərəflər adlandırılacaq Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Özbəkistan Respublikası Xarici İşlər Nazirliyi Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Özbəkistan Respublikası Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında 23 mart 2004-cü il tarixli Protokolu rəhbər tutaraq, 2010-2012-ci illərdə aşağıdakı tədbirləri həyata keçirəcəklər.

1. İkitərəfli məsləhətləşmələr

Xarici İşlər Nazirləri və/və ya onların müavinləri səviyyəsində məsləhətləşmələr Daşkənddə - 2011-ci ilin I yarımilliyində, Bakıda - 2011-ci ilin II yarımilliyində.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Özbəkistan Respublikası Xarici İşlər Nazirliyinin struktur bölmələrinin rəhbərləri və ekspertləri səviyyəsində tematik məsləhətləşmələr:

- ikitərəfli müqavilə-hüquq bazasının inventarizasiyası məsələləri üzrə (Daşkənd şəhəri, 2010-cu ilin III rübü);

- Avro-Atlantik Tərəfdaşlıq Şurası və Sülh naminə Tərəfdaşlıq çərçivəsində NATO və Avropa İttifaqı ilə əməkdaşlıq üzrə təcrübə mübadiləsi, həmçinin ümumavropa mövzusu (Daşkənd şəhəri, 2010-cu ilin IV rübü);

- BMT məsələləri, o cümlədən, BMT Baş Assambleyasının sessiyalarının gündəliyinə daxil olan məsələlər (Daşkənd şəhəri, 2010-cu ilin IV rübü və Bakı şəhəri, 2011-ci ilin III rübü);

- Konsulluq məsələləri üzrə (Bakı şəhəri, 2011-ci ilin I rübü);

- Əfqanıstanda vəziyyətə dair (Bakı şəhəri, 2011-ci ilin II rübü);

- ATƏT, MDB, İKT və digər beynəlxalq təşkilatlarla münasibətlər məsələləri üzrə (Daşkənd şəhəri, 2011-ci ilin II rübü və Bakı şəhəri, 2012-ci ilin II rübü);

- Regional təhlükəsizliyin təmin edilməsi, beynəlxalq terrorizm, transmilli mütəşəkkil cinayətkarlıq və narkotiklərin qeyri-qanuni dövriyyəsi ilə mübarizə məsələləri üzrə (Bakı şəhəri, 2011-ci ilin III rübü);

- ətraf mühitin mühafizəsi üzrə (Daşkənd şəhəri, 2012-ci ilin IV rübü);

- humanitar sahədə ikitərəfli əməkdaşlığın inkişafı məsələləri üzrə (Daşkənd şəhəri,

2010-cu ilin IV rübü və Bakı şəhəri, 2011-ci ilin IV rübü).

Zərurət yarandığı təqdirdə, digər məsləhətləşmələr və işçi görüşlər keçirilə bilər.

2. İnformasiya mübadiləsi və informasiya - məlumat işinin genişləndirilməsində qarşılıqlı yardım

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Özbəkistan Respublikası Xarici İşlər Nazirliyi dərc edilmiş məcmuələrin və digər qarşılıqlı maraq kəsb edən açıq rəsmi nəşrlərin mübadiləsini həyata keçirəcəklər.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Özbəkistan Respublikası Xarici İşlər Nazirliyi qarşılıqlı razılıq əsasında onları maraqlandıran informasiya-məlumat materiallarının mübadiləsini həyata keçirəcəklər.

Bu Proqram imzalandığı gündən qüvvəyə minir.

Daşkənd şəhərində "27" sentyabr 2010-cu il tarixində hər biri Azərbaycan, özbək və rus dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır və bütün mətnlər eyni hüquqi qüvvəyə malikdir. Bu Proqramın müddəalarının təfsirində fikir ayrılığı yarandıqda, Tərəflər rus dilində olan mətndən istifadə edəcəklər.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ ADINDAN	ÖZBƏKİSTAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*VLADİMİR NOROV*
Xarici işlər naziri	*Xarici işlər naziri*

Azərbaycan Respublikası Dövlət Mülki Aviasiya Administrasiyası və Özbəkistan Respublikası Uçuşların Təhlükəsizliyinə Nəzarət üzrə Dövlət Müfəttişliyi (Dövlətavianəzarət) arasında aviasiya personalı şəhadətnamələrinin qarşılıqlı tanınması haqqında Saziş

Sonradan "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Administrasiyası və Özbəkistan Respublikası Uçuşların Təhlükəsizliyinə Nəzarət üzrə Dövlət Müfəttişliyi (Dövlətavianəzarət)

Azərbaycan Respublikası və Özbəkistan Respublikasının 1944-cü il dekabrın 7-də Çikaqoda imzalanmış Beynəlxalq mülki aviasiya haqqında konvensiyanın iştirakçıları və Razılığa Gələn Dövlətlər olduğunu nəzərə alaraq;

Beynəlxalq Mülki Aviasiya Təşkilatının (ICAO) aviasiya personalına şəhadətnamələrin verilməsi üzrə Standartları və Tövsiyə Edilən Təcrübəsini rəhbər tutaraq;

aviasiya personalı şəhadətnamələrinin hazırlanması və verilməsi prosedurlarını tənzimləmək niyyəti ilə;

uçuşların təhlükəsizliyini maksimum dərəcədə təmin etmək niyyəti ilə;

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1. Təriflər

1.1. Bu Sazişin məqsədlərini ifadə edən terminlər aşağıdakı mənalarda işlədilmişdir:

a) **"Konvensiya"** - 7 dekabr 1944-cü il tarixli "Beynəlxalq mülki aviasiya haqqında konvensiya"nı, bu Konvensiyanın 90-cı maddəsinə əsasən hər iki Tərəfin qəbul etdiyi hər hansı Əlavəsini, həmçinin 90-cı və 94-cü maddələrə uyğun olaraq Əlavələrə yaxud Konvensiyaya edilmiş istənilən düzəlişi bildirir;

b) **"aviasiya administrasiyası"** - Azərbaycan Respublikasına münasibətdə - Dövlət Mülki Aviasiya Administrasiyası; Özbəkistan Respublikasına münasibətdə - Uçuşların Təhlükəsizliyinə Nəzarət üzrə Dövlət Müfəttişliyi (Dövlətavianəzarət) və ya hər iki halda hazırda göstərilən administrasiyalar tərəfindən həyata keçirilən funksiyaları yerinə yetirmək səlahiyyəti verilmiş istənilən şəxs və ya orqan deməkdir;

və insan alveri, habelə vəzifəli şəxslərin iştirakı ilə qrup şəklində törədilmiş cinayət əməllərində iştirakına dair məlumat mübadiləsi daxil olmaqla şəxslərin və cinayətkar təşkilatların və birliklərin cinayət əməllərinin qarşısının alınması sahəsində fəaliyyətlərin əlaqələndirilməsi.

Maddə 2

Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında bağlanmış dövlətlərarası müqavilələrdə digər qayda nəzərdə tutulmadıqda, Tərəflər öz aralarında hazırkı Saziş çərçivəsində bilavasitə qarşılıqlı əlaqə həyata keçirirlər.

Maddə 3

Hazırkı Saziş çərçivəsində əməkdaşlıq Tərəflərin sorğuları əsasında həyata keçirilir. Sorğuların sənədləşdirilməsi zamanı rus dilindən istifadə edilir; sorğular dövlət dilində tərtib edildikdə onların rus dilində tərcüməsi əlavə edilir.

Tərcümə səlahiyyətli şəxsin imzası və möhürü ilə təsdiq edilməlidir.

Maddə 4

Hüquqi yardım barədə sorğunun icrası zamanı sorğu verilən Tərəf öz dövlətinin qanunvericiliyinin müddəalarını rəhbər tutur. Sorğu verən Tərəfin xahişi ilə sorğunu cavablandıran Tərəf sorğunu icra edərkən onun qanunvericiliyinə zidd olmadığı hissədə sorğunu verən Tərəfin prosessual normalarını tətbiq edə bilər.

Əgər sorğu siyasi xarakter daşıyırsa, qanunvericiliyin əsas prinsiplərinə ziddirsə, insan hüquqlarının pozulmasına səbəb ola bilərsə, yaxud müstəqilliyə, təhlükəsizliyə, ictimai qaydalara və sorğunu cavablandıran Tərəfin dövlətinin digər əhəmiyyətli maraqlarına xələl gətirə bilərsə, hüquqi yardım göstərilmir. Sorğunun icrasından imtina edildikdə sorğu verən Tərəf belə qərarın qəbul edilməsi səbəbi göstərilməklə yazılı olaraq məlumatlandırılır.

Maddə 5

Tərəflərin hər biri digər Tərəfdən alınan materialların müstəsna olaraq onların təqdim edildikləri məqsədlər üçün istifadə ediləcəklərinə zəmanət verir. Materialların digər məqsədlər üçün istifadə edilməsi, yaxud üçüncü tərəfə verilməsi üçün bu materialları təqdim etmiş Tərəfin yazılı razılığı tələb olunur.

Tərəflərin hər biri öz dövlətinin qanunvericiliyinə uyğun olaraq digər Tərəfin tələb etdiyi məxfilik dərəcəsini təmin edir.

Maddə 6

Hazırkı Sazişin müddəaları Tərəflərin dövlətləri arasında bağlanmış ikitərəfli və çoxtərəfli müqavilələrin tətbiqinə təsir göstərmir.

Maddə 7

Bu Sazişin müddəalarının tətbiqi və təfsiri ilə bağlı bütün mübahisəli məsələlər Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

Maddə 8

Tərəflərin qarşılıqlı razılığı əsasında hazırkı Sazişə onun ayrılmaz hissəsi olan və hazırkı Sazişin 9-cu maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən və qüvvədə olan, ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 9

Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır, imzalandığı gündən qüvvəyə minir və bir Tərəfin digər Tərəfdən Sazişi ləğv etmək niyyətinə dair bildiriş aldığı tarixdən etibarən bir ay keçdikdə öz qüvvəsini itirir.

v) Standart (ICAO termini) fiziki xarakteristikalara, konfiqurasiyaya material hissəsinə; texniki xüsusiyyətlərə, personala yaxud qaydalara aid istənilən tələbi bildirir. Standartın beynəlxalq aeronaviqasiyanın təhlükəsizliyi və ya müntəzəmliyinin təmin olunması üçün eyni qaydada tətbiqi zəruri hesab edilir və Konvensiyaya əsasən Tərəflər ona riayət etməlidirlər; standarta riayət olunması mümkün olmadığı təqdirdə Tərəflər Konvensiyanın 38-ci maddəsinə uyğun olaraq Beynəlxalq Mülki Aviasiya Təşkilatına xəbər verməlidirlər;

q) "Tövsiyə edilən təcrübə" (ICAO termini) həmçinin fiziki xarakteristikalara, konfiqurasiyaya, material hissəsinə, texniki xüsusiyyətlərə, personala və ya qaydalara qarşı istənilən tələb deməkdir. Beynəlxalq aeronaviqasiyanın təhlükəsizliyi, müntəzəmliyi və ya intensivliyinin təmin olunması məqsədilə tövsiyə edilən təcrübənin eyni qaydada tətbiqi məqsədəuyğun hesab edilir və Tərəflər Konvensiyaya əsasən ona riayət etməyə çalışacaqlar.

d) "Aviasiya personalı şəhadətnaməsi" - sahibinə hava gəmisinin, hava hərəkətinin idarə edilməsi və mühəndis-texniki təminat zamanı müəyyən funksional vəzifələri yerinə yetirmək hüququ verən müəyyən nümunəli sənəd.

Maddə 2. Məsuliyyət

2.1. Aviasiya personalı şəhadətnaməsini verən Tərəf şəhadətnamələrin Konvensiyanın 1 №-li Əlavəsində qeyd edilən minimal Standartlara uyğunluğuna və etibarlı olmasına görə məsuliyyət daşıyır.

2.2. Aviasiya personalı şəhadətnaməsini verən Tərəf şəhadətnamə sahibinin şəhadətnamədə müəyyən edilən hüquqların həyata keçirilməsi üçün kifayət qədər təcrübəyə və ixtisasa malik olmasına görə məsuliyyət daşıyır, bu şərtlə ki, o, öz ixtisasını artırmış olsun və onun təcrübəsi minimal Standartlara cavab versin.

Maddə 3. Şəhadətnamələrin tanınması

3.1. Tərəflərdən birinin verdiyi aviasiya personalı şəhadətnamələrini digər Tərəf o

şərtlə etibarlı hesab edir ki, belə şəhadətnamələrin verilməsinə əsas olan tələb tələblər Konvensiyaya uyğun müəyyən edilən minimal Standartlara uyğun gəlməli və ya onlardan yüksək olmalıdır.

3.2. Tərəflərdən birinin aviasiya personalı şəhadətnamələrinin verilməsi üçün tələbləri Konvensiyaya uyğun müəyyən edilən minimal Standartlardan fərqlənirsə yalnız həmin Tərəf bu fərqlər barədə Beynəlxalq Mülki Aviasiya Təşkilatına məlumat verdiyi halda belə şəhadətnamələr etibarlı sayılır.

3.3. Tərəflərdən hər biri uçuşların təhlükəsizliyini təmin etmək məqsədilə aşağıdakı hallarda aviasiya personalı şəhadətnaməsinin tanınmasından imtina etmək və ya bu şəhadətnamənin tanınması üçün verilmiş icazəni ləğv etmək hüququna malikdir:

a) digər Tərəfin aviasiya personalı şəhadətnamələrinin verilməsi üçün tələbləri bu Sazişin 3.2. bəndində qeyd edilənlərdən fərqlənərsə;

b) bu Sazişin 6-cı bəndinə əsasən yoxlamalar aparılarkən hər hansı pozuntu və ya uyğunsuzluq müəyyən edildiyi halda.

Maddə 4. Şəhadətnamələrin tanınması qaydası

4.1. Tərəflərdən birinin digər Tərəfin verdiyi aviasiya personalı şəhadətnaməsini tanıması Tövsiyə edilən Təcrübəyə və birinci Tərəfin aviasiya qaydalarına əsasən verilən müvafiq icazə ilə müəyyən edilir.

4.2. Birinci Tərəfin aviasiya personalı şəhadətnaməsi və ikinci Tərəfin yuxarıda qeyd edilən icazəsi ikinci Tərəfin verdiyi aviasiya personalı şəhadətnaməsi ilə eyni hüquqi qüvvəyə malikdir.

4.3. Tərəflərdən birinin verdiyi və 4.1. bəndində göstərilən icazənin qüvvədə olma müddəti digər Tərəfin verdiyi aviasiya personalı şəhadətnaməsinin qüvvədə olma müddətindən artıq ola bilməz.

Maddə 5. Şəhadətnamə sahibinin hüquqları

Tərəflər aviasiya personalı şəhadətnaməsinin sahibinə müvafiq şəhadətnamədə nəzərdə tutulan hüquqlardan başqa digər hüquqlar vermirlər.

Maddə 6. Yoxlama

6.1. Hər bir Tərəf digər Tərəfə xəbər verdikdən sonra onun dövlətinin ərazisində aviasiya personalının, həmçinin aviasiya personalının hazırlığı üzrə təşkilatların Standartlara, Tövsiyə edilən Təcrübəyə və ya Tərəflər arasında razılaşdırılmış aviasiya personalı ilə bağlı standartlara uyğunluğunu yoxlaya bilər.

6.2. Belə yoxlama aparıldıqdan sonra Tərəflərdən biri digər Tərəfin həmin vaxt Konvensiyaya müvafiq olaraq müəyyən edilmiş və ya Tərəflər arasında razılaşdırılmış minimal standartlara riayət etmədiyini və ya uyğunluğu təmin etmədiyini müəyyən edərsə, həmin Tərəf aşkar olunmuş nöqsanlara və görülməsi zəruri olan tədbirlər haqqında məlumat verilməlidir. Digər Tərəf aşkar edilmiş nöqsanları birinci Tərəflə razılaşdırılmış müddətdə aradan qaldırmalıdır.

6.3. Digər Tərəf razılaşdırılmış müddətdə nöqsanları aradan qaldıra bilmədiyi halda Sazişin 3.3. bəndinin tətbiq edilməsi üçün əsas yaranacaqdır.

6.4. Tərəflərdən biri 6.1. bəndinə əsasən yoxlama aparılmasından imtina etdiyi təqdirdə digər Tərəf bu maddənin 6.2. bəndində qeyd edilən uyğunsuzluqların mövcud olduğu barədə nəticə çıxara bilər.

6.5 Hər bir Tərəf bir və ya bir neçə yoxlamanın nəticələrinə əsaslanaraq yaxud belə yoxlama aparılmasından imtina olunduğu halda, məsləhətləşmələr keçirildikdən sonra və ya digər hallarda belə hərəkətlərin uçuşların təhlükəsizliyinin təmin edilməsi üçün zəruri olduğunu qərara aldığı halda bu Sazişin 3.3 bəndində nəzərdə tutulmuş tədbirlər görmək hüququna malikdir.

6.6. Bu Sazişin 3.3. bəndinə uyğun olaraq hər hansı tədbirin görülməsi üçün əsas aradan qaldırıldıqdan sonra Tərəflərdən biri digər Tərəfə münasibətdə heç bir tədbir görməyəcəkdir.

Maddə 7. Məlumatın verilməsi

Hər bir Tərəf digər Tərəfin müraciətinə uyğun olaraq bu Sazişin yerinə yetirilməsi məqsədilə tələb edilə bilən məlumatı təqdim edir.

Maddə 8. Məsləhətləşmələr

8.1. Hər bir Tərəf bu Sazişin müddəalarının təfsiri, tətbiqi və ya ona dəyişikliklərin edilməsi məqsədilə məsləhətləşmələrin keçirilməsi üçün istənilən vaxt digər Tərəfə müraciət edə bilər.

8.2. Tərəflər arasında başqa qaydada razılaşma əldə olunmadığı halda, belə məsləhətləşmələr digər Tərəfin sorğunu aldığı tarixdən 15 (on beş) gün ərzində başlanır.

Maddə 9. Mübahisələrin həlli

Bu Sazişin müddəalarının təfsiri və ya tətbiqi ilə əlaqədar Tərəflər arasında istənilən fikir ayrılığı meydana çıxarsa, Tərəflər onu danışıqlar yolu ilə həll etməyə çalışacaqlar.

Maddə 10. Dəyişiklik və əlavələrin edilməsi

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və 11-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 11. Sazişin qüvvəyə minməsi və ləğv edilməsi

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir. Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır. Tərəflər diplomatik kanallar vasitəsilə bildiriş təqdim etməklə bu Sazişi ləğv edə bilərlər. Saziş belə bildirişin alındığı tarixdən üç (3) ay sonra qüvvədən düşmüş hesab edilir.

Maddə 12. İKAO-da qeydiyyat

Bu Saziş və ona edilən hər-hansı dəyişiklik və əlavələr Beynəlxalq Mülki Aviasiya Təşkilatında (İKAO) qeydiyyatdan keçirilir.

Daşkənd şəhərində 27 sentyabr 2010-cu il tarixində, hər biri Azərbaycan, özbək və rus dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır. Bütün mətnlər eyni hüquqi qüvvəyə malikdir. Bu Sazişin təfsirində fikir ayrılığı yarandığı təqdirdə rus dilindəki mətndən is-

tifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ AVİASİYA ADMİNİSTRASİYASI ADINDAN	ÖZBƏKİSTAN RESPUBLİKASININ UÇUŞLARIN TƏHLÜKƏSİZLİYİNƏ NƏZARƏT ÜZRƏ DÖVLƏT MÜFƏTTİŞLİYİ ADINDAN
CAHANGİR ƏSGƏROV	*TOLİB EQAMBEDİYEV*
"Azərbaycan Hava Yolları" QSC-nin prezidenti	*Müfəttişliyinin rəisi*

Azərbaycan Respublikası Baş Prokurorluğu və Özbəkistan Respublikası Baş Prokurorluğu arasında əməkdaşlıq və hüquqi yardım haqqında Saziş

Bundan sonra Tərəflər adlanacaq Azərbaycan Respublikası Baş Prokurorluğu və Özbəkistan Respublikası Baş Prokurorluğu;

dövlətlərin suverenliyi və hüquq bərabərliyi, onların qarşılıqlı anlaşma prinsiplərindən və qarşılıqlı maraqlar əsasında prokurorluq orqanları arasında əməkdaşlığı genişləndirmək səylərindən çıxış edərək;

ümumtanınmış beynəlxalq hüququn normalarına əsaslanaraq;

Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında Müqavilənin (Bakı, 27 may 1996-cı il) və Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında Müqavilənin (Daşkənd, 18 iyun 1997-ci il) müddəalarını rəhbər tutaraq;

vətəndaşların, cəmiyyətin və dövlətin hüquq və azadlıqlarının etibarlı müdafiəsinin təmin edilməsi məqsədilə;

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər hazırkı Sazişə, öz dövlətlərinin milli qanunvericiliklərinə və beynəlxalq müqavilələrinə uyğun olaraq öz səlahiyyətləri daxilində aşağıdakı istiqamətlər üzrə qarşılıqlı əməkdaşlığı həyata keçirirlər:

cinayət təqibindən və ya cəza çəkməkdən gizlənən, eləcə də itkin düşmüş şəxslərin axtarılmasının təşkilində yardım göstərilməsi;

nömrəyə və ya xüsusi fərqləndirici əlamətlərə malik oğurlanmış əşyaların, o cümlədən, avto-nəqliyyatın və odlu silahın, habelə nömrəli qiymətli kağızların, şəxsiyyəti təsdiq edən sənədlərin müəyyən olunmuş qaydada axtarılmasının və geri qaytarılmasının təşkilində yardım göstərilməsi;

fiziki və hüquqi şəxslərin hazırlanan və ya törədilmiş cinayət əməllərində, xüsusilə də terrorizm, narkotik vasitələrin, psixotrop maddələrin və prekusorların qanunsuz dövriyyəsinə, qanunsuz miqrasiya

Bu Saziş 27 sentyabr 2010-cu ildə Daşkənd şəhərində hər biri Azərbaycan, özbək və rus dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər hüquqa malikdir.

Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı olduğu təqdirdə, Tərəflər rus dilində olan mətnə üstünlük verəcəklər.

AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU ADINDAN	ÖZBƏKİSTAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU ADINDAN
ZAKİR QARALOV	*RAŞİTJAN KODIROV*
Baş prokuror	*Baş prokuror*

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və Özbəkistan Milli Teleradio Şirkəti arasında Əməkdaşlıq Sazişi

Bundan sonra "Tərəflər" adlandırılacaq "Azərbaycan Televiziya və Radio verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və Özbəkistan Milli Teleradio Şirkəti,

Azərbaycan və Özbəkistan ərazilərində televiziya və radio proqramlarının yayımlanması üçün əlverişli şərait yaradılmasına dair qarşılıqlı marağı rəhbər tutaraq,

11 sentyabr 2008-ci ildə Bakı şəhərində imzalanmış Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında humanitar əməkdaşlıq sahəsində Sazişin və 18 iyun 1997-ci ildə Daşkənd şəhərində imzalanmış Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında müəlliflik hüququ və əlaqəli hüquqların qorunması sahəsində əməkdaşlıq haqqında Sazişin müddəalarını əsas götürərək,

Azərbaycan və Özbəkistan xalqları arasında tarixən yaranmış sosial-mədəni və elmi əlaqələrin inkişaf etdirilməsində teleradio yayımının əhəmiyyətinə əsaslanaraq,

Tərəflər arasında dostluq və işgüzar əlaqələrin möhkəmlənməsinə böyük əhəmiyyət verərək,

Teleradio yayım sahəsində əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər öz dövlətlərinin, xalqlarının iqtisadi, mədəni və sosial inkişafını, qazandıqları nailiyyətləri əks etdirən sənədli və xronikal proqramların, habelə musiqi, elmi-populyar verilişlərin mübadiləsini həyata keçirəcək, o cümlədən öz ölkələrinin milli bayramlarını və əlamətdar hadisələrini işıqlandıracaqlar.

Bir Tərəfin proqramlarının məzmunu digər Tərəfin milli qanunvericiliyinə zidd olmamalıdır.

Tərəflərin heç biri əldə olunan materialları üçüncü tərəfə vermək və ya satmaq hüququna malik deyildir. Tərəflər bu Sazişə əsasən aldıqları proqramlardan, yaxud informasiya və arxiv materiallarından yalnız öz verilişlərində istifadə edə bilərlər.

Materialı alan tərəf proqramda dəyişiklik və ya ixtisar edərsə, bu halda proqramın mahiyyətinə, məzmununa xələl gəlməməli və təhrif olunmamalıdır.

Teleradioməhsul əvəzi ödənilmədən verilə bilər və yaxud haqqı hər bir konkret halda razılaşmaya uyğun ödənilə bilər.

Maddə 2

Saziş çərçivəsində göndərilən proqramların müəlliflik hüququnun qorunmasını müəlliflik hüququ sahəsindəki milli və beynəlxalq qanunvericilik tələblərini nəzərə almaqla göndərən Tərəf təmin edir. Əgər proqramı alan Tərəf müəlliflik mülkiyyəti hüququna görə müəyyən vergi ödəməyə borcludursa, proqramı göndərən bu barədə alan Tərəfi əvvəlcədən xəbərdar edir və yalnız müəlliflik hüquqları ilə əlaqədar bütün vergilərin ödəniləcəyinə razılıq aldıqdan sonra proqramı göndərir.

Maddə 3

Tərəflər, qarşılıqlı razılaşmaya əsasən öz işçilərini digər Tərəfin struktur bölmələrinə ezamiyyətə göndərəcək və belə səfərlərin təşkilində bir-birinə kömək göstərəcəklər.

Göndərən Tərəf nümayəndə heyətinin tərkibi və işçilərin tutduğu vəzifə barədə qəbul edən Tərəfi vaxtında xəbərdar etməlidir ki, digər Tərəf görüşün təşkili üçün lazimi tədbirləri görə bilsin.

Qarşılayan Tərəf xidməti ezamiyyətdə olan işçilərə aldıqları jurnalist tapşırıqlarının və çəkilişlərin yerinə yetirilməsində lazimi kömək (informasiya verilməsi, təşkilati və texniki xidmət) göstərəcək.

Əlavə razılaşma olmadığı halda nəqliyyat və yaşayış xərcləri də daxil olmaqla səfərlə bağlı bütün xərcləri əməkdaşları göndərən Tərəf ödəyir.

Tərəflər göstərilən xidmətlərə görə bir-birinə hesab təqdim edəcəklər. Xidmətlərin dəyəri və ödəniş müddəti hər iki Tərəfin razılaşdırdığı standartlara uyğun olaraq əvvəlcədən müəyyənləşdirilir,

Maddə 4

Tərəflər müxtəlif mövzulu audio-video məhsulların birgə istehsalı və mübadiləsi, müxtəlif beynəlxalq tədbirlərin birgə işıqlandırılması və onları maraqlandıran digər sahələrdə əməkdaşlığı inkişaf etdirəcəklər.

Tərəflər müştərək proqramların hazırlanmasında hər bir konkret proqramın mövzusunu, məzmununu, davamiyyət müddətini, iştirakçıların sayını, proqramın dəyərini və s. öncədən razılaşdıracaqlar.

Tərəflər, həmçinin öz mövqelərini əlaqələndirəcək və müəyyənləşdirilmiş qaydada Tərəflərdən birinin irəli sürdüyü təşəbbüslərin reallaşdırılmasını üzv olduqları beynəlxalq təşkilatlar çərçivəsində birlikdə razılaşdıracaqlar.

Maddə 5

Tərəflər mövcud Sazişə uyğun olaraq, qarşılıqlı surətdə mütəxəssisləri tədrisə və təkmilləşməyə cəlb edə bilərlər. Tədrisin təşkilinin konkret məsələləri ayrı-ayrı protokollarla nizamlanacaq.

Maddə 6

Tərəflər televiziya və radionun inkişafı üçün əhəmiyyətli olan informasiyaların, o cümlədən sorğuların və tədqiqatların nəticələrinin, idarəetmə, hüquqi baza, proqram cədvəllərinin tərtibi, texniki problemlər və s. haqqında informasiyaların ötürülməsini, və ya mübadiləsini öhdəliklərinə götürürlər.

Maddə 7

Hazırki Saziş çərçivəsində əməkdaşlığı bilavasitə Tərəflər və yaxud onların müvəkkilləri - konkret tədbirləri, müddətləri, maliyyə və digər şərtləri nəzərə alan ayrı-ayrı fəaliyyət istiqamətləri üzrə əməkdaşlıq haqqında birgə protokollar imzalaya bilən struktur bölmələri həyata keçirəcəklər.

Maddə 8

Qarşılıqlı razılığa əsasən Tərəflər bu Sazişə, onun ayrılmaz hissəsi olan, ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edə bilərlər.

Maddə 9

Hazırkı Sazişin müddəalarının təfsiri və tətbiqi ilə əlaqədar yaranan fikir ayrılığı məsləhətləşmələr və danışıqlar yolu ilə həll edilir.

Maddə 10

Bu Saziş imzalandığı gündən qüvvəyə minir və iki il müddətinə bağlanılır. Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə ən azı altı y qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti iki illik müddətlərə uzadılacaqdır.

Saziş onun ləğv olunması barədə Tərəflərdən birinin yazılı bildirişindən 6 ay keçdikdən sonra qüvvədən düşür.

Bu Saziş Daşkənd şəhərində 27 sentyabr 2010-cu il tarixində iki əsl nüsxədə hər biri Azərbaycan, özbək və rus dillərində olmaqla imzalanmışdır. Bütün mətnlər eyni qüvvəyə malikdir.

Təfsir zamanı fikir ayrılığı yarandığı təqdirdə rus dilindəki mətndən istifadə ediləcəkdir.

"AZƏRBAYCAN TELEVİZİYA VƏ RADİO VERİLİŞLƏRİ" QAPALI SƏHMDAR CƏMİYYƏTİ ADINDAN

ARİF ALIŞANOV
Sədr

ÖZBƏKİSTAN MİLLİ TELERADİO ŞİRKƏTİ ADINDAN

ALİŞER XOCAYEV
Şirkətinin sədri

Azərbaycan Milli Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutu və Özbəkistan Rəssamlıq Akademiyası arasında əməkdaşlıq haqqında Müqavilə

Bundan sonra Tərəflər adlandırılacaq Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutu və Özbəkistan Rəssamlıq Akademiyası,

Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında mədəniyyət və humanitar sahəsində əməkdaşlıq haqqında, Bakı şəhərində 27 may 1996-cı il tarixində imzalanmış Sazişin və Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında humanitar sahədə əməkdaşlıq haqqında, Bakı şəhərində 11 sentyabr 2008-ci il tarixində imzalanmış Sazişin müddəalarını rəhbər tutaraq;

əməkdaşlığın əsasında hüquq bərabərliyi, qarşılıqlı anlaşma və qarşılıqlı fayda prinsiplərinin durduğunu qeyd edərək;

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər ənənəvi mədəni əlaqələrin qorunması və inkişafı, incəsənət və sənətşünaslıq, sərgi və nəşriyyat fəaliyyəti sahəsində mübadilə və əməkdaşlıq üçün əlverişli şəraitin yaradılmasına yardım edəcəklər.

Maddə 2

Tərəflər incəsənət və sənətşünaslıq sahəsində əməkdaşlığı aşağıdakı yollarla həyata keçirəcək:

a) mütəxəssislərin, təcrübəçi və aspirantların mübadiləsi;

b) sənədlərin, nəşrlərin və elmi məlumatların mübadiləsi;

c) qarşılıqlı maraq kəsb edən problemlərə dair konfrans və seminarların təşkili;

d) birgə tədqiqat layihələrinin həyata keçirilməsi;

e) birgə sərgi layihələrinin həyata keçirilməsi;

f) birgə nəşr layihələrinin həyata keçirilməsi;

Maddə 3

Mütəxəssis və nümayəndələrin mübadiləsi zamanı:

- göndərən Tərəf öz nümayəndələrinin digər Tərəfin dövlət paytaxtınadək olan beynəlxalq yol, həmçinin beynəlxalq yük daşınması ilə bağlı xərclərinin ödənişini öz üzərinə götürür;

- qəbul edən Tərəf digər Tərəfin nümayəndələrinin ölkəyə gəlişindən sonrakı xərclərini (mehmanxana, yemək, daxili nəqliyyat və mədəni proqram) ödəyir, çıxış etmək üçün zallar təqdim edir, lazım olduğu halda təcili tibbi yardımın göstərilməsi ilə təmin edir.

- konkret mütəxəssislərin cəzb olunması Tərəflər arasında qabaqcadan razılaşdırılır.

Maddə 4

Bu Müqavilənin müddəalarının təfsiri və ya tətbiqi zamanı fikir ayrılığı yarandığı halda Tərəflər onları danışıqlar və məsləhətləşmələr yolu ilə həll edirlər.

Maddə 5

Tərəflərin qarşılıqlı razılığı ilə bu Müqavilənin 6-cı maddəsində müəyyən olunmuş qaydada qüvvəyə minən və bu Müqavilənin ayrılmaz hissəsi olan ayrıca protokollarla

rəsmiləşdirilən, dəyişiklik və əlavələr edilə bilər.

Maddə 6

Bu Müqavilə imzalandığı gündən qüvvəyə minir. Müqavilə beş (5) il müddətə bağlanılır. Bu müddətin başa çatmasına ən azı altı (6) ay qalmışdan gec olmayaraq Tərəflərdən biri onu ləğv etmək niyyəti barədə digər Tərəfə yazılı bildirişin təqdim etmədiyi təqdirdə Müqavilənin müddəti avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılır.

Bu Müqavilənin ləğvi onun qüvvədə olduğu müddətdə başlanmış tədbirlərə onlar başa çatanadək təsir göstərməyəcək.

Daşkənd ş. 27 sentyabr 2010-cu ildə hər biri Azərbaycan, özbək və rus dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Müqavilənin müddəalarının təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə Tərəflər rus dilində olan mətni rəhbər tutacaqlar.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI MEMARLIQ VƏ İNCƏSƏNƏT İNSTİTUTU ADINDAN

ELMAR MƏMMƏDYAROV
Xarici işlər naziri

ÖZBƏKİSTAN RƏSSAMLIQ AKADEMİYASI ADINDAN

TURNUSALİ KUZİYEV
Akademiyasının sədri

2010-cu il sentyabrın 23-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və Bolqarıstan Respublikasının Özəlləşdirmə və Özəlləşdirmədənsonra Nəzarət Agentliyi arasında əməkdaşlıq haqqında Memorandum"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2010-cu il sentyabrın 23-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və Bolqarıstan Respublikasının Özəlləşdirmə və Özəlləşdirmədən sonra Nəzarət Agentliyi arasında əməkdaşlıq haqqında Memorandum" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Bolqarıstan Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 dekabr 2010-cu il

№ 1255

Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və Bolqarıstan Respublikasının Özəlləşdirmə və Özəlləşdirmədən sonra Nəzarət Agentliyi arasında əməkdaşlıq haqqında Memorandum

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və Bolqarıstan Respublikasının Özəlləşdirmə və Özəlləşdirmədən sonra Nəzarət Agentliyi;

Tərəflər arasında qarşılıqlı əlaqələr yaratmaq, bu əlaqələri inkişaf etdirmək və möhkəmləndirmək niyyətlərinə əsaslanaraq,

Tərəflərin dövlət əmlakının özəlləşdirilməsi sahəsində daha sıx əməkdaşlığına, qarşılıqlı faydalı texniki yardım üçün iş təcrübəsini və əldə olunmuş nailiyyətləri paylaşmağa səy edərək,

Aşağıdakı sahələrdə əməkdaşlığa dair razılığa gəldilər:

1. Tərəflər dövlətlərinin qanunvericiliyinə uyğun olaraq öz səlahiyyətləri çərçivəsində aşağıdakı istiqamətlərdə əməkdaşlıq edəcəklər:

- özəlləşdirmə ilə bağlı qanunvericilik sahəsində qarşılıqlı yardım;

- təcrübə mübadiləsi;

- açıqlanması Tərəflərin qanunvericiliyi ilə məhdudlaşdırılmayan məlumatların mübadiləsi;

- qarşılıqlı səfərlərin təşkili;

- məsləhət xidmətlərinin göstərilməsi;

- investorların özəlləşdirmə prosesinə cəlb edilməsi.

2. Yuxarıda qeyd olunan istiqamətlərdə əməkdaşlıq üzrə müvafiq tədbirlər Tərəflərin qarşılıqlı məsləhətləşmələri yolu ilə müəyyən olunacaqdır.

3. Tərəflər Memorandumda nəzərdə tutulmuş əməkdaşlığın həyata keçirilməsi məqsədi ilə səlahiyyətli nümayəndələrini müəyyən edəcək və həmin şəxslərin əlaqə rekvizitləri barədə qarşılıqlı surətdə bir-birinə məlumat verəcəklər. Tərəflərin nümayəndələri bu Memorandumа və dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq öz səlahiyyətləri çərçivəsində bir-birinə yardım göstərəcək, zəruri hallarda bu Memorandumun yerinə yetirilməsi ilə bağlı olan məsələlərin müzakirəsi üçün görüşlər keçirəcəklər.

4. Tərəflərin digər razılığa gəldiyi hallar istisna olmaqla, məlumatın verilməsi və səlahiyyətli nümayəndələrinin ezamiyyətləri ilə əlaqədar xərcləri müvafiq olaraq məlumatı verən və xidməti ezamiyyətə göndərən Tərəf ödəyəcəkdir.

5. Tərəflərin qarşılıqlı razılığı əsasında bu Memorandumа onun ayrılmaz hissəsi olan və 6-cı bənddə müəyyən olunmuş qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavələr və dəyişikliklər edilə bilər.

6. Bu Memorandum imzalandığı tarixdən qüvvəyə minir və qeyri-müəyyən müddətə bağlanılır. Tərəflərin hər biri istənilən zaman bu Memorandumа xitam vermək niyyəti barədə digər Tərəfə diplomatik kanallar vasitəsilə yazılı şəkildə bildiriş göndərə bilər. Memorandum bu cür bildiriş alındıqdan üç ay sonra xitam olunacaqdır.

Bu Memorandum Bakı şəhərində 2010-cu ilin sentyabr ayının 23-də Azərbaycan, bolqar, ingilis dillərində və hər biri iki nüsxədə olmaqla imzalanmışdır. Bütün mətnlər bərabər autentikdir. Memorandumun təfsirində fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilində olan mətn üstünlük təşkil edəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ ƏMLAK MƏSƏLƏLƏRİ DÖVLƏT KOMİTƏSİ ADINDAN	BOLQARISTAN RESPUBLİKASININ ÖZƏLLƏŞDİRMƏ VƏ ÖZƏLLƏŞDİRMƏDƏN SONRA NƏZARƏT AGENTLİYİ ADINDAN
KƏRƏM HƏSƏNOV	*EMİL KARANİKOLOV*
Komitəsinin sədri	*İcraçı direktor*

2010-cu il oktyabrın 8-də Havana şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Kuba Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2010-cu il oktyabrın 8-də Havana şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Kuba Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Kuba Respublikası Hökumətini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 dekabr 2010-cu il

№ 1256

Azərbaycan Respublikası Hökuməti və Kuba Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Kuba Respublikası Hökuməti,

Hər iki ölkənin sosial və iqtisadi inkişafı çərçivəsində informasiya və kommunikasiya texnologiyaları sahəsində qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirmək və möhkəmləndirməyi arzu edərək;

Hər bir ölkənin əhalisi üçün səmərəli və dayanıqlı xidmətlərin yerinə yetirilməsi ilə əlaqədar eyni məqsəd və maraqlan bölüşərək;

İnformasiya və kommunikasiya texnologiyaları sahəsində aparılan əməkdaşlığın hazırkı səviyyəsi və ümumi maraq kəsb edən fikirlər, məlumatlar, ixtisaslaşdırılmış bilik və tədqiqatlar baxımından mübadiləsi yolu ilə təkmilləşdirilməsinin Tərəflər üçün faydalı olacağını hesab edərək;

İnformasiya və kommunikasiya texnologiyaları sahəsində Tərəflər arasında kommersiya əlaqələrinin möhkəmləndirilməsində mövcud olan imkanları və bu imkanlardan istifadəni tam optimallaşdırmaq üçün ehtiyacı dərk edərək;

Tərəflərin informasiya və kommunikasiya texnologiyaları sahəsində sərmayələri, birgə müəssisələri, ümumi maraqlan, texnoloji inkişafı və ticarəti inkişaf etdirmək arzusunda olduqlarını nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər qarşılıqlı fayda əsasında, öz dövlətlərinin milli qanunvericilikləri və beynəlxalq hüququn müvafiq norma və prinsiplərinə və bu Sazişin müddəalarına uyğun olaraq informasiya və kommunikasiya texnologiyaları sahəsində öz iqtisadi, sənaye, elmi və texniki əməkdaşlıqlarını inkişaf etdirəcək və təkmilləşdirəcəklər.

Maddə 2

Tərəflər arasında informasiya və kommunikasiya texnologiyaları (İKT) sahəsində əməkdaşlıq aşağıdakıları əhatə edir:

- Telekommunikasiyanın tənzimlənməsi və poçt sahəsində hər iki ölkənin təcrübəsinin öyrənilməsi;

- Qarşılıqlı məqbul şərtlərlə informasiya və kommunikasiya texnologiyaları sahəsində birgə müəssisələrin yaradılmasının təşviq etdirilməsi;

- Telekommunikasiya və poçt təsisatlarında qarşılıqlı təlim kurslarının təşkili;

- Birgə seminar, konfrans, forum və sərgilərin keçirilməsi;

- Beynəlxalq təşkilatlarda (Ümumdünya Poçt İttifaqı və Beynəlxalq Telekommunikasiya İttifaqı kimi) hər iki ölkənin milli maraqlan üst-üstə düşdüyü təqdirdə bir-birini dəstəkləməsi;

- Qarşılıqlı razılaşma əsasında digər məsələlər.

Maddə 3

Tərəflər İKT sahəsində görülmüş işlərin daha da təkmilləşdirilməsi, əməkdaşlığın inkişaf etdirilməsi, yeni texnologiyaların tətbiqi və qəbul edilməsi, birgə müəssisələrin təşviq edilməsi məqsədi ilə aidiyyəti orqanlarını, təşkilat və müəssisələrini bu sahədə sıx əlaqələrin və məlumat mübadiləsinin təkmilləşdirilməsi, eləcə də xüsusi proqramların və layihələrin yerinə yetirilməsi sahəsində əməkdaşlığa təşviq edəcəklər.

Tərəflər kəndlərdə telekommunikasiyanın inkişaf etdirilməsi, rəqəmsallara keçidin təmin edilməsi və lokal şəbəkələrin tənzimlənməsi sahəsində əldə olunmuş təcrübənin tətbiqi üçün hər iki tərəfin mütəxəssislərinin birgə iş aparmasını təmin edəcəklər.

Maddə 4

Bu Sazişin müddəaları Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

Maddə 5

Tərəflər əməkdaşlıq çərçivəsində mübadilə etdikləri məxfi informasiyanın öz dövlətlərinin milli qanunvericiliklərinə uyğun surətdə qorunması üçün zəruri tədbirlər görmək, həmçinin belə informasiyanı təqdim etmiş Tərəfin yazılı icazəsi olmadan bu informasiyanı üçüncü tərəfə aşkarlamamaq və yaymamaq öhdəliyi daşıyırlar. Bu müddəa hazırkı Saziş qüvvədən düşdükdən sonra da qüvvədə qalır.

Maddə 6

Tərəflər bu Sazişin müddəalarının təfsiri və ya tətbiqi zamanı mübahisələr yarandığı təqdirdə, onları diplomatik kanallar vasitəsilə danışıqlar və məsləhətləşmələr yolu ilə həll etməlidirlər.

Maddə 7

Bu Sazişin həyata keçirilməsinə və fəaliyyətin əlaqələndirilməsinə görə məsul səlahiyyətli orqanlar Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Kuba Respublikasının İnformatika və Kommunikasiya Nazirliyidir.

Bu Sazişdən irəli gələn məsələlərin həyata keçirilməsi üzrə səlahiyyətli orqanların qarşılıqlı fəaliyyəti zamanı işçi dil qismində ingilis dilindən istifadə ediləcəkdir.

Tərəflər əməkdaşlığın xüsusiyyətlərindən asılı olaraq, bu Sazişin həyata keçirilməsi üzrə fəaliyyətin əlaqələndirilməsinə görə məsul olan digər dövlət hakimiyyəti orqanlarını təyin edə bilərlər və bu barədə onlar diplomatik kanallar vasitəsilə bir-birini məlumatlandırmalıdırlar.

Maddə 8

Bu Sazişə düzəliş və təkmilləşdirmələr Tərəflərin qarşılıqlı razılığı əsasında edilməlidir. Belə düzəliş və təkmilləşdirmələr bu Sazişin ayrılmaz hissəsi olan və bu Sazişin 9-cu maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən protokollarla rəsmiləşdirilməlidir.

Maddə 9

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş iki il müddətinə bağlanılır. Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə digər Tərəfə diplomatik kanallar vasitəsilə məlumat verməzsə, onun qüvvəsi növbəti 2 illik müddətlərə uzadılacaqdır.

Bu saziş Havana şəhərində 08 oktyabr 2010-cu il tarixində, iki əsl nüsxədə, hər biri Azərbaycan, ispan və ingilis dillərində imzalanmışdır, bütün mətlər bərabər autentikdir. Bu Sazişin təfsirində fikir ayrılığı yarandıqda, ingilis dilindəki mətndən istifadə edilə-

cəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	KUBA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ƏLİ ABBASOV	*RAMİRO VALDES MENDES*
Rabitə və informasiya texnologiyaları naziri	*Baş nazirinin müavini, rabitə və informasiya naziri*

2010-cu il oktyabrın 12-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və Koreya Respublikasının Strategiya və Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2010-cu il oktyabrın 12-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və Koreya Respublikasının Strategiya və Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Koreya Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 dekabr 2010-cu il

№ 1257

Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və Koreya Respublikasının Strategiya və Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və Koreya Respublikasının Strategiya və Maliyyə Nazirliyi,

Hər iki ölkənin dövlət əmlakının idarə edilməsi sisteminin inkişaf etdirilməsi üçün məlumat mübadiləsinin böyük əhəmiyyətə malik olduğunu və Tərəflər arasındakı əməkdaşlıq qarşılıqlı fayda və bərabərlik prinsipləri əsasında dövlət əmlakının səmərəli idarə edilməsinin inkişafına və təkmilləşməsinə töhfə verəcəyini dərk edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

1. Bu Anlaşma Memorandumunun məqsədi məlumat mübadiləsini genişləndirmək və dövlət əmlakının idarə edilməsi sahəsində Tərəflər arasında əməkdaşlığı gücləndirməkdir.

2. Tərəflər dövlətlərinin qanunvericiliyinə uyğun olaraq öz səlahiyyətləri çərçivəsində aşağıdakı istiqamətlərdə əməkdaşlıq edəcəklər:

- aidiyyəti üzrə qanunvericilik və tənzimləmə sahəsində;
- təcrübə və məlumatların mübadiləsi;
- qarşılıqlı səfərlərin təşkili;
- məsləhət xidmətlərinin göstərilməsi;
- seminar və treninqlərin təşkili;
- qarşılıqlı razılaşma əsasında əməkdaşlığın digər formaları.

3. Təcrübə və məlumat mübadiləsi aşağıdakıları əhatə edir:

- Dövlət əmlakının idarə edilməsinə dair məsələlər;
- Dövlət əmlakının idarə edilməsi ilə bağlı təcrübə;
- Tərəflərin bu Anlaşma Memorandumuna uyğun maraqları ilə bağlı digər məsələlər.

4. Tərəflər bu Anlaşma Memorandumundan irəli gələn əməkdaşlıq fəaliyyətinin həyata keçirilməsi üçün Tərəflərin dövlətlərinin milli qanunvericiliklərinə uyğun olaraq hərəkət edəcəklər.

5. Anlaşma Memorandumu çərçivəsində əməkdaşlıq fəaliyyətindən irəli gələn xərclərin ödənişi Tərəflərin qarşılıqlı razılaşması şərtlərinə uyğun olaraq həyata keçiriləcəkdir.

6. Bu Anlaşma Memorandumu Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetirmələri barədə sonuncu yazılı bildirişin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir və qeyri-müəyyən müddətə bağlanılır. Tərəflər bu Anlaşma Memorandumunu ləğv etmək niyyəti barədə diplomatik kanallar vasitəsi ilə digər Tərəfə yazılı bildiriş göndərməklə bu Anlaşma Memorandumu ləğv edə bilər. Bu Anlaşma Memorandumu belə bildirişin alındığı tarixdən 3 (üç) ay sonra qüvvədən düşür.

7. Bu Anlaşma Memorandumu Bakı şəhərində, 12 oktyabr 2010-cu il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, Koreya və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Anlaşma Memorandumu müddəalarının təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ ƏMLAK MƏSƏLƏLƏRİ DÖVLƏT KOMİTƏSİ ADINDAN	KOREYA RESPUBLİKASININ STRATEGİYA VƏ MALİYYƏ NAZİRLİYİ ADINDAN
KƏRƏM HƏSƏNOV	*BON Jİ KO*
Komitəsinin sədri	*Strategiya və maliyyə nazirinin müavini*

2010-cu il oktyabrın 12-də Mexiko şəhərində imzalanmış "Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Meksika Birləşmiş Ştatlarının Rabitə və Nəqliyyat Katibliyi arasında telekommunikasiya və informasiya-kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2010-cu il oktyabrın 12-də Mexiko şəhərində imzalanmış "Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Meksika Birləşmiş Ştatlarının Rabitə və Nəqliyyat Katibliyi arasında telekommunikasiya və informasiya-kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Meksika Birləşmiş Ştatları tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 dekabr 2010-cu il

№ 1258

Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Meksika Birləşmiş Ştatlarının Rabitə və Nəqliyyat Katibliyi arasında telekommunikasiya və informasiya-kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra birlikdə "Tərəflər", ayrı-ayrılıqda "Tərəf" adlandırılan Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi (RİTN) və Meksika Birləşmiş Ştatlarının Rabitə və Nəqliyyat Katibliyi (RNK),

hər iki ölkənin sosial və iqtisadi inkişafı çərçivəsində telekommunikasiya və informasiya-kommunikasiya texnologiyaları (İKT) sahəsində qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirməyi və möhkəmləndirməyi arzu edərək,

hər biri öz ölkəsində səmərəli və etibarlı xidmətlərin yerinə yetirilməsi ilə əlaqədar eyni məqsəd və maraqları bölüşərək,

ümumi maraq kəsb edən sahələr üzrə aparılan əməkdaşlığın hazırkı səviyyəsinin fikir, məlumat, bilik və təcrübə mübadiləsi yolu ilə təkmilləşdirilməsinin Tərəflər üçün qarşılıqlı faydalı olacağını hesab edərək,

Tərəflər arasında İKT və telekommunikasiya sahəsində mövcud potensialları və imkanları müəyyən etmək üçün bu sahədə texniki və elmi əməkdaşlığı daha da gücləndirməyi qərara alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

MADDƏ 1

Hazırkı Sazişin məqsədi Tərəflər arasında telekommunikasiya və İKT sahəsində bərabərlik və qarşılıqlı fayda əsasında texniki və elmi əməkdaşlığı həyata keçirmək məqsədilə imkanların müəyyən edilməsindən ibarətdir.

MADDƏ 2

Tərəflər arasında əməkdaşlıq aşağıdakıları əhatə edir:

a) İKT-nin inkişafı;

b) İKT-nin tətbiqi;

c) İKT sahəsinin inkişaf etdirilməsində tətbiq olunan siyasət üzrə təcrübə mübadiləsi, yeni texnologiyaların və xidmətlərin inkişafı və tətbiqi;

d) Şəbəkə və informasiya təhlükəsizliyi;

e) Telekommunikasiya və tariflər, o cümlədən kənd telekommunikasiyası sahəsində tətbiq olunan dövlət siyasəti üzrə təcrübə mübadiləsi;

f) Ümumdünya Poçt İttifaqı və Beynəlxalq Telekommunikasiya İttifaqı kimi beynəlxalq təşkilatlarda Tərəflərin milli maraqları üst-üstə düşdüyü təqdirdə bir-birini dəstəkləməsi və təcrübə mübadiləsi; və

g) Yuxarıda göstərilən sahələr üzrə Tərəflərin razılaşdığı hər hansı digər məsələlər.

MADDƏ 3

Tərəflər texniki və elmi əməkdaşlıq üzrə hazırkı Sazişdə müəyyən olunmuş fəaliyyətlərin aşağıdakı vasitələrlə həyata keçirilməsinə razılaşırlar:

a) Məlumat, sənəd və digər materialların mübadiləsi;

b) Birgə seminarlar, konfranslar, forumlar və sərgilərin keçirilməsi;

c) Texniki heyət, mütəxəssis və ekspert mübadiləsi;

d) Kadrların hazırlanması və təkmilləşdirilməsi;

e) Tərəflərin razılaşdığı hər hansı digər məsələlər.

MADDƏ 4

Hazırkı Sazişin icrasını təmin etmək üçün Tərəflər Sazişin qüvvədə olduğu və/və ya yeniləndiyi müddət ərzində Sazişin ayrılmaz tərkib hissəsini təşkil edəcək Xüsusi Proqramlar yaratmağa razılaşırlar.

Tərəflər hazırkı Sazişin icrasının Maddə 2-də müəyyən olunmuş bütün sahələr üzrə Xüsusi Proqramların yaradılmasına təsir etməyəcəyi barədə razılığa gəlirlər. Eyni zamanda, Tərəflər öz dövlətlərində qüvvədə olan milli qanunvericiliklə ziddiyyət təşkil edən fəaliyyət növləri üzrə əməkdaşlıq etməyə öhdəlik daşımırlar.

Müəyyən olunmuş Xüsusi Proqramlardan hər biri ona dair müvafiq sənədin imzalandığı gündən etibarən qüvvəyə minəcəkdir. Hər bir Proqramın qüvvədə olma müddəti hər iki tərəfin razılaşdırdığı tarixədək davam edəcəkdir. Xitam verilmə tarixi müəyyən edilmə-

dikdə, Proqramın xitam verilmə tarixi Sazişin xitam verilmə tarixinə müvafiq olacaqdır.

Xüsusi Proqramlar aşağıda müəyyən olunmuş şərtlərə müvafiq olan xüsusi layihələr və ya fəaliyyətlər vasitəsilə ümumiləşdiriləcəkdir:

a) inkişaf etdiriləcək məqsədlər və fəaliyyətlər;

b) fəaliyyət proqramı və/və ya tədbirlər planı;

c) təyin olunmuş işçi heyətin ixtisası, sayı və səlahiyyət müddəti;

d) hər bir Tərəfin məsuliyyətləri, o cümlədən material, insan və maliyyə resursları;

e) qiymətləndirmə mexanizmləri, və

f) səlahiyyətli şəxslərin imzaları.

Xüsusi Proqramların hazırlanmasından asılı olmayaraq Tərəflərdən hər biri texniki və elmi əməkdaşlıq prosesində yarana biləcək əlavə təkliflər formalaşdıra bilər və həmin təkliflər hazırkı Sazişə əlavə olunan proqramların tərkib hissəsini təşkil edəcək.

MADDƏ 5

Hazırkı Saziş əsasında yerinə yetirilən texniki və elmi əməkdaşlıq üzrə fəaliyyətlərin müvafiq əlaqələndirilməsi, idarə edilməsi və qiymətləndirilməsi mexanizmini yaratmaq, eləcə də Sazişin yerinə yetirilməsi üçün ən məqbul şəraitin yaradılması məqsədilə hər iki Tərəfin nümayəndələrindən ibarət İşçi Qrup təsis ediləcəkdir və onun fəaliyyəti aşağıdakı qurumlar tərəfdən əlaqələndiriləcəkdir:

- RİTN tərəfindən - Beynəlxalq əlaqələr və qeyri-dövlət qurumlan ilə iş şöbəsi;

- RNK tərəfindən - Telekommunikasiya və Yayım Siyasəti üzrə Ümumi Direksiya.

İşçi Qrup hər bir layihə üzrə müəyyən edilmiş tədbirlər planı və/və ya fəaliyyət proqramından asılı olaraq hazırkı Sazişin həyata keçirilməsindən irəli gələn fəaliyyətlərin qiymətləndirilməsi məqsədilə görüşəcəkdir. İşçi Qrup Saziş üzrə əldə olunmuş irəliləyiş və nailiyyətlərə dair hesabatlar hazırlayacaq və öz aidiyyəti Dəftərxanasına və qarşılıqlı razılaşma əsasında hər iki Tərəfin müəyyən olunmuş qurumlarına təqdim edəcəklər.

MADDƏ 6

Tərəflər hazırkı Sazişdə müəyyən olunmuş fəaliyyətlərini aidiyyəti büdcələrdən ayrılmış vəsait hesabına, vəsaitin olmasından və Tərəflərin iştirakından asılı olaraq maliyyələşdirəcəklər, lakin alternativ maliyyə mexanizmləri olduğu və Tərəflər bunu münasib hesab etdikləri təqdirdə fəaliyyətlərinin maliyyələşdirilməsini həyata keçiriləcəklər.

MADDƏ 7

Hazırkı Saziş çərçivəsində yerinə yetirilmiş fəaliyyətlər nəticəsində kommersiya dəyəri olan məhsullar və/və ya əqli mülkiyyət yaranarsa, hüququn verilməsi üçün Tərəflər əqli mülkiyyətin qorunması üzrə hər iki ölkədə qüvvədə olan beynəlxalq konvensiyalara uyğunluğunu təmin edəcəklər.

Hazırkı Saziş çərçivəsində həyata keçirilmiş əməkdaşlıq fəaliyyəti nəticəsində istənilən növ məlumat yaranarsa, bu məlumat elan ediləcək, dərc olunacaq və/və ya hər iki

Tərəf tərəfindən və hər iki Tərəfin razılığı ilə kommersiya məqsədləri üçün istifadə olunacaqdır.

MADDƏ 8

Tərəflər öz dövlətlərində qüvvədə olan milli qanunvericiliyə müvafiq olaraq məxfi və ya konfidensial hesab olunan məlumat, material və mühafizə olunan materialların hazırkı Saziş çərçivəsində ötürülə bilinməyəcəyi barədə razılığa gəlirlər.

Hazırkı Sazişə müvafiq olaraq fəaliyyətlər həyata keçirilərkən mühafizə və məxfilik tələb edən və ya tələb olunması ehtimal edilən məlumat, material və/və ya avadanlıqlar müəyyən olunarsa, Tərəflər səlahiyyətli qurumlan bu barədə məlumatlandıracaq və yazılı qaydada müvafiq tədbirlər görəcəklər.

Mühafizə olunmayan və ya qeyri-məxfi, lakin ötürülməsi Tərəflərdən birinin qanunvericiliyi ilə tənzimlənən məlumatlar, material və avadanlıqların ötürülməsi qaydaları həmin Tərəfin qüvvədə olan milli qanunvericiliyinə müvafiq olaraq həyata keçiriləcək və növbəti ötürülmə zamanı müəyyən edilməlidir. Tərəflərdən biri zəruri hesab edərsə, belə mülkiyyətin icazəsiz ötürülməsini və ya yenidən ötürülməsinin qarşısının almaq üçün tədbirlər görüləcəkdir.

MADDƏ 9

Tərəflər razılaşırlar ki, hazırkı Sazişin məqsədinin, eləcə də onun icrasından irəli gələn fəaliyyətlərin yerinə yetirilməsi üçün hər bir Tərəfin təyin etdiyi işçi heyət onu işəgötürən Tərəfin rəhbərliyi və tabeçiliyi altında fəaliyyətinə davam edəcəkdir. Beləliklə, Tərəflərin hər biri əmək və sosial müdafiə məsələlərində cavabdehliyi öz üzərinə götürəcək və heç bir halda digər Tərəfin işçilərinin birgə və ya əvəz edən işəgötürəni hesab edilməyəcəkdir.

MADDƏ 10

Tərəflər işçi görüşlərdə və/və ya hazırkı Sazişdən irəli gələn layihələrdə iştirak edən nümayəndə heyətlərinin üzvlərinin gediş-gəlişini asanlaşdırmaq üçün öz səlahiyyətləri daxilində zəruri tədbirləri yerinə yetirəcəklər. Həmin iştirakçılar qəbul edən ölkənin digər qanunları ilə yanaşı miqrasiya, vergi, gömrük, tibbi-sanitar və milli təhlükəsizlik üzrə qüvvədə olan qanunlarına riayət edəcək və həmin Tərəfin bu sahədə səlahiyyətli qurumunun qabaqcadan müvafiq icazəsi olmadan onlara həvalə edilmiş funksiyalardan başqa fəaliyyətlər yerinə yetirməyəcəklər.

MADDƏ 11

Hazırkı Saziş çərçivəsində müəyyən olunmuş əməkdaşlıq Tərəflərin digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

MADDƏ 12

Hazırkı Sazişin təfsiri və tətbiqindən irəli gələn hər hansı fərq və ya fikir ayrılığı Tərəflərin qarşılıqlı razılığı ilə həll ediləcəkdir.

MADDƏ 13

Hazırkı Saziş, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə

yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Hazırkı Saziş iki il müddətinə bağlanılır və Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti iki illik müddətlərə uzadılacaqdır.

Hazırkı Saziş Tərəflərin qarşılıqlı razılığı ilə dəyişdirilə bilər, belə dəyişikliklərin qüvvəyə minməsinin tarixi müəyyən edilməklə yazılı qaydada yazışmalar vasitəsilə rəsmiləşdirilə bilər.

Hazırkı Sazişə vaxtından əvvəl xitam verilməsi, Tərəflərin bunun əksinə xüsusi münasibət bildirmədiyi təqdirdə Sazişin qüvvədə olduğu müddət ərzində həyata keçirilən tədbirlərin yekunlaşdırılmasına təsir etməyəcəkdir.

Bu Saziş Mexiko şəhərində 12 oktyabr 2010-cu il tarixində iki əsl nüsxədə hər biri Azərbaycan, ispan və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Sazişin təfsirində fikir ayrılığı yarandıqda, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ RABİTƏ VƏ İNFORMASİYA TEXNOLOGİYALARI NAZİRLİYİ ADINDAN	MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ RABİTƏ VƏ NƏQLİYYAT KATİBLİYİ ADINDAN
ƏLİ ABBASOV Rabitə və informasiya texnologiyaları naziri	*FRANCİSCO MOLİNAR HORCASİTAS Rabitə və nəqliyyat katibi*

2010-cu il oktyabrın 28-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Monqolustan Baş Gömrük İdarəsi arasında kadrların peşəkar hazırlığı və ixtisasının artırılması sahəsində əməkdaşlıq haqqında Protokol"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2010-cu il oktyabrın 28-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Monqolustan Baş Gömrük İdarəsi arasında kadrların peşəkar hazırlığı və ixtisasının artırılması sahəsində əməkdaşlıq haqqında Protokol" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Monqolustan tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 dekabr 2010-cu il

№ 1259

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Monqolustan Baş Gömrük İdarəsi arasındakadrların peşəkar hazırlığı və ixtisasının artırılması sahəsində əməkdaşlıq haqqında Protokol

Bundan sonra Tərəflər adlandırılan Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Monqolustan Baş Gömrük İdarəsi,

iki ölkə arasında, xüsusən də gömrük işi sahəsində ikitərəfli əlaqələrin daha səmərəli inkişaf etdirilməsini və möhkəmləndirilməsini arzulayaraq,

kadrların peşəkar hazırlığı və ixtisasının artırılması sahəsində əməkdaşlığı inkişaf etdirməyə və qarşılıqlı yardım göstərməyə səy göstərərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər bu Protokol əsasında və həmçinin öz milli qanunvericiliyinin müəyyən etdiyi səlahiyyətlər çərçivəsində kadrların peşəkar hazırlığı və ixtisasının artırılması sahəsində əməkdaşlıq edir və aşağıdakı tədbirləri həyata keçirirlər:

a) təcrübə mübadiləsi və kadrların hazırlanması, yenidən hazırlanması və ixtisasının artırılması üzrə metodikaların birgə hazırlanması;

b) gömrük işi sahəsində birgə elmi tədqiqatların təşkili;

c) seminarların, digər tədris-metodiki və elmi-praktiki tədbirlərin keçirilməsi;

d) kinoloji xidmətlər arasında təcrübə mübadiləsi üzrə təlimlərin keçirilməsi;

e) kadrların peşəkar təlimi sahəsində əməkdaşlıqla bağlı digər tədbirlər.

Maddə 2

Tərəflər bu Protokolun 1-ci maddəsində nəzərdə tutulmuş konkret tədbirlərin keçirilməsi qaydalarını və şərtlərini (o cümlədən maliyyələşdirmə ilə bağlı məsələlər) onların keçirilməsindən ən geci üç ay əvvəl razılaşdırırlar.

Maddə 3

Bu Protokolun həyata keçirilməsi məqsədilə, Tərəflər müvafiq vəzifəli şəxslərə səlahiyyətlər verir və onların siyahılarını mübadilə edirlər.

Maddə 4

Tərəflər arasında bu Protokolun həyata keçirilməsi məsələlərinə dair yazışma rus dilində aparılır.

Maddə 5

Bu Protokolun müddəalarının həyata keçirilməsi zamanı yaranan mübahisələr ikitərəfli məsləhətləşmələr yolu ilə tənzimlənir.

Maddə 6

Bu Protokolun müddəaları Tərəflərin iştirakçısı olduğu digər beynəlxalq müqavilələr üzrə Tərəflərin dövlətlərinin hüquq və öhdəliklərinə təsir etmir.

Maddə 7

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Protokola onun ayrılmaz hissəsi olan və 8-ci maddədə müəyyən olunmuş qaydada qüvvəyə minən ayrıca Protokollarla rəsmiləşdirilən əlavələr və dəyişikliklər edilə bilər.

Maddə 8

Bu Protokol onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir. Bu Protokol beş il müddətinə bağlanılır və Tərəflərdən biri bu Protokolun müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beş il müddətinə uzadılacaqdır.

Bu Protokol 28 oktyabr 2010-cu il tarixdə Bakı şəhərində Azərbaycan, monqol və rus dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır və bütün mətnlər autentikdir.

Bu Protokolun müddəalarının təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə, rus dilindəki mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT GÖMRÜK KOMİTƏSİ ADINDAN	MONQOLUSTAN BAŞ GÖMRÜK İDARƏSİ ADINDAN
AYDIN ƏLİYEV	*DERJYE TSEVEENJAVA*
Komitənin sədri	*İdarənin sədri*

Azərbaycan Respublikası və Ukrayna arasında 2010-cu il oktyabrın 28-də Kiyev şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və Ukrayna arasında 2010-cu il oktyabrın 28-də Kiyev şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Ukraynanın Xarici İşlər Nazirliyi arasında arxiv işi sahəsində əməkdaşlıq haqqında Saziş;

1.2. "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və Ukrayna Milli Teleşirkəti arasında əməkdaşlıq haqqında Saziş;

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.2-ci bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.2-ci bəndlərində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Ukrayna tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 dekabr 2010-cu il

№ 1260

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Ukraynanın Xarici İşlər Nazirliyi arasında arxiv işi sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra Tərəflər adlandırılan, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Ukraynanın Xarici İşlər Nazirliyi,

16 mart 2000-ci il tarixdə Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası və Ukrayna arasında dostluq, əməkdaşlıq və tərəfdaşlıq haqqında Müqavilə"nin müddəalarını rəhbər tutaraq,

Azərbaycan-Ukrayna münasibətlərində ənənəvi mövcud olan dostluq və əməkdaşlıq ruhunu nəzərə alaraq,

Azərbaycan Respublikası və Ukraynada iki ölkə arasında dostluq münasibətlərinin tarixi barədə biliklərin genişləndirilməsindən və onlar arasında etimadın möhkəmləndirilməsinə səy göstərilməsindən çıxış edərək,

Bu nəticəyə nail olmağın ən yaxşı üsullardan birinin arxiv sənədlərinə, xüsusilə xarici siyasət arxivlərinə çıxışın asanlaşdırılması olduğunu hesab edərək, sərəncamlarında olan arxivlərin əhəmiyyətmi etiraf edərək, arxiv işi sahəsində qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirməyi arzu edərək,

aşağıdakılar barədə razılığa gəldilər

Maddə 1

Tərəflər qarşılıqlı əsasda və hər iki dövlətin qanunvericiliklərinə riayət etməklə səlahiyyətləri çərçivəsində, öz ölkələrinin dövlət arxivi xidmətləri ilə sıx əlaqədə olmaqla xarici siyasət idarələrinin arxiv bölmələri arasında əməkdaşlığı inkişaf etdirəcəklər.

Maddə 2

Tərəflər öz arxivlərində tədqiqatçılar üçün açıq olan diplomatik sənədlərin mövcudluğu və alimlərin arxiv sənədlərinə buraxılması qaydası barədə müntəzəm olaraq məlumat mübadiləsi edəcəklər.

Maddə 3

Tərəflər digər Tərəfi maraqlandıran mövzular üzrə arxiv sənədlərinin aşkar edilməsi və surətinin çıxarılmasında əməkdaşlıq edəcək və bir-birinə yardım göstərəcəklər. Maliyyə xərcləri bu işlərin görülməsi barədə müraciət edən Tərəfin hesabına ödəniləcək.

Maddə 4

Tərəflər onların sərəncamında olan arxiv məsələləri üzrə arxivşünaslıq, elmi metodik və məlumat ədəbiyyatının, həmçinin arxiv sənədlərinin nəşrinin qarşılıqlı mübadiləsini həyata keçirəcəklər.

Maddə 5

Tərəflər öz arxivlərində digər ölkənin tarixinə aid sənədlərin aşkarlanmasına köməklik göstərəcək, həmçinin bu sənədlərin nüsxələrini qarşılıqlı əsasda və yaxud xərclərin ödənilməsinin digər razılaşdırılmış formasından istifadə olunaraq mübadilə edəcəklər.

Maddə 6

Tərəflər arxiv işində təcrübə mübadiləsini inkişaf etdirəcək və təkmilləşdirəcək, habelə arxiv işi mütəxəssislərinin və arxivşünas alimlərin məsləhətləşmələrini keçirəcəklər.

Belə məsləhətləşmələrin keçirilməsinin konkret şərtləri Tərəflər arasında razılaşmaya əsasən müəyyən olunacaqdır.

Maddə 7

Tərəflər arxiv sənədlərin birgə nəşrini həyata keçirəcək və ölkələri arasında münasibətlərin tarixinə dair sənədli sərgilər təşkil edəcəklər. Belə əməkdaşlığın maliyyə və digər şərtləri Tərəflər arasında ayrıca razılaşmalarla müəyyən olunur.

Maddə 8

İkitərəfli münasibətlərə dair diplomatik arxiv sənədlərinin rəsmi nəşri Tərəflərdən birinin maraqlarına toxuna biləcəyi hallarda, Tərəflər məsləhətləşmələr keçirəcəklər.

Maddə 9

Bu Saziş imzalandığı gündən qüvvəyə minir və 5 (beş) il müddətinə bağlanılır.

Tərəflərdən biri yuxanda qeyd olunmuş müddətin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beş illik müddətlərə uzadılacaqdır.

Bu Saziş Kiyev şəhərində 28 oktyabr 2010-cu il tarixində hər biri Azərbaycan, Ukrayna və rus dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Sazişin təfsirində və tətbiqində fikir ayrılığı yarandığı təqdirdə rus dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ ADINDAN	UKRAYNA XARİCİ İŞLƏR NAZİRLİYİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*KONSTANTİN QRİŞENKO*
Xarici işlər naziri	*Xarici işlər naziri*

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və Ukrayna Milli Teleşirkəti arasında əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və Ukrayna Milli Teleşirkəti, Azərbaycan və Ukrayna ərazilərində televiziya və radio proqramlarının yayımlanması üçün əlverişli şərait yaradılmasına dair qarşılıqlı marağı rəhbər tutaraq,

Azərbaycan və Ukrayna xalqları arasında tarixən yaranmış sosial-mədəni və elmi əlaqə-

lərin inkişaf etdirilməsində teleradio yayımının rolundan və əhəmiyyətindən çıxış edərək,

Tərəflər arasında dostluq və işgüzar əlaqələrin möhkəmlənməsinə böyük əhəmiyyət verərək,

Teleradio yayım sahəsində əməkdaşlığın inkişaf etdirilməsinə səy göstərərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər öz dövlətlərinin xalqlarının iqtisadi, mədəni və sosial inkişafını, qazandıqları nailiyyətləri əks etdirən sənədli və xronikal proqramların, habelə müxtəlif musiqi, elmi-populyar verilişlərin və milli istehsal proqramlarının mübadiləsini həyata keçirəcək, o cümlədən öz ölkələrinin milli bayramlarını və əlamətdar hadisələrini işıqlandıracaqlar.

Bir Tərəfin proqramlarının məzmunu digər Tərəfin mövcud dövlət qanunvericiliyinə zidd olmamalıdır.

Tərəflərin heç biri əldə olunan materialları üçüncü tərəfə vermək və ya satmaq hüququna malik deyildir. Tərəflər bu Sazişə əsasən əldə etdikləri proqramlardan, yaxud informasiya və arxiv materiallarından yalnız öz verilişlərində istifadə edə bilərlər.

Materialı alan tərəf proqramda dəyişiklik və ya ixtisar edərsə, bu halda proqramın mahiyyətinə, məzmununa xələl gəlməməli və təhrif olunmamalıdır.

Tərəflərin materialların öz dilinə dublyaj etmək, səsləndirmək və titr yazmaq hüququ vardır.

Teleradioməhsul ödənişsiz verilə bilər və yaxud haqqı hər bir konkret halda razılaşmaya uyğun ödənilə bilər.

Televiziya verilişlərinin ödənişsiz mübadiləsi bərabər dəyər əsasında həcmə, janra, mövzuya görə müəyyən edilir. Bu cür verilişlərin istehsalı ilə bağlı xərcləri göndərən tərəf öz üzərinə götürür.

Ödənişli televiziya verilişlərinin mübadiləsi ayrı-ayrı müqavilələrlə həyata keçirilir.

Proqram və materialların göndərilmə xərclərini alan tərəf ödəyir.

Başqa şəxslərin intellektual mülkiyyət obyekti olan televiziya verilişlərinin mübadiləsi müvafiq lisenziya müqavilələrinə əsasən həyata keçirilir.

Maddə 2

Materiallar ya fpt formatında peyk translyasiyası yoluyla, ya Evrovideniye (EBJ) peyk şəbəkəsilə, o cümlədən Betacam SP tipli videokasetlərdə və yaxud Tərəflərin əvvəlcədən razılaşdırdıqları digər daşıyıcılarla çatdırıla bilər.

Tərəflər hər dəfə veriliş və materialların daha münasib üsulla ötürülməsini razılaşdırmalıdırlar.

Materialların çatdırılması Tərəflər arasında öncədən razılaşdırmalıdırlar, bu halda maddi vasitələr maddi dəyərə malik deyillər. Maddi vasitələrin dəyəri yalnız gömrüklə bağlı sənədlərin rəsmiləşdirilməsi zamanı göstərilə bilər.

Maddə 3

Tərəflər öz ərazilərində Saziş çərçivəsində göndərilən proqramların müəlliflik hüququnun qorunmasını müəlliflik hüququ sahəsindəki milli və beynəlxalq hüquq normalarının tələblərini nəzərə almaqla təmin edəcəklər. Əgər proqramı alan Tərəf müəlliflik mülkiyyəti hüquqlarından istifadəyə görə əldə etdiyi royaltidən müəyyən vergi ödəməyə borcludursa, proqramı göndərən tərəf bu barədə proqramı alan tərəfi əvvəlcədən xəbərdar edir və qanunvericiliklə müəyyən edilmiş qaydada royaltidən tutulmalı olan vergilərin ödəniləcəyinə razılıq aldıqdan sonra proqramı göndərir.

Bununla Tərəflər bu Saziş çərçivəsində verilən televiziya verilişlərinin, materialların bütün hüquqlarına malik olduqlarına zəmanət verirlər və televiziya verilişlərini, materialları alan Tərəf üçüncü şəxsə hər hansı bir əlavə ödəniş etməyəcək.

Tərəflər televiziya verilişləri və digər obyektlərin intellektual mülkiyyəti, o cümlədən verilişlərdə istifadə edilə bilən musiqi əsərlərinİn bütün hüquqlarının onlara mənsub olduğuna, həmçinin üçüncü şəxsin hər hansı əmlak və ya qeyri əmlak hüquqlarının pozulmadığına zəmanət verirlər.

Tərəflərin digər yazılı razılaşması olmadığı halda təqdim edilmiş televiziya verilişlərində, yaxud materiallarda istifadə oluna biləcək. əsərlər üçün ödənişi müəllifə televiziya verilişlərini göndərən tərəf öz hesabından ödəməlidir.

Tərəflərdən birinin tələbi ilə digər Tərəf bu Saziş çərçivəsində verilən televiziya verilişləri və materialları ilə əlaqədar müəllif və müəlliflik hüquqları haqqında lazımi informasiyaları təqdim etməlidir.

Tərəflər televiziya verilişlərinin məzmununa görə tam məsuliyyət daşıyır və televiziya verilişlərinin istifadəsi ilə bağlı digər Tərəfə tələb və ya iddia təqdim edən hər bir şəxslə danışıq aparmağı, bütün mübahisəli məsələləri tənzimləməyi öhdələrinə götürürlər. Mübahisəli məsələlərin danışıqlar yolu ilə həll edilmədiyi halda Tərəflər televiziya verilişlərinin istifadəsi ilə əlaqədar hər bir şəxsin qaldırdığı iddiaya görə hər bir məhkəmə işi üzrə cavabdeh qismində çıxış edəcəyini öhdəyə götürürlər.

Maddə 4

Tərəflər, qarşılıqlı razılaşmaya əsasən öz işçilərini digər tərəfin struktur bölmələrinə ezamiyyətə göndərəcək və belə səfərlərin təşkilində bir-birinə kömək göstərəcəklər.

Göndərən tərəf nümayəndə heyətinin tərkibi və işçilərin tutduğu vəzifə barədə qəbul edən tərəfi vaxtında xəbərdar etməlidir ki, digər tərəf görüşün təşkili üçün lazımi tədbirləri görə bilsin.

Qarşılayan tərəf xidməti ezamiyyətdə olan işçilərə aldıqları jurnalist tapşırıqlarının və çəkilişlərin yerinə yetirilməsində lazımi kömək (informasiya verilməsi təşkilati və texniki xidmət) göstərəcəklər.

Əlavə razılaşma olmadığı halda nəqliyyat və yaşayış xərcləri də daxil olmaqla səfərlə bağlı bütün xərcləri əməkdaşları göndərən tərəf ödəyir.

Tərəflər göstərilən xidmətlərə görə bir-birinə hesab təqdim edəcəklər. Xidmətlərin dəyəri və ödəniş müddəti hər iki tərəfin razılaşdırdığı standartlara uyğun olaraq əvvəlcədən müəyyənləşdirilir.

Maddə 5

Tərəflər müxtəlif mövzulu audio-video məhsulların birgə istehsalı və mübadiləsi, müxtəlif beynəlxalq tədbirlərin birgə işıqlandırılması və onları maraqlandıran digər sahələrdə əməkdaşlığı inkişaf etdirəcəklər.

Tərəflər müştərək proqramların hazırlanması ilə bağlı hər bir konkret halda proqramın mövzusunu, məzmununu, davamiyyət müddətini, iştirakçıların sayını, proqramın dəyərini və s. öncədən razılaşdıracaqlar. Hər bir layihə müştərək istehsalla bağlı ayrı-ayrı müqavilələrlə müəyyənləşdiriləcək.

Tərəflər, həmçinin öz mövqelərini əlaqələndirəcək və müəyyənləşdirilmiş qaydada Tərəflərdən birinin irəli sürdüyü təşəbbüslərin reallaşdırılmasını üzv olduqları beynəlxalq təşkilatlar çərçivəsində birlikdə razılaşdıracaqlar.

Maddə 6

Tərəflər mövcud Sazişə uyğun olaraq, qarşılıqlı əsasda mütəxəssisləri tədris və təkmilləşmə keçmək üçün qəbul edə bilərlər. Tədrisin təşkilinin konkret məsələləri ayrı protokollarla nizamlanacaq.

Maddə 7

Hər bir Tərəf digər Tərəfə onun tələbi ilə, korrespondentlərin və yaradıcı qrupun yazılı sifarişi əsasında (mövcud imkanlar və texniki təminat imkanları çərçivəsində) informasiya, sənədli, idman, əyləncəli televiziya verilişlərinin istehsalında lazımi inzibati və texniki yardım göstərməlidir. Sifarişlər yardımla bağlı planlaşdırılmış tarixdən iki həftə öncə verilməlidir.

Unilateral ötürmə və ya birbaşa efir verilməsi zərurəti yarandığı halda yazılı sifariş yardım istənilən tarixdən azı 12 (on iki) saat öncə verilməlidir. Bu xidmətlərin daha qısa müddətdə göstərilməsi zərurəti yarandığı halda texniki imkanlar daxilində lazımi xidmət göstərilməsi üçün Tərəflər bir-birini məntiqi vaxt müddətində məlumatlandıracaqlar.

Göstərilən xidmət üçün ödəniş CİRAP qiymətlərinə uyğun olaraq aparılacaq. Tərəfin nümayəndəsi xidmət göstərilməndən sonra xidmətin həcmini təsdiq edən sənədi dərhal imzalamalıdır. Ödəniş hesab təqdim edildikdən 30 gün müddətində müvafiq müqaviləyə əsasən aparılmalıdır.

CİRAP qiymətlərinə daxil edilməyən xidmətlər Tərəflərin razılığı ilə müvafiq müqavilələrlə müəyyən edilmiş qiymətlər əsasında ödəniləcək.

Maddə 8

Televiziya verilişlərinin mübadiləsinə kömək məqsədilə Tərəflər öz Televiziya verilişlərinin siyahısının, kinomaterialların nümayişinin, Tərəflərin hər birinin keçİrdiyi festivalların, beynəlxalq tədbirlərin kataloqlarını təqdim edəcəklər. Tərəflərdən birinin tələbi ilə digər Tərəf yeni televiziya verilişlərinə baxış keçirməyi təmin etməlidir.

Maddə 9

Tərəflər televiziya və radionun inkişafı üçün əhəmiyyətli olan informasiyaların, o cümlədən sorğuların və tədqiqatların nəticələrinin, idarəetmə, hüquqi baza, proqram cəd-

vəllərinin tərtibi, texniki problemlər və s. haqqında informasiyaların Ötürülməsini, və ya mübadiləsini öhdəyə götürürlər.

Maddə 10

Mövcud Saziş çərçivəsində əməkdaşlığı bilavasitə Tərəflər və yaxud onların müvəkkil etdikləri ayrı-ayrı fəaliyyət sahələri ilə məşğul olan struktur və bölmələr həyata keçirəcəklər.

Maddə 11

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə, onun ayrılmaz hissəsi olan ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 12

Bu Sazişin müddəalarının təfsiri və tətbiqi ilə əlaqədar yarana biləcək fikir ayrılığı məsləhətləşmələr və danışıqlar yolu ilə həll ediləcək.

Maddə 13

Bu Saziş imzalandığı gündən qüvvəyə minir və bir il müddətinə bağlanılır. Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə ən azı üç ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə digər tərəfə məlumat verməzsə, onun etibarlılığı avtomatik olaraq növbəti müddətə uzadılacaqdır.

Bu Saziş Kiyev şəhərində 28 oktyabr 2010-cu il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, Ukrayna və rus dilində imzalanmışdır. Bütün mətnlər eyni qüvvəyə malikdir. Sazişin mətninin təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə rus dilindəki mətndən istifadə ediləcəkdir.

"AZƏRBAYCAN TELEVİZİYA VƏ RADİO VERİLİŞLƏRİ" QAPALI SƏHMDAR CƏMİYYƏTİ ADINDAN	UKRAYNA MİLLİ TELEŞİRKƏTİ ADINDAN
(imza)	*(imza)*

2010-cu il noyabrın 10-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və İraq Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2010-cu il noyabrın 10-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və İraq Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin 9-cu maddəsində nəzərdə tutulan Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinə dair təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə İraq Respublikası Hökumətini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 dekabr 2010-cu il

№ 1261

Azərbaycan Respublikası Hökuməti və İraq Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və İraq Respublikası Hökuməti,

bərabərlik və qarşılıqlı fayda əsasında iki ölkə arasında ticarət, iqtisadi, elmi, texniki və mədəni sahədə dostluğun və əməkdaşlığın daha da inkişaf etdirilməsi və genişləndirilməsi arzusu ilə

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Sazişə əsasən ticarət, iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq hər iki tərəfin marağını əks edən sahələri və yaxud qarşılıqlı razılıq əsasında gələcəkdə qeyd olunacaq sahələri əhatə edəcək, hər iki tərəf bu Saziş çərçivəsində və ölkələrində qüvvədə olan qanunvericiliyə müvafiq olaraq əməkdaşlığın təşviq etdirilməsi üçün lazımi addımlar atacaqlar.

Maddə 2

Tərəflər dövlət və özəl sektorda müəssisə və şirkətlər arasında ticarət əməkdaşlığını təşviq və inkişaf etdirməyə səy göstərəcəklər.

Maddə 3

Təşkilatlar və şəxslər arasında malların və xidmətlərin mübadiləsi hər iki ölkədə tətbiq olunan qanunvericiliyə müvafiq olaraq həyata keçiriləcəkdir.

Maddə 4

Ticarət razılaşmaları üzrə ödənişlər istənilən sərbəst dönərli valyutada hər iki ölkədə tətbiq olunan qanunvericiliyə müvafiq olaraq həyata keçiriləcəkdir, digər ödəniş üsulları Tərəflər arasında razılaşdırıla bilər.

Maddə 5

Tərəflər öz ölkələrində tətbiq olunan qanunvericiliyə müvafiq olaraq müvəqqəti və daimi sərgi və ticarət mərkəzlərində iştirakın stimullaşdırılmasına yardım edəcəklər.

Tərəflər hər iki ölkədə qüvvədə olan qanunvericiliyə uyğun olaraq beynəlxalq və daimi

sərgi və ticarət mərkəzlərində nümayiş etdirilməsi zəruri olan malların daxil olmasına yardım göstərəcək və Tərəflərin başqa cür razılaşmadığı təqdirdə nümayiş olunan mallar yenidən ixrac olunacaqdır.

Maddə 6

Tərəflər hər iki dövlətdə qüvvədə olan qanunvericiliyə uyğun olaraq və zəruri çərçivədə, dövlət və özəl institutları arasında ticarət, iqtisadi, elmi, texniki və mədəni əməkdaşlığı təşviq edəcəklər və bu əməkdaşlığın üslubu və ölçüsünə dair təfsilatlı şərtlər hər iki ölkənin səlahiyyətli qurumları arasında bağlanan ayrıca razılaşmalar əsasında müəyyən olunacaqdır.

Maddə 7

Tərəflər investisiya fəaliyyətini həvəsləndirəcək və aidiyyəti iqtisadi qurumlara və şəxslərə hərtərəfli dəstək göstərəcək, həmçinin aidiyyəti qanunvericiliyə müvafiq olaraq hər iki ölkədə qarşılıqlı qaydada yatırılmış investisiyaları qoruyacaqlar.

Maddə 8

Tərəflər təhsil, elm, idman, turizm və kütləvi informasiya institutları arasında məlumatların və təcrübənin mübadiləsi vasitəsilə əməkdaşlığı təşviq etmək və genişləndirmək, həmçinin hər iki ölkənin aidiyyəti təşkilatlarının yuxarıda qeyd olunan sahələr üzrə sazişlər imzalaması üçün zəruri tədbirlər həyata keçirəcəklər.

Maddə 9

Tərəflər iki ölkə arasında ticarət, iqtisadi, elmi, texniki və mədəni əməkdaşlığın inkişaf etdirilməsi və bu Sazişin yerinə yetirilməsini təmin etmək məqsədilə nazirlər səviyyəsində Birgə Komissiya yaradılması barədə razılığa gəldilər.

İllik görüşlər qarşılıqlı qaydada tarixi müəyyənləşdirilərək ardıcıl olaraq Bakıda və Bağdadda keçiriləcəkdir.

Maddə 10

Tərəflər qarşılıqlı razılıq əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və 11-ci maddədə nəzərdə tutulan qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edə bilərlər. İstənilən düzəliş onun qüvvəyə minməsindən öncə bu Sazişlə müəyyən olunmuş hüquq və öhdəliklərə xələl gətirməyəcəkdir.

Maddə 11

1. Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

2. Bu Saziş beş il müddətinə bağlanılır və Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beş il müddətlərinə uzadılacaqdır.

3. Bu Sazişin ləğv olunması və yaxud qüvvəsinin bitməsi bu Saziş əsasında bağlanmış kontraktlarda müəyyən edilmiş hüquq və öhdəliklərə xələl gətirməyəcəkdir.

Bu Saziş Bakı şəhərində, 10 noyabr 2010-cu il tarixində iki əsl nüsxədə Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Sazişin müddəalarının təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	İRAQ RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ABİD ŞƏRİFOV	*SƏFAALƏDDİN M ƏL-SAFİ*
Baş nazirinin müavini	*Ticarət naziri*

2010-cu il noyabrın 15-dəŞtutqart şəhərində imzalanmış "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Amerika Birləşmiş Ştatlarının Avropa Komandanlığı arasında hərbi əməkdaşlıq üzrə İş Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2010-cu il noyabrın 15-də Ştutqart şəhərində imzalanmış "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Amerika Birləşmiş Ştatlarının Avropa Komandanlığı arasında hərbi əməkdaşlıq üzrə İş Planı" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Amerika Birləşmiş Ştatları tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 dekabr 2010-cu il

№ 1262

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Amerika Birləşmiş Ştatlarının Avropa Komandanlığı arasında hərbi əməkdaşlıq üzrə İş Planı

Azərbaycan Respublikası Müdafiə Nazirliyi və ABŞ Müdafiə Departamenti arasında İkitərəfli Hərbi Məsləhətləşmələrə əsaslanaraq,

Azərbaycan Respublikasının Avro-Atlantik strukturlara inteqrasiyasının dəstəklənməsi və onun NATO ilə Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planını (FTƏP) həyata keçirməsi; Şimali Atlantika Müqaviləsi Təşkilatı (NATO) qüvvələri və Azərbaycan Respublikasının Silahlı Qüvvələri arasında qarşılıqlı uyarlılığın inkişaf etdirilməsi; Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin çoxmillətli sülhməramlı əməliyyatlarda iştirakının asanlaşdırılması; Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Amerika Birləşmiş Ştatları Avropa Komandanlığı arasında işçi əlaqələrin genişləndirilməsi məqsədilə,

Azərbaycan Respublikası Müdafiə Nazirliyi və ABŞ Avropa Komandanlığı aşağıdakılara nail olunması üçün əməkdaşlıq edəcəklər:

A. MƏQSƏDLƏR:

Azərbaycan Respublikası Müdafiə Nazirliyi ,və ABŞ Avropa Komandanlığı razılaşırlar ki, qarşılıqlı hərbi əlaqələr Azərbaycan və NATO arasında FTƏP-in yerinə yetirilməsi üzrə aşağıdakı məqsədlərə yönəldiləcəkdir:

I. NATO ilə qarşılıqlı uyarlılığa nail olunması üçün Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və onların qərargah quruluşunda aparılan islahatların dəstəklənməsi:

II. Azərbaycanın peşəkar gizir/çavuş kadrlarında diqqəti cəmləşdirməklə peşəkar hərbi təhsil sisteminin inkişafı sahəsində və digər tətbiq oluna biləcək səylərinin dəstəklənməsi;

III. Çoxmillətli sülhməramlı əməliyyatlarda iştirak etmək məqsədilə qüvvələrin hazırlanması üzrə Azərbaycanın səylərinin dəstəklənməsi;

IV. Azərbaycanın Hərbi Dəniz Qüvvələrinin imkanlarının genişləndirilməsi üzrə səylərinin dəstəklənməsi;

V. Azərbaycanın öz hərbi aerodromunda imkanlarının artırılması, hava məkanı müşahidə imkanlarının artırılması üzrə səylərinin dəstəklənməsi.

B. HƏYATA KEÇİRMƏ PLANI:

Bu məqsədlərə nail olmaq üçün, Azərbaycan Respublikası Müdafiə Nazirliyi və ABŞ Avropa Komandanlığı əməkdaşlıq üzrə müxtəlif tədbirləri və hərbi əlaqələri planlaşdırmaq, təmin etmək və həyata keçirmək üçün hər cür əməli səy göstərəcəklər. Hər il, Azərbaycan Respublikası Müdafiə Nazirliyi və ABŞ Avropa Komandanlığı məqsədlərə nəzər salmaq, onları təsdiq etmək. əldə olunmuş nailiyyətləri qiymətləndirmək və gələcək tədbirlərin planlaşdırılmasına dair istiqamətlərin hazırlanması üçün Polkovniklər səviyyəsində İşçi Qrupunun görüşünü həyata keçirəcəklər. Polkovniklər səviyyəsində İşçi Qrupunda müəyyən edilən məqsədlərin həyata keçirilməsi üzrə tədbirlər, ondan sonra həyata keçiriləcək illik İkitərəfli Əməkdaşlıq üzrə Planlaşdırma Konfransı (BCPC) zamanı planlaşdırılacaqdır. Əməkdaşlıq üzrə Planlaşdırma Konfransının nəticəsi, növbəti il üçün razılaşdırılmış tədbirlərdən ibarət tam siyahım özündə birləşdirən bu İş Planının illik əlavəsidir (bu sənədə Əlavə A). Tərəflərin qarşılıqlı razılığı əsasında bu Əlavəyə dəyişikliklər edilə bilər və ya yeni əlavələr tərtib oluna bilər. Hərbi əlaqələrin növləri aşağıdakıları ehtiva edə bilər:

1. SÜLH NAMİNƏ TƏRƏFDAŞLIQ (SNT) VƏ NATO-nun DƏSTƏYİ İLƏ HƏYATA KEÇİRİLƏN DİGƏR TƏDBİRLƏR

SNT tədbirləri NATO ilə qarşılıqlı uyarlılığı həyata keçirmək üçün əsas vasitədir. Onlar, NATO təlimlərinin təsdiqinə və NATO standartlarına uyğunlaşma məsələlərində çatışmamazlıqların müəyyənləşdirilməsinə imkan verir. Bundan başqa, onlar digər NATO tərəfdaşı olan ölkələrlə qarşılıqlı fəaliyyətə və digər tərəfdaş ölkələrdən qazanılan təcrübələrə və ideyalara şərik olmaq üzrə forumu təmin etməyə imkan verir.

2. YÜKSƏK RÜTBƏLİ ZABİTLƏRİN SƏFƏRLƏRİ

a. Yüksək rütbəli zabitlərin ziyarətləri və mübadiləsi, hərbi əlaqələrin genişləndirilməsi, inkişaf etdirilməsi üzrə qarşılıqlı öhdəlikləri, peşəkar əlaqələrin möhkəmləndirilməsi-

ni, qarşılıqlı uyarlılığın inkişaf etdirilməsini və yüksək rütbəli rəhbərlərin müşahidə, müzakirə etmələri və planlaşdırmaları, həyata keçirmələri və hərbi əlaqələrimizin gələcək istiqamətlərinin müəyyənləşdirilməsi üçün imkan yaradılmasını nümayiş etdirir.

b. Azərbaycan Respublikası Müdafiə Nazirliyi və ABŞ-ın Avropa Komandanlığı arasında yüksək rütbəli zabitlərin müntəzəm mübadiləsini bir tərəfdən Azərbaycanın Müdafiə Nazirliyi və digər yüksək hərbi rəhbərliyi, digər tərəfdən isə ABŞ-ın Avropa Komandanlığı və onun xidmət komponentləri həyata keçirəcəkdir.

3. HƏRBİ MÜBADİLƏLƏR, YARDIM ÇƏRÇİVƏSİNDƏ ZİYARƏTLƏR, İKİTƏRƏFLİ TƏLİMLƏR VƏ KONFRANSLAR

a. Birgə Əlaqələr Qrupu Proqramı (JCTP). Birgə Əlaqələr Qrupu Proqramı Azərbaycan hərbçiləri və ABŞ hərbçiləri arasında təcrübə mübadiləsinin aparılması üçün vasitədir. Azərbaycan üçün bu Proqramın məqsədi, iştirakçıları ABŞ/NATO strukturları, əməliyyatları, idarəetməsi, təlim metodları və standartları ilə tanış etməkdir. Birgə Əlaqələr Qrupu Proqramı müdafiə sahəsində islahatların həyata keçirilməsini və, xüsusilə koalisiya əməliyyatlarında iştirak edən Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin ABŞ və NATO ilə qarşılıqlı uyarlılığının təkmilləşdirilməsini əhatə edir. Birgə Əlaqələr Qrupu Proqramının tədbirləri vasitəsilə təqdim edilən məsələlər, Beynəlxalq Hərbi Təhsil və Təlim kursları (İMET), Xarici Hərbi Maliyyələşdirmə (FMF) layihələri və müvafiq təlimlər vasitəsi ilə daha sonra inkişaf etdirilməlidir.

b. İkitərəfli Təlimlər. ABŞ-ın Avropa Komandanlığı Azərbaycan və ABŞ üçün qarşılıqlı faydanı təmin edəcək müntəzəm ikitərəfli təlimləri müzakirəyə çıxaracaqdır. Təlimlər əsasən NATO ilə uyarlılıq və sülhməramlı əməliyyatlar üçün imkanların artırılması məsələlərində cəmləşməlidir.

c. Ştatla Tərəfdaşlıq Proqramı (SPP). Ştatla Tərəfdaşlıq Proqramı (SPP) hərbçilər, hərbçilər və mülkilər, eləcə də mülki orqanlar arasında qarşılıqlı fəaliyyətdə tərəflərə təcrübə mübadiləsi imkanı yaradır. Azərbaycanda Ştatla Tərəfdaşlıq Proqramının (SPP) məqsədi mülki-hərbi əlaqələrin təkmilləşdirilməsindən, regional təhlükəsizlik sahəsində əməkdaşlıq səviyyəsinin yüksəldilməsindən, peşəkar çavuşların hazırlanmasından və ABŞ və NATO ilə qarşılıqlı uyarlılıq səviyyəsinin artırılmasından ibarətdir. Proqram çərçivəsində Azərbaycan Silahlı Qüvvələri Oklahoma Milli Qvardiyası ilə əlaqələr quracaqdır. Ştatla Tərəfdaşlıq Proqramındakı tədbirlər İş Planının illik əlavəsinə tam olaraq daxil ediləcəkdir.

d. İxtisasartırma kursları və seminarlar. Xüsusi layihələrə doğru səyləri dəstəkləmək, yaxud xüsusi imkanların inkişafı üçün ekspert məsləhətləri, yardım və təhsil ilə təmin etmək. Yardım göstəriləcək sahələr aşağıdakıları ehtiva edən, lakin onlarla məhdudlaşmayan sahələrdir: peşəkar hazırlıq, hərbi islahatlar və döyüş hazırlığı proqramı və normativlər.

e. Birgə Əlaqəli Mübadilə Təlimi (JCET). Azərbaycan və ABŞ xüsusi təyinatlı qüvvələri üçün mühüm təlimi təmin edir. Birgə Əlaqəli Mübadilə Təlimi ilə bağlı (JCET) tədbirlər Azərbaycan HDQ-nin xüsusi təyinatlı qüvvələri və digər anti-terror qüvvələri üzərində cəmləşəcək; onların terrorizmlə mübarizə imkanlarının daha da inkişaf etdirilməsini; Xəzər dənizinin Azərbaycan sektorunun təhlükəsizliyinin inkişaf etdirilməsini;

ABŞ və NATO ilə qarşılıqlı uyarlılığın təkmilləşdirilməsini əhatə edəcəkdir.

f. Təhlükəsizlik Araşdırmaları üzrə Corc. C. Marşal adına Avropa Mərkəzi. Marşal Mərkəzinin Məlumatlandırma Proqramları Avro-Atlantik məkanın yüksək rütbəli hərbçiləri və yüksək vəzifəli mülki şəxsləri üçün Avropa təhlükəsizliyi ilə bağlı əhəmiyyətli fikirləri və təhlükəsizliyin təmin olunması ilə bağlı toplanan təcrübənin bölüşdürülməsi üçün şərait yaradır, həmçinin SNT dövlətləri üçün NATO standartları ilə uyarlı müdafiə təsisatları və prosedurlarının yaradılmasına dəstəyi təmin edir. Marşal Mərkəzi müdafiə sahəsində planlaşdırma və islahatlar üzrə zəngin bilik və təcrübəsini Azərbaycanın Müdafiə Nazirliyi ilə bölüşdürməyə hazırdır. Marşal Mərkəzi və ABŞ Avropa Komandalığının heyəti Azərbaycanın milli müdafiə islahatlarına xidmət edən konfranslara təkmilləşdirilmiş təkliflərin verilməsi, Azərbaycanın NATO ilə tərəfdaşlığının inkişafı və regional təhlükəsizliyə təhdidlərə münasibətdə Azərbaycanın öz üzərinə liderlik rolunu götürməsi məsələlərində Azərbaycan Müdafiə Nazirliyi ilə işləməyə hazırdır.

4. TƏHLÜKƏSİZLİK ÜZRƏ YARDIM PROQRAMLARI

a. FMF və Xarici Hərbi Satışlar (FMS) proqramları. Bu proqramlar Azərbaycan-NATO FTƏP Planının məqsədlərinə müvafiq və İş Planının məqsədlərinə dəstək olaraq Azərbaycan Silahlı Qüvvələrinin təchizat və təlim üzrə ehtiyaclarının dəstəklənməsi və şəxsi heyətin və bölmələrin birgə əməliyyatlarda iştirakı, hərbi qüvvələrin qarşılıqlı uyarlılığının təkmilləşdirilməsi məqsədini daşıyır. Harada tətbiq olunursa olsun, FMF-in məqsədi, qiymətləndirmə və yardım səfərləri, Birgə Əlaqələr Qrupu Proqramı üzrə tədbirlər və təlimlər kimi digər proqramlardan əldə olunan faydalarının dəstəklənməsi və inkişaf etdirilməsidir.

b. IMET Proqramı. IMET Proqramı əsas səylərini NATO qüvvələri ilə birlikdə təlimlərdə və əməliyyatlarda iştirak edə bilən təkmilləşmiş komandirlərə təlim keçməyə yönəldəcəkdir.

c. İmkan olduğu təqdirdə və vəziyyət və tələblər şərait yaradarsa, təhlükəsizlik üzrə yardımın digər mənbələri istifadə edilə bilər. Bu mənbələr dəyişir və xüsusi göstərişlərdən asılıdır. ABŞ-ın Avropa Komandanlığı bütün tətbiq oluna bilən yardımı Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə ABŞ Səfirliyi Müdafiə Əməkdaşlığı Şöbəsinin Rəisi vasitəsilə koordinasiya edəcəkdir.

C. QİYMƏTLƏNDİRMƏ VƏ PLANLAŞDIRMA MEXANİZMLƏRİ:

Davam edən əlaqələrin planlaşdırılması, təmin olunması və həyata keçirilməsi böyük əhəmiyyət kəsb edir. Əlavə olaraq, bu İş Planının A bəndində qeyd olunmuş *qarşılıqlı* məqsədlərin həyata keçirilməsi üçün məhdud ehtiyatların səmərəli istifadə edilməsi məqsədilə bu əlaqələrin davam etməsi zəruridir. Belə ki, Azərbaycan Müdafiə Nazirliyi və ABŞ Avropa Komandanlığı aşağıdakı mexanizmlərdən istifadə edəcəklər:

1. İKİTƏRƏFLİ HƏRBİ MƏSLƏHƏTLƏŞMƏLƏR

a. ABŞ Müdafiə Departamenti Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə müntəzəm İkitərəfli Hərbi Məsləhətləşmələri (DTM) razılaşdırır. İkitərəfli Hərbi Məsləhətləşmələr (İHM) ilin əsas aparıcı Yüksək Səviyyəli Planlaşdırma iclasıdır.

b. İkitərəfli Hərbi Məsləhətləşmələr (İHM) Azərbaycan Respublikası ilə ABŞ arasında illik Təhlükəsizlik Dialoqu (TD) ilə əlaqələndirilir və İİLM-nin nəticələri TDzamanı müzakirə ediləcəkdir

c. İkitərəfli Hərbi Məsləhətləşmələr (İHM) ikitərəfli hərbi əməkdaşlığımız üzrə əsas rəhbəredici göstərişləri bəyan edəcək və məqsədlərimizi müəyyənləşdirəcəkdir.

2. POLKOVNİKLƏR SƏVİYYƏSİNDƏ AZƏRBAYCAN-ABŞ AVROPA KOMANDANLIĞININ İŞÇİ QRUPU

a. Polkovniklər Səviyyəsində Azərbaycan-ABŞ Avropa Komandanlığının İşçi Qrupu hərbi əlaqələrimizin müzakirə edilməsi, planlaşdırılması və qiymətləndirilməsi üzrə əsas işçi səviyyəli mexanizm olacaqdır. İşçi Qrupunun nəticələri gələcək planlaşdırma səyləri üzrə istiqaməti təmin edəcəkdir.

b. Polkovniklər Səviyyəsində Azərbaycan-ABŞ Avropa Komandanlığının İşçi Qrupunun görüşü, Azərbaycan və ABŞ arasında əməkdaşlığın inkişaf etdirilməsi metodlarının və sahələrinin təsdiq edilməsi və koordinasiyası və İş Planının yenidən müzakirə edilməsi və onun analiz edilməsi məqsədilə, hər ilin yanvar-mart ayları arasında keçiriləcəkdir.

3. İKİTƏRƏFLİ ƏMƏKDAŞLIQ ÜZRƏ PLANLAŞDIRMA KONFRANSI

a. ABŞ Avropa Komandanlığı, Oklahoma Milli Qvardiyası, Azərbaycan Respublikası Müdafiə Nazirliyi və hərbi nümayəndələr, eləcə də ABŞ-ın digər dəstəkverici təşkilatları hər il aprel-may ayları arasında görüşəcəklər. Onlar Azərbaycan və NATO arasındakı FTƏP-in, məqsədlərinə nail olunmasına yönəlmiş hərbi əlaqələr üzrə tədbirlərin müəyyən edilməsi, qiymətləndirilməsi, prioritet qaydada sıralandırılması və seçilməsi məqsədilə toplanacaqlar.

b. İkitərəfli Əməkdaşlıq üzrə Planlaşdırma Konfransı (BCPC) bu İş Planına Əlavəni nəzərdən keçirəcək və onun üzərində mümkün təkmilləşdirmə işini aparacaqdır.

4. İŞÇİ SƏVİYYƏLİ MÜNTƏZƏM MƏSLƏHƏTLƏŞMƏLƏR

Zərurət olduğu təqdirdə, Azərbaycan Müdafiə Nazirliyi və ABŞ Avropa Komandanlığı xüsusi proqramların və tədbirlərin planlaşdırılması və həyata keçirilməsi məqsədilə əlavə işçi səviyyəli məsləhətləşmələri həyata keçirməyə razılaşırlar.

İkitərəfli əlaqələrin və məsləhətləşmələrin təkmilləşdirilməsinin davam etdirilməsi niyyətinə müvafiq olaraq, həm Azərbaycan Müdafiə Nazirliyi, həm də ABŞ Avropa Komandanlığı əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi, eləcə də əməkdaşlığın *yeni sahələrinin müəyyən* edilməsi üçün səy göstərəcəklər. İş Planı tərəfdaşlığımızın inkişaf səviyyəsinə görə qarşılıqlı razılıq əsasında dəyişdirilə bilər. İş Planının əlavəsində nəzərdə tutulan spesifik tədbirlər, Tərəflərin milli qanunvericiliyinə və mənbələrin mövcudluğuna müvafiq olaraq bəyənilməli və təsdiqlənməlidir.

D. QÜVVƏYƏMİNMƏ:

Bu İş Planı onun qüvvəyə minməsi üçün Azərbaycan Respublikasının qanunlarına görə zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında Azərbaycan tərəfinin ABŞ-ın Avropa Komandanlığına diplomatik kanallar vasitəsilə göndərdiyi yazılı bildi-

rişin alındığı tarixdən qüvvəyə minir.

Bu iş Planı Bakı şəhərində, 2 noyabr 2010-cu il tarixində və Ştutqart şəhərində, 15 noyabr 2010-cu il tarixdə, hər biri Azərbaycan və İngilis dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ MÜDAFİƏ NAZİRLİYİ ADINDAN	ABŞ-IN AVROPA KOMANDALIĞI ADINDAN
SƏFƏR ƏBİYEV	*CEYMS G. STAVRİDİS*
Müdafiə naziri	*Komandan*

2010-cu il noyabrın 17-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında enerji və nəqliyyat sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2010-cu il noyabrın 17-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında enerji və nəqliyyat sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə İran İslam Respublikası Hökumətini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 dekabr 2010-cu il

№ 1263

Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında enerji və nəqliyyat sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti,

20 may 2002-ci il tarixli "Azərbaycan Respublikası və İran İslam Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında Müqavilə"ni və 21 avqust 2007-ci il tarixli "Azərbaycan Respublikasının Prezidentinin və İran İslam Respublikasının Prezidentinin Birgə Bəyanatı"nı rəhbər tutaraq,

enerji və nəqliyyat sahəsində əməkdaşlığın genişləndirilməsinin iki ölkə arasında dostluq və mehriban qonşuluq münasibətlərinin inkişafına töhfə verəcəyinə əmin olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Enerji sahəsində əməkdaşlıq məsələləri

Maddə 1

Tərəflər Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında "Xudafərin" və "Qız qalası" hidroqovşaqları və su elektrik stansiyaları ilə bağlı Sazişin razılaşdırılması üçün danışıqlar prosesinin sürətləndirilməsi və 2011-ci ilin birinci rübündə imzalanmasının təmin edilməsi barədə razılığa gəldilər.

Maddə 2

Tərəflər Ordubad və Marazad su elektrik stansiyalarının yerlərinin müəyyən edilməsini, layihə və digər sənədlərin qarşılıqlı razılaşdırıldığım nəzərə alaraq hazırkı Memorandumun imzalandığı tarixdən altı ay bitdikdən sonra hər bir Tərəfin müstəqil olaraq Ordubad və Marazad su elektrik stansiyasının tikintisinə istənilən vaxt başlaya biləcəyi barədə razılığa gəldilər. Tərəflər tikinti işlərinin başlanması barədə bir birinə 10 gün əvvəl məlumat verəcəklər.

Maddə 3

Tərəflər Azərbaycan Respublikası və İran İslam Respublikası arasında elektrik verilişi xətlərinin və müvafiq yarımstansiyaların tikilib başa çatdırıldığını nəzərə alaraq, Azərbaycan Respublikası, İran İslam Respublikası və Rusiya Federasiyası arasında elektrik xətlərinin birləşdirilməsi ilə bağlı razılaşdırılmış tədbirlərin həyata keçirilməsi məqsədi ilə 2010-cu ilin sonunadək üçtərəfli görüş təşkil edilməsi üçün müvafiq tədbirlərin görülməsi barədə razılığa gəldilər.

Maddə 4

Azərbaycan Respublikasının alternativ enerji mənbələrindən istifadə üzrə dövlət proqrammı nəzərə alaraq, İran tərəfi külək enerjisi üzrə 100 meqavat gücündə iki elektrik stansiyası, eləcə də çaylar üzərində 30 ədəd mini elektrik stansiyaları inşası işində iştiraka hazır olduğunu bildirmişdir. Bu istiqamətdə Azərbaycan Respublikasının Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi ilə danışıqlar keçirilməsini nəzərə aldılar.

Maddə 5

Tərəflər Gürcüstan Respublikasında istehsal olunan elektrik enerjisinin Azərbaycan Respublikasının elektrik verilişi xətləri vasitəsi ilə 100 meqavatadək həcmində İran İslam Respublikasına ötürülməsi məqsədi ilə səlahiyyətli təşkilatlarının qarşılıqlı məsləhətləşmələr aparması barədə razılığa gəldilər.

Maddə 6

Tərəflər elektrik enerjisinin alqı-satqısı, texniki imkanların nəzərdən keçirilməsi və həcmlərin müəyyənləşdirilməsi ilə əlaqədar aidiyyəti qurumlan arasında danışıqların aparılması barədə razılığa gəldilər.

Maddə 7

Tərəflər təbii qazın alqı-satqısı ilə əlaqədar aidiyyəti qurumları arasında danışıqların

aparılması, texniki imkanların nəzərdən keçirilməsi, həcmlərin müəyyənləşdirilməsi və 2011-ci ildə İran İslam Respublikasına təchizatın əsas şərtlərinin müzakirə edilməsi barədə razılığa gəldilər.

Maddə 8

Tərəflər təbii qazla əlaqədar layihələrin inkişafında və genişlənməsində maraqlı olduqlarını qeyd edərək Azərbaycan Respublikasının ərazisində yerləşən yeraltı qaz anbarlarından İran İslam Respublikasının mümkün istifadəsinə dair danışıqların davam etdirilməsi barədə razılığa gəldilər.

Maddə 9

Tərəflər hər iki ölkədə icra edilməsi mümkün olan layihələr üzrə potensial imkanlarla tanışlıq vasitəsilə özəl sektorlarının iştirakı ilə Azərbaycan Respublikasında və İran İslam Respublikasında sənaye və enerji üzrə seminarlar keçirilməsi barədə razılığa gəldilər.

Nəqliyyat sahəsində əməkdaşlıq məsələləri

Maddə 10

Tərəflər Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi üzrə dəmir yolu sahəsində əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində Rəşt - Astara (İran İslam Respublikası) - Astara (Azərbaycan - Respublikası) dəmir yolunun tikintisinin başlanması üçün 2010-cu ilin sonunadək səlahiyyətli orqanlarının iştirakı ilə zəruri olan tədbirlərin (maliyyə, texniki, təşkilatı və digər) həyata keçirilməsi, o cümlədən Azərbaycan Respublikası, İran İslam Respublikası və Rusiya Federasiyasının dəmir yolu mütəxəssislərinin Tehran şəhərində görüşünün təşkil edilməsi və bu istiqamətdə icra mexanizminin razılaşdırılması barədə razılığa gəldilər.

Maddə 11

Tərəflər "Azərbaycan Dəmir Yolları" QSC və İran Dəmir Yolları arasında sərhəd dəmir yolu Sazişi"nin 2011-ci ildə razılaşdırılması məqsədi ilə lazımi tədbirlərin görülməsi barədə razılığa gəldilər.

Maddə 12

Tərəflər əldə olunmuş razılaşmaya əsasən İran şirkəti tərəfindən inşa edilən Culfa (Azərbaycan Respublikası) - Culfa (İran İslam Respublikası) keçid məntəqəsində Araz çayı üzərində yeni avtomobil yolu körpüsünün inşasının 2011-ci ilin birinci yarısında başa çatdırılması məqsədi ilə maliyyə, texniki və digər məsələlərin tezliklə həll edilməsi barədə razılığa gəldilər.

Maddə 13

Tərəflər Astara çayı üzərindəki Astara (Azərbaycan Respublikası) - Astara (İran İslam Respublikası) sərhəd keçid məntəqəsində hərəkətin intensivliyini nəzərə alaraq, yeni avtomobil yolu və piyada körpü keçidinin tikintisi barədə razılığa gəldilər. Tərəflər bu körpünün tikintisinin 2011-ci ilin birinci yarısında başlanması məqsədi ilə körpünün yerinin müəyyən edilməsi, layihələndirilmə, maliyyə və digər məsələlərin həll edilməsi üçün son razılaşmaların aparılması üzrə texniki nümayəndə heyətinin görüşünü təşkil edəcəklər.

Maddə 14

Tərəflər iki ölkə arasında sərnişin reyslərinin sayının artırılması məqsədi ilə 2010-cu ilin sonunadək mülki aviasiya hakimiyyəti orqanları arasında müvafiq razılaşmanın əldə olunması barədə qərara gəldilər.

Maddə 15

Tərəflər 20 may 2002-ci il tarixində Tehran şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında gömrük məsələlərində əməkdaşlıq ,və qarşılıqlı yardım haqqında Sazişin müddəalarını nəzərə alaraq Biləsuvar (Azərbaycan Respublikası) - Biləsuvar (İran İslam Respublikası) dövlət sərhəd buraxılış məntəqəsinin 24 saatlıq iş rejiminə keçməsi barədə razılığa gəldilər. Bu dövlət sərhəd buraxılış məntəqəsinin 2011-ci ildən etibarən 24 saatlıq iş rejimində fəaliyyət göstərməsi üçün Tərəflərin səlahiyyətli orqanları lazımi tədbirləri həyata keçirəcəklər.

Maddə 16

Tərəflər Naxçıvan Muxtar Respublikasından İran İslam Respublikası ərazisindən keçməklə Bakıya və geriyə sərnişin daşımalarının həyata keçirilməsinin sadələşdirilməsi, sərnişinlərin və nəqliyyat vasitələrinin dövlət sərhəd keçid məntəqələrindən keçməsinin sürətləndirilməsi barədə razılığa gəldilər.

Maddə 17

Tərəflər iki ölkə arasında sərnişin, yük və tranzit daşımalarının inkişaf etdirilməsi məqsədi ilə aidiyyəti qurumların nümayəndələrindən ibarət Birgə Komissiyanın yaradılması barədə razılığa gəldilər. Komissiyanın iclasları ən azı ildə bir dəfə keçirilməklə, ilk iclasının 2011-ci ilin birinci yarısında Bakı şəhərində keçirilməsi barədə qərara gəldilər.

Maddə 18

Tərəflər digər əməkdaşlıq sahələri ilə əlaqədar məsələləri Azərbaycan Respublikası və İran İslan Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq məsələləri üzrə Dövlətlərarası Müştərək Komissiyanın növbəti 8-ci iclasında müzakirə edəcəklər.

Maddə 19

Bu Anlaşma Memorandumu imzalandığı tarixdən qüvvəyə minəcəkdir.

Bu Anlaşma Memorandumu Bakı şəhərində 17 noyabr 2010-cu il, müvafiq olaraq hicri-şəmsi təqvimi ilə 26 aban 1389-cu il tarixində Azərbaycan və fars dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır. Bütün mətnlər bərabər autentikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ HÖKUMƏTİ ADINDAN	İRAN İSLAM RESPUBLİKASININ HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*MƏNUÇEHR MOTTƏKİ*
Xarici işlər naziri	*Xarici işlər naziri*

MÜNDƏRİCAT

T.İ.Əliyevin Azərbaycan Respublikasının Fransa Respublikasında və Monako Knyazlığında fövqəladə və səlahiyyətli səfiri vəzifələrindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 3

E.O.Əmirbəyovun Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasında, Lixtenşteyn Knyazlığında fövqəladə və səlahiyyətli səfiri və BMT-nin Cenevrə şəhərindəki bölməsində və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 3

E.O.Əmirbəyovun Azərbaycan Respublikasının Fransa Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 3

M.N.Nəcəfbəyliyə fövqəladə və səlahiyyətli səfir diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 4

M.N.Nəcəfbəylinin Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 4

Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyasının Sankt-Peterburq Hökuməti arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 4

M.N.Əliyevin Azərbaycan Respublikasının İspaniya Krallığında, Andorra Knyazlığında fövqəladə və səlahiyyətli səfiri və Ümumdünya Turizm Təşkilatı yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 5

E.B.Hüseynovun Azərbaycan Respublikasının Türkmənistanda fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 6

Azərbaycan Respublikasının İran İslam Respublikasında fövqəladə və səlahiyyətli səfiri C.Ə. Axundovun eyni zamanda Azərbaycan Respublikasının İqtisadi Əməkdaşlıq Təşkilatı yanında daimi nümayəndəsi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 6

Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasında fövqəladə və səlahiyyətli səfiri M.N. Nəcəfbəylinin eyni zamanda Azərbaycan Respublikasının BMT-nin Cenevrə şəhərindəki bölməsində və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 6

"Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında qadın, uşaq və ailə məsələləri sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 7

R.E.Məmmədova birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 7

R.E.Məmmədovun Qazaxıstan Respublikasının Aktau şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 8

"Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Yamaykanın Xarici İşlər və Xarici Ticarət Nazirliyi arasında məsləhətləşmələrə dair Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 8

Avropa Şurasının "İnsan alverinə qarşı fəaliyyət haqqında" Konvensiyasını Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 8

"Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Belarus Respublikasının Dövlət Təhlükəsizlik Komitəsi arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında Saziş"ə dair 1, 2 və 3 nömrəli Protokolları imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 9

2009-cu il dekabrın 3-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və İtaliya Respublikasının Xarici Məlumat və Təhlükəsizlik Agentliyi arasında əməkdaşlıq haqqında Saziş"in təsdiq edilmə-si barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 9

"Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında vətəndaşların qarşılıqlı vizasız gediş-gəlişi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu . . . 10

Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında vətəndaşların qarşılıqlı vizasız gediş-gəlişi haqqında Saziş . . . 10

Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında vətəndaşların qarşılıqlı vizasız gediş-gəlişi haqqında Sazişə ƏLAVƏ 1 . . . 12

Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında vətəndaşların qarşılıqlı vizasız gediş-gəlişi haqqında Sazişə ƏLAVƏ 2 . . . 12

"Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu . . . 13

Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Saziş . . . 13

"Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı arasında yardım xidmətlərinin göstərilməsinə dair Anlaşma Məktubu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 16

Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında Əməkdaşlıq üçün Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 16

A.V.Əfəndiyevin Azərbaycan Respublikasının İspaniya Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 18

"Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 21 may tarixli 2830 nömrəli Sərəncamına əlavə edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 18

"Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (YUNİSEF) arasında "Uşaqların ailələrə verilməsi və alternativ qayğı ilə əhatə olunması mexanizminin yaradılması" layihəsinin həyata keçirilməsi üçün birgə əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 19

2009-cu il mayın 22-də Astana şəhərində Müstəqil Dövlətlər Birliyinin Hökumət Başçıları Şurasının iclasında imzalanmış "1979-1989-cu illərdə Əfqanıstanda müharibə dövründə xəbərsiz itkin düşmüş hərbi qulluqçuların axtarışının, basdırılma yerlərinin axtarışının, eksqumasiyasının, qalıqlarının eyniləşdirilməsinin və onların Vətənlərində yenidən dəfn edilməsinin davam etdirilməsi haqqında Qərar"ın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 19

1979-1989-cu illərdə Əfqanıstanda müharibə dövründə xəbərsiz itkin düşmüş hərbi qulluqçuların axtarışının, basdırılma yerlərinin axtarışının, ekshumasiyasının, qalıqlarının eyniləşdirilməsinin və onların vətənlərində yenidən dəfn edilməsinin davam etdirilməsi haqqında Qərar 20

Müstəqil Dövlətlər Birliyi Hökumət Başçıları Şurasının 1979-1989-cu illərdə Əfqanıstanda müharibə dövründə xəbərsiz itkin düşmüş hərbi qulluqçuların axtarışının, basdırılma yerlərinin axtarışının, ekshumasiyasının, qalıqlarının eyniləşdirilməsinin və onların vətənlərində yenidən dəfn edilməsinin davam etdirilməsi haqqında 22 may 2009-cu il tarixli Qərarına ƏLAVƏ № 1 21

Müstəqil Dövlətlər Birliyi Hökumət Başçıları Şurasının 1979-1989-cu illərdə Əfqanıstanda müharibə dövründə xəbərsiz itkin düşmüş hərbi qulluqçuların axtarışının, basdırılma yerlərinin axtarışının, ekshumasiyasının, qalıqlarının eyniləşdirilməsinin və onların vətənlərində yenidən dəfn edilməsinin davam etdirilməsi haqqında 22 may 2009-cu il tarixli Qərarına ƏLAVƏ № 2 22

2009-cu il iyunun 11-də Berlin şəhərində imzalanmış "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Almaniya Federativ Respublikasının Federal Ədliyyə Nazirliyi arasında hüquqi əməkdaşlığa dair Birgə Bəyanat"ın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 23

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Almaniya Federativ Respublikasının Federal Ədliyyə Nazirliyi arasında hüquqi əməkdaşlığa dair Birgə Bəyanat 23

2009-cu il noyabrın 27-də Havana şəhərində imzalanmış "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Kuba Respublikasının İdman, Fiziki Tərbiyə və İstirahət Milli İnstitutu (Təşkilatı) arasında bədən tərbiyəsi və idman sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 25

Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Kuba Respublikasının İdman, Fiziki Tərbiyə və İstirahət Milli İnstitutu (Təşkilatı) arasında bədən tərbiyəsi və idman sahəsində əməkdaşlıq haqqında Saziş 25

Azərbaycan Respublikası və Sloveniya Respublikası arasında 2009-cu il noyabrın 9-da Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 27

Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Sloveniya Respublikasının İqtisadiyyat Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum 28

Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi və Sloveniya Respublikasının İqtisadiyyat Nazirliyi arasında sənaye və energetika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu 30

Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik və Sloveniya Respublikasının Minatəmizləmə və Minadan Zərərçəkənlərə Yardım üzrə Beynəlxalq Etimad Fondu arasında əməkdaşlıq haqqında Memorandum 32

Azərbaycan Respublikası və Belarus Respublikası arasında 2009-cu il noyabrın 12-də Minsk şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 35

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında 35

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Belarus Respublikasının Dövlət Təhlükəsizlik Komitəsi arasında məxfi informasiyanın mühafizəsinin təmin edilməsində qarşılıqlı əlaqəyə dair Saziş 37

Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Belarus Respublikasının Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq üzrə Sazişin 2010-2011-ci illərdə həyata keçirilməsi barədə Protokol 41

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Belarus Respublikasının Dövlət Sərhəd Komitəsi arasında əməkdaşlığa dair Saziş 42

Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi və Belarus Respublikasının Ədliyyə Nazirliyi arasında arxiv işi sahəsində əməkdaşlıq haqqında Saziş 45

Azərbaycan Respublikasının Şəki rayonu və Belarus Respublikasının Minsk vilayətinin Slutsk rayonu arasında əməkdaşlıq haqqında Saziş 47

2009-cu il dekabrın 9-da Paris şəhərində imzalanmış "Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Fransa Respublikasının Dövlət Büdcəsi, Mühasibatı, Qulluğu və İslahatı Nazirliyinin Dövlət Maliyyəsi Baş İdarəsi arasında texniki əməkdaşlıq Sazişi"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 49

Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Fransa Respublikasının Dövlət Büdcəsi, Mühasibatı, Qulluğu və İslahatı Nazirliyinin Dövlət Maliyyəsi Baş İdarəsi arasında texniki əməkdaşlıq Sazişi 49

2009-cu il dekabrın 29-da Tallin şəhərində imzalanmış "Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Estoniya Respublikasının Sərhəd Mühafizəsi İdarəsi arasında əməkdaşlığa dair Saziş"in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 51

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Estoniya Respublikasının Sərhəd Mühafizə İdarəsi arasında əməkdaşlığa dair Saziş 51

V.M.Sultanzadəyə fövqəladə və səlahiyyətli səfir diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 54

V.M.Sultanzadənin Azərbaycan Respublikasının Türkmənistanda fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 54

"Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında təbii fəlakətlərin və texnogen qəzaların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 55

Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyevin və Belarus Respublikasının Prezidenti A.Q.Lukaşenkonun Birgə Bəyannaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 55

Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyevin və Belarus Respublikasının Prezidenti A.Q.Lukaşenkonun Birgə Bəyannaməsi 55

Azərbaycan Respublikası Prezidentinin və Sloveniya Respublikası Prezidentinin Birgə Bəyanatının təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 58

Azərbaycan Respublikası Prezidentinin və Sloveniya Respublikası Prezidentinin Birgə Bəyanatı 59

"Azərbaycan Respublikası Hökuməti və Sloveniya Respublikası Hökuməti arasında diplomatik pasportlara malik vətəndaşlara viza tələbinin ləğv olunması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 60

Azərbaycan Respublikası Hökuməti və Sloveniya Respublikası Hökuməti arasında diplomatik pasportlara malik vətəndaşlara viza tələbinin ləğv olunması haqqında Saziş 61

2008-ci il oktyabrın 10-da Bişkek şəhərində imzalanmış "1941-1945-ci illər Böyük Vətən Müharibəsində Qələbənin 65 illiyi" vahid yubiley medalı haqqında qərar"ın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 63

"1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 65 illiyi" vahid yubiley medalı haqqında Qərar 63

"1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 65 illiyi" vahid yubiley medalı haqqında ƏSASNAMƏ 65

"1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 65 illiyi" vahid yubiley medalının TƏSVİRİ 65

"Azərbaycan Respublikası Hökuməti və Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi arasında təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 66

"Azərbaycan Respublikası Hökuməti və Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi arasında diplomatik, xidməti və xüsusi pasportlara malik şəxslərin viza tələbindən azad olunması haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 66

"Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsinin Xarici Əlaqələr və Beynəlxalq Əməkdaşlıq məsələləri üzrə Ümumxalq Komitəsi arasında siyasi məsləhətləşmələr haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 67

"Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti arasında diplomatik pasportlara malik olan vətəndaşların qısa müddətli viza rejimindən qarşılıqlı azad olunması haqqında "Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 67

Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti arasında diplomatik pasportlara malik olan vətəndaşların qısamüddətli viza rejimindən qarşılıqlı azad olunması haqqında Saziş 68

"Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti arasında mədəniyyət mərkəzlərinin təsisi və fəaliyyət şərtləri haqqında "Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 69

Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti arasında mədəniyyət mərkəzlərinin təsisi və fəaliyyət şərtləri haqqında Saziş 70

"2007-ci il yanvarın 1-də Avropa İttifaqına daxil olmuş Bolqarıstan Respublikasının və Rumıniyanın yeni statusu ilə bağlı "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında" Əsas Çoxtərəfli Sazişə dəyişikliklər və əlavələr edilməsi haqqında" Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 74

TRASEKA hökumətlərarası komissiyasının altıncı illik iclası Astana şəhəri/-Qazaxıstan Respublikası, 12-13 dekabr 2007-ci il 2007-ci il yanvarın 1-də Avropa İttifaqına daxil olmuş Bolqarıstan Respublikasının və Rumıniyanın yeni statusu ilə bağlı "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında" Əsas Çoxtərəfli Sazişə dəyişikliklər və əlavələr edilməsi haqqında Protokol 74

"Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında" Əsas Çoxtərəfli Sazişə dair gömrük prosedurları və sənədlərin işlənməsi üzrə Texniki Əlavəyə əlavələr edilməsi haqqında" Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 76

TRASEKA hökumətlərarası komissiyasının altıncı illik iclası Astana şəhəri Qazaxıstan Respublikası, 12-13 dekabr 2007-ci il "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında" Əsas Çoxtərəfli Sazişə dair gömrük prosedurları və sənədlərin işlənməsi üzrə Texniki Əlavəyə əlavələr edilməsi haqqında Protokol 77

"Beynəlxalq Dəniz Təşkilatı haqqında" Konvensiyaya əlavə və dəyişikliklərin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 79

"Bunker yanacağı ilə çirklənmə nəticəsində vurulan zərərə görə mülki məsuliyyət haqqında" Beynəlxalq Konvensiyaya qoşulmaq barədə Azərbaycan Respublikasının Qanunu ... 80

Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 80

"Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında" Konvensiyanı Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 81

2009-cu il oktyabrın 30-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Çexiya Respublikası Hökuməti arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.... 82

Azərbaycan Respublikası Hökuməti və Çexiya Respublikası Hökuməti arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş 82

2009-cu il noyabrın 11-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Ümumdünya Gömrük Təşkilatı (ÜGT) arasında Azərbaycan Respublikasının Bakı şəhərində Potensialın Gücləndirilməsi üzrə Ümumdünya Gömrük Təşkilatının Regional Ofisinin yaradılması ilə əlaqədar Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 85

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Ümumdünya Gömrük Təşkilatı (ÜGT) arasında Azərbaycan Respublikasının Bakı şəhərində Potensialın Gücləndirilməsi üzrə Ümumdünya Gömrük Təşkilatının Regional Ofisinin yaradılması ilə əlaqədar Anlaşma Memorandumu 85

2009-cu il dekabrın 29-da Pekin şəhərində imzalanmış "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Çin Xalq Respublikası Müdafiə Nazirliyi arasında Çin tərəfindən Azərbaycana təməmnasız hərbi yardım göstərilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 87

Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Çin Xalq Respublikası Müdafiə Nazirliyi arasında Çin tərəfindən Azərbaycana təməmnasız hərbi yardım göstərilməsi haqqında Saziş 88

2010-cu il yanvarın 26-da Əl-Küveyt şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında qadın, uşaq və ailə məsələləri sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 89

Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında 89

qadın, uşaq və ailə məsələləri sahəsində əməkdaşlıq haqqında Saziş 89

"Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının 2005-ci il 24 iyun tarixli 945-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi Qaydaları"na dəyişikliklər və əlavə edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 91

"Azərbaycan Respublikası Hökuməti ilə Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqı arasında Asiya, Avropa və əsas dünya bazarları arasında avtomobil daşımalarının Azərbaycan Respublikası ərazisindən keçməklə inkişafı barədə Anlaşma Memorandumu"nu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 92

H.Ə.Həsənovun Azərbaycan Respublikasının Macarıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 92

V.M.Quliyevin Azərbaycan Respublikasının Polşa Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 93

H.Ə.Həsənovun Azərbaycan Respublikasının Polşa Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 93

V.M.Quliyevin Azərbaycan Respublikasının Macarıstan Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 93

Azərbaycan Respublikasının Fransa Respublikasında Fövqəladə və Səlahiyyəti Səfiri E.O.Əmirbəyovun iqamətgahı Paris şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Monako Knyazlığında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 94

Azərbaycan Respublikasının İspaniya Krallığında Fövqəladə və Səlahiyyəti Səfiri A.V.Əfəndiyevin iqamətgahı Madrid şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Andorra Knyazlığında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 94

O.Hauserin Almaniya Federativ Respublikasının Baden-Vürttemberq federal torpağını əhatə etməkləŞtutqart şəhərində Azərbaycan Respublikasının Fəxri konsulu təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 95

"Azərbaycan Respublikası və Səudiyyə İnkişaf Fondu arasında Bakı ərazisi üzrə su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması və genişləndirilməsi layihəsi üzrə" Kredit Sazişinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 95

Azərbaycan Respublikası və Səudiyyə İnkişaf Fondu arasında Bakı ərazisi üzrə su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması və genişləndirilməsi layihəsi üzrə Kredit Sazişi ... 95

Kredit müqavilələrinə tətbiq edilən ÜMUMİ ŞƏRTLƏR 103

"Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 112

"Azərbaycan Respublikası Hökuməti və Finlandiya Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 113

Azərbaycan Respublikasının 2004-cü il 18 iyun tarixli, 690-IIQ nömrəli qanunu ilə Azərbaycan Respublikasının qoşulduğu "Neftlə çirkləndirmə hallarına hazırlığın təmin edilməsi, bunlara qarşı mübarizə və əməkdaşlıq haqqında" 1990-cı il tarixli Beynəlxalq Konvensiyanın icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 dekabr tarixli, 1205 nömrəli sərəncamında dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 113

"Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Almaniya Federativ Respublikasının Federal Statistika İdarəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Birgə Niyyət Bəyannaməsi"ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 114

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Tacikistan Respublikası Müdafiə Nazirliyi arasında Tacikistan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının Azərbaycan Respublikası Müdafiə Nazirliyinin ali hərbi təhsil müəssisələrində təhsil alması haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 114

2010-cu il martın 1-də Ramşteyn şəhərində imzalanmış "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Amerika Birləşmiş Ştatlarının Avropa Komandanlığı arasında hərbi əməkdaşlıq üzrə İş Planı"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 115

"Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında idman və gənclər sahələrində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 115

"Mayeləşdirilmiş təbii qaz və onun nəqli sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 116

2010-cu il martın 4-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Əfqanıstan Türk Tapşırıq Qüvvələrinin Türk Birliyi tərkibində Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri çərçivəsində fəaliyyət göstərəcək Azərbaycan bölüyünə dair" Protokola 2 nömrəli Dəyişikliyin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 116

2010-cu il fevralın 8-də Minsk şəhərində imzalanmış "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Belarus Respublikasının Dövlət Təhlükəsizlik Komitəsi arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında Saziş"ə dair 1, 2 və 3 nömrəli Protokollar"ın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 117

"Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Vyetnam Sosialist Respublikası Xarici İşlər Nazirliyi arasında Əməkdaşlıq Protokolu"nu imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 117

"Azərbaycan Respublikası Hökuməti və Vyetnam Sosialist Respublikası Hökuməti arasında diplomatik, xidməti və ya rəsmi pasportlara malik vətəndaşların vizasız gediş-gəlişi haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 118

"Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Hökuməti arasında onların diplomatik və xüsusi pasportlara malik müvafiq vətəndaşları üçün viza tələbinin ləğv edilməsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ... 118

Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Hökuməti arasında onların diplomatik və xüsusi pasportlara malik müvafiq vətəndaşları üçün viza tələbinin ləğv edilməsi haqqında Saziş 118

İslam Konfransı Təşkilatının Nizamnaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 120

İslam Konfransı Təşkilatının Nizamnaməsi 121

"Azərbaycan Respublikası Hökuməti və Türkdilli Ölkələrin Parlament Assambleyasının Katibliyi (TürkPA Katibliyi) arasında yerləşmə haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 132

Azərbaycan Respublikası Hökuməti və Türkdilli Ölkələrin Parlament Assambleyasının Katibliyi (TürkPA Katibliyi) arasında yerləşmə haqqında Saziş 133

Moskva və Bütün Rusiyanın Patriarxı Kirillin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 136

Adil Abdulla Əl-Fəlahin "Dostluq" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 137

"Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyasının Stavropol diyarı Hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 137

S.A. Salahlının Türkiyə Respublikasının İstanbul şəhərində Azərbaycan Respublikasının Baş konsulu və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ... 138

H.S. Zeynalovun Türkiyə Respublikasının Qars şəhərində Azərbaycan Respublikasının Baş konsulu vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 138

H.S. Zeynalovun Türkiyə Respublikasının İstanbul şəhərində Azərbaycan Respublikasının Baş konsulu təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 138

A.F. Süleymanovun İran İslam Respublikasının Təbriz şəhərində Azərbaycan Respublikasının Baş konsulu vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 139

A.F. Süleymanovun Türkiyə Respublikasının Qars şəhərində Azərbaycan Respublikasının Baş konsulu təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 139

A.S. Şükürova Fövqəladə və Səlahiyyətli Səfir diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 139

A.S. Şükürovun Azərbaycan Respublikasının Böyük Liviya Ərəb Sosialist Xalq Cəmahiriyyəsində Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 140

Avropa Şurasının "İnsan alverinə qarşı mübarizə haqqında" Konvensiyasının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 140

Avropa Şurasının İnsan alverinə qarşı mübarizə haqqında Konvensiyası Varşava, 16.V.2005 ... 140

Avropa Şurasının İnsan alverinə qarşı mübarizə haqqında Konvensiyası üzrə Azərbaycan Respublikasının Bəyanatı 160

Avropa Şurasının İnsan alverinə qarşı mübarizə haqqında Konvensiyası üzrə Azərbaycan Respublikasının Bəyanatı 160

Beynəlxalq Əmək Təşkilatının "Kişi və qadın işçilər - ailə vəzifələri olan işçilər üçün bərabər imkanlar və bərabər rəftar haqqında" 156 nömrəli Konvensiyasına qoşulmaq barəsində Azərbaycan Respublikasının Qanunu 160

156 nömrəli Konvensiya 161

Kişi və qadın işçilər - ailə vəzifələri olan işçilər üçün bərabər imkanlar və bərabər rəftar haqqında Konvensiya 161

Beynəlxalq Əmək Təşkilatının "Analığın mühafizəsi haqqında" 1952-ci il Konvensiyasına (yenidən baxılmış) yenidən baxılması haqqında" 183 nömrəli Konvensiyasına qoşulmaq barəsində Azərbaycan Respublikasının Qanunu 165

183 nömrəli Konvensiya 166

"Analığın mühafizəsi haqqında" 1952-ci il Konvensiyasına (yenidən baxılmış) yenidən baxılması haqqında Konvensiya 166

"Azərbaycan Respublikası Hökuməti və Serbiya Respublikası Hökuməti arasında cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 172

Azərbaycan Respublikası Hökuməti və Serbiya Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında Konvensiya"nı Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 172

"Azərbaycan Respublikası Hökuməti və Serbiya Respublikası Hökuməti arasında ticarət və iqtisadi əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 173

"Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində çalışan işçilərin aylıq əməkhaqlarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 1 fevral tarixli, 1923 nömrəli Sərəncamına əlavələr və dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 173

"Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və İordaniya Haşimilər Krallığının Ali Gənclər Şurası arasında gənclərlə iş sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 174

"Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi və Ukraynanın Dövlət Arxivlər Komitəsi arasında əməkdaşlıq haqqında Memorandum"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 174

"Azərbaycan Respublikası Dövlət Mülki Aviasiya Administrasiyası ilə Özbəkistan Respublikası Uçuşların Təhlükəsizliyinə Nəzarət üzrə Dövlət Müfəttişliyi (Dövlətaviaнəzarət) arasında aviasiya personalı şəhadətnamələrinin qarşılıqlı tanınması haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 175

"Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında mülki müdafiə, fövqəladə halların qarşısının alınması və aradan qaldırılması sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 175

"Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyası və Misir Ərəb Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Tədqiqatlar İnstitutu arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 176

2008-ci il iyunun 19-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 176

Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş 176

2010-cu il martın 8-də Tripoli şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Böyük Liviya Ərəb Xalq Sosialist CəmahiriyyəsininXarici Əlaqələr və Beynəlxalq Əməkdaşlıq məsələləri üzrə Ümumxalq Komitəsi arasında siyasi məsləhətləşmələr haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 178

"Azərbaycan Respublikası Hökuməti və Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi arasında diplomatik, xidməti və xüsusi pasportlara malik şəxslərin viza tələbindən azad olunması haqqında" Anlaşma Memorandumunun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 212

Azərbaycan Respublikası Hökuməti və Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi arasında diplomatik, xidməti və xüsusi pasportlara malik şəxslərin viza tələbindən azad olunması haqqında Anlaşma Memorandumu 212

"Asiyada Qarşılıqlı Əlaqəyə və Etimadyaratma Tədbirlərinə dair Konfransın Katibliyinin Nizamnaməsində dəyişiklik edilməsi haqqında" Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 214

Asiyada Qarşılıqlı Əlaqəyə və Etimadyaratma Tədbirlərinə dair Konfransın Katibliyinin Nizamnaməsində dəyişiklik edilməsi haqqında Protokol 215

Azərbaycan Respublikası Prezidentinin və Estoniya Respublikası Prezidentinin Birgə Bəyannaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 216

Azərbaycan Respublikası Prezidentinin və Estoniya Respublikası Prezidentinin Birgə Bəyannaməsi 216

"Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında diplomatik pasporta malik şəxslər üçün viza tələbinin ləğv edilməsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 219

Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında diplomatik pasporta malik şəxslər üçün viza tələbinin ləğv edilməsi haqqında Saziş 220

"Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 221

Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş 221

Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında təbii fəlakətlərin və texnogen qəzaların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş 230

"Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı arasında yardım xidmətlərinin göstərilməsinə dair" Anlaşma Məktubunun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 238

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Sloveniya Respublikası Müdafiə Nazirliyi arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 239

"Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Mərakeş Krallığının Sosial İnkişaf, Ailə və Həmrəylik Nazirliyi arasında ailə, qadınların inkişafı və uşaqların müdafiəsi sahələrində əməkdaşlıq haqqında Memorandum"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 239

"Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında diplomatik pasportlara malik olan şəxslərin giriş vizasından azad edilməsi haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 240

2010-cu il aprelin 16-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında idman və gənclər sahələrində əmək-daşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 240

Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında idman və gənclər sahələrində əməkdaşlıq haqqında Saziş 241

"Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 243

"Azərbaycan Respublikası Hökuməti və Vyetnam Sosialist Respublikası Hökuməti arasında diplomatik, xidməti və ya rəsmi pasportlara malik vətəndaşların vizasız gediş-gəlişi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 246

Azərbaycan Respublikası Hökuməti və Vyetnam Sosialist Respublikası Hökuməti arasında diplomatik, xidməti və ya rəsmi pasportlara malik vətəndaşların vizasız gediş-gəlişi haqqında Saziş 247

"Azərbaycan Respublikası hökuməti və İslam Konfransı Təşkilatına bağlı beynəlxalq qurum - Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumu (DƏİKGF) arasında DƏİKGF-nin Avrasiya üzrə Regional Mərkəzinin Bakı şəhərində yerləşməsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 249

Azərbaycan Respublikası Hökuməti və İslam Konfransı Təşkilatına bağlı beynəlxalq qurum - Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumu (DƏİKGF) arasında DƏİKGF-in Avrasiya üzrə Regional Mərkəzinin Bakı şəhərində yerləşməsi haqqında Saziş 250

"Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin terrorçuluqla mübarizədə əməkdaşlığı haqqında" Müqavilənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 254

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin terrorçuluqla mübarizədə əməkdaşlığı haqqında Müqavilə 254

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin terrorçuluqla mübarizədə əməkdaşlığı haqqında Müqaviləyə dair Azərbaycan Respublikasının xüsusi rəyi 263

"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Makedoniya Respublikası Gömrük İdarəsi arasında kadrların peşəkarlığının artırılması və təkmilləşdirilməsi sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 263

F.N.Bağırovun Azərbaycan Respublikasının Misir Ərəb Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri və Ərəb Dövlətləri Liqası yanında daimi müşahidəçisi vəzifələrindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 263

Z.A.Həşimovun Azərbaycan Respublikasının Türkiyə Respublikasında və Makedoniya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri vəzifələrindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 264

F.N.Bağırovun Azərbaycan Respublikasının Türkiyə Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 264

L.S.Qəndilovun Azərbaycan Respublikasının Qazaxıstan Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 264

Z.A.Həşimovun Azərbaycan Respublikasının Qazaxıstan Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 265

Ş.Ş.Abdullayevin Azərbaycan Respublikasının Küveyt Dövlətində Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 265

Ş.Ş.Abdullayevin Azərbaycan Respublikasının Misir Ərəb Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 265

T.A.Rzayevə Fövqəladə və Səlahiyyətli Səfir diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 266

T.A.Rzayevin Azərbaycan Respublikasının Küveyt Dövlətində Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 266

Türkiyə Respublikasının İstanbul şəhərində Azərbaycan Respublikasının Baş konsulu H.S.Zeynalovun eyni zamanda Azərbaycan Respublikasının Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı yanında Daimi nümayəndəsi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 266

Azərbaycan Respublikasının Meksika Birləşmiş Ştatlarında Fövqəladə və Səlahiyyətli Səfiri İ.Y.Muxtarovun iqamətgahı Mexiko şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Kosta Rika Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 267

Azərbaycan Respublikasının İndoneziya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri İ.Ə.Hacıyevin eyni zamanda Azərbaycan Respublikasının Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyası (ASEAN) yanında Daimi nümayəndəsi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 267

Ə.F.Əlizadəyə birinci dərəcəli Fövqəladə və Səlahiyyətli Elçi diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 267

Ə.F.Əlizadənin İran İslam Respublikasının Təbriz şəhərində Azərbaycan Respublikasının Baş konsulu təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 268

"Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi və Türkiyə Respublikasının Kapital Bazarı Şurası arasında əməkdaşlıq və informasiya mübadiləsi haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 268

K. Krayevskinin "Dostluq" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 268

"Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 269

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin strukturunun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 270

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Strukturu 271

2009-cu il oktyabrın 12-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasında biznesin idarə olunması sahəsində kadrların ixtisasının artırılması üzrə Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi ilə Almaniya Federativ Respublikasının Federal İqtisadiyyat və Texnologiyalar Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 271

Azərbaycan Respublikasında biznesin idarə olunması sahəsində kadrların ixtisasının artırılması üzrə Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi ilə Almaniya Federativ Respublikasının Federal İqtisadiyyat və Texnologiyalar Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu 272

2009-cu il noyabrın 13-də Sofiya şəhərində imzalanmış "Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyi və Bolqarıstan Respublikası İqtisadiyyat, Energetika və Turizm Nazirliyi arasında energetika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 273

Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyi və Bolqarıstan Respublikası İqtisadiyyat, Energetika və Turizm Nazirliyi arasında energetika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu 274

1999-cu il noyabrın 22-də Lüksemburq şəhərində imzalanmış "Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi ilə Avropa Birliyi Statistika Bürosu arasında xarici ticarət üzrə statistika məlumatlarının mübadiləsinə dair Saziş"in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 277

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi ilə Avropa Birliyi Statistika Bürosu arasında xarici ticarət üzrə statistika məlumatlarının mübadiləsinə dair Saziş 277

2010-cu il fevralın 2-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyi və Rumıniya İqtisadiyyat, Ticarət və Biznes Mühiti Nazirliyi arasında energetika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 281

Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyi və Rumıniya İqtisadiyyat, Ticarət və Biznes Mühiti Nazirliyi arasında energetika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu 281

2010-cu il aprelin 26-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Almaniya Federativ Respublikasının Federal Statistika İdarəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Birgə Niyyət Bəyannaməsi"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 283

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Almaniya Federativ Respublikasının Federal Statistika İdarəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Birgə Niyyət Bəyannaməsi 283

2010-cu il aprelin 28-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası hökuməti və Rusiya Federasiyasının Stavropol diyarı hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 285

Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyasının Stavropol diyarı Hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş 285

2010-cu il mayın 13-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Serbiya Respublikasının Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 288

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Serbiya Respublikasının Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol 288

Azərbaycan Respublikası və İordaniya Haşimilər Krallığı arasında 2010-cu il mayın 16-da Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 291

Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında beynəlxalq əməkdaşlıq haqqında Anlaşma Memorandumu 292

Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və İordaniya Haşimilər Krallığının Ali Gənclər Şurası arasında gənclərlə iş sahəsində əməkdaşlıq haqqında Saziş 293

Azərbaycan Respublikası və Misir Ərəb Respublikası arasında 2010-cu il mayın 24-də Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ... 295

Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Misir Ərəb Respublikasının Milli Gənclər Şurası arasında Anlaşma Memorandumu 295

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyası və Misir Ərəb Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Tədqiqatlar İnstitutu arasında əməkdaşlıq haqqında Saziş 297

Azərbaycan Respublikası və Belarus Respublikası arasında 2010-cu il iyunun 3-də Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ... 299

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında informatizasiya və informasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş 300

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında elm və texnologiyalar sahəsində əməkdaşlıq haqqında Saziş 302

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Belarus Respublikası Təbii Sərvətlər və Ətraf Mühitin Mühafizəsi Nazirliyi arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair Saziş 304

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Belarus Respublikasının Milli Statistika Komitəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Saziş 307

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Belarus Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi arasında qarşılıqlı əməkdaşlıq haqqında Saziş 309

T.M.Əliyevin Azərbaycan Respublikasının Ukraynada Fövqəladə və Səlahiyyətli Səfiri və Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilat - GUAM yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ... 310

E.Y.Mədətlinin Azərbaycan Respublikasının Pakistan İslam Respublikasında və Əfqanıstan İslam Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri vəzifələrindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 311

E.Y.Mədətlinin Azərbaycan Respublikasının Ukraynada Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 311

"Azərbaycan Respublikası Hökuməti və Mavritaniya İslam Respublikası Hökuməti arasında energetika sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 311

"Azərbaycan Respublikası Hökuməti və Mavritaniya İslam Respublikası Hökuməti arasında ticarət və iqtisadi əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 312

"Azərbaycan Respublikası Hökuməti və Mavritaniya İslam Respublikası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 312

"Azərbaycan Respublikası Hökuməti və Mavritaniya İslam Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 313

"Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Mavritaniya İslam Respublikasının Kəndlərin İnkişafı Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 313

Azərbaycan Respublikası ilə Beynəlxalq Atom Enerjisi Agentliyi arasında əməkdaşlıq üzrə Dövlət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 314

"Müstəqil Dövlətlər Birliyində malların mənşə ölkəsinin təyin edilməsi qaydaları haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 315

Müstəqil Dövlətlər Birliyində malların mənşə ölkəsinin təyin edilməsi qaydaları haqqında Saziş 315

Azərbaycan Respublikasının Ukraynada Fövqəladə və Səlahiyyətli Səfiri E.Y.Mədətlinin eyni zamanda Azərbaycan Respublikasının Demokratiya və İqtisadi İnkişaf uğrunda Təşkilat - GUAM yanında Daimi nümayəndəsi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 317

Azərbaycan Respublikasının Rumıniyada Fövqəladə və Səlahiyyətli Səfiri E.H.Həsənovun iqamətgahı Buxarest şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Monteneqroda Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 317

Azərbaycan Respublikasının Meksika Birləşmiş Ştatlarında Fövqəladə və Səlahiyyətli Səfiri İ.Y.Muxtarovun iqamətgahı Mexiko şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Qvatemala Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 318

Azərbaycan Respublikasının İndoneziya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri İ.Ə.Hacıyevin iqamətgahı Cakarta şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Timor-Leste Demokratik Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 318

"Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Niderland Krallığının Ədliyyə Nazirliyi arasında cinayət işləri sahəsində qeyri-əməliyyat əməkdaşlığı haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 319

"Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin terrorçuluqla mübarizədə əməkdaşlığı haqqında Müqavilə" üzrə səlahiyyətli orqanın müəyyən edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 319

2010-cu il iyunun 15-də Rabat şəhərində imzalanmış "Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Mərakeş Krallığının Sosial İnkişaf, Ailə və Həmrəylik Nazirliyi arasında ailə, qadınların inkişafı və uşaqların müdafiəsi sahələrində əməkdaşlıq haqqında Memorandum"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 320

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Mərakeş Krallığının Sosial İnkişaf, Ailə və Həmrəylik Nazirliyi arasında ailə, qadınların inkişafı və uşaqların müdafiəsi sahələrində əməkdaşlıq haqqında Memorandum 320

Azərbaycan Respublikasının Rumıniyada Fövqəladə və Səlahiyyətli Səfiri E.H.Həsənovun iqamətgahı Buxarest şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Bosniya və Herseqovinada Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 322

"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Avstriya Respublikası Federal Maliyyə Nazirliyi arasında gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 322

2010-cu il avqustun 3-də Ankara şəhərində imzalanmış "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Türkiyə Respublikası Baş Qərargahı arasında maddi-texniki təminatın tətbiqi Protokolu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 323

"Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Amerika Birləşmiş Ştatlarının Avropa Komandanlığı arasında hərbi əməkdaşlıq üzrə İş Planı"nı imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 323

Azərbaycan Respublikasının Fransa Respublikasındakı və Azərbaycan Respublikasının Özbəkistan Respublikasındakı səfirliklərinin tabeliyində mədəniyyət mərkəzlərinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 324

"Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında Samur transsərhəd çayının su ehtiyatlarının səmərəli istifadəsi və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 324

2010-cu il avqustun 10-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Niderland Krallığının Ədliyyə Nazirliyi arasında cinayət işləri sahəsində qeyri-əməliyyat əməkdaşlığı haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 325

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Niderland Krallığının Ədliyyə Nazirliyi arasında cinayət işləri sahəsində qeyri-əməliyyat əməkdaşlığı haqqında Anlaşma Memorandumu 325

Bəzi komissiyaların tərkibində dəyişikliklər və əlavələr edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı 327

"Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Rusiya Federasiyasının Daxili İşlər Nazirliyi arasında 2011-2012-ci illər üçün qarşılıqlı fəaliyyət haqqında Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 329

"Azərbaycan Respublikası Dövlət Mülki Aviasiya Administrasiyası və Özbəkistan Respublikası Uçuşların Təhlükəsizliyinə Nəzarət üzrə Dövlət Müfəttişliyi (Dövlətavianəzarət) arasında aviasiya personalı şəhadətnamələrinin qarşılıqlı tanınması haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 330

"Azərbaycan Respublikası Baş Prokurorluğu və Özbəkistan Respublikası Baş Prokurorluğu arasında əməkdaşlıq və hüquqi yardım haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 330

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və Özbəkistan Milli Teleradio Şirkəti arasında Əməkdaşlıq Sazişi"ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 331

"Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi və Özbəkistan Respublikası Daxili İşlər Nazirliyinin 2010-2012-ci illərdə qarşılıqlı fəaliyyəti haqqında Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 331

"Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında 2011-2015-ci illər üzrə iqtisadi əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 332

2005-ci il aprelin 21-də Bakı şəhərində imzalanmış "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Sazişin Tərəflərinin Hökumətləri arasında TRASEKA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin (TRASEKA HAK DK) birgə maliyyələşdirilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 332

Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Sazişin Tərəflərinin Hökumətləri arasında TRASEKA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin (TRASEKA HAK DK) birgə maliyyələşdirilməsi haqqında Saziş 332

"Azərbaycan Respublikası hökuməti və Avstriya Federal hökuməti arasında diplomatik və xidməti pasportlara malik olan vətəndaşların vizasız gediş-gəlişi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 337

Azərbaycan Respublikası Hökuməti və Avstriya Federal Hökuməti arasında diplomatik və xidməti pasportlara malik olan vətəndaşların vizasız gediş-gəlişi haqqında Saziş 338

"Azərbaycan Respublikası hökuməti və Birləşmiş Ərəb Əmirlikləri hökuməti arasında diplomatik pasportlara malik olan şəxslərin giriş vizasından azad edilməsi haqqında" Anlaşma Memorandumunun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 341

Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında diplomatik pasportlara malik olan şəxslərin giriş vizasından azad edilməsi haqqında Anlaşma Memorandumu 341

"Azərbaycan Respublikası hökuməti və Misir Ərəb Respublikası hökuməti arasında diplomatik, xidməti və xüsusi pasportlara malik şəxslər üçün vizaların ləğv edilməsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 343

Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti arasında diplomatik, xidməti və xüsusi pasportlara malik şəxslər üçün vizaların ləğv edilməsi haqqında Saziş 343

"Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin əməkçi miqrantlarının və onların ailə üzvlərinin hüquqi statusu haqqında" Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 345

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin əməkçi miqrantlarının və onların ailə üzvlərinin hüquqi statusu haqqında Konvensiya 346

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin əməkçi miqrantlarının və onların ailə üzvlərinin hüquqi statusu haqqında Konvensiyaya dair Azərbaycan Respublikasının qeyd-şərti 355

MDB-nin iştirakçısı olan dövlətlərin əməkçi miqrantları və onların ailə üzvlərinin hüquqi statusu haqqında Konvensiyaya dair Qazaxıstan Respublikasının qeyd-şərti 355

"Azərbaycan Respublikası hökuməti və Avropa Birliyi arasında hava xidmətlərinin müəyyən aspektlərinə dair" Sazişin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 355

Azərbaycan Respublikası hökuməti və Avropa Birliyi arasında hava xidmətlərinin müəyyən aspektlərinə dair Saziş 356

"Azərbaycan Respublikası hökuməti və Çexiya Respublikası hökuməti arasında hava nəqliyyatı haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 365

Azərbaycan Respublikası hökuməti və Çexiya Respublikası hökuməti arasında hava nəqliyyatı haqqında Saziş 365

Azərbaycan Respublikası Prezidentinin və Belarus Respublikası Prezidentinin Birgə Bəyannaməsinin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 380

Azərbaycan Respublikası Prezidentinin və Belarus Respublikası Prezidentinin Birgə Bəyannaməsi 380

"Azərbaycan Respublikası hökuməti və Belarus Respublikası hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 383

Azərbaycan Respublikası hökuməti və Belarus Respublikası hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş 383

Azərbaycan Respublikası Prezidentinin və Serbiya Respublikası Prezidentinin Birgə Bəyanatının təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 390

Azərbaycan Respublikası Prezidentinin və Serbiya Respublikası Prezidentinin Birgə Bəyanatı .. 391

"Azərbaycan Respublikası hökuməti və Serbiya Respublikası hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında" Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 393

Azərbaycan Respublikası hökuməti və Serbiya Respublikası hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında Konvensiya 393

"Azərbaycan Respublikası hökuməti və Serbiya Respublikası hökuməti arasında diplomatik və xidməti/rəsmi pasportlara malik şəxslər üçün vizaların ləğv edilməsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 412

Azərbaycan Respublikası Hökuməti və Serbiya Respublikası Hökuməti arasında diplomatik və xidməti/rəsmi pasportlara malik şəxslər üçün vizaların ləğv edilməsi haqqında Saziş 412

"Azərbaycan Respublikası hökuməti və Serbiya Respublikası hökuməti arasında ticarət və iqtisadi əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu .. 414

Azərbaycan Respublikası Hökuməti və Serbiya Respublikası Hökuməti arasında ticarət və iqtisadi əməkdaşlıq haqqında Saziş 414

"Azərbaycan Respublikası hökuməti və Serbiya Respublikası hökuməti arasında cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 417

Azərbaycan Respublikası hökuməti və Serbiya Respublikası hökuməti arasında cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş 418

"Azərbaycan Respublikası hökuməti və Finlandiya Respublikası hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 421

Azərbaycan Respublikası Hökuməti və Finlandiya Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş 422

Azərbaycan Respublikası Hökuməti və Finlandiya Respublikası Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı yardım və əməkdaşlıq haqqında Sazişə əlavə Məlumatın qorunmasının əsas prinsipləri 432

"Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi və "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə uyğun olaraq xidməti pasport almaq hüququ olan vəzifəli şəxslərin siyahısının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 1995-ci il 13 iyun tarixli 1053 nömrəli qərarının qüvvədən düşmüş hesab edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 434

Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"nə və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əlavələr və dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 435

"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Monqolustan Baş Gömrük İdarəsi arasında kadrların peşəkar hazırlığı və ixtisasının artırılması sahəsində əməkdaşlıq haqqında Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 436

2010-cu il iyulun 15-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Portuqaliya Respublikasının Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələr haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 437

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Portuqaliya Respublikasının Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələr haqqında Anlaşma Memorandumu 437

Azərbaycan Respublikası və Mavritaniya İslam Respublikası arasında 2010-cu il iyulun 15-də Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 439

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Mavritaniya İslam Respublikasının Ticarət, Ənənəvi Sənaye və Turizm Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş 439

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Mavritaniya İslam Respublikasının Kəndlərin İnkişafı Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş 441

2010-cu il iyulun 13-də Ankara şəhərində imzalanmış "Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi və Türkiyə Respublikasının Kapital Bazarı Şurası arasında əməkdaşlıq və informasiya mübadiləsi haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 443

Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi və Türkiyə Respublikasının Kapital Bazarı Şurası arasında əməkdaşlıq və informasiya mübadiləsi haqqında Anlaşma Memorandumu 443

2010-cu il sentyabrın 1-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Avstriya Respublikası Federal Maliyyə Nazirliyi arasında gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 448

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Avstriya Respublikası Federal Maliyyə Nazirliyi arasında gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu 449

"Azərbaycan Respublikası Hökuməti və Kuba Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 451

"Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Meksika Birləşmiş Ştatlarının Rabitə və Nəqliyyat Katibliyi arasında telekommunikasiya və informasiya-kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 452

"Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi və Koreya Respublikası Strategiya və Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 452

E.H.Zeynalovun Azərbaycan Respublikasının Bolqarıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 453

E.Z.Kərimovun Azərbaycan Respublikasının İtaliya Respublikasında, San Marino Respublikasında, Malta Respublikasında fövqəladə və səlahiyyətli səfiri və Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Ümumdünya Ərzaq Proqramı, Kənd Təsərrüfatı üzrə İnkişaf Fondu yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 453

E.Z.Kərimovun Azərbaycan Respublikasının Bolqarıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . 453

T.N.Zülfüqarovun Azərbaycan Respublikasının Latviya Respublikasında və iqamətgahı Riqa şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Estoniya Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifələrindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 454

T.N.Zülfüqarovun Azərbaycan Respublikasının Estoniya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . 454

E.H.Zeynalovun Azərbaycan Respublikasının Latviya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . 454

H.N.Nəcəfova birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 455

H.N.Nəcəfovun Gürcüstanın Batumi şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 455

Birləşmiş Millətlər Təşkilatının "Əlillərin hüquqları haqqında" Konvensiyasına uyğun olaraq Azərbaycan Respublikasının qəbul etdiyi öhdəliklərin yerinə yetirilməsi ilə bağlı ilk hesabatın hazırlanması və təqdim olunması barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . 455

"Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Belarus Respublikasının İqtisadiyyat Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 457

Azərbaycan Respublikasının Türkiyə Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri F.N. Bağırovun iqamətgahı Ankara şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Makedoniya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 457

Azərbaycan Respublikasının Meksika Birləşmiş Ştatlarında Fövqəladə və Səlahiyyətli Səfiri İ.Y. Muxtarovun iqamətgahı Mexiko şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Kolumbiya Respublikasında və Panama Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 458

Azərbaycan Respublikasının Cənubi Afrika Respublikasında (Pretoriya şəhərində) Səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu. 458

Azərbaycan Respublikasının Braziliya Federativ Respublikasında (Brazilia şəhərində) Səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu. 458

Azərbaycan Respublikasının İraq Respublikasında (Bağdad şəhərində) Səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 459

Azərbaycan Respublikasının Vyetnam Sosialist Respublikasında (Hanoy şəhərində) Səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu. 459

Azərbaycan Respublikası Prezidentinin və Mavritaniya İslam Respublikası Prezidentinin Birgə Bəyannaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu. 459

Azərbaycan Respublikası Prezidentinin və Mavritaniya İslam Respublikası Prezidentinin Birgə Bəyannaməsi. 459

"Azərbaycan Respublikası hökuməti və Mavritaniya İslam Respublikası hökuməti arasında energetika sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 461

Azərbaycan Respublikası Hökuməti və Mavritaniya İslam Respublikası Hökuməti arasında energetika sahəsində əməkdaşlıq haqqında Saziş 462

"Azərbaycan Respublikası hökuməti və Mavritaniya İslam Respublikası hökuməti arasında ticarət və iqtisadi əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 463

Azərbaycan Respublikası Hökuməti və Mavritaniya İslam Respublikası Hökuməti arasında ticarət və iqtisadi əməkdaşlıq haqqında Saziş 463

"Azərbaycan Respublikası hökuməti və Mavritaniya İslam Respublikası hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 465

Azərbaycan Respublikası Hökuməti və Mavritaniya İslam Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Saziş. 465

"Azərbaycan Respublikası hökuməti və Mavritaniya İslam Respublikası hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 469

Azərbaycan Respublikası Hökuməti və Mavritaniya İslam Respublikası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş 469

Emmit Riçard Art Makhaffinin Amerika Birləşmiş Ştatlarının Santa Fe şəhərində Azərbaycan Respublikasının fəxri konsulu təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 473

V.İ. Sadıqovun Azərbaycan Respublikasının İtaliya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 473

"Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 29 yanvar tarixli 16 nömrəli Fərmanına əlavə edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 473

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və Ukrayna Milli Teleşirkəti arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 474

Azərbaycan Respublikasının Yunanıstan Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri R.S.Mustafayevin iqamətgahı Afina şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Albaniya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 474

Azərbaycan Respublikasının Misir Ərəb Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri Ş.Ş.Abdullayevin eyni zamanda Azərbaycan Respublikasının Ərəb Dövlətləri Liqası yanında Daimi müşahidəçisi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 475

2010-cu il fevralın 1-də Vaşinqton şəhərində imzalanmış "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Amerika Birləşmiş Ştatları Müdafiə Departamenti arasında məlumat mübadiləsi haqqında Saziş"in qüvvədəolma müddətinin uzadılmasına dair 1 saylı Protokol"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 475

"Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və İtaliya Respublikasının Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmləri sahəsində Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 476

"Azərbaycan Respublikası Hökuməti və BMT-nin Təhsil, Elm və Mədəniyyət üzrə Təşkilatı (YUNESKO) arasında Yaponiyanın İnsan Resursları İmkanlarının Gücləndirilməsi üzrə İnam Fondunun Layihəsi üçün Əməliyyat Planına dair Müqavilə"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 476

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Çin Xalq Respublikası Müdafiə Nazirliyi arasında Çin tərəfindən Azərbaycana təməmnasız hərbi yardım göstərilməsi haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ... 477

"Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Fələstin Dövlətinin Xarici İşlər Nazirliyi arasında Fələstin Dövlətinin Azərbaycan Respublikasındakı Səfirliyinin fəaliyyətinə maddi-texniki yardım göstərilməsi haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 477

2010-cu il sentyabrın 17-də Sankt-Peterburq şəhərində imzalanmış "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Rusiya Federasiyasının Daxili İşlər Nazirliyi arasında 2011-2012-ci illər üçün qarşılıqlı fəaliyyət haqqında Protokol"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 478

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Rusiya Federasiyasının Daxili İşlər Nazirliyi arasında 2011-2012-ci illər üçün qarşılıqlı fəaliyyət haqqında Protokol 478

2008-ci il oktyabrın 10-da Bişkek şəhərində Azərbaycan Respublikası tərəfindən qeyd-şərt ilə imzalanmış "Dövlət tərəfindən mühafizə olunmalı şəxslərin təhlükəsizliyinin təmin edilməsi sahəsində Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin qarşılıqlı fəaliyyəti haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 481

Dövlət tərəfindən mühafizə olunman şəxslərin təhlükəsizliyinin təmin edilməsi sahəsində Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin qarşılıqlı fəaliyyəti haqqında Saziş ... 482

"Dövlət tərəfindən mühafizə olunmalı şəxslərin təhlükəsizliyinin təmin edilməsi sahəsində Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin qarşılıqlı fəaliyyəti haqqında Saziş"ə dair Azərbaycan Respublikasının qeyd-şərti 487

"Dövlət tərəfindən mühafizə olunmalı şəxslərin təhlükəsizliyinin təmin edilməsi sahəsində Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin qarşılıqlı fəaliyyəti haqqında Saziş" barədə Azərbaycan Respublikasının qeyd-şərtinə Ermənistan Respublikasının etirazı 488

"Dövlət tərəfindən mühafizə olunmalı şəxslərin təhlükəsizliyinin təmin edilməsi sahəsində Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin qarşılıqlı fəaliyyəti haqqında Saziş" barədə MDB Dövlət Başçıları Şurasının Qərarına Moldova Respublikasının qeyd-şərti 488

Azərbaycan Respublikasının Cənubi Afrika Respublikasında (Pretoriya şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı .. 489

Azərbaycan Respublikasının Braziliya Federativ Respublikasında (Brazilia şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 489

Azərbaycan Respublikasının Vyetnam Sosialist Respublikasında (Hanoy şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı .. 490

Azərbaycan Respublikasının İtaliya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri V.İ.Sadıqovun eyni zamanda Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Ümumdünya Ərzaq Proqramı, Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fondu yanında Daimi nümayəndəsi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 490

"Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi və "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə uyğun olaraq xidməti pasport almaq hüququ olan vəzifəli şəxslərin siyahısının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 1995-ci il 13 iyun tarixli 1053 nömrəli qərarının qüvvədən düşmüş hesab edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı 491

"Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"nə və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əlavələr və dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2010-cu il 30 sentyabr tarixli 1076-IIIQD nömrəli Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı 492

Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və İspaniya Krallığının Ali İdman Şurası arasında idman sahəsində əməkdaşlığa dair Memorandum"u imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 493

"Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Argentina Respublikasının Xarici İşlər, Beynəlxalq Ticarət və Etiqad Nazirliyi arasında siyasi məsləhətləşmələr haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 494

"Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyası və Argentina Respublikası Xarici İşlər, Beynəlxalq Ticarət və Etiqad Nazirliyinin Diplomatik Xidmət İnstitutu arasında əməkdaşlıq haqqında Memorandum"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 494

K.T.Xasiyevin Azərbaycan Respublikasının NATO yanında Nümayəndəliyinin başçısı vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 495

K.T.Xasiyevin Azərbaycan Respublikasının Xorvatiya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı .. 495

"Azərbaycan Respublikasının xarici ölkədəki diplomatik nümayəndəliyinin tabeliyində olan mədəniyyət mərkəzi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı 495

Azərbaycan Respublikasının xarici ölkədəki diplomatik nümayəndəliyinin tabeliyində olan mədəniyyət mərkəzi haqqında Əsasnamə 496

Azərbaycan Respublikasının Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı arasında "Xəzər dənizi: tükənməkdə olan balıq ehtiyatlarının bərpası və daimi regional ətraf mühit idarəçiliyinin gücləndirilməsi" layihə sənədini Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı 499

"Azərbaycan Respublikası Hökuməti və İtaliya Respublikası Hökuməti arasında diplomatik və xidməti pasportlara malik şəxslərin viza tələbindən azad edilməsi haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 500

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında hərbi maliyyə əməkdaşlığı haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 500

Azərbaycan Respublikasının İtaliya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri V.İ.Sadıqovun iqamətgahı Roma şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Malta Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 501

Azərbaycan Respublikasının İtaliya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri V.İ.Sadıqovun iqamətgahı Roma şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının San Marino Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 501

Türkdilli Ölkələrin Dövlət Başçılarının X Zirvə Toplantısının Bəyannaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 502

Türkdilli Ölkələrin Dövlət Başçılarının X Zirvə Toplantısının Bəyannaməsi (İstanbul, 16 sentyabr 2010-cu il) 502

"Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında" Müqavilənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ... 509

Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə 509

"Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yaradılması haqqında" Birgə Bəyannamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 514

Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yaradılması haqqında Birgə Bəyannamə 515

Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya Prezidentlərinin və Macarıstanın Baş nazirinin Bakı Bəyannaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 517

Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya Prezidentlərinin və Macarıstanın Baş nazirinin Bakı Bəyannaməsi 517

Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dövlət sərhədi haqqında" Müqavilənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 518

Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dövlət sərhədi haqqında Müqavilə .. 519

"Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında Samur transsərhəd çayının su ehtiyatlarının səmərəli istifadəsi və mühafizəsi sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 520

Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında Samur transsərhəd çayının su ehtiyatlarının səmərəli istifadəsi və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş 521

"Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatlarının "Uşaqların Xilası" ("Save the Children") Təşkilatı arasında Uşaq və Ailələrə Dəstək mərkəzlərinin təhvili haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 527

2009-cu il oktyabrın 9-da Kişinyov şəhərində imzalanmış "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin veteranlar təşkilatları haqqında Qərar"ın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 527

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin veteranlar təşkilatları haqqında Qərar 9 oktyabr 2009-cu il Kişinyov şəhəri 528

"Müstəqil dövlətlərin veteranların (təqaüdçülərin) ictimai təşkilatlarının birliyi" Beynəlxalq ittifaqının Əlaqələndirmə şurasının fəaliyyəti haqqında Məlumat 529

MDB Dövlət başçıları Şurasının Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin veteranlar təşkilatları haqqında Qərarına dair Moldova Respublikasının qeyd-şərti 532

MDB Dövlət başçıları Şurasının iclasının gündəliyinin 4-cü bəndinə dair Ukraynanın qeyd-şərti 532

Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında 2010-cu il sentyabrın 27-də Daşkənd şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 533

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi və Özbəkistan Respublikası Daxili İşlər Nazirliyinin 2010-2012-ci illərdə qarşılıqlı fəaliyyəti haqqında Protokol 533

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Özbəkistan Respublikası Xarici İşlər Nazirliyi arasında 2010-2012-ci illər üçün Əməkdaşlıq Proqramı 536

Azərbaycan Respublikası Dövlət Mülki Aviasiya Administrasiyası və Özbəkistan Respublikası Uçuşların Təhlükəsizliyinə Nəzarət üzrə Dövlət Müfəttişliyi (Dövlətavianəzarət) arasında aviasiya personalı şəhadətnamələrinin qarşılıqlı tanınması haqqında Saziş 537

Azərbaycan Respublikası Baş Prokurorluğu və Özbəkistan Respublikası Baş Prokurorluğu arasında əməkdaşlıq və hüquqi yardım haqqında Saziş 542

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və Özbəkistan Milli Teleradio Şirkəti arasında Əməkdaşlıq Sazişi 543

Azərbaycan Milli Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutu və Özbəkistan Rəssamlıq Akademiyası arasında əməkdaşlıq haqqında Müqavilə 545

2010-cu il sentyabrın 23-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və Bolqarıstan Respublikasının Özəlləşdirmə və Özəlləşdirmədənsonra Nəzarət Agentliyi arasında əməkdaşlıq haqqında Memorandum"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 547

Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və Bolqarıstan Respublikasının Özəlləşdirmə və Özəlləşdirmədən sonra Nəzarət Agentliyi arasında əməkdaşlıq haqqında Memorandum 548

2010-cu il oktyabrın 8-də Havana şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Kuba Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 549

Azərbaycan Respublikası Hökuməti və Kuba Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş 549

2010-cu il oktyabrın 12-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və Koreya Respublikasının Strategiya və Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 552

Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və Koreya Respublikasının Strategiya və Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu 552

2010-cu il oktyabrın 12-də Mexiko şəhərində imzalanmış "Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Meksika Birləşmiş Ştatlarının Rabitə və Nəqliyyat Katibliyi arasında telekommunikasiya və informasiya-kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 554

Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Meksika Birləşmiş Ştatlarının Rabitə və Nəqliyyat Katibliyi arasında telekommunikasiya və informasiya-kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş 554

2010-cu il oktyabrın 28-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Monqolustan Baş Gömrük İdarəsi arasında kadrların peşəkar hazırlığı və ixtisasının artırılması sahəsində əməkdaşlıq haqqında Protokol"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 558

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Monqolustan Baş Gömrük İdarəsi arasındakadrların peşəkar hazırlığı və ixtisasının artırılması sahəsində əməkdaşlıq haqqında Protokol 559

Azərbaycan Respublikası və Ukrayna arasında 2010-cu il oktyabrın 28-də Kiyev şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 560

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Ukraynanın Xarici İşlər Nazirliyi arasında arxiv işi sahəsində əməkdaşlıq haqqında Saziş 561

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və Ukrayna Milli Teleşirkəti arasında əməkdaşlıq haqqında Saziş 562

2010-cu il noyabrın 10-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və İraq Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı... 566

Azərbaycan Respublikası Hökuməti və İraq Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq haqqında Saziş 567

2010-cu il noyabrın 15-dəŞtutqart şəhərində imzalanmış "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Amerika Birləşmiş Ştatlarının Avropa Komandanlığı arasında hərbi əməkdaşlıq üzrə İş Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 569

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Amerika Birləşmiş Ştatlarının Avropa Komandanlığı arasında hərbi əməkdaşlıq üzrə İş Planı 569

2010-cu il noyabrın 17-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında enerji və nəqliyyat sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 574

Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında enerji və nəqliyyat sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu 574